ƏSMƏD MUXTAROVA

# TÜRK XALQLARININ TARİXİ
## (qədim dövr və orta əsrlər)

4866

*Ali məktəblər üçün dərslik*

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 5 yanvar 1999-cu il tarixli 10 saylı əmrinə əsasən çapa məsləhət görülmüşdür*

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı 2008

Az
M 85

*Elmi redaktorlar:* **Qiyasəddin Qeybullayev,** *tarix elmləri doktoru*
**Mirheydər Mirzəyev,** *tarix elmləri namizədi, dosent*

*Rəyçilər:* **Məhəd Sofiyev,** *tarix elmləri doktoru, professor*
**Seyidağa Onullahi,** *tarix elmləri doktoru, professor*
**İsmayıl Məmmədov,** *tarix elmləri doktoru, professor*
**Sənubər İsmayılova,** *tarix elmləri namizədi, dosent*

M 85 **Əsməd Muxtarova. Türk xalqlarının tarixi** (qədim dövr və orta əsrlər). *Ali məktəblər üçün dərslik.* Bakı, "Adiloğlu" nəşriyyatı - 2008, 448 səh.

Dərslik türk xalqlarının qədim dövrdə və orta əsrlərdə etnik tarixi, dövlətçilik ənənələri, sosial-iqtisadi həyatları və mədəniyyətləri barədədir.

Dərslik tarix müəllimləri, ali məktəb tələbələri, aspirantlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

M $\frac{4319129111}{121\text{-}2008}$ qrifli nəşr

© Ə Muxtarova, 2008

## KİTABIN İÇİNDƏKİLƏR

Redaktorlardan ..... 7
Müəllifdən ..... 10
Türk xalqları tarixinin mənbələri və tarixşünaslığı ..... 19

***I hissə.***
***Ən qədim dövrlərdən e.ə. I minilliyə qədər***

*I fəsil.* QƏRBİ TÜRKÜSTAN VƏ QAZAXISTAN ..... 61
§1."Türküstan" tarixi-coğrafi anlayışı ..... 61
§2. Qərbi Türküstan və Qazaxıstan ..... 63

*II fəsil.* ŞƏRQİ TÜRKÜSTAN, MONQOLUSTAN VƏ SİBİR ..... 85
§ 1. Şərqi Türküstan ..... 85
§2. Monqolustan ..... 89
§ 3. Sibir ..... 97

***II hissə.***
***Eradan əvvəl I minillik***

*I fəsil* MƏRKƏZİ ASİYA VƏ QAZAXISTAN e.ə.I MİNİLLİKDƏ ..... 113
§1. Etnosiyasi durum ..... 113
§2. Sakların İran işğalına qarşı mübarizəsi ..... 120
§3. Makedoniyalı İsgəndərin Mərkəzi Asiya işğalları ..... 122
§4. Selevklər dövləti ..... 123
§5. Yunan-Baktriya dövləti ..... 124
§6. Parfiya dövləti ..... 126
§7. Şərqi Hun imperiyası ..... 128
§8. Kanq dövləti ..... 132
§9. Usunlar və Usun dövləti ..... 137
§10. Kuşan dövləti ..... 141

*II fəsil* CƏNUB-ŞƏRQİ AVROPA e.ə.I – ERANIN I MİNİLLİYİNİN ƏVVƏLLƏRİNDƏ ..... 149

### *III hissə.*
### Erkən orta əsrlər
#### Türküstan erkən orta əsrlərdə


*I fəsil.* EFTALİLƏR DÖVLƏTİ ........ 161
*II fəsil.* TÜRKÜSTAN VƏ ƏRƏB XİLAFƏTİ ........ 173
§ 1. Mərkəzi Asiyada ərəb işğalı ........ 173
§2. Türküstanda Ərəb xilafətinə qarşı xalq hərəkatı ........ 177
*III fəsil.* IX-XII ƏSRLƏRDƏ QƏRBİ TÜRKÜSTANDA TÜRK DÖVLƏTLƏRİ ........ 181
§1. Türkəş xaqanlığı ........ 181
§2. Karluk xaqanlığı ........ 182
§3. Samanilər dövləti ........ 184
§4. Qəznəlilər dövləti ........ 186
§5. Qaraxanilər dövləti ........ 189
§6. Kidanlar dövləti ........ 193
§7. Xarəzmşahlıq ........ 200
§8. Oğuz dövləti ........ 203
§9. Osmanlı dövləti ........ 208
*IV fəsil.* MƏRKƏZİ ASİYADA, ALTAYDA VƏ QƏRBİ SİBİRDƏ TÜRK DÖVLƏTLƏRİ ........ 213
§1. Telç xaqanlığı ........ 213
§2. Suçan xaqanlığı ........ 214
§3. Türk xaqanlığı ........ 216
§4. Uyğur xaqanlığı ........ 228
§5. Qırğız xaqanlığı ........ 235
*V fəsil.* ŞƏRQİ AVROPADA TÜRK DÖVLƏTLƏRİ ........ 239
§1. Qərbi Hun imperiyası ........ 239
§2. Avar xaqanlığı ........ 252
§3. Suvar çarlığı ........ 256
§4. Dunay Bolqar dövləti ........ 257
§5. Xəzər xaqanlığı ........ 261
*VI fəsil.* ŞƏRQİ AVROPADA TÜRK TAYFA BİRLƏŞMƏLƏRİ ........ 265
§1. Peçeneqlər və kəngərlər ........ 265
§2. Kumanlar ........ 272
§3. Uzlar ........ 273
§4. Гыпчаглар ........ 274
§5. Гагаузлар ........ 277





*VII fəsil.* VOLQABOYU VƏ QƏRBİ SİBİRİN TÜRK XALQLARI VƏ DÖVLƏTLƏRİ ........ 279
§1. Volqaboyu Bulqar dövləti ........ 279
§2. Volqaboyu türk xalqları ........ 281
§3. Kimak dövləti ........ 288
*VIII fəsil.* ŞİMALİ QAFQAZIN TÜRK XALQLARI ........ 289
§1. Kumıklar ........ 289
§2. Noqaylar ........ 291
§3. Qaraçaylar ........ 292
§4. Balkanlar ........ 293
*IX fəsil.* QƏDİM DÖVRDƏ VƏ ERKƏN ORTA ƏSRLƏRDƏ TÜRK MƏDƏNİYYƏTİ ........ 295


### *IV hissə*
### *Son orta əsrlər*
#### *Türküstanda və Qazaxıstanda türk dövlətləri*


*I fəsil.* MONQOL İŞĞALLARI. MONQOL İMPERİYASININ *YARANMASI* ........ 321
§1. Monqol işğalları. Monqol imperiyasının yaranması ........ 321
§2. Cağatay ulusu ........ 335
§3. Xaydu dövləti ........ 336
§4. Monqolistan dövləti ........ 341
*II fəsil.* CƏNUĞ-ŞƏRQİ AVROPADA MONQOL İŞĞALLARI ........ 343
§1. Qızıl Orda dövləti ........ 343
§2. Noqay dövləti ........ 348
§3. Noqay Ordası ........ 348
§4. Ağ Orda ........ 350
§5. Qazan xanlığı ........ 351
§6. Həştərxan xanlığı ........ 356
§7. Krım xanlığı ........ 357
*III fəsil.* TEYMURUN İMPERİYASI ........ 361
§1. Teymurun işğalları. Teymur imperiyasının yaranması ........ 361
§2. Özbək xanlığı ........ 373
§3. Şeybanilər dövləti ........ 377
*IV fəsil.* QAZAXISTAN ORTA ƏSRLƏRDƏ ........ 387
§1. Qazax tayfaları (Yuzlar) ........ 387
§2. Qazax xanlığı ........ 388

*V fəsil.* QƏRBİ SİBİR, ALTAY VƏ ŞƏRQİ SİBİRİN TÜRK DÖVLƏTLƏRİ VƏ TÜRK TAYFALARI ..... 393
§1. Tuva ..... 393
§2. Tümən xanlığı ..... 395
§3. Sibir tatar xanlığı ..... 396
§4. Şorlar ..... 398
§5. Xakaslar ..... 398
§6. Telə ..... 399
§7. Kurıkanlar ..... 402
§8. Altaylar ..... 403
§9. Yakutlar ..... 407
§10. Rusiyanın Sibirdə işğalçılıq siyasəti ..... 411
*VI fəsil.* ORTA ƏSRLƏRDƏ TÜRK XALQLARININ MƏDƏNİYYƏTİ ..... 413
NƏTİCƏ ..... 429
MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT ..... 431



## REDAKTORLARDAN

Bakı Dövlət Universitetinin professoru, tarix elmləri doktoru Ə.İ.Muxtarovanın yazdığı "Türk xalqlarının tarixi" dərsliyi Respublikanın ali məktəblərində son illərdə tədris olunmağa başlanmış Türk xalqlarının tarixi fənni sahəsində ilk təşəbbüsdür.

Qeyd etmək lazımdır ki, Avrasiya ərazisində yaşayan müasir türk xalqlarının tarixinə dair yığcam dərsliyin yazılması çox çətin, həm də elmi məsuliyyətli işdir. Bu çətinlik onunla bağlıdır ki, türk xalqalarının qədim dövrünə dair yazılı mənbələrin yoxluğu ucbatından Qədim Şərq mənbələrində, antik və Çin müəlliflərinin əsərlərində türk xalqlarının hazırda məskun olduqları ərazilərdə adları çəkilmiş tayfaların (qeyd edilməlidir ki, bu tayfaların adları əksər hallarda müxtəlif dillərin fonetik qanunlarına uyğun olaraq yazılışlarına görə təhriflərə məruz qalmışdır) etnik mənsubiyyətləri məsələsində tədqiqatçılarda fikir müxtəlifliyi vardır. Bu onunla bağlıdır ki, Altay dil ailəsinin Türk qoluna mənsub qədim tayfalar tarix oyu İrandilli, Qafqazdilli və Uqor-Findilli tayfalarla qonşuluqda yaşamış, müxtəlif tarixi dövrlərdə Samidilli, İrandilli və Qafqazdilli xalqların məskun olduqları ərazilərə keçərək məskunlaşmışlar. Bu isə qədim mənbələrdə haqlarında danışılan xalqların etnik mənsubiyyəti məsələsində tədqiqatçıların müxtəlif baxışlarına səbəb olmuşdur.

Xüsusilə, eradan əvvəlki minilliklərdə Ön Asiyada türk mənşəli (bəlkə də Altay dil mənşəli) tayfalarm yaşaması problemi hələ də həllini tapmamışdır. Bunu Cənubi Azərbaycan ərazisində və ona bitişik bölgələrdə e.ə. I minillikdə mövcud olmuş dövlət qurumları haqqında da demək olar. Tarixşünaslıqda bu qurumlar Hürridilli (Şimali Qafqazdilli) və İrandilli tayfalara mənsub edilir.

Qeyd olunmalıdır ki, türk xalqlarının tarixi uzun müddət Qərbi Avropa və Rus iranşünasları tərəfindən öyrənildiyinə görə Cənubi-Şərqi Avropada e.ə.I minillikdə antik mənbələr-

də adı çəkilən skit (skut), kimmer, sak, sarmat etnosları, Mərkəzi Asiyada və Qazaxıstanda həmin minillikdə yaşamış sak, massaget, alan və b. tayfalar irandillilər sayılırdılar. Bu baxış indi də tarixşünaslıqda mövqeyini saxlamaqdadır. Lakin. həmin tayfaların Altay dil ailəsinə, xüsusilə bu dil ailəsinin Türk qoluna mənsub olmaları baxışı da vardır və bu baxış da təkzib olunması çətin olan faktlara söykənir.

Beləliklə, əgər e.ə.I minillikdə Azərbaycan ərazisində mövcud olmuş dövlət qurumları, Cənub-Şərqi Avropada yaşamış skit, kimmer, sak, sarmat və Mərkəzi Asiyada sak və massaget tayfaları türk mənşəli hesab edilsə, onda türk xalqlarının qədim tarixində tamamilə başqa mənzərə alınır. Əks halda, bir sıra Qərbi Avropa və rus tarixçilərinin tədqiqatlarında olduğu kimi, türk xalqlarının tarixində ilk dövlət qurumunu e.ə.III əsrdə Mərkəzi Asiyada Hun dövləti ilə kifayətlənmək lazım gəlir.

Prof. Ə.İ.Muxtarovanın dərsliyi türk xalqlarının qədim dövrdə və orta əsrlərdə tarixinə dairbu mübahisəli problemlərin mövcud olduğu şəraitdə yazılmışdır. Lakin müəllif bizcə haqlı olaraq Cənub-Şərqi Avropada və Mərkəzi Asiyada e.ə.I minillikdə yaşamış iskit, kimmer, sak, sarmat, massqet və b. tayfaların türkdilli olması baxışının tərəfində durmuşdur (əlbəttə bu tayfaların tərkibində bəzi irandilli tayfaların olması istisna edilmir).

Dərslik müasir türk xalqlarının tarixinə dair ümumiləşdirilmiş əsər olmaq etibarilə mövcud tədqiqatlara əsaslanmışdır. Aydın görünür ki, Əsməd xanım türk xalqlarının tarixi sahəsində elmi səriştəyə və araşdırma bacarığına malikdir. Bundan əvvəl o, respublikada ilk dəfə türk xalqlarının qədim dövrdə və orta əsrlərdə tarixinə dair tədris proqramı və metodik vəsait yazıb çap etdirmişdir.

Bizin fikrimizcə, Ə.İ.Muxtarovanın dərsliyi Ali məktəblərimizdə Türk xalqlarının tarixi fənninin tədrisi üçün qiymətli vəsaitdir. Müəllifin şərəfinə onu da demək lazımdır ki, dərslik tədqiqat səviyyəsindədir.



Dərslikdə bu və ya digər türk xalqının tarixinə dair məlumatlarda çatışmazlıqların olması mümkündür. Onların müəyyən qismi yuxarıda haqqmda danışdığımız müxtəlif baxışlarla və mənbələrin azlığı (xüsusilə qədim dövrə aid mənbələrin) ilə bağlıdır.

Prof. Ə.İ.Muxtarovanın dərsliyi gələcəkdə türk xalqlarının tarixi haqqında yeni dərsliklərin yazılması üçün örnək olacaqdır. Şübhəsiz, dərslik geniş oxucu kütləsinin də diqqətini cəlb edəcək və müəllifin əməyi layiqincə qiymətləndiriləcəkdir.

Əsər göstərir ki, Əsməd xanım bacarıqlı tarixçi-tədqiqatçı olmaqla yanaşı, həm də yüksək milli mənlik şüurlu, Vətən qeyrətli qadındır. Təsadüfi deyil ki, Bakı Dövlət Universitetində nəşr olunan, tariximizin problemlərinin tədqiq olunması vəzifəsinə xidmət edən "Tarix və onun problemləri" elmi jurnalının təsisçisi və Baş redaktoru da elə Əsməd xanımdır. Azərbaycan tarixinin bütün dövrləri üzrə yüksək ixtisaslı alimləri birləşdirən bu elmi jurnalın nəşr olunmasının özü Əsməd xanım Muxtarovanın yazdığı dərsliyin elmi dəyərini şübhəsiz edir.

***Qiyasəddin Qeybullayev,***
***tarix elmləri doktoru***

***Mirheydər Mirzəyev,***
***tarix elmləri namizədi, dosent***

## MÜƏLLİFDƏN

1992-ci ildən başlayaraq Bakı Dövlət Universitetində və Azərbaycan Respublikasınm bir sıra digər ali məktəblərində "Türk xalqlarmın tarixi" adlı yeni kurs tədris olunur. Kurs qərbdə Balkan yarımadasından şərqdə Yakutiyaya (indi Saxa) qədər böyük ərazidə yaşayan türk xalqlarmın tarixi barədə tələbələrə məlumat vermək məqsədini güdür. Bu, gənclərimizin türk xalqlarının bəşər tarixində mövqeyinə və roluna bələd olmasını təmin etmək zərurətindən irəli gəlir. Türk xalqlarının qədim dövr və orta əsrlər tarixini əhatə edən bu kitab ali məktəb tələbələri üçün dərslik kimi nəzərdə tutulmuşdur. Dərslik müəllifin 1992-ci ildən başlayaraq M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetində oxuduğu mühazirələr əsasında tərtib olunmuşdur. Müəllif hələ 1993-1994-cü illərdə "Türk xalqlarmın tarixi"(qədim dövr və orta əsrlər) adlı proqram və metodik vəsait hazırlayıb çap etdirmiş və həmin vəsaitlər yeni kursun tədrisi ilə bağlı bu sahədə yaranmış böhranı qismən aradan qaldırmaqla yanaşı, müasir tələblərə cavab verən daha mükəmməl dərsliyin yazılması üçün hazırlıq mərhələsi olmuşdur. İlk mənbələr, mövcud elmi araşdırmalar və ümumiləşdirilmiş əsərlər əsasında yazılmış dərslik türk xalqlarının qədim dövrdə və orta əsrlərdə tarixi haqqında ümumi məlumat vermək məqsədini güdür.

Qeyd edilməlidir ki, türk xalqlarının bəşər tarixində yeri və mövqeyi indiyədək çox səthi, bir qayda olaraq Hind-Avropa dil ailəsinə mənsub xalqların kölgəsində tədqiq olunmuş, sistemli şəkildə isə 90-cı illərin əvvəllərinə qədər tədris olunmamışdır. Tarixi ədəbiyyatda bir qayda olaraq türk xalqlarının vətəninin Mərkəzi Asiya olması və türk dövlətlərinin tarixinin e.ə.III əsrdə Mərkəzi Asiyada Hun dövlətinin yaranması ilə başlandığı göstərilir. Halbuki son tədqiqatlarda prototürklərin ilk vətəninin Ön Asiyada olması, e.ə.VIII-VI minilliklərdə onların buradan yayılaraq Mərkəzi Asiya və Altaya çatması və burada monqol irqinə rastlaşması fikri irəli sürülmüşdür[1]. Son dövrlərdə e.ə.IV minillikdən (ola bilsin ki, daha qədimdən) Dəclə və Fərat çayları arasında məskunlaşan şumerlərin, e.ə.III-II minilliklərdə Cənubi Azərbaycan ərazisində yaşamış kuti, lulubi, turukku və b. tayfaların, e.ə.II minilliyin əvvəllərində Mərkəzi Asiyadan gələrək, Cənubi Azərbaycan ərazisində və ona qonşu bölgələrdə yaşamış kasların[2] türkmənşəli olmaları ilə bağlı mülahizələr irəli sürülmüşdür.

Belə fikir də irəli sürülür ki, e.ə.I minilliyin VIII-VII əsrlərində Mərkəzi Asiya və Qazaxıstan ərazilərində, Qara dənizin şimal çöllərində yaşamış və qədim mənbələrdə skif (skit), kimmer, sak, massaqet, sarmat və b. adlarla məlum etnoslar da türk mənşəli idilər[3]. Məsələn, eranın ilk əsrlərindən başlayaraq, antik müəlliflərin əsərlərində və Çin mənbələrində adı çəkilən Alan tayfa birləşməsinin etnik mənsubiyyəti məsələsinə qısa nəzər salaq. İş burasındadır ki, Osetin və Rus tarixçilərinin əsərlərində özünüadlandırması "allon" ("Ari" etnonimindən) olan və hazırda Şimali Qafqazda yaşayan irandilli osetinlərin ("osetin" sözü "os" etnonimindən və gürcü dilində məkan, yer bildirən "eti" şəkilçisindən ibarətdir) ulu əcdadları ilə eranın əvvəllərində Aral dənizi ilə Ural çayı arasında yaşamış alan adlı tayfa birləşməsi eyniləşdirilmişdir. Antik müəllif İosif Filavi (I əsr) alanların Cənub-Şərqi Avropada yaşayan sarmatların bir tayfası olduğunu yazmışdır. Digər antik müəllif Dion Kassi isə alanları Mərkəzi Asiyada yaşayan massaqetlərin bir tayfası kimi qeyd etmişdir. Çin mənbələrində "yantsay" adlandırılan alanlar Qərbi Qazaxıstanda Araldan qərbdə, Kanq (Çin mənbələrində "Kanqyuy") dövlətindən şimal-qərbdə lokalizə olunur və göstərilir ki, onların adətləri və silahları kanqyuylarda olduğu kimidir. "Türkmənistan tarixi" adlı ümumiləşdirilmiş əsərdə alanların türkmənlərin etnogenezində iştirak etmiş tayfalardan biri olduğu yazılmışdır[4]. İosif Filavinin Tanais (Donets çayı) və Meoti (Azov dənizi) arasında yaşayan alanları skiflərin bir hissəsi kimi qeyd etməsi də məsələyə daha da dolaşıqlıq gətirmişdir.

Şübhəsiz ki, Şimali Qafqazda yaşayan osetinlərin ulu əcdadları uzaq keçmişdə nisbətən geniş ərazidə yaşayırdılar. Tədqiqatçılar Şimali Qafqazda Koban arxeoloji mədəniyyəti-

nin məhz osetinlərin əcdadlarına məxsus olduğunu yazırlar[5]. Lakin onların Aral dənizi ilə Ural arasında böyük bir ərazidə yaşaması tarixi gerçəklik sayıla bilməz. Osetin dilinin tədqiqatçısı V.İ.Abayev açıq yazmışdır ki, osetinlərin əcdadları Şimali Qafqazda yerlidir və onların şərqdən gəlmə olması fikri yanlışdır, çünki o, osetin dilində bir sıra qədim yunan və latın sözləri aşkarlamışdır. Aydındır ki, Aral-Uralarası ərazidə yaşamış alanların yunan və latın xalqları ilə heç bir əlaqəsindən söhbət ola bilməz. Lakin bir sıra Qərbi Avropa və Rus tədqiqatçıları tərəfindən alan etnoniminin osetinlərin özünüadlandırması olan "allon" etnonimi ilə eyniləşdirmələri ucbatından Qara dənizin şimal sahillərində və Şimali Qafqazda e.ə.I minilliyin II yarısından eramızın ilk əsrlərinə (əsas etibarilə hunların Cənub-Şərqi Avropaya gəlmələrinə qədər) qədər məlum olan skiflərin və sarmatların, habelə Mərkəzi Asiya və Qazaxıstanda yaşamış sakların və massaqetlərin irandillilər sayılmaları üçün kifayət etmişdir[6]. Bu yanlış nəticə məhz antik müəlliflərin alanları etnik mənsubiyyətcə skif, sarmat və massaqetlərə aid etmələrindən alınmışdır. Tarixi həqiqət isə başqadır: saklar, sarmatlar və massaqetlər qədim türkdilli tayfalar olduqlarına görə, onlara mənsub alanlar da şübhəsiz, irandilli yox, türkdillilər idilər. Qeyd etmək lazımdır ki, Azərbaycanda, Ermənistanda və Gürcüstanda alan etnonimini əks etdirən, əhalisi azərbaycanlılardan ibarət yaşayış məntəqə adları da bu fikrə haqq qazandırır. Alan adlı türkdilli tayfa türkmənlərdə və qazaxlarda da vardır.

Deyilənlərdən aydın olur ki, türk xalqlarının qədim tarixinin əsl mənzərəsinin üzə çıxarılması üçün hələ çox iş görülməli, xüsusilə, Mərkəzi Asiya, Qazaxıstan, Cənub-Şərqi Avropa və Azərbaycan ərazilərində aşkarlanmış arxeoloji mədəniyyətlərin etnik interpretasiyasına yenidən baxılmalıdır.

Kursumuzun tədrisi ilə bağlı "Türk" anlayışı barədə ayrıca danışmaq zərurəti ortaya çıxır.

Geneoloji əlamətlərinə, yəni dillərin bir-birinə maddi qohumluqlarına görə dünyada olan dillər müxtəlif dil ailələrinə bölünür. Ən böyük dil ailələri Hind-Avropa, Altay (yaxud Ural-Altay), Sami, Uqro-Fin, Qafqaz (yaxud İber-Qafqaz) və b. dil ailələridir.



Türk xalqlarının dilləri haqqında təsnif bir qədər mübahisəlidir. Bir qrup tədqiqatçılar bu dil ailəsini Altay dil ailəsi adlandırır və bura Türk, Tunqus-Mancur və Monqol qollarını aid edirlər. Digər qrup dilçilər isə Uqro-fin dillərinin (macar, fin, eston, Sibirdə yaşayan xant, mansı və b.) Altay dil ailəsi ilə uzaq qohumluqda olduğunu söyləyir və ona görə də Ural-Altay dil ailəsinin mövcudluğunu yazırlar. Bu problem hələ diskussiya mərhələsində olduğuna görə, dərslikdə Altay dil ailəsi baxışı əsas götürülmüşdür. Türkoloqların yazdıqlarına görə bu dil ailəsi e.ə.IV minillikdə parçalanaraq, müasir türk, monqol və tunqus-mancur dillərini əmələ gətirmişdir.

Keçmiş SSRİ ərazisində yaşayan türk xalqları ərazi cəhətdən bir neçə qrupa bölünür: 1.Litvanın qərb əyalətləri, Ukrayna və Krım, Cənubi Moldova; 2.Qafqaz; 3.Volqaboyu; 4.Mərkəzi Asiya və Qazaxıstan; 5.Qərbi və Şərqi Sibir[7]. Göstərilən regionlara uyğun olaraq birinci qrupa Litva və Belorus tatarları, qaraimlər, qaqauzlar və krımçaklar; ikinci qrupa azərbaycanlılar, kumıklar, balkarlar, qaraçaylar və noqaylar; üçüncü qrupa tatarlar, başqırdlar və çuvaşlar; dördüncü qrupa özbəklər, uyğurlar, qazaxlar, qaraqalpaqlar və türkmənlər; beşinci qrupa isə Sibir tatarları, yakutlar, tuvalar, xakaslar, kamasinlər və altaylılar (Dağlıq Altayda yaşayan xırda türk xalqları) daxildir.

Bundan başqa türk xalqları Türkiyə, Bolqarıstan, Yuqoslaviya, İran (azərbaycanlılar və b.), Çin və Monqolustan ölkələrində də məskundurlar.

Türk xalqlarının tarixinin hərtərəfli və obyektiv dövrü təsnifatı yoxdur. Sovet türkologiyasında onların tarixi belə dövrləşdirilmişdir: 1.Altay dövrü (ən qədim zamanlardan eramızın IV əsrinə qədər); 2.Hun dövrü (e.ə.IV əsrdən eramızın IV-V əsrlərinə qədər); 3.Qədim türk dövrü (V-X əsrlər); 4.Türk xalqlarının təşəkkülü dövrü (X-XVI əsrlər); 5.Müasir türk xalqlarının formalaşması (XVI-XIX əsrlər); 6.Türk mil-

lətlərinin yaranması (XX əsr)[8]. Bu təsnifatın çox bəsit və həm də yanlış olması elə ilk baxışda nəzərə çarpır.

Dərslikdə qədim dövrdə və orta əsrlərdə müasir türk xalqlarının tarixi aşağıdakı kimi dövrləşdirilmişdir: 1.Ən qədim dövrlərdən e.ə.I minilliyə qədər. 2.E.ə.I minillik. 3.Erkən orta əsrlər. 4.Son orta əsrlər.

Bu təsnif, əlbəttə, bitkin sayıla bilməz, ona görə ki, e.ə.IV minillikdən başlayaraq Ön Asiyada və Cənubi Azərbaycan ərazisində mövcud olmuş bəzi dövlət qurumları (Şumer,Aratta, Kas, Manna, Maday və b.) yaradıcılarının və e.ə.I minillikdə Cənub-Şərqi Avropada kimmer, skif, sarmat, alan, Mərkəzi Asiya və Qazaxıstanda sak və massaqet etnoslarının etnik mənsubiyyəti məsələsində hələ tam aydınlıq yoxdur.

İndiki təsnifdən göründüyü kimi, hunlar türk adlandırılmır və "Türk" etnonimi yalnız V-X əsrlərdə yaşamış tayfalara aid edilir. Ona görə də, burada "Türk" etnonimi ilə əlaqədar iki məsələ ayırd edilməlidir. 1."Türk" etnoniminin ümumi mənada, yəni Altay dil ailəsinin türk qoluna mənsub qədim və müasir xalqların ümumi etnik adı kimi. Məlum olduğu kimi, müasir türk xalqlarının heç biri, Türkiyədən başqa, özünü rəsmi sənədlərdə türk adlandırmır, onlar özlərinə məsələn, "azərbaycanlı", "özbək", "türkmən", "yakut", "uyğur" və s. deyirlər. Başqa sözlə, "türk" sözü bu xalqların konkret etnik özünüadlandırması deyildir, yalnız Altay dil ailəsinin Türk qoluna mənsub dillərdə danışan xalqlarm dil mənsubiyyətinə görə ümumi adıdır. Müasir türkoloji ədəbiyyatda olduğu kimi, bu kitabda da "Türk" etnonimi bu mənada işlədilir. 2."Türk" etnonimi həm də müəyyən bir etnosun konkret adı olmuşdur. Müasir tarixşünaslıqda fikir belədir ki, özünü "türk" adlandıranlar yalnız VI əsrdən sonra məlumdur və onlar "Orxon-Yenisey abidələrində" "türk budun" kimi çəkilir. Bu fikir yanlışdır. I əsr müəllifi Plini Şimali Qafqazda sarmatların bir tayfasının "tirk" adlandığını yazmışdır (Plini, VI,19). Həmin əsrdə yaşamış Pomponi Mela bu tayfanın adını "turke" kimi qeyd etmişdir (Pomponi Mela, II,14). Qədim gürcü mənbələrində Makedoniyalı İskəndər vaxtında (e.ə. IV əsr) Kartlidə buntürk



adlı tayfanın yaşadığı göstərilir. Nədənsə, Avropa və Rus tarixçiləri bu faktları nəzərə almırlar. Burada bu mübahisəli problem ətrafında mövcud baxışların təhlili üzərində dayanmayacayıq. Bəzi türkoloji ədəbiyyatda deyildiyi kimi "türk" etnoniminin "Avesta"da (e.ə.VII) çəkilən "tur" etnoniminin sonrakı forması olması fikrinə üstünlük veririk.

Azərbaycan tədqiqatçıları Yusif Yusifov, Qiyasəddin Qeybullayev, Nizami Xudiyev, Firudin Cəlilov, Tofik Hacıyev və b. hələ e.ə.I minillikdə Cənubi Azərbaycan ərazisində Manna və Midiyada türk tayfalarının yaşadıqları fikrini irəli sürürlər. Onlar qədim şərq mənbələrində qeyd olunan çoxlu toponimlərin və şəxs adlarının qədim türk dilləri vasitəsilə mənalarını açmışlar.

Deməli, e.ə.VIII-VII əsrlərdə Cənub-Şərqi Avropada və Mərkəzi Asiyada yaşaması qeyd olunan kimmerlərin, skiflərin, sakların, sarmatların, sirakların və alanların türk olması, həm də e.ə.I minillikdə Cənubi Azərbaycan ərazisində türk etnoslarının yaşaması göstərir ki, türk xalqlarının tarixinin yenidən təsnif olunmasına ehtiyac vardır.

Kitabdan tələbələr və geniş oxucu kütləsi göstərilən dövrlərdə türk xalqlarının dövlətçilik ənənələri tarixi və onların bəşər tarixində rolu haqqında məlumatlar alacaqlar. Dərsliyin çapa hazırlanması prosesində müəllif bir sıra çətinliklərlə üzləşməli olmuşdur. Əvvələn, Azərbaycanda və başqa ölkələrdə, o sıradan Türk Respublikalarının böyük əksəriyyətində bu sahədə indiyədək xüsusi dərslik yazılmamışdır, deməli bu vəsait Respublikamızda türk xalqlarının tarixinə aid dərslik hazırlamaq üçün ilk təşəbbüsdür və müəllifin yalnız öz təcrübəsinə əsaslanaraq yazdığı əsərdir. İkincisi, dərslikdə bu və ya digər türk xalqının tarixi sahəsində son dövrlərdə yaranmış tədqiqatların və ümumiləşdirilmiş əsərlərin tam əhatə olunması obyektiv səbəblərdən mümkün olmamışdır.

Sovet imperiyası dağıldıqdan sonra respublikamızın öz müstəqilliyinə yenidən nail olduğu bu tarixi mərhələdə türk xalqlarının tarixi haqqında ümumiləşdirilmiş dərsliyin praktiki əhəmiyyəti vardır. Dərslik vasitəsilə tələbələrimiz türklərin

çoxminillik tarixi, təsərrüfat həyatı (əkinçilik, maldarlıq, sənətkarlıq) və mədəniyyəti, bəşər tarixindəki mühüm rolu ilə tanış olacaqlar ki, bu da Sovet imperiyası dövründə başqa türk xalqları ilə yanaşı, Azərbaycan xalqının da xeyli dərəcədə sarsıdılmış milli mənlik şüurunun, milli özünüdərk hissinin əqidə formasını kəsb etməsinə kömək edəcəkdir. Gənclərimizin əqidəyə çevrilmiş milli mənlik şüuruna indi ehtiyac böyükdür. Müqəddəs torpaqlarımıza göz tikmiş düşmənlə üzüzə durduğumuz bir zamanda bu xüsusi əhəmiyyət kəsb edir. Sovetlər dövründəki sovet vətənpərvərliyi, xalqlar dostluğu, Sovet həyat tərzi və s. kimi bayağı şüarların və bu istiqamətdə ideoloji işin təsiri altında ermənilərin yaxın keçmişdə xalqımıza qarşı soyqırımlarını unutduq və bununla da sayıqlığımızı itirdik. Ona görə də, Sovet quruluşu dağıldıqdan sonra ermənilərin Azərbaycana qarşı ərazi iddiaları ilə hərbi təcavüzün başlandığı vaxt adamlarımızın müəyyən hissəsində məhz milli mənlik şüurunun zəifliyi Vətənimizə baha başa gəldi, düşmən doğma torpaqlarımızın iyirmi faizini işğal etdi, bir milyondan çox həmvətənimiz qaçqın və köçkün vəziyyətə düşdü.

Türk xalqlarının minilliklərlə ölçülən tarixi və dövlətçilik ənənələri vardır. Qədim türk dillərində mövcud olmuş və qismən indi də işlədilən dövlət idarəçiliyi, hərbi iş və ordu quruculuğu terminlərinin zənginliyi buna tutarlı sübutdur. Fikrimizin aydın olması üçün həmin terminlərə qısaca nəzər salmaq kifayətdir. Apa (oba), "komandan" - alpaqut düşməni atdan saldıran. Heç vaxt yaxalanmayan igid (alp sözündən), ayquçu "vəzir", "məsləhətçi", "baş müşavir", açiq mükafat (döyüşdə igidliyə görə), açinçi "əmr edən", "hakim", adaş "döyüş dostu", aqiçi "xəzinədar", babacıq "xaqanı tərbiyə edən şəxsin rütbəsi", sonralar "atabəy", baqa "bahadur", başaq " ox ucluğu", başqan "başçı", başlıq "döyüşdə yaxalanmış", başqan "dəbilqə geymiş döyüşçü", başçuq "hərbi himi", bek "xaqan" ilə el arasında vasitəçi", buqu (buku) "sərkərdə", bekəc "şahzadə" bəgi "qəhrəman", "igid", çupan "gözətçi", "qoruyucu", "keşikçi" (fars dili mənşəli çoban "qoyun otaran" sözü ilə əlaqəsi yoxdur), erkin (irkin), xaqandan sonra, bəydən əvvəl gələn rütbə", inaq (yı nak) "dövlət işlərində yardımçı" (əsasən qədim uyğurlarda idikut "şöhrət yiyəsi (döyüşdə şöhrət qazanmış), iliq "el (xalq başçısı), iltəbər (eltəbər) "hakimiyyətə, dövlətə, millətə sahib", kaqan "dövlətin başçısı"(ilk dəfə juan-juanlarda olmuşdur), qurxan (əsli Kurxan) "el və dövlət başçısı", Kolabur "bəy nəslindən hərbi başçı, sərkərdə", katun ( xatun) "Kaqanın arvadı" (dövlət idarə işlərinə baxan qadın), kündü "baş şahzadə" (xəzərlərdə), kölük "hərbi araba", görük "düşməni müşahidə edən", küdəzçi "hərbi keşikçi, qarovul", kuyaç "ləbilqə", ordu "xan düşərgəsi", kuren "1000 alaçıqdan ibarət hərbi düşərgə", qulluq "qul saxlama", tavar "mal-qara varidatı", uruş "vuruşma, döyüş", ukan "qüllə", ulaş "çapar (hərbi xəbər aparan)", yaraq "silah","metal döyüş örtüyü", yarlıq "hərbi əmr", yarma "pul (metal pul)", irkin " bağışlanmış düşmən (düşmən tərəfdən gəlib özünü təslim edib), yağıçı "döyüşkən əsgər", bökə "igid döyüşkən", bökdə "xəncər", buluk "əsir", şad "xaqan nəslinə mənsub adam", tabqaç "ulu", "şöhrətlik, dövlətə və elə sahib adam", tarkan " hökmdardan sonra ən nüfuzlu şəxs", "dəmirçi", yüğruş "vəzir", teqin " şahzadə", yabqu "xaqandan sonra gələn, ölkənin bir hissəsi üçün məsuliyyət daşıyan və hökmdar ailəsinə mənsub hakim (ilk dəfə I Kadfizin (10-40-cı illər) pulunun üstündə çəkilmişdir (çəkilən terminlər Əbdülqadir Dölünün "əsgi türk dövlətdə inzibati, hərbi rütbə və terminlər. Bakı, 1999-cu ildə nəşr olunmuş kitabından və Древнетюркский словарь. Л., 1969. lüğətindən götürülmüşdür).

Qədim türklərin, o cümlədən azərbaycanlıların ulu əcdadlarının bəşər tarixində tutduqları mövqe və oynadıqları rol gənclərimizdə milli iftixar hissinin formalaşması üçün əsasdır. Ona görə də, bütün türk xalqlarının tarixinə dair ümumiləşdirilmiş dərsliyin yazılmasına ehtiyac vardır. Belə əsər ali məktəblərdə təhsil alan tələbələrlə yanaşı, geniş oxucu kütləsi üçün də gərəklidir.

3984
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Aydındır ki, həcmcə kiçik bir dərslikdə türk xalqlarının çoxminillik tarixinə geniş yer ayırmaq və türk xalqlarınm hər birinin ayrı-ayrılıqda tarixini əhatə etmək mümkün deyildir. Ona görə də, dərslikdə müəyyən çatışmamazlıqların olması təbiidir. Ümid edirəm ki, mütəxəssislərin və geniş oxucu kütləsinin xeyirxah fikir və mülahizələri, tənqidi qeydləri gələcəkdə dərsliyin daha mükəmməl nəşrini hazırlamaqda bizə yardımçı olacaq.

Dərslik çapa hazırlanarkən əlyazmasını oxuduqlarına və bir sıra tənqidi qeydləri və məsləhətləri ilə müəllifə yaxından kömək etdiklərinə görə, tarix elmləri doktoru Qiyasəddin Qeybullayevə və tarix elmləri namizədi, dosent Mirheydər Mirzəyevə təşəkkürümü bildirirəm.

---

[1] *Yusif Yusifov. Çin yazılı kaynaklarda eski türklerin izleri XI Türk Tarih Konqresinlen ayrıbasın. Ankara, 1994, s. 95-112.*

[2] *Kasların etno-dil mənsubiyyəti və ilkin vətəni ilə bağlı müxtəlif fikirlər mövcuddur -red. M.M.*

[3] *Bu haqda dərsliyin müvafiq bölməsində ətraflı bəhs ediləcək.*

[4] *История Туркменской ССР. Т.I.Кн.первая. Ашхабад, 1957, с.131.*

[5] *Крупнов Е.И. Об этногенезе осетин и других народов Северного Кавказа. Сб. "Против вульгаризации марксизма в археологии". М., 1953.*

[6] *Вах: Мацулевич Л.А. Аланская проблема и этногенез народов Средней Азии. "Советская этнография", VI-VII, 1947.*

[7] *Bu barədə bax:* Баскаков Н.А. Тюркские языки. «Языки народов СССР». М., 1966, с.7.

[8] *Yenə orada, s. 14-15.*



## *TÜRK XALQLARI TARİXİNİN MƏNBƏLƏRİ VƏ TARİXŞÜNASLIĞI*

Türk xalqlarının tarixinin araşdırılması bir sıra çətinliklərlə bağlıdır. Bu çətinliklər ondan irəli gəlir ki, əksər türk xalqları qədim dövrdə özünəməxsus əlifbaya və yazıya malik olmamışlar. Başqa sözlə, qədim dövrə aid türk mənşəli yazılı mənbələr yoxdur. Həm də bə'zi türk xalqları barədə qonşu xalqların mənbələrində mə'lumat azdır. Bunlara misal olaraq Altay xalqlarını, çuvaşları, xakasları, Sibir tatarlarını, yakutları və b. qeyd etmək olar. Deməli, yazılı mənbələrdə müasir türk xalqlarının heç də hamısının tarixi eyni dərəcədə əksini tapmamışdır. Ümumiyyətlə götürdükdə, hətta erkən orta əsrlərdə bir sıra türk xalqlarının tarixi haqqında yazılı mə'lumatlar səthidir. Bu boşluğu müasir türk xalqlarının yaşadığı ərazilərdə ən qədim dövrlərdən e.ə.I minilliyin sonlarına qədər böyük bir dövrün tarixini əhatə edən arxeoloji tapıntılar müəyyən dərəcədə doldurur. Ona görə də, biz əvvəlcə arxeoloji faktları qısaca nəzərdən keçirməli oluruq.

***Arxeoloji mə'lumatlar.*** Türk xalqlarının və bütövlükdə Türküstanın qədim və qismən də orta əsrlər tarixinə dair yazılı mənbələrin azlığı, bu mənbələrin böyük bir hissəsinin əcnəbi mənbələrdən (Yunan, Çin, Bizans, Ərəb və b.) ibarət olması, habelə əcnəbi mənbələrdə bu və ya digər Türküstan xalqları haqqında verilən ziddiyyətli mə'lumatlar ayrı-ayrı dövrlərin (xüsusilə qədim dövrün) araşdırılmasında ciddi problemlər yaradır. Bu problemlərin həllində arxeoloji mənbələr xüsusi əhəmiyyətə malikdir.

Qeyd edilməlidir ki, müasir türk xalqlarının məskun olduqları ərazilərdə arxeoloji tədqiqatlar XIX əsrin axırlarında başlansa da, əsas e'tibarilə II Dünya müharibəsindən sonra geniş vüs'ət almışdır. Arxeoloji qazıntılar nəticəsində Qədim daş dövründən (Paleolitdən) başlamış eranın I minilliyinin sonlarına qədərki böyük bir dövrü əhatə edən zəngin abidələr aşkar edilmişdir. Şərqi Türküstanda İsveç alimi Sven Qedinin

(1894-1897, 1899-1902, 1906-1908), Macar mənşəli ingilis mə'muru A.Steynin (1906-1908), F.Berqmanın (1928-1934) ekspedisiyaları, Qərbi Türküstanda (Türkmənistanda) 1904-cü ildən başlayaraq R.Pampellinin başçılığı ilə qazıntılar aparan amerikan arxeoloji ekspedisiyası[1], uzun müddət S.P.Tolstovun rəhbərliyi ilə fəaliyyət göstərən Xarəzm arxeoloji ekspedisiyası[2], M.E.Massonun və V.M.Massonun başçılıq etdikləri Cənubi Türkmənistan arxeoloji ekspedisiyası[3], A.P.Okladnikov və onun həmkarlarının Sibir, Şərqi Türküstan və Monqolustan ərazilərindəki arxeoloji tədqiqatları və b. xüsusilə mühüm tapıntılarla nəticələnmişdir. Daş dövrünün müxtəlif mərhələlərinə aid çoxlu insan düşərgələri və antropoloji materiallar[4], Ceytun və Anau erkən əkinçilik məskənləri, Altun-Təpə və Namazgah-Təpə kimi şəhər tipli yaşayış yerləri, bina qalıqları, təsərrüfat və məişət əşyaları, heykəltəraşlıq nümunələri, qaya rəsmləri, bitki toxumları və b. belə tapıntılardandır. Bu tapıntılar əsasında Türküstanın qədim əhalisinin təsərrüfatı, ictimai quruluşu, mədəniyyəti, ideologiyası, qonşu xalqlarla mədəni-siyasi əlaqələri, etno-dil mənsubiyyəti, adət-ən'ənələri araşdırılmış, onların müasir türk xalqları ilə etnik və mədəni bağlılığına aid çoxlu faktlar aşkar edilmişdir.

Türküstan tarixinə aid arxeoloji abidələr içərisində e.ə.I minillikdə Avrasiyanın geniş ərazisində yayılan skif kurqanları (Arjan, Pazırık, Kul-oba, Çertomlık, Tolstaya moqila və b.) mühüm yer tuturlar. Skif kurqanlarında qazıntılar XIX əsrin ortalarından başlamış, XX əsrin ortalarından isə geniş miqyas almışdır. Bu abidələrin tədqiqində A.N.Bernştamın, S.İ.Rudenkonun, L.R.Kızlasovun, A.İ.Terenojkinin, A.D.Qraçın, M.P.Qryaznovun və b. əməyi xüsusi qeyd edilməlidir. Uzaq Şərqdən Qafqaz və Şərqi Avropaya qədər geniş ərazini əhatə edən bu qazıntılar nəticəsində müasir türk xalqlarının mədəniyyəti və adət-ən'ənələri ilə səsləşən çoxlu əşyalar, o sıradan "skif heyvan stili"nə aid sənət nümunələri aşkar edilmişdir[5].

Türk xalqlarının qədim tarixinə aid zəngin maddi mədəniyyət nümunələri həmçinin Asiya və Avropa tarixində çox mühüm rol oynamış sarmat[6] və hun[7] abidələrində də tapılmışdır.



Arxeoloji materiallar türk xalqlarının erkən orta əsrlər tarixini öyrənmək üçün də son dərəcə qiymətli mənbələrdir. Qərbi Türküstanda aparılan arxeoloji qazıntılar nəticəsində (F.V.Poyarkov, V.K.Qrek, N.V.Sorokin, V.D.Qorodetski) kuşanların, xionların (eftalların) və hunların tarixinə aid çoxlu əşyalar, silahlar və pullar aşkar olunmuşdur. S.P.Tolstovun qazıntıları zamanı Sırdəryanın aşağı axarlarında, Aral gölündən şərqdə eranın ilk əsrlərində mövcud olmuş çoxlu qalalar və yaşayış məskənləri aşkar olunmuş, külli miqdarda sənət nümunələri və pullar tapılmışdır. Müəyyən edilmişdir ki, eradan əvvəlki minillikdə yaranmış bu qalalarda eranın IV-V əsrlərinə qədər yaşayış davam etmişdir. Qazıntılar zamanı Kanqa-Qala və Gunya-Qala qalalarında xionlara, saklara və massaqetlərə aid əşyalar tapılmışdır.

M.E.Massonun və V.M.Massonun arxeoloji qazıntılarının əhəmiyyəti xüsusilə qeyd olunmalıdır[8]. Onların apardıqları tədqiqatlar nəticəsində Türkmənistan, Özbəkistan və Cənubi Qazaxıstan ərazilərində erkən orta əsrlərə aid çoxlu pullar, silahlar və başqa maddi mədəniyyət nümunələri aşkara çıxarılmış, həmin əsrlərdə yaşamış əhalinin Yaxın Şərq ölkələri ilə ticarət əlaqələri araşdırılmışdır.

Qazaxıstan və Altayda erkən orta əsrlərə aid qədim abidələrin bir növü elmdə "balbal" adlanan daş kişi heykəlləridir. Eranın VIII-IX əsrlərinə aid bu heykəllər Altaydan Volqaboyuna qədər geniş bir ərazidə tapılmışdır. Tədqiqatçıların yekdil fikri belədir ki, bu heykəllər türkdilli tayfalara aiddir və döyüşlərdə həlak olmuş igidlərin qəbirlərinin üzərinə qoyulmuş abidələrdir. Belə mülahizə irəli sürülmüşdür ki, bu abidələrin mövcud olduğu ərazi adı bizə mə'lum olmayan bir türk mənşəli tayfanın məskunlaşma arealı olmuşdur. Bu məsələ L.A.Yevtyuxova tərəfindən tədqiq olunmuşdur[9].

Şərqi Sibirdə yaşayan bir çox türk xalqlarının qədim və orta əsrlər tarixinə dair yazılı mənbələr yoxdur. Həmin boşluğu yalnız arxeoloji materiallar doldurur. Məhz arxeoloji qazıntılar əsasında arxeoloq A.P.Okladnikov yakutların qədim və orta əsrlər tarixini yazmışdır[10]. Müəyyən edilmişdir ki,

onlar hələ eradan əvvəl metaldan istifadə etmiş və saxsı qablar düzəltmişlər. XVII əsrdə ruslar Yakutiyaya gələnə qədər onlar qəbilələr şəklində yaşayırdılar.

Altay və Şərqi Sibirin erkən orta əsrlər tarixinə dair bə'zi məsələlər arxeoloq S.V.Kiselyovun tədqiqatları nəticəsində araşdırılmışdır[11]. S.V.Kiselyovun və L.A.Yevtyuxovanın arxeoloji axtarışları nəticəsində[12] Dağlıq Altayda, Sayan və Alatauda, Minusin çökəkliyində erkən orta əsrlərdə yaşamış türk tayfalarının, o sıradan qırğızların təsərrüfat həyatı, sənətkarlıq və dini görüşlərinə dair çoxlu maddi mədəniyyət nümunələri tapılmışdır.

Tuva ərazisində erkən orta əsrlərə aid arxeoloji obyektlərdə S.İ.Vaynşteyn[13] və L.R.Kızlasovun qazıntıları da qeyd olunmalıdır. Bu qazıntılar zamanı Dağlıq Altayda eramızın I minilliyinə dair çoxlu maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Arxeoloji qazıntılar əsasında L.R.Kızlasov tuvaların erkən orta əsrlər tarixini yazmışdır[14]. Orta əsrlərdə Avrasiyanın mədəni-siyasi həyatında mühüm rol oynamış türklər (göytürklər), kimaklar (V.V.Bartolda görə kaymaklar), karluklar, xakaslar, uyğurlar, bulqarlar, peçeneqlər, xəzərlər və b. tarixi də arxeoloji materiallarda əks olunmuşdur. Bu xalqlara aid abidələr L.R.Kızlasov, S.A.Pletnyova, V.A.Moqilnikov və b. arxeoloqlar tərəfindən öyrənilmişdir[15].

Aşağıda biz müvafiq fəsillərdə türk xalqlarının yaşadığı ərazilərdə ən qədim dövrlərdən e.ə.I minilliyə qədər və ayrıca olaraq e.ə.I minillikdə arxeoloji tədqiqatlar barədə bir qədər ətraflı mə'lumat verəcəyik.

***Yazılı mənbələr. 1.Çin mənbələri.*** Mərkəzi Asiyanın müxtəlif türk etnosları tarix boyu Çinlə qonşuluqda yaşamışlar. Çin isə dünyanın öz əlifbası olan qədim xalqlarından biridir. Ona görə də e.ə.I minilliyin əvvəllərindən başlayaraq Çin yazılı mənbələrində qonşuluqlarında yaşayan türk tayfaları haqqında müntəzəm mə'lumatlar verilir. Lakin Çin mənbələrinin mə'lumatların bir qüsurlu cəhəti qeyd olunmalıdır. Belə ki, türk tayfalarının və ayrı-ayrı xaqanların adları Çin dilinin fonetikasına uyğunlaşdırılmış şəkildə verilmişdir.



Xüsusilə, Çin dilində "r" səsinin olmaması həmin adların əsil formalarını müəyyən etməyə çətinlik törədir. Həm də aydın olmuşdur ki, qədim Çin müəllifləri qonşuluqdakı türk tayfalarının bə'zilərini əsil adları ilə yox, özlərinin onlara verdikləri adlarla qeyd etmişlər.

Deyildiyi kimi, qədim türk tayfaları haqqında Çin mənbələrində mə'lumatlar e.ə.I minillikdən başlanır və erkən orta əsrlərin sonuna qədər davam edir. Lakin həmin mənbələr uzun müddət tədqiqatçıların diqqətindən kənarda qalmış və ilk dəfə rus çinşünası N.Y.Biçurin[16] tərəfindən rus dilinə tərcümə olunmuşdur.

Eramızın III-XIII əsrlərinə aid mənbələr əsasən aşağıdakılardır. Eramızın ilk əsrlərində müasir Monqolustan və Tuva ərazilərində yaşamış xalq Çinin Bey və Vey sülaləsinin salnamələrində "qaoqyuy" adlandırılır[17]. Tədqiqatlar göstərmişdir ki, bu ad qədim çin dilində "hündür araba" (yə'ni üstü konusvari örtüklü araba) deməkdir[18]. Deməli, salnamələrdə hündür arabalarda yaşayanlar qeyd olunur ki, bu da bə'zi tədqiqatçılara görə indiki uyğurların ulu ecdadlarıdır.

Çinin Suy (581-618) və Tan (618-907) sülalələrinin salnamələrində türklər ("Türk" etnik adını daşıyanlar) "tukyu" adlandırılır və onlarla olan müharibələrdən danışılır, həm də onların hunların nəsilləri olması göstərilir. Həqiqətdə də Tuva ərazisində arxeoloji qazıntılar nəticəsində hunlara və qədim türklərə (yə'ni Qərbi Türk xaqanlığının əhalisinə) aid abidələrdə maddi mədəniyyət əşyalarının eyniliyi müəyyən olunmuşdur. V əsrdə yaşamış Çin müəllifi Fan Ye Çində Xan sülaləsinin tarixini yazmışdır. Həmin salnamədə Mərkəzi Asiyanın xalqları haqqında az, lakin qiymətli mə'lumat verilir. X əsrdə tərtib edilmiş Tan Şu adlı Çin salnaməsi eradan əvvəlki əsrlərdən başlayaraq X əsrə qədər Çinin Mərkəzi Asiyanın türk xalqları ilə münasibətindən bəhs edir. Bu mənbədə eramızın ilk əsrlərindən başlayaraq hunlar, Eftalilər və Türk xaqanlıqları (VI-VIII əsrlər) haqqında qiymətli mə'lumatlar vardır. İndiyədək Avropa və Rus tarixşünaslığında eramızın III-V əsrlərində Mərkəzi Asiyada eftalların

(yə'ni abdalların) etnik mənsubiyyəti haqqında ziddiyyətli fikirlər vardır və onlar bu tayfanın irandilli etnos olmasını sübut etməyə çalışırlar. Lakin Çin mənbələrində eftalilərin eradan əvvəlki kuşanlarla qohumluğu göstərilir və onların alaçıqlarda yaşadıqları qeyd olunur[19]. Həqiqət budur ki, qədim türk etnoslarından olan eftalilər Mərkəzi Asiya xalqlarından qaraqalpaqların və türkmənlərin (o sıradan azərbaycanlıların, bunu Azərbaycanın hər iki hissəsində çoxlu Abdallı toponimləri də göstərir) etnogenezində iştirak etmişlər. Bu mənbədə diqqəti cəlb edən fakt odur ki, "tukyu" adlandırılan türklər hunların varisləri kimi göstərilir[20]. Sonrakı mənbələrdən isə anlaşılır ki, oğuzlar məhz Qərbi və Şərqi Türk xaqanlıqlarının yaradıcıları olan, etnik özünüadlandırması "türk" olan türklərin varisləridir. Buradan belə nəticə alınır ki, hunlar mənşəcə həm də oğuzların ulu əcdadlarıdır.

Mərkəzi Asiyanın ərəb işğalları ərəfəsində türk xalqlarının tarixi haqqında qiymətli faktlar 630-cu ildə Mərkəzi Asiyada olmuş Çin səyahətçisi Syuan Syanın yol qeydləridir. 605-617-ci illəri əhatə edən digər mənbə isə Çin imperatoru Yan-Dinin səfiri Vey Szenin hesabatıdır. Hər iki mənbədə Mərkəzi Asiyada həmin vaxtlarda yaşamış türk tayfaları, onların ictimai quruluşları, feodal müharibələri və s. haqqında danışılır.

Çin tarixçisi Lyo-Suyun başçılığı ilə tarixçilər qrupu 941-945-ci illərdə "Tan sülaləsinin qədim xronikası" adlı salnamə tərtib etmişlər. Bu mənbədə Tyan-Şan və Şərqi Türküstanda yaşayan türk tayfaları haqqında ətraflı mə'lumatlar vardır.

XI əsrdə Çin sarayının tarixçilər qrupu "Tan sülaləsinin yeni xronikası" adlı salnamə yazmışlar. Bu mənbədə Turfan, Mərkəzi Asiya, İssık-Kul, Çu və Talas çaylarının vadilərində yaşayan türk tayfaları haqqında da danışılır.

Qeyd edilməlidir ki, türk tayfaları haqqında Çin mənbələrindəki mə'lumatlar XIII-XIV əsrlərə qədər davam edir. Lakin XIII-XVI əsrlərdə Qərbi Türküstanın türk xalqlarının tarixi haqqında Çin mənbələri azdır. Bunun səbəbi Çingiz və Teymurun imperiyaları dövründə Çinin türk xalqlarına qarşı siyasətdən təcrid olunması idi. Yalnız XVI əsrin əvvəllərində



Çinlə həmsərhəd türk xalqları haqqında Çin mənbələrində bə'zi mə'lumatlara rast gəlinir. Bunlar "Böyük Sin sülaləsinin bütün çarlarının hakimiyyəti haqqında həqiqi qeydlər" adlanır və 1583-1612-ci illərdə baş verən hadisələri əhatə edir. 1765-ci ildə yazılmış digər əsər "Cunqarların sakitləşdirilməsi (barışdırılması) təsviri" adlanır və burada Çinlə həmsərhəd ölkələrdə türk tayfalarının həyatından bəhs olunur.

***Qədim türk mənbələri*** . Eramızın I minilliyinin VI-VIII əsrlərində türk xalqlarının tarixinin tədqiqində run, uyğur və ərəb əlifbaları ilə yazılmış mətnlər mühüm yer tutur. Pərakəndəliyinə və mə'lumatların çox hallarda azlığına baxmayaraq, bu mənbələrdə türk xalqları haqqındakı mə'lumatlar daha dəqiq və mö'təbərdir. Qədim türk mətnləri əsas e'tibarilə Monqolustanda, Yenisey sahilində və Talas vadisində tapılmışdır. Bu yazılar çox hallarda qəbirüstü iri daşlarda və qayalarda yazılmışdır. V.V.Bartold yazır ki, Orxon-Yenisey run yazıları VI əsrdə yaranmış, Çindən Bizansa qədər böyük bir ərazini əhatə etmiş Türk imperiyasının yaradıcılarına mənsubdur[21].

Xüsusilə Kül-Tiqinin (732), Bilgə xaqanın (735), Tonyukukun (716) şərəfinə olan yazılar və 731-ci ilə aid Ongin yazısı mənbəşünaslıq baxımından çox qiymətlidir. Bu yazılar Altayda və Şimali Monqolustanda tapılmışdır[22].

Son dövrlərdə əski türk yazılı abidələrinin Azərbaycanda nəşr edilməsinin (mətn, transkripsiya, tərcümə) respublikamızda türk xalqlarının tarixinin, mədəniyyətinin və dilinin öyrənilməsi istiqamətində mühüm hadisə olması xüsusi qeyd edilməlidir[23].

İlk Yenisey run yazıları hələ 1721-1722-ci ildə I Pyotrun xidmətində olmuş isveçli D.Messerşmid və onu müşayiət etmiş F.İ.Tabbers tərəfindən aşkar edilmiş və sonra oxunmuşdur. Türk run yazılarının oxunması tarixi 1893-cü ildən başlanır. Bu sahədə İsveç alimi V.Tomson (qeyd etmək lazımdır ki, V.Tomson bu əlifbanı "tenqri" və "türk" sözləri əsasında açmışdır) və rus türkoloqları V.V.Radlovun və S.E.Malovun xidmətləri böyükdür[24].

Müxtəlif illərdə tapılmış bə'zi run yazıları isə fransız Y.Klaprot tərəfindən 1811-ci ildə oxunmuşdur.

Türk run əlifbasının mənşəyi məsələsi həll edilməyib. Bə'ziləri onun İran mənşəli soqd əlifbasının dəyişilmiş forması olduğunu yazmışlar[25]. Bu barədə problemin tarixşünaslığından danışdıqda aşağıda deyəcəyik. Run yazılarda ilk dəfə olaraq Umay və Tenqri allah adları və s. çəkilir. Türk run yazıları VI-VIII əsrlərdə Qərbi və Şərqi Türk xaqanlıqlarının tarixi haqqında əsas yerli mənbə olaraq qalır.

Qeyd etmək lazımdır ki, Tokuz-Oğuz (9 Oğuz) etnonimi məhz ilk dəfə run yazılarda qeyd olunur. Orxon-Yenisey run yazılarının böyük elmi əhəmiyyəti ondadır ki, türkcə ilk yerli yazılı mənbələrdir. Qeyd edilməlidir ki, buna əsaslanaraq bə'zi tədqiqatçılar yazırlar ki, VI əsrdən əvvəl "Türk" etnonimi yoxdur. Türk run yazılarını ilk dəfə oxumuş Tomson yazırdı ki, "türk" əvvəlcə bir sülalənin adı olmuş, sonra etnonimə çevrilmişdir. Bu fikir əlbəttə, səhvdir.

Qədim türk yazılı mənbələri içərisində XI əsr müəllifləri Yusif Balasaqunlunun "Kutadqu bilik" (1069-cu il) və Mahmud Qaşqarlının (1072-1074-cü illər) yazdığı "Divan lüğət-ət-türk" əsərləri xüsusi yer tutur. Yusif Balasaqunlu 1015 və ya 1016-cı ildə Mərkəzi Asiyada Balasaqun şəhərində doğulub. O, əsərini Qaraxanilər dövlətinin xaqanına həsr etmişdir.

Mahmud Qaşqarlı, soy adından göründüyü kimi, indi Çin Türküstanına mənsub olan Qaşqar şəhərində doğulmuşdur. Onun atası Qaraxanilər sülaləsinə mənsub idi. O, Buxarada və Nişapurda təhsil almışdır.

Mahmud Qaşqarlı bütün türk xalqlarını iki yerə - şimal və cənub qruplarına ayırır və hərəsinə 10 tayfa daxil edir. Şimal qrupuna peçeneq, qıpçaq, oğuz, yemək, başqurt, basmil, kay, yabaku, tatar və qırğızları; cənub qrupuna çiqil, tuxsi, yaqma, iqrak, çaruk, çulın, uyğur, qanqut, kitay və tabqaç tayfalarını aid edir. O, bu tayfaların dilləri arasındakı fonetik fərqlərdən geniş bəhs edir. Qeyd edilməlidir ki, X əsrdə Mərkəzi Asiyanı əhatə etmiş Qaraxanilər dövləti və onun mərkəzi Qaşqar şəhəri haqqında dəqiq faktlar məhz Mahmud Qaşqarlının əsərindədir.



"Kutadqu bilik" - "Xoşbəxt olmaq üçün bilik, elm" deməkdir. Bədii formada yazılmış əsərdə Qaraxanilər dövləti və bir sıra türk tayfaları haqqında mə'lumat vardır. Müəlliflərdən heç birinin əsəri tarixi salnamə deyildir. Bu əsərlərdə əsas e'tibarilə linqvistik faktlardan danışıldığına görə, siyasi tarix məsəllərinə çox az yer verilmişdir. Lakin bununla belə, onlarda müxtəlif türk tayfaları, onların həyat tərzi haqqmda qiymətli faktlar var.

Mərkəzi Asiyada yaşayan türk xalqlarının qədim dövrlərdən XVII əsrədək tarixi müxtəlif tayfalar və onların şəcərə cədvəlləri XVII əsr türkmən müəllifi Əbülqazi xan Xivəlinin "Türkmənlərin şəcərəsi" adlı əsərində qeyd olunmuşdur[26]. Bu əsər IX-X əsrlərdə oğuzların tarixi haqqında sanballı mənbə hesab olunur. Müəllifin yazdığına görə Mərkəzi Asiya oğuzların vətənidir.

X-XIV əsrlərdə Cənub-Şərqi Avropa və Mərkəzi Asiya türk xalqlarının tarixinə aid müxtəlif mənbələr V.Q.Tizenqauzen tərəfindən toplanıb çap edilmişdir[27]. Müəllif XI-XIII əsrlər rus salnamələrində və ərəb coğrafiyaçılarının əsərlərində olan mə'lumatlar əsasında Şərqi Avropada erkən orta əsrlərdə yaşamış türk tayfa birləşmələrində (qıpçaqların, peçeneqlərin, polovеslərin və b.) tayfaların adlarını toplamışdır. Qeyd etmək lazımdır ki, bu səpkidə N.A.Baskakovun tədqiqatları da diqqətə layiqdir[28].

Türkdilli mənbələrdən danışarkən 1546-cı ildə Kəşmirdə Məhəmməd Heydər tərəfindən yazılmış "Tarix-i Rəşidi"[29], Fərqanə hakimi Babur tərəfindən (1483-1530) yazılmış "Baburnamə"[30] əsərləri qeyd olunmalıdır. Bu əsərlərdə Mərkəzi Asiya türk xalqlarınm etnik tərkibi, adət-ən'ənələri və XVI əsrdə siyasi tarix məsələləri verilmişdir.

Məhəmməd Sadiq Qaşqari 1768-1769-cu illərdə uyğur dilində "Təzkirəye-Xocahan" adlı əsər yazmışdır. Əsərdə XVII əsr və XVIII əsrin əvvəllərində Şərqi Türküstanda siyasi hadisələr verilib. Uyğur dilində yazılmış digər anonim mənbə "Tarix-i Qaşqar" adlanır. Əsər XVII əsrin əvvəllərində yazılmışdır.

***Antik mənbələr.*** E.ə.VII əsrdən başlayaraq eramızın ilk əsrlərinə qədər Cənub-Şərqi Avropada və Şimali Qafqazda türk tayfaları (skiflər, sarmatlar, alanlar, hunlar, savarlar və b.) barədə antik müəlliflərin mə'lumatları qiymətli mənbələrdir. Bu mə'lumatlar V.V.Latışev tərəfindən rus dilində çap olunmuşdur[31]. Antik müəlliflərin Türküstan haqqında mə'lumatları həmçinin bir sıra ümumiləşdirilmiş əsərlərdə də toplanmışdır[32]. Makedoniyalı İsgəndər dövründə Mərkəzi Asiyanın etno-siyasi durumuna aid antik mə'lumatlar V.V.Qriqoryev tərəfindən çap edilmişdir[33]. E.ə.I minilliyin II yarısında və eramızın əvvəllərində Mərkəzi Asiya və Şərqi Avropada türk tayfaları barədə mə'lumatlara Herodotun, Strabonun, Plininin, Kvint Kursiy Rufun, Plutarxın, Klavdi Ptolemeyin, Ammian Marsellinin əsərlərində də rast gəlinir. Yuxarıda deyildiyi kimi, Böyük Plini (I əsr) Şimali Qafqaz çöllərində sarmatlarda bir tayfanın adını tirk, Elian isə turke kimi qeyd etmişlər. I əsr müəllifi İosif Filavi Azov dənizinin ətrafında alanların yaşadıqlarını yazır və onların sarmat və skif mənşəli olduqlarını qeyd edir. Antik müəllif Dionisi Periyeget həmin regionda hunların yaşadıqlarını yazmışdır. Bu mə'lumat 160-cı ilə aiddir. Klavdi Ptolemey (II əsr) orada hunlarla yanaşı savar tayfasının da adını çəkir[34]. Antik müəlliflərin içərisində Ammian Marsellin xüsusilə qeyd olunmalıdır. Latın müəllifi Ammian Marsellin (330-400) "Tarix" adlı iri həcmli əsərində[35] III-IV əsrlərdə Cənub-Şərqi Avropa çöllərində hunların həyatı və onların müharibələri haqqında qiymətli mə'lumatlar verir. Əslən yunan olan Ammian Marsellin Roma ordusunda Şərqi Avropada hunlara qarşı müharibələrdə iştirak etmişdi. Bilavasitə gördüklərini və müasirlərindən eşitdiklərini yazdığına görə, bu müəllifin hunlar barədə mə'lumatları obyektivdir. O, Mərkəzi Asiyada xionlar və eftallar (ağ hunlar) haqqında da qiymətli mə'lumat verir.

***Bizans mənbələri.*** Eranın I minilliyinin I yarısında Şərqi Avropada türk tayfaları barədə mə'lumatlar Bizans müəlliflərinin əsərlərindədir. Eranm IV-VII əsrlərində Şərqi Avropada yaşamış qədim türkmənşəli avar, bulqar, kuturqur, savar, sarıqur, utiqur, hun və b. tayfa birləşmələri, habelə Qərbi Türk xaqanlığı barədə mə'lumatlar əsas e'tibarilə Prisk (V əsr), Zosim (V əsr), İordan (VI əsr), Menandr Prodiktor (VI əsr), Prokopi (VI əsr), Feofan (VI əsr), Feofilakt Simokatta (VII əsr) və b. əsərlərindədir[36]. Prisk Paniyski (433-474) "Bizans tarixi və Attilanın hərəkətləri" adlı 8 kitabdan ibarət əsər yazmışdır. Əsərdə Qərbi Hun imperiyasımn Bizansla və qotlarla müharibələri haqqında ətraflı danışılır. O, 488-ci ildə Bizans dövlətinin hunlara göndərdiyi səfirliyin katibi olmuş və ona görə də hunların ictimai quruluşu ilə bilavasitə yaxından tanış olmuşdur.

Bizans tarixçisi Prokopi Kesarlı (500-565) "Romalıların farslar, vandallar və qotlarla müharibələrinin tarixi" əsərinin müəllifidir. Onun əsərində Mərkəzi Asiyada eftalilər (abdallar) dövləti və Mərkəzi Asiyada türklər haqqında da mə'lumat vardır. Onun bu mə'lumatı diqqəti cəlb edir ki, qədimdə kimmer adlanmış tayfa onun vaxtında Qara dənizin şimal sahillərində yaşayan türkdilli uturqurlardır.

Bizanslı Menandr (VI əsr) 557-582 -ci illəri əhatə edən "Tarix" əsərinin müəllifidir. O, Bizansla Qərbi Türk xaqanlığı arasındakı münasibətləri verir, türk xaqanı İstəmi (Dizabul) haqqında ətraflı danışır və Bizans səfiri Zemarxın xaqanlığa səfərini təsvir edir. Qeyd etmək lazımdır ki, Qərbi Türk xaqanlığında yaşayan türklərin adətləri, xüsusilə dini görüşləri haqqında onun verdiyi mə'lumat çox maraqlıdır.

Cənub-Şərqi Avropa çöllərində VIII-X əsrlərdə türk tayfaları haqqında mühüm mənbələrdən biri də X əsr Bizans müəllifi Konstantin Baqryanorodnıdır. Uzlar, kəngərlər və peçeneqlər haqqında ətraflı mə'lumat verən müəllif bu tayfaların ictimai quruluşu və dinləri barədə də danışır[37].

Eranın I miniliyinin birinci yarısında Şərqi Avropada yaşamış türk tayfaları barədə Bizans müəlliflərinin mə'lumatları Y.Cəfərov tərəfindən ətraflı araşdırılmışdır[38].

XIII-XIV əsrlərdə monqolların işğalları, monqol imperiyasının yaranması məsələləri İtaliyalı Plano Karpinin latın dilində yazdığı «История монголов, именуемых нами татарами»

əsərində verilmişdir. Plano Karpininin əsərində Tyan -Şanda, Mərkəzi və Mərkəzi Asiyada türk xalqları haqqında qısa, lakin qiymətli faktlar vardır.

1253-cü ildə Fransa kralı IX Lüdovik Mərkəzi Asiyada monqolların qərargahına Vilhelm (Kilom) Rubruku göndərmişdi. Müəllif Mərkəzi Asiyanın şəhərləri, monqolların işğalları və türk xalqlarının adət-ən'ənələri haqqında mə'lumat verir. Çingiz xanın nəticəsi Xubilayın sarayında 20 il yaşamış fransız Marko Polo da Mərkəzi Asiyanın XIII əsrdə tarixinə dair qiymətli faktları təsvir etmişdir[39]. Mərkəzi Asiya türk xalqlarının tarixinə dair qədim və orta əsr mənbələri məcmuələrlə çap olunmuşdur[40].

***Ərəb mənbələri.*** VII əsrin ortalarında ərəblər İranı zəbt edib Sasanilər sülaləsinə son qoyduqdan sonra Mərkəzi Asiyaya hərəkətə başladılar. 651-ci ildə Mərv şəhərini (Türkmənistan ərazisində) tutduqdan sonra ərəb ordularının Mərkəzi Asiyanı işğal etmək uğrunda qanlı döyüşləri başlanır və VIII əsrin ortalarında Mərkəzi Asiyanın istilası başa çatır. Ərəb sərkərdələri İbn Kuteybə, Cəbrah ibn Abdulla, Səid ibn Əbdüləziz, Asim ibn Abdulla əl-Xəlili, Əsəd ibn Abdulla, Nəsr ibn Səyyar, Əşras ibn Abdulla əs-Sulami və b. 674-cü ildən 748-ci ilə qədər olan müddət ərzində Mərkəzi Asiyanın və Qazaxıstanın Ərəb xilafətinə qatılmasını tə'min etmişlər. Bu tarixi hadisələr IX-XIII əsr ərəb coğraflarının (Təbəri, İbn Xordadbeh, İbn Hövqəl və b.) əsərlərində əksini tapmışdır.

Ərəblər işğal etdikləri ölkələrə özləri ilə islam dini, ərəb dili və ərəb mədəniyyəti gətirir, eyni zamanda həmin ölkələrə bələd olurdular. İ.Y.Kraçkovski "Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiyanın tarixi üçün ərəb mənbələrinin toplanmasına hazırlıq haqqında" məqaləsində Mərkəzi Asiya xalqlarının tarixi üçün ərəb mənbələrinin xüsusi əhəmiyyətini qeyd etmişdir[41]. Ona görə də biz Mərkəzi Asiya və Qazaxıstan ərazilərində erkən orta əsrlərdə türk xalqları haqqında ərəb müəlliflərinin mə'lumatlarının yalnız qısa xülasəsi ilə kifayətlənəcəyik.



Mərkəzi Asiya ərəblər tərəfindən işğal olunub Ərəb xilafətinə birləşdirildikdən sonra yazılmağa başlamış bu əsərlərdə türk xalqlarının əvvəlki əsrlərdən başlayaraq tarixi haqqında çoxlu tarixi və coğrafi mə'lumatlar vardır. Bu mənbələr bir sıra tədqiqatçılar (V.A.Kraçkovski, V.V.Bartold və b.) tərəfindən ətraflı tədqiq olunmuşdur.

Mərkəzi Asiyanın türk xalqları haqqında mə'lumat verən ilk ərəb müəllifi Təmim ibn Bəhrdir (VIII əsrin II yarısı). Onun İssık-Kul gölü ətrafında türklərin tarixi şəhərləri haqqında mə'lumatları vardır.

Mərkəzi Asiya xalqlarının şəhərləri, ticarət yolları, etnoqrafiyası barədə ətraflı mə'lumat İbn Xordadbehin "Kitab əl-məsalik və-l məmalik" ("Yollar və məmləkətlər haqqında kitab") əsəridir. İbn Xordadbeh 820-912-ci illərdə yaşamışdır. İbn Xordadbeh Yeddiçayarasında (Yeddi-Su ərazisində) və Tyan-Şanda yaşayan türk xalqlarının adlarını çəkir və onların həyatı haqqında ətraflı danışır[42].

IX əsr müəllifi Ət-Təbəri (838-925) "Tarix ər-rəsul və-l mülük" ("Peyğəmbərlərin və padşahların tarixi") adlı çoxcildli əsərin müəllifidir. Onun əsərində VII-IX əsrlərdə Mərkəzi Asiya haqqında ətraflı mə'lumat var. Xüsusilə, 750-751-ci ildə Buxarada və Səmərqənddə Şərik adlı bir nəfərin başçılığı altında üsyan haqqında mə'lumat verir. Təbəri 751-ci ildə Talas çayı kənarında Çin ordusu ilə ərəb ordusu arasında qanlı vuruşmanın təsvirini vermişdir. Bu döyüşdə Qao Syan Çji başda olmaqla Çin ordusu məğlub edilmiş və bununla da Çinin əsrlər boyu Mərkəzi Asiyaya yiyələnmək planlarına birdəfəlik son qoyulmuşdur. Ət-Təbəri 755-ci ildə Xorasanda Sunbadın üsyanı və 766-cı ildə Mərkəzi Asiyada Müqənna üsyanı haqqında da mə'lumat verir.

IX əsrin axırı - X əsrin əvvəllərində yaşamış ərəb müəllifi İbn əl-Fəqih əl-Həmədaninin "Kitab əl-əxbar əl-buldan" ("Ölkələr haqqında kitab") əsərində Mərkəzi Asiyada türk dövlətlərinin siyasi quruluşları, əhalisi və inamları haqqında danışılır[43]. X əsr müəllifi Qudama ibn Cəfər "Kitab əl-Xərac" ("Torpaq vergisi haqqında kitab") əsərini yazmışdır. Onun da

əsərində Mərkəzi Asiya xalqlarının tarixi barədə digər ərəb coğraflarının əsərlərində olmayan faktlar çoxdur. X əsr müəllifi Əl-İstəxri "Kitab əl-məsalik və-l məmalik" əsərinin müəllifidir. Onun əsərində ölkələr və xalqlar arasındakı sərhədlər, ticarət yolları, sənətkarlıq mərkəzləri haqqında danışılır. Əl-Müqəddəsi (947-1000) "Əhsən ət-təqasim fi mə'rifət əl-əqalim"[44] əsəri iki hissədən ibarətdir. Əsərin ikinci hissəsində Mərkəzi Asiya xalqlarının tarixi barədə ətraflı danışılır.

Volqaboyunda yaşayan türk tayfaları haqqında ən ətraflı mə'lumat X əsr müəllifi İbn Fədlanın əsərindədir[45]. O, 921-ci ildə Mərkəzi Asiyadan çıxaraq Ural tərəfdən Volqaboyunda yaşayan türk bulqarlarına getmiş və onların həyatının müxtəlif sahələrini təsvir etmişdir.

X əsrdə yaşamış Əbu-Dulaf "Risalə" əsərində Mərkəzi Asiyada, Tyan-Şanda yaşayan türk xalqları haqqında mə'lumat verir. XII əsr müəllifi Əl-İdrisi 1100-1165-ci illərdə yaşamışdır. Onun əsərində tokuz-oğuzlar, kimaklar, qırğızlar və karluklar haqqında qiymətlər faktlar vardır. Həmin əsrdə yaşamış Əl-Mərvazinin "Heyvanların təbiəti" adlı əsərində quzlar, qırğızlar, türkmənlər və karluklar barədə danışılır.

Mərkəzi Asiyada Qaraxanilər dövləti, bu regionda yaşayan türk tayfalarının dinləri haqqında Əs-Samani (1113-1167) "Kitab əl-Ənsab" (Sülalələr tarixi) əsərində danışır.

Qeyd etmək lazımdır ki, Mərkəzi Asiyanm türk xalqları haqqında ərəb mənbələrindəki mə'lumatlar 1939-cu ildə toplanıb çap edilmişdir[46].

Mərkəzi Asiya türk xalqlarının XIII-XIV əsrlərdə tarixi İbn əl-Əsir (1160-1233), Ən-Nəsəvi (XIII əsr) və Yaqut əl-Həməvi (1179-1229) adlı ərəb müəlliflərinin əsərlərində əksini tapmışdır. Bu əsərlərdə Xarəzmşahlıq dövləti və Monqol imperiyasınm yaranması və monqol işğalları ətraflı əksini tapmışdır.

İbn əl-Əsir "Əl-Kamil fit Tarix" adlı çox cildli əsərində Mərkəzi Asiyada ərəblərə qarşı 806-cı ildə baş vermiş üsyanın tarixini verir. Onun əsərlərində Buxara, Şaş, Xarəzm və b. Mərkəzi Asiya əyalətlərinin təsviri vardır. Mərkəzi



Asiyanın Çingiz xan tərəfindən işğalı tarixi öyrənildikdə İbn əl-Əsirin bu əsəri əsas mənbə kimi səciyyələnir.

Erkən orta əsrlər ərəb mənbələrinin türklər haqqında mə'lumatları F.M.Əsədov tərəfindən tərcümə və şərh edilmişdir[47].

***Farsdilli mənbələr.*** Mərkəzi Asiya türk xalqlarının X-XIII əsrlər tarixi haqqında mə'lumatlar fars müəlliflərinin əsərlərindədir.

Məhəmməd Nərşahi (899-959) ərəb dilində "Buxaramn tarixi" əsərini yazmışdır[48]. Lakin onun əsəri bizə çatmayıb. 1128-ci ildə Əl-Kubavi adlı tarixçi bu əsəri fars dilinə tərcümə etmiş və ona əlavələr etmişdir. Bu əsərdə Mərkəzi Asiya və Qazaxıstan ərazisindəki türk xalqları və Qaraxanilər dövləti haqqında ətraflı damşılır. Qeyd etmək lazımdır ki, əsərdə 776-cı ildə Müqənnanın başçılığı ilə Mərkəzi Asiyada ərəblərə qarşı baş vermiş üsyan haqqmda ətraflı mə'lumat verilir (Müqənnanın əsil adı Haşım ibn Hakimdir. Müqənna onun təxəllüsüdür, ərəbcə müqənna "üzü duvaqla örtülmüş" deməkdir, çünki o, üzünü yaşıl rəngli parça ilə örtürdü).

X əsrə aid bir fars dilli anonim mənbə "Hüdud əl-Aləm" adlanır[49]. Onun müəllifi mə'lum deyil. Əsər Orta və Mərkəzi Asiyanın türk xalqlarının sərhədləri, şəhərləri, təsərrüfat həyatı və b. məsələlərin öyrənilməsi üçün əvəzsiz mənbədir.

Digər bir fars dilli mənbə Utbi Əbu Nəsrin (961-1022) "Kitab əl-Yəməni" əsəridir. Bu əsər də əvvəlcə ərəbcə yazılmış, sonra fars dilinə tərcümə olunmuşdur. Əsərdə 976-1021-ci illər arasında Qaraxanilər dövləti ilə bağlı hadisələrdən damşılır[50].

XI əsr müəllifi Qərdizinin "Zeyn əl-Əxbar" ("Mə'lumatların bəzəyi") adlı əsərinin bir fəsli qədim türk mənşəli karluklar, çigillər, yağmalar, qırğızlar və türkəşlər haqqındadır[51].

Beyhəki (996-1077) "Məs'udun tarixi" əsərinin müəllifidir. Bu əsərdə Qaraxanilər dövlətinin tarixi üzrə əsas mənbə sayılır. Qaraxanilər dövlətinin Səlcuqlarla əlaqələri haqqında mə'lumat Nizam ül-Mülkün "Siyasətnamə" əsərindədir.

Nizam ül-Mülk Səlcuqlar dövlətinin sultanı Məlikşahın (1082-1092) vəziri idi.

XII əsrdə müəllifi mə'lum olmayan "Mücməl əl-Təvarix və-l Qisəs" əsəri yazılmışdır. Burada Mərkəzi Asiya türkləri, onların şəcərə cədvəli haqqında müfəssəl mə'lumat verilir. XII-XIII əsrlərdə Mərkəzi Asiyada siyasi tarix məsələləri Bəkranın "Cahannamə" əsərində əksini tapmışdır. XIII-XV əsrlərdə Mərkəzi Asiya türk xalqlarının tarixi Cuzcaninin (XIII əsr) "Təbəqat-i Nasiri", Əl-Ovfinin "Cəvami əl-hekayət və ləvami ər-rəvayət" ("Toplanmış hekayələr və görkəmli rəvayətlər"), Ələaddin Cuveyninin (1226-1283) "Tarix-i Cahanquşay" ("Dünya Fatehinin tarixi") əsərlərində əks olunmuşdur. Bu mənbələrdə olan mə'lumatlar V.V.Bartoldun Mərkəzi Asiya xalqlarının tarixinə və coğrafiyasına dair əsərlərində ətraflı nəzərdən keçirilmişdir.

Mərkəzi Asiya və Mərkəzi Asiyanın türk və monqol tayfalarının tarixi, monqolların bu ölkələri tutması tarixi Rəşidəddinin "Cami ət-təvarix" ("Tarixlərin toplusu") əsərindədir[52]. Rəşidəddin Cənubi Azərbaycanda doğulmuş və 1247-1318-ci illərdə yaşamışdır. Əsərin elmi dəyəri ondadır ki, müəllif onu yazarkən özündən qabaqkı müəlliflərin əsərlərindən və salnamələrdən istifadə etmişdir. Əsərin birinci cildində Rəşidəddin türk və monqol tayfalarının qədim zamanlardan XII-XIII əsrlərə qədər etnik tarixini və şəcərələrini vermişdir. Qeyd olunmalıdır ki, əsərdə oğuzların tayfa-qəbilə bölgüsü, təsərrüfat həyatı və müharibələri haqqında ətraflı mə'lumatlar da vardır.

XIV əsrdə türk xalqlarının tarixi Əmir Teymurun salnaməçisi Nizaməddin Şaminin "Zəfərnamə" əsərindədir. Əsər Teymurun sifarişi ilə yazılmışdır. Şami də özündən əvvəlki müəlliflərin əsərlərindən geniş istifadə etmişdir. Əsərin qiymətli cəhəti odur ki, müəllif şahidi olduğu hadisələri dəqiqliklə qələmə almışdır. Ona görə onun mə'lumatları obyektivdir. Teymurun oğlu Şahruxun saray tarixçisi Şərəfəddin Yəzdi də 1424-cü ildə "Zəfərnamə" adlı əsər yazmışdır. Bu əsərdə də Mərkəzi və Mərkəzi Asiya türk xalqlarının tarixi



barədə qiymətli faktlar vardır. Şahruxun digər saray tarixçisi Əbd ər-Rəzzaq Səmərqəndi idi. O, 1471-ci ildə böyük traktat yazmış və türk xalqları tarixi haqqında yeni mə'lumatlar vermişdir. Teymurun işğallarınm geniş təsviri Qiyasəddin Əlinin əsərində də vardır[53].

Biz farsdilli mənbələrin çox az qismini sadaladıq, çünki bu mənbələr də V.V.Bartoldun əsərlərində hərtərəfli təhlilini tapmışdır.

Mərkəzi Asiya xalqlarının tarixinə dair ərəbdilli və farsdilli mənbələr 1933-cü ildə ayrıca kitab şəklində çap olunmuşdur[54].

***Rus mənbələri.*** Türk xalqlarmın orta əsrlər (xüsusilə XVII-XVIII əsrlərdə) tarixi üçün rus mənbələri də nəzərə alınmalıdır. Qeyd edilməlidir ki, Sibirdə və Uzaq Şərqdə yaşayan bə'zi türk xalqları haqqında həmin ərazilər Rusiya tərəfindən işğal edilənə qədər yazılı mə'lumat yox idi. Həmin xalqlar haqqında rus mənbələri əsas e'tibarilə XVI əsrdən başlayır. 1932-ci ildə Mərkəzi Asiya və Qərbi Sibir xalqları haqqında rus mənbələri külliyyat şəklində çap olunmuşdur[55]. Bu külliyyatda əsas e'tibarilə Rusiyanın Mərkəzi Asiya xalqları ilə münasibətlərinin tarixinə aid sənədlər toplanmışdır. Orta əsrlərdə Buxara, Xarəzm, Xivə xanlıqlarının tarixinin araşdırılması üçün bu mənbələrin əhəmiyyəti böyükdür.

Qazaxıstanın XVI-XVIII əsrlərində tarixinə aid rus mənbələri də külliyyat halında nəşr olunmuşdur[56].

XVI əsrdə Rusiyanın Kazan xanlığını zəbt etməsindən sonra tatarların tarixinə aid mənbələr də çoxdur. Bu haqda sənədlər hələ XIX əsrdə külliyyatlar şəklində toplanıb çap olunmuşdur[57].

Başqırdların orta əsrlərin sonlarında tarixinə aid rus sənədləri də məcmuə şəklində çap olunmuşdur[58].

XVI-XVII əsrlərdə Sibir xanlığında yaşamış türk tayfaları haqqında mə'lumatlar rus salnamələrində əksini tapmışdır. XVI əsrin ortalarında Volqaboyunun və Uralətrafı ərazilərin Rusiya tərəfindən işğalından sonra Rusiya Sibir xanlığı ilə üz-üzə durmuşdu. 1565-ci ildə Rusiya Sibir xanlığını

tutdu. Sonrakı əsrlərdə Sibir tatarları haqqında mə'lumatlar rus salnamələrində verilmişdir[59].

Deyilənlərdən görünür ki, türk xalqlarınm orta əsrlər tarixi müxtəlif dillərdə mənbələrdə əksini tapmışdır.

***Tarixşünaslıq.*** Türk xalqlarının tarixşünaslığı aşağıdakı dövrlərin tarixşünaslığını əhatə edir: 1.Ən qədim dövrlərdən eramızın III-IV əsrlərinə qədər; 2.Orta əsrlərdə türk xalqlarının tarixşünaslığı. Bu dövrün tarixşünaslığı eramızın III-IV əsrlərindən XII-XIII əsrlərə qədərki erkən orta əsrlərin tarixşünaslığmı və XII-XIII əsrlərdən XVIII əsrin sonlarına qədərki son orta əsrlər tarixşünaslığını əhatə edir; 3.XIX əsrin başlanğıcından XX əsrin əvvəllərinədək (keçmiş Sovet tarixşünaslığında 1917-ci ilədək) olan dövrü əhatə edən yeni dövrün tarixşünaslığı; 4.1917-ci ildən sonrakı və indi də davam edən müasir tarixşünaslıq.

Mövzuya keçməzdən əvvəl bir cəhəti nəzərə almaq lazımdır. Özlüyündə aydındır ki, orta əsrlərdə türk xalqlarının tarixşünaslığı qədim dövrün tarixşünaslığının davamıdır. Qeyd etməliyik ki, türk xalqlarının qədim dövrünə aid tarixşünaslıqda hazırda iki konsepsiya üz-üzə durmuşdur. Bunlardan biri Qərbi Avropa və Rus tədqiqatçılarının türk xalqlarının qədim tarixi haqqındakı tədqiqatlarmın əsasını təşkil edir. Onların əsərlərində türk xalqlarının tarixi e.ə.III əsrdən əvvələ getmir. Və bununla da aşağıda deyəcəyimiz kimi, türk xalqlarının eradan əvvəlki minilliklərdə tarixi kölgədə qalmışdır. Bunun iki səbəbi vardır. Əvvələn, yuxarıda deyildiyi kimi, türk xalqlarının qədim və erkən orta əsrlərdə tarixinə dair yazılı mənbələrin azlığı. VI-VIII əsrlərdə Orxon-Yenisey run yazıları nəzərə alınmazsa, türk dillərində VI əsrə qədər yazılı mənbə yoxdur. Ona görə də müasir türk xalqlarının tarixini araşdıran tədqiqatçılar başqa dilli mənbələr, əsas e'tibarilə Çin, qədim yunan, latın, Bizans, ərəb və fars mənbələrinə istinad etməli olurlar. Həmin mənbələrdəki mə'lumatlar isə çox hallarda pərakəndə və səthidir. Bə'zi türk xalqları (məsələn, yakutlar, xakaslar, Sibir tatarları və b.) haqqmda ilk mə'lumatlar XVII-XVIII əsrlərə, Rusiyanın Uraldan



şərq tərəfdə yerləşən böyük ərazini işğal etməsindən sonrakı vaxta aiddir. İkincisi, türk xalqlarının tədqiqi ilə Qərbi Avropada və Rusiyada əsas e'tibarilə iranşünaslar məşğul olmuşlar. Bu, istər-istəməz türk xalqlarının tarixşünaslığında obyektiv olmayan nöqteyi-nəzərlərə səbəb olmuşdur. Qərbi Avropa və Rus tarixçilərinin qədim türk xalqlarınm tarixi haqqında konsepsiyalarının nöqsanlı olması onunla əlaqədardır ki, onlar qədim şərq mənbələrində e.ə.III-I minilliklərdə, fars mənbələrində e.ə.I minillikdə, Urartu mənbələrinə e.ə.IX-VII əsrlərdə, antik mənbələrdə e.ə.VIII əsrdən eramızın III-IV əsrlərinə qədər Ön Asiyada, Kiçik Asiyada, Qafqazda və Cənub-Şərqi Avropa çöllərində və Mərkəzi Asiyada yaşamaları qeyd olunan şumerləri, kasları, madayları, mannaları, albanları, kimmerləri, sakları, skifləri, sarmatları, alanları, massaqetləri və başqa etnosları qədim türklər saymırlar. Ön Asiyada və Kiçik Asiyada yaşamış qədim etnosları hurridilli, digər regionlarda yaşayanları isə irandilli hesab edirlər. Təkcə onu demək kifayət edər ki, Rus və Sovet tarixçilərinin əsərlərində və bu əsərlərdə olan baxışlara uyğun surətdə yazılmış türkmən və özbək xalqlarının ümumiləşdirilmiş tarixlərində həmin xalqların İranmənşəli tayfalar əsasında təşəkkül tapması göstərilmişdir. Bu baxışa uyğun olaraq Mərkəzi Asiya və Qazaxıstan əraziləri irandilli tayfaların anayurdu e'lan olunmuşdur. Türk xalqlarının qədim tarixinə aid bu ədalətsiz və qeyri elmi münasibət müasir tarixşünaslıqda hələ də qüvvədədir. Belə bir səhv konsepsiyadan qidalanan türk tarixşünaslığı şübhəsiz ki, tam və obyektiv sayıla bilməz.

Türk xalqlarının tarixşünaslığında digər nöqteyi-nəzər Türkiyə tarixçilərinin tədqiqatlarında əksini tapmış konsepsiyadır. Qərbi Avropa, Rus və fars tədqiqatçılarının əksinə olaraq Türkiyə tarixçiləri haqlı olaraq Altaymənşəli tayfaların tarixini şumerlərdən başlayırlar və yuxarıda qeyd etdiyimiz qədim etnosları türkmənşəli sayırlar. Aşağıda biz bu iki nöqteyi-nəzərlər üzərində bir qədər geniş dayanacağıq. Əvvəlcə Qərbi Avropa və Rus tarixşünaslığına nəzər yetirək.

***Avropa tədqiqatçıları.*** Avropa ölkələrinin tarixçilərinin türk xalqlarının tarixi haqqında əsərləri çoxdur. Burada həmin tədqiqatçıların əsərlərinin təhlilini vermək mümkün deyil. Ona görə də biz yalnız kiçik xülasə ilə kifayətlənəcəyik. Xüsusilə ingilis, fransız və alman şərqşünasları eranın əvvəllərindən XVII-XVIII əsrlərə qədər türk xalqlarının tarixi haqqında külli miqdarda tədqiqatlar yazmışlar. Lakin, təkrar edirik ki, onların əksəriyyəti iranşünaslar olduqlarına görə, bə'zi hallarda türk xalqlarının tarixlərini istər-istəməz təhrif etməli olmuşlar. Və onların tədqiqatları e.ə.III əsrdən - hunlardan qabağa getmir, çünki əslində türk olmuş qədim etnosları irandillilər saymışlar.

Eramızın III-V əsrlərində Hun imperiyasının tarixi ilə alınan tarixçisi F.Althaym məşğul olmuşdur[60]. Althaymın tədqiqatı əslində e.ə.III əsrdən Çin mənbələrindən mə'lum olan Şərqi Hun imperiyasının tarixindən başlanır və sonra da Cənub-Şərqi Avropada Qərbi Hun imperiyasının geniş təsviri ilə bitir. Müəllif bu əsərini antik, Bizans və Çin mənbələri əsasında yazmışdır. Onun əsərində hunların tərkibində olmuş tayfalar, onların yayılma arealları, hunların ictimai quruluşu və təsərrüfat həyatı ətraflı verilmişdir. Hunlarla əlaqədar olaraq müəllif Mərkəzi Asiyada eradan əvvəlki son əsrlərdə və eramızın ilk əsrlərində kuşanlardan və eramızın III-V əsrlərində eftalilərdən ətraflı bəhs edir. Althaym çox doğru olaraq yazır ki, hunlar köçəri və döyüşkən xalq idi, lakin onlarda sənətkarlıq (xüsusilə silahqayırma) çox inkişaf etmişdi. Müəllif hunların hərb texnikasından ətraflı danışır və yazır ki, hunlar şəhərlərdə yaşamasalar da ən möhtəşəm qalaları və şəhərləri almaq qabiliyyətinə malik idilər. Müəllif Cənub-Şərqi Avropa çöllərində V-VI əsrlərdən sonra mə'lum olan bolqar, suvar, kəngər, peçeneq, xəzər və b. türk etnoslarını məhz hunlara aid edir.

F.Althaym Qərbi Hun imperiyasının banisi, türk xalqlarının tarixində böyük sərkərdə Attila haqqında da əsər yazmışdır[61]. Əsərdə Attilanın müharibələri və çoxlu qanlı döyüşlərdə qələbələrindən və toy gecəsi qəflətən ölməsindən sonra Hun imperiyasının tədriclə dağılmasından ətraflı danışılır.



XVIII əsrin ortalarında fransız şərqşünası, Sarbonna universitetinin professoru C.Dekink də hunlar haqqında əsər yazmışdır. Onun dörd cildlik əsəri "Hunların, türklərin və monqolların tarixi" adlanır[62]. Onun əsəri əsas e'tibarilə antik, fars və qismən ərəb mənbələri əsasında yazılmışdır. Onun vaxtında çin mənbələri hələ Avropa dillərinə tərcümə edilməmişdi. Əsərdə indiki oxucu üçün bəsit fikirlər və nöqteyi-nəzərlər olsa da, hər halda o dövr üçün böyük elmi nailiyyət idi. Onun hunlar haqqında fikirləri xüsusilə diqqətəlayiqdir, çünki müəllif müasir türk xalqlarının təşəkkülündə hunların böyük rol oynadığını yazmışdır.

Hunlar haqqmda ingilis tarixçisi K.D.Qordon da tədqiqat aparmışdır. Onun əsərində Attilanın hakimiyyəti illərində hunların işğalları, ictimai quruluşu və imperiyanın V əsrdə tənəzzülü, onların tərkibində olmuş tayfalar və b. məsələlər verilmişdir[63].

Mərkəzi Asiyada IV əsrdən mə'lum olan xionlar (pulun üzərində fransız alimi R.Qirşman "xion" sözü oxuduğuna görə hunların bu hissəsi tarixşünaslıqda "xionlar" adlanır) və eftallar haqqında fransız tarixçisi R.Qirşmanın tədqiqatı vardır[64]. Qeyd etmək lazımdır ki, müəllif eftalların türkdilli olmasına şübhə ilə yanaşır və onların İrandilli olması fikrinə üstünlük verir.

Nəhayət, hunların tarixi haqqında O.S.Mençen-Helfenin tədqiqatları da qeyd olunmalıdır[65]. Onun əsərində hunların tarixi e.ə.III əsrdən eramızın V əsrinədək izlənilir. Eftalilərin (abdalların), yaxud xionların mənşəyi və tarixi məsələləri ilə ingilis şərqşünası T.Noldeke də məşğul olmuşdur. Lakin bu tədqiqatçı eftaliləri türk hesab etmir. Qeyd edilməlidir ki, ümumiyyətlə bə'zi Qərbi Avropa və Rus tarixçiləri eradan əvvəlki minilliklərdə türk etnoslarının dövlət qurumlarına malik olması faktı ilə heç cür razılaşmırlar, çünki onların fikrincə Şərqi Avropada, Cənubi Qafqazda və Ön Asiyada həmin minilliklərdə türkmənşəli tayfalar ola bilməzdi. 546-cı ildə böyük bir ərazini əhatə edən Çin səddindən Qərbdə İran və Vizantiyaya (Bizansa) qədər uzanan Türk xaqanlığı yara-

nır. Bu barədə aşağıda ətraflı danışılacaqdır. Bir sıra Qərbi Avropa və Rus tarixçiləri türklərin tarix səhnəsinə çıxmasını məhz bu imperiya ilə əlaqələndirirlər. Yalnız ona görə ki, bu imperiyanı yaradanlar çin mənbələrində tukyu - "türk" adlanır, ona uyğun olaraq "qədim türklər" dedikdə məhz VI-VIII əsrləri əhatə edən türk xaqanlıqları nəzərdə tutulur. Belə çıxır ki, eradan əvvəl qədim türk yoxdur və yalnız e.ə.III əsrdə onlar, necə deyərlər, zənbillərlə göydən yerə enmişlər. Bu, xalqların qədim və yeni xalqlara bölünməsi kimi saxta konsepsiyadan irəli gəlir və bununla da türk xalqları yeni, cavan xalqlar sırasına salınmışdır. XIX əsrin axırları - XX əsrin I yarısında Avropada türk xalqlarının tarixinə dair tədqiqatlar yaranır. Yuxarıda qeyd etdiyimiz nöqteyi-nəzər fransız tarixçiləri E.Şavan, Anri Kordye və Rene Qrussenin əsərlərində əksini tapmışdır. E.Şavanın tədqiqatının qiymətli cəhəti odur ki, müəllif küllü miqdarda qədim mənbələrdən, birinci növbədə ilk dəfə Çin mənbələrindən istifadə etmişdir. Sonralar son illərdə bu mövzuda tədqiqatlar aparmış Lev Qumilyov məhz Şavanın tədqiqatlarını bir növ təkrar etmişdir.

VI-VIII əsrlərə aid Orxon-Yenisey türk run yazılarında "Tokuz oğuz" tayfa adı çəkilir. Bu, oğuzlar haqqında ilk mə'lumatdır. Bu barədə ətraflı tədqiqat C.Hamiltona mənsubdur[66]. Müəllif bu əsərində Türk xaqanlığına daxil olan türk tayfaları haqqında da mə'lumat verir və xüsusi olaraq uyğurların mənşəyi məsələsinə toxunur.

VIII-XIII əsrlərdə türk xalqlarının tarixi alman şərqşünasları İ.Markvart, F.Xirt, C.Klauson və b. tədqiqatlarınm mövzusudur. Onların içərisində İozef Markvart xüsusi yer tutur. Onun türk run yazıları və onların türk xalqlarının tədqiqi üçün əhəmiyyəti[67], Orta və Mərkəzi Asiyada yaşamış qədim xalqlar[68] haqqındakı əsərləri xüsusilə qeyd olunmasıdır. Markvart məşhur iranşünas idi, lakin onun tədqiqatlarında türk xalqlarınm çox minillik tarixi çox hallarda İran xalqlarınm kölgəsinə düşmüşdür. Məsələn, o hesab edir ki, türk run əlifbası öz mənşəyi e'tibarilə iranmənşəli soqd yazısına gedib çıxır. Bir sıra qədim türk titullarını (şad, tiqin və s.) o, iranmənşəli sayır.



1896-cı ildə fransız tarixçisi Leon Kaenin türklərin və monqolların tarixinə dair əsəri çap olunmuşdur. Yuxarıda biz hələ XVIII əsrdə fransız tarixçisi Deginin hunların, türklərin və monqollarm tarixinə dair çoxcildlik əsər yazdığını qeyd etmişdik. Kaenin əsəri Deginkin vaxtından sonra türkologiya sahəsində aparılmış tədqiqatları da əhatə etməklə irəliyə doğru böyük addım idi. Lakin Kaen də Qərbi Avropamn digər türkşünasları kimi, qədim türklərə aid bə'zi yanlış nöqteyi-nəzərləri təkrar edir. Onun əsərlərində türklərə və monqollara kinli münasibət hiss olunur və qeyd olunur ki, poloveslər, peçeneqlər və sonra da tatar-monqollar uzun müddət Rusiyanın mədəni inkişafını ləngitdilər. Belə bir mülahizə irəli sürülür ki, köçəri həyat sürdüklərinə görə, türk-monqollar ruslara və ümumiyyətlə, slavyan xalqlarına münasibətdə nisbətən mədəni səviyyə e'tibarı ilə aşağı pillədə idilər.

XIX əsrin ortalarından sonra Rusiyada türk xalqlarının tarixinə dair bir sıra araşdırmalar aparılır. Bu, əsas e'tibarı ilə Mərkəzi Asiya və Qazaxıstanın işğalı ilə əlaqədar idi.

***Rus tarixşünaslığı.*** Rusiyada türk xalqları tarixinə dair tədqiqatlar hələ XIX əsrin II yarısında başlansa da, bu sahədə əsas rolu Sovet-rus tarixçiləri oynamışlar.

Erkən orta əsrlərdə türk xalqları tarixinin sanballı tədqiqatçılarından biri arxeoloq M.İ.Artamonovdur. O, əsas e'tibarilə xəzərlər haqqında araşdırmalar aparmış və iki iri monoqrafiya çap etdirmişdir[69]. M.İ.Artamonovun əsərlərində eranın əvvəllərindən Cənub-Şərqi Avropada hunlarm hökmranlığından başlayaraq XI-XII əsrlərə qədərki dövr tədqiq olunur. Onun iri həcmli "Xəzərlərin tarixi" əsərində hunların III-IV əsrlərdə qərbə hərəkəti, Hun imperiyasının yaranması və 454-cü ildə Attila öldükdən sonra süqutu, Xəzər dövlətinin yaranması və tarixi, Hun imperiyası dağıldıqdan sonra Cənub-Şərqi Avropada yaranmış utiqur, savar, peçeneq, avar və b. türk tayfa ittifaqları haqqında ətraflı danışılır. Lakin M.İ.Artamonov hunların eramızın III-IV əsrlərində Cənub-Şərqi Avropaya gəlməsinə qədər oralarda türkdilli əhalinin yaşaması fikrini qəbul etmir. O, yazır ki, əvvəllər orada irandilli əhali

yaşayırdı və hunlar gələrək onları assimilyasiya etdilər[70]. Bu, əlbəttə yanlış fikirdir.

Türk xalqlarınm tarixi üzrə tədqiqatlar, yuxarıda dediyimiz kimi, əsasən XIX əsrin II yarısından başlanmışdır. Bunlardan V.V.Qriqoryev, N.A.Aristov, P.İ.Rıçkov, N.İ.Veselovski, V.R.Rozen, V.V.Radlov, V.V.Bartold, P.M.Melioranski, B.Y.Vladimirtsev, A.Y.Yakubovski və b. göstərmək olar. V.V.Qriqoryev rus türkoloq-tarixçiləri içərisində yeganə şəxsdir ki, sakları türkdilli etnos hesab etmişdir[71]. Lakin onun bu nöqteyi-nəzəri Sovet tarixşünaslığında ciddi e'tiraza səbəb olmuş və qəbul edilməmişdir. Xüsusilə, Sovet-rus tarixçiləri onun bu əsərini hər yerdə məkrlə yad etmiş və tənqid etmişlər. Halbuki, saklar həqiqətən də qədim türk etnosudur və son tədqiqatçılar da məsələni məhz belə qoyurlar.

1767-ci ildə P.İ.Rıçkov ilk dəfə olaraq tatarların tarixi haqqında əsər yazmışdır[72]. Onun əsərində Kazan xanlığı XVI əsrdə Rusiya tərəfindən işğal edildikdən əvvəl və sonra tatarların tarixi məsələləri nəzərdən keçirilir və onların qədim Volqaboyu bulqarlarının sonrakı nəsilləri olması fikri irəli sürülür. Qeyd edilməlidir ki, hazırda Tatarıstan tarixçiləri də məsələni məhz belə şəkildə götürürlər və tatarların guya monqolların tərkibində XIII əsrdə gəlmə olması haqqında vaxtilə N.M.Karamzinin, V.N.Tatişevin və S.M.Solovyovun fikirlərini qəbul etmirlər. Bulqarlar isə Qara dənizin şimal çöllərinin qədim sakinləri hesab olunurlar. Arxeoloq və tarixçi A.P.Smirnovun qədim bulqarlara aid əsərində[73] belə bir fikir irəli sürülür ki, bulqarların Qara dənizin şimal sahillərinə gəlib məskunlaşması hunlarla əlaqədardır.

Şərqi və Qərbi Hun imperiyalarımn tarixini N.A.Bernştam[74] və L.N.Qumilyov[75] tədqiq etmişlər. Onların əsərləri əsas e'tibarilə Çin və antik mənbələr əsasında yazılmışdır.

Müasir türk xalqlarının erkən orta əsrlərdə tarixinin araşdırılması sahəsində akademik V.V.Bartoldun xidməti çox böyükdür[76]. Onun "Mərkəzi Asiyanın türk xalqlarının tarixinə dair 12 mühazirə" və "Türk-monqol xalqlarının tarixi" əsərləri öz elmi əhəmiyyətini indi də saxlamaqdadır[77]. V.V.Bartoldun türk xalqlarının tarixinə dair tədqiqatlarında qədim türk run yazılarının tarixi mənbə kimi əhəmiyyəti, Çin mənbələri və qədim türklər, Mərkəzi Asiyamn ərəblər tərəfindən işğalı, Mərkəzi Asiyamn türk tayfaları haqqında ərəb mənbələri, X əsrdə Mərkəzi Asiyanı əhatə etmiş türk Qaraxanilər dövləti, oğuzların mənşəyi və onların qərbə hərəkəti, Monqol imperiyasının yaranması, Qızıl Orda, Cağatay Ulusu, Əmir Teymurun müharibələri, Mərkəzi Asiyada XV əsrin əvvəllərində yaranmış Şeybanlar dövləti və b. məsələlər ətraflı izah olunmuşdur. Rus türkoloqları içərisində məhz V.V.Bartold Rusiya imperiyasında yaşayan türk xalqlarının orta əsrlər tarixi ilə ətraflı məşğul olmuşdur. O, türk xalqlarının təşəkkülü məsələsinə toxunmur. Görünür, müəllifin özü üçün bu problem aydın deyildi, çünki tarixşünaslıqda Mərkəzi Asiyada və Mərkəzi Asiyada e.ə.I minillikdə əhalinin irandilli olması konsepsiyası bu problemin həllinə imkan vermirdi. V.V.Bartoldun tədqiqatlarında Mərkəzi Asiyanın türk xalqlarınm tarixi VI-VII əsrlərdən XVII-XVIII əsrlərə qədər araşdırılmışdır. V.V.Bartold da Qərbi Avropa tarixçiləri fin Donner və fransız Qotye kimi Orxon-Yenisey türk run əlifbasının iranmənşəli olduğunu yazır[78]. O, qeyd edir ki, run yazılarında vəliəhd, şahzadə mə'nasında işlədilən "şad" sözü fars dilindəki "şah" sözündəndir[79]. Onun bu fikirləri sonra Sovet-rus türkoloqlarından S.Q.Klyaştornı tərəfindən qəbul edilmişdir. Ümumiyyətlə, V.V.Bartoldun əsərlərində də qədim türk tayfalarının "cavanlaşdırılması" tendensiyası nəzərə çarpır. Məsələn, o yazır ki, bulqarlar və xəzərlər VI əsrdən əvvəl mə'lum deyildi[80]. Halbuki qədim mənbələrdə bulqarların Ermənistanda məskunlaşması e.ə.II əsrə aid edilir. Xəzərlərin adı həmin mənbələrdə II-III əsrlərdə baş verən hadisələrlə əlaqədar çəkilir. O, eranın əvvəllərində Mərkəzi Asiyada türklərin yaşaması fikrini qəbul etmir[81]. Onun fikrincə, VI əsrdən əvvəl "türk" etnonimi olmayıb[82], halbuki yuxarıda deyildiyi kimi, eranın ilk əsrlərində yazmış Plini və Pomponi Mela Şimali Qafqazda türk adlı tayfanı qeyd edirlər. O, "xatun" sözünü iranmənşəli soqd sözü sayır[83]. Onun fikrincə, azərbaycanlılar

da XII əsrdən sonra türkləşiblər[84]. Bütün bunlar əlbəttə ki, yanlış mülahizələrdir.

Bununla belə V.V.Bartoldun əsərlərində diqqətə layiq elmi nəticələr də vardır. Eradan əvvəlki Çin mənbələrində Şərqi Monqolustanda yaşamış "Syanbi" adlı xalqın tunqusların ulu əcdadları olması fikrinin əksinə olaraq, o, bu etnosun türkmənşəli olduğunu yazır[85]. Qeyd edilməlidir ki, Mərkəzi Asiyanın ərəblər tərəfindən işğalı tarixinin bu mənbələr əsasında əhatəli tədqiqi də bu tədqiqatçıya məxsusdur.

A.Y.Yakubovski xüsusi olaraq Müqənna üsyanının tarixini araşdırmışdır[86].

Erkən orta əsrlərdə Mərkəzi Asiya şəhərləri problemini V.A.Lavrov tədqiq etmişdir[87].

Türk xalqlarının erkən orta əsrlər tarixi L.N.Qumilyov tərəfindən araşdırılmışdır. Onun ən məşhur əsəri "Qədim türklər" adlanır[88]. Əsərdə VI əsrdən VIII əsrin sonlarına qədərki tarixi hadisələr əhatə olunur. Orada Birinci (yaxud Qərbi) Türk xaqanlığı (546-658), İkinci (yaxud Şərqi) Türk xaqanlığı (678-747), Türkəş və Uyğur xaqanlıqları haqqında ətraflı danışılır. Bu xaqanlıqların tarixi əsas e'tibarilə qədim mənbələr və müəllifə qədərki mövcud ədəbiyyat əsasında şərh olunur. Lev Qumilyov qeyd edir ki, onun məqsədi dünya tarixi fonunda türk xalqlarının tarixini verməkdən ibarətdir. Lakin qeyd etmək lazımdır ki, türk xalqlarının bəşər tarixində mövqeyinin müəyyən edilməsində L.Qumilyov özündən qabaqkı xarici və rus tarixçilərindən fərqli bir şey deyə bilməmişdir. Lev Qumilyov üçün "qədim türklər" eramızın VI-X əsrlərində yaşayan türklərdir. Bəs ondan qabaqkı əsrlərdə və eradan əvvəlki minilliklərdəki türklər haradadır? Türk xalqlarının qədim dövrünü, eramızın VI-X əsrləri ilə məhdudlaşdırmaq kökündən səhvdir. Bu səhv Avropa və Sovet-rus türkoloqlarının türk xalqlarını "cavan xalqlar" sırasına qoyması konsepsiyasından irəli gəlir. Əslində "qədim türklər" e.ə.I minillikdə mə'lum olan kimmerlər, skiflər, saklar, sarmatlar və massaqetlərdir. L.Qumilyovun konsepsiyasında isə həmin



etnoslar fars (iran) mənşəli xalqlardır. Mövzumuzla əlaqədar olaraq L.Qumilyovun "Xəzər ətrafında minilliklər" əsəri də qeyd olunmalıdır[89]. L.Qumilyovun bu əsərində də türk xalqlarının qədim tarixi saxtalaşdırılmışdır. Məsələn, 3-cü səhifədə o, yazır ki, e.ə.III əsrdə Orta və Mərkəzi Asiyada - Karpatdan Çinə qədər olan ərazidə "qədim köçərilər türklərlə əvəz olundu". Deməli, belə çıxır ki, e.ə.III əsrdən qabaq bu ərazidə türk yaşamırdı. Artıq indi aydınlaşdırılmışdır ki, e.ə.VII əsrdə "Avesta"da ari və türk etnosları bir-birlərinə düşmən etnoslar kimi göstərilir. Lakin L.Qumilyov yazır ki, İran və Turan xalqlarının ikisi də arilər (farsların ulu əcdadları) idi[90]. Çin mənbələrində eramızın əvvəllərində Mərkəzi Asiyada "yueçji" adlı xalqdan danışılır. Tədqiqatçılar onların türk kuşanlar olduğunu yazmışlar, lakin L.Qumilyov yazır ki, bunlar irandilli soqdlardır[91]. Türk suvarlar haqqında o yazır ki, onlar Uzaq Şərqdə yaşayan və türk olmayan samodiylərdir[92].

Bütün bunlar göstərir ki, türk xalqlarının qədim dövrdə və erkən orta əsrlərdə tarixinin bir sıra məsələləri indiyədək obyektiv həllini tapmamış halda qalmaqdadır.

XIII-XIV əsrlərdə Mərkəzi Asiya və Şərqi Avropa Çingiz xanın nəslindən olan xanların hakimiyyəti altında idi. Qərbi Sibirdə, Volqaboyunda və Şərqi Avropada monqolların dövləti Qızıl Orda adı ilə mə'lumdur. Rus tarixi ilə əlaqədar olaraq bu məsələ B.D.Qrekov və A.Y.Yakubovski tərəfindən tədqiq olunmuşdur[93]. Əsərdə Monqol imperiyasının yaranması və işğalları, imperiyanın siyasi quruluşu məsələləri nəzərdən keçirilir və Qızıl Ordanın tarixi verilir. Qərbi Sibir və Volqaboyu türk xalqlarının orta əsrlərdə tədqiqi baxımından əsər indi də elmi qiymətini saxlamışdır. Mərkəzi Asiya xalqlarının monqolların hakimiyyəti vaxtında tarixi B.Y.Vladimirtsevin əsərində verilmişdir[94]. XV-XVII əsrlərdə türk mənbələrinin tarixi V.V.Bartold tərəfindən ətraflı öyrənilmişdir. Mərkəzi Asiya xalqlarının XVI əsrdən sonrakı tarixi P.P.İvanovun tədqiqatında verilmişdir[95].

A.N.Bernştamın Mərkəzi Asiyanın və Altayın qədim və erkən orta əsrlər tarixinə dair tədqiqatı da qeyd olunmalıdır[96].

Biz yuxarıda ümumiyyətlə türk xalqları haqqında mövcud ədəbiyyatı qısa şəkildə nəzərdən keçirdik. İndi ayrı-ayrı türk xalqları haqqında Sovet hakimiyyəti illərində aparılmış tədqiqatlara diqqət yetirək. Bu ona görə vacibdir ki, Sovet hakimiyyətinə qədər ayrı-ayrı türk xalqlarının tarixləri xüsusi tədqiqat predmeti olmamışdır. Bu sahədə araşdırmalar əsasən II Dünya müharibəsindən sonrakı illərdə aparılmışdır.

Özbəklərin orta əsrlər tarixi haqqında yazmış tədqiqatçılardan başqa (V.V.Bartold, V.V.Radlov, S.P.Tolstov, N.A. Aristov və b.) Sovet quruluşu illərində A.M.Belenitski[97] və A.N.Boldırevin tədqiqatları mühüm yer tutur. Arxeoloji və yazılı mənbələr əsasında özbəklərin orta əsrlər tarixi B.Ə.Əhmədovun monoqrafiyasında əhatə olunmuşdur[98].

Başqırdların qədim tarixi haqqında yerli yazılı mənbələr yoxdur. İlk dəfə onlar haqqında IX-XII əsrlərdə ərəb müəlliflərinin əsərlərində mə'lumatlara rast gəlinir. Keçən əsrin sonlarında çap olunmuş kiçik həcmli əsərlər nəzərə alınmazsa, başqırdların orta əsrlər tarixi əsrimizin 30-cu illərində tədqiq olunmağa başlanmışdır. 1936-cı ildə ilk dəfə olaraq yazılı mənbələrdə başqırdların orta əsrlər tarixinə dair mə'lumatlar toplanıb çap edilmişdir[99]. II Dünya müharibəsindən sonrakı illərdə S.İ.Rudenko "Башкиры" adlı əsər yazmışdır[100]. Müəllif başqırdların ulu əcdadlarını eranın ilk əsrlərində hunların qərbə hərəkəti ilə əlaqələndirir. Başqırdıstan ərazisində erkən orta əsrlərə aid arxeoloji tapıntılar göstərir ki, başqırdların etnogenezində Ural və Xəzər dənizi arasındakı səhralarda yaşamış peçeneqlər və kumanlar (rus mənbələrində poloveslər) mühüm rol oynamışlar. Başqırdların erkən orta əsrlər tarixi əslən başqırd olan X.Y.Taxoyev tərəfindən işlənmişdir[101]. Başqırdların qədim və orta əsrlər tarixi R.Kuzeyevin əsərində araşdırılmışdır[102].

Volqaboyunda yaşayan türkdilli xalqlardan biri olan çuvaşların tarixinin qədim və erkən orta əsrlər dövrünə aid yazılı mənbə çox azdır. Volqaboyu Rusiya tərəfindən işğal edildikdən sonra çuvaşlar haqqında rus tədqiqatçılarının əsərləri yaranmağa başlayır. Çuvaşların tarixinin yazılması təşəbbüsü N.İ.Aşmarinə mənsubdur. N.İ.Aşmarin arxeoloji faktlar və azsaylı yazılı mənbələr əsasında belə qənaətə gəlmişdir ki, çuvaşların təşəkkülündə qədim türkdilli bulqarlar mühüm yer tutmuşlar[103]. Bu problem sonra P.N.Tretyakov tərəfindən araşdırılmışdır[104]. Volqaboyunda yaşayan türk xalqlarının, o cümlədən çuvaşların IX-X əsrlər tarixi məsələlərinə B.İ.Zaxoder də toxunmuşdur[105].

Qədim türk xalqlarından biri olan uyğurların orta əsrlərdə tarixi hələ keçən əsrdə V.V.Radlov tərəfindən tədqiq olunmuşdur[106]. Sovet dövründə bu məsələyə D.İ.Tixonovun əsəri həsr olunmuşdur[107].

Qazaxların orta əsrlər tarixi haqqında erkən orta əsrlərə aid yazılı mənbələr yoxdur. Qazaxıstan ərazisində e.ə.I minillikdə yaşamış türkdilli saklar isə irandilli etnos sayılır və təəccüblü olsa da, bu qondarma fikir Qazaxıstan tarixinə dair ümumiləşdirilmiş əsərdə də əksini tapmışdır. Qazaxıstan ərazisində müharibədən sonrakı illərdə aparılmış geniş miqyaslı arxeoloji qazıntılar nəticəsində qədim dövrdə və erkən orta əsrlərdə orada əhalinin ictimai quruluşu və təsərrüfat həyatı haqqında qiymətli faktlar üzə çıxarılmışdır.

Qazaxların orta əsrlər tarixşünaslığının öyrənilməsi XIX əsrin 50-ci illərindən başlanmışdır. Bu sahədə P.P.Semyonov Tyan-Şanskinin xidmətləri böyükdür. O, 1856-1857 və 1888-ci illərdə Altay və Qazaxıstan ərazisinə elmi səfərlərdə olmuşdur. Qazaxların orta əsrlər tarixinin öyrənilməsində əslən qazax Ç.Ç.Vəlixanovun xidməti əvəzsizdir. Çokan Vəlixanovun 4 cildlik əsəri qazaxların şəcərə cədvəlləri əsasında keçmiş etnik tərkibi haqqında dolğun mə'lumatla zəngindir. Keçən əsrdə qazaxların orta əsrlər tarixi haqqında V.V.Radlovun və N.A.Aristovun tədqiqatları da qeyd olunmalıdır. Qazaxların orta əsrlər tarixi əsas e'tibarilə Sovet illərində qazax tədqiqatçıları tərəfindən ətraflı öyrənilmişdir. Bunlara O.K.Karayevi, E.A.Davidoviçi, K.A.Akişevi, A.Anarbayevi və b. göstərmək olar.

Qırğızların orta əsrlər tarixi qazaxların tarixi ilə sıx surətdə bağlıdır. Ona görə ki, XVIII əsrə qədər qazaxların və

qırğızların yaşadıqları ərazilər sərhədlənməmişdi. Qırğızların orta əsrlər tarixi hələ keçən əsrdə V.V.Radlovun, V.V.Bartoldun, A.Y.Yakubovskinin, Q.E.Qrum-Qrjimaylonun və b. əsərlərində müəyyən qədər işlənmişdir. Sovet quruluşu illərində qırğızların orta əsrlər tarixi ilə S.Q.Klyaştornıy[108], S.M.Abramzon[109], A.N.Bernştam və b. məşğul olmuşlar.

Türk xalqlarından biri də yakutlardır. Uzaq Şərqdə yaşayan bu xalqın qədim dövr və orta əsrlər tarixi haqqında demək olar ki, heç bir yazılı mənbə yoxdur. Bu dövrlərin tarixi əsasən xalq içərisindəki dastanlar və arxeoloji qazıntılar əsasında bərpa edilir. Uzaq Şərq Rusiya tərəfindən işğal ediləndən sonra rus mə'murları bu xalq haqqında mə'lumatlar toplamışlar. Yalnız keçən əsrin sonlarından tarixi tədqiqatlar meydana gəlməyə başlamışdır. Bunlara N.F.Katanovun[110], P.P.Okladnikovun[111], S.A.Tokarevin[112] əsərlərini misal göstərmək olar. Yakutlar barədə Çin mənbələrində olan mə'lumatlar N.V.Kyüner tərəfindən toplanmışdır[113].

Türk xalqlarından biri olan xakasların da qədim dövr və erkən orta əsrlər tarixinə aid yazılı mənbə yoxdur. Onların tarixi yalnız Sovet dövründə öyrənilməyə başlanmışdır. Bu sahədə L.R.Kızlasov[114], N.N.Kozman[115] və b. tədqiqatları diqqəti cəlb edir.

Türk xalqlarından biri olan tatarların xüsusi olaraq orta əsrlər tarixi keçən əsrin 70-ci illərindən öyrənilməyə başlamışdır. Qeyd edilməlidir ki, Rus imperiyasında yaşayan türk xalqları içərisində tatarların tarixi nisbətən daha yaxşı öyrənilmişdir. Bunun səbəbi odur ki, Kazan xanlığının IV İvan tərəfindən işğalından sonra Rusiyada istər-istəməz Volqaboyu tatarlarının tarixi ilə məşğul olmağa başlamışdılar. Hələ 1847-ci ildə N.Bajenov Kazan xanlığının tarixinə dair üç cildlik əsər yazmışdır[116]. 1853-cü ildə N.Berezinin Volqa bulqarlarının tarixinə dair əsəri çap olunur[117]. Əsərdə tatarların birbaşa Volqaboyu bulqarlarının sonrakı nəsilləri olması fikri əsas yer tutur. Keçən əsrdə Ş.Marjani[118] və Q.İ.Peretyakoviç[119] tatarların orta əsrlər tarixinə dair əsərlər yazmışlar.

Tatarıstan tatarlarının tarixi ilə Q.Z.Kunsoviç[120] və milliyyətcə tatar olan Q.Əhmədov[121] da məşğul olmuşlar. 1937-ci



ildə tatarlar haqqında yazılı mənbələrdəki mə'lumatlar (bu mə'lumatlar əsasən Volqa bulqarlarına aiddir) toplanıb çap edilmişdir[122]. Qazan tatarlarının tarixi N.İ.Vorobyovanın da tədqiqat predmeti olmuşdur[123]. Tatarların tarixinin I cildi 1955-ci ildə Kazanda çap olunmuşdur[124].

Mərkəzi Asiyanın türk xalqları içərisində türkmənlər nisbətən geniş tarixşünaslığa malikdir. Bu onunla əlaqədardır ki, Türkmənistan ərazisi tarixən qədim şərq dövlətləri, birinci növbədə İranla həmsərhəd olmuşdur. Türkmənlərin erkən orta əsrlər tarixi yazılı mənbələrdə ətraflı əksini tapmışdır. Sovet illərində Türkmənistan ərazisində aparılmış arxeoloji qazıntılar zamanı türkmən xalqının qədim dövr və erkən orta əsrlər tarixinə dair çoxlu abidələr üzə çıxarılmışdır. Türkmənlərin IX-XIII əsrlər tarixi S.Q.Ağacanov tərəfindən öyrənilmişdir[125]. Həmin dövrün tarixini B.Zaxoder də araşdırmışdır[126]. Türkmənistanın XII-XIII əsrlərdə monqol imperiyası tərkibində tarixi məsələləri B.Y.Vladimirtsev tədqiq etmişdir[127].

Altay türk xalqlarınm tarixşünaslığı da əsas e'tibarilə XIX əsrdə başlanmışdır. Lakin bu sahədə monoqrafik tədqiqatlar II Dünya müharibəsindən sonra başlanmışdır. Orta əsrlərdə altayların tarixinə L.P.Potapovun əsərləri həsr olunmuşdur[128]. Şərqi Sibirdə Anqara çayı ilə Baykal gölü arasındakı ərazilərdə yaşamış qırğız tayfaları Q.N.Potanin tərəfindən araşdırılmışdır[129].

Qeyd olunmalıdır ki, ümumiyyətlə orta əsrlərdə və yeni dövrdə türk tayfaları, türk dövlət qurumları, Şərqi Avropada erkən orta əsrlərdə yaşamış ayrı-ayrı türk xalqlarınm etnik tarixi, dinləri və adət-ən'ənələri və b. problemlərin tədqiq olunmasında Rus və Sovet tarixçi və dilçilərinin xidmətləri əvəzsizdir[130].

***Türkiyə tarixşünaslığı.*** Yuxarıda biz Avropa və rus tarixçilərinin türk xalqlarının orta əsrlər tarixinə aid tədqiqatlarından danışdıqda qeyd etmişdik ki, həmin tədqiqatçıların ən böyük nöqsanı ondadır ki, onlar eradan əvvəlki minillikdə türk xalqlarının tarixindən bəhs etmirlər (burada e.ə.III əsrdə yaranmış Şərqi Hun imperiyasının tarixini istisna edirik),

çünki onlar belə hesab edirlər ki, türklər yalnız VI əsrdən tarix səhnəsinə çıxırlar.

Bunun əksinə olaraq Türkiyə tarixçiləri məsələni başqa cür qoyurlar. Burada onların eradan əvvəlki minilliklərdə türk xalqlarının tarixi haqqmdakı bütün tədqiqatlarmın təhlilini vermək imkanı yoxdur. Təkcə onu qeyd etmək lazımdır ki, Türkiyə tədqiqatçıları e.ə.I minillikdə şərq mənbələrində (əsasən assur, urartu və qədim fars mənbələrində) və antik mənbələrdə (yunan və latın müəlliflərinin əsərlərində) haqqında danışılan skif, kimmer, sak, quğar, şirak və b. qədim etnosları türkdillilər sayırlar və eramızm I minilliyində Mərkəzi Asiyada və Şərqi Avropada türk tayfalarının əcdadlarını həmin qədim etnoslarda görürlər.

Türk xalqlarının qədim dövr və eranın I miniliyində tarixinin tədqiqatçıları arasında ən məşhur tədqiqatçı Əhməd Zəki Validi Toqandır. Əhməd Zəki əslən başqırddır. O, bir müddət, əsrimizin 20-ci illərində Bakıda çalışmış və sonra Türkiyəyə getmişdir. 1946-cı ildə onun "Ümumi türk tarixinə giriş" əsəri İstanbulda çap olunmuşdur[131]. Əsərdə müəllif əvvəlcə skiflər, kimmerlər, saklar, quğarlar, şiraklar və b. qədim türk tayfaları haqqmda danışır. Daha sonra o, e.ə.III-I əsrlərdəki Şərqi Hun imperiyası və eramızm III-V əsrlərdəki Qərbi Hun imperiyası haqqında mə'lumat verir. Əhməd Zəki hesab edir ki, eramızm I minilliyində Cənub-Şərqi Avropada və Qafqazda yaşamış türk tayfalarının hamısını hunların eranın əvvəllərində şərqdən qərbə hərəkəti ilə bağlamaq yanlışdır, bu tayfaların bə'ziləri eradan əvvəlki minillikdə mə'lum skiflərin və sakların sonrakı nəsilləridir. Əhməd Zəki Validi Mərkəzi Asiyada yaşayan türk xalqlarını yerli hesab edir və onların əcdadlarınm hələ "Avesta"da arilərə qarşı mübarizə aparan turanlar olduğunu yazır. Hunlar barədə tam tədqiqat Bəhaəddin Ögələ məxsusdur. Mərkəzi Asiyada kuşanların və ağ hunların tarixi Ənvər Könükçünün tədqiqat predmeti olmuşdur[132]. Erkən orta əsrlərdə Qara dənizin şimal sahillərində və Şimali Qafqazda yaşayan türk tayfaları Türkiyə tarixçisi Bastav Şərifin tədqiqat obyekti olmuşdur[133].



Kamal Anadolun Mərkəzi Asiya və Cənub-Şərqi Avropada qədim dövr və orta əsrlərdə mövcud olmuş türk dövlətlərinin tarixinə həsr olunmuş əsəri də qeyd olunmalıdır[134]. Ramazan Şəşənin tədqiqatı da əsas e'tibarilə Mərkəzi Asiyanın erkən orta əsrlərdə türk dövlətləri barədədir[135].

Türk xalqlarının X-XIV əsrlər tarixi məsələlərilə M.İnanc məşğul olmuşdur[136]. İnanc Orxon-Yenisey run yazılarında "oğuz" sözünün ilk dəfə işlədildiyini qeyd edərək yazır ki, oğuzlar hunların sonrakı nəsilləridir. Daha sonra o, oğuzların XI əsrdə Yaxın Şərqə hərəkəti və Səlcuq oğuzları adı ilə Səlcuq dövlətinin yaranması məsələlərini geniş izah etmişdir. Bununla əlaqədar olaraq müəllif Mərkəzi Asiyada türk xalqlarının erkən orta əsrlərdə tarixinə də yeri gəldikcə toxunur.

XIV-XV əsrlərdə Mərkəzi Asiya türk xalqlarınm tarixi ilə Farux Sümər məşğul olmuşdur[137].

Türkiyə dövlətinin tarixşünaslığı əsasən XV əsrin əvvəllərindən inkişaf etmiş türk feodal tarixşünaslığı ilə başlanır. XVI-XVIII əsrlərdə görkəmli tarixçilərə (İbn-Kamal, Sadəddin, Münəccimbaşı və b.) yetişmişdir.

1910-cu ildə yaradılmış "Osmanlı tarixi cəmiyyəti"nin fəaliyyəti nəticəsində bir sıra arxiv sənədləri çap olundu və Türkiyənin tarixinə dair əsərlər yazıldı. 1931-ci ildə Mustafa Kamal Atatürkün təşəbbüsü ilə "Türk tarix qurumu" yaradıldı və qısa vaxt ərzində dörd cildlik "Tarix" kitabı yazıldı. XX əsrin 30-40-cı illərində M.F.Körpülü, A.R.Altmay, İ.X.Uzunçarşılı, A.İnak və b. tarixçilərin əsərlərində Türkiyənin tarixinin müxtəlif problemləri tədqiq olunmuşdur.

Türkiyə dövlətinin tarixşünaslığı əsasən XV əsrin əvvəllərindən inkişaf etmiş türk feodal tarixşünaslığı ilə başlanır. XVI-XVII əsrlərdə görkəmli tarixçilər (İbn-Kamal, Sadəddin, Münəccimbaşı və b.) yetişmişlər. 1910-cu ildə yaradılmış "Osmanlı tarixi cəmiyyəti"nin fəaliyyəti nəticəsində bir sıra arxiv sənədləri çap olundu və Türkiyənin tarixinə dair əsərlər yazıldı.

1931-ci ildə Mustafa Kamal Atatürkün təşəbbüsü ilə "Türk tarix qurumu" yaradıldı və qısa vaxt ərzində dörd cild-

lik "Tarix" kitabı yazıldı. XX əsrin 30-40-cı illərində M.F.Körpülü, A.R.Altınay, İ.X.Uzunçarşılı, A.İnak və b. tarixçilərin əsərlərində Türkiyənin tarixinin müxtəlif problemləri tədqiq olunmuşdur.

Biz yuxarıda türk xalqlarınm tarixi ilə əlaqədar mənbələrin və tədqiqatların yalnız xülasəsini verdik. Müxtəlif dövrlərdə türk tayfalarının və müasir türk xalqlarının tarixinə dair küllü miqdarda elmi məqalələr vardır. Lakin burada onların hətta müəyyən hissəsini belə əhatə etmək imkanı yoxdur.

---

[1] *Anau mədəniyyətinin kəşfi bu ekspedisiyanın fəaliyyəti ilə bağlıdır.*

[2] *Xarəzm arxeoloji ekspedisiyasının nəticələri S.P.Tolstovun əsərlərində(Толстов С.П. Древний Хорезм. М., 1948; Јенə онун. По следам древнехорезмийской цивилизации. Л., 1948) və "Культура и искусство древнего Хорезма. М., 1981" toplusunda çap olunmuş məqalələrdə ümumiləşdirilmişdir.*

[3] *40-cı illərin sonlarından - 70-ci illərin sonlarına qədər fəaliyyət göstərən bu ekspedisiyanın nəticələri M.E.Massonun, B.A.Kuftinin, B.A.Litvinskinin, V.İ.Sarianidinin, xüsusilə V.M.Massonun və ekspedisiyanın başqa iştirakçılarının çoxsaylı əsərlərində əks olunmuşdur.Bax:Массон В.М. Алтын-Депе. Л., 1981; Археология ССР. Энеолит СССР. М., 1982, с.10-16. Göstərilən əsərlərdə ekspedisiyanın nəticələrini əks etdirən geniş ədəbiyyat siyahısı verilmişdir. 1979-cu ildə V.M.Massonun də'vəti ilə BDU-nun professoru Q.S.İsmayılov da bu ekspedisiyanın iştirakçısı olmuşdur.*

[4] *Türküstanın daş dövrü abidələri "Археология СССР" seriyasında çap olunmuş "Палеолит СССР. М., 1984", "Мезолит СССР. М., 1989" kitablarında və ayrı-ayrı arxeoloqların əsərlərində ümumiləşdirilmiş və şərh edilmişdir.*

[5] *Skif və skif tipli sarmat abidələri haqqında bax: Археология СССР. Степи европейской части СССР в скифо-сар матское время. М., 1989. Mərkəzi Asiyanın skif abidələri S.İ.Rudenkonun, A.N.Bernştamın, A.D.Qraçın, B.A.Litvinskinin, M.P.Qryaznovun və b. əsərlərində geniş tədqiq olunmuşdur. Bax: Ədəbiyyat siyahısı.*



---

[6] *Sarmat mədəniyyətinin tədqiqinə K.A.Smirnov böyük əmək sərf etmişdir. Bax: Древности Евразии в скифо-сарматское время. М., 1984; Сокровища сарматских вождей и древние города Поволжья. М., 1989.*

[7] *1985-ci ildə Çin arxeoloqları Daoduntszı kəndi yaxınlığında Hun qəbiristanlığı aşkar etmişlər. Tədqiq edilən 27 qəbirdən mindən çox müxtəlif əşyalar (keramika nümunələri, tunc və dəmirdən müxtəlif əşyalar, bəzək şeyləri və s.) tapılmışdır. Tədqiqatçılar bu tapıntıların Şimali Çindəki skif qəbirlərindən tapılmış materiallarla bağlı olduğunu göstərirlər. Bax: Китай в эпоху древности. История и культура Востока Азии. Новосибирск, 1990, с.88-107.*

[8] *Массон В.М. Средняя Азия и Древний Восток. М.-Л., 1964 Yenə onun. Экономика и социальный строй древних обществ. Л., 1976; Массон М.Е. Краткий очерк истории - изучения Средней Азии в археологическом отношении. Ч.I. Ташкент, 1956.*

[9] *Евтюхова Л.А. Каменные изваяния Южной Сибири и Монголии. Материалы и исследования по археологии, № 24, М., 1952.*

[10] *Окладников А.П. История Якутской АССР. Т.I, М., 1949.*

[11] *Киселёв С.В. Древняя история Южной Сибири. М., 1951.*

[12] *Евтюхова Л.А. Южный Сибирь в древности. М., 1951.*

[13] *Вайнштейн С.И. Древний Пор-Бажин // Советская Этнография, 1964, № 6.*

[14] *Кызласов Л.Р. История Тувы в средние века. М, 1969.*

[15] *Geniş bax: Археология СССР. Степи Евразии в эпоху средневековья. М., 1981.*

[16] *Бичурин Н.Я. (Иакинф). Собрание сведений о народах, обитавщих в Средней Азии в древние времена. Тт.I-II, М.-Л., 1950; Т.III. М.-Л., 1953.*

[17] *Bu barədə bax: Бичурин Н.Я. Göst.əsəri, I c.*

[18] *Бичурин Н.Я. Göst.əsəri, I c.*

[19] *Yenə orada, I c., s.382.*

[20] *Bu barədə bax: Бартольд В.В. Соч. Т.V, с.33.*

[21] *Бартольд В.В. Соч. Т.V, с.20.*

[22] Bu mənbələrin təhlili haqda bax: Кляшторный С.Г. Древнетюркские рунические памятники как источник по истории Средней Азии. М., 1964.
[23] Bax: Əski türk yazılı abidələri müntəxəbatı. Bakı, 1992; Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey yazılı abidələri. Bakı, 1993.
[24] Радлов В.В. Опыт словаря тюркских наречий. Тт.I-IV. СПб., 1893-1911; Малов С.Е. Памятники древнетюркской письменности. М.-Л., 1951.
[25] Бартольд В.В. Соч. Т.V, с.26.
[26] Родословная туркмен Абулгази хана Хивинского. М., 1957.
[27] Тизенгаузен В.Г. Сборник материалов относящихся к истории Золотой Орды. Т.I. М.-Л., 1884; Т.II. М.-Л., 1941.
[28] Баскаков Н.А. Введение в изучение тюркских языков. М.,1969; Jенə Онун. Тюркская лексика в "Слове о полку Игорове". М., 1985.
[29] Bu mənbə 1895-ci ildə ingiliscə Londonda çap olunmuşdur.
[30] Захириддин Мухаммед Бабур. Бабурнаме. Ташкент, 1948.
[31] Латышев В.В. Известия древних писателей греческих и латынских о Скифии и Кавказе. Т.I. Греческие писатели.Вып.1-3; т.II. Латинские писатели. Вып.1-2. СПб., 1893-1906.
[32] Древние авторы о Средней Азии. Под ред.Л.В.Баженова. Ташкент, 1940; История Узбекистана в источниках. Сост. Б.В.Лунин. Ташкент, 1984.
[33] Григорьев В.В. Поход Александра Великого в Западный Туркестан. СПб., 1881.
[34] Bu müəllifinlərin mə'lumatları V.V.Latışevin adı çəkilən əsərində əksini tapmışdır.
[35] Аммиан Марцеллин. История. Пер. Ю.А.Кулаковского. 1908.
[36] Менандр. Сборник "Византийские историки". Пер.Г.Д.Дестунис. СПб., 1860; Феофилакт Симокатта. История. М., 1957 ; Прокопи. История войн римлян с персами. Кн.1. Пер.Г.Д. Дестуниса. СПб., 1876; Yenə onun. Тайная история. Пер.С.П.Кондратьева // Вестник Древней истории, 1938, № 4; Yenə onun. Война с готами. Пер.С.П.Кондратьева. М., 1950; Летопись Византийца Феофана. Пер.В.Н.Оболенского.



М., 1884; Сказания Приска Панийского. Пер.Г.Д.Дестуниса / / Учёные записки II отд. Академии Наук. Кн.VII. Вып. I. С Пб., 1861 (бах: Вестник Древней истории, 1948, № 4); Агафий. О царствовании Юстиниана. Пер.М.В.Левченко. М.-Л., 1953 вз б.
[37] Константин Багрянородный. Об управлении империей. М., 1990.
[38] Bu barədə bax: Джафаров Ю. Гунны и Азербайджан. Баку, 1985.
[39] Поло Марко. Книга Марко Поло. Пер. И.П.Минаева. М., 1955.
[40] Материалы по истории туркмен и Туркмении. Труды Института Востоковедения АН СССР. Т.I. Источники по истории народов СССР. М.-Л., 1939; Yenə orada, т.2. Иранские, бухарские и хивинские источники XV-XIX вв. М-Л., 1938; Материалы по истории Узбекской, Таджикской и Туркменской ССР. Т.I. Л., 1932.
[41] Крачковский И.Ю. О подготовке свода арабских источников для истории Восточной Европы, Кавказа и Средней Азии. Записки Института Востоковедения АН ССР. Т. I, 1932.
[42] Материалы по истории туркмен и Туркмении. Труды Института Востоковедения АН СССР. Т.I. Источники по истории народов СССР. М.-Л., 1939; Yenə orada, т.2. Иранские, бухарские и хивинские источники XV-XIX вв. М-Л., 1938; Материалы по истории Узбекской, Таджикской и Туркменской ССР. Т.I. Л., 1932.
[43] Yenə orada.
[44] Əl-Müqəddəsi. Əhsən ət-təqasim fi mə'rifət əl-əqalim. Leyden, 1894.
[45] Путешествие Ибн Фадлана на Волгу. М.-Л., 1939.
[46] Материалы по истории туркмен и Туркмении, ч.I.
[47] Bax: Асадов Ф.М. Арабские источники о тюрках в раннем средневековье. Баку, 1998.
[48] Наршахи. История Бухары. Пер. с персидского Н.Лыкошин. Ташкент, 1897.

[49]Бартольд В.В. Рукопись Туманского. Л., 1930.
[50]Утби Абу Наср. Китаб ал Йамени. Дели, 1847.
[51]Вах: Бартольд В.В. Отчёт о поездке в Среднюю Азию с научной целью (1893-1894). СПб., 1897.
[52]Рашид ад-Дин. Джами ат-таварих. Сборник летописей. Т.I, кн.I; Т.I, кн.2; Т.III. М-Л., 1946-1952.
[53]Гияс ад-Дин Али. Дневник похода Тимура в Индию. Издание Л.А.Зимина. СПб., 1915.
[54]Материалы по истории туркмен и Туркмении. Иранские,бухарские и хивинские источники XV-XIX вв. М.-Л., 1938.
[55]Материалы по истории Узбекской, Таджикской и Туркменской ССР. Ч.I. (Торговые сношения Московского государства с народами Средней Азии в XVI-XVII вв.) Л., 1932.
[56]Казахско-русские отношения в XVI-XVIII веках. Сб.документов и материалов. Алма-Ата, 1961.
[57]Акты исторические и юридические и древние царские грамоты Казахской и др. губерний. Т.I. Казань, 1859; История Татарии в материалах и документах. М., 1937. Сборник материалов по истории Казанского края. Казань, 1896.
[58]Материалы по истории Башкирской АССР. Т.I. М.-Л., 1936.
[59]Полное собрание русских летописей. Т.XIII. СПб., 1904.
[60] Altheim F. Gescihicte der Hunnen. Bd. I-IV. Berlin, 1959-1962.
[61] Altheim F. Atilla und die Hunnen. Baben, 1951.
[62] Deguignes J. Historie generale des Huns, des Turcs, des Mongols et des àutres Tatares occidentaux. Vol. I-IV. Paris, 1756-1758.
[63] Cordon C.D.The Age ot Atilla, Ann Arbor, 1960.
[64] Chirshmann R. Les Chionites-Heptalites Je Caere.1948.
[65] Maenchen-Helfen O.S. The world of the Huns. Los-Angeles, 1973.
[66] Hamilton J.R. Toguz-Oguz ct On-Uygyr. "Journal Asiatique", 1962, №250.
[67] Marquart I. Die Chronologie der Alt-turkiscaen in schriften. Leipzig, 1898.



[68] Yenə onun. Osteuropaische und Ostasiatische Streifzüge. Leipzig, 1903.
[69] Артамонов М.И. Очерки по истории древних хазар. Л., 1937; Yenə onun. История Хазар. Л., 1962.
[70] Артамонов М.И. История Хазар, с.41.
[71]Григорьев В.В. Исследование о скифском народе саках. СПб., 1871.
[72]Рычков П.И. Опыт Казанской истории. СПб., 1767.
[73]Смирнов А.П. Волжские булгары. М., 1951.
[74]Бернштам А.Н. Очерк истории гуннов. Л., 1951.
[75]Гумилев Л.Н. Хунны. М., 1960.
[76]Бартольд В.В. Туркестан в эпоху монгольского нашествия. Соч. Т.I. М., 1963; Yenə onun. История культурной жизни Туркестана. Соч. Т.II. Ч.1. М., 1963; Yenə onun. Киргизы. Исторический очерк. Соч. Т.II. Ч.1. М., 1963; Yenə onun. История Туркестана. Соч. Т.II. Ч.1. М., 1963; Yenə onun. Очерки истории Семиречья. Соч. Т.II. Ч.1. М., 1963; Yenə onun.К истории арабских завоеваний в Средней Азии. Соч. Т.II. Ч.2. М., 1964; Yenə onun. Двенадцать лекций по истории турецких народов Средней Азии. Соч. Т.V. М., 1968; Yenə onun. История турецко-монгольских народов. Соч. Т.V. М., 1968.
[77] Вах: Бартольд В.В. Соч. Т.V.
[78] Бартольд В.В. Соч. Т.V, с.26.
[79] Yenə orada.
[80] Yenə orada, s.37.
[81] Yenə onun, s.38.
[82] Yenə orada, s.39.
[83] Yenə orada, s.43.
[84] Yenə orada, s.213.
[85] Yenə orada, s.33.
[86]Якубовски А.Ю. Восстание Муканны // Советское востоковедение, V. М., 1948.
[87]Лавров В.А. Градостроительная культура Средней Азии. М., 1950.
[88]Гумилев Л.Н. Древние тюрки. М., 1967.

[89] Гумилев Л.Н. Тысячелетия вокруг Каспия. Баку, 1991.
[90] Yenə orada, s.56.
[91] Гумилев Л.Н. Тысячелетия вокруг Каспия, с.118
[92] Yenə orada, s.136.
[93] Греков Б.Д., Якубовский А.Ю. Золотая Орда и её падение. М.-Л., 1950.
[94] Владимирцев Б.Е. Общественный строй монголов. Л., 1934.
[95] Иванов Л.Л. Очерк по истории Средней Азии. М., 1958.
[96] Бернштам А.Н. Историко-археологические очерки Центрального Тянь-Шаня и Памиро-Алтая //МИА, 1952, №28.
[97] Беленицкий А.М. К истории феодального землевладения в Средней Азии и Ираке в Тимуридовую эпоху. Р., 1948.
[98] Ахмедов Б.А. Государство кочевых узбеков. Ташкент, 1961.
[99] Материалы по истории Башкирской АССР. Ч.I. М.-Л., 1936.
[100] Руденко С.И. Башкиры. М., 1951.
[101] Тахоев Х.Я. Башкирия. М, 1959.
[102] Кузеев Р.Г. Этногенез башкирского народа. М., 1974.
[103] Ашмарин Н.И. Булгары и чуваши. Казань, 1902.
[104] Третьяков П.Н. Памятники древнейшей истории чувашского Поволжья. Чебоксары, 1948.
[105] Заходер Б.И. Горган и Поволжье в IX-X вв. М., 1962.
[106] Радлов В.В. В Сибири. М., 1989.
[107] Тихонов Д.И. Хозяйственный и общественный строй уйгурского государства X-XIV вв. М.-Л., 1960.
[108] Кляшторный С.Г. Древнетюркские рунические памятники как источник по истории Средней Азии.
[109] Абрамзон С.М. Киргизы и их этногенетические и исто рико-культурные связи. Л., 1971.
[110] Катанов Н.Ф. Письма из Сибири и Восточного Казахстана. СПб., 1893.
[111] Окладников А.П. История Якутской АССР. Т.I. М., 1955.
[112] Токарев С.А. Общественный строй якутов в XVII-XVI II вв.Якутск, 1945.
[113] Кюнер Н.В. Китайские известия о народах Якутии и с оседних районов. Л., 1946.



[114] Кызласов Л.Р. К вопросу об этногенезе хакасов. Уч.записки Хакасского института языка, литературы и истории. Т.VII. Абакан, 1959.
[115] Козман Н.Н. Хакасы. Иркутск, 1925.
[116] Баженов Н. Казанская история. Тт.I-III. Казань, 1847.
[117] Березин Н. Булгары на Волге. Казань, 1853.
[118] Маржани Ш. Очерк истории Булгарского и Казанского ханств. Ч.I. Казань, 1878.
[119] Перетякович Г.И. Поволжье в XV-XVI вв. М., 1877; Yenə onun.Поволжье в XVII - нач.XVIII вв. Одесса, 1882.
[120] Кунцович Г.З. История о казанском царстве. СПб., 1905.
[121] Axmadov Q. Bulqar tarixi. Kazan, 1907.
[122] История Татарии в документах и материалах.
[123] Воробьева Н.И. Казанские татары. Казань, 1953.
[124] История Татарской ССР. Т.I. Казань, 1955.
[125] Агаджанов С.Г. Очерк истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад, 1969.
[126] Заходер Б. Хорасан и образование сельджуков // Вопросы истории, 1945, № 4-5.
[127] Владимирцев Б.Е. Общественный строй монголов.
[128] Потапов Л.П. Очерк по истории алтайцев. М-Л., 1955; Yenə onun. Происхождение и формирование хакасской народности. Абакан, 1957.
[129] Потанин Г.Н. Очерки Северо-Западной Монголии. СПб., 1881.
[130] Анохин А.В. Материалы по шаманству алтайцев //Сборник Музея антропологии и этнографии, 1924, т.4, выпуск 2; Аристов Н.А. Заметки об этническом составе тюркских п лемен и народностей и сведения об их численности //"Живая старина", 1896, выпуск 3, 4; Баскаков Н.А. Введение в изучение тюркских языков.;
Yenə onun. Тюркская лексика в "Слове о полку Игореве"; Голубовский П. Печенеги, торки и половцы до нацествии татар. Киев, 1884; Гумилев Л.Н. Хунну. Средняя Азия в древние времена. М., 1962; Малов С.Е. Памятники древнетю ркской письменности.
1; Плетнева С.А. Печенеги, торки, половцы в южнорус-

*ских степях // Материалы и исследования по археологии, 1958,№ 62; Федоров-Давыдов Г.А. Кочевники Восточной Европы под властью Золотоордынских ханов. М., 1966; Иностранцев К. Хунну и гунны. Л., 1926 və b.*

[131] *Ahmet Zeki Validi Togan. Ümumi Türk tarihine giriş. I c. Istanbul, 1946.*

[132] *Enver Könükçü. Kuşan ve akhunlar tarihi. Ankara, 1973.*

[133] *Bastav Şerif. Sabir türkleri. Türk tarihi qurumu Belleten, № 5; 1941.*

[134] *Kemal Anadol. Orta Asya türk devletleri tarihi. İstanbul, 1996.*

[135] *İslam qeoqrafiyaçılarına göre türkler ve türk ülkeleri. Hazırlayanı Dr.Ramazan Şeşen. Ankara, 1985.*

[136] *Yinanc M. Selcuqler devri. İstanbul, 1941.*

[137] *Faruk Sümer. Karaqoyunlular. I-II c. Ankara, 1967.*



# I HİSSƏ

# ƏN QƏDİM DÖVRLƏRDƏN E.Ə. I MİNİLLİYƏ QƏDƏR

## *I fəsil*

## *QƏRBİ TÜRKÜSTAN VƏ QAZAXISTAN*

### *§1. "Türküstan" tarixi-coğrafi anlayışı*

Paropamid dağlarının öndağ hissəsi, qərbdən Xəzər dənizi, şimal-qərbdən Muqocar dağlarının cənub və şərq ətəkləri, şimaldan Turqay yaylası, şimal-şərqdən Qazaxıstan, Mərkəzi Asiyanın və Cənubi Qazaxıstanın düzənlik hissəsi Turan adlanır[1]. Bu ovalıq cənubdan Kopetdağ və Tan xırda təpəliyi, cənub-şərqdən Tyan-Şan və Pamir-Alay dağları ilə əhatələnir. Ovalığın əsas çayları Amudərya və Sırdəryadır. İlk dəfə olaraq "Avesta"da "iti sür'ətli atlara malik olan" tur tayfasının adı ilə bağlı Turyana (Turan) ölkəsinin adı çəkilir[2]. "Avesta"da turlar İran dillərində danışan müasir xalqların ulu əcdadları olan arilərin qatı düşməni, həm də onlardan fərqli etnos kimi göstərilir və Turan İrana (ari etnonimindən) qarşı qoyulur. İranda Sasanilər sülaləsi dövrünə aid ədəbi abidələrdə, IX əsr və sonrakı dövr (islam) tarixçilərinin əsərlərində və Firdovsinin "Şahnamə"sində Turan Türküstan, turanlılar isə türklər adlandırılırlar[3]. Tarixi mənbələrdə olan mə'lumatlara görə İranla Turan arasında sərhəd xətti Amudərya çayı idi. Orta əsrlərdə "Türküstan" anlayışı tarixi-coğrafi əsərlərdə işlədilirdi. Azərbaycanın XIV əsrin ikinci yarısı və XV əsrin I yarısında yaşamış görkəmli coğrafiyaşünas alimi Əbdürrəşid Bakuvi Türküstanın bütün türk ölkələrinin ümumi adı olduğunu və onun sərhədlərinin 1-ci iqlim qurşağından başlayaraq şərqin dərinliklərinə doğru 7-ci iqlimə qədər uzandı-

ğını yazmışdır. Bakuvi həmçinin türklərin cənubdan şimala doğru bütün iqlimlərdən şərqdə yaşadığını göstərmişdir[4].

XVII-XIX əsrin əvvəllərində Qərbi Avropa və Rus tədqiqatçıları Türküstanın mühüm ticarət, siyasi və mədəni mərkəzi olan Buxaranın adı ilə indiki Mərkəzi Asiyanı bə'zən "Böyük Buxariyə", ondan şərqdə yerləşən torpaqları isə "Kiçik Buxariyə" adlandırırdılar. XVIII əsrin ortalarında Türküstanın Mərkəzi Asiyadan şərqdəki ərazisi ("Kiçik Buxariyə") Çinə birləşdirildikdən sonra çinlilər ona Sintzyan ("Yeni sərhəd", "Yeni ərazi") adı veriblər[5]. XVIII-XIX əsrlərdə Şərqdə, sonra isə Rusiya və Avropada Böyük Buxariyə və Kiçik Buxariyə birlikdə Türküstan adlandırılırdı və həm də "Buxara Türküstanı" və Çin Türküstanı hissələrinə bölünürdü. XIX əsrin ortalarından başlayaraq Buxara Türküstanı Qərbi Türküstan, Çin Türküstanı isə Şərqi Türküstan adlandırılmağa başlanmış və sonralar bu coğrafi istilahlar vətəndaşlıq hüququ qazanmışdır.

XIX əsrdə və XX əsrin əvvəllərində müasir Mərkəzi Asiya və Qazaxıstan, Mərkəzi Asiyanın türk xalqları yaşayan hissəsini əhatə edən tarixi-coğrafi vilayət Türküstan adlanır və şərti olaraq Qərbi (və ya Rusiya), Şərqi (və ya Çin), Cənubi (və ya Əfqanıstan) Türküstanına bölünürdü. Rusiyaya birləşdirilmiş Qərbi Türküstanda 1867-ci ildə Türküstan general-qubernatorluğu təşkil olunmuşdu. 1886-cı ildən "Türküstan ölkəsi" adı rəsmiləşdi.

1918-ci ilin aprel ayında Qərbi Türküstan ərazisində RSFSR-in tərkibinə daxil olan Türküstan MSSR yaradılmışdı. Türküstan Sovet Respublikalarınm milli dövlət sərhədlərinin müəyyənləşdirilməsi ilə əlaqədar 1924-cü il oktyabrın 7-də Türküstan MSSR ləğv edildi. "Türküstan" istilahı "Mərkəzi Asiya" istilahı ilə əvəz olundu. Müasir dövrdə Qərbi Türküstanın ümumi coğrafi adı kimi "Mərkəzi Asiya" ilə yanaşı "Mərkəzi Asiya" adı da işlədilir.

"Qərbi Türküstan"dan fərqli olaraq "Şərqi Türküstan" coğrafi adı elmi ədəbiyyatda indiyədək işlədilməkdədir.



### *§2. Qərbi Türküstan və Qazaxıstan*

Türküstan hələ Qədim daş dövründə insanların yaşadıqları ölkələrdəndir[6]. Türküstanın müxtəlif bölgələrində daş dövrünün ayrı-ayrı mərhələlərinə aid açıq və mağara tipli ibtidai insan düşərgələri aşkar edilmişdir. ***Alt Paleolit*** dövrünün ən qədim düşərgələri Tacikistanın cənubunda (Karatau *1.300.200 min il* əvvəl), Qazaxıstanda (Boriqazqan, Tonirqazqan, Obalısan 300-200 min il əvvəl, Sarı-Arka *200-150* min il əvvəl, Jaman-Aybat *150 min il* əvvəl), Qırğızıstanda On Arça və Xoca Baqirxan-Say (300 min il əvvəl), Türkmənistanda Yanqaca-1 (200-150 min il əvvəl) və başqa ərazilərdə aşkar edilmişdir.

İbtidai insanlar əsasən dağlıq ərazilərdə yaşayır, ovçuluqla məşğul olur, yabanı meyvə və bitkilərlə dolanırdılar. Onlar alət kimi çaydaşı və çaxmaqdaşından hazırlanmış çopper və çopping tipli çapacaqlardan, nukleuslardan, ərsinlərdən, daşdan qoparılmış qəlpələrdən və b. istifadə edirdilər.

Qərbi Türküstan ərazisində Alt (yaxud İlk) Paleolitin Müstye mərhələsinə[7] aid abidələr daha geniş yayılmışdır. İndiyədək orada 80-dən çox Mustye düşərgəsi aşkar edilmişdir (Özbəkistanda Teşik-Taş, Xocakənd, Obirəhmət, Türkmənistanda Kaskır-Bulaq, Tacikistanda Ağzı-Kiçik və b.). Bu düşərgələr içərisində 1938-ci ildə aşkar edilmiş Teşik-Taş mağarası (mağara Özbəkistanın Surxandərya ərazisindədir) xüsusi yer tutur. Özbəkistanın Surxandərya əyaləti ərazisində yerləşən və sahəsi təxm.300 kv.m olan bu mağara dəniz səviyyəsindən 1500 m yüksəklikdə yerləşir. Orada min illər boyu arasıkəsilməz yaşayış davam etmişdir. Mağaradan tapılmış 8-9 yaşlı neandertal uşağının skeleti o dövr insanlarının fiziki tipini öyrənmək üçün olduqca əhəmiyyətlidir. Bu, Qərbi Türküstanda yeganə belə tapıntıdır. Qeyd edilməlidir ki, qədimliyinə görə bu tapıntı keçmiş SSRİ ərazisində Azərbaycanda Azıx mağarasmda və Krımda Kiik-Kobada tapılmış insan skeletləri içərisində üçüncü yerdə durur. Arxeoloqlar uşağın sümüklərinin yanında 4 cüt dağ keçisi buynuzu aşkar

etmişlər. Onlardan biri kəllənin yanında yerə batırılmış vəziyyətdə idi (digərlərinin də bu vəziyyətdə olması güman edilir). Uşağın dəfn olunduğu yerin yaxınlığında həmçinin böyük ocaq yeri aşkar olunmuşdur. Qeyd etmək lazımdır ki, dağ keçisi buynuzlarının belə toplusu yalnız uşağın dəfn olunduğu təbəqədə aşkarlanmışdır. Göstərilən fakt dəfni müşayiət edən hansısa ayinin mövcudluğunu güman etməyə əsas verir. Bu kəşf neandertal adamının mə'nəvi həyatı ilə bağlı elmə mə'lum olan nadir tapıntılardandır.

Teşik-Taş adamları müxtəlif formalı (dairəvi və üçbucaqlı) nukleuslardan, ərsinlərdən, itiuclulardan və b. alətlərdən istifadə edirdilər.

Paleolitin son dövründə (təxm.40000-10000 il bundan əvvəl) Qərbi Türküstan əhalisinin həyat tərzində mühüm dəyişikliklər baş verir, əmək alətləri təkmilləşir. ***Üst Paleolit*** dövrünün ən mühüm abidələrindən biri Səmərqənd düşərgəsidir. 1939-cu ildə N.Q.Xarlamov tərəfindən aşkar edilmiş bu qədim insan düşərgəsi Son Paleolitin əvvəllərinə və ya ikinci yarısına aid edilir. Bu dövr üçün səciyyəvi olan daş alətlər (ərsinlər, prizmaşəkilli nüvələr, mikrolitik lövhələr, bizlər və s.) əsasən çaxmaqdaşı, xolsedon, diorit və kvarsdan hazırlanmışdır. Səmərqənd düşərgəsinin ən mühüm tapıntılarından biri ibtidai insanın sümük qalıqlarıdır. 1962-ci ildə buradan kromanyon tipli adamın[8] diş, çiyin sümüyünün bir hissəsi və üstündə 9 dişi olan alt çənə sümüyünün bir hissəsi, 1966-cı ildə isə üstündə 10 diş olan bütöv alt çənə tapılmışdır. Birinci tapıntı 25 yaşlı qadına, ikincisi 35 yaşlı qadına və ya kişiyə məxsusdur.

Düşərgədən tapılan heyvan sümüklərinin yarısı (50%) vəhşi at sümükləridir. Sonrakı yerləri uzunqulaq (17,6%), ibtidai tur (14,5%), çöl qoyunu (9,3%) və b. heyvanların sümükləri tuturlar.

Araşdırmalar göstərmişdir ki, Səmərqəndin Üst Paleolit mədəniyyəti öz kökləri ilə yerli Mustye mədəniyyətinə bağlı idi.

Alt Paleolitin Mustye (100-50 min il bundan əvvəl) dövrünə aid arxeoloji düşərgələrdə (Qazaxıstanda Çirçik, Altayda



Kan, Türkmənistanda Kaskır-Bulaq, Özbəkistanda Baysuntau və b.) neandertal adamların yaşadıqları müəyyən edilmişdir.

Qazaxıstan ərazisində Alt Paleolitə (təxm.80-50 min il bundan əvvələ) aid daş alətlər İrtış çayının yuxarı axınında Kanay aulunda, Üst Paleolit (təxm.15 min il bundan əvvəl) abidələri isə Buxtarlı çayının (yaxud Baxtarlı) hövzəsində aşkarlanmışdır. Buradakı iri mağarada uzun müddət yaşayış davam etmişdir.

Qərbi Türküstanda Alt Paleolitin Aşel və Son Paleolit dövrü insanlarının yaşayış məskənləri həmçinin Türkmənistanda (Krasnovodskun 39 km-də) Yanqaca-II düşərgə-e'malatxanası və Kara-Tenqir), Qazaxıstanda (Acısay, Şikayevka-II və b.), Tacikistanda (Xoca-Qor, Kulbulaq, Şunquru) aşkar edilmişdir.

Paleolitin son dövrünün final mərhələsi üçün kiçik ölçülü alətlərin hazırlanması səciyyəvi idi. Nəzərdə tutulmalıdır ki, yalnız Paleolitin axırlarında heyvan sümüklərindən bə'zi xırda alətlər düzəldilməyə başlanmışdır. Bundan sonra insanlar balıqçılıqla məşğul olmağa başlamış və ona görə tədricən çayların və göllərin sahillərində də yaşamağa keçmişlər. Qazaxıstan ərazisində Aral və Balxaş, Qırğızıstanda İssık-Kul göllərinin, İrtış, Amudərya, Sırdərya və Ural çaylarının hövzələrində qədim yaşayış məskənləri də bu vaxt yaranmışdır. Ovçuluq təsərrüfatında ixtisaslaşma baş vermişdi. Bir neçə qohum qəbiləni birləşdirən tayfalar meydana gəlmişdi.

On üç min il bundan əvvəl ibtidai cəmiyyətin inkişafında yeni mərhələ - ***Mezolit*** (Orta daş dövrü) başlanır. Bu dövrdə istehsal texnikası təkmilləşir. Əsasən daha mükəmməl ov silahlarının hazırlanması üçün nəzərdə tutulan kiçik həndəsi fiqurlu mikrolit alətlər bu dövrə aiddir.

Mezolit dövründə əhalinin toplum halında yaşadığı ərazilərdən biri Xəzər dənizinin şərq sahilləri idi. Cənub-Şərqi Xəzər sahillərində (Türkmənistan ərazisində) çoxtəbəqəli Cəbəl, Kaylı, Dam-Dam Çeşmə-1 və Dam-Dam Çeşmə-2 yaşayış məskənlərindən tapılmış materialların analogiyaları Türküstanın və Yaxın Şərqin qonşu həmdövr abidələrində də

aşkar edilmişdir. İstehsal texnikasının müqayisəsi tədqiqatçılara qohum tayfalarla məskunlaşmış, Şərqi və Cənub-Şərqi Xəzər ərazisini, İranın mərkəzi vilayətlərini, Şimali İraqı əhatə edən etno-mədəni "Xəzər arxeoloji əyalətinin" mövcudluğu fikrini irəli sürməyə imkan vermişdir. Ümumiyyətlə, Mezolit dövründə Şərqi Xəzərətrafı ərazilərdə yaşamış əhalinin Yaxın Şərqlə etno-mədəni əlaqələri tutarlı dəlillərlə sübut olunur.

Bu dövrdə əhali ovçuluq, balıqçılıq və yığıcılıqla məşğul olurdu. Əsas ov heyvanları vəhşi qoyun, dağ keçisi, qulan (Dam-Dam Çeşmə-2 arxeoloji abidəsi), öküz, ceyran, pişik (Cəbəl arxeoloji abidəsi) idilər. Əsas ov silahları iri mızraqlardan və nizələrdən, həmçinin quraşdırma mikrolövhələrdən ibarət olmuşdur. Qeyd edilməlidir ki, Qədim daş dövründə insanlar əsas e'tibarilə ovçuluqla dolandıqlarına görə dağlıq ərazilərdə yaşayırdılar. Səhralarda hələ məskunlaşma yox idi.

Ev təsərrüfatında dəri, sümük, ağac e'malı, əmək alətlərinin, balıqqulağı, sümük və daşdan bəzək əşyalarının hazırlanması, heyvan dərisindən paltar tikilməsi əsas yer tuturdu. Kaylı arxeoloji düşərgəsində paltar tikmək üçün istifadə edilən iynələr və bizlər tapılmışdır. Ümumiyyətlə, əmək alətlərinin 70-80%-i ovçuluqla və onun məhsulları-nın e'malı ilə bağlı alətlər idi.

Şərqi Xəzəryanı ərazinin Mezolit mədəniyyəti Qərbi Türküstanın Neolit dövrü mədəniyyətinin formalaşmasında mühüm rol oynamışdır.

Özbəkistan ərazisində Mezolit abidələri Surxandərya çayı vadisində, Fərqanədə və b. ərazilərdə aşkar edilmişdir (Maçay, Kulişir, Obişir və b.). Fərqanədə ***Obişir mədəniyyəti*** adı altında birləşdirilən abidələr Türküstanın Mezolit dövrünü öyrənmək baxımından xüsusilə əhəmiyyətlidir. Obişir mədəniyyətinə aid materialların paralellərinin Üst Paleolit dövrü Səmərqənd və Xoca-Qor məskənlərində də tapılması bu mədəniyyətlərin mənşəcə bir-birinə bağlı olduğunu göstərmişdir.

Obişirlilər əsasən ceyran, cüyür, qaban, canavar ovlayırdılar. Əsas ov silahı ***ox və yay*** idi. Obişir və b. düşərgələrdən



daş ox ucluqları tapılmışdır. Ot və yabanı taxıl biçmək üçün daş oraqdan istifadə edilirdi. Sümük qalıqları ev heyvanlarının əhilləşdirilməsini güman etməyə əsas verir.

Türküstanın Mezolit abidələri içərisində 60-70-ci illərdə Şimali Qazaxıstanda aşkar edilmiş abidələr xüsusi yer tutur. İşim çayı ilə Çaqlin çayı arasında yerləşən Mezolit düşərgələrini (Kuropatkina, Vinoqradovka, Telman və b.) arxeoloqlar ***Çaqlin mədəniyyəti*** adı altında birləşdirirlər.

Ovçuluq, balıqçılıq və yığıcılıq Çaqlin tayfalarının əsas təsərrüfat sahələri idi. Lakin təsərrüfat istehlak təsərrüfatı çərçivəsindən çıxmışdı. Ayrı-ayrı düşərgələrdə yerüstü yaşayış məskənləri qalıqlarının tapılması əhalinin oturaq həyata başladığını göstərir. Düzbucaqlı formada olan evlərin sahəsi (Telman XIVa, Ubaqan-III) 70-80 kv.m-ə çatırdı. Evlərin içində uzun müddət fəaliyyət göstərən ocaq yerləri vardır. Tədqiqatçılar belə yaşayış yerlərinin ovçu, yığıcı və balıqçıların böyük ailə icmasına məxsus olduğunu göstərirlər. Belə evlərdə bir neçə qohum ailədən ibarət olan və ümumi təsərrüfat aparan kollektiv yaşayırdı.

Qərbi Türküstanın Mezolit dövrü əhalisinin incəsənəti və dini inamları haqqında Özbəkistanda Zaraut-Kamar talvarında və Şaxtı mağarasında aşkar edilmiş ov səhnələri ilə bağlı rəsmlər aydın təsəvvür yaradır. Şəkillərin birində vəhşi öküzlərin kollektiv ovlanması səhnəsi təsvir olunmuşdur. Öküzlərdən biri 19 ovçu tərəfindən əhatəyə alınmışdır, öküzlərin ikisi isə qaçaraq canlarını qurtarırlar. Başqa şəkildə ceyranların ovlanması səhnəsi təsvir edilir. Ovçu onlardan birini mizraq və ya oxla yaralamışdır və s. Oxşar məzmunlu ov səhnələrinə Şaxtı mağarasında da rast gəlinir.

Hər iki abidədə Mezolit dövrü ovçularının dini ideologiyası əks olunmuşdur. Şəkillərdə ovçuluq ovsunu ilə bağlı dini ayinlərin yerinə yetirilməsi səhnələri təsvir edilmişdir.

Mezolit dövrü Qərbi Türküstanın qədim tayfalarının iqtisadi-mədəni həyatında mühüm mərhələ olmuşdur. Məhz bu dövrdə ***Neolit*** (Yeni daş dövrü) dövründə müşahidə olunan tərəqqinin zəmini qoyulmuşdur. Neolit dövründə (e.ə.VII-V

minilliklər) əkinçilik və maldarlıq müstəqil təsərrüfat sahələri kimi təşəkkül tapmış, istehlak təsərrüfatmdan istehsal təsərrüfatına keçid baş vermişdir. İlk dəfə gildən saxsı qablar düzəldilməsi də Neolit dövrünə aiddir. Neolit dövrünə aid abidələr Özbəkistanda Zaman-Baba, Qırğızıstanda Alay vadisində Kızıl-Su və Tuz-Su çaylarının qovşağında, Qazaxıstanda İssık-Kul gölünün sahillərində aşkarlanmışdır. Qazaxıstanda 220-ə qədər Neolit abidəsi İrtış və Sarı-Su çaylarının sahillərində tapılıb. Neolit dövründə əkinçilik xüsusi təsərrüfat məşğuliyyətinə çevrildiyinə görə insanlar ***oturaq həyat tərzinə*** keçdilər. Əkinçilikdə suvarma arxlarından istifadə olunması da bu dövrə təsadüf edir.

Qərbi Türküstanda ən qədim Neolit məskənləri Türkmənistan ərazisində Cəbəl mağarasında və Aşqabaddan 30 km şimalda Ceytun adlı ərazidə aşkar olunmuşdur. Ceytun düşərgəsində arxeoloqlar gil möhrədən və çiy kərpicdən yaşayış evlərinin qalıqlarını aşkar etmişlər. Mərkəzi Asiyada onlar ən qədim evlər hesab olunur. Türkmənistanda belə evlər Çopan-Təpə adlı yerdə də tapılmışdır. E.ə.V minilliyə aid ***Ceytun mədəniyyətinin*** izləri İranın şimal-şərqində də üzə çıxarılmışdır. Bu, göstərilən ərazidə iri tayfa birliyinin mövcud olduğunu göstərir. Ceytunda əkinçilik və maldarlıq təsərrüfatın əsasını təşkil edirdi. Arxeoloji qazıntılar zamanı aşkar edilən arpa və buğda toxumlarının izləri, çaxmaq daşından dişləri olan oraqlar və b. alətlər əkinçilik təsərrüfatının inkişafından xəbər verir. Əkinçilikdə sün'i suvarmadan istifadə edilirdi.

Təsərrüfatın ikinci mühüm sahəsi heyvandarlıq idi. Maldarlıqda əsas yeri xırda buynuzlu heyvanlar (qoyun və keçi) tuturdu. Ceytun mədəniyyətinin son mərhələsində bunlara iri buynuzlu heyvanlar da əlavə olunmuşdu.

Yeni tipli təsərrüfat fəaliyyəti insanların həyat və məişətində köklü dəyişikliklər yaratdı. Mağaralardakı və açıq havadakı müvəqqəti düşərgələri gil-möhrə və çiy kərpicdən uzun ömürlü tikililər əvəz etdi (qədim türk dillərində belə tikililər və düşərgələr - "eb", "ev" adlanırdı). Belə yaşayış



məskənlərinin əhalisi təxm.150-200 nəfər idi. Ceytun şəhər yerində və Ceytun mədəniyyətinə aid başqa məskənlərdə üzə çıxarılan evlər 20-25 kv.m-lik kiçik otaqlar idilər. Belə otaqlar qoşa ailənin yaşaması üçün nəzərdə tutulmuşdu.

Neolit dövründə erkən əkinçilik mədəniyyətləri üçün səciyyəvi olan gil qablar istehsalına başlandı. Ceytun düşərgəsində belə qabların kobud, lakin sadə naxışla bəzədilmiş nümunələri tapılmışdır.

Əkinçilik və maldarlıqla yanaşı ovçuluq da təsərrüfatın mühüm sahəsi olaraq qalırdı. Cəmiyyətin əsas təsərrüfat özəyini nəsli icma (və ya böyük ailə) təşkil edirdi.

Ceytun mədəniyyəti abidəsi olan Pesecik-Təpə şəhər yerinin mərkəzində ibadətgah aşkar edilmişdir. İbadətgahdan ümumi yığıncaq yeri kimi də istifadə olunmuşdur. Planına görə adi yaşayış yerlərinə bənzəyən ibadətgah ölçüsünə görə onlardan demək olar ki, iki dəfə böyük idi. İbadətgahda müxtəlif həndəsi fiqurların və heyvanların təsvir edildiyi divar rəsmlərinin qalıqları da aşkar edilmişdir. Bu rəsmlər Ceytun mədəniyyəti əhalisinin incəsənəti haqqında müəyyən təsəvvür yaradır.

Qazıntılar zamanı tapılan gil qadın fiqurları məhsuldarlıq və bərəkətin hamisi olan ilahəyə sitayişin mövcud olduğunu göstərir. Bə'zi tədqiqatçılara görə bu fiqurlar qədim türklərdə Umay (körpələrin və hamilə qadınların hamisi) ilahəsi ilə əlaqədardır. Digər tədqiqatçılara görə bu gil heykəllər Ana nəsli dövrünə aiddir və anaya (qadına) sitayişin təzahürüdür.

Bə'zi faktlar (evlərin döşəməsinin rənglənməsi, gil qabların və çaxmaqdaşı alətlərinin ayrı-ayrı əlamətləri və b.) Ceytun əhalisinin Zaqros qrupu tayfaları ilə əlaqələr saxladığını göstərir. Ümumiyyətlə isə Ceytun mədəniyyəti yerli Mezolit mədəniyyəti əsasında formalaşmışdı.

***Eneolit və Tunc dövrü.*** Neolitin sonlarından, yə'ni e.ə.IV minillikdə ilk dəfə mis və tunc alətlər meydana çıxır və daş alətlər tədriclə metal alətlərlə əvəz olunur. Ceytun mədəniyyəti Qərbi Türküstanda Eneolit (mis-daş) dövrü erkən əkinçilik mədəniyyətinin inkişafı üçün əsas oldu. Bu

mədəniyyət dövrünün ilk səciyyəvi materiallarının aşkar edildiyi Anau qədim yaşayış məskəninin adı ilə ***Anau mədəniyyəti*** adlanır[9]. Anau adlı təpədə başda R.Pompelli olmaqla amerikan arxeoloqları 1904-cü ildə qazıntılar aparmış və tapdıqlarını da götürüb getmişlər. Orada 4 mədəni təbəqə aşkarlanmışdır. Anau mədəniyyəti e.ə.V-III minilliklərdə mövcud olmuş və bir neçə tarixi inkişaf mərhələsindən keçmişdir. Eneolitin erkən mərhələsinə aid materiallar Anau I-A təbəqəsində aşkar edilmişdir. Düzbucaqlı çiy kərpicdən tikilmiş kiçik evlər, bişmiş gildən konusvari əl iyi, mis mə'mulatlar (bizlər, ikitiyəli bıçaqlar, iri ölçülü nizə ucluğu və s.), qırmızı və açıq fonda tortor üçbucaq fiqurlardan əmələ gələn həndəsi kompozisiya ilə naxışlanmış boyalı gil qablar (yarımdairəvi piyalələr, konusvari kiçik kasalar və bardaqlar) Anau arxeoloji mədəniyyətinin I-A təbəqəsi üçün səciyyəvi idi. Bu dövrdə Qərbi Türküstanın cənubunda gətirilmə xammalla işləyən metal e'malı mərkəzi təşəkkül tapmağa başlayır.

Anau I-A dövrünün əkinçilik-maldarlıq təsərrüfatı Ceytun dövrünün ən'ənələrini davam etdirirdi. Bütövlükdə Anau I-A kompleksində Ceytun Neolit ən'ənələri ilə texnoloji (metallurgiya, konusşəkilli əl iyi ilə əyirmə) və mədəni (keramika istehsalında yenilik, çaxmaqdaşı alətlərin yeni tipləri) yeniliklərin vəhdəti müşahidə olunur. Tədqiqatçılar bu faktı Mərkəzi İrandan yeni tayfaların gəlməsi və yerli tayfaları öz tərkibinə daxil etməsi ilə izah edirlər[10].

Anau mədəniyyətinin sonrakı mərhələsi Anau I-B və ya ***Namazqa*** (Namazgah)-I[11] adlanır. Burada arxeoloji tədqiqatlar arxeoloq B.A.Kuftinin başçılığı ilə aparılmış və 6 mədəni təbəqə üzə çıxarılmışdır. Namazgah-I mərhələsi üçün xırda doğranmış saman qatılan gildən monoxrom boyalı saxsı qablar, şarabənzər başlıqlı sancaqlar, gil qadın heykəlləri səciyyəvi idi. Qeyd edilməlidir ki, Mərkəzi Asiyada ilk naxışlanmış saxsı qablar burada tapılmışdır. Ceytun dövrünün kiçik yaşayış məskənləri ilə yanaşı sahəsi 10 hektara qədər olan daha iri mərkəzlər yaranır (Qara-Təpə və Namazgah-Təpə). Ayrı-ayrı evlər və ibadətgah divar naxışları ilə bəzədilmiş,



döşəmələri qırmızı və ya qara rənglə rənglənmişdir (Daşlıca-Təpə, Anau, Yassı-Təpə).

Uşaqların və böyüklərin qəbirlərinə firuzə və əqiqdən müxtəlif bəzək əşyaları (muncuqlar, asma bəzəklər və b.) qoyulurdu. Çiy gildən sxematik heyvan fiqurlarının düzəldilməsi geniş yayılmışdı.

Namazgah-I dövrünə aid saxsı qablardakı naxışların bə'zi elementlərinin oxşarlığı Hassun (Mesopotamiya) və Hacı-Firuz (Cənubi Azərbaycan) keramikasında aşkar olunmuşdur. Lakin bütövlükdə Namazgah-I mədəniyyəti yerli Ceytun və Anau I-A mədəniyyətləri ən'ənələrinin davamıdır.

Tədricən vahid Anau mədəniyyəti daxilində yerli variantlar formalaşmağa başlayır. Bu proses Eneolitin orta mərhələsinə aid olan (e.ə.IV minilliyin başlanğıcı və ortaları) Namazgah-II dövründə xüsusilə güclənir. Bu dövrün qərb qrupu abidələri üçün (Anau, Qara-Təpə, Namazgah-Təpə) qırmızı və qara rəngdə kiçik həndəsi ornamentlərlə bəzədilmiş yaraşıqlı naxışlı qablar səciyyəvidir[12]. Şərqdə isə (Altun-Təpə, Göksür vahəsinin yaşayış məskənləri) quru və bəsit naxışlı saxsı qablar üstünlük təşkil edir. Ola bilsin ki, bu etno-siyasi ayrılma iki tayfa birliyinin formalaşması ilə bağlıdır.

Aydın olur ki, təsərrüfat fəaliyyəti baxımından qərb və şərq erkən əkinçi icmaları bir-birindən ciddi fərqlənmirdilər. Onlar əsasən yumşaq buğda və ikicərgəli arpa əkirdilər. Suvarma əkinçiliyi genişlənmişdi. İnsanların fəaliyyət dairəsinə daxil edilən ev heyvanları da çoxalırdı. Anau və başqa abidələrdəki tapıntılar bu dövrdə ikihörgüclü dəvənin əhilləşdirildiyini göstərir. Cənubi Türkmənistan və Şərqi İranın qonşu vilayətləri ikihörgüclü dəvənin əhilləşdirildiyi mərkəz hesab olunur.

Qara-Təpə, Göksür-I, Altun-Təpə arxeoloji düşərgələri bu dövrün iri yaşayış məskənləri olmuşdur. Qara-Təpədə planlı tikilmiş çoxotaqlı evlər aşkar edilmişdir. Belə evlər iri yaşayış otaqlarından və təsərrüfat tikililərindən ibarət idi. Şərq qrupuna daxil olan Yalanqac-Təpə, Göksür-I və b. yaşayış məskənləri dövrələmə divarla əhatə olunmuşdular. Divarın perimetrinə dairəvi planlı evlər də daxil edilmişdi.

Mis mə'mulatların sayı xeyli çoxalmışdı. Köksür vahəsində mis bizlər, deşikaçan alətlər, nizə ucluqları və baltalar tapılmışdır. Metallurgiya sahəsində texnoloji tərəqqi baş vermişdi. Mis mə'mulatlarla yanaşı qızıl və gümüşdən bəzək əşyaları da düzəldilirdi. Qəbirlərə qoyulan bəzək əşyalarının (əsasən kəcdən, həmçinin əqiq, lazurit və qiymətli metallardan muncuqlar) sayı da xeyli artmışdı.

Namazgah-II dövrünün gil qadın fiqurları böyük maraq doğurur. Heykəlciklər qırmızı rənglə rənglənmiş, onun üstündən isə qara rənglə naxışlar və müxtəlif simvolların təsvirləri çəkilmişdir. Yalanqac-Təpədə tapılmış heykəlciklərin birinin bədəninə ortasında nöqtə olan 15 dairə çəkilmişdir. Onlar Günəş simvolları hesab edilir və onların təqvimlə bağlı olması ehtimal olunur.

Namazgah II dövründə dağətəyi zolaqda və Təcən çayı deltasında məskunlaşmış əkinçi icmalar ixtisaslaşmış istehsal sahələrinin, ilk növbədə metallurgiya və əkinçiliyin inkişafını şərtləndirən sabit suvarma əkinçiliyi sistemi yaratmışdılar. Mis alətlər çaxmaqdaşından hazırlanmış alətləri, demək olar ki, tamamilə sıxışdırmışdı. İctimai quruluşda mühüm dəyişikliklər baş vermişdi.

Anau və Namazgah-Təpə arxeoloji mədəniyyətləri Türküstan ərazisində ilk oturaq-əkinçi insan icmalarına məxsusdur. Bu mədəniyyətlərin yiyələri artıq əhilləşdirilmiş heyvanlar, o cümlədən dəvə saxlayırdılar. Gildən araba modelinin tapılması göstərir ki, bu icmalar artıq ev heyvanlarından qoşqu vasitəsi kimi istifadə edirdilər. Anau və Namazgah-Təpə mədəniyyətləri ilə İran və Mesopotamiyada (Dəclə və Fərat çayları arası ərazidə) həmin dövrə aid mədəniyyətlər arasında nə isə bir əlaqə vardır. Bu oxşarlıqların kökləri barədə baxışlar müxtəlifdir.

Bu mədəniyyətləri yaradanların da ictimai quruluşları haqqında müəyyən fikir irəli sürmək mümkündür. Tədqiqatçılara görə oralarda əkinçilik qadınlarla bağlı idi. Hesab edilir ki, Ceytun mədəniyyəti kökləri e'tibarilə qadın əməyi ilə əlaqədar olmuşdur. İcmalar o vaxt ana nəsli ilə gedirdi. Onda hə-



lə nizamlanmış nigah yox idi. Lakin aydın olur ki, çox keçmədən kişilərin rolu təsərrüfatda üstün mövqeyə malik olmuşdur. Bu göstərir ki, artıq monoqam ailə yaranmağa başlanmışdı və bununla da Ana nəsli (Azərbaycan tarixçisi prof.Süleyman Əliyarov "Ana nəsli" (Matriarxat) ifadəsini "Anaxaqanlıq" ifadəsi ilə əvəz etməyi təklif etmişdir) tədriclə Ata nəsli (Patriarxat) ilə əvəz olunmuşdur. Lakin ana kultu məhsuldarlıq simvolu kimi qalmışdı: ocaqların kənarlarında çoxlu qadın heykəlləri tapılmışdır.

***Son Eneolitdə*** (IV minilliyin son rübü - III minilliyin əvvəlləri) Qərbi Türküstan cəmiyyəti mədəni yüksəliş dövrünə qədəm qoyur. Bu dövrdə Türkmənistanın cənubunda tə'siri daha geniş ərazilərə yayılan parlaq erkən əkinçilik mədəniyyəti formalaşır.

Eneolitin sonlarında Anau mədəniyyətinin tə'sir dairəsi genişlənir, Kopetdağ ətrafı icmaların Şərqə doğru hələ Neolit dövründə başlanmış yayılması davam edir. Bu dövrdə Murqab çayı vadisində Eneolit məskənləri yaranır, oturaq əkinçilik mədəniyyəti indiki Tacikistan ərazisinə yayılır (Pəncikənd yaxınlığında Sarazm Eneolit məskəni).

Təsərrüfat sahəsindəki dəyişikliklərin ən mühümü suvarma əkinçiliyinin inkişafı və təkmilləşməsi idi. Böyük suvarma sistemləri yaradılmışdı. Göksür vahəsinin əsas yaşayış məskəni olan Göksür-I yaxınlığında uzunluğu 3 km, eni 2,5-5 m olan, keçmiş SSRİ ərazisində ən qədim sün'i suvarma kanalı aşkar edilmişdir. Kanalın yuxarı və aşağı axarı boyu hər iki sahilində əkin sahələri yerləşirdi. Sahələrə su kiçik arxlar vasitəsilə verilirdi. Sün'i suvarma sabit məhsul götürməyi tə'min etmək e'tibarilə, təsərrüfat və mədəni tərəqqinin mühüm amili idi. Bu dövrə aid gil araba modelləri təkərlərinin tapılması nəqliyyatın inkişafını göstərir.

Heyvandarlıq sahəsində Altun-Təpə və Göksürdə maldarlıqda xırda buynuzlu mal-qaranın, xüsusilə qoyunun xüsusi çəkisinin artması müşahidə olunur. Bu, köçəri maldarlığın inkişaf etdiyini göstərir. Metallurgiya texnologiyası daha da təkmilləşir. Dulusçuluqda sabit temperaturu tə'min edən biryaruslu kürədən istifadə edilirdi.

Namazgah-Təpənin III layında e.ə.III miniliyə aid çoxlu maddi mədəniyyət nümunələri tapılmışdır. Saxsı qablarda ornament müxtəlifliyi ortaya çıxır, həm də ilk dəfə heyvan rəsmləri də çəkilməyə başlanmışdı. Namazgah-II dövrü ilə müqayisədə dəfn adətlərində dəyişikliklər baş vermişdi. Ən'ənəvi tək dəfnlə yanaşı iyirmiyə qədər ölünün dəfn edildiyi kollektiv məqbərələrə də rast gəlinir.

Bu dövrə aid saxsı mə'mulatı üzərindəki naxışlar tətbiqi incəsənətin mühüm nümunələri hesab edilir. Qara-Təpədən tapılmış boyalı qabların üzərində xırda həndəsi naxışlar, o cümlədən xaç və yarımxaç rəsmləri üstünlük təşkil edir. Əlbəttə, bu xaç rəsmlərinin xristian dininin rəmzi olan xaç nişanı ilə əlaqəsi yoxdur. Qara-Təpə tipli qablarm mühüm xüsusiyyətlərindən biri də zoomorf (müxtəlif heyvan formalı saxsı qab, ya da qabın qulpu) motivlərin geniş yayılmasıdır. Heyvan təsvirləri içərisində dik buynuzlu keçi təsvirləri daha çoxdur. Bununla yanaşı, xallı heyvan, quş, o cümlədən qartal təsvirlərinə rast gəlinir. Qara-Təpə keramikasından fərqli olaraq Göksür keramikası açıq-sarı fonda qara və qırmızı rəngli polixrom boya ilə bəzədilmişdir. Həndəsi fiqurlar (xaç, yarımxaç və b.) daha iri, zoomorf fiqurlar isə az və həndəsiləşmiş formada idilər. Qeyd edilməlidir ki, ilk dəfə olaraq e.ə.III minillikdə gildən kişi heykəlləri düzəldilməyə başlanmışdı. Tədqiqatçılara görə bu Ata nəslinin qərarlaşdığını göstərir.

Son Eneolit dövrü abidələrinin tədqiqi yerli ən'ənələrin davam və inkişaf etdirilməsi ilə yanaşı, xarici mədəni tə'sirin də mövcud olduğunu göstərmişdir. Məsələn, Qara-Təpə keramikasının zoomorf motivlərinin kökləri Cənubi Azərbaycan ərazisində Sialk-III və Hissar I-S, II-A keramikası üzərindəki motivlərlə oxşardır, gil fiqurların bir çox əlamətləri isə Cənubi Mesopotamiya (Şumer), qismən də Elam heykəltəraşlığında aşkar olunur. Şübhə yoxdur ki, göstərilən dövrdə Qərbi Türküstanın İran və Mesopotamiya ilə sıx etno-mədəni əlaqələri mövcud olmuşdur.

Digər tərəfdən, Son Eneolit dövründə Qərbi Türküstanın cənub-qərbində məskunlaşan tayfaların Orta Şərq və Hindistanın oturaq əkinçilik mədəniyyətlərinə tə'siri güclənir. Məsələn, Cənubi Türkmənistanın arxeoloji mədəniyyəti üçün səciyyəvi olan bir sıra əlamətlər Şimali Bəlucistanın Kvetta abidəsinin boyalı keramikası və xırda heykəltəraşlığında aşkarlanmışdır. Eyni tipli materiallar Mundiqakda (Cənubi Əfqanıstan) və Şəhri-Soxtədə (İran) tapılmışdır. Şəhri-Soxtənin qədim təbəqələrinə aid keramikanın 21-31%-i Göksür və Qara-Təpə tipli keramikanın oxşarıdır. Cənubi Türkmənistan tipli gil heykəlciklər Hind çayı vadisində, Harappa arxeoloji mədəniyyətinə qədərki təbəqələrdə aşkar olunmuşdur. Göstərilən bu faktlar Cənubi Türkmənistanın qonşu ölkələrə mühüm mədəni tə'sir mərkəzlərindən olduğunu sübut edir.

Suvarma əkinçiliyinin inkişafı və ərzaq məhsulları istehsalının sabit və e'tibarlı sisteminin yaradılması əhali artımına yaxşı tə'sir göstərdi. Ceytun arxeoloji mədəniyyəti dövründə Kopetdağ ətrafı düzənliyin əhalisi təxminən 3.000 nəfər (100 km 14 nəfər) idi. IV minillikdə vəziyyət köklü şəkildə dəyişir. Həmin ərazidə əhalinin təxmini sayı 12-14 minə çatır.

Həyat tərzindəki dəyişikliklər və əhalinin güzəranının yaxşılaşdırılması maddi istehsalın ixtisaslaşmasına şərait yaratdı. Dulusçuluqda xüsusi saxsı kürələrdən istifadə edilməyə başlanır. Bu, həmin sahənin bütün texniki bazasının yenidən qurulması demək idi. Daş və metal e'malı təkmilləşir. Daşdan qablar hazırlanmasında dəzgah texnikasından, çaxmaqdaşı ucluqlu burğulardan istifadə edilirdi. Tədqiqatlar Son Eneolit dövründə daimi fəaliyyət göstərən ixtisaslaşdırılmış e'malatxanaların mövcud olduğunu göstərir. İcmalarda peşəkar usta icmanın digər üzvlərinə xidmət göstərirdi. O, bu işi alqı-satqı məqsədilə yox, icmaya məxsusluğuna görə edirdi. Öz növbəsində icma ustanı kənd təsərrüfatı məhsulları ilə tə'min edirdi.

İctimai quruluşda da mühüm dəyişikliklər baş vermişdi. Mə'lum olduğu kimi, Ceytun mədəniyyəti dövrünün yaşayış məskənləri kiçik bir otaqlı evlərdən və ona bitişik təsərrüfat sahəsindən ibarət olub, cəmiyyətin ən kiçik orqanizminin - kiçik ailənin yaşaması və fəaliyyəti üçün nəzərdə tutulmuşdu. Bu ən'ənə Erkən Eneolit dövründə də qalırdı. Lakin getdikcə

cəmiyyətdə iri kollektivlərin rolu artmağa başlayır. Namazgah-II mədəniyyəti dövründə Göksür vahəsinin kiçik yaşayış məskənləri yan-yana tikilmiş 8-20 ayrı-ayrı evdən ibarət olub, çoxotaqlı yaşayış massivi əmələ gətirmişdi. Yaşayış məskənində ümumi taxıl anbarının, ibadətgahın (eyni zamanda ümumi yığıncaq yeri idi) mövcudluğu orada yaşayanların təsərrüfat və ideoloji birliyini göstərir. Görünür, bu bir-birilə qan qohumluğu və ümumi təsərrüfat fəaliyyəti ilə bağlı olan bir neçə kiçik ailənin birləşdiyi böyük ailə icması idi. Belə icmalar 4-dən 8-ə qədər kiçik ailəni birləşdirirdi. Yalnız belə nisbətən iri kollektivlər suvarma əkinçiliyinin əsasını təşkil edən sün'i suvarma sisteminin normal fəaliyyətini tə'min etmək iqtidarında idilər. Son Eneolit dövrünə aid ümumi məqbərələrin məhz belə böyük ailə kollektivlərinə məxsus olması güman edilir.

Son Eneolit dövrünə aid qəbirlər (Qara-Təpə) ictimai təbəqələşmənin başlandığını göstərir. Qəbirlərin bir qismində heç bir əşya yoxdur. Bə'zi qəbirlərdə meyitin yanına 1-3, digərlərində 8 ədəd nəfis boyalı qab qoyulmuşdur. Bu, o dövrdə ən azı üç sosial təbəqənin mövcud olduğunu güman etməyə əsas verir. Qara-Təpədə hələ Namazgah II-nin son dövrünə aid bə'zi qadın qəbirlərində cəsədin üstündə çoxyaruslu boyunbağı və ya bilərzik şəklində qiymətli daşlardan, qızıl və gümüşdən çoxlu muncuqlar aşkar olunmuşdur. Son eneolit dövründə bu ən'ənə davam və inkişaf edir. Altun-Təpədəki qadın qəbirlərindən naxışlı boyalı qablar, muncuqlar, mis əşyalar və qadın heykəlcikləri tapılmışdır. Belə qəbirlərin cəmiyyətdə xüsusi mövqe tutan ruhani qadınlara məxsus olması güman edilir.

Son Eneolit dövrü Cənub-Qərbi Türküstanın erkən əkinçilik mədəniyyətinin hərtərəfli inkişafı ilə səciyyələnir. Məhz bu dövrdə cəmiyyətin yeni və daha yüksək inkişaf mərhələsinə keçməsinin əsası qoyuldu. Bu yeni mərhələnin başlanğıcı Namazgah-IV arxeoloji kompleksinin mövcud olduğu dövr və ya ***Erkən tunc dövrü*** (e.ə.2900-2300) hesab edilir. Bu dövrün səciyyəvi cəhətləri əvvəllər qismən, sonra isə bütünlüklə dulus dəzgahında hazırlanmış, əsasən həndəsi ornamentlərlə bəzədilmiş monoxrom naxışlı boyalı qablar, misin mərgümüşlə ərintisindən mürəkkəb fiqur başlıqlı sancaqlar, mərmərəoxşar əhəngdaşından silindr şəkilli çıraqlardır.



Erkən Tunc dövründəki texnoloji və mədəni yeniliklər ***Orta tunc*** (Namazgah-V,III minilliyin sonları-II minilliyin əvvəlləri) dövründə erkən şəhər mədəniyyətinin formalaşması ilə nəticələndi. Eneolit dövründən tuncun alınması və ondan əmək alətləri istehsalında əsas material kimi işlənməsi ilə səciyyələnən bu dövr oturaq əkinçi tayfaların mədəni-tarixi inkişafında əhəmiyyətli rol oynamışdır. Tunc dövründə qədim metallurgiyanın əsası qoyulmuşdur. Mərkəzi Asiyada bu dövrün abidələrinə Namazgah-Təpə (IV-VI təbəqələr), Anau (III təbəqə) və Altun-Təpə (yuxarı təbəqə) daxildir. Bu dövrdə mədəni və iqtisadi tərəqqinin əsas mərkəzləri Namazgah-Təpə və Altun-Təpə idi. Arxeoloji və tarixi baxımdan ***Altun-Təpə*** abidəsi V.M.Masson tərəfindən daha yaxşı öyrənilmişdir.

Altun-Təpə öz quruluşuna görə daha erkən yaşayış məskənlərindən fərqlənir. Şəhərin şimal hissəsində iki hektara yaxın ərazini tutan dulusçular məhəlləsi yerləşirdi. Məhəllədə saxsı bişirmək üçün 50-dən çox kürə cəmləşdirilmişdir. İri Eneolit mərkəzlərində olduğu kimi Altun-Təpənin yaşayış məhəllələri də dar küçələrlə (1-2m) bir-birindən ayrılan çoxotaqlı evlərdən ibarət idi. Şəhərin tədqiqatçılar tərəfindən "zadəganlar məhəlləsi" adlandırılan hissəsi düzbucaqlı planda tikilmişdi və geniş, düz xətlə kəsişən küçələri, səliqə ilə bəzədilmiş evləri ilə seçilirdi. Yeni struktur vahidlərindən biri hündürlüyü 12 m olan pilləli qülləyəbənzər tikilidən, "baş kahinin evindən", geniş anbarlardan, təsərrüfat tikililərindən və dəfn ansamblından ibarət dini mərkəz idi. Bunlar və bir sıra digər əlamətlər Altun-Təpənin erkən şəhər tipli yaşayış məskəni olduğunu göstərir. Məskən kənd təsərrüfatı və sənətkarlıq rayonunun mərkəzi, həm də ideoloji mərkəz funksiyasını yerinə yetirirdi.

Əkinçilik və maldarlıq təsərrüfatın əsas sahələri olaraq qalırdı. Ən'ənəvi bitkilərlə yanaşı paxlalılar fəsiləsindən olan

noxud da becərilirdi. Demək olar ki, bütün evlərdə daşdan dəndöyənlər, çörək bişirmək üçün oval formalı təndirlər var idi. Əvvəlki dövrdə olduğu kimi çoxlu dörd təkərli araba modeli tapılmışdır. Arabaların ön hissəsində dəvə başı təsvir edilmişdir. Aydın görünür ki, arabaların bə'ziləri çox ağır və iri yüklərin daşınması üçün nəzərdə tutulmuşdur. Onlara iki dəvə qoşulurdu. Heyvanlardan torpaq sahələrinin becərilməsində də istifadə edilirdi.

Ən mühüm tərəqqi dulusçuluq və metallurgiya sahələrində baş vermişdi. Altun-Təpə saxsı qablarının böyük əksəriyyəti sür'ətlə hərlənən dulus dəzgahında hazırlanmış və çox ustalıqla kürədə yandırılmışdır.

Metal e'malının inkişafı haqqında tapılmış müxtəlif metal əşyalar aydın təsəvvür yaradır. Qazıntılar zamanı tunc kərkilər, birtiyəli və ikitiyəli bıçaqlar, ox ucluqları, oraq, oval formalı tunc güzgülər, bilərziklər, sırğalar, tunc və gümüş üzüklər və b. əşyalar tapılmışdır. Metal əşyalar içərisində tunc və aşağı keyfiyyətli gümüşdən tökülmüş möhürlər xüsusilə maraq doğurur. Möhürlərin böyük hissəsi həndəsi (xaç, piramida, oval, kvadrat) formadadır. Rəngarənglik üçün onların mərkəzində əlavə detallar yerləşdirilmişdi. Zoomorf möhürlər keçi və b. dırnaqlı heyvanların, pişik fəsiləsindən olan vəhşi heyvanların, qartalların təsvirindən ibarətdir. Möhürlərin birində pişik fəsiləsindən vəhşi heyvan bədənli, biri yırtıcı quş, ikisi isə ilan başı olan üçbaşlı əfsanəvi əjdaha təsvir edilmişdir. Bə'zi möhürlər içərisində qıvrılmış ilan təsviri olan aypara formasındadır. Bunlar Altun-Təpə əhalisinin mifoloji təsəvvürlərini əks etdirir.

Altun-Təpə mədəniyyətinin səciyyəvi cəhətlərindən biri gil heykəlciklərdir. Heykəlciklərin böyük əksəriyyəti əllərini yanlara açıb oturmuş qadın fiqurlarından ibarətdir. Onların bir çoxunun çiyin, bə'zən də arxa hissəsinə işarələr cızılmışdır. İşarələr içərisində bitki budağı, əyri-üyrü xətt və çoxşüalı ulduz təsvirləri diqqəti cəlb edir. Bu işarələr o dövrdə Cənubi Türkmənistanda mövcud olan piktoqrafik yazıya yaxın, ovsun simvollarının xüsusi sistemi hesab edilir.



Sabit tiplər kimi formalaşan bir neçə variant heykəlciklərin olması Altun-Təpə panteonunda[13] xüsusi funksiyalara malik olan müxtəlif ilahələrin mövcudluğunu göstərir. Ola bilsin ki, budaq işarəsi bitki, əyri-üyrü xətt su, çoxşüalı ulduz işarəsi (bu işarə şumerlərin İnana-İştar ilahəsinin simvoluna oxşardır) səma ilahələrinin (bəlkə də qədim türklərdə Umay ilahəsinin) simvollarıdır.

Altun-Təpə cəmiyyətində və mədəniyyətində baş vermiş keyfiyyət dəyişiklikləri Qədim Şərq tipli sivilizasiyanın formalaşması ilə nəticələndi.

Əvvəlki dövrdən fərqli olaraq Orta Tunc dövründə ictimai təbəqələşmə xeyli dərinləşir. Altun-Təpə materialları əmlak vəziyyəti və həyat tərzinə görə əhalinin üç təbəqəyə bölündüyünü göstərir. Birinci təbəqəyə şəhər əhalisinin əsas hissəsini təşkil edən[14] sıravi icma üzvləri - əkinçi və mal-darlar daxil idilər. Son Eneolit dövründə olduğu kimi, onlar kiçik ailələr üçün nəzərdə tutulmuş ayrı-ayrı bloklardan ibarət olan böyük çoxotaqlı evlərdə yaşayırdılar. Evlərin yaxınlığında yerləşən qəbirlərdə tək-tək saxsı qablara rast gəlinir, bəzək əşyaları isə ümumiyyətlə yoxdur. İcmanın yuxarı təbəqəsindən ibarət olan ikinci qrup fərdi təsərrüfata malik idi. Üç-beş mənzilli kiçik evlərdə yaşayan icma ə'yanlarının qəbirlərinə müxtəlif şəxsi əşyalar, o sıradan lazurit, firuzə və əqiqdən bəzək şeyləri qoyulmuşdur. Cəmiyyətin ən yuxarı təbəqəsini isə şəhərin "zadəganlar məhəlləsi" hissəsində yaşayanlar - kahinlər və icma başçıları təşkil edirdilər. Qeyd edildiyi kimi, onların yaşadığı evlər səliqə-səhmanı və genişliyi ilə seçilirdi. Belə evlərin yaxınlığındakı sərdabə və qəbirlərə daha zəngin dəfn avadanlığı qoyulmuşdur. Müxtəlif əşyalarla yanaşı, bu qəbirlərdən xeyli möhür də aşkar edilmişdir. Şübhəsiz ki, "zadəganlar məhəlləsində" şəhərin varlı təbəqəsi yaşayırdı.

Göründüyü kimi, Altun-Təpədə erkən sinifli cəmiyyətin formalaşması prosesi gedirdi.

Altun-Təpə əhalisi Yaxın və Orta Şərqin həmdövr sivilizasiyaları ilə sıx iqtisadi-mədəni əlaqələr saxlayırdı. Me'-

marlıq, heykəltəraşlıq və b. sahələrdə erkən Şumer mədəniyyətinin tə'siri açıq-aydın hiss olunur. Altun-Təpədə aşkar edilən çoxpilləli mə'bəd ideya və me'marlıq tərtibatı baxı-mından Şumer me'marlığına xas olan zikkuratla (pilləvari qüllə-mə'bəd) bağlıdır. Şumer mədəniyyəti ilə birbaşa bağlılığı sübut edən digər mühüm tapıntı qızıl öküz başıdır. Alnında firuzədən ayaoxşar təsvir olan öküz başı bir çox əlamətlərinə görə Şumerdə tapılmış qızıl öküz başlarına bənzəyir.

Mə'lum olduğu kimi, buynuzları aypara şəklində olan od rəngli səma öküzü Şumer Ay Tanrısı Nannanın (Samidilli akkadlarda Sin) simvollarından biri idi və Ur şəhərində aşkar edilmiş məşhur zikkurat məhz bu Tanrıya həsr olunmuşdu. Görünür, Altun-Təpədə Şumer allahının eyni və ya ona yaxın olan baş ay Tanrısı (albanlarda Ay Tanrısı barədə Strabonun mə'lumatı ilə müqayisə edin) kultu mövcud olmuşdur.

Altun-Təpə dini kompleksindəki tapıntılar onun astral kişi allahı ilə bağlı olduğunu göstərir. Beləliklə, əvvəlki dövrdən fərqli olaraq dini ideologiyada köklü dəyişikliklər baş vermişdi.

Altun-Təpə ilə bağlı ikinci böyük mədəniyyət Hind (Harappa) mədəniyyəti olmuşdur. Altun-Təpədə tapılan fil sümüyündən üstü bəzəkli çubuqlar və oyun daşları Mohenco-Daroda aşkar edilmiş əşyaların eynidir. Belə əşyaların müxtəlif dövrlərə aid arxeoloji təbəqələrdə tapılması Türkmənistan-Hindistan tayfalarının əlaqələrinin uzunmüddətli və fasiləsiz olduğunu göstərir. Harappa sivilizasiyasının tə'siri keramika istehsalında və metallurgiyada da hiss olunur.

Bu baxımdan Altun-Təpənin "zadəganlar məhəlləsi"ndəki qəbirlərdən tapılmış üstü yazılı protohind tipli möhürlər xüsusi maraq doğurur. Altun-Təpə möhürlərindən biri üzərində Mohenco-Daro möhürlərində rast gəlinən svastika (xaç rəsmi), digərində protohind yazısı üçün səciyyəvi olan iki işarə təsvir edilmişdir. Sonuncu işarələrin "böyük Tanrı" mə'nasında olduğu güman edilir.

Bu tapıntılar Cənubi Türkmənistanla Hindistan arasında sıx əlaqələrin olduğunu sübut etməklə yanaşı Altun-Təpədə



həmin yazı sistemindən istifadə edildiyini də güman etməyə əsas verir.

Mədəniyyətin ayrı-ayrı sahələrinə qonşu sivilizasiyaların tə'sirinə baxmayaraq bütövlükdə Altun-Təpə Tunc dövrü mədəniyyəti yerli Eneolit dövrü mədəniyyətinin ən'ənələri əsa-sında təşəkkül tapmışdır.

Altun-Təpə mədəniyyətini yaradanların etnik mənsubiyyəti haqqında tutarlı dəlillər yoxdur. Antropoloji göstəricilərdən çıxış edən tədqiqatçılar Altun-Təpənin inkişaf etmiş Tunc dövrü əhalisinin Eneolit dövrü əhalisi ilə, demək olar ki, eyni olduğunu göstərirlər. Müasir tarixşünaslıqda Altun-Təpə əhalisinin protodravid (Hindistanın Dravid dil ailəsinə mənsub xalqların ulu əcdadlarına) tayfalarına mənsub olması fikri irəli sürülmüşdür.

E.ə.II minillikdə tam aydın olmayan səbəblərə görə Altun-Təpə mədəniyyəti tənəzzülə uğrayır. Bunun səbəbi mə'lum deyil. Bə'zi tədqiqatçılara görə bu tənəzzül ya quru iqlimin başlanması ilə, ya da şimaldan gəlmiş yeni köçəri tayfaların basqınları ilə bağlıdır. Altun-Təpənin tanınmış tədqiqatçısı V.M.Massonun fikrincə şəhər tədricən tərk edilmiş və bu hansısa fəlakətli bir hadisə ilə bağlı olmamışdır. Sakinlər şəhəri tərk edərkən əmlaklarını da özləri ilə götürmüşlər. Ola bilsin ki, Altun-Təpənin tərk edilməsi iqlimin qurulaşması və ya torpağın duzlaşması ilə bağlı olmuşdur.

Altun-Təpənin tənəzzülündən sonra Murqab çayının deltası (qədim Margiana) və Amudəryanın orta axarında (Özbəkistanın cənubu və Əfqanıstanın şimalı) yeni oturaq əkinçi mərkəzləri meydana gəlir. Murqab vahəsindəki ***Kəlləli-I*** arxeoloji mədəniyyəti bütün əlamətlərinə görə Altun-Təpə kompleksinin yuxarı təbəqəsi ilə eynilik təşkil edir. Görünür bu, Altun-Təpənin tənəzzülündən sonra əhalinin qismən bura köçməsi ilə bağlı idi.

E.ə.II minilliyin ortaları və ikinci yarısında Murqab çayının deltası oturaq əkinçi icmaları tərəfindən daha geniş miqyasda məskunlaşdırılır. Yaşayış məskənləri (Taip-I və b.) adətən çay deltasının axarı boyu yerləşirdi. Belə məs-kən-

lərdə saxsı qablar və metal mə'mulatlar istehsal edən sənətkarlıq məhəllələri var idi. Taip-I-də həmçinin 4 silin-dirvari möhür və gil qab üzərində iki möhürün şəkli aşkar edilmişdir.

Murqab deltasında bu dövrün ən mühüm abidəsi sahəsi 28 hektar olan Qonur yaşayış məskənidir. Deltanın başqa məskənlərində olduğu kimi Qonurda da kvadrat formalı qala var idi.

Murqab deltasının (Margiana) Tunc dövrü mədəniyyəti hələ Kəlləli-I dövründə bura gətirilən Altun-Təpə mədəniyyəti əsasında formalaşmışdır. Bununla yanaşı, bə'zi yeniliklər də nəzərə çarpır. Keramikada təkamül nəticəsində baş verən dəyişikliklər, mürəkkəb səhnələrin təsvir edildiyi yastı möhürhəmayillər, silindrvari möhürlər, tunc mə'mulatların yeni formaları belə yeniliklərdəndir. Möhürlər üzərində müxtəlif heyvanların, o sıradan ilanaoxşar əjdahaların hücumuna mə'ruz qalan öküzlərin təsvirləri (qədim türkmənşəli "skif heyvan stili"ni xatırlayın, bu stil e.ə.VII-V əsr-lərdə Qara dənizin şimal çöllərində yaşamış və antik müəlliflərin əsərlərində "Skif" adlandırılmış tayfalar üçün səciyyəvi idi. Lakin iranşünaslar haqsız olaraq həmin skifləri irandillilər sayırlar) üstünlük təşkil edir. Möhürlərin birində əlləri ilə iki yıxılmış heyvanı tutub saxlayan qüdrətli qəhrəman təsvir edilmişdir. Bu motiv, ehtimal ki, Mesopotamiya eposunun ən sevimli qəhrəmanı olan Qilqameşla[15] bağlıdır. Bu və digər faktlar (silindirvari möhürlər və s.) Mesopotamiya ilə əlaqələrin davam və inkişaf etdiyini göstərir.

E.ə.II minilliyin birinci yarısı və ortalarında (Son Tunc dövrü) oxşar mədəniyyət Amudəryanın orta axarında - Özbəkistan, Tacikistan və şimali Əfqanıstan ərazilərində təşəkkül tapmışdır. Sonralar Baktriya adlanan bu ərazinin ən mühüm abidələri Sappalı və Carkutan yaşayış məskənləridir. Murqab vadisində olduğu kimi, yaşayış məskəninin mərkəzini kvadrat formalı qala təşkil edirdi. Erkən baktriyalılar iki buğda növü, arpa, darı və üzüm becərirdilər. Yük heyvanı kimi dəvə ilə yanaşı uzunqulaqdan da istifadə edilirdi. Maraqlıdır ki, bu dövrün yaşayış məskənlərində qala tikililərinin yayılması ilə



yanaşı silahların da sayı artır. E.ə.II minilliyin sonlarına doğru isə qəbiristanlıqlarda döyüşdə həlak olmuş əsgərlərə qoyulan abidələrin (kenotasf) sayı xeyli artır. Adətən belə abidələrə döyüş baltası və tunc nizə qoyulurdu. Bu faktlar qonşu tayfalar arasında tez-tez silahlı toqquşmaların baş verdiyini göstərir.

Murqab vadisi və Amudəryanın orta axarında təşəkkül tapmış qədim Şərq tipli mədəniyyətlər mənşəcə Altun-Təpə mədəniyyəti ilə sıx bağlı idilər.

Arxeoloji qazıntılar göstərir ki, əkinçiliyin və maldarlığın inkişafı və bu təsərrüfat sahələrində kişilərin rolunun artması getdikcə xüsusi mülkiyyətin yaranmasını şərtləndirdi. Bu mülkiyyət isə ibtidai icma cəmiyyətinin təd-ricle dağılmasına gətirib çıxardı. Digər tərəfdən, bu təsərrüfat sahələrinin inkişafı, xüsusilə əkinçilikdə sün'i suvarmadan istifadə olunması çoxlu işçi qüvvəsinə tələbat yaratdı ki, bu da öz növbəsində e.ə.II minilliyin sonlarından və I minilliyin əvvəllərindən Türküstan ərazisində qul əməyindən istifadə olunmasına gətirib çıxardı.

Bu proses Altun-Təpə və xüsusilə Namazgah-Təpənin IV layında əksini tapmışdır. Altun-Təpə mədəniyyətinin səciyyəvi cəhəti Türküstan ərazisində ilk şəhər tipli yaşayış məskənlərinin yaranmasıdır. Həm də aydın olur ki, Namazgah-Təpə və Altun-Təpə mədəniyyətlərində erkən sinifli cəmiyyət təşəkkül tapmışdı.

Tunc dövrü Altun-Təpə mədəniyyəti və onun ən'ənələrini yaşadan erkən Margiana və Baktriya mədəniyyətləri Qərbi Türküstanın sonrakı dövrlərdə iqtisadi-siyasi və mədəni inki-şafının əsasını təşkil etmişlər.

E.ə.I minilliyin əvvəllərindən Türkmənistanda Murqab çayının hövzələrində əkinçi tayfaların yeni mədəniyyət mərkəzi yaranır. Murqab deltasında, Amudəryanın orta axınında yaranan bu mədəniyyət Altun-Təpə mədəniyyətinin ən'ənələrini davam etdirirdi. Burada Aravalı-Təpə və Yaz-Təpə yaşayış məskənləri təşəkkül tapır. Yaz-Təpə yaşayış məskəni 16 hektarlıq sahəni əhatə edirdi. Qeyd edilməlidir ki, burada ilk dəfə çiy kərpicdən qala divarları çəkilmişdi. Qalanın içərisində nəhəng saray, yaxud mə'bəd qalıqları tapılmışdır.

E.ə.I minilliyin əvvəllərində burada dəmirdən düzəldilmiş alətlər də aşkar olunmuşdur. Saxsı qab istehsalında inkişaf o dərəcəyə çatmışdı ki, dulus çarxından istifadə olunması geniş yayılmışdı.

E.ə.II minilliyə məxsus olan əkinçilik mədəniyyəti Özbəkistan ərazisində də geniş yayılmışdı. Bu dövrə aid yaşayış məskənləri Xarəzm ərazisində Anqa-Qala adlı yerdə tapılmışdır.

Göstərilən mədəniyyətlərdə insanların dini görüşlərində dəyişikliklərin baş verdiyi sezilir. Ölüləri düzbucaqlı çalalarda dəfn edirdilər. Bə'zi qəbirlərdə iki nəfərin dəfninə də rast gəlinir. Qəbirlərdə çoxlu saxsı qab-qacaq qoyulurdu. Bu göstərir ki, artıq o zaman axirət dünyası haqqında təsəvvürlər mövcud idi, çünki müxtəlif yeməklərlə dolu qablarda ət yeməklərindən qalmış çoxlu sümük tapılmışdır. Dəmirdən istifadə olunması ilə bağlı olaraq e.ə.II minilliyin sonu - I minilliyin əvvəllərində əkinçilikdə böyük dönüş yaranır. Maraqlıdır ki, o dövr üçün qiymətli metal ox ucluqları qəbirlərə də qoyulmuşdur.

Bu dövrdə əkinçilik mədəniyyəti ilə bağlı mühüm nailiyyətlərdən biri də odur ki, ilk dəfə olaraq əl dəyirmanı mövcud olmuşdur. Özbəkistan ərazisində Çust adlı yaşayış yerində belə daş əl dəyirmanı nümunələri tapılmışdır.



## *II fəsil*

## *ŞƏRQİ TÜRKÜSTAN, MONQOLUSTAN VƏ SİBİR*

### *§ 1. Şərqi Türküstan*

Türküstanın başqa bölgələri ilə müqayisədə Şərqi Türküstanın (Çinin Sintszyan-Uyğur Muxtar əyaləti) ən qədim tarixi zəif öyrənilmişdir. Bu ərazinin arxeoloji tədqiqi XIX əsrin sonlarından başlamış (S.Qedin, A.Steyn və b.) və XX əsrin 50-ci illərindən sonra sistemli şəkildə davam etdirilmişdir. Lakin indiyə qədər, xüsusilə son illərdə Çin arxeoloqları tərəfindən üzə çıxarılmış qədim insan məskənləri Şərqi Türküstanın erkən tarixinin bütün dövrləri haqqında tam təsəvvür yaratmır. Məsələn, Şərqi Türküstanda indiyə qədər Paleolit düşərgəsi aşkar edilməmişdir. Lakin bu həmin dövrdə ibtidai insanların Şərqi Türküstanda məskunlaşmamaları ilə yox, ilk növbədə arxeoloji qazıntıların lazımi səviyyədə aparılmaması ilə bağlıdır.

Arxeoloji materiallar ***Neolit*** dövründən başlayaraq Şərqi Türküstan tarixinin ayrı-ayrı mərhələlərini işıqlandırmağa imkan verir. Tədqiqatçılar Neolit dövrü tapıntılarını üç qrupa bölürlər. Birinci qrupa daxil edilən abidələr mikrolitin alətlərin mövcud olması ilə səciyyələnir. Belə düşərgələr şimal-şərqdən cənub-qərbə qədər geniş bir ərazidə yayılmışdır (İu, Hami, Muley, Şanşan, Astana, Turfan, Urumçi, Qaraşar, Qaşqar, Lobnor gölü rayonu və b. ərazilər). İndiyə qədər 30-a yaxın belə düşərgə qeydə alınmış, lakin onların bir neçəsində məhdud tədqiqat işləri aparılmışdır. Sitszyaotszin (Hami qəzası) və Yarhu (Turfandan 15 km qərbdə) düşərgələrində 1959-cu ildə aparılmış arxeoloji kəşfiyyat işləri nəticəsində mikrolit alətlər - ərsinlər, lövhələr, nukleuslar, daşdan qoparılmış qəlpələr, itiuclular tapılmışdır. Bu düşərgələrdən fərqli olaraq Muley (Muley-Qazax muxtar qəzası) və Astana (Turfandan 37 km şərqdə) düşərgələri qismən yaxşı öyrənilmişdir. Muley və Astana düşərgələrində əsasən çaxmaqdaşı,

kvars, kvarsit, əqiq, silisiumlu şist, habelə tuf, bazalt və b. materiallardan düzəldilmiş mikrolit əşyalarla yanaşı (ərsinlər, üçbucaq formalı ox ucluqları, qəlpələr, itiuclular, bir və iki tiyəli bıçaqlar və b.) saxsı parçaları da tapılmışdır. Astana arxeoloji düşərgəsinin keramikası əsasən qırmızı, az hissəsi isə boz rəngdə olub, yüksək temperaturda bişirilmişdir. Qabların yuxarı hissəsi xətti, möhürvari, daraqşəkilli, dırnağaoxşar və b. formalarda sadə bəzəklə bəzədilmişdi. Bu tapıntılar içərisində yastıdibli, uzunboğazlı naxışlı bardaqlar ("çaydanlar") və yumrudibli kasalar diqqəti cəlb edir. Onlar əvvəlcə tünd-qırmızı anqoblanmış, sonra isə qara boya ilə sadə tərzdə naxışlanmışlar. Astanada həmçinin dəntəmizləyənlər, həvəngdəstə, müxtəlif növ cilalayıcılar, zindanlar, çəkiləri 411-1111 qr. olan şarlar (kürələr), habelə asma bəzəklər və sapand daşları aşkar edilmişdir.

Astana və Muley sakinləri ovçuluq və maldarlıqla məşğul olurdular. Onlar primitiv əkinçiliklə tanış idilər.

Astananın naxışlı keramikası onu ikinci qrupa daxil edilən Neolit abidələri ilə yaxınlaşdırır. Bu qrupun səciyyəvi cəhəti məhz naxışlı keramikanın mövcud olmasıdır. İndiyə qədər bu tipli abidələr Ubao su anbarı rayonunda, Hami qəzasındakı Yanbulaqe kəndində, Şijentszı kommunasında (Şərqi Sintszyan), Lyanmutsin kommunasındakı Tsikemanda, Astana, Qaraxoca və b. yerlərdə aşkar olunmuşdur. Diqqəti cəlb edən faktlardan biri də bu abidələrin bə'zilərində sadə mis mə'mulatların, Yuerqou düşərgəsində isə hətta dəmir mə'mulatların tapılmasıdır. Həmin tapıntılar bir tərəfdən Şərqi Türküstanda metal erasının başlanmasını, digər tərəfdən isə naxışlı keramika qatına aid olan bə'zi abidələrin eneolit dövrü üçün səciyyəvi olduqlarını göstərir.

Adları göstərilən abidələrdən nisbətən yaxşı öyrəni-lənlərindən biri Şijentszı yaşayış məskənidir. Buradan dəfn avadanlığı (əsasən keramika nümunələri, cilalanmış daş alətlər, o sıradan balta) ilə birgə insan skeleti, heyvan sümükləri (əsasən qoyun və at), korroziyaya uğramış mis, şlak və ağac kömürü, daşdan çoxlu yəhərvari dəntəmizləyənlər və s. aşkar olunmuşdur.



Şijentszı keramikası əsasən xırda və iri qum qatılmış gildən hazırlanan qırmızı və xırda qum qatılmış gildən hazırlanan boz rəngli yapma naxışlı nümunələrlə təmsil olunmuşdur. Qablardan (bardaq) birinin ağız hissəsinin altında qara boya ilə zirvəsi aşağıya doğru yönəlmiş üçbucaqlar sıra-sından ibarət şəkil çəkilmişdir. Üçbucaqların zirvəsindən qabın boğazı ilə aşağıya doğru qısa düz xətlər uzanır. Eyni tip-li bəzək qabın başqa hissələrində də var. Maraqlıdır ki, qabla bir yerdə yaxşı qalmış buğda toxumları da tapılmışdır. Bütövlükdə Şijentszı tapıntıları Şərqi Türküstanda naxışlı qablar mədəniyyəti, metel e'malı və əkinçilik təsərrüfatının mövcud olmasını göstərən mühüm qazıntılardır.

Oturaq həyat tərzi, əkinçilik, maldarlıq və naxışlı keramika kimi əlamətlərlə səciyyələnən Eneolit məskənləri Qaraxoca, Sıdaqou, Ubao və b. yerlərdə də aşkar olunmuşdur. Turfandan 15 km şərqdə yerləşən Qaraxocada saman qatılmış kərpicdən ev qalığı, keramika fraqmentləri, daş alətlər (əsasən oraqlar), mis, ox ucluğu, at və qoyun sümükləri tapılmışdır.

1978-ci ildə Ubaoda aparılan qazıntılar zamanı 38 qəbir üzə çıxarılmışdır. Dik çuxurlardan ibarət olan qəbirlərin hər birində böyrü üstə, ayağı bükülü vəziyyətdə bir meyit dəfn olunmuşdu. Dəfn avadanlığı az miqdarda ağac, daş və keramika mə'mulatlarından, habelə balıqqulağı, xırda bıçaqlar və mis bəzək əşyalarından ibarət idi.

1976-1978-ci illərdə və Alaqou rayonunda da iri qəbiristanlıq aşkar olunmuş və 78 qəbir təmizlənmişdir. Qəbirlər üstü taxta örtüklə örtülmüş, çay daşlarından şaquli divarları olan ovalformalı və ya küncləri dəyirmiləşdirilmiş uzunsov sərdabələrdən ibarət idi. Sərdabələr kollektiv dəfn yerləri olmuşdur. Meyitlər bə'zən üç-dörd qat bir-birinin üstünə, düz və üzləri yuxarı vəziyyətdə qoyulmuşdur. Dəfn avadanlığı içə-risində ağacdan müxtəlif məişət və təsərrüfat əşyaları diqqəti cəlb edir (boşqablar, piyalələr, qaşıqlar, buxovlar, əl iyi, baş sancağı və s.). Ağac mə'mulatlarının çoxluğu və rəngа-rəngliyi ağacın insanların həyatında mühüm rol oynadığını göstərir.

Qərbi Türküstan və Cənubi Qazaxıstanın Andronovo tipli mədəniyyətlərini yaradan tayfalar Şərqi Türküstanla yaxın qonşu idilər. Arxeoloji materiallar Şərqi Türküstan

ərazisində, xüsusilə onun qərb və şimal rayonlarında Qərbi Türküstan - Cənubi Qazaxıstan tayfaları ilə qohum, qismən isə onlarla eyni tayfaların yaşadığını sübut etmişdir.

Müasir tarixşünaslıqda Şərqi Türküstanın ən qədim əhalisinin sonralar yazılı mənbələrdə xatırladılan toxar, sak (və ya xotan-sak) tayfalarının əcdadlarından ibarət olduğu göstərilir. Digər tərəfdən, elmi ədəbiyyatda bu tayfaların etnik baxımdan başdan-başa irandilli olmaları fikri hakimdir. Lakin Türküstan xalqlarının maddi və mə'nəvi mədəniyyətində erkən tarixi dövrlərdən başlayaraq aşkar görünən güclü türk qatını nəzərə almayan bu fikir tarixi gerçəkliyi tam əks etdirmir və obyektivlikdən uzaqdır.

Saxsı qablar içərisində əl ilə düzəldilən naxışlı qablar - bardaqlar, səhənglər, kasalar və s. üstünlük təşkil edir. Bəzəklər əsasən çevrilmiş üçbucaqlardan, üçbucaqlardan düzəldilmiş şəbəkələrdən, spirallardan, şaquli paralel və ya qısa çöp xətlərdən ibarətdir.

Şərqi Türküstanda Neolit və Eneolit abidələrinin üçüncü tipi iri, cilalanmış daş alətlərin mövcud olması ilə səciyyələnir. Belə abidələr Sintszyanın qərb və cənub-qərb hissəsində - Agetala (Ağtala), Venquloke, Kulu-ketala (Kuruk tala-Quru tala), Kalayuyerqun (Qara yulğun) ərazilərində aşkar olunmuşdur.

Ağtala yaşayış məskənində müxtəlif cilalanmış daş alətlər (bıçaqlar, oraqlar, dən təmizləyənlər, həvəngdəstələr, iylər, ox ucluğu və s.), əl ilə düzəldilmiş yapma naxışlı qablar (bardaqlar, kasalar, nimçələr, qazanlar, fincanlar, qədəhlər və s.) tapılmışdır. Ağtala keramikasının rəngarəngliyi yuxarıda qeyd edilən abidələrə nisbətən burada dulusçuluğun daha yüksək inkişaf səviyyəsində olduğunu göstərir.

Ağtaladakı qazıntılar içərisindəki mis mə'mulatlar, o sıradan, demək olar ki, təmiz misdən (98,8% mis, 1,2% təbii qalay) düzəldilmiş bıçaq diqqəti cəlb edir.

Oxşar əşyalar həmçinin Ağtalanın qonşuluğundakı Venquloke, Kuluketala və Devoleke yaşayış yerlərində də tapılmışdır. Bu, adları göstərilən dörd abidənin həmdövr, habelə eyni mədəni ən'ənəyə və eyni etnosa malik olduqlarını sübut edir. Daş alətlər içərisində oraq, dən təmizləyən və əl iyi kimi



alətlərin tapılması ağtalalıların əkinçilik, əyiricilik, toxuculuqla məşğul olduqlarını və oturaq həyata keçdiklərini göstərir.

Arxeoloji tədqiqatlar nəticəsində ən qədim dövrlərdən Şərqi Türküstan sakinlərinin mənşəcə Qərbi Türküstan tayfaları ilə sıx bağlı olduqları müəyyən edilmişdir. Məsələn, buradakı naxışlı qablar mədəniyyəti ilə Daşkənd vahəsi və Fərqanə mədəniyyətləri arasında yaxın qohumluq müşahidə olunur. Genetik bağlılıq Şərqi Türküstan əyalətləri ilə Andronovo mədəniyyəti arasında da olmuşdur.

## *§2. Monqolustan*

Müasir Monqolustan ərazisində türk və monqol xalqlarının əcdadları ən erkən tarixi dövrlərdən məskunlaşmışlar. XX əsrin ortalarından başlayaraq Monqolustanın geniş arxeoloji tədqiqi nəticəsində (S.V.Kiselyov, A.P.Okladnikov, N.Ser-Ocav, S.Dorjsuren, D.Dorj və b.) daş dövrünün müxtəlif mərhələlərinə aid ibtidai insan düşərgələri aşkar edildi. Qədim daş dövrü (Paleolit) düşərgələrinin izləri Moyltm-Am (Qaraqorum yaxınlığında), İx-Tenqeriyn-Am (Ulan-Bator yaxınlığında), Oson-Mant (Qobinin cənubunda) və b. yerlərdə üzə çıxarılmışdır.

*Monqolustan paleolitinin* ən səciyyəvi abidəsi *1949*-cu ildə A.P.Okladnikovun aşkar etdiyi çoxtəbəqəli Moyltın-Am düşərgəsidir. Burada yaşayış uzun müddət mövcud olmuşdur. Belə ki, tədqiqatçılar düşərgənin ən qədim təbəqəsini Üst Paleolit dövrünə (təxm.300 min il əvvəl), yuxarı təbəqələrini isə Mezolit dövrünə (12-10 min il əvvəl) aid edirlər. Paleolitə aid təbəqələrdən levallua tipli[16] nukleuslar, uzun enli lövhələr, itiuclular, ərsinlər, çay daşlarından düzəldilmiş alətlər, müxtəlif işlərin yerinə yetirilməsi üçün nəzərdə tutulmuş ərsin-bıçaqlar, ərsin-itiuclular, deşicilər və b. alətlər tapılmışdır.

Moyltın-Am abidəsinin son dövrlərə qədər tədqiq olunması ilə yanaşı Monqolustanın müxtəlif yerlərində bir sıra başqa Paleolit abidələri də aşkar edilmişdir.

Paleolit dövrü ibtidai insanlarının incəsənətini və dinimifoloji dünyagörüşünü öyrənmək baxımından 50-ci illərdə

tapılmış, Üst Paleolit dövrünə aid edilən Hoyt-Senheriyn-aquy mağara rəsmlərinin mühüm əhəmiyyəti vardır (rəsmlər tam şəkildə 1966-cı ildə A.P.Okladnikovun başçılıq etdiyi sovet-monqol ekspedisiyası tərəfindən öyrənilmişdir). Mağaranın ayrı-ayrı əlçatmaz hissələrinin divar və tavanında qırmızı, sarı-qəhvəyi və tünd qəhvəyi rənglərdə mamont, antilop, ikihörgüclü vəhşi dəvə, vəhşi at, qoyun, straus, uçan quşlar və s. təsvir edilmişdir. Heyvanların təsvirləri bir qayda olaraq müxtəlif işarələrlə (nöqtələr, baftalar, oxlar, əyri xətlər, üçbucaqlar, ***canaqşəkilli*** naxışlar, ayabənzər fiqurlar və s.) müşayiət olunurlar. Bu rəsmlər və simvollarda ibtidai insanın ətraf aləm, həyat və ölüm haqqında mifoloji təsəvvürləri əks olunmuşdur. Mağara isə ibtidai insanların ibadət yeri olmuşdur. Tədqiqatçılar Monqolustanın Paleolit dövrü mağara rəsmləri ilə Ural (Kapov mağarası) və Qərbi Avropanın həmdövr mağara rəsmləri arasında bir çox ümumi cəhətlərin olduğunu göstərirlər.

Daş dövrünün ***Mezolit*** mərhələsinə aid abidələr Şərqi (Here-uul dağının yamacı) və Şimal-Qərbi (Kobdo çayının yuxarı axarı) Monqolustanda aşkar edilmişdir. 70-ci illərdə Hurh çayı vadisində, Arşak-had dağında ("müqəddəs bulaqlar dağı") tapılmış qaya rəsmləri də mezolit dövrünə aid edilir. Paleolit dövrü rəsmlərindən fərqli olaraq Arşak-hadda əsasən həndəsi fiqurlar - dairələr (içərisi nöqtəli, birayaqlı, ikiayaqlı), üçbucaqlar (birayaqlı, ikiayaqlı), xaçlar, ucunda nöqtə olan ox və s. təsvir edilmişdir. Tədqiqatçıların fikrincə ayaqlı dairələr kişilərin, üçbucaqlar isə qadınların simvolik təsvirləri idi. Arşak-had təsvirləri də Mezolit dövrü insanlarının mifoloji təsəvvürlərini əks etdirir.

Arşak-had rəsmlərinin oxşarlarına Zaraut-Kamarda (Özbəkistan) və Şaxtı mağarasında da (Tacikistan) rast gəlinir. Digər tərəfdən, bə'zi simvollar Üst Paleolit dövrü Hoyt-Senheriyn-aquy simvollarının eynidir. Oxşar rəsmlərə Monqolustanın başqa ərazilərində də rast gəlinmişdir.

Arşak-had rəsmlərinin Üst Paleolit dövrü rəsmləri ilə oxşarlığı Paleolit incəsənəti ilə Mezolit incəsənəti arasında varisliyin mövcud olduğunu göstərir.



Mezolit dövrünün insanları daş və sümükdən quraşdırma alətlər düzəltməyi bacarırdılar: sümükdə deşik açır və ora nazik çaxmaqdaşı lövhələr bərkidirdilər. Ox və kamanın kəşfi də bu dövrə aiddir.

Monqolustan ərazisi Neolit dövrü abidələri ilə daha zəngindir. Bu dövrdə daş, sümük və ağacdan müxtəlif əməliyyatları yerinə yetirmək üçün uyğunlaşdırılan alətlər düzəldirdilər. Gildən qablar hazırlanması dövrün səciyyəvi xüsusiyyətlərindən biridir.

Neolit dövrünün ən mühüm abidələrindən biri Çoybalsan şəhərinin 9 km-dəki Tamsaq-Bulaq yaşayış məskənidir. Buradakı qazma tipli yaşayış yerindən daş və sümük alətlər və saxsı qab nümunələri tapılmışdır. Müvəqqəti düşərgələrlə yanaşı daimi yaşayış yerlərinin də mövcud olması əhalinin qismən oturaq həyata keçdiyini sübut edir. Bu, ilk növbədə əkinçiliyin meydana gəlməsi ilə bağlı idi. Qazıntılar zamanı çoxlu qayığabənzər dən təmizləyənlərin, həvəngdəstələrin, toxaların tapılması əkinçiliyin inkişaf etdiyini göstərir. Əkinçiliklə yanaşı təsərrüfatda heyvandarlıq da mühüm rol oynamağa başlayır. Heyvandarlıqda iri buynuzlu mal-qara və at çoxluq təşkil edirdi. Digər tərəfdən, ovçuluq hələ də mühüm təsərrüfat sahəsi kimi qalmaqda idi.

Dəfn adətləri Tamsaq-Bulaq mədəniyyəti tayfalarının dini görüşləri haqqında müəyyən təsəvvür yaradır. Onlarda əcdada sitayiş və axirət dünyaya inam mövcud idi. Tamsaqbulaqlılar ölülərini taxta formalı qəbirlərdə ayaqları bağlı və oturmuş vəziyyətdə dəfn edir, üstünə çoxlu qırmızı rəngli oxra (mineral boyaq) tökürdülər. Tədqiqatçılara görə qırmızı rəng simvolik mə'na daşıyırdı və ölümlə assosiasiya edilirdi. Yaşayış evlərindən birinin döşəməsi altında tapılan qəbirdə ölü çiyin və baldır hissələri sədəf muncuqlarla bəzədilmiş paltarda dəfn edilmiş, yanına bir neçə bıçaq və maral dişindən iyirmi asma bəzək qoyulmuşdur.

Qazıntılar zamanı yaşayış məskənlərinin kənarında, xüsusi çalalarda öküz buynuzlarının və kəllələrinin basdırılması müəyyən edilmişdir. Bu dini ayin Monqolustanın şərq rayonları üçün səciyyəvi idi. Digər tərəfdən, ölkənin qərb (Kobdo şəhəri ətrafı və b.) və şimal (Çulut çayı vadisi) hissələrində

Neolit və Eneolit dövrlərinə aid qaya rəsmləri içərisində də öküz təsvirlərinə rast gəlinir. Tədqiqatçılar bunu totemizm və öküz kultunun mövcud olması ilə bağlayırlar.

Monqolustanın qaya rəsmlərindəki öküz təsvirləri Cənubi Sibirin Eneolit dövrü təsvirləri, Tuva və Altay qaya rəsmlərindəki öküz təsvirləri ilə oxşardır.

Mə'lum olduğu kimi, öküz obrazı türk xalqlarının mifologiyasında mühüm yer tutur. Monqolustan qaya rəsmlərinin araşdırıcıları burada daş dövründən mövcud olan öküz kultunun izlərinin hun yaranış əfsanəsində, buryat saqasında və Oğuz xaqan dastanında qaldığını göstərirlər[17].

Tamsaq-Bulaqda tapılmış antropoloji mə'lumatlar əhalinin monqoloid irqinə mənsub olduğunu sübut edir. Digər tərəfdən, paleoantropoloji materiallar Şərqi Monqolustanın Neolit dövrü tayfaları ilə Baykalətrafı ərazilərin həmdövr tayfaları arasında sıx etno-mədəni əlaqələrin olduğunu göstərir.

Qərbi Monqolustana gəldikdə isə, antropoloji materialların yoxluğu bu regionda əhalinin irqi mənsubiyyəti haqqında dəqiq fikir söyləməyə imkan vermir.

Neolit dövrünə aid yaşayış məskənləri ölkənin cənubunda, Qobi zonasında da aşkar edilmişdir. Şabarak-Usu, Tugrigin-Şiret və b. yerlərdən tapılmış alətlərin (dairəvi ərsinlər, bıçaqvari lövhələr, ox ucluqları və s.) oxşarlarına Cənubi Sibirin həmdövr abidələrində rast gəlinir. Neolit və Eneolit (III-II minilliyin əvvəlləri) dövrlərinin həndəsi fiqurlarla (üçbucaqlar, kvadratlar, romblar) bəzədilmiş naxışlı keramikası isə Mancuriya, Şərqi Türküstan, habelə Anau, Elam (Suz-1) və Mesopotamiya (Tell-Xələf, Əl-Übeyd, Cəmdət-Nəsr və b.) keramikası ilə müqayisə olunur. Qeyd etmək lazımdır ki, oxşar həndəsi fiqurlarla bəzədilmiş keramika Azərbaycanın Eneolit dövrü üçün də səciyyəvi idi. Bu baxımdan Əlikömək təpəsi yaşayış yerindən (Cəlilabad rayonunun Üçtəpə kəndi) mərhum arxeoloq Fərman Mahmudovun üzə çıxardığı materiallar xüsusi maraq doğurur[18].

Neolit ən'ənələri Şərqi Monqolustanın ***Eneolit*** abidələrində izlənilir. Bu baxımdan Çoybalen şəhərinin 72 km-də, Kerulen çayının sağ sahilində Norovliyn-Uul adlı yerdə tapılmış qəbir abidəsi maraq doğurur. Norovliyn-Uuldakı dəfn



qaydası Tamsaq-Bulaq mədəniyyəti dövrünün dəfn qaydası ilə eyni idi: ölü ovalformalı qəbir çalasında oturmuş vəziyyətdə, ayaqları bükülü dəfn edilmiş, üstünə çoxlu qırmızı oxra tökülmüşdür. Qəbirdən tapılmış bəzək əşyaları (ağ pastadan silindirvari və şarabənzər muncuqlar, üzüklər, maral və geyik dişindən asma bəzəklər, heyvan fiqurları və s.) Cənubi Sibirin Afanasyevo, Okunev və Baykal ətrafının Qlazkov mədəniyyətlərinə aid bəzək şeylərinin eynidir.

Şərqi Monqolustandan fərqli olaraq Qərbi Monqolustanda ölüləri diametri 4-7 m olan alçaq kurqanların altında, sol böyrü üstə, ayaqları bükülü və başı şərqə doğru dəfn edirdilər (Altan-Sandal, Şatar-Çuluu abidələri). Skeletin üstünə çoxlu oxra tökülmüşdür. Antropoloji tiplərinə görə dəfn edilənlər Avropoid irqinə mənsub idilər. Eyni dəfn forması və adəti, qəbirlərdən tapılan saxsı qablar, habelə dəfn edilənlərin fiziki tipi Cənubi Sibir (Afanasyevo mədəniyyəti) və Altay Eneoliti üçün səciyyəvi idi.

Arxeoloji materiallara əsaslanan tədqiqatçılar artıq Eneolitin başlanğıcında Cənubi Sibir, Tuva, Qərbi və Mərkəzi Monqolustanı əhatə edən böyük etno-mədəni birliyin olması nəticəsinə gəlmişlər.

Eneolit dövrü tayfalarının təsərrüfatı və ideologiyası haqqında 1977-ci ildə Ulan-Batordan 700 km şimalda, Çuluut çayının orta axarında aşkar edilmiş qaya rəsmləri də mühüm mə'lumat verirlər. Eneolit dövrünə aid edilən təsvirlərin bir çoxunun (zahı qadınlar, maskalar, öküzlər və s.) oxşarları yalnız Tuva və Cənubi Sibir abidələrində qeydə alınmışdır. Çuluutda kişi və qadınlar özünəməxsus tərzdə - qadınlar üz tərəfdən, əlləri və ayaqları geniş açılmış (ayaqlar bükülü, əllər isə dua vəziyyətində yuxarı qaldırılmış halda), kişilər isə yan tərəfdən, bir ayağı dizdən bükülü, rəqs pozasında təsvir edilmişdir. Sibir və Monqol şamanlarında olduğu kimi onlar üçbucaq formalı papaq qoymuşdular, papaq və paltarlarından cındırlar sallanırdı. Öküzlər iri buynuzlu (bə'zən ay formasında) təsvir olunmuşdular. Yuxarı hissədə ay formalı buynuzları olan öküzün, bir qədər aşağıda başqa dırnaqlıların (qoyun), onlardan aşağıda günəşin, daha aşağıda ilan və əllərini göyə qaldırmış insan fiqurlarının şəkilləri çəkilmiş kompozisiya

xüsusi maraq doğurur. Görünür, bu kompozisiyada Eneolit tayfalarının kainat haqqında təsəvvürləri əks olunmuşdur. Ay formalı buynuzları olan öküz səmanın, qoyun və yaklar yerin, ilan yeraltı dünyanın simvollarıdır. Bu təsvirlər Monqolustanın Eneolit dövrü tayfalarının inkişaf etmiş mifoloji sistemə malik olduğunu, Günəşə və Aya tapındıqlarını, totem-əcdada və Ulu Anaya e'tiqad etdiklərini göstərir. Digər tərəfdən, ayabənzər buynuzları olan səma öküzünün Şumer və Altun-Təpə tayfalarının dini sistemində mühüm yer tutması faktı Monqolustan materiallarının bütövlükdə Türküstan tarixini öyrənmək üçün xüsusi əhəmiyyətə malik olduğunu göstərir.

***Tunc dövrü.*** Monqolustanda heyvandarlığın, xüsusilə qoyunçuluğun və metallurgiyanın inkişafı, Karasuq tipli arxeoloji mədəniyyətin, incəsənətdə Karasuq stilinin yayılması ilə əlamətdar olmuşdur. Cənubi Sibirdə olduğu kimi, Monqolustanda da Karasuq mədəniyyəti yüksək ustalıqla düzəldilmiş, bəzəkli tutacaqları olan bıçaq və xəncərlərlə təmsil olunmuşdur. Bə'zi xəncər tutacaqlarının başlıqları vəhşi heyvan başları formasında idi. Mərkəzi Asiyada sonralar klassik şəkildə skif mədəniyyətində üzə çıxan "heyvan stili"nin yaranması məhz bu dövrə aid edilir.

Tunc dövrünün qaya rəsmləri içərisində at qoşulmuş cəng arabalarının təsvirləri xüsusi maraq doğurur. Formalarına görə Altay, Pamir, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Tuva və Cənubi Sibir, habelə Şimali Qafqaz və Hindistan dağlarında həkk olunmuş arabalar Monqolustan arabalarına çox oxşardır.

İstər ərazi, istərsə də dövr baxımından Monqolustanın cəng arabaları Karasuq mədəniyyəti ilə bağlı olmuşdur.

Cəng arabaları ilə yanaşı ox və yayla silahlanmış çoxlu döyüşçü və ovçu təsvirlərinə də rast gəlinir. Ovçular əsasən maral, qaban, dağ keçisi ovlayırdılar.

Monqolustanın Tunc dövrünə aid edilən ən parlaq abidələrdən biri də "Maral daşları" adlanan heykəltəraşlıq nümunələridir[19]. Qranit, mərmər və bazaltdan hündürlüyü 2-5 m olan daş sütunun üstündə müxtəlif heyvan şəkilləri, əsasən maral (buna görə də onlar "Maral daşları" adlandırılır), habelə vəhşi heyvanlar, atlar, qulanlar, quşlar, balıqlar və s., həmçinin



silahlar və müxtəlif simvollar həkk olunmuşdu. Daşların bə'zilərinin yuxarı hissəsi insan başı şəklində idi. "Maral daşları" Altaydan Baykalətrafı əraziyə, Qazaxıstandan Qobiyə qədər geniş bir ərazidə yayılmışdır. Monqolustanda bu daşlar əsasən ölkənin qərb hissəsi üçün səciyyəvidir.

Bə'zi tədqiqatçıların fikrincə uca dağlarda, qurbangahlarda qoyulan "Maral daşları" əcdad marala - totemə və Günəşə həsr olunmuş dini abidələr olmuşdur. Çuluutun Eneolit dövrü təsvirlərində olduğu kimi, burada da insanların kainat haqqında təsəvvürlərinin əks olunduğu güman edilir. Belə ki, daşların həmayillə ayrılan və səmaya doğru yönələn yuxarı hissəsi göy aləmi ilə əlaqəni simvolizə edirdi. Maral və digər heyvanların təsvirləri olan mərkəzi hissə, yerin aşağı hissədə üstündə silahlar asılmış kəmər isə yeraltı dünyanın (silah ölüm aləti idi) simvolları olmuşdur.

"Maral daşları" ulu əcdadlara qoyulan abidələr idi.

Heyvan şəkilləri və silahların (ox və yay, xəncər, təbərzin, balta, qalxan) təsvirləri ilə yanaşı daşlar üzərində müxtəlif işarələr - simvollar da həkk olunmuşdur (günəş rəmzi olan sırğalar, dairələr, qarmağaoxşar işarələr və s). "Maral daşları"nın tədqiqatçıları onların yuxarı hissəsində təsvir edilən dairələrin, sırğaların şərəfinə abidə qoyulmuş şəxsin (və ya abidəni qoyan nəslin) etnik və ya nəsli mənsubiyyətinin simvolik ifadəsi olduğunu göstərirlər. Maraqlıdır ki, belə işarələrə sonralar yalnız türk və monqol damğaları içərisində rast gəlinir.

"Maral daşları" üzərindəki təsvirlərin böyük əksəriyyəti hərbi iş və döyüş silahları ilə bağlıdır. Bu baxımdan maraq doğuran faktlardan biri də bə'zi daşların üzərində bayraq təsvirinin olmasıdır. Ümumiyyətlə, bayraq qələbə simvolu kimi Altay dil ailəsi, o cümlədən Monqolustanın qədim tayfalarının müqəddəs atributu idi. Bayraq əcdad ruhunun təcəssümü hesab olunur, qorunur və müdafiə edilirdi. Qədim türklərdə bayraq üzərində totem əcdad-qurd təsvir edilirdi. Əcdadın və sərkərdənin ruhu, səma ilə bağlı olan bayraq (əcdad ruhu) nəsli və tayfanı, müharibə dövründə isə döyüşçüləri mühafizə edirdi.

Maraqlıdır ki, bayraq şəklinə tək-tək daş sütunların üstlərində rast gəlinir. Görünür, belə təsvirlər yalnız xüsusi ha-

kimiyyəti və mövqeyi olan sərkərdələrin şərəfinə qoyulmuş abidələrdə olmuşdur. Bu ideya əsrlər boyu yaşamış və öz ifadəsini qədim türk dövründə Monqolustanın, Qazaxıstanın, Qırğızıstanın və Qərbi Türküstanın qaya rəsmlərində tapmışdır.

Monqolustanda Tunc və Dəmir dövrlərinin səciyyəvi abidələrindən biri də tava daşları qəbirləridir. Dik vəziyyətdə yerə basdırılmış yastı daşlardan və qaya parçalarından qurulan belə qəbirlər Şərqi Monqolustanı, Baykalətrafı ərazini, cənubda Qobi səhrasını və şimali Tibeti və Çinin bə'zi rayonlarını əhatə edən geniş bir ərazidə yayılmışdır. Tədqiqatçıların fikrincə bu tip qəbirlər Tunc dövrünə, sonrakılar isə Erkən Dəmir dövrünə (bə'ziləri hətta erkən orta əsrlər dövrünə) aiddir. Ölünü adətən arxası üstə, başı şərqə doğru dəfn edir, Neolit və Eneolit dövrlərində olduğu kimi bə'zən üstünə oxra tökürdülər.

Ölünün başı altına yastı daş lövhə qoyulması və onunla birlikdə at skeletinin bir hissəsinin də dəfn edilməsi, dəfn avadanlığının sabitliyi və eyniliyi (üçayaqlı gil ocaq qurğuları, tutacağında insan və heyvan fiqurları təsvir edilmiş bıçaqlar və s.) bu mədəniyyətin fərqləndirici cəhətləridir. Bu baxımdan üçayaqlı gil ocaq qurğuları xüsusi maraq doğurur. Bu tipli səyyar ocaqlar Baykaldan başlayaraq Xuanxe çayına qədər geniş bir ərazidə yayılmışdır.

Əsasən Şərqi Monqolustanda yayılan tava daşları qəbirlərində monqoloid irqinə mənsub ölülər dəfn edilmişdilər.

Mərkəzi Asiyanın qədim tayfalarının etnik mənsubiyyətini müəyyənləşdirmək üçün arxeoloji materiallarla yanaşı Çin yazılı mənbələri də mühüm əhəmiyyətə malikdir. E.ə.XIV-XI əsrlərə aid İn dövrü kitabələrində Çinin şimal qonşuları olan iyirmiyə qədər tayfanın adı və məskunlaşdığı ərazilər xatırladılır: tufanlar[20] (müasir Paotou şəhəri rayonunda, şimali Çin), lüfanlar (Ordos ətrafında), kufanlar (Şensi, Şansi, Suyyuan vilayətlərinin qovşağında), quyfanlar[21] (Şensi vilayətinin şimalmda) və b. Çində Çjou sülaləsinin hakimiyyəti dövründə (e.ə.XI-III əsrlər) bu tayfaların varisləri di (türklərlə eyniləşdirilmişdir) və jun (əvvəllər syan, sonrakı dövrlərdə syunnu, hun) adlandırılır. İn və Çjou dövrlərində



Çinin şimal qonşuları olan tayfalar türk, monqol və Tibet xalqlarının əcdadları idilər.

Monqolların mənşəyi məsələsini tədqiq edən L.L.Viktorova e.ə.II-I minilliklərdə Mərkəzi Asiya, Baykalarxası ərazi və Cənubi Mancuriyada üç etno-mədəni arealın (sahənin) olduğunu göstərir. Birinci (şərq) arealı tava daşları qəbirləri mədəniyyəti ilə səciyyələnir. Çin mənbələrində şan-jun (dağ junları), syuan-jun, beydi, dunxu tayfaları hələ neolit dövründən bu ərazidə məskunlaşan monqoloid əhalinin varisləri idilər və mənşəcə monqollarla bağlıdırlar.

İkinci etno-dil birliyi Şimal-Qərbi və Qərbi Monqolustanı və Tuvanı əhatə edirdi. Bu ərazi üçün ölüləri dairəvi kurqanlarda dəfn etmək səciyyəvi idi. Antropoloji materiallar burada avropoid əhalinin üstünlük təşkil etdiyini göstərir. Mədəniyyət bir çox əlamətlərinə görə Şərqi Qazaxıstan və Qırğızıstan əhalisinin mədəniyyəti ilə oxşar idi.

Bu etno-dil qatını Çin mənbələrində ***dinlin*** (Dn -Ə.M.) adlanan və mənşəcə türklərlə bağlı olan tayfalarla eyniləşdirmək olar[22].

Çinin şimal sərhədləri yaxınlığında yerləşən (Şansinin bir hissəsi, Şensi, Suyyuan, Ordos, Qansu, Qobinin bir hissəsi) üçüncü zonanın əhalisi etno-mədəni dağınıqlığı ilə seçilirdi və qismən qarışıq idi[23].

## *§ 3. Sibir*

XX əsrin 50-ci illərinə qədər elmdə Sibirdə insanın Daş dövrünün sonlarında məskunlaşması fikri hökm sürürdü. Lakin 1954-cü ildə S.İ.Rudenko tərəfindən Altayda Mustye dövrünə aid Ust-Kan mağarasının və 1961-ci ildə A.P.Okladnikov tərəfindən Ulalinka çayı yaxınlığında Üst Paleolit dövrünə aid düşərgənin aşkar edilməsi Sibirin Daş dövrünün hələ erkən mərhələsində məskunlaşdığını sübut etdi. Sonrakı illərdə Altayda Mustye dövrünə aid Straşnı (1966), Xakasiyada Dvuqlazka (1974) və b. Paleolit düşərgələri aşkar edildi. Primitiv daş alətlərlə yanaşı, bu düşərgələrdən kərgədan, bizon, antilop və b. heyvanların sümükləri də tapılmışdır.

Sibirin Paleolit dövrü abidələri içərisində Belıy İyus çayı sahilindəki Malaya Sıya (Şərqi Sibir) düşərgəsi mühüm yer tutur. 34 min il əvvəl mövcud olan bu düşərgə onlarla dairəvi qazmadan ibarət olmuşdur. Heyvan sümüyü qalıqları düşərgə sakinlərinin əsasən şimal maralı, sayqak, bizon, dağ keçisi ovladıqlarını göstərir. Düşərgədən həmçinin mamont, kərgədan, zubr, at, tülkü, dovşan və b. heyvanların sümükləri də tapılmışdır. Yaşayış yerlərindən dəmir və mis filizi parçalarının tapılması maraq doğurur. Müəyyən edilmişdir ki, qədim insanlar bu filizlərin əridilmiş piylə qarışığından xüsusi boyaq alır və divar rəsmlərinin çəkilməsində ondan istifadə edirdilər. Düşərgədən həmçinin tütək və b. incəsənət nümunələri də tapılmışdır.

Son Paleolit dövrü insan düşərgələri həmçinin Qərbi Sibirdə, Katun, Çulıma, Yenisey, Anqara və Lena çayları sahillərində aşkar edilmişdir. O dövr insanlarının həyat tərzi və mədəni səviyyəsini öyrənmək baxımından Anqara sahilində 15 min il əvvələ aid olan Malta və Buret insan düşərgələri xüsusi maraq doğurur. Malta yaşayış məskəninin ərazisində yaşayış tikililərinin qalıqları, uşaq qəbri, çoxlu heyvan sümüyü qalıqları (şimal maralı, şimal tülküsü, tüklü kərgədan, mamont, bizon, öküz, at, Sibir porsuğu, pələng, canavar), daş və sümük mə'mulatlar, incəsənət nümunələri və bəzək əşyaları tapılmışdır (Maltadan təxm.20 km aralı olan Buret düşərgəsində də, demək olar ki, eyni əşyalar tapılmışdır). Malta tapıntıları içərisində əsasən mamont dişi, nadir hallarda şimal maralı buynuzu və yumşaq yaşıl daşdan düzəldilmiş 40-a qədər heykəlcik xüsusilə diqqətəlayiqdir. Heykəlciklərin böyük əksəriyyəti qadın fiqurlarından ibarətdir. Fiqurlardan bə'zilərinin üstü üz hissəsi istisna olunmaqla başdan-başa naxışla örtülmüşdür. Naxışların xəz paltar təsviri olması güman edilir. Bu, Sibir qadın heykəlciklərini lüt bədənli həmdövr Avropa qadın heykəlciklərindən fərqləndirir. Avropa Paleolitində oxşarı olmayan digər bir əlamət heykəlciklərin ayaqlarının aşağı hissəsində deşik açılması idi. Bu, onların asmaq üçün (başı aşağı) nəzərdə tutulduğunu göstərir. Elmdə bu heykəllər “Paleolit Venerası” adını almışdır, çünki eynilə



belə heykəllər Qərbi və Şərqi Avropada da tapılmışdır. Heykəllərin üzərində həndəsi rəsmlər də vardır.

Qadın fiqurları ilə yanaşı Maltada Avrasiyanın Paleolit incəsənətində bərabəri olmayan çoxlu quş fiqurları tapılmışdır. Qadın fiqurlarında olduğu kimi quş fiqurlarında da ipə keçirmək və ya paltara tikmək üçün dairəvi deşiklər açılmışdır. Bütün bunlar, habelə mamontun iri yan dişi üzərində oyma üsulu ilə heyvan təsvirləri (mamont, qıvrılmış ilan) Malta-Buret sakinlərinin dini-mifoloji təsəvvürləri ilə bağlı idi.

1871-ci ildə İrkutsk şəhəri yaxınlığında Son Paleolit düşərgəsi tədqiq olunmuşdur. Arxeoloqlar İ.D.Çerski və A.L. Çekanovski bu düşərgənin yerində bizon, at və maral sümükləri tapmışlar. Daha sonra Y.N.Xadukina İrkutsk yaxınlığında Uşkanka çayının sahilində yeni bir Son Paleolit düşərgəsi müəyyən etmişdir. Hazırda Yenisey çayının orta axınında 50 Paleolit düşərgəsi mə'lumdur ki, bunların 5-i 14 min il bundan əvvələ aiddir, digərlərinin isə 11-12 min il yaşı vardır.

Bu və ya digər çoxsaylı insan düşərgələrində aşkarlanmış tapıntılar Paleolit dövründə Sibir sakinlərinin yüksək mədəni səviyyəyə malik olduqlarını göstərir. Yenisey çayı üzərində 20 min il əvvələ aid olan Afontova Qora düşərgəsindən tapılmış insanın alın hissəsi sümüyünün bir parçasına əsa-sən o dövrdə Sibirdə monqoloid tipli insanların yaşadığı müəyyən edilmişdir. Tədqiqatçılar eyni nəticəyə Maltada tapılmış uşaq kəllə sümüyünün və qadın heykəlciklərinin öyrənilməsi əsasında da gəlmişlər.

40 min il bundan əvvəlki dövrdən başlayaraq - Paleolitin son dövründə Sibirin monqoloid tipli (sonralar türk-monqol qarışıqlı) ibtidai ovçuları o vaxtlar Asiya ilə Amerikanı birləşdirən quru zolağı ilə (indiki Berinq boğazı) Amerikaya keçmiş və bu qit'ənin ilk sakinləri olmuşlar. Kolumba qədərki yüksək Amerika mədəniyyətinin təşəkkülü ilk növbədə onların adı ilə bağlıdır.

Keçən əsrin sonlarından başlayaraq Sibirdə bir sıra Mezolit (Orta daş dövrü) düşərgələri aşkar edilmişdir (Cənubi Sibirdə Baday, Verxnolensa və b. komplekslər, Şimali Sibirdə Sumnakin mədəniyyəti). Mezolit dövründə təsərrüfat həyatında bir sıra mütərəqqi dəyişikliklər baş verir. Ovçuluqla

yanaşı balıqçılıq geniş yayılır, ox və yay, sümük qarpunlar, balıqçı qarmaqları və torları meydana gəlir, daş alətlər təkmilləşdirilir. Qədim və Orta daş dövrləri mədəniyyətləri əsasında Sibirdə ***Neolit*** (V-IV minilliklər) mədəniyyəti təşəkkül tapır. Bu dövrə aid abidələr Yenisey, Ob və Katun çayları vadilərində aşkarlanmışdır. Yaşayış yerləri alaçıq tipli yerüstü tikililərdən ibarət idi. Neolit məskənlərində vəhşi heyvan sümükləri ilə yanaşı ev heyvanları - at və qoyun sümükləri də tapılmışdır. IV minilliyin sonlarında Cənubi Sibir çöllərində artıq heyvandarlıq meydana gəlmişdi. Meşə zonası tayfaları isə yalnız ovçuluq və balıqçılıqla məşğul idilər.

Arxeoloji tədqiqat göstərmişdir ki, Ob çayının hövzələrində ümumi mədəniyyətə malik bir sıra tayfalar yaşayırdı. Maraqlıdır ki, Neolit düşərgələrində tapılmış çaxmaqdan ox ucluqları Türkmənistan ərazisində e.ə.IV-III minilliklərə aid abidələrdəki ox ucluqları ilə eynidir.

Son Neolit dövründə orta Yenisey hövzəsində ***Təzmin*** arxeoloji mədəniyyəti təşəkkül tapır. Bu mədəniyyət Asiyada ən qədim daş heykəllər və menqirlər[24], ən qədim daş mə'bədlər, həmçinin qayaüstü rəsmlərlə (sığın və öküz şəkilləri, ruhlara məxsus maskalar) səciyyələnir. Ayrı-ayrı daş sütunlarda və qaya-larda öküz qoşulmuş dördtəkərli arabalar təsvir edilmişdir. Onların Günəş kultu ilə bağlı olması ehtimal olunur. Bə'zi heykəllərdə günəş gəmiləri həkk olunmuşdur. Bu dini mahiyyətli (sakral) təsvirlər e.ə.IV-III minilliyin başlanğıcında Mesopotamiyada (Şumer) yaranan nümunələri xatırladır.

Təzmin mədəniyyətinə aid heykəllərdə monqoloid irqinin nişanələri vardır.

Bu arxeoloji mədəniyyət qədim Sibir və Mərkəzi Asiya Altay-türk tayfalarının tarixində mühüm yer tutur. Onun əsasında Cənubi Sibirin Tunc dövrü mədəniyyəti formalaşmışdır.

E.ə.III minilliyin ortalarında Cənubi Sibirdə və Altayda yaşayan əhalinin təsərrüfat həyatında köklü dəyişikliklər baş verir. Bu dəyişiklik hər şeydən əvvəl metal alətlərin düzəldilməsində özünü göstərirdi. Bundan başqa, məhz bu vaxtda Cənubi Sibirdə maldarlıq daimi təsərrüfat məşğuliyyəti sahəsinə çevrilir. Sayan-Altaym dağlıq ərazisində çoxlu mis kar-



xanalarının yerləri aşkar edilmişdir. Metaldan istifadə və ovçuluqdan maldarlığa keçid o zamankı tayfaların ictimai həyatında mühüm dəyişikliklər yaradırdı.

Metal istehsalı ilə bağlı ilk mədəniyyət burada ***Afanasyevo arxeoloji mədəniyyəti*** adlanır. Afanasyevo adlı yaşayış məntəqəsi yaxınlığında, Dağlıq Altayda 18 yerdə bu arxeoloji mədəniyyətin izləri üzə çıxarılmışdır. Təxminən 200 qəbir açılmışdır. Bu mədəniyyət ilk dəfə məşhur türkoloq V.V.Radlov tərəfindən 1865-ci ildə aşkar edilmişdir.

Yuxarıda qeyd edildiyi kimi Afanasyevo mədəniyyətinin səciyyəvi cəhəti metaldan istifadə olunmasıdır. Lakin məişətdə daş alətlər hələ də qalmaqda idi. Metaldan yalnız bəzək əşyaları (sırğa, qolbaq və s.) hazırlamaq üçün istifadə edilirdi. Bu əşyalar həm misdən, həm də qızıldan düzəldilirdi. 1964-cü ildə Afanasyevo dağının ətəyindəki bir qəbirdə metal qolbaq tapılmışdır. Laboratoriya təhlili qolbaq metalının meteorit mənşəli olduğunu göstərmişdir.

Afanasyevo mədəniyyətinin mühüm xüsusiyyətlərindən biri də əkinçiliyin meydana gəlməsi idi. Qazıntılar zamanı dən əzmək, yaxud yarma hazırlamaq üçün daşlar tapılmışdır.

Afanasyevo mədəniyyəti üçün üzəri oyma və ya basma-qəlib naxışla bəzədilmiş sivri və yumru oturacaqlı saxsı qablar səciyyəvidir. Hətta təxminən 200 litr maye tutan iri saxsı küplər də tapılmışdır. Maraqlısı odur ki, belə küplərin bə'ziləri qəbirdə qoyulmuşdur. Lakin hələ dulus çarxı yox idi, qab gil palçıqdan əllə düzəldilirdi və sonra da odda bişirilirdi. Qəbirlərdən müxtəlif bəzək əşyalarının tapılması göstərir ki, müəyyən dərəcədə sənətkarlıq inkişaf etmişdi. Afanasyevlilərdə daş və ağac e'malı (o cümlədən ağacdan qablar düzəldilməsi), əyiricilik, dərinin aşılanması, ağac və sümük üzərində oyma üsulu ilə naxışaçma kimi sənət sahələri də var idi.

Afanasyevo dağının ətəyində bir qəbiristanda çoxlu uşaq skeletləri tapılmışdır. Bu göstərir ki, iqlim şəraiti uşaqlarm səhhətinə pis tə'sir edirdi. Bir maraqlı fakt da vardır: bə'zi qəbirlərdə iki qadın və ya iki kişi dəfn edilmişdir. Bə'zi qəbirlərdə isə 4-5 nəfər ölünün skeleti vardır. Tədqiqatçılara görə bu müəyyən epidemik xəstəliyin nəticəsində ola bilərdi.

Afanasyevo əhalisi otlaqlarda və ovda köçürülə bilən mənzillərdə, daimi yaşayış yerlərində isə yarımqazma evlərdə yaşayırdılar.

Keramika qalıqları və antropoloji materiallar afanasyevçilərin e.ə.III-II minilliyin əvvəllərində Xəzəryanı və Qaradənizyanı çöllərdə quyu qəbirləri mədəniyyətini yaratmış tayfalarla, xüsusilə bu mədəniyyətin Volqa-Ural qrupu ilə eyni mənşəyə malik olduqlarını göstərir. Antropoloji baxımdan afanasyevçilər Avrasiyanın avropoid tayfalarının ucqar şərq qolu hesab edilir.

E.ə.II minilliyin başlanğıcından Cənubi Sibirdə Afanasyevo mədəniyyətini ***Okunev arxeoloji mədəniyyəti*** əvəz edir. Okunev Xakasiyada bir kəndin adıdır. Bu mədəniyyət M.N. Komarova tərəfindən 1947-ci ildə müəyyən edilmişdir. Afanasyevodan fərqli olaraq bu mədəniyyəti monqoloid irqli tayfalar yaratmışlar. Okunev mədəniyyətinin nişanələri Yenisey çayı sahillərində və Abakanda da vardır. Onlar ölülərini daş parçaları ilə hasarlanmış qəbirlərdə, bə'zi hallarda isə daş yeşik formalı qəbirlərdə dəfn edirdilər.

Okunevçilərin əsas təsərrüfat məşğuliyyətləri maldarlıq idi. Qəbirlərdə yundan toxunmuş çoxlu paltar və əşya qalıqları tapılmışdır (çünki Sibirdə yer donuq olduğuna görə çürüməgetməmişdir). Bundan başqa qəbirlərdə çoxlu saxsı qab-qacaq da vardır. Bu qab-qacaq da əllə düzəldilmişdir, hələ dulus çarxı mə'lum deyildi. Okunev mədəniyyətinin daşıyıcıları metaldan geniş istifadə etmişlər. Bu mədəniyyət dövrünə aid çoxlu daş heykəllər mə'lumdur, onların çoxu qadın heykəlləridir.

E.ə.II minilliyin ortalarında qərbdən gələn Avropoid irqə mənsub tayfalar okunevçiləri çöl zonasından dağlara (Altay, Tuva) sıxışdırırlar. Bununla da Okunev mədəniyyəti tənəzzül edir və e.ə.II minilliyin ortalarından Cənubi Sibirdə ***Andronovo*** arxeoloji mədəniyyəti dövrü başlanır. Bu mədəniyyətin yayıldığı areal Uralətrafını, Qazaxıstan və Altayın Minusin vadisini əhatə edir. Bə'zi arxeoloqlara görə bu mədəniyyət bütün Cənubi Sibir üçün səciyyəvidir. Başqa sözlə bu mədəniyyət Uraldan Yeniseyə qədərki bir əraziyə yayılmışdır.



Andronovo mədəniyyəti hələ Neolitdən başlayan (e.ə.VI-IV minilliklər) bir etnik və təsərrüfat ən'ənəsinə malikdir. Bu, hər şeydən əvvəl maldarlığa aiddir. Andronovluların əsas məşğuliyyəti heyvandarlıq idi. Onlar iri buynuzlu mal-qara, habelə qoyun və keçi saxlayırdılar. Kəl və atdan əsasən qoşqu vasitəsi kimi istifadə edilirdi. Yük daşımaq üçün dörd təkərli və iki təkərli arabalardan istifadə edilirdi. Andronovlulara e.ə.II minillikdə Avrasiya çöllərində geniş yayılan qoşa at qoşulmuş cəng arabaları da mə'lum idi. Qəbirlərdən tapılmış sümüklərə əsasən demək olar ki, o vaxt iri buynuzlu mal-qara saxlayırdılar. Bu, həm əhalinin südlə, həm də ətlə tə'min olunması üçün əsas şərt idi. Lakin onlar qoyun da saxlamışdılar. Bunu qəbirlərdə yundan düzəldilmiş ayaqqabı qalıqlarının tapılması da təsdiq edir. At həm qoşqu vasitəsi, həm də ətlik üçün saxlanılırdı.

Andronovluların təsərrüfat həyatında toxa əkinçiliyi (əsasən çay sahillərində) də mühüm rol oynamışdır. Əkinçilikdə daş alətlərdən istifadə edilirdi. Taxılı əl dəyirmanlarında üyüdürdülər. Ovçuluq yardımçı təsərrüfat sahəsi idi.

Andronovo sənətkarları yüksək qalaylı tuncdan əmək alətləri (baltalar, kərkilər, bıçaqlar, iskənələr, bizlər və s.) və silahlar (nizələr, xəncərlər və s.) düzəldirdilər. Yenisey çayının sağ sahilində, Novoselov kəndi yaxınlığında o dövrə aid misəritmə sobaları aşkar olunmuşdur.

Arxeoloji qazıntılar göstərmişdir ki, bu mədəniyyətin daşıyıcıları yeraltı daxmalarda (qazma tipli evlərdə) yaşamışlar. Qış vaxtı mal-qaranı da yeraltı damlarda saxlayırdılar.

Andronovo mədəniyyətinin özünəməxsus saxsı qab istehsalı texnologiyası vardır. Qabların üzəri həndəsi naxışlarla örtülmüşdür.

Bu mədəniyyətlə bağlı ən mühüm hadisələrdən biri də e.ə.II minilliyin ortalarında böyük nefrit (ağ, süd rəngli və ya yaşıla çalar bərk mineral) yolunun yaranması olmuşdur. Onun mövcudluğu Sayan nefritindən cilalanmış bəzək şeylərinin (üzüklər, dairəşəkilli lövhələr, düymələr və s.) xüsusi formalı tunc əşyalarla bitişik çöl və şimal meşələrinin qovşağında yerləşən inkişaf etmiş tunc dövrü mədəniyyətləri içərisində yayılması ilə müəyyənləşdirilir. Nefrit yolu en dairəsi istiqamətində

Baykalətrafı ərazidən müasir Transsibir magistralı boyu qərbə doğru uzanaraq Ob və İrtış çaylarını kəsir, Ural dağlarından keçərək Kama çayına və Oka çayının mənsəbi yaxınlığında Volqa çayına çatırdı. Bu yol Cənubi Sibiri Şərqi Avropa ilə birləşdirən ticarət yolu idi. Böyük nefrit yolunun bir hissəsi də Şərqə doğru gedirdi. Sayan nefritindən hazırlanan yuxarıda göstərilən bəzək əşyaları Çində də yayılmışdı.

Tədqiqat göstərmişdir ki, onlar qəbirləri bə'zi hallar-da hündürlüyü 70 sm-ə qədər daşla hasarlamışlar. Maraqlı odur ki, ilk dəfə olaraq bu mədəniyyətdə iki dəfn üsulu olmuşdur: ölünü torpağa basdırmaq və onu yandırmaq. Lakin uşaqları heç vaxt yandırmamışlar. Qəbirlərdə çoxlu qab-qacaq, bəzək şeyləri və alətlər qoyulmuşdur. Qablarda ət yeməklərinin qalıqları vardır. Bu göstərir ki, onlar həyatın "o dünyada" davam edəcəyini güman edirdilər. Ölüləri öz paltarı ilə birlikdə basdırırdılar[25].

Qeyd etmək lazımdır ki, andronovlular avropoid irqə mənsub adamlar olmuşlar. Bu mə'nada Andronovo mədəniyyəti özündən qabaqkı Sibir arxeoloji mədəniyyətlərindən köklü surətdə fərqlənir. Bə'zi tədqiqatçılara görə andronovlular Cənubi Sibirə Qazaxıstan ərazisindən gəlmişlər.

Tunc dövrünün sonlarında Cənubi Sibirdə ***Karasuq arxeoloji mədəniyyəti*** çiçəklənmişdir (e.ə.XIV-VIII əsrlər). Bu mədəniyyət Karasuq çayının (qədim türk dillərində kara və suq "su" sözlərindən) adı ilə adlanmışdır. Bu mədəniyyət qərbdən və cənubdan gələn tayfalar tərəfindən yaradılmışdır. Onlar daimi kəndlərdə, karkas tipli böyük evlərdə yaşayırdılar. Bu mədəniyyət Monqolustanda, Cənubi Sibirdə, Qazaxıstanda və Ob çayınm yuxarı axarında yayılmışdır. Bu dövrdə əhali oturaq maldarlıqdan köçəri maldarlığa, yaylaq-qışlaq maldarlığına keçir. Deməli, köçəri maldarlıq bu mədəniyyətin əsas səciyyəvi cəhətidir. Onlar əsasən iri buynuzlu mal-qara, at və qoyun saxlayırdılar. Karasuq mədəniyyətini yaratmış tayfalar qruplar şəklində yaşamışlar. Hazırda bu mədəniyyətə aid 10 belə lokal qrup mə'lumdur. Bu mədəniyyət əsasən qəbirlərin tədqiqi nəticəsində öyrənilmişdir. Onlar ölüləri dördkünc hasarla əhatələnən alçaq sün'i təpələrin altında daş qutu qəbirlərdə paltar və qab-qacaqla birlikdə dəfn edirdilər. Ölülərin başı üstündə saxsı qablarda yemək (əsasən ət xörəkləri) qoyulurdu.



Tədqiqat göstərmişdir ki, Karasuq mədəniyyəti vaxtmda ilk dəfə olaraq atdan əsasən minik vasitəsi kimi istifadə olunmuşdur. Bunu qəbirlərdən çoxlu at üzəngilərinin tapılması da sübut edir. Təkərli nəqliyyat, o sıradan cəng arabaları geniş yayılmışdı.

Karasuq mədəniyyətinin mühüm xüsusiyyətlərindən biri metallurgiyanın yüksək inkişafı idi. Sənətkarlar yüksək qalaylı tuncdan xüsusi formalı çoxlu əmək alətləri (baltalar, kərkilər, dəhrələr, oraqlar, bıçaqlar və s.), silahlar (təbərzinlər, xəncərlər, nizələr, ox ucluqları) və bəzək əşyaları düzəldirdilər.

Karasuq metallurgiya mərkəzi yüksək məhsuldarlıqlı əmək alətləri və xüsusi tipli silahları ilə şöhrət tapmışdı. Onlar qərbdə Şimali Qafqaza və Ukraynaya qədər, şərqdə Yaponiya və Çinə qədər, şimalda Yakutiyaya qədər yayılmışdılar.

Beləliklə, Cənubi Sibir metallurgiya mərkəzi bütün tunc dövrü ərzində Avrasiyanın yaxın və uzaq rayonlarına mühüm tə'-sir göstərmişdi.

E.ə.X əsrdə Altayda Karasuq mədəniyyəti ***Taqar*** mədəniyyəti ilə əvəz olunur. Bu mədəniyyət Yeniseyin orta axını boyu ge-niş yayılmışdır. Bu mədəniyyətin ən tipik cəhəti ölülərin üzərində kurqanların düzəldilməsidir. Bu mədəniyyət təxminən 7 əsr davam etmişdir.

Qeyd edilməlidir ki, bu mədəniyyətə aid kurqanların hündürlüyü bə'zən 10 metrə çatır. Əvvəllər olduğu kimi ölüləri daş yeşiklərdə basdırırdılar. Tunc alətlərin istehsalı geniş vüs'ət tapır. Taqar mədəniyyətinin ən yüksək inkişaf dövrü e.ə.VI-V əsrlərə aiddir. Qəbirlərdə ölülərin yanında saxsı qablarda yeməklər qoyulurdu. Maraqlıdır ki, bu mədəniyyət döv-ründə tuncdan çoxlu xəncərlər də düzəldilmişdir. Bu da o dövrdə müharibələrin geniş yayıldığını göstərir.

Taqar mədəniyyətinin yaradıcıları əsasən maldarlıqla məşğul olurdular. Ona görə də onların çoxlu at ilxıları və qoyun sürüləri vardı. Nəhayət qeyd etmək lazımdır ki, Taqar mədəniyyətində çoxlu "heyvan stili" yaxud "Skif Sibir heyvan stili" adlanan əşyalar da aşkar olunmuşdur. Mə'lumdur ki,

belə əşyalar e.ə.VII-V əsrlərdə Qara dənizin şimal çöllərində yaşayan skiflərdə də aşkar olunmuşdur.

Bu baxımdan Cənubi Sibirdə Tuva ərazisində 70-ci illərin əvvəllərində aşkar edilən ***Arjan şah kurqanı*** (e.ə.VIII əsr) böyük maraq doğurur. Kurqanda qazıntı işləri 1971-ci ildə başlanmış, 1974-cü ildə başa çatdırılmışdır (M.P.Qryaznov, M.X.Mannay-ooe)[26].

Tədqiqatçıların şah adlandırdıqları iri tayfanın və ya tayfa ittifaqı başçısının dəfni böyük dəbdəbə ilə həyata keçirilmişdi. Şah kurqanın mərkəzi hissəsindəki kamerada, arvadı ilə yanaşı basdırılmışdı. Şah qəbrinə çoxlu zəngin əşyalar qoyulmuşdu. Lakin onların böyük hissəsi qarət edilmişdir. Minlərlə qızıl bəzək əşyaların və firuzə muncuqların çox az hissəsi qalmışdır. Mərkəzi kamerada və onu əhatə edən başqa kameralarda 15 kişi (18 yaşından 60 yaşınadək) - şahın yaxın adamları, habelə üç yüz at dəfn olunmuşdu. Şah və məlikə zəngin bəzədilmiş paltarda dəfn olunmuş, onların qəbrinin döşəməsi at quyruğu və yalı ilə döşənmişdi (müasir tuvalılarda "marala minmə - yıxılsan buynuzu sənə batar, öküzə minmə - yıxılsan buynuzu sənə batar, ata min - yıxılsan o quyruğunu və yalını sənin altına döşəyər, yüngüllüklə yerə uzanarsan" misalı var). Qeyd edildiyi kimi, kurqan hələ qədim dövrdə qarət edilmiş, o cümlədən şah qəbri də viran qoyulmuşdu. Qəbirdə bə'zi bəzək əşyaları ilə yanaşı Ön Asiya mənşəli naxışlı yun parça və samur xəzinin qalıqları qalmışdır. Tapıntılar göstərir ki, şahın paltarı skif heyvan stilində hazırlanmış qızıl nişanla bəzədilmişdi.

Arjan kurqanı skif mədəniyyətinin erkən mərhələsini və məişətini müəyyənləşdirmək baxımından çox mühüm abidədir. Arjanda skif mədəniyyətini səciyyələndirən "heyvan stili"ndə hazırlanmış tunc, sümük və daş əşyalar, skif tipli silahlar və qoşqu ləvazimatı tapılmışdır. Arjan qazıntılarına qədər e.ə.VIII-VII əsrlər skiflərə qədərki dövr kimi səciyyələndirilirdi. Arjan tapıntıları skif mədəniyyətinin başlanğıc mərhələsini xeyli qədimləşdirməyə imkan verdi.

Arjan tapıntılarının bə'zi analoqlarının Qara dənizin şimal çöllərində tapılması həmin abidələri də erkən skif dövrünə aid etməyə imkan verir (əvvəllər bu abidələr kimmer-lərə və skiflərə qədərki dövrə aid edilirdi). Digər tərəfdən, məşhur skif üçlüyü (heyvan stili, skif tipli ox ucluqları və silahlar, qoşqu ləvazimatı) bütöv halda yalnız Arjanda təmsil olunmuşdur. Bu fakt skif mədəniyyətinin, bir çoxlarının hesab etdiyi kimi Qara dənizin şimal çöllərində yox, Mərkəzi Asiyada, Sibirdə təşəkkül tapdığını, sonra isə Avrasiyanın geniş ərazisinə yayıldığını sübut edir.



İndi isə biz Altay və Tuva ərazisində e.ə.VII-III əsrlərə aid arxeoloji mədəniyyətlərə qısaca nəzər salaq. Tarixşünaslıqda bu əsrlər "Altayın skif dövrü" adlanır.

Bu mədəniyyət Altayda VII-VI əsrləri əhatə edən ***Mayemir*** arxeoloji mərhələsi ilə, e.ə.V-III əsrləri əhatə edən mərhələ isə ***Pazırık*** arxeoloji mərhələsi ilə səciyyələnir.

Bu mərhələlərin ətraflı təsvirini vermək imkanımız xaricindədir. Təkcə Pazırık kurqanı haqqında bə'zi məsələləri qeyd etmək zəruridir. Bu kurqanı M.P.Qryaznov tədqiq etmişdir. Laboratoriya analizi göstərmişdir ki, Pazırık kurqanı 2490 il bundan əvvəl tikilmişdir. Altayın göstərilən dövrdə mədəniyyəti üçün səciyyəvi olan bu kurqandan çoxlu qiymətli əşyalar, o cümlədən dünyada ən qədim xalça tapılmışdır. Yer buzlu olduğuna görə əşyalar olduğu kimi qalmışdır. Bu mədəniyyətin daşıyıcıları əsasən köçəri maldarlıqla məşğul olmuşlar. Maldarlıqda qoyunçuluq əsas yer tutmuşdur. Bu mədəniyyətin daşıyıcıları iri buynuzlu mal-qara da saxlayırdılar. Ona görə əhali keçə ilə örtülmüş alaçıqlarda yaşamışlar. Belə alaçıqları arabalarda quraşdırırdılar və hərəkət vaxtı ailə, qadın-qoca arabalarda olurdular. Kurqandan tapılmış çoxlu metal silahlar göstərir ki, ictimai həyatda tayfalar arasında müharibələr geniş yer tuturdu. Tayfa başçılarının qəbirləri üzərində kurqanlar düzəldir və ölüyə məxsus şeyləri orada qoyurdular. Pazırık mədəniyyəti "Skif heyvan stili" ilə səciyyələnir ki, bu da e.ə.I minillikdə Qara dənizin şimal sahillərində yaşamış və antik müəlliflərin əsərlərində ümumiləşdirici "Skif" adı ilə adlandırılmış tayfaların Qərbi Avropa və Rus tədqiqatçılarının irandillilər saymalarının həqiqətə uyğun olmadığını təsdiqləyir.

Tarixşünaslıqda "Skif heyvan stili", yaxud "Skif-Sibir stili" adlandırılan bu motiv onunla səciyyələnir ki, əşya bir

vəhşi heyvanın (pələng, leopard və b.) ceyranı, dağ keçisinin, yaxud maralı qamarlamış vəziyyətini əks etdirir[27].

Maraqlıdır ki, Pazırık kurqanında dünyada ən qədim xalça (1,83-2 m) tapılmışdır. Xalçada 1 milyon 250 min ilmək vardır. Xalçaya xaqan bükülüb basdırılmışdır[28]. Torpaq donuq olduğuna görə Pazırık kurqanında çürümə getməmişdir. Arxeoloqların yazdıqlarına görə kurqan qədim türklərə məxsusdur.

Müasir türk xalqlarının məskun olduqları ərazilərin ən qədim dövrlərdən e.ə.I minilliyə qədər qısa arxeoloji səciyyəsi belədir. Bu xülasədən aydın olur ki, həmin arxeoloji mədəniyyətlər bu və ya digər dərəcədə türk xalqlarının ulu əcdadlarına məxsusdur.

---

[1] *Mərkəzi Asiyanı əhatə edən ölkə adı kimi Turan sözü ilk dəfə Sasanilər sülaləsindən I Şahpura (III əsr) məxsus qaya yazısında çəkilmişdir. Deyilir ki, Atropatakanda Qanzak (əsli Gəncək) şəhərini turanlı Əfrasiab tikmişdir. Qədim mənbələrdə turan həm də tayfa adı kimi çəkilir ("Avesta"da "El-Turan", yə'ni "turan tayfası, eli" ifadəsi vardır). Cənubi Azərbaycan ərazisində əhalisi azərbaycanlılardan ibarət Turan, Turanqala, Turani və Turanpoşt kəndləri vardır (Bu barədə bax: Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Баку, 1991, с.327-328). Turan etnonimi həmçinin Sibirin (Tuva, Buryat, Yakut-Saxa respublikaları, Krasnodar diyarı) bə'zi yaşayış məskənləri və çay adlarında saxlanmışdır. Бах: Мурзаев Э.М. Словарь народных географических терминов. М., 1984, с.567.*

[2] *Müasir tarixşünaslıqda turalar (əsli tur) Mərkəzi Asiyanın sakmassaget tayfaları ilə eyniləşdirilir (Bax: Литвинский Б.А. Древние кочевники "крыши" мира. М., 1972, с.150, 156); Tur qədim türk mənşəli etnonimdir. Erkən orta əsrlərin sonlarında Cənub-Şərqi Avropada yaşamış Uz (bə'zi tədqiqatçılara görə Oğuz) tayfa birləşməsinin bir qolu XII əsrə aid rus salnamələrində Turpey kimi qeyd olunmuşdur ki, bu da tur etnonimindən və oba sözündən ibarət etnonimin qədim rusca yazılış (təhrif) formasıdır. Bu etnonim barədə bax: Баскаков Н.А. Тюркская лексика в "Слове о полку Игореве", с.66.*

[3] *Bu eynilik bir sıra müasir tədqiqatçılarda şübhə doğurmur (Bax: Короглы Х.Г. Взаимосвязи эпоса народов Средней Азии, Ирана и Азербайджана. М., 1983, с.90). Lakin Türküstanın qədim əhalisinin irandilli olması konsepsiyasından çıxış edən bə'zi tarixçi və filoloqlar turların irandilli tayfaların başqa, daha aşağı mədəni səviyyədə duran qolu olduğunu göstərir və Turanın Türküstanla, turanlıların isə türklərlə eyniləşdirilməsini xeyli sonralar bu əraziyə türklərin yayılması ilə bağlayırlar (X. Koroğlu yuxarıda göstərilən əsərində bu mövqedən çıxış edən müəlliflərin fikirlərinin yanlış olduğunu göstərən çoxlu dəlillər gətirmişdir). Təəssüf ki, qədim türk xalqları tarixinin tanınmış tədqiqatçısı L.N. Qumilyov da "qədim ari mədəni birliyinin parçalanmasını" peyğəmbər Zərdüşt və onun yaratdığı dinlə bağlayır. Guya arilərin qədim allahlara sədaqətini saxlayan hissəsi turanlılar, Zərdüştün tərəfdarları isə iranlılar olmuş və beləliklə, İran və Turana ayrılma baş vermişdir. Bununla yanaşı, tarixşünaslıqda turanlıların İran və Türk tayfalarının qarışığından ibarət olması fikri də mövcuddur. X.Koroqlu turanlıların türk olmasını əsaslandıran çoxlu faktlar gətirir, lakin sonda onların qarışıq etnos olması fikrinə üstünlük verir (Göst.əsəri, s.88-93).*

*Qeyd etmək lazımdır ki, turanlıların İran (Şərqi İran) tayfaları olması fikrinin tərəfdarları (V.V.Bartold, İ.Markvart, R.Fray və b.) tarixi faktlardan çox gümanlara əsaslanırlar. İstər Sasanilər sülaləsi və sonrakı dövr İran ədəbiyyatı müəlliflərinə, istərsə də öz yaradıcılığında İran və Türk xalqlarının hafizəsində min illər boyu qorunub saxlanmış rəvayətlərdən, tarixi dastanlardan bəhrələnmiş dahi Firdovsiyə "Avesta" dövrünün etno-dil reallıqları yaxşı mə'lum idi və onlar məhz bu reallıqlardan çıxış edərək Turanı Türküstan, turanlıları isə türklər adlandırmışlar.*

[4] *Əbdürrəşid əl-Bakuvi. "Abidələrin" xülasəsi və qüdrətli hökmdarın mö'cüzələri. Ərəbcədən tərcüməsi, müqəddimə və şərhləri akademik Ziya Bünyadovundur. Bakı, 1992, s.119.*

[5] *Çinin indiki Sintzyan-Uyğur Muxtar rayonu (1955-ci ilin 1 oktyabrında təşkil olunmuşdur) ərazisi 1647 min kv.km-dir (Çin ərazisinin 1/6 hissəsi). 1953-cü ilin ortalarına aid olan mə'lumata görə Sintzyanın 4.874 min əhalisindən 3.640 mini uyğurlar (74,7%), 475 mini qazaxlar (9,7%), 300 mini çinlilər (6,1%) idi. (XX əsrin əvvəllərinə aid mə'lumata görə Şərqi Türküstanın Çin mənşəli əhalisi cəmi 8 min idi, ümumi əhalinin 0,3-0,4%-i).*

*XX əsrin 50-ci illərindən sonra, xüsusilə "mədəni inqilab" dövründə Çinin şərq rayonlarından Şərqi Türküstana əhali axınının güclənməsi bölgənin etnik simasını köklü şəkildə dəyişmişdir. Yeni statistik mə'lumatlara görə Sintzyan Uyğur Muxtar rayonunun əhalisi 12.560 min nəfərdir. Onların 5.640 mini (44,9%-i) uyğurlar, 5.220 mini (41,5%-i) çinlilər, qalanları isə qazaxlar, monqollar, qırğızlar, özbəklər və b. ibarətdir. Bax: Кучера С. Ранняя история Синьцзяна: неолит - начало века металла. - Восточный Туркестан и Средняя Азия. М., 1984, с.29-30).*

[6] *Bəşər tarixinin 99%-dən çoxu Paleolitin (qədim yunanca paleo "qədim", litos-"daş" sözlərindən) payına düşür. Paleolitin iki mərhələsi ayırd edilir: Alt (yaxud İlk) Paleolit və Üst Paleolit. Alt Paleolit 35-32 min il bundan əvvəl Üst Paleolitlə əvəz olunub. Paleolit təxm.2,7 mln. il bundan əvvəl başlanmış və 12-10 min il bundan əvvəl Orta daş (Mezolit) dövrü ilə əvəz olunmuşdur. Arxeoloji ədəbiyyatda Alt (İlk) Paleolit Olduvay, Qədim Aşel, Orta Aşel, Son Aşel və Mustye, Üst Paleolit isə Orinyak, Solütre və Madlen dövrlərinə bölünür.*

[7] *Fransada Le Mustye mağarasının adından götürülmüşdür.*

[8] *Kromanyon adamı - müasir insan növünün (Hamo sapiens) Üst Paleolitin Orinyak mərhələsinə aid mağaranın (*Cro Magnon*) adı ilə adlanır.*

[9] *Qərbi Türküstanda Eneolit abidələri XIX əsrin sonlarından öyrənilməyə başlanmışdır. Anauda ilk geniş qazıntı işlərini 1904-cü ildən başlayaraq R.Pompellinin başçılıq etdiyi Amerikan arxeoloji ekspedisiyası aparmışdır. XX əsrin 50-ci illərdən başlayaraq Eneolit dövrü abidələri Moskva, Leninqrad və Türkmənistan arxeoloqları (B.A.Kuftin, V.M.Masson, İ.N.Xlopin, V.M.Sarianidi, O.K.Berdıev və b.) tərəfindən tədqiq olunmuşdur.*

[10] *Ətraflı bax: Археология СССР. Энеолит СССР. М., 1982, с.19-20; Массон В.М. Первые цивилизации. М., 1989, с.142 -176.*

[11] *Namazgah-1 tipli materiallar 30-a qədər Eneolit abidəsində aşkar edilmişdir.*

[12] *Qeyd edilməlidir ki, gil qabların üzərində (və sonra xalçalarda) həndəsi naxış qədim türk mənşəli hesab olunur.*



[13] *Çoxallahlı dinlərin bütün allahları.*

[14] *Arxeoloqların hesablamalarına görə e.ə.III minillikdə Altun-Təpə və Namazgah-Təpədə 5 mindən 10 minə qədər əhali yaşamışdır.*

[15] *Qilqameşin Bilqameş oxunuş variantı da vardır.*

[16] *Fransada (Paris yaxınlığında) Levallua-Rerredən tapılmış daş alətlərin düzəldilməsi texnikası.*

[17] *Bax:Окладников А.П. Петроглифы Чулутын-Гола (Монголия). М., 1981, с.41; Новгородова Э.А. Древняя Монголия. М., 1989, с.69, 113; Oğuznamələrdə oğuz-öküz paralelliyi problemini araşdıran Füzuli Bayat qədim türklərdə öküzün totem olması ilə bağlı fikirlərin yanlış olduğunu və "Oğuz Kağan" dastanında onun mifoloji Yer ananı simvolizə etdiyini göstərir (Bax: Füzuli Bayat. Oğuz Elik ən'ənəsi və "Oğuz Kağan" dastanı. Bakı, 1993, s.34-42).*

[18] *Bax: Mahmudov F.R. Əlikömək təpəsində qazıntıların ilkin yekunları. Daş dövrü və Azərbaycanda eneolit. Bakı, 1984, s.53-74; Yenə onun. Əlikömək təpəsinin boyalı qabları. Qədim və Orta əsr Şərqi və Aralıq dənizi hövzəsi. Bakı, 1989, s.3-12.*

[19] *Əvvəllər bu daşlar e.ə.I minilliyin I yarısına aid edilirdi. Lakin son dövrlərdə E.A.Novqorodova "Maral daşları"nın tunc dövrünə aid olması fikrini əsaslandırmışdır. Bax: Новгородова Э.А. Древняя Монголия. М., 1989, с.176-232.*

[20] *"Fan" Çinin şimal qonşularının ümumi adı idi.*

[21] *Elmi ədəbiyyatda mövcud olan fikrə görə İn dövründə (e.ə.XIV-XI əsrlər) quyfan adı ilə mə'lum olan tayfalar sonralar syanyun, hunyuy, sijun, syuan-jun, e.ə.V-III əsrlərdə isə Syunnu adlandırılırlar. Bax: Думан Л.И. Расселение некитайских племён во внутренних районах Китая и их социальное устройство в I-IV вв.н.э. - Китай. История, культура и историография. М., 1977, с.40.*

[22] *Tarixşünaslıqda dinlinlərin Afanasyev (L.N.Qumilev), Karasuq (S.V.Kiselyov) və sonralar Taqar mədəniyyətlərinin yaradıcıları olmaları fikri mövcuddur. Ətraflı bax: Новгородова Э.А. Древняя Монголия. М., 1989, с.232-235, 311-315.*

[23] *Викторова Л.Л. Монголы. Происхождение народа и и стоки культуры. М., 1980, с.118-119.*

[24] *Menqir qədim kelt dilində men"daş" və "qir" uzun" sözlərindən ibarətdir.*

[25] *Arxeoloqlara görə ölü ilə qəbrə qablarda yemək qoyulması adəti e.ə.VI minillikdən ortaya çıxmışdır. Belə çıxır ki, axirət dünyası inamı da elə bu vaxta aiddir.*

[26] *Грязнов М.П. Аржан. Л., 1980.*

[27] *Mərkəzi Asiyanı əhatə edən ölkə adı kimi Turan sözü ilk dəfə Sasanilər sülaləsindən I Şahpura (III əsr) məxsus qaya yazısında çəkilmişdir. Deyilir ki, Atropatakanda Qanzak (əsli Gəncək) şəhərini turanlı Əfrasiab tikmişdir. Qədim mənbələrdə turan həm də tayfa adı kimi çəkilir ("Avesta"da "El-Turan", yə'ni "turan tayfası, eli" ifadəsi vardır). Cənubi Azərbaycan ərazisində əhalisi azərbaycanlılardan ibarət Turan, Turanqala, Turani və Turanpoşt kəndləri vardır (Bu barədə bax: Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Баку, 1991, с.327-328). Turan etnonimi həmçinin Sibirin (Tuva, Buryat, Yakut-Saxa respublikaları, Krasnodar diyarı) bə'zi yaşayış məskənləri və çay adlarında saxlanmışdır. Bax: Мурзаев Э.М. Словарь народных географических терминов. М., 1984, с.567.*

[28] *Azərbaycanlılarda mərhumun evindən qəbristana qədər xalçaya bükülmüş vəziyyətdə aparılması adəti də indiyədək qalmışdır. İslam dini qəbirə əşya qoymağı qadağan edir, ona görə indi xalça geriyə - mərhumun yaşadığı evə qaytarılır - Red.Q.Q.*



# II HİSSƏ
# ERADAN ƏVVƏL I MİNİLLİK

## *I fəsil*
## *MƏRKƏZİ ASİYA VƏ QAZAXISTAN e.ə. I MİNİLLİKDƏ*

### *§1. Etnosiyasi durum*

Qərbi Türküstanın e.ə.I minilliyin ortalarına qədər əhalisinin etnik tərkibi aydın deyil. Şübhəsiz ki, bu ərazidə, xüsusilə Mərkəzi Asiyada türkmənşəli tayfalarla yanaşı, irandilli tayfalar, elmdə qəbul edildiyi kimi arilər də yaşayırdılar. Tarixşünaslıqda deyilir ki, İranmənşəli tayfalar e.ə.II minilliyin ortalarında Cənub-Şərqi Avropadan Mərkəzi Asiyaya gəlmiş, buradan bir hissəsi Hindistana getmiş, digər hissəsi (indiki farsların, taciklərin, əfqanların və Pamir xalqlarınm) yerlərində qalmışlar. Həmin tayfaların digər hissəsi (indiki farsların, kürdlərin, talışların, giləklərin, tatların və b. əcdadları) e.ə.I minilliyin əvvəllərində İran yaylasına keçmişlər. Bə'zi Qərbi Avropa, Rus və Azərbaycan tədqiqatçıları yazırlar ki, Cənubi Azərbaycan ərazisində yaşamış madaylar (midiyalılar) da irandillilər idilər. Biz bu məsələ üzərində dayanmayacağıq. Əvvələn, bu problemin həllində qaranlıq məsələlər çoxdur, ikincisi isə bə'zi tarixçilər e.ə.I minillikdə Mərkəzi Asiya və Qazaxıstan ərazilərində olduğu kimi Qara dənizin şimal sahillərində də irandilli tayfaların rolunu çox şişirtmiş və bu ərazilərdə yaşamış skif, sak, massaqet, alan, usun və b. tayfaları doğru olmayaraq irandillilər saymışlar.

***Saklar.*** Sakların ana yurdu Mərkəzi Asiya (Şərqi Pamirdə indiki qırğızların və taciklərin yaşadığı ərazilər) və Qazaxıstan hesab olunur. Arxeoloji tədqiqatlar göstərir ki, e.ə.I minillikdə Pamir dağ sisteminin tarixi və mədəniyyəti Mər-

kəzi Asiyanın qədim əhalisinin sinxron tarixi və mədəniyyəti ilə sıxı surətdə əlaqədardır və onun tərkib hissəsidir. Bu mədəniyyət Cənubi Rusiyam və Qazaxıstanı da əhatə edir. Həm də bu mədəniyyət sak (əsli saka) etnosuna mənsubdur. Bu arxeoloji mədəniyyət Oksu çayının (Ak-Bent, Kızıl-Rabat, Şaymak, Teqerman-Su, Monsu-Taş arxeoloji abidələri), İstık çayının (Jartı-Qünbəz, Aydın-Kul, Sarı-Kurum, Çeş-Təpə arxeoloji abidələri), Əlicur çayının (Əlicur arxeoloji abidəsi) və Kokuybel-Su çayının hövzələrində (Karabulaq və Kokuybel arxeoloji abidələri) yayılmışdır[1]. Göstərilən arxeoloji abidələr e.ə.X-II əsrləri əhatə edir.

Saklar maldar idilər. Tədqiqatçılara görə bu ərazilərdə köçərilik e.ə.IX-VIII əsrlərdə başlanır. Bu intensiv təsərrüfat həyatı əsasında birinci, sürülər və ilxılar üçün geniş otlaq sahələri lazım olduğuna görə başqa ölkələrin ərazilərinin zəbt olunması və ikinci, xırda tayfaların, qəbilələrin tayfa ittifaqlarında birləşməsi zərurəti yaranırdı, çünki başqa əraziləri işğal etmək və oralarda yaşayan etnoslara qalib gəlmək üçün böyük ordu lazım idi. Məhz bunun nəticəsidir ki, saklar e.ə.VII əsrdən başlayaraq nəhəng əraziləri keçib bir sıra Qafqaz və Ön Asiya dövlətlərinə son qoymuş, nəticədə o vaxtdan türk tayfalarının geniş ərazilərə səpələnməsini tə'min etmişlər.

Sakların ən böyük tayfa birləşməsi e.ə.VII-IV əsrlərdə indiki Qazaxıstan və Şimali Qırğızıstan ərazilərində yaşayırdı. Sonra onu e.ə.III əsrdən Usun tayfa ittifaqı əvəz etmişdi.

Sak(a) tayfalarının etnik mənsubiyyəti problemi indiyədək mübahisəlidir. Tədqiqatçıların bə'ziləri yuxarıda deyildiyi kimi, onları irandilli, digərləri türkdilli hesab edirlər. Lakin saka adını daşımış tayfaların türkmənşəli olması baxışı tarixi həqiqətə uyğundur. Bu baxış aşağıdakı faktlara söykənir:

1.Mərkəzi Asiya və Qazaxıstanda yaşamış sakların e.ə.I minilliyə mənsub arxeoloji abidələrindən tapılmış maddi-mədəniyyət nümunələri həmin ərazilərdə Tunc dövrünün arxeoloji mədəniyyətinin bir başa varisi olması müəyyən edilmişdir (A.İ.Bernştam, S.S.Çernikov, B.A.Litvinski, K.A.Akişev və b.). Tunc dövründə isə göstərilən ərazilərdə irandilli tayfalar ola bilməzdi. Antropoloq V.V.Qinzburqa görə saklar



Avropoid irqinə mənsub idilər və bu irq Qazaxıstan və Cənubi Sibirin Andronovo mədəniyyətində də əksini tapmışdır. Digər antropoloq T.A.Trofimovaya görə e.ə.VII-V əsrlərdə Mərkəzi Asiyada və Cənubi Sibirdə yaşamış saklar Tunc dövrünə aid Andronovo mədəniyyətinin yaradıcılarıdır. V.V.Qinzburq yazmışdır ki, Şərqi Qazaxıstanda yaşamış saklar Dağlıq Altayın qədim əhalisi ilə genetik mənşəyə məxsusdur. Beləliklə, antropoloji materiallar da sakların Altay-türkmənşəli olduqlarını göstərir.

2.Yuxarıda adları çəkilən arxeoloji abidələrdə tarixi arxeoloji ədəbiyyatda "skif heyvan stili"ni[2] əks etdirən əşyaların tapılması. Həmin stil (bu stil pələngin, yaxud leopardın maralı qamarlaması səhnəsini əks etdirir) mənşəcə bə'zi tədqiqatçılara görə Tunc dövrünə gedib çıxır. Diqqəti burası cəlb edir ki, belə əşyalar Dağlıq Altayda da tapılmışdır. Aydındır ki, Altayda heç vaxt irandilli tayfalar yaşamamışdır.

3.Antik mənbələrdə və Bisutun qaya yazısında (e.ə.521-ci il) sak kişilərinin başlarına konusvari (keçədən düzəldildiyinə görə belə papax başda dik dayanırdı), yə'ni ucu şiş papaq qoyduqları qeyd olunmuşdur. Tədqiqat göstərmişdir ki, bu papaq növü (kalpak, börk) qədimdə olduğu kimi yaxın keçmişə qədər yalnız türk xalqları üçün səciyyəvi baş geyimi olmuşdur.

4.Sakların antik mənbələrdə çəkilmiş şəxs adlarının hamısı qədim türk dillərində izah olunur. Qeyd etmək lazımdır ki, "Qazaxıstan tarixi" adlı ümumiləşdirilmiş əsərdə saklar doğru olaraq türkmənşəlilər sayılırlar. Rus arxeoloqu A.N.Bernştam sakların içərisində türk özəyinin olduğunu yazmışdır[3]. Sakların türkdilli olduqlarını göstərən faktlardan biri də saka (şaka) etnoniminin Azərbaycanın hər iki hissəsində, Ermənistanda, Gürcüstanda, Türkiyənin Şərqində və hətta Tatarıstanda əhalisi türkdilli əhalidən ibarət Şəki, Şakalı və Şaqalı kəndlərinin olmasıdır (Sakların türkdilli olması haqqında mülahizələr Q.Ə.Qeybullayevin "Azərbaycan türklərinin təşəkkülü tarixi"ndən kitabının 151-155-ci səhifələrində verilmişdir).

Diqqəti burası cəlb edir ki, e.ə.VII əsrdə sakların bir hissəsi şimaldan Cənubi Qafqaza gəlmiş və burada Sak (antik

mənbələrdə Skif) çarlığı yaratmışlar. Bu sakların (müəyyən) hissəsi Cənubi Qafqazdan Ön Asiyaya da keçmişlər.

Qədim fars dilində e.ə.521-ci ilə aid Bisütun qaya yazısında farsların hakimiyyətinə tabe olmayan və üsyan edən sakalar haqqında mə'lumat vardır. Bu mənbədə sakaların dörd qrupu qeyd olunur: saka-tiqraxauda (yə'ni şişpapaqlı saklar), saka haumavarqa (yə'ni haoma şirəsi hazırlayan saklar), saka tuaku paradraua (yə'ni dənizin o tayında yaşayan saklar) və saka tualu para Suqdam (yə'ni Soqdda yaşayan saklar). Bu sak hissələrinin hamısını bə'ziləri Mərkəzi Asiyada, digərləri isə onların bir hissəsinin Cənubi Azərbaycan və Cənubi Qafqazda yaşadıqlarını göstərirlər. Burası aydındır ki, Mərkəzi Asiya və Qazaxıstan bütövlüklə o vaxt İran Əhəmənlər imperiyasına daxil olmadıqlarına görə oralarda yaşamış sakların hamısı həmin dövlətə qarşı üsyan edə bilməzdilər.

Sakların adı e.ə.VII-VI əsrlərə aid edilən "Avesta" kitabında da çəkilir. Bu abidədə saklar "tura" ("sür'ətli atlı tur" formasında) adlanır və onların Zərdüşt dininə qulluq etdikləri göstərilir. Belə qənaətə gəlmək olar ki, deməli göstərilən əsrlərdə saklarda Zərdüşt dini vardı. Lakin həmin "tura"ların konkret olaraq haralarda yaşamaları göstərilmir. Bə'zi tədqiqatçılara görə tur sakların bir hissəsinin adıdır (V. Qeyqer, İ.Markvart, X.Nüberq və b.). Belə baxış vardır ki, "tur" sözü elə "türk" sözünün qədim formasıdır və sonra onların yaşadıqları ərazi Turan adlanmışdır.

Sak mənşəli incəsənət və silah formaları Sayan-Altay, Cənubi Ural, Volqaboyu və Qara dənizin şimal çöllərinə yayılmışdır.

Antik mənbələr Qara dənizin şimal çöllərində e.ə.I minilliyin ortalarında yaşamış tayfaları "skif" adlandırırlar. Lakin Herodot ("Tarix" əsəri, VII, 64) açıq yazır ki, farslar skiflərə sak deyirlər və skif adını bu xalqa yunanlar vermişlər, onların öz adları sakadır.

Biz sakların Cənubi Qafqazda işğalları və onların əsas hissəsinin Azərbaycan və indiki Ermənistan ərazisində məskunlaşması məsələsi üzərində dayanmayacağıq. Bu məsələ Q.Ə.Qeybullayevin monoqrafiyalarında genişliyi ilə araşdırılmışdır[4].



***Massaqetlər.*** Sakların Mərkəzi Asiyada yaşayan bir hissəsi antik mənbələrdə massaqet adlanır. Tədqiqatçılara görə bu etnonimdə "sak" etnoniminin iştirak etdiyi şübhəsizdir. İranşünas alimlər bu tayfanı da irandilli sayırlar. Bə'zi tədqiqatçılar doğru deyirlər ki, bu etnonim qədim türk dillərində mas (m-b əvəzlənməsinə görə bas) "böyük", "baş" sözündən və sak etnonimindən ibarətdir. V.Tarn və Y.Yunqe massaqet etnoniminin böyük saklar mə'nasında olduğunu yazmışlar.

Massaqetlər Amudərya çayının hövzələrində məskun idilər. E.ə.550-ci ildə Cənubi Azərbaycan ərazisində Maday (Midiya) dövləti süqut etdikdən sonra hakimiyyət fars mənşəli Əhəmənilər sülaləsinə keçmişdi. Bu dövlətin banisi Kir e.ə.530-cu ildə massaqetlərin üzərinə hücum etmiş, onların çariçası Tomirisin oğlunu döyüşdə öldürmüşdü. Tomiris ordunun başında Kirin üzərinə hücuma keçərək onun ordusunu məğlub etmiş, özünü isə əsir tutmuşdu. O, Kirin başını kəsdirib qanla dolu tuluğa saldırmışdı.

Bə'zi tədqiqatçılar bu massaqetləri Azərbaycan ərazisində lokalizə edərək, Tomirisi də azərbaycanlıların əcdadlarının qadın hökmdarı kimi qələmə verirlər. Bədii əsərlərdə də əksini tapmış bu baxış tamamilə yanlışdır[5]. Qeyd edilməlidir ki, "Tomiris" adı bu çariçanın qədim yunanca yazılış formasıdır və deməli, Herodotun əsərindəki Tomiris Tomir və qədim yunanca "is" adlıq hal şəkilçisindən ibarətdir. Antik müəllif Polien (e.ə.II əsr) bu çariçanın adını məhz Tamir kimi qeyd etmişdir. Deməli, bu çariçanın adı Herodotun yazılışında "Tomir" kimi götürülməlidir ki, bu da Q.Qeybullayevin yazdığına görə təmiz türkmənşəli qadın adı olmaqla türk dillərində tomar, tomir "qızıl boyunbağı", "həmail", "qızıl sinəbənd" sözündən ibarətdir. Məsələnin əhəmiyyətli cəhəti budur ki, Tomiris sak, başqa sözlə qədim türk qızıdır. Bu fakt göstərir ki, e.ə.I minilliyin ortalarında saklarda dövlət qurumu vardı. Lakin yazılı mənbələrin yoxluğu ucbatından bu dövlətin tarixi qaranlıqdır.

Antik mənbələrdən aydın olur ki, massaqetlər Arazdan (bu mənbələrdə Sırdərya çayı həm də Araz adlanırdı) şərqdə

və Aralətrafı ərazidə məskun idilər. Tədqiqatçılara görə massaqetlər sakların bir qolu idi. Qeyd olunmalıdır ki, Mərkəzi Asiyada saklar barədə mə'lumat verən qədim fars mənbələrində massaqet adı çəkilmir. Antik mənbələrə görə massaqetlər saklarda olduğu kimi Günəşə sitayiş edir və ona at qurban kəsirdilər.

Tədqiqat göstərir ki, massaqet etnonimi həqiqətdə də mövcud olmuş etnosun adıdır. Eramızın əvvəllərində Albaniyanın şimal-şərqində yaşamış və "Alban tarixi"ndə Maskut adlanmış etnos məhz antik mənbələrdə adı "massaqet" kimi yazılmış etnosla mənşəcə eynidir. Lakin massaqetlərin müəyyən hissəsinin Albaniya ərazisinə (müasir Samur-Dərbənd-arası əraziyə) gəlib məskunlaşması vaxtı dəqiq mə'lum deyil. Diqqəti burası cəlb edir ki, Q.Ə.Qeybullayevə görə Maskut knyazlığının paytaxtı Çol şəhərinin adı Çol (Çul) türk tayfasının adını əks etdirir. Bu şəhərin xarabalıqları Torpaqqala adı ilə Dərbənddən 17 km cənubdadır.

***Alanlar.*** Aral dənizi ilə Ural çayı arasında e.ə.I minilliyin sonlarından e'tibarən ***alan*** tayfaları yaşayırdılar. Tarixşünaslıqda' onlar da irandillilər hesab olunurlar. Lakin bu həqiqətə uyğun deyil, çünki bu tayfanın türkdilli olması fikrini söyləyən baxış da mövcuddur. E.ə.III əsrdən sonra onlar alan (Çin mənbələrində yantsay) adı ilə tarix səhnəsinə çıxırlar. Qərbi Qazaxıstanda, Araldan qərbdə yaşayan bu tayfa da eranın əvvəllərində Mərkəzi Asiyadan Cənub-Şərqi Avropaya hərəkət edən hunların basqınına mə'ruz qalmışlar və onlarla toqquşmada məğlub olmuşlar. Onların bir hissəsi hunlarla birlikdə qərbə hərəkət etdilər. Bə'zi tədqiqatçılara görə alanlar qədim massaqetlər əsasında formalaşmışdılar. Cənub-Şərqi Avropada onlar həm də savromatların (sarmatların) tərkibində idilər. Ona görə də bə'zi tədqiqatçıların alanları indiki osetinlərin ulu əcdadları saymaları uydurmadır. Bu barədə aşağıda deyəcəyik.

***Sakların ictimai quruluşu və təsərrüfat həyatı.*** Sakların ictimai quruluşu və təsərrüfat həyatı haqqında yazılı mənbələr çox azdır. Lakin Qazaxıstan ərazisində arxeoloji qazıntılar



nəticəsində saklara aid olan arxeoloji abidələrdən (Karqalı-I, Karaçoku, Juantobe-I, Kadırbay, Beşatır, Kızılauz və b.) tapılmış əşyalar bu məsələdə müəyyən qədər aydınlıq yaradır.

Saklar maldar ellər olduqlarına görə əsasən qoyun və at saxlayırdılar. Onlar alaçıqlarda yaşayırdılar, qoyun sürülərini bir yerdən başqa yerə apardıqda qadınlar, uşaqlar, qocalar iki və dördçarxlı arabalarda keçədən qurulmuş konusvari damlı evlərdə, kişilər isə at üstündə, hər an döyüşə hazır vəziyyətdə hərəkət edirdilər.

Heyvan sürülərini və at ilxılarını saxlamaq üçün böyük ərazilərə ehtiyac vardı. Bu sakların işğalçılıq müharibələri aparmalarına səbəb olurdu. Ona görə də yuxarıda deyildiyi kimi, e.ə.VII əsrdən sonra sakların Cənub-Şərqi Avropaya, oradan Cənubi Qafqaza və Ön Asiyaya böyük köçləri baş vermişdi. Saklar Mərkəzi Asiya və Qazaxıstan xalqlarınm, eyni zamanda Azərbaycan xalqının formalaşmasında da mühüm rol oynamışlar.

Saklar atlı xalq idilər: at həm qoşqu, həm də minik üçün istifadə olunurdu. Bundan başqa onlar at südünü də içir və ətini yeyirdilər. Onların ictimai həyatında tayfa-qəbilə bölgüsü möhkəm yer tuturdu. Tayfa ittifaqının başçısı tayfa başçılarının yığıncağında seçilirdi və hamı onun əmrini sözsüz yerinə yetirməli idi. Tayfa ittifaqının başçısı həm də ordunun baş komandam idi.

Sakların təsərrüfat həyatında metal e'malı (mis, tunc, dəmir) və sənətkarlıq mühüm yer tuturdu. Aydındır ki, ordunu metal silahla və oxla tə'min etmək üçün sənətkarlıq tələb olunan səviyyədə olmalı idi.

Sakların ibtidai dini görüşləri animizm, totemizm və şamanizm idi. Ona görə onlarda çoxallahlılıq var idi. Onlar Günəş allahının şərəfinə at qurban kəsirdilər. "Avesta"da qeyd edildiyinə görə saklarda Zərdüşt dini də var idi. Bu dinə görə dünyada iki başlanğıc olan xeyir və şər qüvvələri arasında daim mübarizə gedir. Ümumiyyətlə, Zərdüşt dininin vətəni barədə iki fikir vardır. Bir fikrə görə bu din Midiya ərazisində (Cənubi Azərbaycan ərazisində), digər fikrə görə Mərkəzi Asiyada təşəkkül tapmışdır.

Saklar güman edirdilər ki,həyat ölümdən sonra da davam edir. Ona görə qəbirə mərhumun yanında saxsı qablarda müxtəlif yeməklər və guya axirət dünyası üçün üçün lazım olacaq əşyalar və hətta silah qoyurdular, adsanlı döyüşçünü döyüş paltarı ilə dəfn edir, atını da öldürüb yanında basdırırdılar.

Bütün antik müəlliflər yazırlar ki, saklar çox döyüşkəndirlər. Onlarda qızlar da at üstündə vuruşurdular və hətta saklarda hər bir qız bir düşmən döyüşçüsünü öldürməmiş ərə getmirdi. Oğlan qızı istədikdə əvvəlcə onunla at çapmalı, ox atmalı və qalib gəlməli idi.

Qazaxıstanda Alma-Ata şəhərində 180 km şərqdə saklara aid ***Besşatır*** adlı arxeoloji abidə aşkar edilmişdir. Bu abidə sak çarlarına və tayfa başçılarına məxsus 20 kurqandan ibarətdir. Abidəni tədqiq etmiş arxeoloq K.A.Akişev onların Altayda və Qərbi Sibirdə tapılmış kurqanlarla mənşə biliyini müəyyən etmişdir. Bu fakt da sakların irandillilər olması baxışının yanlış olduğunu göstərir.

Mərkəzi Asiya və Qazaxıstan ərazisində Sak dövrü e.ə.III əsrdə bitir və sakları usun adlı tayfalar əvəz edirlər.

### *§2. Sakların İran işğalına qarşı mübarizəsi*

Yuxarıda qeyd edildiyi kimi, e.ə.VII-VI əsrlərə qədər Mərkəzi Asiya və Qazaxıstan ərazilərində yaşamış etnoslar barədə yazılı mənbələr yoxdur. İlk yazılı mə'lumata e.ə.521-ci ilə aid Bisutun qaya yazısında və antik mənbələrdə rast gəlinir. Bu mənbələrdən aydın olur ki, göstərilən əsrlərdə Mərkəzi Asiyada yaşayan tayfalar saka (şaka) adlanırdılar. E.ə.550-ci ildə İran Əhəmənilər dövləti yarandıqdan sonra İran şahları Mərkəzi Asiyanı işğal etmək üçün hərbi səfərlərə başladılar.

Antik müəllif Poliyen (e.ə.II əsr) yazır ki, Kir sakların üzərinə hücum etmiş və çar Amorqu əsir tutmuşdu. Onda Amorqun arvadı Sparetra (qədim yunanca yazılış forması olan bu hökmdar qadın adının yerli tələffüz forması mə'lum deyil)



ordunun başında Kirə qarşı çıxaraq döyüşə girmiş və ərini əsirlikdən azad etmişdi. Bu hadisənin dəqiq tarixi mə'lum deyil. E.ə.530-cu ildə İran şahı Kir sakların bir qolu olan massaqetlərlə müharibə aparmışdır. Yuxarıda qeyd etdiyimiz kimi, döyüşdə massaqet ordusu məğlub olmuş, massaqetlərin çariçası Tomirisin oğlu əsir düşmüş və öldürülmüşdü. Sonra Tomiris özü ordunun başında İran ordusuna qarşı müharibəyə başlamış və baş vermiş vuruşmada Kir məğlub edilmişdi. Kir əsir tutulmuş və başı kəsilərək qanla doldurulmuş tuluğa salınmışdı. Bununla da İranın sakları tabe etmək təşəbbüsü baş tutmamışdı. Lakin İran Mərkəzi Asiyanı işğal etmək planından əl çəkməmişdi. İran şahı I Dara (e.ə.522-486) vaxtında saklara qarşı müharibəyə başladı. Antik müəllif Poliyen yazır ki, Dara Mərkəzi Asiya saklarına qarşı böyük bir səfərə hazırlaşırdı. Saklar bundan xəbər tutmuş və müdafiəyə hazırlaşmışdılar. Şirak adlı bir sak öz silahı ilə üz-gözünü yaralayaraq Daranın düşərgəsinə gəlmiş və guya onu bu vəziyyətə saklar saldığını və ona görə saklardan bərk incidiyini söyləmiş, sakların üstünə getməyə Daraya bələdçilik etməyə hazır olduğunu demişdi. İran şahı ona inanmış, lakin Şirak İran ordusunu Mərkəzi Asiyanın susuz səhrasına aparmışdı. İran şahı onda başa düşmüşdü ki, Şirak onu aldatmışdır. O, Şirakı əzabla öldürməyi əmr etmişdir. Lakin Şirak özünü qurban verməklə sakların özlərini təhlükəyə qarşı səfərbər etmələrinə şərait yaratmışdı.

Bə'zi tədqiqatçılara görə e.ə.517-ci ildə İran dövləti sakları və massaqetləri tabe etmiş və onların ərazilərini Əhəmənilər imperiyasına qatmışdı. İran ordusunda çoxlu sak döyüşçüsü vardı. Sak döyüşçüləri İran ordusunun tərkibində e.ə.V əsrdə İran-Yunan müharibələrində və nəhayət e.ə.III əsrdə İsgəndərə qarşı döyüşlərdə iştirak etmişdilər.

Makedoniyalı İsgəndərin e.ə.329-cu ildə Mərkəzi Asiyaya səfəri vaxtı saklar işğalçılara qarşı mübarizədə fəal iştirak edirdilər. Saklar Mərkəzi Asiyada sonrakı siyasi hadisələrin də fəal iştirakçıları olmuşlar. Məsələn, onlar Selevklər dövlətinə qarşı mübarizədə parfiyalılara kömək etmiş, lakin bunun müqabilində parfiyalılar sakları aldadaraq, kömək üçün

və'd etdikləri pul və qənimət payını verməmişdilər. Ona görə saklar müttəfiqlərdən uzaqlaşmışdılar.Nəticədə Parfiya çarı II Fraat (e.ə.138-129) Selevklər dövlətinin ordusu ilə döyüşdə məğlub olmuş və öldürülmüşdü.

## *§3. Makedoniyalı İsgəndərin Mərkəzi Asiya işğalları*

E.ə.334-cü ildə Makedoniyalı Aleksandr (ərəb dilində fonetik forması İsgəndər) 30 minlik piyada və 5 minlik atlı ordu ilə İran Əhəmənilər dövlətinə hücum etdi. Qranik, İss və Qavqamel adlı döyüşlərdə İsgəndərin ordusu İran ordusunu məğlubiyyətə uğratdı. Bununla da, e.ə.331-ci ildə Əhəmənilər dövlətinin hakimiyyəti sona çatdı. Qısa vaxt içərisində İsgəndərin ordusu İranla yanaşı Kiçik Asiyanı, Suriyanı, Finikiyanı və Misiri işğal etdi.

E.ə.329-cu ildə İsgəndər Hindiquş (antik mənbələrdə bu dağ Kafqaz, yə'ni Qafqaz adlanır) dağlarını aşaraq Mərkəzi Asiya ərazisinə daxil oldu. Əvvəlcə Baktriya (sonrakı Bəlx) zəbt edildi. Bu ölkə Əhəmənilər dövlətinin bir satraplığı (canişinliyi) idi. Baktriya və Soqd əyalətlərinin canişini Bess şərqə - Mərkəzi Asiyaya qaçmış sonuncu İran şahı III Daranın öldürülməsində iştirak etdi. Onun əsas məqsədi Mərkəzi Asiyada hakim olmaqdan ibarət idi. Lakin Bess İsgəndərin e.ə.326-cı ildə Mərkəzi Asiyaya gəldiyini eşidərək, Amudəryanın sahilinə qaçdı. Burada yerli hakimlər Bessi tutub İsgəndərə göndərdilər.

İsgəndər ordusunu Sırdərya sahillərinə tərəf yönəltdi. Soqd (Sırdərya ilə Amudəryaarası ərazi) ölkəsinin paytaxtı Marakand (indiki Səmərqənd) tutuldu. Səmərqənd əyalətinə qonşu Usruşana əyalətində dağlılar İsgəndərin qarşısını kəsdilər. Baş vermiş döyüşdə İsgəndər yaralandı. Buna baxmayaraq o, həmin dağlıların əyalətlərini işğal etdi.

Sırdərya çayının hövzələrində türkmənşəli saklar yaşayıdılar. İsgəndər Sırdəryanı keçərək saklarla müharibəyə başladı. Baş vermiş toqquşmalarda hər iki tərəfdən çoxlu döyüşçü qırıldı. Saklar qüvvələrini saxlamaq məqsədilə səhraya



çəkildilər və İsgəndərin yanına səfirlik göndərərək sülh müqaviləsi bağladılar. İsgəndər bu müqaviləyə razılıq verdi, çünki Soqdda Spitamen adlı bir nəfərin başçılığı ilə üsyan başlanmışdı. İsgəndər ordusunu oraya göndərərək üsyanı yatırdı və bir antik mənbədə olan mə'lumata görə 120 min nəfər adam qırdırdı.

E.ə.329-328-ci illərdə İsgəndər Mərkəzi Asiyada qışladı və Hindistana hərbi səfərə hazırlaşdı. Lakin bu vaxt ona Soqdda Spitamenin yenə baş qaldırması xəbəri yetişdi. Bu dəfə İsgəndər iki sərkərdəsinin başçılığı ilə ona qarşı qoşun göndərdi. Spitamenin saklardan ibarət üç min nəfərlik ordusu ilə İsgəndərin ordu hissəsi arasında qanlı döyüşdə Spitamen 800 nəfər döyüşçü itirdi və geri çəkilərək, türk massaqetlərin yanına qaçdı. Massaqetlər başa düşürdülər ki, İsgəndər Spitamenin ardınca ordu göndərəcək və deməli, onda massaqetlər də bu müharibəyə girişməli olacaqlar. Ona görə massaqetlərin başçısı antik mənbədə deyildiyi kimi "Skif səhrasında" (yə'ni sakların yaşadığı səhrada) Spitameni tutub başını kəsərək, İsgəndərə göndərdi. Bununla da İsgəndərə qarşı Spitamenin azadlıq mübarizəsi sona yetdi.

İsgəndərin Mərkəzi Asiyada fəaliyyəti barədə yazmış antik tarixçi Kvint Kursiy Ruf qeyd edir ki, Spitamenin döyüşkən və qoçaq arvadı həmişə onunla yanaşı döyüşürdü və axırda mübarizənin əhəmiyyətsiz olduğunu görüb ərinin başını kəsərək, massaqetlərə vermişdi, ona görə ki, o, dəfələrlə Spitamenə tabe olmağı məsləhət bilmiş, lakin əri razı olmamışdı.

E.ə.327-ci ildə İsgəndər Mərkəzi Asiyanın işğalını başa çatdırdıqdan sonra Hindistana hərbi səfərə yola düşdü.

## *§4. Selevklər dövləti*

E.ə.323-cü il iyunun 13 Makedoniyalı İsgəndər indiki İraq ərazisində yerləşmiş Babil şəhərində öldükdən sonra imperiyası parçalanmağa başlandı. Onun sərkərdələri (qədim yunanca deyilsə-diadoxları) hakimiyyət uğrunda mübarizəyə

başladılar. İsgəndərin Ptolomey adlı sərkərdəsi e.ə.323-cü ildə Misiri ələ keçirdi və onun nəsli üç əsrə yaxın orada hakimiyyətdə oldu. Bu nəsil axırıncı hakim, məşhur qadın Kleopatra ilə bitdi.

İsgəndərin digər iste'dadlı sərkərdəsi Selevk (e.ə.312-283) isə İsgəndərin Asiyadakı ərazilərini əhatə edən dövlət yaratdı. Bu dövlət onun adı ilə tarixşünaslıqda Selevklər dövləti adlanır. O, Babilistanı, Mərkəzi Asiyanı və Suriyanı da dövlətinə qatdı. E.ə.306-cı ildə Selevkin Mərkəzi Asiyada Baktriya əyalətini işğal etməsi ilə Mərkəzi Asiya Selevklər dövlətinə daxil oldu. E.ə.292-ci ildə Selevk oğlu I Antioxu (e.ə.292-263) Mərkəzi Asiyaya hakim tə'yin etdi. Antiox vaxtilə İsgəndərə qarşı vuruşmuş Spitamenin qızından doğulmuşdu, çünki Spitamen məğlub edildikdə ailəsi düşmən əlinə keçmiş və bir qızını Selevk özünə götürmüşdü.

Mərkəzi Asiyada Selevklər dövlətinin mərkəzi Baktriyada yerləşirdi. Antiox Mərkəzi Asiyada təsərrüfatın inkişafına şərait yaradırdı. İndiki Türkmənistan ərazisində suvarma kanalları çəkdirmişdi. O, inzibati islahat keçirmiş, keçmiş satraplıqlar əvəzinə kiçik inzibati vahidlər yaratmışdı.

E.ə.283-cü ildə Antiox atasının yerinə keçdi və deməli Selevklər dövlətinin tam hakimi oldu. Lakin II Antiox (e.ə. 261-247) vaxtında Baktriya siyasi cəhətdən Selevklər dövlətindən ayrıldı və e.ə.250-ci ildə oranın hakimi mənşəcə yunan olan Diadot, sonra da Andraqor özünü müstəqil hakim e'lan etdilər. Beləliklə, Mərkəzi Asiyada Selevklərin hakimiyyətinə son qoyuldu.

### *§5. Yunan-Baktriya dövləti*

E.ə.III əsrin ortalarında Selevklər dövləti zəifləməyə başladı, çünki selevklərin başı Misirlə müharibəyə qarışmışdı. Digər tərəfdən,Mərkəzi Asiya və Mərkəzi Asiyanın türk tayfaları da Selevklər dövləti ilə mübarizə aparırdılar.

E.ə.250-ci ildə Baktriya ölkəsi Selevklər dövlətindən ayrıldı. Belə ki, Baktriyanın eparxı (canişini) əslən yunan



Diodot özünü müstəqil çar e'lan etdi. Eyni zamanda Selevklər dövlətindən Parfiya əyaləti də ayrıldı. Əslən türk saklardan (Strabonun mə'lumatında "skif"lərdən) olan, indiki Təcən çayının sahillərində yaşayan və antik mənbələrdə daxa (bə'zi tədqiqatçılara görə indi Türkmənistanın Təkə tayfası) adlı tayfasından çıxmış Arşak adlı bir hakim Parfiya əyalətini tutaraq, canişin Androqodu yıxıb özünü müstəqil çar e'lan etdi.

Selevk hökmdarı Arşaka qarşı ordu hissəsi göndərdi. Arşak sakların bir hissəsi olan və antik mənbələrdə apasiak adlanan (əslində sakların bir qolu olan pasian tayfası) tayfanın yanına qaçdı.Az sonra Arşak kiçik, lakin qüvvətli ordu təşkil edərək, yenidən Parfiyanı ələ keçirdi. Diodotun Baktriyanı tutması ilə həmin ərazidə tarixşünaslıqda Baktriya dövləti adlanan bir dövlət yarandı. Bu dövlət təxminən 100 il yaşadı. Çarlığın banisi I Diodot, oğlu II Diodot və sonra I Evtidemin hakimiyyəti illərində dövlət qüvvətləndi. Selevklər dövlətinin başçısı III Antiox ona qarşı qoşun göndərdi və 208-ci ildə Təcən çayı sahilində vuruşmada qalib gəldi. Lakin 206-cı ildə Selevklər Evtidema ilə sülh danışıqlarına girməyə məcbur oldular, çünki Evtidema selevklərə bildirmişdi ki, sakları köməyə çağıracaq. Selevklər türk sakların təhlükəli qüvvə olduğunu bilirdilər. Belə olduqda Antiox Evtideманı çar kimi tanımağa məcbur oldu və hətta qızını onun oğlu Demetriyə ərə verdi.

Evtidemadan sonra Antimax hakimiyyətə gəldi. Onun hakimiyyət illərində Yunan-Baktriya dövlətinin ərazisi xeyli genişləndi. O, e.ə.190-180-cı illərdə indiki Əfqamstanın Herat və Qəndəhar əyalətlərini işğal etdi, sonra da Hindistanın şimal-qərbini tutdu. Demetri Hindistanda hərbi səfərdə ikən sərkərdəsi Evkratid hakimiyyəti ələ keçirdi. Bu vaxt Soqd əyaləti Yunan-Baktriya dövlətindən ayrıldı və həm də Parfiya çarı I Mitridat bu dövlətə məxsus bir sıra əyalətləri, o cümlədən Marqiananı işğal etdi.

E.ə.155-ci ildə Hindistanda hərbi səfərdə olan Evkradit geri qayıtdı, lakin oğlu Qeliokl onu öldürüb hakimiyyəti ələ aldı. Hökmdar Qelioklun hakimiyyəti illərində Yunan-

Baktriya dövləti zəiflədi və az sonra e.ə.140-130-cu illərdə süqut etdi. Ona Çin mənbələrində yueçji adlanan türkmənşəli Kuşan tayfa ittifaqı son qoymuşdu.

Yunan-Baktriya dövlətinin başında əslən yunanmənşəli hökmdarlar dururdular. Onların əcdadları Mərkəzi Asiyaya Makedoniyalı İsgəndərlə gəlmişdilər. Lakin onlar yerli əhalinin dilini bilmirdilər, adət-ən'ənələrilə tanış deyildilər. Ona görə də yunanların yerli əhali üzərində hakimiyyəti hərbi qüvvə ilə tənzim olunsa da, çox davam edə bilməzdi. Yunan Baktriya dövləti süqut etdikdən sonra onun yerində Kuşan (Çin mənbələrində Quyşuan) dövlət qurumu yarandı. Axırıncı Yunan-Baktriya çarına məxsus pulun üzərində yunan əlifbası ilə hökmdar "Gəray" adı ilə yanaşı "Kuşan" sözü vardır.

Bununla belə Yunan-Baktriya dövləti vaxtında bu dövlətə daxil olan əyalətlərdə təsərrüfat həyatı xeyli inkişaf etmişdi. Sün'i suvarma sistemi əkinçilik təsərrüfatının əsasını təşkil edirdi.

I əsr müəllifi Strabonun yazdığına görə Yunan-Baktriya dövlətində 1000 şəhər vardı. Bu rəqəm şişirtmə olsa da, görünür, dövlətin əyalətlərində çoxlu şəhərlər və iri yaşayış məskənləri vardı. Ona görə dövlətin iqtisadi həyatında ticarət mühüm yer tuturdu. Yunan-Baktriya dövlətinin öz pulları var idi. Özbəkistan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində çoxlu belə pullar tapılmışdır. Ticarətdə həm qızıl, həm də gümüş pul işlədilirdi.

Qeyd etmək lazımdır ki, Yunan-Baktriya dövləti vaxtında qədim yunan mədəniyyəti Mərkəzi Asiya xalqları içərisində geniş yayılmışdı.

## *§6. Parfiya dövləti*

E.ə.III əsrdə indiki Türkmənistanın cənubunda, Təcən çayının sahillərində yaşayan part (qədim yunan dilində parf) adlanan irandilli tayfa həmin ərazidə yaşayan və antik mənbələrdə daxa adlanan tayfadan çıxmış Arşak adlı bir nəfərin



başçılığı ilə Selevklər dövlətinə qarşı mübarizəyə başladı və üsyan qaldırdı.Üsyançılar Selevklər dövlətinin oradakı canişinini öldürdülər. Arşakın nəslindən I Tiridat ilk çar oldu. Bu sülalənin adı ilə Parfiya dövləti tarixdə həm də Arşaklar dövləti adlanır. Dövlətin paytaxtı indiki Türkmənistan ərazisində Nisa şəhəri idi. I Tiridat işğalçılıq müharibələrinə başlayaraq əvvəlcə Girkaniyanı (antik mənbədə Girgina) tutdu və böyük ordu yaratdı. E.ə.237-ci ildə Selevklər dövləti Mərkəzi Asiyaya hərbi yürüş etsə də məqsədinə nail ola bilmədi. Arşaklar sülaləsindən I Mitridat (e.ə.171-138) vaxtında Parfiya qüvvətli dövlətə çevrildi. E.ə.II əsrin 50-ci illərində Arşaklar Marqiana dövlətini tutdular. II Mitridat Ərməniyə (indiki Ermənistan) ərazisini və Şimali Azərbaycanın Kürdən cənubdakı ərazisini də işğal etdi və bundan sonra ermənilərə Arşaklar sülaləsinin bir qolu başçılıq etməyə başladı[6]. Ermənistanı tutduqdan sonra Parfiya Roma imperiyası ilə toqquşmalı oldu və e.ə.65-ci ildən bu iki dövlət arasında uzun müddətli müharibə başlandı. E.ə.53-cü ildə Parfiya dövlətinin başçısı Suren Krassın başçılığı ilə Roma ordusunu məğlub etdi. E.ə.36-cı ildə parfiyalılar Antoninin başçılığı ilə Roma ordusunu da məğlubiyyətə uğratdılar. Yalnız e.ə.20-ci ildə Parfiya ilə Roma imperatoru Oktavian Avqust arasında sülh müqaviləsi bağlandı. Lakin Mərkəzi Asiya sakları Parfiya ilə mübarizəni davam etdirirdilər və eranın 61-ci ilində daxili özünüidarə hüququ almışdılar.

Bu vaxt Mərkəzi Asiyada türk kuşanların fəaliyyəti güclənməkdə idi və onlar tədriclə Parfiyanın Mərkəzi Asiyadakı əyalətlərini zəbt etməyə başlamışdılar. Eranın 87-ci ilində Parfiya Çinə səfirlik göndərdi və kuşanlara qarşı birgə müharibə etmək təklifini verdi. Lakin bu diplomatik addım bir nəticə vermədi.

Elə bu vaxt İranın Fars əyalətində Sasani nəslindən olan Ərdəşir adlı canişin Parfiyaya qarşı çıxdı. 224-cü ildə Parfiya şahı V Artaban ilə vuruşmada Ərdəşir qalib gəldi və bununla Parfiya dövləti süqut etdi. İranda isə Sasanilər sülaləsi hakimiyyətə gəldi.

***Parfiya dövlətinin ictimai quruluşu.*** Parfiya böyük ərazini (indiki Türkmənistan, Tacikistan və Özbəkistanın çox hissəsini, Qərbi Qazaxıstanı) əhatə edən dövlət idi. Onun ərazisində irandilli və türkdilli tayfalar yaşayırdılar. Parfiya hökmdarları ölkədə iqtisadi inkişafa diqqət verirdilər. Xüsusilə, suvarma əkinçiliyi inkişaf etmişdi.Mərkəzi Asiya ölkələrinin Çin, Hindistan və Ön Asiya ilə ticarəti Parfiyaya böyük gəlir gətirirdi. Ölkədə əkinçilikdən başqa əsasən sakmassaqet tayfalarının maldar təsərrüfatı mühüm yer tuturdu.

Parfiyada çoxlu şəhərlər vardı. Marqianada Mərv və Baktriyada Nisa şəhərləri ölkənin iqtisadi həyatında böyük rol oynayırdılar. Parfiya hökmdarları gümüş pul buraxırdılar.

Parfiya quldar dövlət idi. Qul əməyi əsas istehsal vasitəsi idi. Dövlətin ərazisində yaşayan irandilli və türkdilli tayfaların dinləri arasında fərq var idi. Məsələn, irandillilər ölünü quşların yeməsi üçün qoyur, sonra sümükləri basdırırdılar. Lakin türk tayfalarında belə adət yox idi. Onlar ölülərini torpaqda basdırırdılar. Türk tayfalarındakı şamanizm irandillilərə yad idi.

## *§7. Şərqi Hun imperiyası*

Türk xalqlarının Mərkəzi Asiyada və Qərbi Sibirdə dövlətçilik ən'ənəsinin tarixi hunlarla başlanır. Lakin onların əvvəlki zamanlarda tarixi qaranlıqdır. İngilis tədqiqatçısı F.Xarta görə qədim Çin mənbələrində Jun formasında hun etnonimi e.ə. XXIII - XIX əsrlər arasında çəkilir.

E.ə.VI-V əsrlərdə Mərkəzi Asiyada Çin ilə həmsərhəd əyalətlərdə yaşayan türk tayfaları, o cümlədən hunlar Çinə qarşı mübarizəyə başladılar. Bu mübarizə Çinin bu tayfaları əsarət altına almaq sə'ylərinə qarşı çevrilmişdi. E.ə214-cü ildən çəkilməyə başlanmış Böyük Çin səddi də məhz hunların Çinə basqınlarının qarşısını almaq məqsədini güdürdü.

E.ə.256-cı ildə imperator Tsin Şi Xuandinin hakimiyyəti illərində Çin dövləti qüvvətləndi və hunlara qarşı tədbirlər



həyata keçirməyə başladı. Tsin Şi Xuandi hunlara qarşı Böyük Çin səddinin tikilməsini sür'ətləndirməyə başladı. Lakin indiyə qədər qalmaqda olan bu möhtəşəm divar hunların Çinə hərbi səfərlərinin qarşısını ala bilmədi, əksinə hunlar tayfa ittifaqında birləşərək Çinə qarşı müharibəyə başladılar.

Hun tayfa ittifaqı e.ə.III əsrin 20-ci illərində yaranmışdı. Bu tayfa ittifaqının təşəkkülü Tuman (çincə yazılışı Touman) xanın adı ilə bağlıdır. O, Çinlə müharibəyə başlayaraq Ordos əyalətini zəbt etdi, çünki bu əyalət əslən qədim türk ərazisi idi və e.ə.215-ci ildə Çin onu işğal etmişdi. Çin Tuman xanın hələ kifayət qədər qüvvətli olmayan dövlətini hər vasitə ilə məhv etməyə çalışırdı.

E.ə.209-cu ildə Tuman xanın oğlu Mete (Çincə yazılışı Maodun) atasını və ögey anasını, bu anadan olan qardaşlarını öldürüb hakimiyyətə keçdi. O, hərbi islahat keçirərək qısa bir müddət ərzində 4 atlı korpus təşkil etdi. Orduda möhkəm nizam-intizam yaratdı. Cənubi Sibirdə, hunlardan şimalda yaşayan dinlin tayfa ittifaqını və qonşuluqda olan dunxu və yuecji (quşçu) tayfalarını özünə tabe etdikdən sonra Mete e.ə.204-cü ildən başlayaraq Çinə qarşı ardıcıl hərbi səfərlər təşkil etdi və hunları Çinin əsarətindən qurtardı. Mete Cənubi Sibiri və Cunqariyanı işğal etdi. Cənubi Sibirin və Mərkəzi Asiyanın şimal-qərb hissəsinin əhalisi haqqında ilk mə'lumatlar e.ə.III əsrə aiddir. Çin səlnaməçisi Sıma Tsyan "Tarixi qeydlər" əsərində Mərkəzi Asiyada hun hökmdarı Maodunun (Metenin) e.ə.209-cu ildə hakimiyyətə keçməsindən bəhs edərkən yazır ki, hunlar bütün şimal barbarları olan dinlin, qequn, suyşe, sinli və b. tayfaları tabe etdi. Bu tayfalar Sayan-Altay yüksəkliyində yaşayırdılar. Onlardan qequn (yanqun yazılış forması da vardır) tayfası müasir qırğızların ulu əcdadları hesab edilir. Dinlin tayfası Xakas-Minusin çökəkliyində yaşayırdı. Onlar Ob çayından Baykala qədər uzanan meşə-step zolaqda məskun idilər. Qeyd olunur ki, onların 60 minlik ordusu vardı. Bu tayfa türkdilli idi. Bə'zi tədqiqatçılara görə dinlinlər xakasların əcdadlarıdırlar. E.ə.201-ci ildə hunlar Yenisey üzərində Taqar mədəniyyətini və Dağlıq Altayda Pazırık mədəniyyətini yaradanları özlərinə tabe etdilər.

Hunlar 24 iri tayfadan ibarət idilər. Onların hamısı Meteni özlərinə başçı kimi tanıyırdılar.

E.ə.192-ci ildə Mete Çinə səfirlik göndərdi. Çariça Qaoxouya məktub yollayaraq, ona ərə getməsini tələb etdi. Çariça buna e'tiraz etdi, lakin səfirləri çoxlu hədiyyələrlə yola saldı.

E.ə.192 və 176-cı illərdə Mete Çinə qarşı iki yeni hərbi səfər təşkil etdi. Çinin Xan sülaləsindən xərac aldıqdan sonra sülh müqaviləsi imzaladı. Çin hər il hun dövlətinə əkinçilik məhsulları və böyük miqdarda ipək parça verməyi öhdəsinə götürdü. Bundan sonra Mete Çin mənbələrində yueçji (sonrakı kuşan) tayfalarını və Tyan-Şanda usunları özünə tabe etdi. Daha sonra Mete İrtış və Yenisey çaylarının hövzələrində yaşayan indiki qırğızları və Altayda yaşayan qıpçaqları[7] da dövlətinə qatdı. Bununla da Metenin vaxtında Hun dövləti imperiyaya çevrildi.

Metenin hökmranlığı 35 il sürdü[8]. E.ə.174-cü ildə öldüyü zaman dövlətin mərkəzi Mərkəzi Asiyada Ötükən idi. İmperiyanın hüdudları şimalda Sibirin buzluqlarına, cənubda Himalay dağlarına, şərqdə Böyük Okeana, qərbdə Xəzər dənizi və Ural dağlarına qədər uzanırdı. Şərqdə hun dövlətinin sərhədləri Şərqi Tyan-Şana qədər çatırdı və usunların yaşadığı ərazi ilə sərhədlənirdi. Tyan-Şanın şimal şərqində hunlar Çin mənbələrində kanqyuy adlanan tayfalar ilə qonşu idilər.

Metedən sonra 14 il hökmranlıq edən oğlu Kiek (Çin mənbələrində onun adı Laoşan-Tzayuy kimidir), 35 il hökmranlıq edən nəvəsi Kün Tanhu (Çin mənbələrində onun adı Qyunçen kimidir) bu hüdudları qorudular. Lakin Kün Tanhunun hakimiyyətinin sonlarında Hun dövlətində dağılma prosesi başlanmışdı. Çünki bu xan bir Çin şahzadəsi ilə evlənmiş və deməli Çin sarayına qohum olmuşdu. Ona görə də, dövlət Çinin əsarəti altına düşmüşdü. Bundan sonra Hun dövləti süquta doğru getdi. E.ə.127-ci ildə Çin ordusu hücum edib hun ordusunu məğlub etdi, Ordosu geri aldı və hunların 1 milyon baş malqarasını tutub apardı. Hunlar içərisində hakimiyyət uğrunda mübarizə başlandı. Çin mənbələrində adları



Uvey (e.ə.114-105), Uşulu (e.ə.105-102), Qyuymexu (e.ə.102-101) kimi yazılmış hökmdarların vaxtlarında Hun dövlətində vəziyyət bir qədər sabitləşsə də, Çin onu hər vasitə ilə məhv etməyə çalışırdı.

E.ə.55-ci ildə Hun dövləti iki ordaya parçalandı. Şərq, yaxud Cənub Ordasının başında Xuxanye (e.ə.58-31), Şimal Ordasının başında Ciçi (Çin mənbələrində İçjişe) adlı xanlar dururdular. Xuxanye Çinə tabe oldu və özünə sadiq tayfaları və ordusu ilə Çinin şimal-qərb hüdudlarına çəkildi. Beləliklə, Böyük Hun imperatorluğu iki hissəyə bölünmüş oldu. Çin hüdudlarına çəkilənlər Cənub hunları (Şərqi hunlar) adlandı və orada Cənubi Hun dövlətini yaratdılar. Ciçinin ətrafında toplananlar isə Şimal hunları (Qərb hunları) adlandılar və Şərqi Türküstana - Orxon çayının sahillərinə gəldilər.

E.ə.36-cı ildə Mərkəzi Asiyada Talas çayı üzərində bu hunlarla çinlilər arasında baş vermiş qanlı vuruşmada hunlar məğlub olmasalar da, sərkərdə Ciçi döyüşdə öldürüldüyünə görə döyüş meydanından geri çəkildilər. Şimal, yaxud Qərb hunları həm Çin tərəfindən, həm də Altayda Çin mənbələrində Siyanbi adlanan türk tayfa birləşməsi və Şimalda Baykal gölü ətrafındakı tayfalar tərəfindən sıxışdırıldı. Eramızın 80-ci illərində hunlar siyanbilər tərəfindən məğlub edildilər. Müharibə indiki Monqolustan ərazisində gedirdi. Buna görə Şimal hunları qərbə hərəkət etməyə başladılar.

Bizim eranın 93-cü ilində bu hunlar Cunqariyaya (Mərkəzi Asiyada böyük bir əyalətin adıdır) gəldilər, oradan da Uralətrafı əraziyə yetişdilər. Çox keçmədən hunlar oradan Cənub- Şərqi Avropaya keçdilər. Eramızın 160-cı ilində ilk dəfə olaraq yunan müəllifi Dionisiy Periyeget Şimali Qafqazda hunların yaşadığını yazmışdır. Dəqiq olaraq hunlar bura nə vaxt gəliblər - mə' lum deyil, çünki Dionisiy yazmır ki, həmin il gəlmişlər, o, yazır ki, "yaşayırlar".

Qeyd edilməlidir ki, şərqdən qərbə gəlmiş hunların dəqiq miqdarı mə'lum deyil. Hər halda, hunların sonrakı əsrlərdə Cənub-Şərqi Avropadakı fəthləri onların çoxsaylı olduqlarını göstərir.

***Hunların ictimai və siyasi quruluşu.*** Hunlar maldar tayfalar idilər və yarımköçəri həyat tərzi keçirirdilər. Çin mənbələrinə görə hunlar əsas e'tibarilə at, dəvə, eşşək, iri və xırda buynuzlu heyvan saxlayırdılar. Arxeoloji qazıntılar və Çin mənbələrində olan mə'lumatlar göstərir ki, hunlar maldarlıqla, əkinçiliklə də məşğul olurdular. Arxeoloji qazıntılar nəticəsində hunların çiy kərpicdən divarlarla əhatə olunmuş 10 şəhərin və 20 maldar əkinçi məntəqəsinin qalıqları aşkara çıxarılmışdır. Arxeoloji qazıntılar göstərir ki, hunlarda dağ-mə'dən işi və sənətkarlıq növləri inkişaf etmişdi. Ordos əyalətində arxeoloji qazıntılar nəticəsində aydın olmuşdur ki, hunların yaşadığı ərazilərdə Tunc dövründən başlayaraq sənətkarlıq əşyaları tarixşünaslıqda "skif tipli mədəniyyət" kimi səciyyələndirilən mədəniyyətə məxsusdur. Bu faktın özü bə'zi tədqiqatçıların "skif tipli" mədəniyyətin iranmənşəli olması baxışını rədd edir.

Hunlar ən qədim zamanlardan Çinlə ticarət edirdilər. Odur ki, arxeoloji qazıntılar zamanı çoxlu Çin mənşəli əşyalar tapılmışdır.

Yenisey çayının sol sahilində Minusin şəhərinin 60 km-də 1902-1903-cü illərdə A.V.Andrianov tərəfindən hunlara məxsus Oqlaxti adlı arxeoloji abidə tədqiq olunmuşdur. E.ə.II əsrə aid bu abidədə hunların təsərrüfat həyatına aid çoxlu maddi mədəniyyət nümunələri aşkarlanmışdır. Hunlarda qul əməyi vardı, lakin quldarlıq klassik səviyyəsinə qalxmamışdı.

Hunlarda tayfa-qəbilə bölgüsü mövcud idi. Ordu da məhz bu prinsipə uyğunlaşdırılmışdı. Hunların dini şamanizm idi.

## *§8. Kanq dövləti*

E.ə.IV-III əsrlərdə Qərbi Türküstanda yeni türk tayfa birləşmələri təşəkkül tapdı. E.ə.II əsrə aid Çin mənbələrində bu ərazidə Usun (Qazaxıstanın cənub-şərqində və Qırğızıstanda), Davan (Özbəkistanın Fərqanə vilayəti) və b. dövlətlərlə yanaşı Kanq (Çin mənbələrində Kanszyuy və



Kanqyuy yazılış formaları vardır) dövləti haqqında da mə'lumatlar vardır (Firdovsinin "Şahnamə"sində bu dövlət məhz Kanq adlanır). Kanq dövlətinin əhatə etdiyi ərazinin sərhədləri dəqiqliyi ilə mə'lum deyil. Bə'zi tədqiqatçılar onu indiki Xarəzmlə eyniləşdirirlər. S.P.Tolstova görə Kanq dövlətinə indiki Özbəkistan (Fərqanə və Surxandərya əyalətləri istisna olmaqla), Qaraqalpaq respublikasının ərazisi və Qazaxıstanın qərbi daxil idi. "Özbəkistan tarixi"ndə Amudəryanın şimalında yerləşən Buxara, Şəhrisəbz, Kattakurqan məmləkətlərinin, Daşkənd vahəsi və Xarəzmin şimal hissəsinin bu dövlətin ərazisinə daxil olduqları göstərilir. Başqa fikrə görə Sırdərya çayının orta axarında təşəkkül tapmış Kanq dövləti Sırdərya və Amudərya çayları arasındakı əraziləri (ərəb mənbələrində Mavərənnəhri) əhatə edirdi. Kanq dövlətinin şərqdə Balxaş gölündən qərbdə Aral dənizinə, şimalda Cezqazqandan (Qazaxıstanda), cənubda Daşkənd vilayəti və Səmərqəndə qədərki ərazidə yerləşməsi fikri də var. Kanqın tarixi coğrafiyasına aid Çin mənbələrindəki mə'lumatları xüsusi olaraq araşdıran L.A.Borovkova onun Sırdəryanın orta axarında yerləşməsi fikrinə üstünlük verir, Qərbi Avropa və Çin tarixşünaslığında tərəfdarları olan bu lokalizə ilə razılaşmır. Cəmi 600 min nəfərdən ibarət olan kanszyuyların (Çin tarixçisi Ban Qunun mə'lumatı) vahid dövlətçiliyi itirmədən belə geniş ərazidə məskunlaşmasının mümkün olmadığını göstərən L.A.Borovkovaya görə dövlətin paytaxtı (Çin mənbələrində Bityan şəhəri) indiki Cambul şəhərinin yerində olmuş, ərazisi isə şərqdən qərbə doğru İssık-Kuldan Daşkənd vilayətinə, şimalda isə indiki Qızıl Orda ətrafına qədərki torpaqları əhatə etmişdir. Lakin əhalinin sayı ilə bağlı dəlil Kanq dövlətinin hüdudlarını yalnız göstərilən ərazi ilə məhdudlaşdırmağa əsas vermir. Ola bilsin ki, qədim Çin tarixçisi yalnız hakim Kanq tayfalarının sayını göstərmişdir. Ölkənin ərazisində isə kanqların başçılıq etdiyi ittifaqa daxil olan başqa türkdilli tayfalar da yaşayırdılar.

Yuxarıda gətirilən fikirlərdən belə nəticə çıxarmaq olar ki, Kanq dövləti Sırdəryanın orta axarı ilə Amudərya arasındakı ərazidə təşəkkül tapmış, ayrı-ayrı dövrlərdə isə

tarixi şəraitdən asılı olaraq onun ərazisi böyüyüb kiçilmişdir. Qeyd etmək lazımdır ki, e.ə.V əsrin sonu - IV əsrin əvvəllərində Xarəzmdə Kanq qalasının əsası qoyulmuşdu. Sırdərya çayı erkən orta əsrlərdə Kanqar adlanırdı. Bu faktlar Kanq dövlətinin ilkin hüdudları haqqında aydın təsəvvür yaradır.

Kanq yer adının mənşəyi də tam aydınlaşdırılmayıb. Bəzi tədqiqatçılar Kanq adını İran dillərində kan "kanal, çay" sözü ilə bağlamağa cəhd göstərmiş və onu "kanallar və ya çaylar ölkəsi" kimi mə'nalandırmışlar. Lakin bu düzgün fikir deyil. Ehtimal ki, dövlət Kanq qalasını adı ilə adlanmışdır. Türk-monqol dillərində qanq "çayın sıldırımlı dik sahili" (Dağlıq Altayda ***kanq*** "dik qalxmış dağ" mə'nasındadır) sözündəndir.

Antik 'mənbələrdən mə'lumdur ki, e.ə.I minilliyin əvvəllərindən Kanq dövlətinin təşəkkül tapdığı ərazidə sak-massaqet tayfaları məskunlaşmışdılar. Elmi ədəbiyyatda sak-massaqetlərin Çin mənbələrində yueci (e.ə.I minilliyin sonları) və se (ilkin forması sək) adlanan tayfalarla yuecilərin kuşanlarla (quşanlarla) eyniliyi ilə bağlı tutarlı dəlillər gətirilmişdir. Çin tarixçisi Sıma Syan isə Kanq (Kanszyuy) adət-ən'ənələrinin əsasən yuecilərlə eyni olduğunu göstərir. Çin mənbələrinə görə eramızın I əsrinin 50-ci illərində Şərqi Türküstandakı Sotszyuy dövlətinin hökmdarı "Amudərya saklarının knyazına" qarşı yürüş etmiş, onu taxtdan salmış, Fərqanə və Kanqyuyda öz əlaltılarını hakimiyyətə gətirmişdi. Göründüyü kimi, eramızın I əsrində Kanq əhalisi saklar adlandırılırdı. Bu faktlar kanqların sak-massaqet-yueci (kuşan)-se tayfaları ilə eyni və ya qohum tayfalar olduğunu deməyə əsas verir.

Mə'lumdur ki, eramızın ilk əsrlərində kanqların bir hissəsi hunlarla birlikdə Cənub-Şərqi Avropaya və Qafqaza (əsasən Azərbaycana) köç etmişdilər. Erkən orta əsr mənbələri onları kanqar (kəngər) adlandırır və peçeneqlərlə eyniləşdirirlər. Bizans müəllifi Konstantin Baqryanorodnı Cənub-Şərqi Avropada yaşayan paçinikitlərin (peçeneqlərin) bir hissəsinin həm də kanqar adlandırdıqlarını yazmışdır.



Baqryanorodnıya görə onlar peçeneqlərin başqa tayfalarına nisbətən cəsarətli və alicənab olduqları üçün belə adlanırlar, çünki guya kanqar sözü cəsarətli və alicənab deməkdir. Daha sonra o, peçeneqlərin "əvvəllər kanqar adlandıqlarını" qeyd edir. Kanqar sözünün "inadcıl, qətiyyətli, cəsur, mərd" mə'nalarında olduğu və ilk dəfə VI əsrə aid Suriya mənbəsində rast gəlindiyi göstərilir. S.A.Pletnyovanın fikrincə kanqarlar mənşəcə kanqyuyla bağlı idilər və peçeneq ittifaqı yaranandan bu ittifaqın başında durmuşdular.

Kanq dövlətinin yarandığı il dəqiq mə'lum deyil. Yuxarıda qeyd edildiyi kimi, bu dövlət haqqında ilk mə'lumatları e.ə.II əsrin ikinci yarısına aid Çin mənbələri verir. Mənbələrə görə Çin imperatoru U-di (e.ə.140-87-ci illər) hunlarla mübarizədə müttəfiq qalmaq ümidi ilə e.ə.138-ci ildə Çjan Syanın başçılığı ilə vaxtilə hunlar tərəfindən qərbə sıxışdırılmış və Baktriya ərazisində məskunlaşmış "böyük yuecilərin" ölkəsinə səfirlik göndərmişdi. Lakin Çjan Syan hunların əlinə keçmiş və 10 il əsirlikdə qalmışdı. Əsirlikdən qaçan Çin səfiri əvvəlcə Fərqanəyə (çincə yazılışı Davana), sonra Kansyuya (Kanqyuya, başqa sözlə Kanqa), nəhayət, yuecilərin ölkəsinə getmişdi. Lakin hunlara qarşı ittifaq təklifinə yuecilər rədd cavabı vermişdilər. Ona görə Çjan Syanın diplomatik səfəri uğursuz başa çatmışdı. O, öz səfəri haqqında geniş hesabat yazmış və imperatora təqdim etmişdi. Hesabatda Çjan Syan olduğu ölkələr haqqmda ətraflı mə'lumat vermişdir. Məhz onun hesabatı qədim Çin tarixçiləri Sıma Syanın və Ban Qunun yuxarıda adları çəkilən və b. ölkələr haqqında mə'lumatlarının əsasını təşkil etmişdir.

E.ə.II-I əsrlər Kanq dövlətinin yüksəliş dövrü hesab edilir. İri dövlətlərin çəkişmə meydanlarından kənarda olan Kanq dövləti öz iqtisadiyyatını və mədəniyyətini inkişaf etdirmək imkanı qazanmışdı. Arxeoloji qazıntılar nəticəsində Kanq dövlətinin e.ə.II-I əsrlərə aid pulları aşkar edilmişdir ki, bu da onlarda iqtisadi inkişaf haqqında müəyyən təsəvvür yaradır.

Mə'lum olduğu kimi, e.ə.I əsrin ortalarında Hun dövləti iki hissəyə parçalanmışdı. Qərbi Hun torpaqlarının hökmdarı

(qədim Çin dilində şanyuyu) Ciçi (yaxud Cici) xan (Çin mənbələrində Çji-Çji kimidir) kanqyuylarla ittifaqda usunlarla müharibəyə başlamışdı. Bu, usunların Çinlə yaxınlaşmasına səbəb olmuş və e.ə.73-cü ildə birləşmiş Usun-Çin ordusu qanlı döyüşdə hunları məğlub etmişdi. E.ə.49-cu ildə Ciçi xan öz rəqibi, Şərqi hun hökmdarı Huhanyenin (çincə Xuxanye) Çindən kömək aldığını görüb usunlarla ittifaqa girmək istəmişdi. Lakin Çinin müttəfiqi olan usunlar onun təklifini rədd etmiş və səfirlərini öldürmüşdülər. Nəticədə Ciçi usunlarla müharibəyə başlamış və onları məğlub etmişdi. Sonra o, Usun dövlətinin ətrafındakı bir sıra tayfaları da itaət altına almış və Kanq dövləti ilə ittifaqa girərək, onun ərazisinə getmişdi. Beləliklə, Çen Tanın başçılığı ilə Çin ordusu iki istiqamətdən Kanq dövlətinin ərazisinə daxil olmuşdu. E.ə.36-cı ildə Talas çayı sahilində birləşmiş Usun-Çin ordusu ilə Ciçi xanın başçılıq etdiyi hun ordusu arasında ikinci böyük qanlı döyüş baş verdi. Lakin Cici döyüşdə öldürüldüyünə görə hunlar geri çəkilməyə məcbur oldular. Sonralar hunların Qərbə axını başlanmış və kanqların (kanqar kəngər adı ilə) bir hissəsi bu axına qoşularaq Cənub-Şərqi Avropaya, oradan müəyyən hissəsi Cənubi Qafqaza gəlmişdir.

Kanq dövlətinin sonrakı tarixi haqqında mə'lumatlar azdır. Eramızın I əsrində Kanq dövləti xeyli zəifləmişdi. Yuxarıda qeyd edildiyi kimi, eramızın I əsrinin 50-ci illərində Sotszyuy hökmdarı Kanqa yürüş etmiş və orada öz əlaltısını hakimiyyət başına qoymuşdu. Eramızın I əsrinin 80-ci illərinə aid olan bir mə'lumatda isə Sotszyuy, Usun, Sule və b. dövlətlərlə birlikdə Kanqın da yenidən Çinə tabe olmaq istədiyi bildirilirdi.

Eramızın I əsrində Kanq dövlətinin cənubunda qüdrətli Kuşan çarlığı yarandı. II əsrin 1-ci rübündə - Kuşan hökmdarı Kanişkanın hakimiyyəti dövründə - Kanq dövləti kuşanlardan asılı vəziyyətə düşdü. Kanq dövlətinin əhalisi (kanqlar) siyasi müstəqilliklərini itirdikdən sonra bu dövlətin adını əks etdirən və kanqlı adlanan tayfalar erkən orta əsrlərdə Qərbi Türküstanın etnosiyasi tarixində mühüm rol oynamış, adlarını və



etnik özünəməxsusluqlarını qoruyub saxlamışdılar. Kanqların öz tarixi vətənlərində qalan hissəsi qazax və qırğız xalqlarının təşəkkülündə mühüm rol oynamışlar. Oğuzların tərkibində Qanqlı adı ilə bu tayfamn müəyyən hissəsi Azərbaycana da gəlib məskunlaşmışdır.

Arxeoloji qazıntılardan aydın olur ki, kanqlılar oturaq əkinçiliklə də məşğul olurdular. Bunu qazıntılar zamanı tapılmış yanmış dən nümunələri və əkinçilik alətləri göstərir. Metaləritmə peçlərinin qalıqları da aşkar edilmişdir. Bu göstərir ki, kanqyuylar metal əşyalar hazırlayırdılar. Qədim türk mənşəli olan usunlarda və kanqyuylarda tayfa-qəbilə bölgüsü hakim idi və deməli, ona görə icma torpaq sahibliyi var idi. Lakin arxeoloji qazıntılar həmin tayfalarda sinfi təbəqələşmənin olduğunu da göstərir.

## *§9. Usunlar və Usun dövləti*

Çin mənbələrinə görə Qırğızıstan və Qazaxıstan ərazilərində e.ə.V-IV əsrlərdən başlayaraq Usun və Sırdəryanın orta axınında Kanqyuy (yə'ni Kanqlı tayfa birləşmələri) hakim qüvvəyə çevrilirlər. Tədqiqatçılara görə Mərkəzi Asiyanın və Mərkəzi Asiyanın köçəri tayfaları olan Usun tayfa ittifaqının ərazisi Çu çayından Tyan-Şan dağlıq ərazisinin şərq yamaclarına, Balxaş və İssık-Kul göllərinin ətraf ərazilərinə qədər yayılmışdı. Qərbdə Talas çayı sərhəd idi.

Usun dövləti indiki Qazaxıstanın cənub şərqində və Qırğızıstan ərazisində yaranmış ən qədim dövlətlərdən biridir. Qədim Çin tarixçilərinin mə'lumatlarına görə usunlar nə vaxtsa şərqdə (Çin ərazisində) yaşamış və sonralar yuecilər tərəfindən qərbə doğru sıxışdırılaraq Yeddi Su, Cunqariya və Mərkəzi Tyan-Şan ərazilərini tutmuşdular. Çin mənbələrində Usun dövləti Usunqo (Usun dövləti), Sin-qo (Köçəri dövlət) və bə'zi hallarda Bu-szu ("Tayfa, tayfa ittifaqı") adlanırdı. Dövlətin paytaxtı İssık-Kul gölünün cənub-şərqində Çiqu (Çiquçen) şəhəri idi.

Usunların mənşəyi ilə bağlı Çin salnaməçiləri Sıma Syanın və Ban Qunun gətirdikləri oxşar variantlı yaranış əfsanələri maraq doğurur. Sıma Syan: "Usunların hökmdarı Kunmo adlanır. Onun atası Syunnunun (Hun dövləti) qərb sərhədlərində yerləşən kiçik şahlığın hökmdarı idi. Syunnular onun atasına hücum etmişdir. Kunmo doğulduqda onu tarlaya (düzənliyə) atdılar. Dimdiyində ət olan qarğa onun üstündən uçdu və dişi canavar ona döşündən süd verdi. Şanyuy (Hun hökmdarının titulu -Ə.M.) buna heyrətləndi və onu fövqəltəbii bir varlıq sanaraq qəbul etdi və böyütdü". Ban-Qu: "Usunların hökmdarı Kunmo adlanır. Onun atası Nandoumo böyük yuecilər kimi Silyanşan və Dunxuan şəhərləri arasında yerləşən kiçik şahlığın hökmdarı idi. Böyük yuecilər Nandoumanın üstünə hücum etdilər, onu öldürdülər və bütün torpaqlarını əlindən aldılar. Onun xalqı isə syunnuların yanına qaçdı. Onun oğlu Kunmo yenicə doğulmuşdu və tərbiyəçi (mürəbbi) Buszyusihou körpəni qucağına alaraq qaçdı. O, uşağı otun üstünə qoyub yemək axtarmağa getdi və geri qayıtdıqda dişi canavarın ona döşündən süd verdiyini, dimdiyində ət tutmuş qarğanın isə yanında uçduğunu gördü. O, uşağı fövqəltəbii varlıq hesab etdi və götürərək syunnuların yanına qayıtdı. Şanyuy onu sevdi və böyütdü". Sıma Syana görə Kunmonun atasını hunlar, Ban Quya görə isə yuecilər öldürmüşdü.

Göründüyü kimi, hər iki tarixçi Kunmoya dişi canavarın süd verməsi faktını təsdiqləyirlər. Tədqiqatçılar bu əfsanə ilə qədim türklərin yaranış əfsanəsi arasında oxşarlıq olduğunu göstərirlər. Digər tərəfdən, hər iki variantda Kunmonun xilaskarı kimi dişi canavarla yanaşı dimdiyində ona ət gətirən qarğa da çıxış edir. Görünür, məhz buna görə yuxarıda adı çəkilən Çin səfiri Çjan Syan "usun" etnonimini "qarğanın nəvələri (nəsilləri)" mə'nasını verən heroqliflərlə yazmışdır. Bə'zi tədqiqatçılar Usun etnoniminin qədim formasının ***asuən*** şəklində olduğunu göstərirlər və bu etnik özünüadlandırmanın Pompey Troqun "skif tayfası" adlandırdığı asieni ilə bağlı olduğunu istisna etmirlər.



Mənbələrdə Usun dilindən çox az sözlər qalmışdır. Bə'zi Avropa tədqiqatçıları onların İran dillərinə mənsub olduğunu göstərmişlər. Onların ***toxar*** qrupuna daxil olan dildə danışmaları fikri də mövcuddur (E.Pulliblenk). Lakin son dövrlərdə usunlara xüsusi əsər həsr etmiş Yapon tədqiqatçısı Siratori Kurakiti onların dilinin türk dili olması nəticəsinə gəlmişdir.

Rus şərqşünası N.A.Aristov usunları müasir qırğızların birbaşa əcdadları hesab edirdi. Onların qırğız xalqının formalaşmasındakı mühüm rolu müasir tədqiqatçılar tərəfindən də qeyri-şərtsiz qəbul olunur.

Ban-Qunun "Xan tarixi" (Xanşu) əsərinə görə usunların ümumi sayı 670 mindən çox olmuş və düşmən hücumlarını dəf etmək üçün onlar 188.800 döyüşçü çıxara bilmişlər. Bu, əslində əhalinin hər üç nəfərdən birinin 15-16 yaşından 40-50 yaşınadək kişilərdən ibarət olması deməkdir. Ola bilsin ki, bu rəqəm xeyli şişirdilmiş və ya buraya usunlardan asılı olan xalqların da hərbi hissələri əlavə edilmişdir.

Usunların təsərrüfatının əsasını köçəri maldarlıq təşkil edirdi. Ban Quya görə onlar əkinçiliklə məşğul olmurdular və "su və otlaq axtarışı ilə bir yerdən başqa yerə köçürdülər. Bu sahədə onların adətləri hunların adətləri ilə eyni idi". Heyvandarlıqda atçılıq ən mühüm yer tuturdu. Varlı adamların ilxılarında atların sayı 4-5 minə çatırdı. İri ə'yanlara və hökmdara məxsus xüsusi otlaqlar var idi. Sahəsi 200-250 hektardan 32-50 min hektara çatan bu otlaqlardan başqalarının istifadə etməsi qadağan edilirdi.

E.ə.177-ci ildə hunlar Metenin başçılığı altında usunlara hücum edib onları özünə tabe etmişdi. Lakin bu asılılıq zəif idi. Usunlar hunlara yalnız vergi verirdilər.

E.ə.II əsrin axırlarında usunlar müstəqillik qazandılar və Çinlə münasibətləri tənzimlədilər. E.ə.138-126 və 115-ci illərdə Çin usunlara iki səfirlik göndərib onlarla hunlara qarşı hərbi ittifaq təklif etmişdi. Lakin usunlar hərbi ittifaqdan boyun qaçırdılar. Hunlar e.ə.75-ci ildə usunları qarət etdikdə usunlar Çinlə ittifaqda hunları qanlı döyüşdə məğlub etdilər.

Eranın 71-ci ilində usunlar Çinlə ittifaqda Mərkəzi Asiyadan gəlmiş hunlara qəflətən basqın etdilər və nəticədə 40 min nəfər əsir və 70 min at, dəvə və eşşək ələ keçirdilər. E.ə.30-cu illərdə Qunmo Unquymi öldükdən sonra Usun dövləti tənəzzül etdi. Syanbi və cucan türk tayfaları usunların ərazilərini tədriclə zəbt etməyə başladılar. Onlar tarix səhnəsindən çıxdılar. Usunların bir hissəsi Yeddi Su əyalətinə və Tyan-Şana çəkildilər, digər hissəsi isə hunlarla birlikdə qərbə hərəkət etdilər. Eramızın V əsrindən sonra usunların adı mənbələrdə çəkilmir.

Usunlar da əsas e'tibarilə maldar idilər. Bu siyasi birləşmə Çin mənbələrinə görə təxminən 120 min alaçıqda 630 min adamı əhatə edirdi. Onların 100 minlik ordusu var idi. Lakin arxeoloji qazıntılar göstərmişdir ki, onlarda əkinçilik də vardı. Onlar tayfalar şəklində yaşayırdılar. Hər tayfanın özünəməxsus otlaq yeri var idi. Tayfa başçıları həm də iri feodallar idilər. Mərkəzi Tyan-Şanda, Çu vadisində və İssık-Kul gölü ətraf ərazisində varlı kurqanlar usunların tayfa başçılarına - bəylərə aid edilir.

Usunların dəfn adətləri saklarda olduğu kimi idi. Tədqiqatçılara görə usunlar sakların sonrakı nəsilləri idilər.

Eranın IV əsrindən sonra usunlarda feodal münasibətləri təşəkkül tapır. Artıq onlarda feodal tipli dövlət qurumları yaranmaqda idi. Lakin 552-ci ildə Türk xaqanlığının yaranması bu prosesi pozdu və çox keçmədən bu tayfa birləşmələrinin ərazisi Türk xaqanlığı tərəfindən işğal olundu.

Usunlar ən'ənəvi köçəri maldarlıqla məşğul olurdular və ona görə çadırlarda yaşayırdılar. Düşərgələri qışlaqlarda yerləşirdi. Usunlar İssık-Kul gölünün cənub sahilində Ceti-Oğuz və Çonq-Kızıl-Su arasında qışlayırdılar. Bu tayfalarda qul əməyi yox dərəcəsində idi, çünki maldarlıq təsərrüfatı sahəsində qul əməyindən istifadə olunması lüzumsuz idi, lakin mal-qara xüsusi mülkiyyət hesab olunurdu.

Eramızın V əsrindən sonra usunların yaşadıqları ərazilərdə qıpçaq, türkəş, karluk və başqa türk tayfaları meydana çıxır. Usunlar Qazaxıstan ərazisində sonralar qazaxların Böyük Juz tayfa ittifaqına daxil oldular.



### *§10. Kuşan dövləti*

E.ə. I əsrin sonlarından eramn IV əsrinədək Mərkəzi Asiyada və ona yaxın əyalətlərdə tarixi hadisələr Kuşan dövləti ilə bağlıdır.

E.ə.II-I əsrlərdə Mərkəzi Asiyada, onun Toxarıstan adlı əyalətində beş qoldan ibarət bir tayfa ittifaqı yarandı. Qədim Çin mənbələrində bu tayfa ittifaqı "Quyjuan", yaxud "Quyşuan" adlanır ki, bu da "Kuşan" etnoniminin Çin dilində tələffüz və yazılış formasıdır. Tədqiqatçılara görə Kuşan Mərkəzi Asiyanın tayfalarından biridir və onlar e.ə.II-I əsrlərdə Baktriya (Amudəryanın yuxarı və orta axarında qədim vilayət adıdır) ərazisində yaşayırdılar. Bu tayfanın mənşəyi və xüsusilə etnik mənsubiyyətcə kimlər olması barədə tarixşünaslıqda indiyədək mübahisə gedir. Əksər tədqiqatçılar (xüsusilə Rus şərqşünasları) kuşanları irandillilər sayırlar. Lakin Mərkəzi Asiyanın bə'zi tarixçiləri kuşanları türkmənşəli etnos hesab edirlər. Bu fikir həqiqətə uyğundur. Əvvələn, bu tayfanın əsil adı kuşdur, çünki qədim Çin mənbələrində onun adı "yueçji" kimi yazılır ki, bu da kuşi yaxud quşi adının fonetik şəklidir. Deməli, kuşan etnonimi kuş yaxud kuşi sözündən və "an" şəkilçisindən ibarətdir. Son tədqiqatlar göstərmişdir ki, Çin mənbələrində "yueçji" kimi təhrif olunmuş şəkildə yazılmış etnonim Mərkəzi Asiyada yaşamış Kuşan adlı tayfanın adıdır. Bu etnonimin sonunu təşkil edən an şəkilçisini bə'zi tədqiqatçılar iranmənşəli sayırlar, lakin bu düz deyil, çünki, məsələn, alban, aran, kazan, koman və b. qədim türk tayfa adlarında da bu şəkilçi vardır və onları iranmənşəli saymaq yanlış olardı. İkincisi, indiyədək bir sıra türk xalqlarında (qazaxlarda, özbəklərdə, qırğızlarda, başqırdlarda, türkmənlərdə) kuş və kuşçu adlı tayfalar vardır. Cənubi Qafqazda, o cümlədən Azərbaycanda da çoxlu Quşi, Quşlar və Quşçu kənd adları mövcuddur və tədqiqatçılarımız haqlı olaraq bu toponimləri kuş və quşçu türk tayfasının adı ilə əlaqələndirirlər.

Ümumi fikrə görə kuşanlar (e.ə.165-ci ildə hunlarla mübarizədə məğlub olmuş yueçjilər) Tyan-Şandan şimala, Yeddiçayarasına yaxud Yeddi Suya (Rus tarixşünaslığında Semireçyeyə) gəlmiş və qədim sakların torpaqlarında məskunlaşmışlar.

E.ə.160-cı ildə usunların təzyiqi ilə yueçjilər (kuşanlar) qərbə hərəkət edərək Fərqanəyə gəlmiş və e.ə.141-ci ildə Yunan-Baktriya dövlətinə son qoymuşdular. E.ə.128-ci ildə usunlara gedən Çin səfiri Çjan-Tsyan Baktriyada, Amudərya çayının şimal sahilində ondan əvvəl Yunan-Baktriya dövlətinə daxil olan ərazidə yueçjilərin (yə'ni kuşanların) başçısının düşərgəsinə rast gəlmişdir.

E.ə.141-ci ildə kuşanlar Yunan-Baktriya dövlətinə son qoydular. Yunan Baktriya dövlətinin dağılmasından yüz il sonra yaranmış bu dövlət I-III əsrlərdə yüksəliş dövrünü keçirmişdir.

Dövlətin yaranması Kudzula (yaxud Kudjula) Kadfiz adlı hökmdarın (?-51-ci illər) adı ilə bağlıdır. Kuşan tayfa ittifaqı tezliklə qüvvətli dövlətə çevrildi və işğalçılıq müharibələrinə başladı. Kadfiz qısa müddətdə Mərkəzi Asiyada Parfiya ərazisini zəbt etdi, indiki Əfqanıstanın Kabul şəhəri yerləşən əyalətini və Hindiquş dağlıq ərazisinin cənubunu tutaraq qüvvətli dövlət yaratdı. Bununla da Kadfiz Baktriyada kiçik bir hakimdən ərazicə nəhəng bir dövlətin başçısına çevrildi. Onun vaxtında dövlət Mərkəzi Asiyada Baktriyanı, Soqdu, Xarəzmi, Fərqanəni, indiki Əfqanıstanı və Şimali Hindistanı əhatə edirdi. Onun yerini oğlu Vima Kadfiz (II Kadfiz - 51-78-ci illər) tutmuşdur. Sonrakı Kuşan çarlarının adları və onların hakimiyyət illəri ardıcıllıqla mə'lum deyil, çünki onların içərisində bir neçə Kanişka, Xuvişka və Vasudev hökmdar adları vardır.

Vima Kadfiz ömrünün demək olar ki, çoxunu hərbi səfərlərdə keçirdi: Şərqi Türküstanın (yə'ni indi Çinin tərkibinə daxil olan Türküstanı) Kaşqar əyalətini, Mərkəzi Asiyada Kanq dövlətinin bir hissəsini (indiki Özbəkistanın Xarəzm əyalətini) və b. əyalətləri də işğal edərək, ərazini daha da



genişləndirmişdi. Deməli, bu dövlət Mərkəzi Asiyanın əksər hissəsini və Əfqanıstanın şimalını əhatə edirdi. Dövlətin paytaxtı Əfqanıstan ərazisində idi. İndi o şəhərin xarabalıqları Katta-Kurqan adı ilə mə'lumdur.

Hələ Qudculu Kadfizin hakimiyyəti illəri Kuşan dövlətinin yüksəliş illəri idi. Qudculu ölkədə suvarma əkinçiliyinin inkişafına xüsusi diqqət ayırır və bu məqsədlə kanallar çəkdirirdi. O, ticarətə də şərait yaradırdı.

Çar Kanişka (78-123-cü illər) vaxtında Kuşan dövləti artıq Mərkəzi Asiyada hegemon rola malik idi. Dövlətin ərazisi şimalda Xarəzmdən başlayaraq Hind çayının mənsəbinədək uzanırdı. Dövlətin mərkəzi Bəlx, yay iqamətgahı indiki Əfqanıstanın ərazisində Bekram şəhəri idi. Kuşan çarlığının qüvvətlənməsi və işğalçılıq müharibələri qonşu Çini çox narahat edirdi. Ona görə də Çin Kuşan çarı Kanişkaya qarşı müharibəyə hazırlaşırdı. Çar Kanişka da qüvvətli olduğuna arxayınlaşaraq Çinlə müharibə üçün bəhanə axtarırdı. O, Çinin Mərkəzi Asiya ilə həmsərhəd əyalətlərini işğal etmək istəyirdi. Ona görə Çinlə müharibəni tezləşdirmək üçün ora səfirlik göndərərək Çin çariçasının (bu vaxt Çini qadın hökmdar idarə edirdi) ona ərə getməsini tələb etdi. Bununla da Kanişka Çin taxtına da yiyələnmək istəyirdi. Lakin çariça Kanişkaya rədd cavabı göndərdi. Onda Kanişka 60 minlik qoşunun başında Şərqi Türküstandan Çinin ərazisinə hücum etdi. Lakin Çin ordusu ilə ilk böyük vuruşmada Kanişkanın ordusu məğlub oldu. Kanişka peşiman halda geri qayıtdı, Çin ordusu isə irəliləyərək Kanqı, Fərqanənin bir hissəsini və Şərqi Türküstanı işğal etdi. Kanişka yeni ordu yaratmaqda idi. Kanq əyalətinin və Fərqanənin əhalisi də kuşanların tərəfini saxlayırdılar, çünki Kuşan çarları onların təsərrüfat işlərinə yaxşı şərait yaratmışdılar. Az sonra kuşanların ordusu əks hücuma keçdi, Çin ordusunu işğal edilmiş ərazilərdən qovdu, sonra da hücuma keçərək Xotanı, Kaşqarı və b. əyalətləri geri qaytardı. Çar Kanişka Kuşan dövlətinin əvvəlki qüdrətini bərpa etdi.

Kanişka Roma imperiyası ilə əlaqə yaratmışdı. O, eranın 99-cu ilində Romaya səfirlik göndərmişdi. Roma şəhərində

imperator Trayanın şərəfinə düzəldilmiş sütunda Kuşan səfirlərinin təsvirləri də həkk olunmuşdu. Bununla Roma imperiyası Kuşan dövlətini böyük dövlət kimi tanıdığını nümayiş etdirirdi. Roma ilə Kuşan dövləti arasında ticarət əlaqələri vardı. Təsadüfi deyil ki, Kuşan dövlətinin dövrünə aid Mərkəzi Asiya şəhərlərində aparılmış arxeoloji qazıntılar zamanı Roma imperatoru Neronun (54-68-ci illər) pulları tapılmışdır. Tədqiqatlar göstərir ki, Kuşan çarlığı Parfiya və Çinlə vaxtaşırı müharibələr aparmış, lakin Roma imperiyası ilə dostluq münasibətlərində olmuşdur.

Kanişkanın varisləri Xubuşkanın və Kasişkanın hakimiyyəti illərində Kuşan dövlətinin Mərkəzi Asiya ilə əlaqəsi zəiflədi, bu çarlar Hindistanın bir sıra şimal əyalətlərini işğal etmiş, sonra da hakimiyyətin mərkəzini oraya köçürmüşdülər. Mərkəzi Asiyanı isə bu çarların tə'yin etdikləri canişinlər idarə edirdi. Canişinlər mərkəzi hakimiyyətə tabe olmayaraq müstəqilliyə can atırdılar. Ona görə də Mərkəzi Asiyada mərkəzi hakimiyyətin tə'siri tədriclə zəiflədi. Məsələn, çox keçmədən Xarəzm müstəqil oldu. Bu zəifləmə eranın III əsrin sonlarında Mərkəzi Asiyada, Aralətrafı ərazilərdə Xion (abdal, yaxud eftal, ağhun) tayfa ittifaqının yüksəlməsi ilə bir vaxta düşmüşdü.

Ağ hunlar (yə'ni xionlar, yaxud abdallar) əvvəlcə kuşanlarla mehriban qonşuluq münasibətləri saxlayırdılar. Digər tərəfdən, III əsrin əvvəllərində (224-cü ildə) İranda Sasani nəslindən olan sülalə hakimiyyətə gəlmişdi və ilk vaxtlardan Mərkəzi Asiyaya qarşı işğalçılıq müharibələrinə başlamışdı. Ona görə xionlar kuşanlarla ittifaqda birləşməli oldular. İran şahı II Şahpur bu ittifaqa qarşı müharibə aparmağın perspektivsizliyini başa düşərək, başqa siyasətə keçdi. O, kuşanlarla xionlar arasında çaxnaşma salmaq məqsədilə 357-ci ildə xionlarla sülh müqaviləsi bağladı. Bu müqaviləyə görə xionlar İranın Bizansla müharibələrində İranın müttəfiqi kimi çıxış edirdilər. Xion dövlətinin göndərdiyi qoşun 359-cu ildə fars ordusunun tərəfində Amid (indiki Türkiyədə Diyarbəkir şəhəri) ətrafında Bizans ordusuna qarşı vuruşmuşdu.



Kuşanlar Sasanilər dövlətinə qarşı mübarizədə kifayət qədər güclü deyildilər və ona görə bir müddət İranın asılılığında qalmalı oldular. Lakin tezliklə onlar qüvvələrini səfərbər edərək, Sasanilərin asılılığından azad oludular. Az sonra çar Kidarın başçılığı ilə xionlar Şimali Hindistana hərbi səfər təşkil etdilər. Kidar Şimali Hindistanın 5 əyalətini tutaraq oğlunu oraya hakim tə'yin etdi. Kuşanlar Xəzər dənizinin Şərq sahillərinə də yiyələndilər, bunu ondan görmək olar ki, bu ərazidəki hunlar mənbələrdə kidarlar adlandırılır.

IV əsrin 60-cı illərinin sonlarında II Şapur iki dəfə Kuşan çarlığına qarşı hərbi əməliyyat keçirsə də, hər dəfə məğlub oldu. Lakin IV əsrdə Kuşan dövləti Eftalit dövləti tərəfindən süquta yetirildi.

V əsrin ortalarında İranın şərqdə - Mərkəzi Asiyada işğalçılıq siyasətinin yeni mərhələsi başlandı. İran şahı II Yezdəgird (439-456) 442-ci ildə Mərkəzi Asiyada kuşanlara qarşı hərbi səfərə yola düşdü. Onun ordusunda Cənubi Qafqazda topladığı döyüşçülər də vardı. Lakin kuşanlarla müharibələr uzandı və yalnız 449-cu ildə o, Mərkəzi Asiyada kuşanlara məxsus bir sıra əyalətləri dağıtdı və qarət etdi.

Yezdəgird 450 və 454 cü illərdə Mərkəzi Asiyaya hərbi yürüşlərini təkrar etdi. Lakin bu dəfə onun yürüşləri bir nəticə vermədi. Kuşanlar Kaspinin şimal qərb sahillərində yaşayan və mənşəcə hunların bir tayfası olan Haylantürk adlanan tayfalarla ittifaqda Yezdegirdi Mərkəzi Asiyadan qovdular.

İranda hakimiyyətə gəlmiş yeni şah Firuz (456-484) fəaliyyətinə Mərkəzi Asiyanı işğal etmək siyasətilə başladı. Firuz çox hiyləgər hərəkət edirdi. Belə ki, o, əvvəlcə kuşanların və eftalilərin köməyi ilə şahlığa namizəd olan qardaşı Hörmüzü öldürərək hakimiyyəti ələ aldı, sonra da müttəfiqlərinə qarşı müharibəyə başladı və nəhayət e'tibarilə müharibələr onun üstünlüyü ilə bitdi. Onun apardığı işğalçılıq müharibələri nəticəsində Kuşan dövləti tarix səhnəsindən çəkildi. Bu dövlətin yerində 510-cu ildə güclü eftalilər dövləti yarandı.

İran tərəfindən taqətdən salınmış kuşanlara axırıncı zərbəni xionlar (yaxud abdallar, yə'ni ağ hunlar) vurdular.

Çin mənbələrinə görə xionlar Kuşan çarı Kidarı (ona görə bu çarın adı ilə kuşanlar bə'zi mənbələrdə "kidarlar" da adlanırlar) döyüşdə məğlub edib Hindistana qovdu.

***Kuşan dövlətinin ictimai və siyasi quruluşu.*** Kuşan dövləti müxtəlif xalqların yaşadığı ölkələrin silah gücünə işğalı nəticəsində yaradılmışdı. Ona görə dövlətin iqtisadi zəmini zəif idi. Lakin tədqiqatçılara görə kuşanların dövründə Mərkəzi Asiyada quldarlıq quruluşu geniş vüs'ət tapmışdı.

Mərkəzi Asiyanın Kuşan dövləti dövrünə görə mədəniyyətin inkişafı ilə səciyyələnir. Tarixşünaslıqda Kuşan padşahlığının dünya mədəniyyəti tarixində böyük rol oynadığı fikri vardır. Xüsusilə, suvarma əkinçiliyi inkişaf edir, yeni şəhərlər salınırdı. Kuşanların Mərhəmət, Şurabaşat, Dun-Bulak, Karasu və b. şəhərləri vardı.

Kuşanlar ticarətə geniş şərait yaratmışdılar. Tərməz, Səmərqənd və Xarəzm böyük ticarət mərkəzləri idi. Böyük İpək yolu vasitəsilə Çin və Roma ilə ticarət gedirdi. Çin, Hindistan və İranla ticarət nəticəsində dövlət böyük gəlir əldə edirdi. Mə'lum olduğu kimi, Mərkəzi Asiya və Ön Asiya ölkələrinin Çinlə əsrlər boyu davam edən ticarət münasibətləri e.ə.II əsrdə "Böyük İpək yolu"nun yaranmasına gətirib çıxarmışdı. Kuşan imperiyası vaxtında bu ticarət yolu ilə Çinlə ticarət geniş vüs'ət almışdı. Bu yol Çindən və Hindistandan Şərqi Türküstana keçmək şərtilə İran və Suriya ölkələri vasitəsilə Roma imperiyasına gedirdi. Şərqi Türküstandan ayrılan bir qol Xarəzm vasitəsilə Aral-Uralarası ərazidə alanların ölkəsinə, oradan Şərqi Avropaya gedirdi. Qərb ölkələrini Mərkəzi Asiya ilə birləşdirən karvan yolunu ilk dəfə II əsr müəllifi Klavdi Ptolomey təsvir etmişdir. Onun yazdığına görə bu yol Mesopotamiyadan Ekbatan şəhərinə Cənubi Azərbaycana və Mərv şəhərinə (indiki Türkmənistanda) gəlirdi.

Böyük İpək yolu vasitəsilə müxtəlif ölkələrə əsas e'tibarilə Çin ipəyi və Çini qab-qacağı aparılırdı. Çin mənbələri "İpək yolu"nu "Cənub yolu" adlandırırlar. Bundan əlavə "Şimal yolu" da vardı. Bu yol Kaşqar-Fərqanə, Xarəzm və Cənubi Urala gedirdi. Ticarət karvanı bir qayda olaraq bir



neçə yüz nəfərdən ibarət olurdu və karvanlar o baş-bu baş yolda bə'zən 8-9 il vaxt keçirirdilər. Hindistana bir karvan yolu Baktriyadan keçirdi. Hind malları Kabuldan keçib Amudərya sahili ölkələrə gedirdi və bu yol 7 gün davam edirdi.

Kiyevdə, Efiopiyada, Skandinaviyada, Kama və Ural boyunda kuşanlara məxsus pul və əşyalar tapılmışdır. Kanişkanın pulları üzərində Hind, İran və Ellin allah adları və təsvirlərinin olması onun həmin ölkələrlə əlaqələri göstərir. Kuşan dövlətinə daxil olmuş Mərkəzi Asiya xalqları o dövrdəki beynəlxalq əlaqələrin iştirakçıları oldular. Böyük ipək yolu Kuşan çarlığının ərazisindən keçirdi. Mərkəzi Asiyadan karvanlar Qərbi Hindistana və Misirə, Qara dənizin şimal çöllərinə gedirdi. Bunu arxeoloji qazıntılar nəticəsində adları çəkilən ölkələrə aid tapıntılar təsdiq edir.

Dövlətin paytaxtı indiki Əfqanıstanın şimalında Bəkram şəhəri idi (həmin şəhərin xarabalıqları indi Qızıltəpə adı ilə məşhurdur; arxeoloji qazıntılar nəticəsində orada Kuşan çarlarının 7 sərdabəsi aşkar edilmiş və onlardan 20 minə qədər qızıl, gümüş, şüşə əşyalar və bəzəklər tapılmışdır).

Kuşan dövləti müxtəlif xalqların yaşadıqları ölkələrin silah gücünə birləşdirilməsi nəticəsində yaranmışdı. Dövlətin iqtisadi özəyi zəif idi. Kuşan dövrü Mərkəzi Asiyada quldarlıq quruluşunun ən yüksək inkişaf dövrüdür. Bu quruluş isə yaranmaqda olan feodalizm münasibətlərinin qarşısında aciz idi.

Bununla belə, Kuşan dövləti Mərkəzi Asiyada təsərrüfat və mədəniyyətin inkişafına təkan vermişdi.

Kuşanlar müxtəlif dinlərə sitayiş edirdilər. Mərkəzi Asiya ölkələrində zərdüştlük və maniçilik cərəyanları geniş yayılmışdı. Lakin Kuşan dövlətinin Əfqanıstanda və Hindistandakı əyalətlərində buddizm dini üstün mövqeyə malik idi. Çar Kanişka eranın 100-cü ilində Budda dini tərəfdarlarının yığıncağını çağırmışdı. Kuşan çarlarının özləri buddizm dininə qulluq edirdilər. Arxeoloji qazıntılar göstərmişdir ki, Kuşan çarlığı vaxtında Hindistandan buddizm dini Mərkəzi Asiyaya yayılmışdır. Bunu Köhnə Tərməzdə (qədim Baktriyada) Qaratəpə adlı arxeoloji abidədə aşkar olunmuş buddizm

mə'bəd qalıqları da göstərir. Lakin buddizm dini geniş xalq kütlələri içərisində, xüsusilə türk tayfalarında geniş yayıla bilmədi. Qeyd etmək lazımdır ki, kuşanlar hind mədəniyyətinin Mərkəzi Asiyada yayılmasında böyük rol oynamışdılar.

S.P.Tolstovun və B.A.Andrianovun tədqiqatları göstərmişdir ki, kuşanların vaxtında Mərkəzi Asiyada geniş suvarma sistemi mövcud idi. Kuşan dövrünə aid çoxlu şəhər tipli yaşayış yerləri tapılmışdır. Bu şəhərlərdə metal və dulusçuluq sənətkar məhəllələri də müəyyən edilmişdir. Amudərya çayı sahilində və Köhnə Tərməz şəhərinin (bu şəhəri Çingiz xan dağıtmışdır) yerində Qaratəpə adlı yerdə eranın ilk əsrlərində Kuşan imperiyasına aid maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Arxeoloqlar tərəfindən orada buddizm mə'bədlərinin qalıqları müəyyən olunmuş, saxsı qablar üzərində hind mənşəli kxaroştxi və brahma əlifbası ilə yazılar tapılmışdır. Güman olunur ki, bu mə'bədlər çar Kanişkanın hakimiyyəti dövründə tikilmişdir. Bu göstərir ki, kuşanlar qədim hind mədəniyyəti və dinləri ilə bağlı idilər.

Kuşan çarları əvvəlcə yunan əlifbasından istifadə etmişlər. Lakin çar Kanişkanın vaxtında kuşanların öz yazısı vardı. “Kuşan əlifbası” adlanan bu əlifba yunan hərfləri əsasında düzəldilmişdi. Kuşanlardan az miqdarda olsa da yazılar qalmışdır, lakin kuşanlar irandilli hesab edildikləri halda, bu yazıları iran dilləri əsasında oxumaq təşəbbüsləri nəticəsiz qalmışdır.

Kuşan tayfaları müxtəlif tarixi hadisələrlə əlaqədar olaraq bir sıra ölkələrə səpələndilər. Azərbaycanda, özbəklərdə, başqırdlarda, qırğızlarda, türkmənlərdə və b. XIX əsrdə quşçu adlı tayfalar vardı.



## *II fəsil*

## *CƏNUB-ŞƏRQİ AVROPA e.ə. I - ERANIN I MİNİLLİYİNİN ƏVVƏLLƏRİNDƏ*

E.ə.I minilliyin əvvəllərində Avropada, o cümlədən onun cənub-şərqində Dəmir dövrünə keçid başlandı. Lakin e.ə.VII əsrin ortalarına qədər hələ tunc alətlər də işlənməkdə idi. Dəmir dövrünə keçid Avrasiyada maldar-əkinçi tayfaların köçəri və yarımköçəri həyat tərzinə keçməsilə bir vaxta təsadüf edir. Bu həyat tərzi üçün hələ e.ə.II minilliyin ikinci yarısında atdan minik vasitəsi kimi istifadə olunması şərait yaratmışdı. İlk dəfə qədim yunan şairi Homerdən (e.ə.IX əsr) başlayaraq antik mənbələr əsasında müəyyən edilmişdir ki, Cənub-Şərqi Avropanın e.ə.I minilliyin əvvəllərində (hər halda e.ə.IX-VIII əsrlərdə) Don və Dunayarası ərazinin əhalisi kimmerlər idi.

***Kimmerlər.*** İndiyədək bəhs edilən regionda hansı arxeoloji mədəniyyətin kimmerlərə aid olması müəyyən edilməmişdir. E.ə.VIII-VII əsrlərdə onları antik mənbələrdə adı yunanca skif (əsli skit, ona görə ki, qədim yunan dilində “f” səsi incə “t” səsi ilə də ifadə olunurdu) və latınca skut adlandırılan tayfalar əvəz etmişdir.

Bə'zi arxeoloqlara görə (M.İ.Artamonov, A.P.Smirnov və b.) Qara dənizin şimal sahillərində katakomba arxeoloji mədəniyyət abidələri kimmerlərə aiddir. Bu fikir onunla əsaslandırılır ki, katakomba qəbirlər orada e.ə.II minilliyin ikinci yarısından ortaya çıxmışdır.

Kimmerlərin bu əraziyə haradan gəlməsi məsələsində də aydınlıq yoxdur. Arxeoloq N.L.Çlenova kimmerlərə aid etdiyi daş heykəlləri mənşəcə Mərkəzi Asiyanın “maral daşları” ilə əlaqəli olması fikrini irəli sürmüşdür. A.İ.Terenoj-

kin bu fikrə tərəfdar çıxaraq yazmışdır ki, bu daş heykəllər Şərqi Avropada tunc dövrünün axırlarında meydana çıxmışdır və həm də Sibirdə Karasuq mədəniyyətinə məxsus xəncər və at yüyənləri əşyaları ilə oxşarlığa malikdir. Buna əsasən o, kimmerlərin Sibirdən və Mərkəzi Asiyadan çıxma olduqları fikrini söyləmişdir.

Kimmerlərin etnik mənsubiyyəti məsələsi mübahisəlidir. Əvvəlcə onu qeyd etmək lazımdır ki, qədim yunan mənbələrində "at südü içənlər" adlandırılan bu etnosun "kimmer" adı Azərbaycanlı tədqiqatçılara (Qiyasəddin Qeybullayev və Firudin Cəlilov) görə qamar (qamər) etnoniminin fonetik formasıdır. E.ə.VIII əsrdə kimmerlər Cənubi Qafqaza gəlmiş, oradan onların bir hissəsi Kiçik Asiyanın şərqinə köçmüşdü. Onların orada məskunlaşdığı ərazi akkad mənbələrində Qamerra, assur mənbələrində Qimirra (ehtimal ki, qədim yunanların "kimmer" forması da buradandır), V əsrə aid qədim erməni mənbələrində Qamirk kimidir. İndi də Türkiyənin şərqində bir əyalət Kəmərək adlanır. Bə'zi Azərbaycan tədqiqatçıları hesab edirlər ki, Azərbaycanda, Ermənistanda, Gürcüstanda və Şərqi Türkiyədə Qəmərli və Kəmərli kənd adları məhz kəmərlərlə bağlıdır və deməli, antik mənbələrdə "kimmer" kimi göstərilən etnonim əslində qamar (qəmər) olmuşdur. Buna uyğun olaraq bu müəlliflər tarixşünaslıqda kimmerlərin irandilli olması fikrini qəbul etmir, onların türkdilli olduqlarını söyləyirlər[9]. Bu fikir kimmerlərə aid arxeoloji maddi mədəniyyət əşyalarının Sibir və Mərkəzi Asiya mənşəli olması haqqında yuxarıda bə'zi Rus arxeoloqlarının fikirləri ilə səsləşir. Lakin bu problemə gələcək tədqiqatlar aydınlıq yarada bilər.

***Skiflər.*** E.ə.VII əsrdə Cənub-Şərqi Avropada kimmerləri skiflər (skitlər, yaxud skutlar) əvəz edirlər. Bu barədə ilk mə'lumatlar assur-babil mənbələrində və antik müəlliflərin əsərlərindədir. Aydın olur ki, e.ə.VII əsrin 70-ci illərində skiflər İşpakaym başçılığı ilə Ön Asiyaya hərbi yürüşlər



etmiş, Cənubi Azərbaycan ərazisində mövcud olmuş Maday dövlətinin və Manna ölkəsinin müttəfiqləri kimi təcavüzkar Assuriya dövlətinə qarşı müharibələrin iştirakçıları olmuşlar. Madaylarla ittifaqda e.ə.612-ci ildə skiflər Assuriyanın paytaxtı Ninevam alıb dağıtmış və bu dövləti birdəfəlik tarix səhnəsindən çıxarmışlar. Bu məsələ İ.M.Dyakonov, İ.H.Əliyev, B.B.Piotrovski, V.B.Vinoqradov və b. tədqiqatçılar tərəfindən araşdırıldığına görə üzərində dayanmırıq.

E.ə.VI əsrin sonlarında - e.ə.514, ya da 512-ci ildə İran Əhəmənilər dövlətinin şahı I Dara böyük ordu (Herodota görə 700 minlik, Ktesiyə görə 800 minlik) ilə Qara dənizin şimal çöllərinə skiflərin üzərinə müharibəyə getmişdir. Skiflər fars ordusu ilə çöldə vuruşmadan imtina edərək, partizan müharibəsi taktikasına keçmişlər. Çölün dərinliklərinə şirnikləndirilən fars ordusu çox çətinliklə oradan çıxıb geri dönmüşdür. O vaxtdan antik mənbələrdə skiflər məğlubedilməzlik şöhrəti ilə yad olunmuşlar. Fars ordusu ilə müharibə skiflərin birləşməsinə və dövlət qurumu yaratmasına səbəb olmuşdu. Odur ki, e.ə.V əsrdən sonra antik mənbələrdə bir sıra skif hökmdarlarının adları çəkilir: Eskul (antik mənbədə Skul), Ata (antik mənbədə Atey) və b.

*Skiflərin tarixi ilə bağlı iki problem indiyədək həll olunmamış vəziyyətdə qalmışdır:* skiflərin mənşəyi və etnik mənsubiyyəti.

Skif (skit) adı altında etnik mənsubiyyətcə kimmerlərin nəzərdə tutulması məsələsində fikirlər haçalanır. Skiflərin slavyanların ulu əcdadları olması baxışı kənara qoyulmuşdur. Tarixşünaslıqda skiflərin irandilli olmaları fikri hakimdir. İlk dəfə 1866-cı ildə alman tarixçisi K.Müllenhof tərəfindən irəli atılmış bu fikirlə sonra bir sıra Qərbi Avropa və Rus tarixçiləri də razılaşmışlar. Bu sahədə Osetin dilçisi V.İ.Abayev xüsusilə fərqlənərək, indiki irandilli osetinləri məhz skiflərin qalığı hesab etmişdir. Lakin skiflərə məxsus arxeoloji mədəniyyətlər və qazıntılar nəticəsində aşkarlanmış maddi mədə-

niyyət nümunələri, skiflərdə şəxs adları və s. bu baxışın doğru olmadığına dair bir sıra faktlar vermişdir.

Bə'zi Avropa tədqiqatçıları (K.Noyman, E.Minnz və b.) skifləri türk-monqol mənşəli sayırlar. Digər tərəfdən Rus arxeoloqu M.İ.Rostovtsev hələ keçən əsrdə yazmışdır ki, irandilli skiflər Asiyadan gəlmələrdir. Bu fikri Rus-Sovet arxeoloqu A.İ.Terenojkin qızğın müdafiə etmiş və yazmışdır ki, skiflər Mərkəzi Asiyadan gəlmişlər[10]. Başqa fikrə görə skiflər e.ə.II minilliyin ortalarında Volqaboyu-Uralətrafı ərazilərdən gəlmişlər. Bu fikir M.İ.Artanıonov və B.N.Qrakov tərəfindən irəli sürülmüşdür[11]. Hər iki halda skiflərin irandilli olması fikri təsdiqlənmir, ona görə ki, V.İ.Abayev xüsusilə qeyd etmişdir ki, irandilli osetinlərin ulu əcdadları sayılan skiflər şərqdən (Sibirdən ya Mərkəzi Asiyadan) gəlməmişlər, çünki osetin dilində çoxlu miqdarda qədim yunan, latın və b. Avropa dillərinə mənsub izoqqloslar[12] vardır.

Türkiyə və Azərbaycan tarixçiləri də skiflərin türkdilli olması nöqteyi-nəzərini müdafiə edirlər. Bunu onunla əsaslandırırlar ki, antik mənbələrdə "skif həyat tərzi" kimi göstərilən əlamətlər (köçəri maldarlıq, arabalarda qurulmuş konusvari, keçə ilə örtülmüş evlərdə yaşamaq, at südü və əti yemək, qəbirlərdə yiyəsi ilə birlikdə atının basdırılması, heyvan stilli əşyalar və s.) irandilli tayfalar üçün səciyyəvi deyil. Bundan əlavə, son araşdırmalar göstərmişdir ki, mənbələrdə çəkilən skif şəxs və yer adlarının (toponimlərin) çox hissəsi də qədim türkcədir. Digər tərəfdən, e.ə.I minilliyin əvvəllərindən Cənubi Sibirdə Karasuq və Taqar arxeoloji mədəniyyətlərinin incəsənət nümunələri (xüsusilə "skif heyvan stili") və ox ucluqları e.ə.VII əsrdən sonra eynilə Qara dənizin şimal çöllərində yaşamış skiflərə aid arxeoloji abidələrdə də aşkar olunmuşdur. Aydındır ki, Cənubi Sibirdə və Altayda irandilli tayfalar yaşamamışlar. Skiflərin türk mənşəli olmalarına dair bə'zi faktları göstərək. Herodot: skif-aqrippilər yastı burun və enli buxaqlıdırlar (Herodot, IV,23); İsidor: skiflərdə elə adamlar var ki, burunları yoxdur, gözlərindən və ağızlarından başqa üzləri hamardır (İsidor. Etimologiya. IX, II, 65); (Bu mə'lumat skiflərin, monqoloid yaxud onlarda bir tayfanın irqinə mənsubiyyətini bildirir). Herodot: skiflərdə bir tayfa yirk adlanır (Herodot, IV, 22). P.İ.Şafarik, E.Eyxvald və A.Herman yirk etnonimini tirk (türk) etnoniminin sonralar Herodotun əsərinin üzünü köçürmüş katiblərin səhvi hesab edirlər; Herodot: skiflərdə bir tayfa arimaspi adlanır (Herodot, IV, 13). Bu etnonim türk dillərində yarım və sepi "qıyılmış göz" sözlərindən ibarət olmaqla türklərdə qıyıqgöz adamlara aiddir; Herodota görə skiflərdə bir tayfa issedon adlanır (Herodot, IV, 13). Bu etnonim türk dillərində isi (isti) və don (paltarın xəzli astarı) sözlərindən ibarətdir (Azərbaycanda XIX əsrdə Qaradonlu tayfa adını xatırlayın); Hippokrat: skiflərdə at südündən alınan yağ vutir adlanır (Hippokrat, xəstəliklər haqqında, 4, 20); Bu söz türk dillərində uva "yemək" və turi "süd" (at südü) sözlərindən ibarətdir; Herodot yazır ki, skiflər əti heyvanın qursağına doldurub bişirirlər (Herodot, IV, 61). Bu adət bə'zi türk xalqlarında indi də vardır və s. (Bu mə'lumatlar barədə bax: Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən, s.135-140). Beləliklə, tarixşünaslıqda skiflərin qədim türkdilli sayılması fikrinin doğru olduğunu demək üçün təkzibolunmaz faktlar vardır. Aşağıdakı faktlar da bunu təsdiqləyir. 1.E.ə.VI əsr və sonrakı əsrlərə aid edilən kurqanlar. 1980-ci ilə qədər 302 skif kurqanı açılmışdır. Mə'lum olduğu kimi tayfa başçılarının və hökmdarların qəbirləri üzərində kurqanlar düzəldilməsi ümumiyyətlə qədim türk tayfaları üçün səciyyəvidir; 2."Skif heyvan stili". E.ə.VII əsrdə skiflərin yaşadıqları ərazidə vəhşi heyvanın (pələngin, leopardın) maralı (dağ keçisini) qamarlaması səhnəsini əks etdirən incəsənət nümunələri yaranır. Arxeoloji ədəbiyyatda göstərilir ki, bu kompozisiya bütün Avrasiya üçün səciyyəvidir. Ona görə də, bu stil həm də "Skif-Sibir stili" adlanır. Maraqlıdır ki, "Skif heyvan stili" arxeoloji qazıntılar nəticəsində Mərkəzi Asiyada, Qazaxıstanda və Altayda da e.ə.I minilliyin əvvəllərindən mə'-

lumdur. Tədqiqatçılar aydın yazırlar ki, bu stil irandilli xalqların incəsənətinə məxsus deyil; 3.Cənub-Şərqi Avropada skiflərin yaşadığı əsrlərə aid daş heykəllər. Bu heykəllər adətən kurqanların təpələrinə qoyulmuşdur. İndiyədək Qara dənizin şimal çöllərində 100 daş heykəl aşkarlanmışdır. Tədqiqat göstərmişdir ki, bu heykəllər Mərkəzi Asiyada "Maral daşları" adı ilə mə'lum daş sütunlarla mənşə birliyinə malikdir; 4.Arxeoloji qaynaqlar nəticəsində skif kişilərinin keçədən düzəldildiyinə görə başda dik dayanan konusvari papaqlar qoyulduğu aşkar olunmuşdur. Maraqlısı budur ki, e.ə.521-ci ilə aid Bisutun qaya yazısında Mərkəzi Asiya saklarının şiş papaq qoyduqları qeyd olunmuşdur. Bütün bunlar skiflərin İran mənşəli olması baxışının doğru olmadığına dəlalət edir.

Skiflərdə çoxallahlılıq vardı. E.ə.V əsr yunan tarixçisi Herodot skiflərin Allahları haqqında ətraflı mə'lumat vermişdir. Onun yazdığına görə skiflərdə Tabiti, Papay və Api adlı üç ali allah vardır. Tabiti Od allahı, Papay Göy allahı idi. Api isə Papayın arvadı sayılırdı. Api məhsuldarlıq ilahəsi idi.

Skiflərin ictimai quruluşunun xarakteri məsələsi mübahisəlidir. Skiflər köçəri maldarlar idilər. Bə'zi tədqiqatçılara görə onlar e.ə.VII-VI əsrlərdə hərbi demokratiya şəraitində yaşayırdılar. E.ə.VI-V əsrlərə aid skif qəbirlərinə əsasən tədqiqatçılar skiflərdə əmlak bərabərsizliyinin mövcud olduğu nəticəsinə gəlmişlər. Bunu e.ə.V əsrə aid antik mənbələrdə minik atları və hətta evləri olmayan skif ailələrinin qeyd olunması da göstərir. Ona görə də, belə fikir irəli sürülmüşdür ki, skiflər üç təbəqədən ibarət idilər: hərbi aristokratiya, kahinlər və sıravi maldarlar - əkinçilər.

Skiflərdə çar hakimiyyəti nəsli idi. Lakin Herodotun yazdığına görə hökmdar xalq yığıncağının qərarı ilə hərəkət edirdi.

E.ə.III əsrin axırlarından eramızın III-IV əsrlərinə qədər olan dövr skiflərin Cənub-Şərqi Avropada yaşadıqları ərazilərin kiçildilməsi ilə səciyyələnir. Bu əsrlərdə onlar əsas e'tibarilə Krımda və Dnepr çayının aşağı axarı hövzələrində



yaşayırdılar. I əsr Yunan müəllifi Strabona görə skiflərin hökmdarı Skilurun (e.ə.II əsr) və onun oğlu Pallakm paytaxtı Krımda yerləşirdi. Palakiy, Xab (başqa mənbədə Xaben-Xab) və Neapol qalaları skif hökmdarlarına məxsus idi. Eranın III əsrinin ortalarında alman tayfaları olan qotlar Skif dövlətinə son qoydular. Hunların Cənub-Şərqi Avropaya gəlişindən sonra mənbələrdə skiflərin adı çəkilmir.

***Savromatlar (sarmatlar).*** Tədqiqatçılara görə e.ə.IX əsrin sonu və ya VIII əsrin əvvəllərindən başlayaraq e.ə.VII əsrin sonlarına qədər Volqa-Don çaylararası ərazidə antik mənbələrdə adı savromat (sonrakı mənbələrdə sarmat) kimi qeyd olunmuş tayfalar yaşayırdı. Onlar skiflərin şərqdə qonşuları idi və skiflər kimi maldar həyat keçirirdilər.

"Savromat" adını ilk dəfə Herodot (e.ə.Vəsr) çəkmişdir. O, yazmışdır ki, Tanais çayından şərqdə (Tanais Don çayı ilə lokalizə olunur) savromatlar yaşayırlar. Onun qeyd etdiyi rəvayətə görə savromatlar skif oğlanlarının nigahlarından törənmişlər (qadınları ərlərini öldürdüklərinə görə).Əlbəttə, bu ancaq rəvayətdir. Herodotun özü yazmışdır ki, mən mə'lumatçıların dediklərini yazıram və ona görə onlara inanmağa borclu deyiləm. Tədqiqatçılar Herodotun savromatlar barədə yazdıqlarından belə nəticəyə gəlmişlər ki, söhbət onlarda qadınların cəmiyyətdə xüsusi mövqeyindən gedir, onlar kişilərlə yanaşı ata minir və döyüşürdülər. Herodot xüsusi qeyd edir ki, savromat qız bir düşmən öldürməmiş ərə getmir.

E.ə.V əsrdə savromatlarla skiflərin qonşuluq münasibətləri pozulur və e.ə.IV əsrdən e'tibarən savromatlar Azov dənizi sahillərində yaşamağa başlayırlar. Tədqiqatçılara görə savromatların qərbə hərəkəti Cənubi Uraldan yeni köçəri tayfaların onların ərazilərinə gəlməsi ilə əlaqədar olmuşdur.

Savromatların qərbə hərəkəti nəticəsində Cənub-Şərqi Avropada və xüsusilə Şimali Qafqaz çöllərində etnik situasiya dəyişməyə başladı. E.ə.IV-II əsrlərdə həmin savromatlar antik mənbələrdə sirmat və sarmat adlanırlar. Bu əsrlərə aid an-

tik mənbələrdə sarmatların Meoti (Azov) dənizinin şimal sahillərində Dondan qərbdə yaşamaları qeyd olunur. Az sonra sarmatlar skifləri qərbə sıxışdırırlar və yuxarıda dediyimiz kimi, skiflər Krıma çəkilirlər. II əsr müəllifi Klavdi Ptolomey sarmatlarda yazıq, roksolan, sirak, aors və b. tayfaların adlarını çəkmişdir.

Eranın I əsrinin ortalarında şərqdən (Aral-Uralətrafı ərazidən) əvvəlcə Don sahillərinə, sonra da Qara dənizin şimal çöllərinə alan tayfaları gəldilər və onlar sarmatların hakimiyyətinə son qoydular. Çin mənbəyi qeyd edir ki, Yantsay mülkü indi Alan adlanır. Bir neçə əsr müddətinə (I-IV əsrlərdə) alanlar Cənub-Şərqi Avropada ağalıq etdilər. Onların bu ağalığına şərqdən gəlmiş hunlar son qoydular.

Arxeoloqlar sarmatlarda da adlı-sanlı şəxslərin kurqanlarda dəfn edildiklərini müəyyən etmişlər. Sovet hakimiyyəti illərində sarmatların yaşadıqları ərazilərdə geniş miqyasda arxeoloji qazıntılar aparılmışdır (K.F.Smirnov, V.P.Şilov, Q.A.Fyodorov-Davıdov, B.N.Qrakov və b.). Müəyyən edilmişdir ki, Volqa ilə Don arasındakı böyük ərazi e.ə.VIII-V əsrlər arasında eyni arxeoloji mədəniyyətə malikdir.

Savromat-sarmatların qədim tarixi üzrə görkəmli mütəxəssis, arxeoloq K.F.Smirnova görə bu tayfaların Volqa-Don arası və Samara-Uralarası ərazilərdə iki lokal mədəniyyəti vardır. Onun fikrincə savromatlar mənşəcə Sibirin Andronovo arxeoloji mədəniyyətinin yaradıcılarıdır. Antropoloji tədqiqatlar isə savromatların 10%-ində monqoloid irqinin nişanələrini aşkarlamışdır. Savromatlarda əhalinin 80%-ində başın sün'i surətdə deformasiya edilməsi adəti üzə çıxarılmışdır. Arxeoloji qazıntılar nəticəsində savromatlarda da "skif heyvan stili" kompozisiyası aşkarlanmışdır. Cənubi Uralda qazıntılar zamanı tapılmış əşyaların, xüsusilə xəncərlərin saplarında bu stil daha çoxdur. Rusiyanın Orenburq vilayətində Proxorovka kəndində aşkarlanmış və bu kəndin adı ilə adlanmış ***Proxorovka arxeoloji mədəniyyəti*** (e.ə.IV-II əsrlər)



sarmatlara aid edilir. Bütün bu və digər faktlar savromat-sarmatların irandilli sayılması fikrinin də həqiqətə uyğun olmadığını göstərir.

Sarmatların təsərrüfat həyatı skiflərdə və ümumiyyətlə qədim türk tayfalarında olduğu kimi əsas e'tibarilə maldarlıq idi. Uralətrafı ərazidə arxeoloji qazmtılar vaxtı aşkarlanmış əşyalar göstərmişdir ki, savromatlarda qoyunçuluq və atçılıq daha da inkişaf etmişdi. Onlar keçədən düzəldilmiş alaçıqlarda yaşayırdılar.

Savromatlarda ölüləri yandırıb dəfn edirdilər. Onlarda oda sitayiş mühüm yer tuturdu. Arxeoloq K.F.Smirnov hətta onlarda od mə'bədlərinin olduğunu yazmışdır.

Savromatlarda "skif heyvan stili" Tuvada və Baykalarası ərazidə yayılmış "skif heyvan stili"nə daha yaxındır. Lakin maraqlıdır ki, e.ə.IV əsrdən sonra bu stil tədricən ortadan çıxır. Sarmatlarda bu stil mənşəcə savromatların stilinə aid olsa da müəyyən dəyişikliklərə mə'ruz qalmışdır.

Sarmatların etnik mənsubiyyəti elmdə mübahisəlidir. Bə'zi tədqiqatçılar (N.Nadejdin, K.Noyman, E.Zabelin və b.) onları slavyanmənşəli hesab edirdilər. Sonra isə sarmatların irandilli olması fikri ortaya çıxdı (K.Müllenhof, F.Şpigel, V.Miller, M.Fasmer, Y.Harmatta, V.İ.Abayev, K.F.Smirnov və b.). Q.Ə.Qeybullayev sarmatların türkdilli olması haqqında faktlar gətirmişdir.

Antropoloji ədəbiyyatda göstərilir ki, sarmatların tərkibində Qərbi Sibirin və Qazaxıstanın Dəmir dövrünün tayfaları vardı və içərilərində monqoloid irqinin olması və Altayla antropoloji cəhətdən yaxınlıq göstərir ki, sarmatların formalaşmasında Uzaq Şərq əyalətlərinin tayfaları iştirak edirdi[13]. Herodot yazmışdır ki, savromatlar skiflərlə birlikdə Şərqdən gəlmədirlər (Herodot. IV, 117). Buradan belə nəticə alınır ki, Şərqi Sibirdən çıxma sarmatlar irandillilər ola bilməzdi.

Sarmatların türkdilli olduqlarını göstərən onemastik faktlar da vardır.

II əsr müəllifi Polien yazır ki, sarmatlarda həkmdarın adı Medosakdır (Polien. Hərbi fəndlər. VIII, 56). Bu şəxs adı qədim türk dillərində mat "mətin", "möhkəm" və sak "sayıq", "huşyar", "ayıq" sözlərindən ibarətdir.

Antik müəllif Tatsit sarmatların sirak tayfasının Zorsin adlı başçısının adını qeyd etmişdir (Tatsit. Annallar. XII, 15). Latın dilində "ç" səsi olmadığına görə bu şəxs adı əslində "Çursin" kimi bərpa olunur ki, bu da qədim türk dillərində çur "pəhləvan", "güclü" və "kimi", "sanki özüdür" mə'nasında sin (çin) sözlərindən ibarətdir.

Strabon siraklarda hökmdarın adının Abeak adlandığını yazmışdır. Bu şəxs adı VIII əsrdə Altayda telenqut tayfasının başçısı Abak, XIII əsrdə Çingiz xanın nəvəsi Abaqa, XVII əsrdə Qərbi Sibirdə teleutların xanı Abak şəxs adları ilə sıra təşkil edir.

Antik müəllif Tatsit Şimali Qafqazda sirakların Uspu şəhərinin adını çəkir (Tatsit. Annallar. XII, 16). Latın dilində "ç" səsi olmadığma görə bu şəhərin adı "Uçlu" kimi bərpa olunur ki, bu da türk dillərində uç (üç) və upa, upu "oba", "qəbilə" sözlərindən ibarətdir. Deməli, Uspu şəhər adı "Üç-oba" adının latınca yazılışıdır.

Antik müəlliflərdən Plininin və Pomponi Melanın sarmatlarda turk tayfasının olması haqqında mə'lumatları da nəzərə alınmalıdır. Qeyd edilməlidir ki, özbəklərdə və qaraqalpaqlarda sirak, türkmənlərdə çirak adlı tayfalar Azərbaycanda Çiraqlı adlı kəndlər vardır[14].

Yuxarıda deyilənlərdən aydın olur ki, e.ə.I minillikdə Cənub-Şərqi Avropada müxtəlif qədim türkmənşəli etnoslar yaşayırdı. Bu etnoslar erkən orta əsrlərdə göstərilən regionda türkmənşəli dövlət qurumlarına daxil oldular.

---

[1] *Bu abidələr barədə geniş mə'lumat üçün bax: Литвинский Б.А. Древние кочевники "крыши мира". М., 1972*

[2] *Bu stil e.ə.I minilliyin ortalarında Qara dənizin şimal çöllərində skiflərin abidələrindən də tapılıb.*



---

[3] *Bax: Бернштам А.Н. Очерк истории гуннов. Л., 1951, с.89.*

[4] *Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Баку 1991; yenə onun: Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1995; Yenə onun. Azərbaycanlıların qədim etnik tarixinə dair. Bakı, 1995; Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998.*

[5] *Tomirisin Şimali Azərbaycan ərazisində massagetlərin hökmdarı olması fikri Herodotun mə'lumatında Kirin Arazı keçərək massagetlərin üzərinə getməsi faktına əsaslanır. Nəzərə alınmır ki, Herodotun həmin mə'lumatında təsvir etdiyi Araz (o, yazır ki, Araz Xəzərə çoxlu şaxələrlə tökülür, halbuki Azərbaycanda Araz Kürlə birləşir) Sırdərya çayının başqa adıdır. Həqiqətdə də Sırdəryanın böyük qollarından biri də Arıs adlanır.*

[6] *Ərməniyədə hakimiyyətdə olan Arşaklar sülaləsindən hökmdar Mitridatın eranın I əsrinin ortalarında Aranı (Ərəni) Albaniyaya hökmdar tə'yin etməsi haqqında Alban tarixçisi Musa Kalankatlının mə'lumatı da bununla əlaqədardır - red.Q.Q.*

[7] *Buradan aydın olur ki, qıpçaqlar Cənub-Şərqi Avropaya və oradan Cənubi Qafqaza əvvəlcə hunların tərkibində gəlmişdilər. Bunu məsələn, qıpçaqların rus salnamələrində XI-XII əsrlərdə qeyd olunmuş Tərtər tayfası adının Musa Kalankatlının "Alban tarixi"ndə VII əsrə aid hadisələrlə əlaqədə çəkilən Tərtərçayın adında əks olunması aydın göstərir - Red.Q.Q.*

[8] *Türk xalqlarının tarixində Mete görkəmli sərkərdədir. Çin mənbələrinə görə o, hər dəfə sərrast ox atmayanların, hətta onun gözəl arvadına və çox sevdiyi atına ox atmağa cəsarət etməyənlərin başlarını kəsdirmişdi. Mete ilə bağlı olan və bu günlə səsləşən bir əhvalat vardır. Dunxu (indiki tunqusların ulu əcdadları) adlı bir tayfa onlarla hunlar arasında bir qumlaq zolağı (indiki Monqolustandan cənub qərbdə Kalqana qədər uzanan ərazini) mal saxlamaq məqsədilə xahiş etmişdi. Mete bu məsələni əyanlarla müzakirə etdikdə onlar demişdilər ki, yararsız torpaqdır, vermək olar. Mete onların üstünə qışqıraraq "Torpaq dövlətin əsasıdır, onu necə yad xalqa vermək olar?" - demiş və həmin əyanların başlarını kəsdirmişdi.*

[9] *Bu barədə bax: Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1995.*

[10] *Тереножкин А.И. Киммерийцы. Киев, 1976, с.183.*

[11] Артамонов М.И. К вопросу о происхождения скифов // Вестник древней истории, 1950, № 2; Граков Б.Н. Скифы. М., 1971.

[12] Bir dildə başqa dillərə mənsub sözlər izoqqlos adlanır.

[13] Bu abidələr barədə geniş mə'lumat üçün bax: Литвинский Б.А. Древние кочевники "крыши мира". М., 1972

[14] Бах: Тот Т., Фирштейн А. Антропологические данные к вопросу о Великом переселении народов. Авары и сарматы. Л., 1970, с.71.



# III HİSSƏ

# ERKƏN ORTA ƏSRLƏR TÜRKÜSTAN ERKƏN ORTA ƏSRLƏRDƏ

## I fəsil

## Eftalilər dövləti

III əsrin axırlarından başlayaraq Kuşan padşahlığı tənəzzülə uğradı və IV əsrin ortalarında Sasanilər dövlətinə qarşı mübarizə zamanı Şərqi İran, Əfqanıstan və Şimali Hindistanda maldar tayfaların yeni dövləti yarandı. Bu dövlət tarixdə Eftalilər çarlığı adlanır.

Qeyd edilməlidir ki, bu dövlətin əsasını qoymuş etnos mənbələrdə "xion", həm də "eftal" adlanır. Bə'zi tədqiqatçılar "xion" (əslində "xun" etnoniminin tələffüz formasıdır) və "eftal" (mənbələrdə heptal və abdal adları ilə də mə'lumdur) adlarını daşıyanları müxtəlif etnoslar sayırdılar. Son tədqiqatlar göstərmişdir ki, "xion" bu dövlətin əsasını qoymuş tayfa birləşməsinin, "Eftal" kimi yazılan ad isə bu birləşmənin başçısının adıdır. Fransız arxeoloqu R.Qirşman həmin dövlətə məxsus pul üzərində "Xion çarı Eftal" sözünü oxuduğuna görə, bu tayfa birləşməsinin xion adlandığını söyləmiş və sonrakı tədqiqatçılar da bu nöqteyi-nəzərlə razılaşmışlar. Lakin, yuxarıda dediyimiz kimi, çar Eftalın adı ilə bu etnos "eftal," "heptal", "abdal" da adlanmışdır (Türkiyənin orta əsrlərdə sultan Osmanın adı ilə bə'zən "Osmanlı" adlanmasını xatırlayın). İndi müəyyən edilmişdir ki, Eftalın adını almış bu tayfa orta əsrlərdə məhz "abdal" adı ilə məşhur olmuş, özbəklərin, türkmənlərin və azərbaycanlıların etnogenezində abdallı adı ilə iştirak etmişdir.

Yazılı mənbələrdə ilk dəfə olaraq "xion" etnonimi IV əsrdə qeyd olunur. Ammian Marsellin yazır ki, 356-cı ildə xionların çarı Qrumbat öz oğlu ilə İran Sasanilər dövlətinin şahı II Şapurun (309-379) düşərgəsində müttəfiq kimi iştirak edirdi.

VI əsr Bizans tarixçisi Feofan yazır ki, eftalilər öz adını çar Eftalın adından almışlar. Buna Çin mənbələri də işarə edir. Əslində "eftal" sözünün oxunuşu da şərtidir. Bə'zi tədqiqatçılara görə bu xaqanın əsil adı Abdal idi və ona məxsus el də onun adı ilə abdal adlanmışdır. V əsr Bizans müəllifi Feofilakt Simokatta bu etnosun adını məhz abdel (abdal) kimi yazmışdır. Həqiqətdə də yuxarıda deyildiyi kimi, Mərkəzi Asiya türk xalqlarının (o sıradan Azərbaycan xalqının) etnogenezində abdal adlı türk tayfasının iştirak etməsi aydınlaşdırılmışdır. Qədim mənbələrdə bu etnonim heptal, heftal və haytal kimi qeyd olunsa da tədqiqatçılar belə hesab edirlər ki, "h" səsi bu adın əvvəlinə artırmadır və deməli, indi bu tayfanın adı abdal kimi qaldığına görə elə qədimdə də abdal adlanmışdır.

Xionlar (yaxud abdallar) haradan gəlmişlər? - bu sual indiyədək aydın deyil. Bir fikrə görə onlar Aral dənizinin sahillərində yaşayırdılar və mənşəcə ağ hunlara mənsubdurlar. Bizans müəllifləri Ammian Marsellin (IV əsr) və Prokopi (VI əsr) eftaliləri "Hun-eftalilər" kimi yazırlar, lakin qeyd edirlər ki, onlar hunlardan (burada Şərqi Avropada yaşayan hunlar nəzərdə tutulur) ayrıdırlar, onlarla yaşamırlar, başqa hunlar kimi köçəri deyillər, onlar öz aralarında çox insaflı və ədalətlidirlər. Deyilənlərdən aydın olur ki, eftalilər bəlkə də qədimdə Mərkəzi Asiyada hunların tərkibində olmuş, sonra onlardan ayrılmışlar. Ona görə eftalilər tarixi tədqiqatlarda ağ hunlar adlanırlar. Buradan aydın olur ki, "xion" sözü xon (xun) etnoniminin fonetik şəklindən başqa bir şey deyildir və ona görə bə'zi iranşünasların xion-eftalları iranmənşəli etnos saymaları qəti surətdə doğru deyildir. Bunu Çin mənbələrində eftalilərin kuşanlarla qohum etnos olması haqqındakı mə'lumatlar da təsdiqləyir. Həmin mənbələrdə olan belə bir fakt da maraqlıdır ki, eftallar Böyük Çin səddindən şimalda yerləşən ölkədən - yə'ni Altaydan gəlmişlər. Altay isə qədim türk xalqlarının beşiyidir və oradan iranmənşəli etnos çıxa bilməzdi. Bütün bunlar türklərin tarixdə rolunu hər vasitə ilə heçə endirməyə çalışan bə'zi Qərbi Avropa və Rus tarixçilərinin saxta fikirləridir.



Yuxarıda dedik ki, VI əsr Bizans səlnaməçisi Prokopi "hun-eftalilər" ifadəsini işlədir və göstərir ki, eftallar mənşəcə hunlardır. S.P.Tolstovun fikrincə eftallar Aralətrafı iranmənşəli sak-massaqetlərdən olmuş, sonra da türk dilini qəbul etmiş etnos idi. Bu fikir də ağlabatan deyildir. Çünki sak-massaqet adlanan etnosların özləri yuxarıda dediyimiz kimi, türkmənşəli idilər. Mərkəzi Asiyadan Mərkəzi Asiyaya V əsrin əvvəllərində başlanmış etnik axının tərkib hissəsi olmaqla eftalilər (abdallar) yalnız türkmənşəli ola bilərdilər. Çin mənbələrinə görə abdallar (Çin mənbələrində "eda"lar) əvvəlcə Altayın cənubunda yaşamışlar. Onların Mərkəzi Asiyaya gəlməsi kütləvi köç idi. Bu mənbələrdə abdallar yueçjilər (yə'ni kuşanlardan), başqa versiyaya görə uyğurlardan törəmədirlər. Onların ana vətəni Altay olmuş, sonra onlar Mərkəzi Asiyaya keçmişlər. Çin mənbələrində onların 100 min alaçıqdan ibarət olması göstərilir. Qeyd olunur ki, onlar döyüşdə çox cəsurdurlar və at çapa-çapa ox atmaqda mahirdirlər.

Eftalilərin tarixindən danışarkən və onların hun mənşəli qədim türklər olduğunu söyləyərkən bir maraqlı məsələ də nəzərdən keçirilməlidir. Bu, eftal hökmdarlarına mənsub pulların üzərindəki şəkillərdir. İş orasındadır ki, eftal çarlarının başlarının hamısı uzunsov formalıdır və tədqiqatçılara görə bu, uşaqlıqda sün'i surətdə qəlibə salmaqla başın deformasiya edilməsi nəticəsidir. Pullardan aydın görünür ki, bu çarların çox yekə və uzun qulaqları da vardır ki, bu da görünür, deformasiya nəticəsidir. Niyə hunların bu hissəsi uşaqların başlarını sün'i yolla uzunsov formaya salırdılar? səbəbi mə'lum deyil. Diqqəti cəlb edən cəhət budur ki, pullarda bə'zi Kuşan çarlarının (Kadfiz, Vasudev və b.) da başları uzunsov formalıdır. Əsas e'tibarilə metal pullar üzərində təsvirlərə görə eftalilərin aşağıdakı çarlarının adları müəyyən edilmişdir: Yavunlax, Toraman, Yayatu, Mixirakul və b. Onların hamısının başları uzunsov formalıdır. Tədqiqatçılara görə başın kəllə sümüyünün sün'i surətdə deformasiya edilməsi hunlara məxsus qədim adətdir. Aşağı Volqaboyunda və Kubanda deformasiya edilmiş kişi kəllə sümükləri e.ə.II minilliyə aid

mədəni təbəqədən tapılmışdır və antropoloq E.V. Jirova görə bu adət hunlara məxsus olmaqla qərbə şərqdən gətirilmişdir (qeyd edilməlidir ki, deformasiya edilmiş kişi kəllə sümükləri arxeoloji qazıntılar zamanı Azərbaycanda Mingəçevirdə də tapılıb). Belə kəllə skeletləri e.ə.V-IV əsrlərdən başlayaraq Mərvdə, Fərqanədə və Buxarada da aşkarlanmışdır. Tədqiqat göstərmişdir ki, bu adət Cənubi Volqaboyu və Qərbi Qazaxıstanda yaşamış savromatlarda da vardı və Mərkəzi Asiyada e.ə.I minilliyin II yarısında mə'lum olan bu adət tədqiqatçılara görə mənşəcə sarmatlarla və hunlarla bağlıdır. Arxeoloji qazıntılar göstərir ki, V əsrdə Mərkəzi Asiyanın həyatında mədəni inkişafın arası kəsilmir. Lakin qəbirlərdən tapılmış insan kəllələrinin antropoloji tədqiqi göstərmişdir ki, həmin əsrdə orada monqoloid irqinə mənsub əhali də yaşayırdı. Bütün bunlar sarmatların, kuşanların və xionların irandilli olmadıqlarını göstərən faktlardandır.

Mənbələrdən aydın olur ki, xionlar xarici düşmənlərə qarşı əvvəlcə kuşanlarla birgə hərəkət edirdilər, çünki İran həmin vaxt Mərkəzi Asiyanı işğal etməyə can atırdı. 357-ci ildə İran şahı II Şapur xionlarla danışıqlara girdi. Bununla da o, xionlarla kuşanların arasını vurmağa sə'y edirdi. II Şapur xionların başçısına birgə Bizans dövlətinə qarşı hərbi səfər təşkil etməyi təklif etmişdi. Xionlar bu təklifə razı oldular, ona görə ki, xionlar maldar idilər, hərbi səfərlər və qarət onların yaşayış vasitələri əldə etməyin əsas yolu idi. 359-cu ildə farslarla xionların Bizansa qarşı hərbi səfəri başlandı, lakin Bizansın Amid (Türkiyədə indiki Diyarbəkr) şəhərinin mühasirəsi vaxtı xion çarının oğlu öldürüldü və hərbi səfər bir nəticə vermədi.

Xionlar farsların tərəfinə keçdiklərinə görə Mərkəzi Asiyada kuşanlar İranla təkbətək mübarizə aparmalı oldular. Onlar IV əsrin ortalarında güclü ordu ilə İranın şərq əyalətlərinə hərbi səfər təşkil etdilər.

Kuşanların birdən-birə qüvvətlənməsi göstərir ki, onlar görünür, xionlardan hərbi kömək alırdılar. Həmin vaxt eftalilər da Mərkəzi Asiyanın Hindistanla həmsərhədd bölgələrinə qarət məqsədli hərbi səfərlər təşkil edirdilər. Lakin xionlar



hələ sabit dövlət qurumuna malik deyildilər və ona görə də Mərkəzi Asiyanın əhalisi əkinçiliklə məşğul olan əyalətlərinə yiyələnə bilmirdilər. Lakin tezliklə, V əsrin əvvəllərində xionlar (yaxud eftalilər) Kanq və Fərqanə əyalətlərini yaxaladılar.

Çin mənbələrində eftalilər alaçıqlarda yaşayanlar, heyvan sürüləri ilə həmişə otlaqlar üçün ərazilər axtaranlar kimi səciyyələndirilir və onların sayca 100 mindən ibarət olması göstərilir. Lakin bilmək olmur ki, bu rəqəmdə çadırların sayı, yoxsa adamların miqdarı nəzərdə tutulur. Bu mənbələrdə deyilir ki, eftalilər yaxşı oxatan, cəsarətli və düşmənə qarşı çox amansızdırlar.

Eftalilər dövləti haqqında pullardan qeyri yazılı abidə qalmamışdır. Çin mənbələrində qeyd olunur ki, onların dili türklərin dilindən fərqlənir. Elə buna görə də bə'zi tədqiqatçılar xionları iranmənşəli hesab edirlər. Lakin bu mə'lumatı belə başa düşmək lazımdır ki xionlar çinlilərə mə'lum olan müəyyən bir türkmənşəli tayfanın dilindən fərqli idi. Bunu elə həmin mənbələrdə eftal çarlarının kuşanlarla qohum olması mə'lumatı da təsdiqləyir.

Deyilənlərə yekun vuraraq qeyd etmək olar ki, eftalilər-xionlar hun mənşəli tayfalar idilər və ona görə tarixşünaslıqda bə'zi tədqiqatçıların onları ağ hunlar adlandırmaları həqiqətdir. Tədqiqatçılara görə onlar 420-425-ci illərdə Mərkəzi Asiyaya gəlmiş və 427-ci ildən İran Sasanilər dövlətinin şahları ilə toqquşmuşlar.

Eftalilərin tarixi barədə yazılı mə'lumatların azlığı üzündən bu dövlətin yaranması tarixi aydın deyil. Ərəb coğrafı (X əsr) Təbəriyə görə 420-ci ildə eftalların şimal-şərqdən İrana kütləvi axını başlanır. Həmin mənbədə onlar türk adlandırılır. Onlar Xorasanı qarət etdikdən sonra Mərv (Türkmənistanda qədim şəhərdir) ətrafında dayanırlar. İran şahı V Varaxran (418-438) onlarla mübarizəyə başlamağı tə'xirə salmış və Azərbaycana ova getməsi haqda şayiə yaymışdı. İran ə'yanları isə xərac verməklə eftalilərin yürüşlərinin qarşısını almağa müvəffəq olmuşdular. Əslində isə V Varaxran qoşun toplamaqla məşğul idi. V əsrin, əvvəl-

lərindən başlayaraq İran Sasanilər dövləti Mərkəzi Asiyada mövqeyini gücləndirməyə çalışırdı. İlk vaxtlarda İran şahları eftaliləri sıxışdırmağa başladılar. İran şahı Varaxranla (418-438) Mərv şəhəri yaxınlığında (indi Türkmənistanın Bayraməli rayonunda) Kuş-Meyxan adlı yerdə təxminən 420-ci ildə baş vermiş qanlı döyüşdə eftalilərin çarı öldürüldü, Varahran (bə'zi mənbələrdə Bəhram Gur) çarın əsir tutulmuş gözəl arvadını Cənubi Azərbaycanda Gəncə şəhərində yerləşən Od mə'bədinə Atəşgaha xidmətçi göndərdi. Ələ keçirilmiş qızıl taxt, qızıl dəstəli qılınclar və qiymətli daş-qaş da Atəşgaha bağışlandı. Varahran sonra da Amudəryadan şimala ordu göndərdi və bu ərazinin İrandan asılılığını tə'min edərək əhalisinin illik xərac verəcəyi haqqında müqavilə bağladı. Mərkəzi Asiyada işlərini sahmana saldıqdan sonra şah İrana qayıtdı, qardaşı Narseni isə Xorasana canişin qoydu.

Eftalilər bu hadisədən sonra Xorasandan şərqə – Mərkəzi Asiyaya çəkildilər və bir müddət onlardan soraq çıxmadı.

İran şahı Firuz eftalilərə qarşı Xəzərin cənub-şərqində - Gürganda 300 km-lik sədd tikməyə məcbur olmuşdu. Lakin Eftalilər dövləti V əsrin II yarısında müvəffəqiyyətli müharibələr apararaq Xəzər dənizindən başlayan, Amudəryadan şərqdə yerləşən və Əfqanıstanın bə'zi əyalətlərini əhatə edən bir əraziyə malik oldu.

Eftali dövlətinin paytaxtının yeri dəqiq mə'lum deyil. Bə'zi tədqiqatçılara görə onun paytaxtı Paykənd şəhəri idi. Bu şəhər Buxara ilə Amudərya arasında yerləşirdi. Bə'zi tədqiqatçılara görə paytaxt Bəlx şəhəri idi.

İranın Sasanilər sülaləsindən II Yezdəgird (438-457) 442-ci ildə Xəzər dənizinin qərb sahilində Çol şəhərində oturan xion çarının üstünə hərbi yürüş etmiş və türkdilli çolların (çulların) əmlakını qarət etmişdi. Şah 453-454-cü ildə oraya ikinci hərbi səfər vaxtı əksinə oldu: xionlar onun ordusunu məğlub etdilər.

Eftalilər haqqında nisbətən ətraflı mə'lumat əsasən 457-ci ildən başlanır. Həmin il Xion çarı Vahşunvar (Türkiyə tarixçisi Kamal Anadolun yazdığına görə bu hökmdarın əsil adı Akşuvar idi) qüvvətlənərək Toxarıstan və Bədəxşan əyalətlərini zəbt etmişdi. İranın Sasanilər sülaləsindən Firuz xionların Mərkəzi Asiyada işğalçılıq müharibələrindən təşvişə düşərək onlara qarşı hərbi səfərə çıxdı. Lakin eftalilər onu əsir tutdular. Bizans onun haqqını verdiyinə görə Firuz azad edildi. Lakin çox keçmədən Firuz yenə qoşunla eftalilərin üstünə gəldi və bu dəfə də əsir düşdü. Eftalilər bu dəfə onun azad olunması üçün 30 qatır gümüş pul tələb etdilər. İran cəmi 20 qatır gümüş düzəldə bildi, şah oğlu Qubadı girov qoyaraq iki il müddətində gümüşün qalan hissəsini verəcəyinə söz verdi.

Eftalilərin hökmdarı Vahşunvar (Akşuvar) Firuzu əsarətdən azad edəndə Firuz söz vermişdi ki, bacılarından birini ona ərə verəcək. Lakin şah öz və'dinə xilaf çıxıb əvəzinə ayrı bir qız göndərmişdi. Buna cavab olaraq Vahşunvar razılıq əsasında İrandan eftalilərə gəlmiş hərbi müşavirlərin bir hissəsini öldürtmüş, digər hissəsinin qulaqlarını kəsib geriyə - Firuzun üstünə göndərmişdi.

470-ci ildə taxta çıxan hökmdar Günxan Toroman Tigin işğalçılıq müharibələri nəticəsində dövləti imperatorluğa çevirmişdi.

484-cü ildə İran şahı Firuz verdiyi andı pozub Bizansın köməyilə Eftalilər dövlətinin Mərkəzi Asiyada sərhədlərini keçərək müharibəyə başladı. Firuz Xəzərin şərq sahilində Qorqo adlı şəhərin yaxınlığındakı keçiddən keçmək istəyirdi. Eftalilər fars şahlarınm ikiüzlü siyasət yeritdiklərini yə'qin etdiklərinə görə müharibəyə hazırlaşmışdılar və sərhəddin keçid yerlərində canavar üçün düzəldilən quyular - tələlər (qədim türklər qoyun sürüsünə dadanmış canavar üçün qoyulmuş belə tələyə "kələk" deyirdilər) qurmuşdular. Xəbərsiz Firuz at üstündə ordunun qabağında hücum vaxtı atla birlikdə quyuya düşmüşdü. Sonra da çoxlu fars döyüşçüsü də dərin quyulara düşdülər. Eftalilərin pusquda dayanmış ordusu çıxıb fars ordusuna hücum etmiş və onu tamamilə qırmışdı.

Atı ilə birlikdə quyuya düşmüş şah Firuz qol-qıçı sınmış vəziyyətdə elə orada qaldı və acından öldü.

Eftalilər İran dövlətinin üstünə xərac qoydular, həm də İranın Mərkəzi Asiyadakı Soqd və Mərv əyalətlərini tutdular.

Firuzun yerinə keçmiş Qubad illik xəracı verməklə yanaşı eftalilərlə müttəfiqlik siyasətini yürütməyə başladı. Çünki Qubad iki il eftalilərdə zaval olmuşdu (yə'ni girov qalmışdı). Ona görə eftalilərə qarşı onda hüsn-rəğbət vardı.

502-ci ildə Qubad eftalilərlə ittifaqda Bizans ilə müharibəyə başladı. Fars ordusunun tərkibində eftalların ordusu qala və şəhərlərin tutulmasında fəal iştirak edirdi. Qubadın oğlu Xosrov Ənuşiravan (530-579) da eftalilərlə ehtiyatlı dolanırdı, onlarla toqquşmaqdan çəkinirdi.

VI əsrin əvvəllərində eftalilər farsları Mərkəzi Asiyadan tamamilə sıxışdırıb çıxardılar və Mərkəzi Asiyada İran Sasanilər dövlətinə mənsub bütün ərazilərini ələ keçirdilər. Nəticədə, eftalilər Mərkəzi Asiya, Şərqi Türküstan və Əfqanıstanı əhatə edən geniş ərazili dövlətə çevrildi və özündən əvvəlki Kuşan imperiyasının ərazisinə yiyələndi. İmperiyanın ərazisi Xotandan İrana qədər uzanırdı. 510-cu il də Eftalilər imperiyasının yaranma ili oldu.

İmperiya konqlomerat dövlət idi. Burada müxtəlif inkişaf mərhələlərində olan çoxlu xalqlar və tayfalar yaşayırdılar. Onlar yalnız zor gücünə hakimiyyətə tabe edilmişdi.

Eftalilərin ərazisində çoxlu şəhərlər mövcud idi. Bu şəhərlərin bə'ziləri qədim ticarət və mədəniyyət mərkəzləri idi. Lakin maraqlısı odur ki, Eftal çarlarının özləri böyük və bəzəkli çadırlarda yaşayırdılar. Bu eftalların keçmiş köçərimaldar həyatından qalma ən'ənə idi. Qeyd edilməlidir ki, bu ən'ənə sonralar bir çox türk xaqanları üçün də səciyyəvi hal olmuşdur. Lakin Çin mənbələrində deyilir ki, eftalilərin çarları qızıl taxtda otururlar və onların çadırları xalçalarla bəzədilir. Həmin mənbələrdən aydın olur ki, eftalilərin çarları və onların arvad-uşaqları Çin ipəyindən tikilmiş paltar geyir, qızıldan düzəldilmiş bəzək əşyaları taxırdılar.

Eftalilərin əksəriyyəti şəhərlərdə yaşayırdılar. VI əsr Bizans tarixçisi Menandr Bizans imperatoru II Yustinianın sarayına gəlmiş Türk xaqanlığınm səfiri ilə olmuş bir sual-cavabı verir: imperator soruşur ki, eftalilər şəhərlərdə yaşayırlar yoxsa kəndlərdə? Səfir cavab verir: "Cənab, onlar şəhər tayfasıdır".



Eftal xaqanları VI əsrin 30-cu illərində İran Sasanilər dövləti ilə müqavilələr bağlayaraq, Hindistana hərbi səfərlər təşkil etdilər bu ölkənin şimalını işğal etdilər.

Eftalilər dövləti klassik quldarlıq dövləti idi. İşğal olunmuş ölkələrdən əsir tutulmuş adamları qula çevirir və əkinçilik təsərrüfatında işlədirdilər: kanallar çəkdirir, əkin əkdirir, biçin biçdirirdilər.

V əsrin ortalarında İranda başlamış Məzdək dini hərəkatı tezliklə öz tə'sirini Mərkəzi Asiyada da göstərmişdi. Xalq kütlələrinin bu hərəkata rəğbəti artırdı, çünki bu cərəyan quldarlığa və yoxsulların istismarına qarşı çevrilmişdi. Ümumiyyətlə, bu dini cərəyan quldarlıq quruluşunun süqutunu ifadə edirdi. IV əsrin sonu - V əsrin əvvəlləri bəşər tarixində quldarlıq quruluşunun böhranı ilə səciyyələnirdi.

Başqa siyasi birləşmələr kimi Eftalilər dövləti də möhkəm iqtisadi zəminə malik deyildi. Eftalilərin siyasi sə'yləri Mərkəzi Asiyanın oturaq əyalətlərini müttəfiqdən düşmənə çevirmişdi, çünki eftalilər yerli əhalidən ağır vergilər alırdılar. Odur ki, yerli feodal əyanlar eftalilərin hakimiyyətinə qarşı müxalif qüvvəyə çevrilmişdi.

VI əsrin ortalarında İranda Sasanilər sülaləsinin şahları eftalilərə qarşı yenidən hərbi əməliyyatlara başladılar.Bu, Eftalilər dövlətinin İrana illik xərac verməkdən imtina etməsi ilə bağlı idi. Lakin İran açıq müharibəyə cür'ət etmədi. Onsuz da eftalilər yeni qüvvə ilə üzləşmişdi. Belə ki, Türk xaqanlığınm sərkərdəsi İstəmi öz ordusunu Volqa sahillərindən Mərkəzi Asiyaya - Eftallar dövlətinə qarşı yönəltmişdi.

563-567-ci illərdə İstəmi eftalilərlə müharibəyə başladı. Onlar əvvəlcə İstəmi ilə döyüşə girməyə hazırlaşdılar. Eftalilərin çarı Qatafarın hərbi məsləhətçisi Katulf məsləhət görmüşdü ki, ordunu türklərə qarşı göndərmək və İstəmini qabaqlamaq xatalı olar, o, "hər kəs öz torpağında daha qüvvətlidir" deyərək, gözləməyi təklif etmişdi. Lakin Türk xaqanlığının sərkərdəsi bacarıqlı diplomat idi. O, eftalilərə qarşı birgə çıxış etməyi İrana təklif etmiş və ittifaqa girməyi məsləhət görmüşdü. Bu təklif İranın ürəyindən olmuşdu, çünki yuxarıda dediyimiz kimi, İran eftalilərin çarından

yanıqlı idi, lakin ona qarşı tək mübarizə apara bilmirdi. Hər halda İran eftalilərə kömək etmədi və İstəmi 567-ci ildə Eftalilər dövlətinə son qoydu.

***Eftalların ictimai və siyasi quruluşu.*** Eftalların Mərkəzi Asiya xalqlarının, xüsusilə türkmənlərin etnogenezində rolu haqqında yuxarıda dedik. Bu barədə türkmən tarixçilərinin tədqiqat əsərləri vardır. Məsələ burasındadır ki, yuxarıda deyildiyi kimi, eftalilər dolayı yolla Azərbaycan xalqının etnogenezində də iştirak etmişlər. IV əsrin 50-ci illərində eftalilərlə yanaşı Xəzər dənizinin şərq sahillərində Çul adlı bir türk tayfası da məskunlaşmışdı. Həmin tayfanın bir hissəsi isə Albaniyanın şimalında, Dərbənd bölgəsində eranın əvvəllərindən mə'lumdur. Yuxarıda deyildiyi kimi, Dərbənddən 17 km cənubda bir şəhər və Samur-Dərbənd arası ərazi Çul (Çol) adlanırdı.

Eftalilər dövlətinin mərkəz şəhərlərindən biri Çol (Çul) adlanırdı. Son tədqiqatlar göstərmişdir ki, bu türkdilli tayfanın adı Azərbaycanda bir neçə Çullu kəndinin adlarında indiyədək qalmışdır. Bu məsələ ilə maraqlananlar Q.Qeybullayevin "Azərbaycanlıların etnogenezinə dair" kitabına müraciət edə bilərlər.

Eftalilərin mədəniyyəti özündən əvvəlki Kuşan mədəniyyəti ilə qaynayıb-qarışması əsasında təşəkkül tapmışdı. Onların dili türk dillərinin qərbi-hun qoluna aid edilir. Eftalilər həm Soqd, həm də Xarəzm əlifbasından istifadə edirdilər, lakin təəssüf ki, eftalilərin dilinə aid mətnlər (pullar üzərində yazılar istisna olmaqla) qalmamışdır.

Mənbələrdən aydın olur ki, başqa köçəri türk tayfalarından fərqli olaraq eftalilər tez oturaq həyata keçmiş və şəhərlərin tikintisində mühüm rol oynamışlar

Mərkəzi Asiyanın tarixində eftalilər dövrünün maddi mədəniyyəti hərtərəfli tədqiq olunmamışdır. Mərkəzi Asiya tədqiqatçılarına görə bu dövlətin dövründə Mərkəzi Asiyada məhsuldar qüvvələrin aşağı düşməsi prosesi baş vermişdir. Suvarma əkinçiliyi zəifləmiş, şəhərlərin sayı azalmışdı. Xarəzmdə S.P.Tolstov tərəfindən aparılmış arxeoloji qazıntılar göstərmişdir ki, feodal-torpaq sahibliyinin inkişafı nəticəsində şəhərlərdə sənətkarlıq məhəllələri zəifləmişdi. Bunun səbəbi o idi ki, feodallar, iri torpaq və mal-qara sahibləri keçmişdə olduğu kimi, suvarmada və şəhərlərdə qul istismarı əvəzinə kənd yerlərində kəndliləri istismar etməyi üstün tuturdular. Bir sözlə, bu tənəzzül ümumiyyətlə IV-V əsrlərdə quldarlıq quruluşunun feodalizm quruluşu ilə tədricən əvəz olunması nəticəsi idi.



Kuşan çarlığının süqutu ilə Mərkəzi Asiya və Qazaxıstana Mərkəzi Asiyadan bir sıra köçəri, maldar türk tayfalarının axını güclənmişdi. Aramsız müharibələr isə şəhərlərin iqtisadi həyatına zərbə vururdu, çünki köçərilər ən çox şəhərləri qarət edirdilər.

Xionların dövrünə aid çoxlu maddi mədəniyyət nümunələri arxeoloji qazıntılar zamanı üzə çıxarılmışdır. Müəyyən olunmuşdur ki, eftalilərin dövründə Mərkəzi Asiyada monqoloid mənşəli etnoslar getdikcə üstünlük təşkil etməyə başlayır və bununla da müasir Mərkəzi Asiyanın türk xalqlarının etnogenezi prosesinin yeni mərhələsi başlanır. Mənbələrdən aydın olur ki, başqa köçəri türk tayfalarından fərqli olaraq eftalilər tez oturaq həyata keçmiş və şəhərlərin tikintisində mühüm rol oynamışlar.

Yuxarıda qeyd etdik ki, VI əsr Bizans tarixçisi Menandrın yazdığına görə eftalilər şəhərlərdə yaşayırdılar. Deməli, bu tayfa həm maldarlıqla məşğul olur, həm də şəhərlərdə oturaq həyat tərzi keçirirdilər. Bu onu göstərir ki, eftalilərdə sinfi təbəqələşmə erkən başlanmış və varlı təbəqə feodallara çevrilmişdilər, çünki mənbələrdə göstərilir ki, şəhərdə yaşayan bə'zi varlılar kənarda torpaq sahibləridirlər. Dövlətin ərazisində çoxlu şəhərlər vardı və onlar ticarət yollarının üstündə yerləşirdilər. Əhalinin əksəriyyəti əkinçiliklə məşğul olurdu. Eftalilər haqqında mə'lumat verən Çin mənbələrində göstərilir ki, onlarda oğurluq üstündə ağır cəza verilir, oğrunun başı kəsilirdi.

Eftalilər ticarətlə də məşğul olurdular. İran, Çin və Hindistan arasında yerləşdiyinə görə qədim İpək yolu onların ərazisindən keçirdi. İpək karvan yolunun böyük bir hissəsi eftalilərin əlində idi. Onların tacirləri karvanlarda bələdçilik

edirdilər. Çin ilə Ön Asiya arasında ticarət yolları da eftalilərin ərazisindən keçirdi.

Eftalilər metal pul işlədirdilər və pulların üzərində toxar yazısından istifadə edirdilər. Toxar yazısı hind əlifbasının bir variantı - Karoşti yazısı idi.

Çin mənbələrində eftalilərin sayının 100 min nəfər olduğu göstərilir və qeyd edilir ki, onlarda çoxlu at və dəvə saxlanılır. Çin mənbələri eftaliləri çox cəngavər tayfa kimi səciyyələndirir, onlarda ox atmaq işinin çox inkişaf etdiyi göstərilir və deyilir ki, eftal döyüşçüsünün atdığı ucu metal ox düşmən döyüşçüsünün metal dəbilqəsini deşirdi. Çin mənbələri eftalilərin bə'zi adət-ən'ənələri haqqında da mə'lumat verirlər.

VI əsr müəllifi Prokopi eftalilərdə bir qəribə adətin təsvirini verir: bir kişi özünə 20-ə qədər yaxın dost tapır və qardaşlaşırlar, bir-birinə qardaşlıq deyirlər; onlar bir yerdə yeyir, bir yerdə güzəran keçirirdilər. Qardaşlıqlardan biri öləndə, yerdə qalan qardaşlar da könüllü olaraq özlərini ölü ilə birlikdə qəbrə qoydururdular.

IV əsr müəllifi Ammian Marsellin Eftal çarının İranla döyüşdə öldürülmüş oğlunun dəfn mərasiminin təsvirini vermişdir. Mərhumun meyidi hündür taxt üstünə qoyulmuş və ətrafına isə 10 nəfər ölmüş adam təsviri müqəvvası düzülmüşdü. On gün müddətində adamlar onların ətrafında oturub ağı deyir və ağlayırdılar. Sonra meyidi və 10 adam təsvirini yandırır və sümükləri bir küpə qoyub basdırmışlar.

Eftalilər Yer və Od Allahlarına sitayiş edirdilər. Onlar belə hesab edirdilər ki, yerin (torpağın) və odun yiyəsi, ruhu vardır. Ata-ana öləndə uşaqlar yas əlaməti olaraq qulaqlarını çərtirdilər.

Qeyd etmək lazımdır ki, Mərkəzi Asiyada Novruz bayramının keçirilməsi ilk dəfə eftalilərin vaxtından mə'lumdur.

Eftalilərin dövlətində müxtəlif xalqlar və tayfalar birləşdirilmişdi. Ona görə də, əhali müxtəlif dinlərə riayət edirdi. Mənbələrdən görünür ki, maniçilik və məzdəkizm ideyaları eftalilərdə da geniş yayılmışdı. Lakin türk tayfalarının əksəriyyətində olduğu kimi, onlarda da məişətdə şamanizm dini üstünlük təşkil edirdi.



## *II fəsil*

## *TÜRKÜSTAN VƏ ƏRƏB XİLAFƏTİ*

### *§ 1. Mərkəzi Asiyada ərəb işğalı*

Suriya, Fələstin və İranı işğal etdikdən sonra VII əsrin ortalarında ərəb orduları Mərkəzi Asiyaya tərəf hərəkətə başladılar. İran Sasanilər dövlətinin axırıncı şahı III Yezdəgird İrandan Xorasana qaçmış və orada ərəblərə qarşı ordu toplamaq ümidi ilə türklərdən və eftallardan qüvvə xahiş etmişdi. Lakin türklər bu təklifə razı olmadılar. 651-ci ildə şah Mərv yaxınlığında öldürüldü və bununla Sasanilər sülaləsi bitdi. Ərəb orduları şahın ardınca Xorasana gələrək oranı işğal etməyə başladılar və əvvəlcə indiki Türkmənistan ərazisində Nisa və Abiverd şəhərlərini tutdular.

Xorasanda möhkəmləndikdən sonra ərəblər Mərkəzi Asiyanın işğalına keçdilər. Mavərənnəhrin işğalı üçün 50 minlik ordu yaradılmışdı. Ərəb ordusu tayfa bölgüsü prinsipi əsasında təşkil edilmişdi. Hər tayfanın ordu hissəsinin başında həmin tayfadan çıxmış əmirlər dururdu.

674-cü ildə Ərəb xilafəti Ubeydullah ibn Ziyadın komandası altında ərəb ordusunu Mərkəzi Asiyaya göndərdi. Bu ordu Paykəndi mühasirəyə alıb, tutmağa başladığı vaxtda, digər ərəb ordusu Səid ibn Osmanın başçılığı ilə Soqda girdi və oradan Buxaraya yürüş edərək 30 min nəfər adamı əsir tutdu.

Xorasana canişin tə'yin edilmiş Əl-Mühəlləb 699-cu ildə Amudəryanı keçərək Kaşqadərya vadisinə girdi. O, Keşdə düşərgə salaraq, ətraf əyalətləri işğal etmək üçün hərbi dəstələr göndərdi. İki il müddətində Əl-Mühəlləb Kaşqadərya vadisini tutdu. Əl-Mühəlləbin varisləri 703-cü ildə Xarəzmə hərbi yürüşlər keçirdilər və 704-cü ildə Surxandərya çayının vadilərini işğal etdilər.

705-ci ildə Xilafət Xorasana Küteybə ibn Müslümü canişin göndərdi. Görkəmli siyasətçi və sərkərdə olan Küteybə Mavərənnəhri (Amudərya və Sırdərya çaylarının arasındakı ərazini) işğal etdi. 706-cı ildə o, Buxara vadisini tutmağa başladı. Bu vaxt Buxaranı bir neçə yerli türk hakimi idarə edirdi. Kiçik yaşlı Buxara hakimi (Buxaranın hakimləri Buxaraxudat adlanırdı; qədim fars dilində xudat "hakim" mə'nasındadır; dilimizdə xuda "allah" və kəndxuda sözlərini xatırlayın) Toxşadı anası Xatun əvəz edirdi. Bu qadın dövləti idarə işində bacarıqlı siyasət yeridirdi. Lakin ərəb ordusu asanlıqla Buxaranı tutdu və Buxaradan 40 km aralıdakı varlı ticarət şəhəri olan Paykəndi də ələ keçirdi. Paykənddə ərəblər 50 min misqal gümüş və çoxlu silah ələ keçirdilər. Silahlar ərəb döyüşçüləri arasında bölüşdürüldü.

Belə şəraitdə Buxara, Paykənd və Soqd əyalətlərinin hakimləri qədim türkmənşəli türkəşlərlə ittifaqa girib ərəb işğalçılarına qarşı mübarizəyə başladılar. Lakin Küteybə diplomatik siyasətlə onları ayrı-ayrılıqda zərərsizləşdirə bildi və Soqd əyalətini işğal etməyə hazırlaşdı. ***Rabincan*** adlı yerdə Soqd ordusu ilə ərəb ordusu arasında baş vermiş məşhur vuruşmada soqdlar məğlub oldular və Səmərqəndə çəkilərək Fərqanədən hərbi kömək istədilər. Lakin birləşmiş Fərqanə və Soqd ordusunu ərəblər qəflətən yaxaladılar və qoşunlarını məğlub edərək Səmərqəndə hücum etdilər. Belə bir şəraitdə soqdlar ərəblərdən sülh xahiş etdilər. Şərtə görə Soqd hakimi Turek ildə ərəblərə 200 min dirhəm xərac və buna əlavə olaraq 3 min nəfər qul, qızıl-gümüş, zinət şeyləri, ipək parça da verməli idi.

Ərəblər Xarəzmi də tutaraq Xarəzmşah Əskəcimuk adlı hökmdarı siyasi hakimiyyətdən kənarlaşdırdılar. Əyaləti ərəb canişini idarə etməyə başladı.

Ərəb ordusunun şimal-şərqə hərəkəti Çini təşvişə salmışdı. Bununla əlaqədar olaraq Çin qərb sərhədlərini möhkəmlətmək üçün 714-cü ildə Tibet dövlətinə hərbi səfərlər təşkil edərək bir neçə döyüşdə onun ordusunu qırdı. 714-cü ildə Çin Yeddiçayarası ərazidə başda Tokmak olmaqla türk tayfa ittifaqının üstünə gəldi və onları özündən asılı vəziyyətə



saldı. Çin və ərəb xilafətinin hərbi toqquşması labüd oldu, lakin bu vaxt Küteybə qəflətən öldü.

716-cı ildə ərəblər Xəzərin şərq sahilində, indiki Türkmənistan ərazisində Dehistan adlanan əyalətə qarşı müharibəyə başladılar. Dehistanın hakimi Sul adlı bir türk idi. Onun Çul adlı şəhəri qüvvətləndirilmişdi. Lakin baş vermiş döyüşdə Sulun ordusu məğlub oldu, çünki qüvvələr qeyri-bərabər idi. Ərəblər Çul şəhərini aldılar və əhalidən 14 min adam öldürdülər. Bununla da 716-cı ildə ərəblər indiki Türkmənistanın Xəzər dənizinə və Amudərya çayınaqədərki ərazisini zəbt etdilər.

716-cı ildə türkəşlərin başçısı Sulu özünü xaqan e'lan etdi və bir sıra türk tayfalarını da öz dövlətinə qatdı. Bundan sonra türkəşlər Mərkəzi Asiyada mühüm siyasi rol oynamağa başladılar. 717-ci ildə ərəblər türkəşlərlə və tibetlərlə ittifaqda Çinin Mərkəzi Asiyanı işğal etmək sə'ylərinə qarşı çıxdılar.

715-720-ci illərdə Mərkəzi Asiyada nisbətən sakit keçdi. Ərəblər işğalçılıq siyasətini müvəqqəti dayandıraraq, tutulmuş ərazilərdə möhkəmlənməyə başladılar. Bu məqsədlə Buxara və Səmərqənd əyalətlərinə çoxlu ərəb tayfaları köçürülüb yerləşdirildi. Onlardan həm də, hərbi qüvvə kimi istifadə olunurdu. Ərəb sərkərdələri yerli feodallarla nisbətən sakit dolanmağa başladılar və İslam dini binalarını tikməyi sür'ətləndirdilər. İslam dinini qəbul etməyən əhalidən cizyə vergisi alınırdı. Vergi ağır olduğuna görə sıravi əhali islamı qəbul etməklə bu vergidən azad olurdu.

720-ci ildə Soqd əyaləti ərəblərin itaətindən çıxdı. Xorasan hakimi Səid ibn Osman üsyanı hərbi qüvvə ilə yatırmaq istəsə də, buna nail ola bilmədi. Belə olduqda xilafət onun əvəzinə Səid ibn Ömər ibn Xaraşi adlı sərkərdəni yeni canişin tə'yin etdi. Səid bacarıqlı sərkərdə idi. O, tezliklə Soqdda üsyanı yatırdı və çoxlu miqdarda üsyançını qırdı. Xocəntdə ərəblər 3 min soqdlunun başını kəsdilər. Divaştac başda olmaqla üsyançılar Zərəfşan çayının yuxarı axınında bir qalaya qaçdılar. Bu qalanın xarabalıqları indi Qala-Muq, qalanın yerləşdiyi dağ isə Muq dağı adlanır. Xaraşi Süleyman ibn Əbu

əs-Sari başda olmaqla oraya qoşun göndərdi və qalanın yaxınlığında baş vermiş döyüşdə Divaştac məğlub oldu və özünü ərəblərə təslim etdi.

Əl-Xaraşi Divaştacı Rabincanda (indiki Katta-Kurqanda) öldürdü, qollarının hər ikisini kəsdirdi və sağ qolunu çaparla İraqda yerləşən rəisinə göndərdi.

723-cü ildə Əl-Xaraşi canişinlikdən kənarlaşdırıldı. Onun yerinə Müslüm ibn Səid tə'yin edildi. Səid Mərkəzi Asiya feodalları və yerli hakimləri ilə sakit dolanmaq siyasətini seçdi. Bu müəyyən qədər yerli əhalinin ərəblərə qarşı üsyanlarının yaranmasının qarşısını alırdı. Bundan sonra Müslüm ibn Səid Amuderyanı keçərək Buxaraya hərbi səfərə çıxdı. Çünki Buxara ərəb hakimiyyətinə tabeçilikdən çıxmışdı. Ərəblər Fərqanəni mühasirəyə aldılar. Fərqanəlilərə Türkəş ordusu başda Sulu xaqan olmaqla qoşun köməyə gəldi. Ərəblər türkəşlərdən qorxaraq Fərqanənin mühasirəsindən əl çəkdilər. Lakin Sulu ərəbləri yaxaladı. Baş vermiş vuruşmada ərəb ordusu məğlub oldu və qarət olunmuş bir milyon dirhəmlik qənimət türkəşlərin əlinə keçdi. Ərəb ordusu böyük itki ilə Xocəntə qayıtdı. Bundan sonra Mavərənnəhrdə ağalıq türkəşlərə keçdi.

Lakin ərəblər Mərkəzi Asiyada dehqanları və yerli feodalları öz tərəfinə çəkməklə möhkəm arxa yarada bildilər və canişin Əsəd ibn Abdullanın (724-727) dövründə Amudərya və Sırdərya çayları arasındakı ərazini bütünlüklə yenidən işğal etdilər. 729-cu ildə ərəblər Buxaranı da tutdular.

734-735-ci illərdə Ərəb xilafəti Mərkəzi Asiyaya Asim ibn Abdulla əl-Hilalini canişin tə'yin etdilər. O, Bəlx, Curcan, Fərab və Talkan əyalətlərini yenidən tutdu.

737-ci ildə ərəblər Mərkəzi Asiyanın Xuttal əyalətinə hücum etdilər. Xuttal hakimi türkəşlərə kömək üçün müraciət etdi və Sulu xaqan ordusu ilə onların köməyinə gəldi. Ərəb ordusu ələ keçirdiyi qəniməti ataraq qaçmağa üz qoydu. Sulu Amudəryanı keçərək, ərəbləri izləməyə başladı. Lakin Sulunun ordusu bu arada xeyli azaldı, belə ki, çoxlu döyüşçü ordudan ayrılıb qarətçilik məqsədilə səpələndi. Həristan adlı yerdə canişin Əsəd ibn Abdulla (735-738) ilə Sulu xaqan



arasında 737-ci ildə qanlı vuruşma baş verdi. Türkəşlərin ordusu məğlub oldu və Sulu xaqan döyüş meydanından qaçmaqla xilas ola bildi. Məhz bu hadisədən sonra Mərkəzi Asiyanın ərəb hakimiyyətinə qarşı çıxan feodalları ucdantutma ərəblərə tabe olmağa başladılar. Tezliklə ərəblər Soqdu yenidən ələ keçirdilər.

Mərkəzi Asiyanın bütünlüklə Ərəb xilafəti tərəfindən işğal olunması Nəsr ibn Səyyarın (738-748) canişinliyi vaxtında başa çatdı. Səyyar da yerli feodalları öz tərəfinə çəkmək siyasətini yürüdürdü. Bu, islam dininin yayılması üçün mühüm şərt idi. Dinin əhali tərəfindən qəbulu isə ərəb hakimiyyətinin möhkəmlənməsinə səbəb olurdu. Artıq Mərkəzi Asiyada ərəblərə qarşı dura biləcək siyasi qüvvə yox idi. Türkəş xaqanlığının xanı Sulu 737-ci ildə məğlub olduqdan sonra Yeddiçayarası əraziyə qayıtdıqda sarı türkəşlərin (türkəşlər "sarı" və "qara" olmaqla iki hissədən ibarət idi) başçısı Baqa-Tarxan onu yaxalayıb öldürdü. Bundan sonra ərəblər Baqa Tarxanla birləşib Türkəş xaqanlığının paytaxtı Suyab şəhərini tutub qarət etdilər. Türkəş xaqanlığı süqut etdi.

739-740-cı illərdə ərəblər Fərqanə, Səmərqənd, Usruşana və başqa əyalətləri bir də zəbt etdilər. Xilafətin Mərkəzi Asiyada mövqeyinin möhkəmlənməsi canişin Nəsr ibn Səyyara imkan verdi ki, daxili problemlərlə məşğul olsun. O, vergi siyasətində dəyişiklik etdi və nəticədə 80 min müsəlman can vergisi olan cizyədən azad oldu. Nəsrin əsas xəracı vergi idi. İndi yalnız islamı qəbul etməyənlər cizyə verməli idi.

### *§2. Türküstanda Ərəb xilafətinə qarşı xalq hərəkatı*

Türküstanın Ərəb xilafəti tərəfindən işğalı xalq kütlələrinin vəziyyətinə pis tə'sir göstərirdi. Bir tərəfdən aramsız müharibələr nəticəsində suvarma kanalları dağıdılır, əkin sahələri sıradan çıxırdı, digər tərəfdən ərəblərin yerli əhalidən aldıqları müxtəlif vergilər əhalini narazı salmışdı. Belə vəziyyət Ərəb xilafətinə qarşı üsyanlara səbəb olurdu.

747-ci ildə Ərəb xilafətində Abbasilər sülaləsinin başçısı İbrahim ibn Məhəmməd tərəfdarlarından olan Əbu Müslüm Xorasana canişin göndərildi. Əsas məqsəd Əməvilər sülaləsinin tərəfdarlarının Mərkəzi Asiyada artması ilə bağlı olaraq Abbasi tərəfdarlarını artırmaqdan və məhz Məhəmməd peyğəmbərin nəslindən olan Abbasilərin xəlifəliyə gəlməsinə xalq kütlələrini səfərbər etməkdən ibarət idi. Əbu Müslüm Mərvə gəldi və Əməvilərə qarşı açıq təbliğata başladı. Abbasilərin tərəfdarları onun düşərgəsinə toplaşdılar. 747-ci il iyunun 9-da Xorasana hücum etmək və Xilafətdəki Əməvilər sülaləsinin hakimiyyətinə qarşı açıq mübarizəyə başlamaq tədbiri müəyyən edilmişdi. Xorasanda ərəb hakimiyyətinin vəziyyəti ağırlaşdı. Əbu Müslüm Mərvi tutdu, canişin Nəsr ibn Səyyar Nişapura qaçdı. Əbu Müslümün sərkərdəsi Əbu Davud Bəlx əyalətini zəbt etdi.

748-ci ildə Nəsr ibn Səyyar Tus yaxınlığında məğlub edildi. Az sonra Əbu Müslüm Mərkəzi Asiyanın tam sahibi oldu.

Xilafətdə isə hakimiyyətə Abbasilər gəldilər. Onlar Mərkəzi Asiyada yerli hakimiyyəti idarə aparatını feodallara tapşırdılar. Xalq kütlələri isə heç bir işə nail olmadı. Ona görə 751-ci ildə Buxarada Abbasilərə qarşı xalq üsyanı baş verdi. Üsyanın başçısı Şərik ibn Şeyx əl-Mehdi feodalların istismarına qarşı çıxırdı. Əbu Müslüm bu üsyanı yatırdı. Şərik baş vermiş döyüşdə öldürüldü.

Bu vaxt Çin Yeddiçayarası ərazidə və Toxarıstanda qüvvətlənmişdi. 748-ci ildə Çin ordusu Suyab şəhərini tutub dağıtdı. Çin ordusunun sərkərdəsi Qao-Syan-Çji böyük ordu ilə Mərkəzi Asiyanı işğal etmək üçün hazırlaşırdı. Ərəb xilafəti 751-ci ildə Ziyad ibn Salehin başçılığı ilə Çin ordusuna qarşı ordu göndərdi. 751-ci ilin iyun ayında Taraz (indiki Qazaxıstanda Cambul şəhəri) yaxınlığında iki ordu üz-üzə durdu. Müharibələr tarixində ən qanlı vuruşmalardan olan bu döyüş 5 gün davam etdi. Yalnız türk karlukların arxadan Çin ordusunun üstünə hücum etməsi vuruşmanın taleyini ərəb ordusunun xeyrinə həll etdi. Çin ordusu məğlub oldu. Bundan sonra Çin Mərkəzi Asiyanı işğal etmək planından əl çəkdi.



Xilafət Əbu Müslümün Mərkəzi Asiyada nüfuzunun güclənməsindən çəkinirdi, ona görə də onu hiylə ilə saraya də'vət edib öldürdülər.

Əbu Müslümün öldürülməsi ilə bağlı olaraq Nişapurda Zərdüşt dini tərəfdarı Sumbatın üsyanı baş verdi.Üsyanda sənətkarlar və kəndlilər iştirak edirdilər. Üsyançılar Nişapur, Kumıs və Reyn şəhərlərini tutdular. Lakin 80 gündən sonra üsyan yatırıldı. Sumbatın üsyanı ilə eyni vaxtda Mavərənnəhrdə Abbasilər xilafətinə qarşı əslən türk olan İshaq adlı bir Zərdüştün çıxışı başlandı. O, təbliğ edirdi ki, Zərdüştün ruhu Əbu Müslümə keçmişdir. Lakin bir ildən sonra İshaq Mərvdə tutulub öldürültdü.

Hər yerdə olduğu kimi, Mərkəzi Asiyada da xalq kütləsinin hakim sinfə qarşı mübarizəsi din pərdəsi altında gedirdi. Xüsusilə, Mərkəzi Asiyada çoxlu Mani və Məzdək tərəfdarları toplanmışdı. Onların şəhərlərdə icmaları vardı. VI əsrdə İranda Məzdək hərəkatı boğulduqdan sonra tərəfdarları Mərkəzi Asiyaya qaçmışdılar. Ərəblər onları "zindiq"lər adlandırırdılar. Məzdək tərəfdarları torpağın kəndlilər arasında bölüşdürülməsi ideyasını əsas tutur və deyirdilər ki, dünyada iki qüvvə - işıq və qaranlıq bir-birinə qarşı mübarizə aparır və bu mübarizə həyatın əsasını təşkil edir. Qaranlıq şər qüvvəsidir və bütün haqsızlıqlar, torpağın kəndlilər arasında bərabər bölüşdürülməməsi onun işidir, hamı şər qüvvəsinə qarşı mübarizə etməlidir. Feodalizm quruluşunun qüvvətlənməsi və kəndlilərin istismarı Məzdək ideyasının yayılmasına səbəb olurdu.

767-ci ildə Heratda Astad Sis adlı bir türkün başçılığı ilə başqa bir üsyan baş verdi. Xəlifə Əl-Mənsur ona qarşı ordu göndərdi və döyüşdə üsyançılar məğlub oldular, onların 14 min nəfəri öldürüldü.

777-ci ildə Mərkəzi Asiyada Buşəkc adlı əyalətdə Yusif ibn İbrahim əl-Bərm adlı bir nəfərin başçılığı ilə üsyan başlandı. Üsyançılar qırmızı bayraq gəzdirirdilər ki, bu da onların Məzdək dininə tərəfdar olduqlarını göstərirdi. Üsyan qısa vaxtda Xorasan, Soqd və Fərqanəni bürümüşdü. Bir neçə döyüşdən sonra üsyanın başçısını tutdular və onu Bağdadda xəlifə əl Mehdinin sarayında öldürdülər.

Digər böyük üsyan Müqənnanın başçılığı ilə üsyan idi. Bu üsyan tarixşünaslıqda Xürrəmilər üsyanı da adlanır. Ona görə ki, üsyanın əsas hərəkətverici qüvvələri V əsrdə İranda baş vermiş Məzdək hərəkatının ideyasını əsas götürürdülər. Məzdəkin arvadının adı Xürrəm idi. Məzdək öldürüldükdən sonra o, Mərkəzi Asiyaya qaçmışdı. Burada onun tərəfdarları onun adı ilə xürrəmilər adlanırdılar. Üsyançılar ərəb hakimiyyətinə qarşı çıxırdılar. Onların da qırmızı rəngli bayraqları vardı.

Üsyanın başında islamı qəbul etmiş əslən türk Hakim ibn Haşım dururdu. Bə'zi mənbələrə görə onun əsil adı Ata, ləqəbi Müqənna idi. O, indiki Türkmənistan ərazisində Mərv şəhərində doğulmuşdu. Cavanlığında Əbu Müslümün ordusunda paltar yumaqla məşğul olmuşdu. Üzünü yaşıl rəngli örtüklə örtdüyünə görə ərəbcə "Müqənna" çağrılırdı. Çox oxuduğuna və mütaliə ilə məşğul olduğuna görə o, çoxlu dil bilirdi. Ağ rəngli paltar geymiş Ata (Müqənna) deyirdi ki, onun bədəninə ilahi qüvvə daxil olmuşdur və çalışıb cəmiyyətdə insanlar arasında bərabərsizliyə son qoyacaqdır. O, Mərkəzi Asiya əyalətlərinə tərəfdarlarını göndərərək hakimiyyətini tammağı tələb edirdi. Buxara, Soqd və Kaşqadərya əyalətlərində onun tərəfdarları çox idi. Müqənna Amudərya çayını keçərək, Keş yaxınlığında Sənəm dağlarında bir qalanı özünə istinadgah etdi. Ağköynəklilərin, yə'ni Müqənna ləqəbli Atanın tərəfdarlarının üsyanı 776, ya da 778 ci ildə başlandı. Üsyançılar tez bir vaxtda bütün Mavərənnəhri tutdular. Sırdərya və Amudərya çayları arasında yaşayan maldar türk tayfaları da onu müdafiə edirdilər. Üsyanın genişlənməsi Ərəb xilafətini təşvişə saldı. 778-ci ildə Muaz ibn Müslümün başçılığı ilə ərəb ordusu Buxaraya gəldi və üsyançılara qarşı mübarizəyə başladı. Lakin iki il müddətində ordu üsyanı yatıra bilmədi. Onda xilafət Muazı kənarlaşdıraraq, onun yerinə Müseyyib ibn Züheyr adlı sərkərdəni tə'yin etdi. Züheyr ordusunu üsyançıların başçısı Müqənnaya qarşı yeritdi və yerləşdiyi qalanı tutdu. Müqənna ələ keçməməsi üçün özünü öldürdü. Bir rəvayətə görə o, zəhər içmişdi. Ərəblər onun ölüsünü tapıb başını kəsdilər. Nəhayət, 785-cə ildə üsyana son qoyuldu.



## *III fəsil*

## *IX-XII ƏSRLƏRDƏ QƏRBİ TÜRKÜSTANDA TÜRK DÖVLƏTLƏRİ*

### *§1. Türkəş xaqanlığı*

Qədim türk tayfalarından biri də türkəş adlanırdı. Adından göründüyü kimi bu tayfanın etnik adı "türk" etnonimindən yaranmışdı.

Türkəşlər eranın əvvəllərində Balxaş gölü ətrafındakı ərazidə, Çu və İli çayları arasında yaşayırdılar. Qərbi Türk xaqanlığı süqut etdikdən sonra türkəşlər Yeddiçayarası ərazini ələ keçirərək xaqanlıq yaratdılar. Xaqanlığın mərkəzi (düşərgəsi) Çu çayının vadisində yerləşirdi. Türkəş tayfa ittifaqı 20 tayfadan ibarət idi. Hər tayfanın başında 7000 nəfərlik ordusu olan hakim dururdu.

Xaqanlığın ilk xaqanı Moxe-Daqan idi. Bu xan işğalçılıq müharibələri apararaq xaqanlığın ərazisini genişləndirmişdi.

Qərbi Türküstanda türkəşlərin hakimiyyəti Üç-Elik xaqan (699-706) dövründə qüvvətləndi. "Baqa-Tarxan" ləqəbini daşıyan bu xanın hakimiyyəti illərində Türkəş xaqanlığı Mərkəzi Asiyada Sırdərya çayının orta axınından İrtış çayına qədər uzanan ərazini əhatə edirdi. Onun vəliəhdi Sakak xaqan (706-744) vaxtında Türkəş dövləti o dərəcədə möhkəmlənmişdi ki, Türk xaqanlığına son qoymuşdu. Lakin o, öldükdən sonra xaqanlıqda hakimiyyət uğrunda mübarizə gücləndi. Şərqi Türk xaqanlığının xanları bu çəkişmədən istifadə etdilər və 711-ci ildə Türkəş xaqanlığına hücum etdilər. Türkəşlər böyük itki versələr də, Sulu adlı xanın ətrafında birləşərək, onu xaqan e'lan etdilər. Sulu xaqan 200 min nəfərlik tayfaların başçısına çevrildi.

Türkəş xaqanı Suyab şəhərində otururdu. Xaqanlıq mis pul buraxırdı. Onun əhalisinin bir hissəsi əkinçiliklə məşğul idi. Lakin maldarlıq əsas təsərrüfat məşğuliyyəti olaraq qalırdı.

VII əsrin ortalarında ərəblər Mərkəzi Asiyanı işğal etməyə başladılar və 651-ci ildə Mavərənnəhri tutdular. Ərəb işğallarına qarşı yeganə qüvvə Türkəş xaqanlığı idi. 737-ci ildə Amudərya çayı sahilində türkəşlər soqdlarla birlikdə ərəb ordusuna qarşı vuruşdular, lakin döyüşdə ərəb ordusu qalib gəldi.

Xaqanlıq ərəblərə qarşı mübarizəni davam etdirmək əzmində idi. Bu vaxtlar dövlətdə feodal-ara çəkişmələri başlandı və 738-ci ildə Sulu xaqan sui-qəsd nəticəsində öldürüldü. Bununla da xaqanlıq zəifləməyə başladı. 739-cu ildə Fərqanə və Qaşqar feodalları birləşərək türkəşlərin üstünə getdilər və onları məğlub etdilər. Onlar 748-ci ildə xaqanlığın mərkəzi Suyab şəhərini tutub qarət etdilər. Digər tərəfdən, Karluk adlı böyük bir türk tayfası xaqanlıqdakı vəziyyətdən istifadə edib VIII əsrin ortalarında xaqanlığa son qoydu, onun ərazisini zəbt edib Karluk xaqanlığını yaratdı.

## *§2. Karluk xaqanlığı*

Qədim türk tayfalarından olan karluklar VIII ərin ortalarına qədər Qərbi Altayda və İrtış çayı sahillərində yaşayırdılar. Onlar dilcə qıpçaqlara yaxın idilər. Karluklar əvvəlcə II Şərqi Türk xaqanlığına tabe idilər və vaxtaşırı uyğurlarla ittifaqda xaqanlığa qarşı çıxır, onun qonşu ərazilərini qarət edirdilər.

734-cü ildə Bilgə xaqan öləndən sonra II Şərqi Türk xaqanlığı əvvəlki qüdrətini itirdi. VIII əsrin 40-cı illərinin əvvəllərində karluqlar yabqu adlanan canişin tərəfindən idarə olunurdu. 744-cü ildə karluk, uyğur və basmil türk tayfaları bu dövləti yıxdılar.

Həmin əsrin 50-ci illərində karluk tayfa ittifaqı qüvvətlənir. Qısa müddət ərzində karluklar İli, Çu və Talas çaylarının vadilərini ələ keçirərək, Talas və Suyab şəhərlərini zəbt etdilər. 766-cı ildə karlukların yabqusu qərargahını Çu çayının kənarında yerləşən Suyab şəhərinə (indi Qazaxıstanda Tokmak şəhəri) keçirdi.



766-940-cı illər arasında karluklar Yeddiçayarası ərazidə hakim qüvvə idilər. Lakin 940-cı ildə Şərqi Türküstanda yaşayan türkmənşəli yaqma tayfası bu əraziyə basqın etdi və onlar dövlətin mərkəzi Balasaqun şəhərini tutaraq, Karluk xaqanlığına son qoydular.

Karluklar da əsas e'tibarilə maldarlar idilər. Lakin başqa türk tayfalarına nisbətən xaqanlıq vaxtında onların müəyyən hissəsi oturaq həyata keçərək əkinçiliklə məşğul oldular. Ona görə də bir sıra oturaq iri yaşayış məntəqələri yaranmışdı. Xaqanlıq dövründə bir neçə şəhər təşəkkül tapmışdı. Onlardan Çul, Sarıq, Harran, Çuvan və b göstərmək olar. Talas çayının hövzələrində VIII-IX əsrlərdə Atlax, Xamukət, Susa (Şuşa), Kul, Şelva, Tekabkət və b. şəhərlər vardı.

Karluklar dağ-mə'dən sənayesi ilə məşğul olurdular. Onlar dəmir filizini indiki Qırğızıstanda Ala-Too dağlarından çıxarırdılar. Ona görə də onlarda sənətkarlıq dövrünə görə yüksək səviyyədə idi.

Karluk xaqanlığının şəhərləri Çin və Mərkəzi Asiya ölkələri ilə (Buxara, Səmərqənd, Şaş və b.) ticarət edirdilər. Taraz (indi Qazaxıstanda Cambul şəhəri) Kulan, Aşpara və Suyab şəhərlərində müxtəlif ölkələrdən gəlmiş tacirlər alver edirdilər. İssık-Kul gölü və ətraf ərazidə mənşəcə karlukların bir hissəsi olan çiqil tayfası yaşayırdı. Onlar əsasən köçəri maldarlıqla məşğul olurdular. Çiqillərin mərkəz şəhəri olan Yar (İssık-Kulun cənub sahilində) xaqanlığın digər şəhərləri ilə ticarət əlaqələrində mühüm rol oynayırdı. Narinçay sahillərində yaşayan tokuz-oğuzlardan çıxma yaqma türk tayfası ilə karluklar ticarət edirdilər.

Bütünlükdə Karluk xaqanlığı feodal dövləti idi. Dövlətin iqtisadi bünövrəsi zəif idi. Ona görə də xaqanlığın ərazisində yaşayan tayfaların varlı hakimləri çox hallarda mərkəzi hakimiyyətə qarşı çıxırdılar. Xaqanlığın süqutunun bir səbəbi də məhz ara feodal çəkişmələri oldu.

Karlukların hakimiyyəti zamanı indiki Qazaxıstan ərazisində bir sıra yeni şəhərlər yarandı: Çul, Balasaqun, Atlax, Xamukənd, Koylık-Oğuz və b. Xaqanlığın mərkəzi Koylıkda

yerləşirdi Buna səbəb o idi ki, Qazaxıstan ərazisində ictimai inkişafda əkinçilik və ticarət getdikcə mühüm yer tuturdu. Bu şəhərlərin əhalisi əsas e'tibarilə köçəri maldarlıqdan oturaq həyata keçmiş türklər idi. Şəhərlər ticarət-sənətkarlıq mərkəzləri kimi təşəkkül tapırdı. Karluk xaqanlığının şəhərlərinə Şərqi Türküstandan və Çin Türküstanından çıxma tacir və sənətkar ailələri köçüb yerləşirdilər. Türkəş xaqanlığı kimi Karluk xaqanları da öz adları ilə metal pullar zərb edirdilər. Karluk tacirləri uzaq ölkələrə dəvə və atlarla müxtəlif məhsullar - dəri, gön, yun və s. aparıb əvəzinə metal ləvazimatı, qızıl - gümüş bəzək şeyləri gətirirdilər. Çindən ipək və çini qablar gətirilirdi.

IX əsrdə Mərkəzi Asiya və Qazaxıstandan Çinə gedən bir neçə karvan yolu vardı. Karvan yollarının kənarlarında su quyuları çıxarılmış, karvansaraylar tikilmişdi. Lakin karlukların torpaqlarına ərəblərin daxil olması ilə əhalinin islam dininə keçməsi prosesi güclənməkdə idi. Digər tərəfdən, Şərqi Türküstandan Mərkəzi Asiya və Qazaxıstan ərazisinə Yaqma adlı yeni bir türk tayfa birləşməsi hərəkət etməkdə idi. 940-cı ildə yaqmalar Karluk dövlətinin şəhərlərini tutdular və ərazisində Qaraxanilər dövlətini yaratdılar.

### *§3. Samanilər dövləti*

Mərkəzi Asiyada xilafətə qarşı xalq hərəkatı yerli türk feodal sinfinə mənsub şəxslərin dövləti idarə sistemində fəal iştirakına səbəb oldu. Xəlifə Harun ər-Rəşid (786-809) öldükdən sonra Xilafətdə dövləti idarə sisteminə Tahirlər nəsli daxil oldu.

Tahir ibn Hüseyn adlı birisi Xorasanın varlı ə'yanlarından idi. O, əslən Herat əyalətindən (indi Əfqanıstandadır) idi. Tahir Harun ər-Rəşidin oğlu Mə'munun xilafətə hakimiyyətə gəlməsinə hərbi kömək etmişdi. Ona görə də 813-cü ildə Mə'mun xilafətin başında olduqda Tahir yüksəldi. O, Cəzirənin (Mesopotamiyanın) canişini və oradakı qoşunların baş komandanı



tə'yin edildi. 821-ci ildə Tahir Xorasana canişin tə'yin olunduqda Nişapuru özünə mərkəz seçdi. Onun əsas məqsədi canişinliyini müstəqil dövlətə çevirməkdən ibarət idi.

Lakin çox çəkmədən Tahir qəflətən öldü. Onda Xilafət canişinliyə onun oğlu Əbülabbas Abdullanı tə'yin etdi. Lakin canişinliyi onun qardaşı Talxa (830-844) idarə edirdi. Məhz Abdullanın vaxtında Xorasan canişinliyi müstəqil dövlətə çevrildi.

Bu illərdə Mərvdə canişin Saman adlı bir tacik idi. O, Zərdüşt dinindən əl çəkib islam dinini qəbul etmişdi. Xəlifə onun oğlu Əsədə də vəzifə verərək onu canişin tə'yin etmişdi. Əsədin 4 oğlu vardı: Nuh, Əhməd, Yəhya və İlyas.

806-cı ildə Mərkəzi Asiyada yenə Xilafətə qarşı xalq üsyanı baş verdi. Üsyanın başında Müqənnanın tərəfdarları dururdu. Üsyanın başçısı isə ərəb sərkərdəsi Rəfi ibn Lays adlı birisi idi. Belə bir şəraitdə Əsədin oğlanları üsyanın yatırılmasında Mə'muna kömək edərək 810-cu ildə hərəkatı yatırdılar. Bu xidmətə görə xəlifə Saman nəslindən olanları Mərkəzi Asiyanın müxtəlif əyalətlərinə canişinlər tə'yin etdi. Belə ki, Nuh Səmərqəndə, Əhməd Fərqanədə, Yəhya Şaşda (indiki Daşkənd əyaləti), İlyas Usruşanada canişin oldular. 821-ci ildə Xorasana canişin tə'yin edilmiş Tahir ibn Hüseyn də Əsədin oğlanlarını müdafiə edirdi.

IX əsrin ortalarında Buxara və Kaşqadərya istisna olmaqla Mavərənnəhr Əhməd və onun oğlanlarının hakimiyyəti altında idi.

873-cü ildə Tahirlər sülaləsi süqut etdi. Onların yerinə Samani nəslindən olanlar irəli çıxdılar. Əhməd öldükdən sonra (865-ci il) onun yerinə oğlu Nəsr keçdi (865-892-ci illər), Nəsr ibn Əhməd Mavərənnəhrin müstəqil hakiminə çevrildi və öz adından pul zərb etdi. Lakin qardaşı İsmayıl ibn Əhməd 888-ci ildə Nəsri məğlub edərək hakimiyyəti ələ aldı. O, ətraf ərazilərdə yaşayan türk maldar tayfalarının üstünə hərbi səfər təşkil etdi və dövlətin qüdrətini artırdı. Beləliklə, Samani nəslindən olan İsmayıl müstəqil, tarixdə Samanilər dövləti adlandırılan dövlətin başçısına çevrildi. Onun oğlu Əhməd

(907-914-cü illər), onun oğlu II Əhməd Nəsr (914-943 -cü illər) vaxtında Samanilər *dövləti tənəzzülə doğru getməyə* başladı. Çünki bu illərdə Mərkəzi Asiyada yeni türk tayfa ittifaqları yaranmış və işğalçılıq müharibələrinə başlamışdılar. Xüsusilə Sırdərya hövzələrində oğuzlar güclənmişdilər.

Samanilər dövləti qısa tarixi dövr ərzində mövcud olsa da, bu dövlət Mərkəzi Asiyada əkinçiliyin və ticarətin inkişafı ilə səciyyələnir. Qeyd edilməlidir ki, Mərkəzi Asiyanın böyük dahiləri olan etnik mənsubiyyətcə türk əl-Fərabi və İbn Sina Samanilərin hakimiyyəti vaxtında yetişmişdilər. Samanilər islam dininin Mərkəzi Asiyada möhkəmlənməsində də böyük rol oynadılar. Samani hakimləri çoxlu məscid, mədrəsə və mavzoleylər tikdirmişdilər.

## *§4. Qəznəlilər dövləti*

X əsrdə - Samanilərin yüksəliş dövründə Qəznə şəhəri üsyankar türk sərkərdələrinin diqqətini cəlb etmişdi. Qəznənin (Əfqanıstanın cənub-şərqində qədim şəhər idi) Samanilər dövlətinin mərkəzindən uzaqda yerləşməsi həmin ərazilərdə yaşayan türk tayfalarının başçılarının sərbəst hakimiyyəti üçün şərait yaradırdı. Türk tayfa başçıları oradan Hindistanın şimalında yerləşən Kəşmir, Pəncab, Multan və b. əyalətlərə hərbi səfərlər təşkil edirdilər. Samanilərin Qəznədə valisi, türk Alp-Tiqin 962-ci ildə oradakı hakimi yıxıb bir müddət (963-cü ilədək) hakimiyyəti əldə saxlamışdı. Sonra isə Alp-Tiqinin qulamı (hərbi nökəri) Sebuk-Tiqin 977-ci ildə hakimiyyəti ələ aldı və onun əsasını qoyduğu sülalə Qəznəlilər adlanmağa başlandı. Bu sülalə 1183-cü ilə qədər, yə'ni Səlcuq oğuzlarının hakimiyyətinə qədər davam etmişdi. Sebuk-Tigindən (977-997) sonra Qəznəlilərin aşağıdakı hökmdarları olmuşdur: İsmayıl (997-998), Mahmud Qəznəli (998-1030), Məhəmməd (1030), I Mə'sud (1030-1041), Mövlud (1041-1-48), II Mə'sud (1049), Əli Əbülhəsən (1049-1051), Əbdürrəşid (1051-1053), Toğrul .(1053), Fərruxzal (1053-



1059), İbrahim (1059-1099), III Mə'sud (1099-1115), Şirzad (1115-1116), Aslan (1116-1117), Bəhramşah (1117-1153), Xosrovşah (1153-1160) və Xosrov Məlik (1160-1187). Biz bu dövlətin tarixini burada genişliyi ilə verməyəcəyik, çünki hakim sülalədə türklər olsa da, sülalənin idarə etdiyi dövlət əsas e'tibarilə Əfqanıstanın, Mərkəzi Asiyanın və İranın bə'zi əyalətlərini əhatə edirdi, əhalisi isə əsas e'tibarilə irandilli əfqanlar, taciklər və farslar idi. Lakin Qəznəlilər dövləti Mahmud Qəznəli vaxtında qüvvətli dövlətə çevrilmiş və əhalisi türklərdən ibarət Xarəzmi tutmuşdu. Ona görə biz bu məsələni qısaca nəzərdən keçirək.

Samanilər dövləti vaxtında Xarəzm daxili müstəqilliyini saxlamış əyalət idi. Qaraxanilər Samanilər dövlətinə son qoyduqdan sonra da Xarəzm kənarda qaldı. ticarət yollarının kəsişdiyi yerdə yerləşən Xarəzm şəhəri Çin, Hindistan, Ön Asiya və İranın Mərkəzi Asiya və Altayla ticarətinin mərkəzlərindən biri idi. Xarəzm əyalətinin əhalisi əsas e'tibarilə əkinçiliklə məşğul olurdu. Ərəb coğrafı Müqəddəsi yazırdı: "Xarəzm meyvə bağları, su kanalları və əkin tarlaları ilə məşhurdur".

X əsrin II yarısında Xarəzm və onun mərkəzi Ürgənc iqtisadi inkişafda çox irəli çıxmışdı. 996-cı ilədək Xarəzm iki hissəyə ayrılırdı. Cənubi Xarəzm - paytaxtı Kət və Şimali Xarəzm - paytaxtı Ürgənc. Ürgəncdə canişin, Kətdə isə Xarəzmşah titulunu daşıyan hökmdarlar otururdular. 996-cı ildə Şimali Xarəzmin hakimi, mənşəcə türk olan Mə'mun ibn Məhəmməd Xarəzmin hər iki hissəsini birləşdirərək, paytaxt Ürgənc olmaqla Xarəzm dövlətinin əsasını qoydu. Həm Mə'mun ibn Məhəmməd (996-997) və həm də onun oğlu Əli ibn Mə'mun (997-999) Xarəzmi qüvvətli dövlətə çevirməyə başladılar. Bu zaman yuxarıda deyildiyi kimi, Əfqanıstan ərazisində Qəznə şəhərində türk sülaləsi olan Qəznəlilər hakimiyyətə gəlmişdilər. Qəznəli sülaləsindən Mahmud Qəznəli Xarəzmi heç olmasa vassal vəziyyətə salmaq üçün tədbirlər axtardı və bunun üçün qızını Əli ibn Mə'muna, bacısını isə onun qardaşı Mə'mun ibn Mə'muna ərə verdi. Deməli, bu nigahlar siyasi məqsəd daşıyırdı. Mahmud Qəznəli çox varlı

adam idi, o qızı və bacısına eyni vaxtda təntənəli toy etdi, onlara çoxlu daş-qaş verərək, ər evinə yola saldı. Lakin 999-cu ildə Əli ibn Mə'mun öldü, onun yerinə qardaşı Mə'mun ibn Mə'mun keçdi *(999-1017)*. Mə'mun savadlı, ağıllı və siyasətdə ehtiyatlı şəxs idi. Onun vaxtında Ürgəncdə və Buxarada gözəl saraylar tikildi. Bu saraylarda yaxşı kitabxanalar vardı. Məşhur həkim Hüseyn Əli Əbu ibn Sina da məhz Mə'mun ibn Mə'munun kitabxanalarında elmlərə yiyələnmişdi. Baqdad xəlifi Qədir (991-1031) Mə'muna qızıl sapla toxunmuş paltar hədiyyə göndərmişdi. Mahmud Qəznəli bundan narazı düşdü və bacısının əri olan Mə'mundan tələb etdi ki, onun vassalı olsun. Mə'mun çətin bir vəziyyətə düşdü, nə hə, nə yox cavabı vermədi. Məsələ xalqa əyan oldu və ordu şəhərə - Ürgəncə girərək, sarayı tutdu və Mə'munu tutub öldürdü. Hakimiyyətə onun qardaşı oğlu Abülhəris Məhəmməd ibn Əli keçdi. Lakin Mahmud Qəznəli ordu ilə Xarəzmə hücum etdi. 1017-ci ildə baş vermiş döyüşdə Mahmud Qəznəli qalib gəldi və Xarəzm Qəznəlilər dövlətinə birləşdirildi. Xarəzmdə canişinliyə Altuntaş adlı bir türk sərkərdəsi tə'yin edildi.

XI əsrin əvvəllərində Mərkəzi Asiyada türkmənşəli Səlcuq oğuzlarının yüksəlişi başlayır. Bu barədə aşağıda danışılacaqdır. İndi biz yalnız səlcuq-oğuzlarla Qəznəlilərin münasibətlərini nəzərdən keçirəcəyik. Mərkəzi Asiyada Səlcuq hərəkatının başında Toğrulbəy və Çağrıbəy qardaşları dururdular. Onlar Səlcuqun nəvələri idilər. Səlcuq bəyləri oğuzların Kınık tayfasından çıxmışdılar. Onlara məxsus tayfalar Sırdəryanın aşağı axarlarında yaşayırdılar. Lakin onlar Mavərənnəhrdə hakimlə yola getmədiyindən həmin ərazini tərk etdilər və Mahmud Qəznəlinin oğlu Mə'suddan (1030-1041) ərazi istədilər. Lakin Məs'ud buna razılıq vermədi və səlcuq-oğuzların Qəznəlilər dövlətinin Mərkəzi Asiyadakı əyalətlərinə gəlməsinə imkan verməmək üçün onlara qarşı ordu göndərdi. Sərasx yaxınlığında Qəznəli ordusu ilə səlcuq-oğuzların arasında qanlı döyüşdə oğuzlar qələbə çaldılar və bununla da səlcuqlar üçün Nişapura və Xorasana yol açıldı.



1040-cı ildə Sərasx və Mərv arasında Mərkəzi Asiya ərazisində Dəndənəkan adlı çöldə Qəznəvi ordusu ilə Səlcuq oğuzlarının ordusu arasında çox böyük qanlı vuruşma oldu. Qəznəli ordusunun özəyini elə türk tayfaları təşkil edirdi. Beləliklə, iki türk ordusu üz-üzə gəldi. Vuruşma qəznəli ordusunun tam məğlubiyyəti ilə bitdi, ordudan heç kim sağ çıxmadı, Mə'sud Qəznəli bir neçə atlı ilə aradan çıxıb qaça bildi. Bununla da Qəznəlilər dövləti əslində süqut etdi və Mərkəzi Asiyadakı əyalətlərini itirən Qəznəlilər Əfqanıstan ərazisində kiçik knyazlığa çevrildi.

Qəznəli dövlətinin xarabalıqları üzərində Böyük Səlcuq dövləti yaranmağa başladı.

## *§5. Qaraxanilər dövləti*

X əsrin 90-cı illərində Şərqi Türküstan, Yeddi Su (qazaxca Jeti-Su, rusca Semireçye) və Cənubi Tyan-Şanda bir türk dövləti yarandı. Dövlət onu idarə edən və "Qara xan" sülaləsinin adı ilə adlanırdı. Qaraxanilər dövlətinin hakim sülaləsi və onun tarixi haqqında mə'lumatlar az və ziddiyyətlidir. Ərəb müəllifləri Qaraxanilər sülaləsini "Əfrasiabın varisləri" adlandırır və "Arslan xan", "Buqra xan" və "Xaqan" titullarını daşıdıqlarını yazırlar. Bir qrup tədqiqatçılar Qaraxanilər sülaləsini uyğurlara, digərləri karluklara, Türkiyə tarixçiləri isə Altay türklərinə aid edirlər. Son tədqiqatlar Qaraxanilər sülaləsinin türkmənşəli Çiqil tayfasından çıxdığını göstərmişdir. Ehtimal edilir ki, Yaqma adlı türk tayfa birləşməsinin hərbi-feodal əyanları Mərkəzi Asiyaya daxil olmuş və Çiqil adlı türk tayfasının hərbi köməyilə hakimiyyət uğrunda mübarizəyə başlamışdılar. Ərəb müəllifi ibn Fədlana görə hakimiyyət uğrunda mübarizəyə başlamış Qaraxanilərda çoxlu varlı bəylər vardı. Bə'zi bəylərin 10 min atı və 100 min baş qoyunu vardı. Mənbələrdən aydın olur ki, Qaraxanilər sülaləsinin banisi Satuk Buqra xan adlı bir türk olub. Onun atası Bazır Arslan xan adlanmışdır. Satuk bu sülalədən ilk hakim

kimi islamı qəbul etmiş və uşaqlıqda Kaşqar şəhərində (Çin Türküstanında) əmisi Oğulçak Qədir xanın yanına köçmüşdü. Satukun iki oğlu olmuşdur: Baytaş (müsəlmanca adı Musa) və Süleyman. 955-ci ildə Satuk öləndən sonra oğlu Musa (955-975-ci illər) Kaşqarda hakimiyyəti ələ almış və islamı dövlət dini e'lan etmişdir. Ondan sonra hakimiyyətə qardaşı oğlu Harun Buqra xan (müsəlmanca adı Əli) (975-998-ci illər) gəlmişdi. Onların vaxtında dövlətin ərazisi xeyli genişlənmişdi. Belə ki, mərkəzi Tyan-Şanın cənub şərq hissəsi və Kaşqarın şimal rayonları Kaşqara birləşdirilmişdi. Qaraxanilər adlanan sülalə tezliklə indiki Qazaxıstan ərazisinə hücum edib Balasaqun şəhərini (V.V.Bartoldun yazdığına görə bu şəhərin adı monqol dilindəki Balsaqun "şəhər"sözündəndir) tuturlar. Onlar Çu vadisində möhkəmlənərək şimal-şərqə hərəkət etdilər. Daha sonra Qaraxanilər İli çayı hövzələrində yaşayan yaqma, tuxsi, çiqil, çaruk və uqrak türk tayfalarını özünə tabe vəziyyətə salmışdılar. Qaraxanilərın ordusu ilə uqraklar arasında qanlı döyüş haqqında Mahmud Qaşqarlı (X əsr) mə'lumat verir. Qaraxanilər şimalda İrtış çayı sahillərində yaşayan imək türk tayfası ilə də uzun müddətli döyüşlər keçirdilər. Şimal şərqdə Qaraxanilərın əsas düşməni Yabaku adlı türk tayfa birləşnıəsi idi. Mahmud Qaşqarlı Arslan-Tiqinin başçılığı ilə Qaraxanilər ordusunun Buqa-Budraçın başçılığı ilə Yabaku tayfası arasındakı döyüşü də təsvir edir.

Mahmud Qaşqarlının mə'lumatları əsasında demək olur ki, Qaraxanilər dövləti şimal-şərqdə Balxaş, Sasık-kul (yə'ni Sasıkgöl) və Ala-Kul (Ala-Göl) istiqamətlərində sərhədlənirdi. Mərkəzi Tyan-Şanda və Qazaxıstan ərazisində möhkəmlənmiş qaraxanilər qərbə tərəf hərəkətə başladılar. Qərbdə Fərqanə və Mavərənnəhr yerləşirdi. X əsrin 80-ci illərinin axırlarında qaraxanilər Fərqanəni və 930-cu ildə İsficabı tuturlar.

Bu vaxt Samanilər dövləti hansı ki, bu ərazilər ona tabe idi, böhran keçirirdi. Türk mənşəli Əbu-Əli və Faiq adlı qüvvətli feodallar samanilərın əmiri II Nuh ibn Mənsurun (976-997) hakimiyyətini tanımaq belə istəmirdilər. 992-ci ildə Qaraxanilər hökmdarı Harun Buqra xan ordusu ilə Buxaraya hərəkət etdi. Baş vermiş döyüşdə Saman qoşunu başda sərkərdə Ayaz olmaqla məğlub oldu.



Samanilərə qulluq etmiş türk feodalları Əbu Əli və Faiq Qaraxanilərın tərəfinə keçdilər. Qaraxanilər ordusu ilə Saman ordusunun böyük növbəti döyüşü ***Xarcəng*** adlı yerdə baş verdi. Saman ordusunda vuruşan Faiq elə etdi ki, Qaraxanilər ordusu qələbə çalsın. Qaraxanilər xaqanı Harun Samanilərin paytaxtı Buxaranı tutdu. Az sonra, 992-ci ildə Harun vəfat etdi. 996-cı ildə Qaraxanilər ordusu Nəsir ibn Əli (Əbu Əlinin oğlu) başda olmaqla yenidən Mavərənnəhrə səfər etdi. Samanilər ordusunun başçısı Sebuk-Tiqin Nəsir ibn Əli ilə danışığa girdi və Amudəryadan şimaldakı ərazini verməklə razılığa gəldilər. Samanilərin sarayında iğtişaş baş verdi və saray adamları Saman hökmdarı Mənsur ibn Nuhu (997-999) tutub gözlərini çıxartdılar və 10 oktyabr 999-cu ildə Nəsir ibn Əli Buxaranı tutmaqla Samanilər dövlətinə son qoyuldu.

Bundan sonra qaraxanilər Xorasanı tutdular. Qaraxanilər ordusunun sərkərdələri Cəfər-Tiqin, Subaşi-Tiqin (qədim türk dillərində su "ordu", "hərbi drujina" deməkdir, Tiqin isə şəhzadə mə'nasındadır) Xorasan şəhərləri Herat və Bəlxi tutdular. Nəticədə Qaraxanilər dövləti Mərkəzi Asiyanın böyük bir dövlətinə çevrildi. Qaraxanilər hakimiyyətə gəldikdə Mərkəzi Asiya əyalətlərinin çoxunda yerlərdə hakimlər karluklar idilər. Karluk və çiqil tayfalarından olan bəylər Qaraxanilərə qulluq etməklə mövqelərini saxlamışdılar. Harun Buqra xandan sonra onun yerinə oğlu İlik xaqan (müsəlmanca adı Əhməd) keçdi (998-1017-ci illər). O, Səmərqəndi və Buxaranı işğal etdi. 1024-1025-ci illərdə Qaraxanilər dövlətində hakimiyyət Qaraxani sülaləsinin başqa bir qolundan olan Yusif Qədir xana keçdi. O, əvvəlki Qaraxanilər xaqanı Əli-Tiqinə qarşı mübarizəyə başladı və hakimiyyəti ələ keçirdi.

Yusif Qədir xanın böyük oğlu Əbu Şuca Süleyman Arslan xan hakimiyyətə keçdikdə 1043-cü ildə dövlətin ərazisini qardaşları və qohumları arasında bölüşdürdü. Balasaqun və Kaşqarı özü götürdü. Qardaşları Buqra xan Məhəmmədə və Arslan- Tiqinə isə Tarax və İsficab əyalətlərini, əmisi

Tuban xana Fərqanəni, Əli-Tiqinin oğluna (yə'ni qardaşı oğluna) isə Buxara və Səmərqəndi verdi. Beləliklə, Qaraxanilər dövləti iki müstəqil xaqanlığa bölündü: Şərq xaqanlığının mərkəzi Balasaqun, sonra isə Kaşqar, Qərb xaqanlığının mərkəzi Uzkənd, sonra Səmərqənd oldu. Əli-Tiqin öləndən sonra Mavərənnəhrdə hakimiyyət uğrunda mübarizə başlandı, nəticədə XI əsrin 40-cı illərinin əvvəllərində hakimiyyətə Buru-Tiqin İbrahim ibn Nəsir gəldi və o, "Tamqac xan" titulunu qəbul etdi.

Qaraxanilərin şərq hissəsinin başçısı Toğrul Kara xan İbrahim ibn Nəsirin oğlanlarının hakimiyyət uğrunda mübarizəsindən istifadə edərək, 1069-1070-ci illərdə Qərbi Qaraxanilərla mübarizəyə başladı və bir sıra əyalətləri ondan qopardı.

Bu vaxt Səlcuq türklərinin (oğuzların) sultanı Məlik şah artıq qüvvətlənmişdi, çünki o, 1089-cu ildə Buxara və Səmərqəndi tutmuşdu. Həm də bu vaxt Qərbi Qaraxanilərda müsəlman ruhaniləri arasında ziddiyyət yaranmışdı. Müsəlman ruhanilər Məlikşaha müraciət etdilər. Məlikşah Əhmədi hakimiyyətdən kənar etdi və özü Xorasana yola düşdü. Bu vaxt Səmərqənddə türk çiqil tayfası üsyan qaldırdı və Şərqi Qaraxanilərdan xaqanın qardaşı Yaqub Tiginə müraciət etdilər. O, Səmərqəndə gəldi, lakin nədənsə çiqillərin üsyan başçısı ilə düz gəlmədi, onu tutub başını kəsdi və atının yəhərinə bağladı. Onda Sultan Məlikşah yenidən Xorasandan Mavərənnəhrə qayıtdı, Yaqub-Tiqin qaçdı, sultan Buxara və Səmərqəndi tutdu və Şərqi Qaraxan xaqanına adam göndərdi ki, Yaqub-Tiqini tutub ona göndərsin. Qaraxani xaqanı onun bu təklifini qorxudan yerinə yetirdi, lakin bu zaman Xorasanda vəziyyət dəyişdiyinə görə tez ora qayıtdı.

1092-1093-cü illərdə ruhanilər xaqan Əhməd xana qarşı yenə üsyan etdilər və onu tutub kafirlikdə təqsirləndirərək dərisini soydular. XI əsrin II yarısında Şərqi Qaraxani xaqanlığının başında Süleyman ibn Yusif, Qərbi Qaraxani xaqanlığında isə qardaşı Məhəmməd xaqan dururdu. Lakin 1097-ci ildə Məhəmməd qəfildən hücum edərək qardaşı Süleymanı tutub dama saldı və şərqi xaqanlıqda hakimiyyəti ələ aldı.



Bəhanə bu oldu ki, guya Süleyman dövlət işi ilə məşğul olmur, bütün gününü sarayda gözəl arvadlarla keyfdə keçirir. Məhəmməd və'd etdi ki, ondan sonra hakimiyyətə birinci arvadından olan oğlu Hüseyn keçəcək. Bu söhbət xaqanın ikinci arvadını narazı saldı, çünki o da oğlan doğmuşdu. Ona görə də bu arvad ərini öldürmək planını qurdu. Axşam əri onun otağında olanda, qəsdən naz-qəmzələndi, ərinə dedi ki, istəyir özü onu yedirtsin, içirtsin. Xaqan da razı oldu. Dəmlənmiş ərinə arvad orada zəhərli içki içirtdi və onu zəhərlədi. Arvad tez sarayda ona sadiq olan nökərlərinə (o, nökərlərin bir başçısını özünə yaxın etmişdi) əmr etdi ki, ərinin bütün qohumlarını, o cümlədən öz günüsünü (yə'ni xaqanın birinci arvadını) və xaqanlığa namizəd oğlunu öldürtsünlər. Qardaşı tərəfindən dama salınmış Süleymanı isə boğdurdu. Bundan sonra arvad kiçik yaşlı oğlu İbrahimi xaqan taxtına oturtdu. Sonra da bu xatun oğlundan tələb etdi ki, hakimiyyətini qüvvətləndirmək üçün nüfuzlu hakim Barsxan İnal-Tiqinə qarşı müharibə etsin. Lakin döyüşdə İbrahim öldürüldü və anası da buna dözməyib, Barsxanın əlinə keçəcəyindən qorxaraq özünü öldürdü. Bununla da, əslində Qaraxanilər dövlətinin sonu çatdı, çünki az sonra XII əsrin 40-cı illərinin əvvəllərində türk tayfası kidanlar (yaxud qara kitaylar) Qaraxanilər dövlətini vassal vəziyyətinə saldılar. Qaraxanilər dövləti onlara illik xərac verirdi. 1212-ci ildə Xarəzmşah Məhəmməd bu dövlətə son qoydu.

### *§6. Kidanlar dövləti*

V-VI əsrlərdə indiki Monqolustan, Mancuriya və Uzaq Şərq arası ərazidə bə'zi türk, monqol və tunqus mənşəli tayfaların ittifaqı yarandı. İttifaq əsasında 698-ci ildə Mancuriyada ilk dövlət qurumu olan Boxay dövləti təşəkkül tapdı. Tədqiqatçılara görə bu qurum əsasən tunqus mənşəli Moxe tayfasının dövləti idi. Lakin onu qədim türk tayfalarının qurumu olduğunu sayanlar da vardır. 924 -cü ildə Qara kidan

(əslində bu *tayfanın adı Kitaydır.* Çinin şimal əyalətlərində də yaşadıqlarına görə əraziləri də Kitay adlanırdı) adlı türk tayfası Boxay dövlətini zəbt etdi. Sonrakı illərdə kidanlara qarşı yerli tayfaların mübarizəsi başlandı və üsyan baş verdi. Kidanlar geri çəkilməli oldular.

Bu vaxt Uzaq şərqdə Çin mənbələrində Çurçen adlandırılan bir tayfa da yaşayırdı. Bu tayfa Sunqari, Ussuri və Amur çaylarının hövzələrində və Çanbayşan dağlıqərazidə yaşayırdı. Çurçenlər çox igid və döyüşkən idilər. Onlar həm əkinçiliklə, həm də maldarlıqla məşğul olurdular. Mənbələrə görə onlar 72 tayfadan ibarət idilər.

X əsrin əvvəllərində feodal Ambaqan qara kidan (qara kitay) tayfalarını birləşdirərək, qüvvətli tayfa ittifaqı yaratdı və 927-947-ci illərdə Çinin şimalını işğal etdilər. Pekin şəhəri onların paytaxt şəhəri oldu.

985-ci ildə kidanlar çurçenlərin yaşadığı ərazilərə qarət məqsədilə növbəti hərbi səfər təşkil etdilər. 993-cü ildə bir mənbəyə görə 880 minlik kidan ordusu çurçenlərin şəhər və kəndlərini dağıtdı. Onda Çurçen tayfa ittifaqının Şilu adlı bir başçısı kidanlara qarşı mübarizəyə başladı. Onun oğlu Uqun-Ay (1021-1074-cü illər) qüvvətli dövlət yaratdı. Sonra onun yerinə keçən 19 yaşlı oğlu Xelibo (1074-1092-ci illər) və varisi Polaşu (1092-1094-cü illər) vaxtında çurçenlərin qüvvətli dövlət ortaya çıxdı. Çin mənbələrində bu dövlət "Qızıl imperiya" adlanır. Onlar 1114-cü ildə kidanları qovub Şimali Çindən çıxartdılar.

Kidanlar başda "qurxan" adlanan Yeloydaşı xan olmaqla Mərkəzi Asiyaya hərəkət etdilər. Feodal ara müharibələri nəticəsində zəifləmiş Qaraxanilər dövləti qara kitaylara (yaxud qara kidanlara) müqavimət göstərə bilmədilər. Kidanlar Yeddi-Su əyalətini və Cənubi Qazaxıstanı işğal etdilər. Mənbələrə görə onların miqdarı 40 min çadır, yə'ni təxminən 200 min nəfər idi.

Karluk feodalları Yeloydaşın tərəfini saxlayaraq onlara İli çayının hövzələrini zəbt etməkdə köməklik etdilər. Yeloydaşı karluk bəyləri ilə birlikdə Balasaqun (indi xarabalıqları



Ak-Pişin adlanır) şəhərini də tutdular. Yeloydaşı Amudərya və Sırdərya çayları arası əraziyə hərbi səfərlərə başladı. 1137-ci ildə qara kitaylar Səmərqəndi, sonra da Buxara və Xarəzmi tutdular. Beləliklə, Mərkəzi Asiyanın böyük hissəsi və Cənubi Qazaxıstan qara kitayların hakimiyyəti altına düşdü.

Qurxan Yeloydaşı Yeddi-Su əyalətində hakimiyyəti yerli feodallara verdi. O, bu ərazidən vergi almaqla kifayətləndi. Qurxan yerli feodalların iqtalarını ləğv etdi, onlara yalnız əhalidən vergi yığmaq hüququnu verdi: hər ailədən bir dinar vergi alınırdı.

Qara kitayların hakimiyyəti yerli əhalini yoxsul vəziyyətə salmışdı. Tacirlər və sənətkarlar verginin ağırlığından müflisləşdilər, nəticədə ticarət və sənətkarlıq istehsalı zəiflədi. Dini mənsubiyyətcə buddist olan kidanlar islam dinini də sıxışdırmaq siyasətini yürüdürdülər.

1141-ci ildə kidanlar yenə də Mavərənnəhrə daxil oldular. Bu dəfə Sultan Səncər Qaraxanilər dövlətinin tərəfini saxladı. Qaraxanilərın Səmərqənddə hakimi Mahmud xanın və Sultan Səncərin birləşmiş qoşunları ***Katvan*** çölündə kidanların ordusu ilə üz-üzə gəldilər. Vuruşma Səncərin məğlubiyyəti ilə bitdi və ordusundan 30 min nəfər döyüşçü öldürüldü. Səncər və Mahmud Tərməzə qaçdılar. Səncərin düşərgəsi və arvadı Türkan xatun qurxanın əlinə keçdi. Kidanlar Səmərqənd və Buxaranı işğal etdilər.

1143-cü ildə qurxan Yeloydaşı öldü. Onun oğlu yox idi, ona görə "qurxan" adı ilə hakimiyyətə əvvəlcə arvadı, sonra da qızı keçdi. Belə bir şəraitdə bir tərəfdən qurxanın qohumları hakimiyyət uğrunda mübarizəyə başladılar, digər tərəfdən kidanların hakimiyyətinə qarşı əyalətlərdə iğtişaşlar başlandı. Nəticədə kidanların hakimiyyəti zəiflədi. Əvvəlcə Xarəzm, sonra Mərkəzi Asiyanın digər əyalətləri ayrıldılar.

1208-ci ildə Monqolustanda Çingizxan tərəfindən məğlub edilmiş nayman tayfaları Yeddi-Su əyalətinə gəldilər və qurxan Çjuluxu (yazılışı çincədir) ilə ittifaqa girərək, Mavərənnəhrin kidanlara tabe olmayan yerli hakimlərinə qarşı mübarizəyə başladılar. Qurxan naymanların xanı Kuçluka si-

lah verdi. Lakin Kuçluk yaxşı silahlanmış ordu yaratdıqdan sonra qurxana qarşı düşmən mövqe tutdu. O, Üzkəndə hücum edərək qurxanın oradakı xəzinəsini ələ keçirdi. Daha sonra Kuçluk Balasaqunu tutmaq istədikdə kidanlar tərəfindən məğlub edildi.

1210-cu ildə Xarəzmşah Məhəmməd Səmərqənd əyalətinin hakimi Osmanla birləşib Yeddi-Su əyalətinə hücum etdi. Həmin ilin 9 sentyabrında onların arasında qanlı vuruşma baş verdi, lakin heç bir tərəf qalib gəlmədi və tərəflər döyüş meydanından çəkildilər. Kidanların ordusu Balasaquna gəldi, lakin mə'lum oldu ki, şəhərin hakimi də Xarəzmşahla əlaqədədir. Kidan ordusu ona görə şəhəri 16 gün mühasirədə saxladı, şəhər alındıqdan sonra üç günlük qarətə buraxıldı. Mənbələrdən aydın olur ki, bu qarət vaxtı şəhər əhalisindən 47 min nəfər adam öldürülmüşdü. 1210-cu il döyüşündən sonra Xarəzmşah öz ölkəsinə gəldi və yeni hərbi səfərə hazırlaşmağa başladı. Osman da onun tərəfində idi. Bu vaxt Osman Xarəzmşah Məhəmmədin qızına evləndi. Xarəzmşah mənşəcə türk idi və onun anası Türkan xatunun tələbi ilə kürəkəni Osman bir il qızgildə (yə'ni Xarəzmşahın ailəsində) qalmalı idi. Qədim türk adəti belə idi ki, oğlan qıza evləndikdən sonra bir il qızgildə qalıb onun ata-anası üçün işləməli idi.

1211-ci ildə Xarəzmşah Məhəmməd Səmərqəndə gəldi. Onun əsas məqsədi kidanlara qarşı hərbi səfər təşkil etmək idi. Şəhər əhalisi Xarəzmşahı yaxşı qarşılamadı, çünki hakimləri Osmanı Xarəzmşah sarayda girov saxlayırdı. Ona görə şah türk adətini pozub Osmanı arvadı ilə vaxtından tez saraydan çıxartdı və Səmərqəndə gətirtdi. Lakin nədənsə Osmanın qayınatasına qarşı fikri dəyişmişdi. 1212-ci ildə o, öz adamları ilə Xarəzmşah əleyhinə üsyan qaldırdı. Bunu eşidən Xarəzmşah Məhəmməd böyük ordu ilə Səmərqəndə gəlib onu tutdu və üç günlük qarətə verdi. Osmanın arvadı (Xarəzmşahın qızı) atasından tələb etdi ki, əri Osmanı öldürsün. Xarəzmşah elə də etdi. Belə ki, əvvəlcə kürəkəni Osmanın, sonra da bütün yaxın qohum-əqrabasının başını kəsdirdi. Mənbələrdə qeyd olunur ki, bu cəzalar veriləndə



Xarəzmşahın qızı yaxında durub ərinin və onun qohumlarının kəsilmiş başlarına tamaşa edirdi.

Kidanların əlində olan Şərqi Qaraxanilər əyalətlərində isə karluklar baş qaldırdı. Onların xanı Mamdu xan Kuçlukla (naymanların xanı ilə) ittifaq bağladılar və qurxana qarşı hərbi səfərə yollandılar. 1211-ci ilin payızında Kaşqara gəlib, meşədə ov edərkən axırıncı qurxan Çilqunu (Çin mənbələrində Çjilqu) tutub başını kəsdilər və hakimiyyət Kuçlukun əlinə keçdi. Kuçluq qurxanın sarayını ələ keçirdi, qızlarını öz yaxın sərkərdələri arasında bölüşdürdü. Eyni zamanda o, qurxanın tərəfində duran Qaşqar hakimlərini də öldürdü. Sonra da Kuçluk Xotana getdi və oranı da qarət etdi. Almalıq əyalətinin hakimi Buzar Kuçluqa qarşı çıxmaq istədi, lakin bir gün ov vaxtı pusquda durmuş Kuçluqun əlinə keçdi. Kuçluq onun oradaca başını kəsdi. Elə bu vaxt Çingiz xanın məşhur sərkərdəsi Cəbə-noyon (bu sərkərdə Subutay adlı digər monqol sərkərdəsi ilə birlikdə sonra Azərbaycanı da tutmuş, Mil düzündə Beyləqan şəhərini elə dağıtmışdı ki,o vaxtdan indiyədək Örənqala adı ilə xarabalıqları qalır) qoşun ilə Almalıq və Balasaqunu tutub, Qaşqara yaxınlaşdı, şəhəri ələ keçirib Kuçluqu tutub başını kəsdi. Tezliklə monqollar bütün Mərkəzi Asiya və Qazaxıstan ərazilərini tutdular və beləliklə, Kidan dövlətinə son qoyuldu.

***Qaraxanilər və Kidan dövlətlərində təsərrüfat və siyasi quruluş.*** Qaraxanilər dövləti feodal dövlət idi. Onun ərazisi əyalətlərə bölünmüşdü. Hər əyalətin başında xaqan tərəfindən tə'yin olunan və "iləkxan" adlanan canişin dururdu. İləkxan ona tabe əyalətdə məhkəmə və vergi məsələlərinə baxırdı. Bu canişinlər dövlətə hərbi xidmətlərinə görə iqta adlanan iri torpaq sahələrinə malik olduqlarına görə farsca iqtadar adlanırdılar.

Qaraxanilərın hakimiyyəti illərində Mərkəzi Asiyada əkinçilik, sənətkarlıq və ticarət inkişaf etmişdi. Şəhərlərdə islam dini təhsil ocaqları açılmışdı. Mədəniyyət öz dövrünə görə yüksəliş dövrü keçirirdi. Yusif Balasaqunlunun "Kutadqu biliq" (Xoşbəxtlik bəxş edən elm") əsəri bu dövrdə yaranmış-

dı. Uzkənd şəhərində zəngin naxışlı portallı türbələr tikilmişdi. Hindistan və Ön Asiya dövlətləri ilə ticarət əlaqələri genişlənmişdi. Qaraxanilər dövlətində, sonra da onun yerində qərarlaşmış Kidan dövlətində əhalinin məşğuliyyətinin əsasını maldarlıq təşkil edirdi. Əhalinin əksəriyyəti türk tayfalarından ibarət idi. Lakin bu köçəri maldarlıq yaylaq-qaşlaq maldarlığı idi, yə'ni maldar ellər yayda yaylaqlara, qışda qışlaqlara gedirdilər. Ona görə də həm əkinçiliklə, həm də sənətkarlıqla məşğul olurdular.

Çu və Talas çayılarının hövzələrində, Kara-Tau ("Qaradağ" deməkdir) dağlarının şimal yamaclarında əhalinin əksəriyyət hissəsi əkinçi idi. Maldarlar ən çox qoyun saxlayırdılar, lakin qaramal da saxlayırdılar, çünki yeməklərin əsasını maldarlıq məhsulları təşkil edirdi. "Hüdud əl-Aləm" ( X əsr) adlı bir anonim (müəllifi mə'lum deyil) farsca coğrafi əsərdə qeyd olunur ki, Qaraxanilər dövlətinin şərq hissəsinin əhalisi olan yaqma, karluk, çiqil, tuksi və qırğız tayfalarının əsas var dövləti qoyun, inək və atdır. Mərkəzi Tyan-Şanda əhali dəvə və keçi də saxlayırdı. Yusif Balasaqunlunun əsərində maldarların yeməklərinin adları çəkilir: kumıs (at südü), süd, yun, yağ kurt (azərbaycan dilində "qurut", bu qurudulmuş pendir yumrusudur ), süzmə və s. Maldarlar alaçıq və çadırlarda yaşayırdılar. Həmin müəllif yazır ki, köçərilərdə kiyik (ceyran, "Kitabi Dədə Qorqud" eposunda "keyik"), maral, sayçaq və ayı ovu geniş yayılmışdı. Mal-qaranı və qoyunu canavardan qorumaq üçün tələlər (kələklər) qururdular. Bunup üçün canavar keçidlərində quyular qazıyır, üstünü nazik otla örtürdülər, qəsdən quyuların yaxınlıqlarında isə ağaca qoyunlar bağlayırdılar. Qoyunu görən canavar hücum etdikdə quyuya düşürdü. Türk tayfaları ov itlərindən (tazılardan) və ev quşlarından da istifadə edirdilər.

X-XII əsrlərdə Qaraxanilər və Kidan dövlətlərində köçərilərin tədriclə oturaq həyata keçməsi prosesi genişlənmişdi. Qaraxanilərın xaqanları və Kidan qurxanları əkinçilər üçün müəyyən güzəştlər qoyurdular və bununla maldarları əkinçiliyə sövq etdirirdilər. Müharibələr vaxtı əkinləri tapdalamaq və əkinçilərə toxunmaq qadağan idi. Mahmud Qaşqari Mərkəzi Asiya türklərinin işlətdiyi əkinçilik terminlərini vermişdir: omaç (azərbaycan dilində "omac"), xış, bukursı "xışın dəmiri" (azərbaycanlılarda ona "gavahın" deyilir ki, bu fars sözüdür, gav "öküz" və ahən "dəmir" sözlərindəndir), kətmən, oraq və b. Bundan başqa müəllif tarıq, yə'ni "darı" və arpa sözlərini də çəkir.



Qaraxanilər və Kidan dövlətlərində feodal torpaq sahibliyi hakim idi. Feodal torpaq sahibliyinin bir neçə forması var idi. Onlardan biri "iqta" adlanırdı. Yuxarıda deyildiyi kimi, bu, hərbi xidmətlərinə görə bəylərə bağışlanmış torpaq sahəsi idi. İqta torpaq sahəsində yaşayan əhali həm iqta sahibinə, həm də dövlətə vergi verirdi. İqta sahibi "iqtidar" adlanırdı (Azərbaycan dilində indiki "iqtidar" sözü də buradandır). Lakin iqta sahibi bu torpağı öz mülkünə çevirə bilməzdi. Feodal torpaq sahibliyinin digər forması "xaqan" (və ya qurxan) torpaqları idi. Bu "əmlaki xas" adlanırdı. Bundan başqa "divan" (saray) torpaqları da vardı.

Yusif Balasaqunlunun əsərindən aydın olur ki, Qaraxanilər dövründə əhali qara camaat adlanır ki, buna qədim türklər "kara-budun" deyirdilər ("camaat" sözü bizdə ərəb sözüdür) və üç təbəqədən ibarət idi: sıravi ailələr (çıqaylar), orta ailələr (ortalar) və varlılar (bəylər). Şəhər əhalisinin yoxsul adamları "əyyar" adlanırdı. Mənbələrdən aydın olur ki, bu dövlətlərdə qul əməyindən hələ də geniş surətdə istifadə olunurdu, lakin qullar əsasən mülkədarlara məxsus təsərrüfatlarda işlədilirdi.

Qaraxanilər və Kidan dövlətlərinin ərazisində ticarət əhalinin ictimai həyatında mühüm yer tuturdu. Qeyd edilməlidir ki, qabaqkı Türk xaqanlıqlarından fərqli olaraq Qaraxanilərdə və Kidanlarda xaqanlar və qurxanlar alaçıqlarda yox, şəhərlərdəki saraylarda yaşayırdılar. Qədim müəlliflər bu dövlətlərin ərazilərində çoxlu şəhərlər qeyd edirlər, onların bə'ziləri qala divarları ilə təchiz olunmuşdu. Sənətkarlıq-ticarət şəhərləri içərisində Çu vadisində Balasaqun şəhəri xüsusilə seçilirdi. Həm də Kuz-Uluş və Kuz-Ordu adları ilə mə'lum

olan bu şəhərin dəqiq yeri mə'lum deyil, güman olunur ki, Qazaxıstanda indiki Tokmak şəhəri yaxınlığında idi. Qaraxanilərdə və Kidanlarda pul buraxılırdı ki, bu da ticarət və sənətkarlığa təkan verən mühüm amil idi. Bazarlarda həm qızıl dinar, həm gümüş dirhəm, həm də mis pul işlədilirdi. Qədim türklər pula "təngə" deyirdilər (rus dilindəki "denqi" sözü də buradandır). Türklərdə dinar uluqluk altın, gümüş pul əqinqə və bənək adlanırdı.

Qeyd edilməlidir ki, Qaraxanilər dövründə qədim türklərdə işlədilən bir sıra vəzifə adları və titullar fars sözləri ilə əvəz olunmuşdu. Lakin sarayda ipək paltarları saxlayan aqiçi, qonaqları qəbul edilməsinə başçılıq edən - baruk, xörək bişirənlərin başçısı - aşçi, yazı yazanlar - bitikçi və s. adlanırdı. Vəzir yoqruş, ordu sü və çərik, sərkərdə sübaşı, tərcüməçi yalavac və s. adlanırdı.

## *§7. Xarəzmşahlıq*

Yuxarıda biz Qəznəlilər dövlətindən danışarkən Xarəzm dövlətinin yaranması və sonra da onun qəznəlilərdən Mahmud tərəfindən tutulduğunu qeyd etmişdik. Sonra da demişdik ki, 1040-cı ildə məşhur ***Dəndənəkan*** döyüşündə Səlcuq türkləri qəznəlilərin ordusunu məğlub etdi və bundan sonra Qəznəlilər dövləti süquta doğru getməyə başladı. Qəznəlilərdən sonra Xarəzm əyaləti müstəqillik qazandı. Lakin XI əsrin II yarısında səlcuqların sultanlarından Məlikşahın (1072-1092) sarayında Anuş-Tiqin adlı bir türk nökər (qulam) sür'ətlə irəli çıxdı, Xarəzmin idarəçiliyinə yol tapdı və oranın əmiri tə'yin edildi (Anuş-Tiqin əvvəllər sultanın əl-üz yuyulan yerinin rəisi vəzifəsini yerinə yetirirdi). Anuş-Tiqin Səlcuq əmiri Bilgə-Tiqinin qulamı idi. Anuş-Tiqinin oğlu Qütbəddin Məhəmməd 1097-ci ildə Səlcuq sultanı Börküyarıq tərəfindən Xarəzmin hakimi tə'yin olundu. O, 1128-ci ilədək Xarəzmdə hökmranlıq etdi. Onun oğlu Atsızın vaxtında Xarəzm müstəqilliyə doğru getməyə başladı və ən'ənəvi



"Xarəzmşah" titulunu qəbul etdi. Atsız (1127-1156) çoxbilmiş diplomat və məharətli sərkərdə idi. O, qıpçaq və türkmən tayfaları ilə müharibəyə başladı və Manqışlağı ələ keçirdi. Bu vaxt Mərkəzi Asiyada Qara Kitay (Qara Kidan) dövləti də yaranmışdı. 1138-ci ildə Kidan qurxanı Xarəzmə basqın etmişdi. Onda Mərkəzi Asiya Səlcuq dövlətinin hökmdarı sultan Səncərin və Qaraxanilərın xanı Mahmudun birləşmiş orduları 1141-ci ildə baş vermiş ***Katvan*** döyüşündə məğlub olmasa da, 30 min nəfər döyüşçüləri öldürülmüşdü. Səncərin arvadı Türkan xatun qurxanı öldürtdürüb yerinə keçdi. Atsız bu şəraitdən istifadə edərək, 1141-ci ildə Mərvi qarət etdi, 1142-ci ildə Nişapuru tutdu. Lakin tezliklə o, geri çəkildi və 1156-cı ildə öldü. Onun yerinə qardaşlarını öldürmüş İl-Arslan (1156-1172) keçdi. Bu vaxt Mərkəzi Asiyada Səlcuq sultanlığı və Qaraxanilər dövlətləri süqut etdi. Yeganə təhlükəli qüvvə Kidan dövləti idi. Kidanların Mavərənnəhrə növbəti hərbi səfəri zamanı Arslan öldürüldü. Onun yerinə oğlu Təkəş (1172-1200) keçdi. Xarəzmin müstəqil dövlətə çevrilməsi məhz onun adı ilə bağlıdır. Təkəşin qardaşı Sultanşah qara kidanların köməyilə hakimiyyəti ələ almağa təşəbbüs etsə də, lakin məğlub oldu. Onun yüksəlməsinə mane olan yeganə bir şəxs vardı ki, bu da Herat şəhərində hakim Qiyasəddin Məhəmməd idi. Çünki Mərkəzi Asiyada səlcuqların hakimiyyəti zəiflədiyinə görə o, Xorasanda qüvvətlənmişdi. 1174-cü ildə Təkəş Cənubi Xorasanı tutdu və oranın hakimi Müəyyid ay-Abanı əsir tutub başım kəsdi. Onun oğlu Tuqanşah özünü Təkəşin vassalı hesab etməyə başladı. Lakin Təkəş bununla kifayətlənmədi. 1187-ci ildə o, Nişapuru, 1192-ci ildə Reyni, 1193-cü ildə Mərvi tutdu, bununla da İranın şərq hissəsini zəbt etdi və Qiyasəddini də sıxışdırdı. Onun yerinə oğlu Alaəddin Məhəmməd ibn Təkəş (1200-1220) keçdi. Məhəmməd Buxaranı da tutub Xarəzmə birləşdirdi. 1207-ci ildə o, Qiyasəddinin əyalətini tutaraq öz oğlu Cəlaləddinə verdi. Həmin Cəlaləddin sonra monqollara qarşı vuruşanlardan biri olacaq və Cənubi Qafqazı tutacaq. 1210-cu ildə o, Kidan dövlətinin ordusunu məğlub edərək, onu Xarəzm və Mavərən-

nəhr üçün qorxulu rəqib kimi sıradan çıxartdı və Mərkəzi Asiyada iri dövlətin əsasını qoydu.

Məhəmmədin anası Türkan xatun dövlətin idarə olunmasında xüsusi rol oynayırdı və Xarəzmşah onun məsləhətlərinə həmişə əməl edirdi. Xarəzmşahlıq dövlətinin yüksəldiyi bir vaxtda Monqolustanda onun qənimi Çingiz xan yetişməkdə idi.

***İctimai quruluş və təsərrüfat.*** Yazılı mənbələr və arxeoloji qazıntılar Xarəzmşahlıq dövlətində ictimai quruluş və əhalinin təsərrüfat həyatı haqqında ətraflı nəticələrə gəlməyə imkan verir.

Xarəzm Mərkəzi Asiyanın mühüm ticarət yollarının qovşağında yerləşirdi. Xarəzm əyalətinin şəhərlərində sənətkarlıq və ticarət çox inkişaf etmişdi. Böyük İpək yolunun bir qolu oradan keçirdi. Xarəzm bazarlarında müxtəlif ölkələrdən gətirilmiş mə'mulat satılırdı. Xarəzm dövləti hətta Şərqi Avropa ilə ticarət əlaqələri saxlayırdı. Karvan yollarının ətrafında karvansaraylar tikilmişdi.

Xarəzmdə kənd təsərrüfatında əkinçilik maldarlığa nisbətən üstün mövqe tuturdu. XI-XII əsrlərdə Xarəzmdə feodal torpaq sahibliyi vardı. Ərəb coğrafı Yaqut Həməvi Xarəzm haqqında deyirdi ki, orada kəndlilər "ağır zəhmətə alışmışlar". Əvvəllərdə olduğu kimi, iqta torpaq sahibliyi geniş yayılmışdı. Orduda xidmətə görə əmirlərə iri torpaq sahələri verilirdi. Xarəzmşah Təkəşin bir fərmanından aydın olur ki, iqta sahibi ərazidə olan kəndlilər üzərində məhkəmə hüququna da malik idi.

Xarəzmşah Məhəmmədin anası Türkan xatun hərbi feodallara çox imtiyazlar vermişdi. Bundan əsas məqsəd Xarəzmin xarici düşmənlərə qarşı qüvvətli ordu yaratmasından ibarət idi. Türkan xatun özü cavanlıqda, hələ qız vaxtı döyüşlərdə vuruşmuşdu və ona görə hərbi işi yaxşı bilirdi. Türkan xatun qıpçaqların Kanqlı (Qanlı) tayfasından idi. Qeyd etmək lazımdır ki, bir sıra Mərkəzi Asiya xalqlarının etnogenezində iştirak etmiş qanlı tayfasının bir hissəsi sonra səlcuqların tərkibində Cənubi Qafqaza gəlmişdi. Azərbaycanda, Gürcüstanda və Ermənistanda bir sıra Qanlı kəndləri bu



elin məskunlaşdığı Xarəzmşahlıq sarayında qıpçaq-qanlıların nüfuzu artdığına və Türkan xatun tərəfindən müdafiə edildiyinə görə başqa türk tayfalarından olan əmirlər içərisində narazılıq yaranmışdı və nəticədə, onlar Türkan xatunun qızğın tərəfdarı şeyx Tacəddini saraydan qovmağa nail olmuşdular. Xarəzmşahlıq dövlətində əsas aparıcı qüvvə türk tayfaları idi. Ordunun əsasını da türk tayfaları təşkil edirdilər.

Dövlətin ali hakimiyyət orqanlarında feodallar (bəylər və tarxanlar) arasındakı çəkişmələr və qruplaşmalar 1220-ci ildə monqolların Xarəzm dövlətinin qısa müddətdə işğalı üçün əlverişli şərait yaratmışdı.

## *§8. Oğuz dövləti*

VIII əsrin əvvəllərində Qərbi Türk xaqanlığı zəifləməyə başladı. Nəticədə Mərkəzi Asiyada yaşayan türkəşlər müstəqillik qazandılar və 740-cı ildə axırıncı türk hökmdarını öldürərək, xaqanlığa son qoydular. Bundan sonra Şərqi Türküstanda uyğurların, Yeddiçayarası (Yeddi-Su) ərazidə karlukların, Aralətrafı ərazidə oğuz tayfalarının ittifaqları yarandı. Türk xaqanlığında yaşayan türk tayfalarından biri 9 boydan ibarət oğuzlar idi.

Oğuz türklərinin mənşəyi aydın deyil. Tədqiqatçılara görə onlar Qərbi Türk xaqanlığının süqutundan sonra Mərkəzi Asiyaya gəlmişdilər. VII əsrin II yarısı və VIII əsrin I yarısında onlar "Tokuz oğuz" (Doqquz Oğuz eli mə'nasında) adı ilə Altayda Tola (yaxud Tovla) çayının hövzəsində yaşayırdılar. IX əsrdə onların ərazisi İssık-Kul və Almalıq, cənubda Sayram və Qazıqurd-Taq və Karaçuq-Taq, şimalda Uluq-Taq və Kaçit-Taq, qərbdə Yenikənd və Qaraquma qədər idi.

X əsrdə oğuzlar əsasən Sırdərya və Aralsahili əyalətlərdə yaşayırdılar. XVII əsr Türkmən tarixçisi Əbül Qazi xanın yazdığına görə burada onlar "On nəsil" (On ox) və 24 tayfadan ibarət idilər. Mahmud Qaşqarlı bu tayfaların 22-ni qeyd edir və yazır ki, əvvəllər Xələc tayfası da oğuzların

tərkibində idi, sonra iki hissədən ibarət olan bu el oğuzlardan ayrılmışdı. Mahmud Qaşqarlının "Divan lüğət-ət-türk" əsərində oğuz tayfalarının adları belədir: kınık, kayık, bayondur, yivə, salqur, əfşar, beqdili, böyükdüz, bayat, yazqır, eymur, qarabölük, alqa -bölük, iqdır, ureqir, tuturqa, ulayontluq, peçeneq, çuvaldar, çəbni və çarukluk. Bu tayfalar maldar idilər, onların var-dövləti də qoyun sürüləri və at ilxıları idi. Lakin hər bir ailənin istifadəsi üçün qaramal, yük daşımaq və ticarət üçün dəvə də saxlayırdılar.

Sırdərya (Ceyhun) çayı boyunca yaşayan oğuzlar iki qoldan ibarət idi: Üç ox və Boz ox. Bu onu göstərir ki, oğuzlar Altayda türk run yazılarında qeyd olunan "On ox" tayfalarına mənsubdurlar. X əsrin ilk rübündə (bir mə'lumata görə 960-cı ildə) 200 min çadırdan ibarət oğuzlar islam dininə keçmişdilər.

Oğuzların başında "Temir yayın" (yə'ni "dəmir yaylı") ləqəbli Dukak adlı bir elbəyi dururdu.O, kınık tayfasından idi. Onun oğlu Səlcuq sübaşi (qədim türk dillərində sü "qoşun", "ordu" deməkdir), yə'ni ordu başçısı (komandanı) idi. Sonra hakimiyyətə keçmiş Səlcuqun adı ilə oğuzlar tarixşünaslıqda "Səlcuq oğuzları" adı ilə məşhurlaşdılar. Səlcuqun üç oğlu vardı: İsrail, Mikail və Musa. Onlar səlcuq tayfalarının idarə olunmasında fəal iştirak edirdilər. İlk vaxtlar səlcuqlar Samanilər dövlətinə yaxınlıq göstərirdilər. Lakin Sırdəryanın Cənd əyalətinin hakimi Şahməliklə mübahisəyə görə oğuzlar daha oralarda qalmaqdan imtina etdilər. Samanilər onlara Zərəfşan çayı sahilində Nur-Ata adlı yerdə ərazi ayırmışdı. Lakin ora Səlcuq oğuzları üçün əlverişli olmadı.

1035-ci ildə Səlcuqun oğlu Musa və qardaşı oğlanları Toğrul bəy və Çağrı bəy oğuzlardan özlərinə məxsus tayfalarla Xorasanın şimalına köçdülər və Nisa əyalətində məskunlaşdılar. Bu vaxt Xorasan əyaləti Qəznəlilər dövlətinə mənsub idi və orada yaşayan türkmən tayfaları samanilərin hakimiyyətinə qarşı üsyan qaldırmışdılar. Üsyan 1027-ci ildə başlandı və ***Fadav*** adlı yerin yaxınlığında üsyançılarla Qəznəli ordusu arasındakı vuruşmada üsyançılar məğlub oldular,



vuruşmada 4 min türkmən döyüşçüsü öldürüldü. Türkmən tayfalarının bir hissəsi İrana və İraqa çıxıb getdi. Oğuzlar Xorasana məhz belə bir vaxtda gəlmişdilər. Bunu eşidən Qəznəli hökmdarı qışqırmışdı: "Xorasan əldən çıxdı!". Onda səlcuqların cəmi on min nəfərlik ordusu vardı. Qəznəlilər onların Xorasana gəlməsindən təşvişə düşdülər. 1035-ci ilin 19 iyulunda qəznəlilər dövlətinin 17 minlik ordusu Mə'sud Hac Doğdunun başçılığı ilə Nişapurdan səlcuqların üstünə gəldi. Səlcuqlar bundan xəbərsiz idilər. Nisa yaxınlığında qəfildən baş vermiş vuruşmada 700-800 nəfər səlcuq döyüşçüsü öldürüldü. Məs'udun ordusu səlcuqların xeyli mal-qarasını ələ keçirib apardılar. Lakin oğuzlar ruhdan düşmədilər və mübarizənin hələ davam edəcəyini nəzərə alaraq yaxşı nizamlı atlı ordu yaratdılar. Az müddətdə ordunun miqdarı 20 min nəfərə çatdırıldı. Bundan sonra onlar hücuma keçib qəznəlilərə məxsus Nişapur və Mərv əyalətlərini tutdular. Toğrul bəy Nişapurda, Çağrı bəy Mərvdə özlərini sultan e'lan etdilər. Belə bir şəraitdə qəznəlilərin şahı Mə'sud ordu ilə yenidən səlcuqların üstünə gəldi. 1038-ci ilin 29 iyulunda ***Deh-Bazarqanan*** adlı yerdə vuruşma oldu. Qəznəli ordusu məğlub oldu. Döyüşdə Çağrı bəy xüsusi igidlik göstərdi və Qəznəli ordusunun bir neçə əmirini təkbətək döyüşdə öldürdü. Toğrulbəyin göndərdiyi bir ordu isə İbrahim inalın başçılığı ilə Kiçik Asiyaya gələrək, 1048-ci ildə Bizans ordusunu Pasin adlı çöldə məğlub etdi. Bu Bizansın süqutunu irəlicədən göstərən nişanə oldu.

1036-cı ildə səlcuqlar hücuma keçərək qəznəlilərin Sərasx və Cavərd şəhərlərini zəbt etdilər. Qəznəlilərin hökmdarı Sultan Mahmud Qəznəli özü ordunun başında oğuzların üstünə gəldi. 1040-cı il mayın 23-də Mərv və Sərasx şəhərləri arasında ***Dəndənəkan*** adlı kiçik şəhərin yaxınlığında qanlı vuruşma baş verdi. Qəznəli ordusu məğlub oldu. Bundan sonra Toğrul bəy Nişapura getdi, Çağrı bəy isə Xorasanda qaldı. Səlcuqun oğlu, Toğrul bəy və Çağrı bəy qardaşlarının əmiləri Musa yabqu isə Heratda və Seyistanda hakim oldu. Toğrul bəy (1038-1063) 1041-ci ildə Gürganı və Təbəristanı, 1042-ci

ildə Xarəzmi zəbt etdi və sonra ordu ilə İraqa yola düşdü. 1055-ci ildə Toğrulbəy ordusu ilə Bağdada gəldi. Xəlifə onunla vuruşmaq iqtidarında deyildi. Ona görə xəlifə Toğrulun hakimiyyətini tanıdı və beləliklə, həmin ildən Xilafət mülki idarədən uzaqlaşdırıldı. Xəlifə Toğrulun əyninə üst-üstə 7 xələt geydirdi, bu Toğrula 7 iqlimin bağışlanması demək idi, üstəlik ona "Şərqin və Qərbin hakimi" titulunu verdi və belinə 2 qızıl qılınc bağladı.

Toğrul bəyin bu zaman 70 yaşı vardı, subay idi, çünki arvadı ölmüşdü. Ona görə də Toğrul bəy 1062-ci ildə xəlifənin Səidə adlı qızına elçi göndərdi. Xəlifə əl-Qaim Bin Əmrullah razı olmağa məcbur oldu və oğuz bəyləri Toğrul bəyə təntənəli toy etdilər. Toğrul öz toyunda sərkərdələri və bəyləri ilə yallı oyunu oynadı. Lakin toydan 7 ay sonra Toğrul bəy öldü. Onun övladı yox idi. Yerinə qardaşı Çağrı bəyin oğlu Alp-Arslan keçdi (1063-1072).

Alp Arslan 1064-cü ildə Şərqi Anadoluya, Azərbaycana və Gürcüstana hərbi səfər etdi. Bizans dövləti yaxınlaşan fəlakəti hiss etmişdi, ona görə böyük ordu ilə Alp Arslana qarşı çıxdı. 1071-ci il avqustun 26-da Kiçik Asiyada Malazgird şəhəri yaxınlığında ***Rəhvə*** adlı ovalıqda Bizans imperatoru Roman Diogenin başçılığı ilə Bizans ordusu Alp Arslanın başçılıq etdiyi oğuzların ordusu ilə üzləşdi. Müharibələr tarixində qanlı döyüşlərdən sayılan bu vuruşma Bizans ordusunun məğlubiyyəti ilə bitdi[1]. Məhz bu döyüşdəki qələbə nəticə e'tibarilə Anadolu yarımadasını oğuzlara verdi.

1072-ci ildə Alp Arslan Mərkəzi Asiyanın Mavərənnəhr əyalətini zəbt etmək səfərində ikən Buxaranı tutduqdan sonra Sırdərya çayının sahilində öldü. Onun yerinə oğlu Məlikşah keçdi (1072-1092). Məlikşahın hakimiyyəti illərində oğuzlar tədriclə Qəznəlilər və Qaraxanilər dövlətlərinin əraziləri-ni zəbt etdilər.

Məlikşahın hökmdarlığı vaxtında Səlcuq oğuzlarının ordusu Süleyman ibn Kutulmışın başçılığı ilə yenidən Anadoluya hərbi səfər etdi və XI əsrin 80-cı illərində oranın işğalına başladı. Az sonra, 1076-cı ildə Səlcuq oğuzlarının əmirlərindən Atsız Dəməşqi tutdu. 1078-ci ildə işğal olunmuş Suriya Məlikşahın qardaşı Tutuşa verildi.



1089-cu ildə Məlikşah Mavərənnəhrə döndü, Buxara və Səmərqəndi tutdu. Beləliklə, əslində bütün Mərkəzi Asiya Səlcuq oğuzlarının əlinə keçdi və Oğuz imperiyası yarandı. Buraya Mərkəzi Asiya, Əfqanıstanın çox hissəsi, İran, İraq, Cənubi Qafqaz, Suriya və Anadolu daxil idi.

1092-ci ildə Məlikşah öldükdən sonra oğlanları arasında hakimiyyət uğrunda mübarizə başlandı. Bu eyni zamanda imperiyanın parçalanmasının başlanğıcı oldu. Qardaşı Arslan Arqun 1092-ci ildə Mərv, Bəlx, Tərməz və Nişapuru tutdu və doğma qardaşı Buribarsı öldürüb hakimiyyətə keçdi. Lakin 1096-cı ildə Arqun öldürüldü və Xorasan Börküyarıq adlı bir Səlcuq əmirinə keçdi. O, 1097-ci ildə bu əyaləti qardaşı Sultan Səncərə verdi.

Sultan Səncərin başçılıq etdiyi oğuzlar 1102-ci ildə Qaraxanilər dövlətinə son qoyduqdan sonra, 1117-1118-ci illərdə Qəznəlilər dövlətini zəbt etdilər. Sultan Səncər 1118-ci ildən e'tibarən Mərkəzi Asiyanı işğal etməyə başladı. Səncərin paytaxt şəhəri Mərv idi. Onun sarayı Əndarab adlı yerdə yerləşirdi. 1130-cu ildə Sultan Səncər Mavərənnəhri işğal etdi və beləliklə, Mərkəzi Asiyada Oğuz dövləti yaratdı.

Əvvəlki türk dövlətləri kimi bu dövlətin də iqtisadi bazası zəif idi. Döyüş meydanlarında qılınc gücü ilə yaradıldığına görə dövlətin müxtəlif əyalətləri arasında iqtisadi əlaqələr zəif idi.

Dövlətdə hakim qüvvə maldar türk tayfaları idi. Lakin onların arasında tez-tez ara feodal müharibələri baş verirdi. Dövlətin tənzimə salınmış inzibati idarə sistemi yox idi. Səlcuq sultanlarını hər şeydən əvvəl vergi maraqlandırırdı. Bu işə vəzir baxırdı. Alp Arslanın və Məlikşahın hakimiyyəti illərində vəzir Nizam-əl-Mülk idi.O, görkəmli dövlət xadimi idi.

Qeyd etmək lazımdır ki, Səlcuq sultanları türk olsalar da, saraylarında dəftərxana işi farsca gedirdi və müəyyən mə'nada demək olar ki, oğuzların işğalları nəticəsində fars dilində ədəbiyyat daha da inkişaf etmişdi.

## §9. Osmanlı dövləti

Məlum olduğu kimi, Səlcuq dövləti geniş ərazini əhatə edirdi. 1071-ci ildə məşhur Manazgird (yaxud Malazgird) vuruşmasında oğuzların başçısı Alp Arslan Bizans imperiyasının hökmdarı Roman IV Diogeni məğlub etmiş[2] və bununla Anadolu yarımadasının türklər tərəfindən tədriclə tutulmasının əsası qoyulmuşdur.

Anadoluda yerləşmiş oğuzlar köçəri həyat tərzindən əl çəkdilər. Yalnız bəzi ellər hələ də maldar həyata üstünlük verirdilər. Anadolu yarımadasında və ondan xaricdə qalaların tutulması üçün dövrünə görə hərbi texnika vacib idi.

1085-ci ildə oğuzlar İzmir və Nigeya qalalarını tutdular. Bundan sonra Nigeya (İznik) Böyük Səlcuq dövlətinin paytaxtı olmuşdu.

Beləliklə, tarix böyu bir sıra qədim dövlətlərin (Xet, Lidiya, Midiya, Əhəmənlər, İskəndərin dövləti və b.) ərazisi olmuş Anadolu yarımadası XI əsrdən etibarən Səlcuq türklərinin əlinə keçməyə başladı.

Səlcuqlar Bizansın paytaxtı Konstantinopolu tutub oradan Avropaya keçmək istəyirdilər. Lakin səlibçilərin (Xristian dövlətlərinin təşkil etdikləri ordunun) 1096-1204-cü illərdə hərbi səfərləri buna mane oldu. Səlibçilər Nigeyanı ələ keçirdilər. Ona görə səlcuqlar 1116-cı ildə Konyalı özlərinə paytaxt etdilər. Bundan sonra Səlcuq sultanlığı Konya sultanlığı adlanmağa başlandı. Kiçik Asiyada paytaxtı Sivas olan digər bir türk dövləti də yaranmışdı. Bu dövlət Danişməndilər dövləti adlanırdı. Bu dövlət 1180-ci ildə səlcuqilərə tabe edildi. Bununla da XIII əsrin əvvəllərindən səlcuqlar Kiçik Asiyanı ələ keçirdilər. Kosadağ adlı məşhur vuruşmada monqollar səlcuqları məğlub etdilər. Bununla da Səlcuq dövləti dağıldı, 230 il mövcud olmuş vahid Səlcuqlar dövlətinin yerində kiçik dövlətlər - bəyliklər yarandı. Bu bəyliklərdən biri Osman bəyin bəyliyi idi.

Osman bəy tədriclə digər bəylikləri özünə tabe etdi və 1299-cu ildə Osmanlı dövlətinin əsasını qoydu. Beləliklə,



Osmanlı türk dövlətinin yaranması Osmanın adı ilə bağlıdır (1258-1324). Məhz onun əmirliyinin genişlənməsi Osmanlı imperiyasının əsası olmuşdur[3].

Osman hakimiyyətini genişləndirərək qonşu bəylərbəyliklərin ərazilərini zəbt etmiş və bununla da Osmanlı sülaləsinin və Osmanlı imperiyasınm əsasını qoymuşdur. Osmanlı sülaləsinin görkəmli nümayəndələri I Murad (1362-1389), İldırım Bayazid (1389-1402), II Məhəmməd Fateh (1444 və 1451-1481), I Səlim Yavuz (1512-1520), Süleyman I Qanuni (1520-1566), III Səlim (1789-1807), II Mahmud (1808-1839) göstərmək olar.

Osman 7 il müddətində mühasirədən sonra Burek qalasını tutmuşdu. Bu qalanın ələ keçirilməsi Konstantinopol şəhərinin tutulması üçün vacib idi. 1326-cı ildə Osman öldü və onu Bursa dağının yamacında dəfn etmişdilər. Çünki bu yamac Konstantinopola baxırdı.

Osmanın oğlu Orxan atasının yolunu tutdu və tayfaları vahid xalq şəklində birləşdirdi, onun nəvəsi I Murad isə osmanlı dövlətini imperiyaya çevirdi. Sultan Murad islam dini uğrunda şəhid olmağı arzu edirdi. Həqiqətdə də 1389-cu ilin 15 iyununda Muradın başçılığı ilə 27-30 minlik türk ordusu Serbiyada Kosovo çölündə Serbiya və Bosniya ordusu ilə döyüşdə öldürülmüşdü. Döyüşün qızğın çağında türklərin qərargahına soxulmuş serb feodalı Miloş Obiliç Sultanı öldürmüşdü. Komandanlığı özünə götürən oğlu Bayazid hücuma keçib serb ordusunu məğlub etmiş və elə o döyüş meydanında da özünü sultan elan etmişdi. O, serb ordusunun başçısı Lazarı tutub edam etdirdi.

Sultan Muradın öldürülməsi isə belə baş vermişdi: Yalandan türklərin tərəfinə keçdiyini bildirmişdi. Keçdikdən sonra xahiş etmişdi ki, Sultanla görüşsün. Məhz görüş vaxtı heç nədən şübhələnməyən sultanı xəncərlə öldürmüşdü. Sultanın keşikçiləri onu tutub qılıncla doğramışdılar.[4]

Bu dövlət işğalçı müharibələri apararaq sonrakı 150 il müddətində Balkan ölkələrini tutdular. Türklər 1396-cı ildə məşhur Nikopol vuruşmasında Avropa ölkələrinin cəngavər-

lərinin birləşmiş ordusunu məğlub etdilər və Konstantinopola yaxınlaşdılar.

Osmanlı imperiyasının tarixində Sultan Bayazid I mühüm yer tutur. Bir sıra Avropa ölkələrinin işğalı onun adı ilə bağlıdır. Bayazid həm də Türkiyə tarixində hakimiyyət uğrunda doğma qardaşını öldürən hökmdar kimi səciyyələnir. O, Kosovo döyüşündə igidliyi ilə fərqlənmiş kiçik qardaşı Yaqubu aradan götürmək üçün onun boğub öldürülməsini təşkil etdi. Sonra Sultan Mehmed II-də öz qardaşını öldürtmüşdü. Lakin Bayazid həqiqətdə də bacarıqlı sərkərdə idi. Ordusu ilə qısa müddət ərzində Asiyadan Avropaya, bir ölkədən digər ölkəyə sürətlə hərəkətinə görə "İldırım" adını almışdı.

Avropada atasının qisasını almaq üçün Serbiyada qırğın törətsə də o, Serbiyanı Osmanın imperiyasma qatmadı, ona muxtariyyat verdi, yəni Serbiya vassal vəziyyətinə salındı.

O, Lazarın qızı Despinə ilə də evləndi. Avropada işlərini qaydaya saldıqdan sonra Bayazid diqqətini Konstantinopola döndərdi. Bu şəhər hələ də Bizans dövlətinə məxsus idi. Türklər bu şəhəri "İstambul" adlandırdılar ki, bu da qədim yunanca "İstin poli",yəni "şəhərə" deməkdir. Daha dəqiqi İstinpoli Konstantin şəhərinə girişin adı idi. Lakin elə bu vaxt Teymurlənglə toqquşdu.

Teymur böyük sərkərdə idi. Düşmənləri üzərində böyük qələbələr çalmışdı. Döyüş ərəfəsi Teymur gecələr iri şahmat taxtasının arxasında oturub təkbaşına şahmat oynayır və növbəti döyüş taktikasını hazırlayırdı. Məsələ burasındadır ki, Kiçik Asiyanın hakimiyyətdən salınmış hökmdarlarınım bəziləri qaçıb Teymurun düşərgəsinə sığmmışdılar. Bununla belə Teymur Bayazidə qarşı yaxşı münasibətdə idi, çünki Bayazid Kiçik Asiyada islamı yayırdı, bu isə Teymurun ürəyindən idi.

Lakin Bayazidin Anadoluda işğalları Teymura mənsub əraziləri də əhatə etdikdə münasibət dəyişdi. Teymur qanlı döyüşlər nəticəsində 9 sülalə qırmışdır, məqsədi Səmərqənddən islam naminə Asiyanı idarə etməkdən ibarət idi.[5]

Teymurla Bayazid arasındakı münasibət dəyişdikdən sonra onların arasında məktublaşma getdi. Teymurun məktubuna bir qədər sərt cavab verən Bayazid əslində toqquşmanı labüd etdi. 1402-ci ildə Ankara (yunanca Anqora) ətrafında döyüşdə Bayazid məğlub oldu və əsir düşdü. Əl-qolunu bağlayıb Teymurun çadırına gətirdilər. Bu vaxt teymur oğlu ilə şahmat oynayırdı. Bayazidin Serb arvadı Dəspinə də əsir düşmüşdü. Bir rəvayətə görə ziyafətdə Teymur dəspinəni yarımlüt vəziyyətdə, Bayazidin gözü qabağında məclisdə xidmətçi işlətmişdi. Bayazid 8 aydan sonra əsirlikdə öldü.

Bayazidin Konstantinopolu tutmaq niyyəti baş tutmadı. Bu arzunu oğlu Sultan Mehmed həyata keçirdi.

1444 və 1448-ci illərdə Sultan II Murad (1426-1451) Avropa səlibçilərini məğlubiyyətə uğratdı. Ondan sonra hakimiyyətə keçmiş oğlu Sultan II Mehmet (1451-1481) 1453-cü il mayın 29-da Konstantinopolu tutdu və Bizans imperiyası süqut etdi. Konstantinopol İstambul adı ilə Osmanlı imperiyasının paytaxtı oldu.

XVI əsrin 50-70-ci illərində Osmanlı dövləti Bosniya, Hersoqovina, Valaxiya. Çernoqoriya, Albaniya, Moreya, Krım ölkələrini tutdu və Kiçik Asiyada isə Trabzon imperiyasına son qoydu.

I Səlim Yavuz (1512-1520) və I Süleyman Qanuni (1520-1566) hakimiyyəti illərində Osmanlı imperiyasınm ərazisi daha da genişləndi.

1514-cü il in avqust ayının 23-də qanlı Çaldıran döyüşündə Türkiyə hökmdarı Sultan I Səlim Qızılbaşlar dövlətinin ordusunu məğlub etdi. Döyüş meydanında qızılbaşların 50 min nəfər döyüşçüsünün cəsədi qaldı.

Bu hadisədən sonra Osmanlı dövləti bir sıra Yaxın Şərq ölkələrini zəbt etməyə başladı. Sultan səlim 1515-1516-cı illərdə Suriya, Fələstin və Misiri işğal etdi.

1516-cı ilin 24 avqustunda Misirin türkmənşəli məmluk ordusu ilə Sultan Səlimin Türk ordusu arasında Dəbik çölündə qanlı döyüş baş verdi. Misirin türk başçısı Kansul əl Quri döyüş vaxtı özünü öldürdü[6] və Sultan Səlim Misirin sahibinə çevrildi.1516-cı ilin 28 avqustunda Sultan Səlim Suriyanın işğalını başa çatdırmışdı. Bir qədər keçdikdən sonra

Sultan Səlim Livanın və 1516-cı ilin 30 iyununda Fələstini zəbt etmişdi. Sonra da Macarıstanın bir hissəsini də tutdu və bununlada Osmanlı imperiyası Avropa, Asiya və Afrikada təqribən 8 milyon kvadrat kilometrlik ərazini əhatə edirdi.

1453-cü ilin 29 mayında səhər o başdan türklər Konstantinopola hücuma keçdilər. Həsən adlı bir nəhəng boylu türk şəhərin Roman qapısını ələ keçirdi və axşama yaxın şəhər tutuldu.

Bundan sonra Sultan Mehmed Yunanıstanı işğal etdi və Afina şəhərini ələ keçirdi. Ona görə də Türkiyə tarixində II Mehmet "fateh" ləqəbini almışdı.



# *IV fəsil*

## *MƏRKƏZİ ASİYADA, ALTAYDA VƏ QƏRBİ SİBİRDƏ TÜRK DÖVLƏTLƏRİ*

### *§1. Telə xaqanlığı*

Eramızın ilk əsrlərində Mərkəzi Asiyanın şərq hissəsində Çin mənbələrinə görə xun (hun) və dinlin tayfaları yaşayırdılar. Dinlinlər Altayın telə tayfasının ulu əcdadları hesab olunurlar. Onlar şimal və qərb hissələrinə bölünürdülər. Şimali dinlinlər hunlardan şimalda Baykal ətrafı ərazidə yaşayırdılar. Mənbələrə görə onların "at ayaqları" vardı (yə'ni atın dizdən aşağı əllərinin dərisini atın dırnağını saxlamaqla geyirdilər. Maraqlıdır ki, yaxın keçmişə qədər tuvalar və xakaslarda belə ayaqqabı növü vardı). Qərbi dinlinlər isə İli çayının hövzələrində məskun idilər. Çin mənbələrində dinlinlər həm də "qaoqyuy" adlanırlar ki, bu da çincə "hündür araba" (damı keçə ilə konusvari düzəldilmiş və arabalarda yerləşdirilmiş evlər) mə'nasındadır.

V əsrin sonunda qaoqyuyların böyük bir hissəsi (100 min alaçıq) indiki Şərqi Türküstanda Turfan əyalətinə köçmüş və Çin mənbələrində adı Qaoqyuy kimi yazılan dövlətin əsasını qoymuşdu. Bu dövlətin siyasi tarixi barədə mənbələrdə mə'lumat azdır. Hətta onun xaqanlarının adları da mə'lum deyil.

Maraqlıdır ki, bu tayfa Çin mənbələrində həm də "telə" adlanır. Diqqəti burası cəlb edir ki, monqol dilində də teleqen "araba" deməkdir (rus dilində teleqa "araba" sözü də monqol dilindən alınmadır). Son tədqiqatlara görə telə (qədim dinlin) tayfası müasir tuvaların ulu əcdadları idilər. Sonrakı əsrlərdə telələrin bir hissəsi müxtəlif tarixi hadisələrlə əlaqədar olaraq Cənub-Şərqi Avropaya gəldilər və oradan da onların müəyyən hissəsi Cənubi Qafqazda məskunlaşdılar. Q.Qey-

bullayevə görə Azərbaycanda, Gürcüstanda və Ermənistanda Dəllər (əsli Dəlilər) yaşayış məntəqə adları qədim telə tayfasının adını əks etdirir.

Maraqlıdır ki, "telə" etnonimi indiyədək Tuvada, Altayda, Qırğızıstanda və başqa türk xalqlarının tərkibində tele, teleut, teles, telenqit tayfa adlarında qalmışdır.

VI-VII əsrlərdə telelər Böyük Xinqan dağlarından Tyan-Şan dağlarına qədər geniş bir ərazidə yaşayırdılar. İndiki Monqolustanın müəyyən əraziləri və Tuva onların köç yerləri idi. Telə böyük tayfa ittifaqı idi və onun tərkibində Çin mənbələrinə görə seyanto, veyxo, uyğur, payequ, tunlo, apa, sekye, tolanko (dolanqe), xun, tuba, quliqan (əslində kurıkan) və b. qollar vardı.

Kurıkanlar Baykal gölünün ətrafında, seyantolar Cunqariyada, tubalar Kosogen gölü ətrafında məskun idilər. Tolanko və uyğurlar isə Sələng, Orxon və Tola çayların hövzələrində yaşayırdılar.

Onların qonşuluğunda - Sayan-Altayda etnik adı "Türk" olan tayfalar (tarixşünaslıqda onlar "türkütlər" də adlanırlar) yaşayırdılar. Çin mənbələrində çin dilində "r" səsi olmadığına görə "türk" sözü "tukyu" kimi yazılırdı. Bu mənbələrdən aydın olur ki, türkütlər mənşəcə hunların bir qoludur.

### *§2. Cucan xaqanlığı*

V əsrin əvvəllərində Mərkəzi Asiyada Xinqandan Altaya qədərki ərazidə hakim mövqeyə malik bir türkmənşəli tayfa Cucan (Çin mənbələrində Juan-juan) adlanırdı. Onlar oradakı başqa türk tayfalarını, o cümlədən özünü "türk" adlandıran tayfaları da özlərindən asılı vəziyyətə salmışdılar. Lakin Mərkəzi Asiyada Amudərya çayı hövzələrində yaranmış və tezliklə Mərkəzi Asiyada qüdrətli dövlətə çevrilmiş Eftalilər dövləti Cucan xaqanlığının qüvvətlənməsinə imkan vermirdi. Aralarında baş vermiş müharibədə cucanların



ordusu məğlub olmuşdu. Digər tərəfdən, bu vaxtlar Çində hakimiyyətdə olan Vey sülaləsi də Cucan xaqanlığının qüvvətlənməsinə mane olurdu. 424-cü ildə Cucan xaqanı Datan 60 minlik ordu ilə Çinə hərbi səfər təşkil etmiş, lakin müvəffəqiyyətsizliyə uğramışdı. Deul xaqan (485-492) zamanında Cucan xaqanlığı daha da yüksəlmişdi. Xaqan Şelunun vaxtında xaqanlıq Altayı da tə'sir altına almışdı. Çin mənbələrində xaqan Şelunun adı "Deuday" kimi yazılmışdır ki, bu da "at çapa-çapa ox atan" deməkdir. Bu xan ərazisini genişləndirərək, İli çayının hövzələrinə çatmış və Mərkəzi Asiya hunları ilə toqquşmuşdu. Mərkəzi Asiyada 418 -419-cu illərdə cucanlarla hunlar arasında mübarizə qızışdı. Nəticədə, telə adlanan türkdilli tayfa birləşməsi cucanlardan asılı vəziyyətə düşdü.

546-cı ildə Altayın "Türk" adlanan tayfaları fəallaşdı. Bu vaxt Cunqariyada köçərilik edən Telə türk tayfa birləşməsi Şimali Monqolustanda Cucan dövlətinə qarşı mübarizəyə başladı. Türk tayfa birləşməsinin xanı Bumının ordusu 546-cı ildə Telə xaqanlığının ordusu ilə rastlaşdı. Bumın həmin ordunu məğlub edib, 50 min çadırlıq (250-300 min nəfərlik) teleləri özünə tabe etdi. Tele ordusu ilə Bumın və İstəmi qardaşlarının ordusu birləşdikdən sonra güclü qüvvə yarandı.

Altay türk tayfalarının başında duran Bumın xan cucanlarla haqq-hesabı çürütməyə bəhanə axtarırdı. Belə bir bəhanə yarandı. Bumın cucanların xanı Anaxuna elçi göndərərək, qızını ona ərə verməyi tələb etdi. Lakin Cucan xanı bu təklifi rədd etdi və ona belə bir xəbər göndərdi: "Sən sıravi bir dəmirçisən, nə cür'ətlə belə sözü işlədirsən?". Bumın bu xəbəri gətirəni öldürdü və Cucan xaqanlığına qarşı hərbi əməliyyata başladı. Bumın Çin imperatoru ilə müttəfiq olmaq və onun köməyinə arxalanmaq məqsədilə onun qızı Çan-Leyə evləndi və 552-ci ildə qardaşı İstəmi ilə cucanlara qarşı hücuma keçdi. Cucan xanı Anaqun (Çin mənbələrində Anaxuan) qanlı döyüşdə məğlub oldu və özünü öldürdü. Bununla da xaqanlığa son qoyuldu.

## §3. Türk xaqanlığı

Türk xaqanlığının yaranması ərəfəsində Altay, Qazaxıstan və Mərkəzi Asiyanın tarixi zəif öyrənilmişdir.

VI əsrin ortalarında Mərkəzi Asiyanın və Mərkəzi Asiyanın siyasi həyatında mühüm dəyişikliklər baş verdi. Bu dəyişiklik Türk xaqanlığı adı ilə mə'lum böyük imperiyanın yaranması ilə əlaqədar idi. Ondan əvvəl Mərkəzi Asiyanın ərazisində Cucan xaqanlığı mövcud idi. Mövzumuza keçməzdən əvvəl bu haqda bir neçə söz demək lazımdır.

Yuxarıda avarlar haqqında danışdıqda demişdik ki, Altay türklərinin Bumın və İstəmi qardaşlarınm başçılığı altında Şimali Monqolustanda məğlub etdikləri türkmənşəli cucanlar qərbə köçdülər və burada avar adı ilə mə'lum oldular. Onlar Cənub-Şərqi Avropada VI əsrdə Avar xaqanlığım yaratdılar.

Bumın cucanlardan "il-kaqan" (xaqan) titulunu qəbul edib özünü yenicə yaratdığı Türk dövlətinin xaqanı e'lan etdi. Göründüyü kimi, Türk xaqanlığını Bumın və İstəmi (Bizans mənbələrində Dizabul, ərəb mənbələrində Sincibu) qardaşları yaratdılar. Mənbələrdə özünü adlandırması "Türk" olan bu etnosun mənşəyi haqqında mə'lumat azdır.

Çin mənbələrində saxlanmış bir rəvayətə görə tukyular (yə'ni türklər, yuxarıda qeyd edilmişdi ki, Çin dilində "r" səsi olmadığına görə "Türk" etnonimi belə yazılırdı) qədimdə çoxsaylı tayfa olmuş, lakin bir dəfə düşmən tayfa tərəfindən qırılmışdır. Sağ qalan 10 yaşlı bir oğlan uşağını bir dişi boz qurd indiki Turfan əyalətində dağlarda mağarada gizlətmiş və böyütmüşdür. Sonra da bu boz qurd həmin türkdən 10 oğul doğmuş və beləliklə, türklərin sayı artmışdır.

Qədim türk-monqol dillərində aşina - "boz qurd" demək olduğuna görə, Türk xaqanlığının əsasını qoyınuş nəslin adı Aşina da adlanırdı.

Burası müəyyən edilib ki, həqiqətdə də yaranmaqda olan Türk dövlətinin xaqanları özlərini Aşina sülaləsindən hesab edirdilər. 439-cu ildə Çinin şimalında yaşayan və özünü Aşina adlandıran bu tayfa əvvəlcə Şərqi Türküstana, 460-cı ildə isə Altayın cənubuna köçüb məskunlaşmışdı. Onlar



Altayda dəmir çıxarıb əritməkdə məşhur idilər. Sonrakı tarixi hadisələr nəticəsində bu tayfadan çıxmış sülalə Altay türklərinin başçılarına çevrilmişdi. Türk xaqanlığının baniləri olan Bumın və İstəmi qardaşları da özlərini Aşina nəslindən hesab edirdilər.

Əlbəttə, xaqanlığın yaranması üçün tələb olunan ictimai və iqtisadi şərtlər də vardı. Həmin şərtlər qısa vaxt ərzində Çindən qərbdə İrtış çayı və sonra da Bizansa qədər uzanan bir imperiyanın yaradılmasına səbəb oldu.

Yuxarıda qeyd etmişdik ki, Çin mənbələrində bu türklər "tukyu" adlanırlar. Türkoloji ədəbiyyatda "Türk" termininin iki anlayışı ayırd edilir: birinci, Altay dil ailəsinin Türk qoluna mənsub etnoslar, ikincisi, özünü adlandırması, yə'ni etnik adı Türk olmuş etnos. Ona görə yuxarıda deyildiyi kimi, tarixşünaslıqda Türk xaqanlığını yaratmış türklər "türküt" adlandırılır ki, bu da konkret mə'nada "türk" etnonimindən və qədim türk dillərində cəm bildirən "ut", "üt" şəkilçisindən ibarətdir. Başqa sözlə, bu xaqanlığı yaratmış etnosun etnik adı Türk idi. Ona görə də biz aşağıda həmin türkləri bə'zən "türküt" adlandıracağıq. Buradan görünür ki, "türk" sözü o zaman konkret bir tayfa birləşməsinin adı idi. Başqa türkmənşəli, yaxud Altay dil mənşəli etnoslar türk dillərində danışsalar da, özlərini "Türk" yox, başqa adlarla (məsələn, bolqar, xəzər, hun, uyğur, usun və s.) adlandırırdılar.

İlk vaxtlarından xaqanlıq vahid, mərkəzləşmiş dövlət deyildi. Xaqanlığa müxtəlif tayfa birləşmələrinin yaşadığı ölkələr daxil idi və zorla, hərbi yolla birləşdirildiklərinə görə xaqanlıq konqlomerat dövlət idi.

Cucan xaqanlığına son qoyduqdan sonra Bumın və İstəmi qardaşları işğalçılıq müharibələrinə başladılar. Qısa müddət ərzində Yeddiçayarasını (Yeddi-Su-nu) tutdular, Şərqi Türküstanın nuşibi (Çu və Talas çayları arasında), dulu (İli və Çu çayları arasında) və türkəş tayfalarını tabe etdilər. Xaqanlığın mərkəzi Orxon və Tovla çaylarının hövzələri idi.

Xaqanlıq yaranandan sonra "İl-xaqan" ləqəbini almış Bumın 552-ci ilin axırlarında qəflətən öldü. Onun yerinə oğlu Kara İssık xan keçdi. Lakin onun xanlığı çox davam etmədi

və hakimiyyətə Bumın xanın qardaşı Kuşu keçdi. Kuşu hakimiyyətə keçdikdən sonra "Muğan xan" ləqəbini qəbul etdi. Muğan xan 553-cü ilin payızında gizlincə xaqanlığa qarşı çıxmağa hazırlaşan üç min nəfərlik cucanları Çindən aldı və hamısını öldürtdü.

Muğan xanın qərargahı Qobi səhrasının cənubunda, Ordosdan şimalda, oradan Çinin Xuanxe çayına qədərki ərazidə yerləşirdi. O, bu ərazini özlərini "Türk" adlandıranların qədim vətəni hesab edirdi. Ona görə ilk türk xaqanları da orada dəfn edilirdi. Az sonra türklər Muğan xanın başçılığı ilə işğalları genişləndirərək, Monqolustan ərazisində Kuku-nohur (azərbaycanca desək Göy nohur) yaxmlığmda Şudun şəhərini tutdular və monqolları özlərinə tabe etdilər. 554-cü ildə onlar şimalda qırğızların dövlətini zəbt etdilər. Bu dövlət Çin mənbələrində Siqu adlanır. Türklər sonra da irəliləyərək şərqdə türkmənşəli tatarları və kidanları tabe etdilər. Bununla da xaqanlıq imperiyaya çevrildi. V.V.Bartold yazır ki, Türk xaqanlığı XIII əsrdəki Monqol imperiyasına qədər tarixdə ən böyük imperiya idi.

572-ci ildə Muğan xan öldü. Onun yerinə qardaşı Tobo xan keçdi. O da işğalları davam etdirdi. 578-ci ildə Tobo xan Çində Çjou dövləti ilə müharibəyə başladı. Baş vermiş döyüşdə Çin ordusu məğlub oldu və beləliklə, Türk xaqanlığı Çinin bir sıra şimal əyalətlərini də özünə birləşdirdi.

Bumın, Muğan xan və Tobo xan Şərqdə işğallarla məşğul olduqları vaxtlarda Bumın xanın qardaşı İstəmi böyük ordu ilə qərbdə fəaliyyət göstərirdi. İstəmi 10 tayfaya başçılıq edirdi. Bu tayfalar indi Dağlıq Altayda yaşayan şorların, kumandilərin və başqa türk xalqlarının ulu əcdadları idilər. İstəmi özü üçün həmin tayfalardan 10 min nəfərlik atlı ordu yaratmışdı. İste'dadlı sərkərdə olan İstəmi ordusunu çoxlu döyüşlərdən qələbə ilə çıxarmışdı və ona görə "Bahadur-Cabğu" ləqəbini qazanmışdı ki, bu da "Bahadur şahzadə" deməkdir.

555-ci ildə İstəminin atlı ordusu Mərkəzi Qazaxıstan və Mərkəzi Asiya ərazisini tutaraq, mənbələrdə deyildiyi kimi "Qərb dənizi" (ya Aral, ya da Xəzər dənizi nəzərdə tutulur) sahillərinə çatdı. Aral dənizinin şimal sahillərində yaşayan eftaliləri (xionları) və Uralda uqor tayfalarını (indiki macarların ulu əcdadları) özünə tabe edərək, 558-ci ildə Volqa çayına çatdı. Volqa sahillərində 20 min ailədən ibarət avar (cucan) tayfası yığılmışdı. Onlar türklərin yaxınlaşdığını eşidib sür'ətlə qərbə tərəf qaçdılar. Bunlar məhz sonralar Avar xaqanlığını yaratmış avarlar idilər. Aşağıda bu xaqanlıq haqqında deyiləcəkdir.

Uralətrafı ərazini işğal etdikdən sonra İstəmi ordusunu Mərkəzi Asiyaya tərəf yönəltdi və 561-ci ildə Eftalilər dövləti ilə müharibəyə başladı. İran şahı Firuz (459-484) eftalilərə illik xərac verirdi. Ona görə İran Türk xaqanlığı ilə üzdə dostluq münasibətlərini saxlayırdı. 555-ci ildə İran-Türk ittifaqı yarandı. Müqaviləyə görə Firuz İstəminin qızına evləndi. Lakin bir şərt də qoyulmuşdu: İran eftalilərə verdiyi xəracı bundan sonra Xaqanlığa verməli idi.

Eftalilər dövləti hərbi kömək üçün Çinə müraciət etdi, lakin Çin buna cəsarət etmədi. Çünki belə hərəkət etməklə Türk xaqanlığı ilə Çin toqquşa bilərdi. 561-562-ci illərdə İstəmi eftalilərin başda çar Qatafar olmaqla ordusunu bir neçə yürüşdə məğlub edərək, şəhərlərini tutdu və qısa müddət ərzində bütün Mərkəzi Asiyanı Xaqanlığa birləşdirdi.

İstəmi ilə Eftal ordusu arasında həlledici vuruşma Buxara yaxınlığında baş verdi (Karşi şəhərinin ərazisində). Müharibələr tarixində ən böyük vuruşmalardan olan bu döyüş aramsız 8 gün davam etdi və Eftalilər ordusunun məğlubiyyəti ilə bitdi. Çin mənbələrində qeyd olunur ki, İstəmi 8 gün atdan düşməmişdi. Təkbətək döyüşdə İstəmi hökmdar Qatafarı öldürdü. Bundan sonra Amudərya çayı İranla Türk xaqanlığı arasında sərhəd çayı oldu.

563-cü ildə İstəmi Amudəryanı keçərək qısa vaxtda İranın Xəzərin cənub-şərqində Gurgan, Soqd və b. əyalətlərini tutdu. İran İstəmiyə qarşı qoşun çıxarmadı və sülh danışıqlarına girərək ildə 40 min qızıl pul xərac verməklə canını qurtardı. Bu məbləğ əvvəllər İranın eftallara verdiyi xərac idi.

567-571-ci illərdə xaqanlığm ordusu Şimali Qafqazı, Qara dəniz və Azov dənizi sahillərini tutdu, xəzərləri və bulqarları tabe etdi.

Bununla da xaqanlıq qərbdə Bizansla həmsərhəd ölkəyə çevrildi. Göründüyü kimi, 552-571-ci illər ərzində türklər Çindən Dunaya qədər uzanan nəhəng bir ərazini əhatə edən imperiya yaratdılar.

İran dövləti hadisələri diqqətlə izləyirdi və aydındır ki, İstəminin Mərkəzi Asiyada fəthlərinə və ümumiyyətlə Türk xaqanlığının qüdrətinə qarşı tədbirlərə əl atmalı idi. Ona görə İran Bizans dövlətini Xaqanlıqla toqquşdurmağa çalışırdı. Lakin İstəmi həm də məharətli diplomat idi. O, 567-ci ildə İran şahı Xosrov Ənuşirəvanın (531-579) sarayına xoş məramlı elçilər göndərdi. Amma Xosrov elçiləri zəhərlədi. Onda Xaqanlıq 568-ci ildə Bizansla dostluq əlaqələrini bərpa etdi.

569-cu ildə xaqanlıq Bizansın paytaxtı Konstantinopola (indiki İstanbula) diplomat Mailax başda olmaqla elçilik göndərdi. Buna cavab olaraq Bizans Sırdərya çayı kənarında Xaqanlığın qərargahına Zemarxın başçılığı ilə elçilər yolladı. Tarixçi Menandr bu səfərin təsvirini yazmışdır. O qeyd edir ki, türklər elçiləri xaqanın yanına çadıra buraxmazdan əvvəl iki tonqal arasından keçirtmişdilər[7] (Azərbaycanlılarda keçmişdə Novruz bayramı axşamı sağmal heyvanları və körpələri iki tonqal arasından keçirilməsi adətini xatırlayın).

576-cı ildə imperiyanın qərb hissəsinin yabqusu olan İstəmi xaqan öldü. Türklər onun ölümünə böyük yas saxladılar, cənazəsini *təntənə ilə qızıl sarkofaqda dəfn etdilər* və qəbrinin üstündə böyük kurqan (təpə) düzəltdilər. Lakin İstəminin dəfn olunduğu yer mə'lum deyil.

Xaqanlıq ilə Bizans arasında müttəfiqlik haqqında müqavilənin şərtlərinə uyğun olaraq Türk xaqanlığı Bizansın tərəfində 588-589-cu illərdə İrana qarşı müharibədə iştirak etdi. 580-ci ildə Xaqanlığın Krımı işğal etməsi və Bosporu tutması ilə bağlı olaraq bu iki dövlət arasında münasibətlərdə gərginlik qalmaqda idi. 598-ci ildə xaqan Dato Bizansa səfirlik göndərmiş və əvvəlki münasibətləri bərpa etmişdi.

VI əsrin 70-ci illərinin sonlarında Türk imperiyasının idarə edilməsi çətinləşmişdi. Xaqan Taspar (572-581) ölkəni çətinliklə idarə edirdi. O öldükdən sonra xaqanlıqda hakimiyyət uğrunda mübarizə gücləndi. Mübarizə Tasparın vəliəhdi İşpara xaqanla imperiyanın qərb əyalətlərində İstəminin vəliəhdi Tardu-Bökə xaqan arasında gedirdi. Bu mübarizə onunla nəticələndi ki, 581-ci ildə Türk xaqanlığı iki yerə parçalandı. Parçalanmış xaqanlığın şərq hissəsinin xaqanı Şobolio, qərb hissəsinin xaqanı Tarduş oldu. Həmin hissələr tarixşünaslıqda Qərbi Türk xaqanlığı və Birinci Şərqi Türk xaqanlığı (çünki sonra ikinci bir Şərqi Türk xaqanlığı da yaranacaq, bu barədə aşağıda deyəcəyik) adlanır.

Qərbi Türk xaqanlığı Şərqi Türk xaqanlığına nisbətən nisbətən daha böyük ərazini əhatə edirdi. Cənub-Şərqi Avropa, Mərkəzi Asiyada Sırdərya çayına qədərki ərazi bu dövlətə məxsus idi. Xaqanlığın mərkəzi "Usun ərazisi", yə'ni Şimali və Mərkəzi Tyan-Şan, İssık-Kul ətrafı ərazi, Çu və Talas çaylarının hövzələri daxil idi. Çu çayının sahilində Suyab şəhəri paytaxt idi.

Xaqanlığın əhatə etdiyi ərazidə müxtəlif inkişaf səviyyəsinə malik tayfalar yaşayırdılar. Yeddi-Suda oturaq əhali xaqanlığın siyasətindən narazı idi. 581-584-cü illərdə orada Abruy adlı bir nəfərin başçılığı ilə xalq hərəkatı başlanmış və o, Buxaranın hakimi seçilmişdi. Abruy varlıların torpaqlarını kəndlilər arasında bölüşdürmüşdü. Türk xaqanlığı onu tutub zülmlə öldürtmüşdü.

581-ci ildə Suy sülaləsinin hakimiyyətə keçməsindən sonra Çin bu iki Türk xaqanlığı arasında ədavət salaraq onları bir-birinin üstünə qaldırmağa çalışır, gah birinə, gah da o birisinə hərbi qüvvə ilə kömək edirdi. Nəticədə, 584-cü ildə Şərqi Türk xaqanlığının ərazisi Çinin vassallığını qəbul etdi. Hakimiyyət zəiflədi. Yalnız Dato xaqan vaxtında Şərqi Türk xaqanlığının ərazisində hakimiyyət qüvvətləndi. 603-cü ildə Dato xaqan öldü. Onun yerinə Çulo xaqan keçdi, lakin o, xaqanlığın əvvəlki mövqeyini bərpa edə bilmədi və xaqanlıq yenə də Çinin tə'siri altına düşdü. Ona görə də, Türk xaqanlığının ən'ənələrini Qərbi Türk xaqanlığı davam etdirməkdə idi.

Qərbi Türk xaqanlığı Kara-Çurin vaxtında xeyli qüvvətləndi. O, İrana qarşı müharibəyə başladı, çünki İran türklərə verəcəyi xəracdan imtina etmişdi. Lakin baş vermiş vuruşmada Sasanilər dövlətinin sərkərdəsi Bəhram Çubin Kara Çu-

rini məğlub etdi. Türk ordusu geri qayıtdı. Bu, xaqanlığın zəifliyini göstərirdi. 589-cu ildə Kara Çurinin oğlu Yanq Soyuk xaqan 70 minlik ordu ilə İran ərazisinə daxil oldu. İran ordusu döyüşdən çəkindi. Türk ordusu Mərkəzi Asiyada Herat-Bəlx istiqamətində İran əyalətlərini tutdu və çoxlu qənimətlə geri qayıtdı. Bununla da Yanq Soyuk atası Kara Çurinin İran ordusunun başçısı Bəhram Çubin (o, əslən türk idi) tərəfindən məğlub edilməsinin hayıfını çıxdı. VII əsrin əvvəllərində Qərbi Türk xaqanlığı yüksəliş dövrü keçirirdi. Xaqan Sincibu 616-cı ildə uyğurların ərazilərini, Tibeti və indiki Əfqanıstanın çox hissəsini də tutmuşdu.

Qərbi Türk xaqanlığının qüdrəti Tun-Cabu xaqanın (618-630) hakimiyyəti illərində yüksəldi. İşbar El-Teriş Şir xaqan (634-639) (bu xaqanın adı çin mənbələrində Şabolio Xilişi adlanır) imperiyanın idarə olunması üçün inzibati islahat keçirdi.

Nəhəng bir ərazini əhatə edən imperiyanı idarə etmək çətin idi. İmperiyanın bir başını o biri başından təxminən 10 min km məsafə ayırırdı. Qərbi Türk xaqanlığı 10 hissəyə bölünmüşdü. Hər hissəyə "ok" deyilirdi. Ona görə türk run yazılarında xaqanlığın əhalisi "on ok budun", yə'ni "on ox xalqı" adlanırdı. Onun beşi Dulu tayfalarını əhatə edirdi. Bu tayfalar Çu və İli çaylarının arasında yaşayırdılar. Tayfalara "Çjo" (yazılışı çincədir) adlanan hakimlər tə'yin olunmuşdu. Başqa beş tayfa isə Nuşibi adlanırdı. Onların başında duran hakimlərə qədim türkcə sıqin deyilirdi. Lakin bu islahat tayfalar arasındakı ziddiyyətləri həll etmədi, əksinə bə'zi tayfalarda müstəqillik meylini gücləndirdi. İşbar El-Teriş Şir xaqanın hakimiyyəti illərində Dulu federasiyasının başçısı İbn Dulu qüvvətləndi. O, şərqə doğru ərazisini genişləndirdi və az sonra Şabolionu ölkədən Çinə qovdu. 639-cu ildə xaqan Çində öldü.

Lakin xaqanlıqda yenə hakimiyyət uğrunda mübarizə gücləndi. Dulu xaqanla xaqanlığın ali baş komandanı Nuşi-Çjo arasında ziddiyyət yarandı, bu da hərbi səfər zamanı ələ keçirilmiş qənimətin bölüşdürülməsi ilə əlaqədar idi. Dulu xaqan Nuşi-Çjonu tutdurdu və özü onun başını kəsdi. Buna



cavab olaraq Nuşi-Çjonun yaxın adamlarından biri Dulu xaqana qarşı hərbi qüvvə ilə çıxış etdi. Dulu xaqan Mərkəzi Asiyaya Toxarıstana qaçdı. Bundan sonra Dulu xaqan ilə keçmiş xaqan Şabolionun varisi İbn Şabolio arasında hakimiyyət uğrunda mübarizə qızışdı. Bundan istifadə edən Aşina Xelu adlı bir xan dulu və nuşibi tayfalarını birləşdirərək, özünü hökmdar e'lan etdi. Lakin bu vaxt Çin ordusu Xaqanlığa basqın etdi, döyüşdə türklər məğlub oldular və 30 min nəfər döyüşçü itirdilər. 648-ci ildə Şərqi Türk xaqanlığı Çinin vassallığını qəbul etdi. Çin nuşibi və dulu tayfalarını 651-ci ildə özünə tabe etdi. Xelu xaqan Mərkəzi Asiyaya qaçdı. Çin Qərbi Türk xaqanlığının ərazisini iki yerə ayırdı və ora öz adamlarını hakim tə'yin etdi. Lakin xaqanlığın Çindən asılılığı çox çəkmədi. Elə bu vaxt ərəblər Mərkəzi Asiyanı işğal etməyə başlamışdılar.

VII əsrin sonlarında Dulu tayfa ittifaqına daxil olan türkəşlərin qüvvətli tayfa ittifaqı yarandı. Türkəşlər Qərbi Türk xaqanlığında hakimiyyəti ələ alıb öz müstəqil dövlətlərini - Türkəş xaqanlığını yaratdılar. Xaqanlığın xanının adı Çin mənbələrində Uçjile kimi qeyd olunur. 704-cü ildə türkəşlər Qərbi Türk xaqanlığının axırıncı xaqanı olan Aşina-Sini öldürdülər. Bununla Qərbi Türk xaqanlığı süqut etdi.

***İctimai və siyasi quruluş.*** Yuxarıda deyildiyi kimi, xaqanlıq konqlomerat dövlət idi. Türk xaqanlığında işğal olunmuş ölkələrin və xalqların hər biri öz daxili işlərində müstəqil idi. Lakin onlar müəyyən edilmiş miqdarda vaxtlı vaxtında vergiləri verirdilər. Türk xaqanlığı ilk vaxtlarından beynəlxalq aləmdə güclü nüfuza malik idi. Çin, İran və Bizans dövlətləri xaqanlıqla hesablaşmalı olurdular.Müxtəlif vaxtlarda xaqanlıqla İran və Bizans dövlətləri arasında diplomatik əlaqələr yaradılmışdı.

Xaqanlıq köçəri feodal dövləti idi. Quldarlıq bu dövlət üçün səciyyəvi deyildi. Sıravi adamlar "kara budun" (qara camaat) adlanırdı

Bizans mənbələrində qeyd olunur ki, Bizansdan gəlmiş nümayəndələr İstəminin dəfnində iştirak etmiş, yas əlaməti olaraq üz-gözlərini yaralamışdılar. Bizans müəllifləri türklə-

rin dəfn adətlərinin təsvirini verirlər. Türklərin dini şamanizm idi, lakin onlar vahid göy allahına sitayiş edirdilər. Bu allah "Tenqri", yə'ni ifadə etdiyimiz kimi "Tanrı" adlanırdı. Onlarda əcdada sitayiş də mühüm yer tuturdu. Qədim türklər ulu əcdadlarına sitayiş edir, onlara qurban kəsirdilər.

Türk xaqanlığında müxtəlif tayfalar yaşayırdılar. Qərbi Türk xaqanlığında birləşdirilmiş hər bir tayfa eltəbər adlanan, birbaşa xaqandan asılı olan canişin tərəfindən idarə olunurdu. Tayfaya daxil olan qəbilələrin başçıları tutuk adlanırdı. Qəbilənin varlıları bəy (qədim türkcə beq) adlanırdı və tutuk onların başçısı idi. Xaqanın əyalətlərə başçılıq edən hakimləri (canişinləri) yabqu və şad adlanırdı. Buyruk adlananlar xaqanın əmrlərini yerinə yetirənlər idi. Buyruk həm də məhkəmə işlərinə baxırdı. Vergi məsələlərinə baxan şəxs tarxan adlanırdı. Tarxanlar və buyruklar yerlərdə tutuk adlanan vəzifəli şəxslərə arxalanırdılar.

Xaqanlığın özəyini Altayda özlərini türk adlandıranlar (türkütlər), Cənub-Qərbi Qazaxıstanda kanqyuylar, Balxaşətrafı ərazilərdə türkəşlər, Şərqi Qazaxıstanda karluklar, Mərkəzi Tyan-Şanda və Şərqi Türküstanda yaqmalar və başqa tayfalar təşkil edirdi.

Bu tayfaların əksəriyyəti maldarlıqla, digərləri (xüsusilə Mərkəzi Asiyada) əkinçiliklə məşğul olurdular. Maldar ellərin torpaqları (qış və yay otlaqları) əsas istehsal vasitəsi olduğuna görə dövlətə məxsus idi. Ərazi 8 əyalətə bölünmüşdü və onların başçıları (yabqular) iri torpaq sahələrinə malik idilər. Yerlərdə hər tayfanın (tayfa ok adlanırdı) ərazisini də onlar müəyyən edirdilər. Mal-qara xüsusi mülkiyyət idi və atadan oğula keçirdi. Türk xaqanlığında klassik quldarlıq yox idi, lakin ev qulları saxlayırdılar.

İşğal olunmuş ölkələr daxili işlərdə müstəqil idilər, lakin vaxtlı-vaxtında vergiləri verməli idilər.

Xaqanlıq Bizans və Çin ilə ikitərəfli ticarət edirdi. Arxeoloji qazıntılar nəticəsində Altayda üstündə Çin heroqlifinin şəkli olan ipək parça qalıqları tapılmışdır.

Xaqanlığın siyasi ictimai həyatı A.N.Bernştam tərəfindən ətraflı tədqiq edilmişdir[8].



***İkinci Türk xaqanlığı (yaxud İkinci Şərqi Türk xaqanlığı).*** Yuxarıda qeyd etmişdik ki, 552-ci ildə yaranmış Türk xaqanlığı 581-ci ildə iki yerə parçalanmışdı. Bu, əvvəllər şərti idi, çünki hakimiyyətdə vahid xaqan qalırdı, yalnız imperiya nəhəng ərazini əhatə etdiyinə görə qərb və şərq hissələrinə bölünmüşdü. Bu hissələri "şad" adlanan şahzadələr idarə edirdilər. Sonra da demişdik ki, imperiyanın Şərq hissəsini Şabolio, Qərb hissəsini isə Tarduş xaqanlar idarə edirdilər. Tarixşünaslıqda bu hadisədən sonra qərb hissə Qərbi Türk xaqanlığı, şərq isə Şərqi Türk xaqanlığı adlanır. Bütünlükdə hər iki Xaqanlıq I Türk xaqanlığı adlanır. Lakin VII əsrin 30-cu illərindən Şərqi Türk xaqanlığı ərazisində türklərin yeni bir xaqanlığı təşəkkül tapır. Ümumiyyətlə, türkoloji tarixşünaslıqda bu II Türk xaqanlığı, həm də Göytürk xaqanlığı adlanır, lakin bu xaqanlıq keçmiş Şərqi Türk xaqanlığının ərazisini əhatə etdiyinə görə (Qərbi Türk xaqanlığında avar, xəzər, bolqar, qırğız və s. xaqanlıqlar yarandı və deməli, tam halda xaqanlıq təşəkkül tapmadı) bu xaqanlıq II Şərqi Türk xaqanlığı adlanır.

VII əsrin 30-cu illərində şərqdə yaşayan türk zadəganlarından Kuşi adlı bir xan irəli atıldı. O, özünü Aşina nəslindən hesab edirdi. Kuşi tokuz-oğuzlardan (yə'ni uyğurlardan) çəkinərək, qərargahını və özünə tabe olan tayfalarını Monqol Altayından şimala apardı və orada özünü xaqan e'lan etdi. Altay və indiki Tuva respublikasının ərazisi onun köç yerləri oldu. Az sonra o, Qərbi Altayda yaşayan türk karlukları özünə tabe etdi, sonra da Yenisey qırğızlarını özünə birləşdirdi.

Altayda Otuken dağ silsiləsində Çin mənbələrində Seyanto adlı bir türk tayfa birləşməsi məskun idi. 646-cı ildə türklər çinlilərlə ittifaqda Otukenə hərbi səfər təşkil etdilər və oranı tutub 5 min nəfərin başını kəsdilər, 30 min nəfəri isə əsir tutdular. Seyanto tayfası bir etnos kimi həmişəlik məhv edildi. Bundan sonra yeni Türk xaqanlığının qüdrəti yüksəldi.

682-ci ildə Çinin Tan imperiyasına qarşı başlanmış müqavimət hərəkatının başında Kuluq-Çur adlı bir türk dururdu. O, xaqan olandan sonra "İlteres xaqan" titulunu qəbul etdi və 682-691-ci illərdə hakimiyyətdə oldu.

682-ci ildən İlteres xaqanın vaxtında Şərqi Türk xaqanlığı formalaşdı. Xaqanlığın mərkəzi türklərin qədim vətəni Çində Kara-Kum adlı yerdə yerləşirdi. Xaqanlığm yaranması çoxlu düşmənlərin əhatəsində baş verirdi. Cənubda Çinin Tan imperiyası, şərqdə Kidan dövləti, şimal və şimal-qərbdə tokuzoğuzlar və qırğızlar yerləşirdilər. İlteres xaqan təcrübəli sərkərdəsi Tonyukukun vasitəsilə bütün düşmənlərinə qalib gəldi.

692-ci ildə hakimiyyətə Moço xaqan keçdi.Qədim türk mənbələrində o, Qapaqan xaqan adı ilə məşhurdur. Qapaqan xaqan 693-706-cı illərdə 6 dəfə Çinə hərbi səfərlər təşkil etmiş, Çində Tan imperiyasının şərq əyalətlərini dağıtmış və dövlətini Çinin tə'sirindən azad etmişdi. Moço 715-ci ildə uyğurların ərazilərinə - Cənubi Sibirə hücum edərək çoxunu qırmışdı. 716-cı ildə o, Tom çayı hövzələrində yaşayan payequ adlı türkmənşəli tayfanın ərazisinə daxil oldu və onları özünə tabe etdi. Lakin tək meşədə gəzərkən bu tayfadan bir nəfər döyüşçü onun üstünə atıldı və öldürərək başını kəsdi. Onun yerinə İlteresin oğlu Kül-Tiqin keçdi. O, əmisi Moçonun yaxınlarının hamısını öldürdü. Lakin özünü yox, qardaşı Bilgəni xaqan e'lan etdi. Özü isə ali komandan oldu və qoca sərkərdə Tonyukuku özünə köməkçi götürdü.

720-ci ildə Çin türkmənşəli tayfalar olan kidanların və basmillərin köməyilə türkləri məhv etməyə sə'y göstərdi. Lakin Tonyukuk əvvəlcə Beşbalık şəhəri yaxınlığında basmilləri, sonra da Çin ordusunu məğlub etdi.

731-ci ildə Kül-Tiqin öldü. Onu Sələng çayının qolu olan Orxon çayı kənarında, indiki Koşo-Saydam adlı yerdə (Ulan-Batordan 400 km uzaqda) böyük təntənə ilə dəfn etdilər. Qəbrinin üstündə türk run əlifbası ilə yazılmış böyük abidə qoyuldu. Orxon run turk yazılarından ən böyüyü olan bu abidə 1899-cu ildə rus tədqiqatçısı N.M.Yadrintsev tərəfindən tapılmışdır. Az sonra Bilgə xaqan da yaxın adamı tərəfindən zəhərləndirildi və onun da qəbri üstündə türkcə yazılı daş qoyuldu. Bundan sonra hakimiyyət uğrunda mübarizə başlandı. Axırıncı xaqan Ozmiş adlanırdı. 744-cü ildə Çinin yardımı ilə uyğurlar və karluklar Ozmişi tutub öldürdülər və bununla da İkinci Türk xaqanlığına, yaxud II Şərqi Türk xaqanlığına son qoyuldu.



***Qədim türklərin ictimai həyatı.*** Qədim türklərin əsas təsərrüfat məşğuliyyəti maldarlıq idi. Çin salnaməsində açıq deyilir ki, "türkün taleyi bütünlüklə və tamamilə qoyun və atdan asılıdır". Onlar mal-qara da saxlayırdılar və maldarlıq məhsulları qədim türkün yeməyinin əsasını təşkil edirdi. Onlar həmişə təzə otlaqlara köçdüklərinə görə quru ot tədarükü geniş miqyas almamışdı. Taxıl az əkirdilər, lakin başqa ölkələrdən taxıl alırdılar. Arxeoloji qazıntılar nəticəsində qədim türklərə mənsub edilən abidələrdə əl dəyirmanları (kirkirələr) tapılmışdır.

Türklərin təsərrüfat həyatında ovçuluq mühüm yer tuturdu. Müxtəlif heyvan dərisindən paltar tikirdilər. Arxeoloji qazıntılar zamanı qəbirlərdə dəri və gön paltar qalıqları aşkar olunmuşdur.

Qədim türk döyüşçüsü atı çapa-çapa uzaqdan örkən (arkan) atmaqla düşmən döyüşçüsünü tuturdu. Örkənin ilgəyi düşmənin boğazına düşdükdə at üstündə döyüşçü örkəni özünə tərəf çəkirdi. Bu üsulla qədim türklər heyvanları da ovlayırdılar.

Tuvada arxeoloji qazıntılar zamanı dəmir əridilən peçlərin qalıqları aşkar edilmişdir. Bu göstərir ki, türklər dəmirçiliklə məşğul olurdular. Döyüşçülər üçün dəmir dəbilqələr, dəmir tordan döşlük düzəldirdilər, ona görə də türk süvarisi əlbəyaxa qılınc döyüşündə inamla döyüşürdü. Onların düzəltdikləri üçpərli metal ox ucları havada zəhmli fit səsi çıxarırdı. Arxeoloji qazıntılar nəticəsində qədim türklərə aid qızıl və gümüşdən düzəldilmiş incə zövqlü bəzək şeyləri çox tapılmışdır.

Qədim türklər yundan keçə düzəltməkdə usta idilər. Keçəni həm çadırın üstünə örtür, həm də döşəməyə sərirdilər, çünki keçə soyuq və nəmliyi keçirtmir. Qeyd edilməlidir ki, Altayda VI-VIII əsrlərə aid qəbirlərdə keçənin 3-4 növü tapılmışdır. Türklərin kiçik ölçüdə olan, çox asanlıqla quraşdırılan və sökülən toxuculuq dəzgahlarının hissələri də tapılmışdır.

Qədim türklərdə qadın ailədə azad idi. Ailələr qohum qruplar şəklində yaşayırdılar. Qızlar uşaqlıqdan at minməyə və çapmağa öyrədilirdi. Bunu yaşayış tərzi tələb edirdi. Bir-

birini sevən qızın və oğlanın toy günü atda yanaşı çapmaq adəti vardı: oğlan atı çapa-çapa qıza çatmalı, onu öz atının tərkinə götürməli idi. Çin mənbələrində bu adət barədə çoxlu mə'lumatlar vardır. Əsas var-dövlət ev heyvanı olduğuna görə toylarda çoxlu at və qoyun kəsilirdi.

Şərqi Türk xaqanlığında feodalizm quruluşu bərqərar olmuşdu, lakin qəbilə-tayfa bölgüsü hələ güclü idi. Onlarda quldarlıq yox idi. Yalnız varlı bəylər ev qulları (dilimizdə desək, qaravaşlar) saxlayırdılar.

Qədim türklərdə təkkəbinli (monoqam) ailə forması vardı. Çoxarvadlılıq türk tayfaları üçün səciyyəvi deyildi. Uşaqları kiçik yaşlarından igidliyə, lakin düzlüyə öyrədirdilər.

Şərqi Türk xaqanlığının öz türk run əlifbası vardı və onların çoxusu tapılıb oxunmuşdur.

Qədim türklərdə canavar (qurd) müqəddəs sayılırdı[9]. Xaqanların bayraqlarının uclarına qızıl suyuna çəkilmiş canavar başı keçirdilirdi. Hər tayfa başçısının da bayraqları vardı. Bayraq müqəddəs sayılırdı, inam vardı ki, bayraq xeyirxah ruhların yığnağıdır, döyüşdə qələbəni tə'min edir. Bə'zi tədqiqatçılara görə qədim türklərin bayraqları qırmızı rəngdə idi.

## *§4. Uyğur xaqanlığı*

Mərkəzi Asiyanın qədim türk xalqlarından biri də uyğurlardır. "Uyğur" etnonimi ilk dəfə VIII əsrə aid qədim türk run yazılarından mə'lumdur. Qədim Çin mənbələrində "uyğur" etnonimi "xueyxe" formasındadır. Tədqiqatçılara görə uyğurların qədim əcdadları Çin mənbələrində dinlin, qaqoy, xueyxe və başqa adlarla mə'lum tayfalardır.

VIII əsrin ortalarında Sələng çayı hövzələrində yaşayan uyğurlarda tayfa birləşməsi təşəkkül tapdı. Bu zaman Şərqi Türk xaqanlığı tənəzzül dövrü keçirirdi. 742-ci ildən başlayaraq Çin dövləti uyğurlara hərbi yardım edərək onları bu xaqanlığa qarşı qaldırmaq siyasətinə keçmişdi. Nəticədə, 744-cü ildə axırıncı türk xaqanı Ozmiş Tigin müqavimət göstərmədi və qaçdı. Lakin onu tutub öldürdülər. Həmin il Çin mənbələrində adı Peylo kimi yazılan Kül-Bilgə xaqan On uyğur və Tokuz-oğuz tayfalarını birləşdirərək özünü xaqan e'lan etdi. O, 744-cü ildə (bə'zi tədqiqatçılara görə 745-ci ildə) İrtış çayının sahillərində yaşayan karluklarla birlikdə Şərqi Türk xaqanlığına son qoydu, onun ərazisini işğal edərək tarixşünaslıqda Uyğur xaqanlığı adlandırılan dövləti yaratdı.

Uyğur xaqanlığı qısa müddət ərzində böyük ərazini əhatə edən dövlətə çevrilmişdi. Dövlət Altaydan Mancuriyaya və cənubda Qobi səhrasına qədər geniş əraziyə malik idi. Sələng çayının kənarında run yazılı abidəsində Uyğur xaqanı yazmışdır ki, o, uyğurların On oğur və Tokuz oğuz tayfalarının başçısıdır.

Xaqanlığın mərkəzi Orxon çayının sahilində yerləşən Orda idi (qədim türklərdə Orda "hərbi düşərgə" mə'nasında idi). Xaqanlıqda ali hakimiyyət idarəsi irsi idi - atadan sonra taxta oğlu keçirdi. Ona görə Peylodan sonra hakimiyyətə oğlanları Moyon Çur (Çin mənbələrində Mayançjo) (746-759) və İdiqin (760-779) adları ilə mə'lum xaqanlar gəldilər. Bu xaqanların hakimiyyəti illərində Orxon çayının vadisində, əvvəlki düşərgənin yerində Karabalqasun adlı şəhər tikilmişdi. Bu şəhər Uyğur xaqanlığının paytaxtı oldu.

Moyon Çur həm bacarıqlı diplomat, həm də cəsarətli sərkərdə idi. Onun hakimiyyəti illərində xaqanlığın ərazisi xeyli genişlənmiş, Altaydan Mancuriyaya, cənubda Qobi səhrasına qədər uzanmışdı. 750-751-ci illərdə Moyon Çur indiki Tuva ərazisini də işğal etdi.

Altay işğal edilsə də uyğurlar orada möhkəmlənə bilmədilər, vergi almaqla kifayətləndilər. 758-ci ildə Moyon-Çur Cənubi Sibirdə qırğız tayfalarının ərazilərini tutdu.

746-759-cu illərdə Çində üsyan baş vermiş və hakimiyyət uğrunda mübarizə genişlənmişdi. Moyon Çur bu üsyanı yatırmaqda Çinə kömək etmiş və bunun müqabilində Çin imperatoru qızını ona ərə vermişdi.

Uyğur xaqanlığı uyğurların tarixində ilk dövlət qurumu idi. Xaqanlıq hərbi cəhətdən o dərəcədə qüvvətli idi ki, Çin dövləti onunla nəinki hesablaşır, hətta münasibətləri saxlamaq xatirinə ona on minlərlə qul, qiymətli hədiyyə və s.

göndərirdi. Çin mənbələrində Çin imperatorunun öz qızını Day Dzun adlandırılan bir Uyğur xaqanına da ərə verməsi qeyd olunur.

İdiqin (mənbələrdə Tenqri də adlanır) xaqanın hakimiyyəti illərində (760-779) ilk dəfə xaqanın yaşadığı saray tikilmişdi. O vaxta qədər uyğur xanlarının taxtları düşərgədəki dəbdəbəli alaçıqda yerləşirdi.

Lakin xaqanlıq qüvvətləndikcə qəbilə və tayfa başçılarının mərkəzi hakimiyyətə qarşı mübarizəsi də güclənirdi. Əslində xaqanlar bu əyanların rə'yi ilə hesablaşmalı olurdular. 779-cu ildə tayfa başçılarından olan Tun-Moko Tarxan adlı birisi İdiqin xaqandan narazı düşdü və onu öldürərək hakimiyyəti ələ aldı. Moko Tarxan İdiqinin bütün qohumlarını və ailəsini qırdırdı.

Yeni xaqan Çinlə münasibətləri ayrı istiqamətə yönəltdi. Belə ki, bundan sonra Çin imperatorluğunun təklif və tələb etdiyi siyasət həyata keçirilirdi. Nəticədə Uyğur xaqanlığı tədricən Çinin tə'siri altına düşməyə başladı.

779-cu ildə Tun-Moko Tarxan öldü. Onun yerinə Çin mənbələrində "Pan-quan dələ" titullu Dolos xaqan keçdi. Bu xaqanın hakimiyyəti illərində Uyğur dövləti əvvəlki illərə nisbətən zəifləməyə başladı: qelu, bayan, şato və digər türk tayfaları xaqanlığın tabeliyindən çıxdılar və bu vaxtlar qüvvətlənmiş Tibet dövlətinə qoşuldular. Nəticədə, Tibet dövləti Uyğur xaqanlığına qarşı düşmən mövqe tutdu. Tibet dövləti xaqanlığın cənub-şərq hissəsini - Kaşqar şəhərindən Tyan-Şan dağlarına qədər yerləşən ərazini zəbt etdi. Digər tərəfdən, qonşuluqda yaşayan Karluk adlı bir qədim türk tayfa birləşməsi qüvvətlənərək Uyğur xaqanlığının qərb əyalətlərinə qarşı qorxulu qüvvəyə çevrildi. Həm xarici siyasət, həm də daxildə qəbilə və tayfa başçılarının mərkəzi hakimiyyətə qarşı mübarizəsi nəticəsində xaqanlar bir-birini əvəz etməyə başladı, çünki onların hamısı sui-qəsd nəticəsində öldürülmüşdü.

Dolos xaqandan sonra hakimiyyətə Aço xaqan keçdi, lakin o, çox yaşamadı. 795-ci ildə xaqan Aço öldü. Onun övladı olmadığına görə hakimiyyət uğrunda əyanlar arasında mübarizə başlandı. Xaqanlığın əsasını qoymuş Peylonun Yaqdakar adlanan nəslindən Kutluq xan adlı bir əyan hakimiyyəti ələ aldı. Çin mənbələrində "Qudulu" (Qutluq şəxs adının Çin dilində tələffüzü) adlanan bu xan 796-cı ildə özünü xaqan e'lan etdi.



Qudulu xaqan dövlətdə bir qədər sabitlik yaratmağa nail olsa da, qəbilə-tayfa başçılarının hakimiyyət uğrunda mübarizəsinin qarşısında aciz qaldı. Digər tərəfdən, 798-ci ildə Yenisey çayının sahillərində yaşayan və xaqanlığa tabe olan qırğızlar xaqanlığa qarşı mübarizəyə başladılar. Uyğurlar qırğızları tabeçilikdə saxlamaq məqsədilə hərbi tədbirlər həyata keçirdilər. Lakin bu tədbirlər istənilən nəticəni vermədi.

VIII əsrin 90-cı illərinin sonlarında hakimiyyətə Doloye xan (Çin mənbələrində Çjun-Çjen) keçdi. Lakin həm daxildəki hərcmərclik, həm Tibetin qarətçi basqınları xaqanlığı zəiflətdi.

IX əsrin əvvəllərində xaqanlığın tabeliyində olan Yenisey qırğızları içərisində başlanmış sinfi təbəqələşmə nəticəsində qüvvətli tayfa ittifaqı yarandı və onlar 820-ci ildən e'tibarən təxminən 20 il müddətində uyğurlara qarşı mübarizəyə başladılar.

839-cu ildə saray ə'yanlarından Kurbabir adlı birisi uyğurların tabeliyində olan şato türk tayfasının köməyi ilə bu xaqanı hakimiyyətdən saldı. Lakin o da ölkədə vəziyyəti sabitləşdirə bilmədi. Uyğurların ediz tayfasından olan Külük Bağa adlı bir ə'yan qırğızlara xaqanlığa qarşı mübarizəyə başlamağı təklif etdi.

840 və 841-ci illərdə qalın qar yağdı. Bunun nəticəsində maldarların qoyun sürüləri qırıldı. Bir Çin mənbəində qeyd olunur ki, çöllər qoyun cəmdəkləri ilə örtülmüşdü. Əsasən maldarlıqla məşğul olan tayfalar aclığa düçar oldular. Şərqi Asiyada 783-cü ildə yaranmış Tibet dövləti də xaqanlığa qarşı qarətçi basqınları davam etdirirdi. Elə bu vaxt qırğızlar Altay türkləri ilə birlikdə Uyğur xaqanlığına qarşı hərbi əməliyyata başladılar. Başda "Ajo" titullu Kuçluk Moko olmaqla qırğızların yaxşı silahlanmış ordusu Sayan dağlarını aşaraq xaqanlığın ərazisinə daxil oldu.

Kuçluk Moko Uyğur xaqanına aşağıdakı məzmunda məktub göndərmişdi: "Sənin taleyin bitdi. Mən tezliklə sənin

qızıl düşərgəni alacağam və onun qarşısında atımı qoyacağam, bayrağımı sancacağam. Əgər mənimlə yarışmaq istəsən, onda yubanmadan gəl, əgər istəməsən, onda tez çıx get". Uyğur xaqanı döyüşməyi üstün tutdu. Lakin "Ajo" hücum edib uyğurların ordu düşərgəsini tutdu. Döyüşdə Uyğur xanı öldürüldü. Uyğur ordusunun qırğız ordusu ilə vuruşmada məğlubiyyətində sərkərdə Quylu Moko xanın xainliyi də mühüm rol oynadı. Belə ki, döyüş zamanı o, düşmən tərəfə keçdi.

Qırğızlar Karabalqasun şəhərini qarət edib yandırdılar. Kuçluk Mokodan sonra hakimiyyətə keçmiş axırıncı Uyğur xaqanı Qut-törə xan da döyüşdə öldürüldükdən sonra, uyğurların mübarizə əzmi söndü. Beləliklə, 95 il ömür sürmüş Uyğur xaqanlığı sona yetdi.

Qırğızların ağalığına boyun əymək istəməyən uyğurların 15 tayfası, başda Pan Tele olmaqla Altaya köçdülər və orada İrtış sahillərində qüvvətlənmiş karluklara qarışdılar. Uyğurların 13 tayfası isə cənuba - Tibetə çəkildilər. Uyğurların bu hissəsi başda Uçe Dələ olmaqla 860-873-cü illərdə Çin Türküstanını tutaraq kiçik bir knyazlıq yaratdı. Tarixşünaslıqda bu siyasi qurum Turfan knyazlığı, həm də İkinci Uyğur xaqanlığı adlanır. Lakin qırğızlar onların üstünə gedərək, vardövlətlərini qarət etdilər. Belə bir şəraitdə həmin uyğurların bir hissəsi də qərbə tərəf hərəkət etməyə başlayaraq Pan Teleyə qoşuldular, digər hissəsi isə orada yaşamaqda davam etdilər. Bu kiçik dövlət qurumu XIII əsrədək yaşadı və XIII əsrdə Çingiz xan tərəfindən zəbt edilərək, Monqol imperiyasına qatıldı. Nəhayət, uyğurların digər hissəsi Çinə çəkildi və onun Qançjou adlı əyalətində yaşamağa başladı. Sonrakı əsrlərdə bu uyğurlar da knyazlıq yaratdılar.

Lakin qırğızlar Mərkəzi Asiyada məskunlaşa bilmədilər. Uyğur xaqanlığına son qoyulduqdan təxminən 70 il sonra onlar yenidən Sayan dağlarına, öz əvvəlki köç yerlərinə çəkildilər. Bundan sonra onların dövlət qurumları da yaranmadı. XIII əsrdə Çingiz xanın oğlu Cuçi xan onların ərazisini işğal etdi və Monqol dövlətinə qatdı.

***İctimai və iqtisadi quruluş.*** Uyğur xaqanlığı feodal dövləti idi. Qəbilə və tayfa başçıları iri feodallara çevrilmişdilər. Onlar xaqanın sarayında böyük nüfuza malik idilər. Məsələn, 821-ci ildə Çin imperatorunun qızını Uyğur xaqanı Baon xana gəlin gətirdikdə tayfa başçılarından 9 nəfər gəlini xərəkə qoyaraq 9 dəfə xaqanın sarayının ətrafına dolandırmışdılar. Xaqanlıqda qəbilə-tayfa münasibətləri mərkəzi hakimiyyətə qarşı mübarizə üçün həmişə əsas yaradırdı. Xaqanlıqda mərkəzi idarə aparatı da qəbilə-tayfa bölgüsü prinsipi əsasında qurulmuşdu.

Lakin Uyğur xaqanlığının yaranması uyğurların etnik və siyasi inkişafında mühüm mərhələ idi. Məhz xaqanlıq yaradıldıqdan sonra ilk dəfə "uyğur" etnonimi (çincə xueyxe) formalaşmış və xaqanlığın ərazisində yaşayan bütün tayfalar üçün ümumi özünüadlandırmaya çevrilmişdi. Deməli, xaqanlıq uyğur tayfalarının vahid etnos kimi təşəkkülündə tarixi rol oynamışdı.

Xaqanlığın Orxon çayı üstündə Xara Balık, Sələng çayı kənarında isə Bay Balık adlı iri şəhərləri vardı.

Uyğur xaqanlığında quldarlıq vardı, lakin klassik səviyyədə deyildi. Çünki uyğurların böyük əksəriyyəti maldarlıqla məşğul idi. Maldarlıq təsərrüfatında isə qul əməyindən istifadə olunması qaydası yox idi. Uyğur dilində "qarabaş" (Azərbaycan dilində qaravaş) adlanan qullardan əsasən əkinçilikdə istifadə edilirdi.

Uyğurlarda tayfa "el", yaxud "il" adlanırdı. Hər tayfanın özünə məxsus ərazisi var idi.

Uyğur xaqanlığında dövrünə görə yüksək iqtisadi və ictimai münasibətlər mövcud idi. Xaqanlıqda yaşayan əhalinin əsas təsərrüfat məşğuliyyəti maldarlıq idi. Lakin çayların vadilərində suvarma əkinçiliyi də inkişaf etmişdi. Karabalqasun şəhərinin ətrafında arxlar və kanallar vasitəsilə bağlar salınmışdı, əhali həm bostançılıqla, həm də əkinçiliklə məşğul olurdu. Uyğurlar ən çox darı və buğda əkirdilər. Suvarma əkinçiliyinin inkişaf etməsi nəticəsində maldar əhalinin müəyyən qismi oturaq həyata keçmişdi. Oturaq həyat tərzi daimi yaşayış məskənlərinin yaranmasına səbəb olmuşdu. Bu da öz növbəsində qəbilə-tayfa münasibətlərini müəyyən qədər dağıtmış və onu ərazi münasibətləri ilə əvəz etmişdi.

Oturaq həyat tərzi sənətkarlığa və ticarətə təkan vermişdi. Uyğur ustaları dəmir filizindən metal almaq üsulunu bilirdilər.

Bütün bu köklü dəyişikliklər ictimai həyat bölgüsü yaratmış, əkinçilik maldarlıqdan və sənətkarlıqdan ayrılmışdı. Ümumiyyətlə, sənətkarlıq ictimai istehsalın dövrünə görə yüksək inkişaf mərhələsinə çatdığını göstərirdi. Lakin nəzərə almaq lazımdır ki, uyğurlarda maldarlıq əkinçilikdən daha üstün mövqeyə malik idi. Xaqanlığın nəhayət e'tibarilə süqutunun bir səbəbi də ölkədə maldarlığın aparıcı təsərrüfat sahəsi olması idi.

Uyğurların inanışları əsas e'tibarilə animizm və şamanizm dinləri idi. Animizm dini xüsusilə qüvvətli idi. Uyğurlar belə hesab edirdilər ki, bütün təbiət qüvvələrinin (səma, ildırım, dağ, çay, su və s.) ruhları vardır. Onlar göyə sitayiş edirdilər və ona görə də göy allahı Tenqriyə (Tanrıya) qurban kəsirdilər. Uyğurlar ümumiyyətlə allaha "idi" deyirdilər. Qədim uyğurların təsəvvürünə görə Tenqri də "idi"dir.

Uyğurlar ildırımdan qorxurdular və onun ruhuna da qurban kəsirdilər. Onlarda şamanizm də geniş yayılmışdı. Qadın və kişi şamanlar həm müxtəlif xəstəlikləri müalicə edir, həm də ibadətkarlarda pis ruhlar üçün qurbanlar kəsirdilər.

762-ci ildən Uyğur xaqanlığında Mani dini yayılmış və dövlət dininə çevrilmişdi. Mani dini (Maniçilik) III əsrdə İranda yaranmışdı. Bu din zərdüştlüyün xristian və buddizm dinləri ilə qarışığı idi. Mani tərəfdarları prinsipcə torpağın adamlar arasında bərabər bölüşdürülməsini tələb et-diklərinə görə xalq kütlələri onları müdafiə edirdilər. Uyğurlara bu din Mərkəzi Asiyadan soqdlar vasitəsilə keçmişdi. Maniçilik o dərəcədə güclü tə'sirə malik olmuşdu ki, hətta şamanizmi sıxışdırmışdı. Təxminən 100 il davam etmiş maniçiliyi IX əsrdən sonra buddizm dini əvəz etmişdi.

Uyğurların öz yazısı vardı. Onlar həm qədim türk run əlifbasını, həm də arami əlifbasını bilirdilər. Türk run əlifbası ilə uyğurca yazılmış abidələr tapılmışdır. Uyğur dilində run əlifbası ilə yazılmış ilk yazılı abidə 744-cü ilə, yə'ni Uyğur xaqanlığının yarandığı vaxta aiddir. 846-cı ilə aid sonuncu uyğur run abidəsi Monqolustan ərazisində tapılmışdır.



Uyğurların aramey əlifbası vertikal vəziyyətdə yazılırdı. Sonralar monqollar da bu əlifbanı uyğurlardan mənimsəmişdilər.

Yuxarıda qeyd etdiyimiz kimi, uyğurlar qonşu Çin dövləti ilə sıx əlaqədə idilər. Xaqanlığın qüdrətli vaxtlarında sarayda Çin mədəniyyəti geniş yayılmışdı. Uyğurlarda xatunlar üstlərinə Çindən və Tibetdən gətirilmiş ətir səpir, yanaqlarını rəngləyir və qaşlarına sürmə çəkirdilər. Uyğur xaqanlığının paytaxtı Karabalqasun şəhərində arxeoloji qazıntılar nəticəsində Çin dilində yazılmış abidələrin aşkar edilməsi də bununla əlaqədardır.

Beləliklə, qədim türk tayfalarından biri olan uyğurların ilk böyük dövlət qurumu süqut etdi. Uyğur xaqanlığı uyğurların tarixində yeni mərhələ kimi başa çatdı.

## *§5. Qırğız xaqanlığı*

Mərkəzi Asiyanın ən qədim xalqlarından biri olan qırğızların adı ilk dəfə 201-ci ilə aid hadisələrdə Çin mənbələrində çəkilir və hunlara tabe tayfalar sırasında qeyd olunur. Qədim qırğızlar əsas e'tibarilə Sayan dağlarının cənub ətəklərində, indiki Monqolustanın şimal-qərbində, Kırqız-Nur (Qırğız-Nohur) gölünün ətraf ərazilərində və Yenisey çayının orta axınının sahillərində yaşayırdılar. Onlar əsasən köçəri maldarlıqla məşğul olurdular. Çin mənbələrində qırğızların ulu əcdadları həm də qanqun adlandırılır. Qədim qırğızlar həm indiki qırğızların, həm də xakasların ulu əcdadları hesab olunduğuna görə onların qədim dövlət qurumları həm də xakasların dövləti sayılır.

Hələ VI əsrdə Cənubi Sibirdə, Sayan Altayda Yenisey qırğızlarının dövlət qurumu yaranmışdı. Dövlətin ərazisi əsas e'tibarilə Minusin çökəkliyini, Orta Yeniseydən başlamış Sayan dağlarının yamaclarına qədərki ərazini əhatə edirdi. VI əsrdən IX əsrin əvvəllərinə qədər Minusin vadisi Şərqi Türk xaqanlığına daxil idi. Orada xaqanlığın qüvvətli qarnizonu yerləşirdi.

VII əsrin axırı VIII əsrin əvvəllərində Yenisey qırğızları qüvvətli tayfa birləşməsinə çevrilmişdi. Çin mənbələrinə görə onlar 80 minlik atlı qoşun çıxara bilirdilər. Qırğız ordusunun başında duran şəxs "inal", "kaqan" və çur (qədim türk dillərində bu söz "igid" deməkdir) adlanırdı.

VIII əsrin əvvəllərində Qırğızların xaqanlığı yarandı. Dövlətin başçısı Barsbək xaqan idi (türk dillərində bars "pələng" deməkdir). O, hakimiyyətə keçəndən sonra "İnanc Alp Bilgə" titulunu qəbul etmişdi (türk dillərində alp sözü "igid" deməkdir). Barsbək Şərqi Türk xaqanlığına qarşı çıxaraq türkəşlərlə dostluq əlaqələri saxlayırdı. Türkütlərə qarşı mübarizə üçün Barsbək Tibet dövləti ilə ittifaqa girmişdi.

711-ci ildə Barsbək Türkəş və Çinin Tan dövlətləri ilə Şərqi Türk xaqanlığına qarşı birgə müharibəyə başlamalı idi. Plan gizlin saxlanılırdı. Lakin Şərqi Türk xaqanlığının hökmdarı Qapaqan xaqan bu hiylədən xəbər tutdu və müttəfiqləri qabaqladı. Sərkərdə Tonyukukun məsləhəti ilə Qapaqan qışın şaxtalı vaxtında yüksək Sayan dağlarını aşaraq əvvəlcə qırğızların üstünə atıldı və onları məğlub etdi, sonra da 20 minlik ordu ilə Altay dağlarını aşaraq İrtışa keçdilər və türkəşlərin ölkəsinə girdi. Başda Türkəş xanı Sakal olmaqla türkəş ordusu ilə ***Bolucu*** adlı yerdə baş vermiş döyüşdə Qapaqan xaqan qalib gəldi, Türkəş xaqanı əsir düşdü. Beləliklə, 711-ci ildə Türkəş ordusunun məğlub edilməsi ilə Türkəş xaqanlığına son qoyuldu. Sonrakı döyüşdə Barsbək xaqan öldürüldü.

Türk xaqanlığına 740-cı ildə uyğurlar son qoyduqdan sonra qırğızlar uyğurların tabeliyinə düşdülər və müstəqillik uğrunda mübarizəni davam etdirdilər. Bu mübarizə 20 il davam etdi və 840-cı ildə qırğızların qoşunu Sayan dağlarını aşıb Mərkəzi Asiyaya daxil oldu, Uyğur şəhərlərini, xüsusilə Orxon çayı kənarında yerləşən paytaxtı (indi xarabalıqları Xarabalqas adlanır) dağıtdılar. Baş vermiş döyüşdə Uyğur xaqanı Bao-i (yazılışı çincədir) öldürüldü. Nəticədə 840-cı ildə Qırğız xaqanlığı yarandı.

Yenisey qırğızları Mərkəzi Asiyada möhkəmlənə bilmədilər. Çünki, uyğurlar qırğızlara qarşı mübarizəni davam etdirməkdə idilər. 758-ci ildə uyğurlar Qırğız-Xakas dövlətinə



qarşı müharibəyə başladılar və 50 minlik qırğız-xakas ordusunu qırdılar.

Mərkəzi Asiyada və Cənubi Sibirdə IX əsrin ortalarında yeni etnik vəziyyət yaranmışdı. Burada bir neçə türk tayfa birləşməsi təşəkkül tapmışdı. Bu birləşmələrin ən böyükləri Yeddiçayarası (Yeddi-Su) adlı ərazidə Karluk tayfa ittifaqı, Yuxarı və Orta İrtış hövzələrində və Şimal-Şərqi Qazaxıstanda Kimak (Kaymak-Qıpçaq) tayfa ittifaqı və Yenisey çayının orta və yuxarı hövzələrində Qırğız tayfa ittifaqı idi. Mancuriyada və Şərqi Monqolustanda Kidan və Tatar tayfa birləşmələri mövcud idi. Yenisey qırğızları və onunla müttəfiq Tuva və Anqara ətrafı tayfaları hələ 840-cı ildə Uyğur xaqanlığı ləğv edildikdən sonra Şimal-Qərbi Monqolustanda məskunlaşmışdılar. Yenisey qırğızlarının qərb qonşusu IX əsrin ortalarında yaranmış Kaymak dövləti idi. Onların arasında sərhəd zonası Altayın şimal-qərb ətəkləri və Ob çayının sol sahilləri idi. X əsrin axırlarında qırğızların dövləti ilə bu dövlət arasında Şərqi Tyan-Şan uğrunda mübarizə gedirdi. Lakin X əsrin əvvəllərində şərqdən şimal-şərqi Qazaxıstana köçüb gəlmiş türk tayfaları Kaymak-Qıpçaq tayfa birliyini parçaladılar və nəticədə Qıpçaq-Kaymaqların böyük bir hissəsi Aral dənizinin sahillərinə və Şimali Qafqaza getdi. Kaymakların və qıpçaqların zəifləməsindən istifadə edən qırğız tayfaları öz hakimiyyətlərini Altay, İrtış və Ob çaylarının hövzələrinə yaydılar. Əslində qırğızların təzyiqi altında X əsrdə Kaymak dövləti süqut etdi.

Qırğız tayfalarının Şimali Altaya, Ob və İrtış çaylarınm hövzələrinə gəlmələri etnik situasiyanı dəyişdi. Kaymak-qıpçaqların və onların tərkibində mühüm yer tutan kanqlı (qanlı) tayfası tədriclə assimilyasiyaya uğrayıb qırğızlara qarışdılar. X əsrdə artıq qırğızlar da islam dininə keçmişdilər. Əvvəllər onlar ölünü yandırır (qədim türklərin inamına görə od insanı etdiyi günahlardan "təmizləyir") və sümüklərini dəfn edirdilər. İndi isə islam dininin tələbinə uyğun ölüləri kəfənə tutub torpağa basdırırdılar. XI əsrdən sonra Yenisey çayının hövzələrində öluyandırma adətini arxeoloji qazıntılar göstərmir.

XIII əsrdə Cənubi Sibirdə iki qırğız tayfa ittifaqının hakimləri ağalıq edirdilər: Kırqız və Kəmcuit (qırğızlar Yenisey çayına Kəm deyirdilər). Bu dövlətlərin başçısı "İnal" adlanırdı. Bu birləşmələr orta əsrlərdə qırğız xalqının formalaşmasında mühüm rol oynadılar.

Çingiz xanın oğlu Cuçi 1218-ci ildə Cənubi Sibiri işğal etdikdə qırğızların yuxarıda göstərdiyimiz Qırğız və Kəmcuit feodal əyalətləri də tabe etdi. Lakin Monqolustan ulusunun hakimi Xubilay qırğızları öz tərəfinə çəkməyə çalışırdı. Ona görə də, onun sərkərdəsi Tutuk 1290-cı ildə Altaya hücum edib onun ərazilərini işğal etdi. Bütün Altay tayfaları, o sıradan qırğızlar Monqol xanlarımn tabeliyinə keçməli oldular. XV əsrdə Altay tayfalarının bə'ziləri qırğızlarla birlikdə Tyan-Şana köçdülər. Bu qırğızlar məhz indiki Qırğızıstanın əhalisinin ulu əcdadları idilər. XIV-XV əsrlərdə qırğızların böyük bir hissəsi Monqolustanın ərazisində məskun idi. Monqol xanları onlara boyun əymək istəməyən qırğız tayfalarına qarşı dəfələrlə hərbi qüvvə ilə çıxış etmiş və mal-qaralarım çapıb aparmışdılar. Ona görə də qırğız tayfaları tədriclə Şimali Tyan-Şana çəkilməyə başladılar. Qırğızlar Altaydan və Monqolustandan indiki Qırğızıstan ərazisinə köçüb gəlməzdən əvvəl oralarda uyğur, qıpçaq, xələc və başqa tayfalar yaşayırdılar. İndi də qırğızların tərkibində uyğur, qıpçaq, tələ, xələc və başqa tayfalar vardır. Qırğızların tayfalarından biri çaruk adlanırdı, sonra bu tayfa oğuzların içərisində çaruqluq adı ilə mə'lum idi.

Qırğızlar qismən əkinçi idilər, lakin onlarda maldarlıq aparıcı təsərrüfat sahəsi idi. Sayan dağlarının yamaclarında dəmir yataqlarının bolluğu ilə əlaqədar olaraq qırğızlar dəmir ox ucluğu hazırlamaqda usta idilər.

Qırğızlarda islama keçənə qədər şamanizm dini vardı. Qeyd edilməlidir ki, qırğızların öz run yazıları var idi.

Qırğızlar tayfalar şəklində yaşayırdılar. Tayfa ittifaqının başçısı "xan" adlamrdı və xan adətən "ajo" titulunu daşıyırdı ki, bu da xaqan tituluna bərabər idi.



## *V fəsil*

## *ŞƏRQİ AVROPADA TÜRK DÖVLƏTLƏRİ*

Eramızın III-IV əsrlərindən bəşər tarixinin erkən orta əsrlər dövrü başlanır və XII-XIII əsrlərə qədər davam edir. Erkən orta əsrlər türk xalqlarının tarixində çoxlu dövlət qurumlarının yaranması ilə səciyyələnir.

Şərqi Avropada, xüsusilə Qara dənizin şimal çöllərində e.ə.I minilliyin ikinci yarısında Skif dövlətindən sonra qədim türklərin ikinci dövləti eranın əvvəllərində yaranmış Hun imperiyası idi.

### *§1. Qərbi Hun imperiyası*

Şərqi Hun çarlığı süqut etdikdən sonra hunların bir hissəsi Turfan dağlarının şimalında Baykalətrafı ərazidə, Tola və İrtış çayları hövzələrində yaşamağa başladılar, lakin çox keçmədən oradan qərbə - Cənub-Şərqi Avropaya hərəkət etdilər. Kaşqar tərəfdə yaşayan hunlar isə Mərkəzi Asiyaya çəkilib Amudərya boyunda yerləşdilər və abdal adlandılar. Həmin hunlar sonra Eftalilər (Ağhunlar) dövlətini yaratdılar. Cənub-Şərqi Avropaya gəlmiş hunlar 375-ci ildə Balamir (Balamber) başda olmaqla Don çayının sahillərinə gəlib çıxdılar. Onların tərkibində yol boyu tabe etdikləri usunlar, kəngərlər, alanlar, uyğurlar, peçeneqlər və qıpçaqlar da vardı. Son tədqiqatlar göstərmişdir ki, hunların özləri aşağıdakı tayfalardan ibarət idilər: akatir (akatsir), altziaqir, alpilzur, bardur, bittiqur, kutriqur, oqur, onoqur, saraqur, tunqur, utiqur, ultinzur[10] və b.

IV əsrin 70-ci illərində Şərqi Avropada hunların tarixdə yeni, ikinci dövlət qurumu yarandı və bununla da Avropa xalqlarının bu işğalçılara qarşı təxminən bir əsirlik mübarizəsi başlandı.

Cənub-Şərqi Avropada hunlar haqqında ilk mə'lumat 165-ci ilə aiddir. Bu mə'lumat antik müəllif Dionisiy Periyegetə məxsusdur. Daha sonra Qara dənizin şimal çöllərində hunlar haqqında II əsr müəllifi Klavdi Ptolemey xəbər verir. Onun mə'lumatı 175-182-ci illərə aiddir.

Antik mənbələrdə II əsrdən sonra təxminən bir əsr yarım müddətində hunlar haqqında mə'lumat yoxdur. Yalnız eramızın IV əsrinə aid bir mənbədə birdən-birə hunlar haqqında geniş mə'lumata rast gəlinir. Nəzərdə tutulmalıdır ki, tarixi mənbələrdə bu hunlar həm "xunn", həm də "qunn" kimi qeyd edilir. Halbuki yuxarıda deyildiyi kimi, Çin mənbələrində şərqdəki hunlar yalnız "xunn" kimi göstərilmişdir. Şübhəsiz ki, bu kiçik fonetik fərq onların müxtəlif etnoslar olduğunu göstərən fakt ola bilməz. Hər iki halda söhbət qədim türkmənşəli bir etnos haqqında gedir.

Lakin amerikan tarixçisi Otto Mençen Xelfen hesab edir ki, "xunn" və "qunn" müxtəlif tayfalardır, dilləri mə'lum olmadığına görə onları eyniləşdirmək olmaz, guya hunlar Altaydan Volqaya qısa müddət ərzində belə sür'ətlə gələ bilməzdilər və s. O, hətta hunların türkmənşəli olmasını da qəbul etmir. Bütün bunlar türklərin qədim tarixi haqqında bə'zi xarici tədqiqatçıların obyektiv olmayan fikirlərindən başqa bir şey deyil. Qeyd etmək lazımdır ki, L.Qumilyov haqlı olaraq onun bu nöqteyi-nəzərini tənqid etmişdir.

Tədqiqatçılar hesab edirlər ki, antik mənbələrdə Şimali Qafqazda və Qara dənizin şimal çöllərində qeyd olunan hunlar Mərkəzi Asiyadan qərbə hərəkət edən hunların ilk dəstələri idi.

Hunlar maldar tayfalardan ibarət idilər. Onların özəyini Mərkəzi Asiya, Cənubi Sibir və Mərkəzi Asiyanın türk və monqol tayfaları təşkil edirdi. İstər Çin və istərsə antik mənbələrdə göstərilir ki, onlar "hərəkət edən çadırlarda", yə'ni iki, dörd və altı çarxlı arabalar üzərində qurulmuş, üstü keçə ilə örtülmüş, iki və dörd pəncərəli konusvari çadırlarda yaşayırdılar. Mal qara və at ilxıları çadırlarla birlikdə hərəkət edirdi. Kişilər həmişə döyüşə hazır vəziyyətdə atın üstündə olurdular. Qadınlar, uşaqlar və qocalar isə çadırlarda gedirdilər. At



qoşulmuş çadırlar müəyyən qədər yol getdikdən sonra açılır, ailələr yerə düşdükdən sonra alaçıqlar və çadırlar qurulurdu. Belə düşərgə qədim türklərdə kuran və tabur adlanırdı.

Antik müəllif Ammian Marsellin IV əsrin 90-cı illərində tamamladığı "İşlər" əsərində hunları Azov dənizi sahillərində qeyd edir və yazır ki, arabalarda hərəkət edən yeni bir atlı xalq peyda olmuşdur və qabağına çıxan hər qoşunu qıraraq irəliləyir. O yazır ki, hun kişiləri çox dözümlüdür və min verstlərlə yolu at üstündə keçirirlər. Lakin Marsellin açıq-aydın hunlara qarşı düşmən münasibətlə danışır, hiss olunur ki, o, hunlardan incikdir. Məsələn o yazır ki, hunlar vəhşilər kimi yaşayırlar, od nədir bilmirlər, xörək hazırlaya bilmirlər, çöl siçan dərisindən paltar geyirlər və s. Bütün bunlar şübhəsiz qərəzli fikirlərdir və həqiqətə uyğun deyil.

O, qeyd edir ki, hunlar xış bilmirlər, onlar əkib-biçmirlər. Qadınlar arabalarda həm toxuyur, həm də paltar tikirlər. Müəllif yazır ki, hunların vətəni haradır? - heç kim bilmir, bir ölkədə doğulan uşaq başqa ölkədə böyüyür.

Hunlar tayfalardan, tayfalar isə qəbilələrdən ibarət idi. Hər tayfa və qəbilə başçıları həm də hun ordusunda döyüşçü dəstələrinin başında dururdular. Tədqiqatçı E.A.Tomsona görə hunlarda hər tayfa birləşməsi 5 min nəfərdən ibarət idi və bu birləşmə həm də hərbi vahid sayılırdı. "El" adlanan bu vahidin başında hərbi rəis dururdu. Hunları yaxından görmüş və bir müddət onların içərisində yaşamış Bizans səfiri Prisk adlı birisi V əsrin əvvəllərində yazır ki, hun ərləri (kişiləri) yalnız yığıncaqlar vaxtı atdan düşürlər. Antik və Çin müəllifləri yazırlar ki, hunlar atlı xalq olduğuna görə uşaqlıqdan at üstündə döyüşməkdə çox məharətlidirlər. Döyüş vaxtı at çapa-çapa həm ox atır, həm də arkan (örkən) adlı ilgəklənmiş sicimi uzaqdan düşmən döyüşçülərinin boğazına salıb dartır, atdan salır və başlarını kəsirdilər. Hunların öz döyüş texnikaları var idi: sür'ətli həmlə ilə düşmən ordusuna hücum edir, manevr edərək bə'zən geri çəkilir, sonra da cinahlar hərəkətə gələrək düşməni mühasirəyə salıb qırırdılar.

Ammian Marsellin yazır ki, hunların döyüş texnikası çox qəribədir. Roma ordusunda zabit olmuş Marsellin hunların

döyüş texnikasına bələd idi. Onun yazdığına görə döyüşə girməzdən əvvəl hun atlı döyüşçüləri paz şəklində düzülür, dəhşətli qışqırıqla döyüşə atılır, sonra qəsdən dağılışaraq düşmən ordusunun hissələrini mühasirəyə alıb qılıncla doğrayırlar. Müəllif əlavə edir ki, onlar o qədər sür'ətlə hərəkət edirlər ki, qala divarlarını aşır və möhkəmləndirilmiş düşərgələri tutur, sonra da oranı qarət edirlər. Marsellinə görə hunlar ən inadkar döyüşçülər adlandırıla bilər. Müəllif yazır ki, hun kişiləri hətta yeməyi də at üstündə yeyir və at üstündə mürgüləyirlər. Onlar öz aralarında hər məsələni qarşılıqlı razılıq əsasında həll edirlər.

Avropa və Rus tədqiqatçıları hunları köçəri xalq olduqlarına görə vəhşi adlandırsalar da, bu əslində belə deyildi. Çünki müxtəlif dəmir silahları düzəltmək üçün metaləritmə və sənətkarlıq məharəti olmadan döyüş meydanlarında qələbə çalmaq olmazdı. Hunlar o dövrdə ən möhkəm qala divarlarını alırdılarsa, bu onu göstərir ki, onlar dövrünə görə döyüş texnikasına yaxından bələd idilər.

Hunlar dövrlərinə görə yüksək döyüş qabiliyyətinə malik idilər, əks halda dalbadal güclü orduları məğlub edə bilməzdilər. Onlar qala divarlarını deşən və dağıdan texnikaya malik idilər. Hunların o dövrün güclü ordularını qanlı döyüşlərdə məğlub etmələrinin səbəbini təkcə döyüş sənətində görmək olmaz. Nəzərdə saxlanmalıdır ki, hunların arxasında arvad-uşaqlarının, ata-analarının və yeganə əsas sərvətləri olan mal-qara və at ilxılarının yerləşdiyi böyük düşərgələr yerləşirdi. Ona görə döyüş vaxtı geri çəkilmək, düşərgənin düşmən əlinə keçməsi demək idi. Hər bir hun əri və döyüşçüsü dərk edirdi ki, yalnız inadlı döyüşdə qələbə çalmaqla ailələrini düşmən əlinə keçməkdən qoruya bilərlər.

IV əsrin 70-ci illərinin əvvəllərində kütləvi halda Volqanı keçən hunlar Şimali Qafqaz çöllərinə çıxdılar. Burada onlar iki hissəyə ayrıldılar. Bir hissəsi Donu keçib Azov dənizi ətrafındakı əraziyə, oradan qərbə hərəkət etdilər. Digər hissəsi isə 395-ci ildə 15 günə Şimali Qafqazdan Albaniyaya keçərək, Ön Asiyaya gəldilər. Hun sərkərdələri Kursix və Basix başda olmaqla bu hunlar Dəclə və Fərat çayları arasını,



Suriyanı, Fələstini qarət etdilər və "Yanar odların" (indiki Abşeron nəzərdə tutulur) yanından ötüb geri döndülər.

Hunlar qərbə hərəkət edən zaman ən əvvəl Xəzər dənizi ilə Don çayı arasında yaşayan Alan adlı xalqı 370-ci ildə məğlub etdilər. Sonra onlar Don çayını keçib Azov ətrafı ərazini, Terek və Kubanı ələ keçirdilər. Sür'ətli yürüşlə Krıma tərəf hərəkət edən hunlar o vaxtlarda həmin ərazilərdə yaşayan və indiki almanların ulu əcdadları sayılan qotlarla üzləşdilər. 371-ci ildə hun ordusu ilə ostro-qotların orduları qarşılaşdıqda bir neçə döyüşdə qot ordusu məğlub oldu və 375-ci ildə onların başçısı 110 yaşlı Germanarix hunlarla döyüşdən qorxub xəncəri ilə qarnını yırtıb özünü öldürdü. Bu hadisədən sonra qot ordusu qaçmağa üz qoydu. Bir Bizans mənbəində qeyd olunur ki, qotlar "üstümüzə şeytan gəlir" - deyərək qaçırdılar.

Aşağı Kubanda bir sıra yaşayış məntəqələrini dağıtdıqdan və Taman yarımadasında qədim şəhərləri qarət etdikdən sonra hunlar başda Ruqa (Ruqila) olmaqla qış vaxtı buz bağlamış Kerç boğazına və oradan da Krıma keçdilər. Çox da qalın olmayan buz təbəqəsinin üstü ilə böyük bir atlı ordusunun sür'ətlə boğazı keçməsi qədim müəllifləri heyrətə gətirmişdi. Çünki o vaxta qədər heç bir atlı ordu belə bir tədbiri həyata keçirməmişdi. Sonralar antik müəlliflər bu misli görünməmiş hadisə haqqında rəvayətlər qoşmuşdu. Bizans tarixçisi İordan yazır ki, guya hun atlıları dəniz kənarında maral sürüsünə rast gəlmiş və onu qovmağa başlamış, maral sürüsü Kerç boğazından buzun üstündən keçib qaçdığına görə hunlar da onların ardınca gedərək Krıma çıxmışlar. Əlbəttə, bu rəvayətdir. Hunlar hərb sənətini çox yaxşı bilirdilər və ona görə də tədqiqatçılır doğru hesab edirlər ki, hunların Kerçi keçməkdən məqsədi o vaxtkı Krımda ağalıq edən qotların arxasına keçməkdən ibarət idi. Krımda yerləşən Bospor quldar dövləti və onun varlı şəhəri Evpatoriya (yaxud Kerç, Bospor və s.) hunların həmləsinin qarşısını almaq iqtidarına malik deyildi.

Krımda aparılmış arxeoloji qazıntılar hunların basqını ilə bağlı olaraq baş vermiş hadisələri təsəvvür etməyə imkan verir. Şəhərlərdə yanğın izləri və qalaq-qalaq insan sümükləri

göstərir ki, hunların basqını çox amansız keçmiş və əhali qaçıb aradan çıxmağa macal tapmamışdır. Yanğınla bağlı arxeoloji təbəqədə çoxlu metal pullar və bəzək əşyalarının tapılması göstərir ki, əhali yalnız canlarının harayında olmuş və heç nə gizlədə bilməmişdir. Hunların Krımı işğalı ilə Krım və Qara dənizin şimal sahillərindəki antik şəhərlər süqut etdi, onların bə'ziləri isə bir daha dirçəlmədi. Bununla yanaşı Krımda quldarlıq quruluşu məhv oldu. Ümumiyyətlə, tədqiqatçıların bu fikri doğrudur ki, hunlar quldarlıq quruluşuna zərbə vurdular. Onlar və onların sıxışdırdığı Şərqi Avropa xalqları Roma imperiyasına çəkildilər və nəhayət e'tibarilə imperiyanın sonuna çıxdılar. İmperiya ilə yanaşı antik quldarlıq quruluşu da bitdi.

V əsr Bizans tarixçisi Evpatiy yazır ki, hunlar qotlarla zalımcasına rəftar edirdilər, onların kişilərini arvad-uşaqları ilə birlikdə öldürürdülər. Germanarixin oğlu Vitimarix 375-ci ildə hunlara müqavimət göstərməyə təşəbbüs etdi, lakin Valamirin (Balambəyin) başçılıq etdiyi hun ordusu ilə döyüşdə öldürüldü. Balambəy onu təkbətək döyüşdə öldürüb başını kəsdi. Vitimarixin oğlu Viderix ostro-qotların qalığını götürüb Dnestr çayını keçərək Roma imperiyasına sığındı. Qısa bir müddət ərzində hunlar qotların ərazisini işğal etdilər və 376-cı ildə Karpat dağları ilə Yuxarı Donets çayı arasında yerləşən qotların ərazisini tutdular. Bir mə'lumata görə 200 mindən çox ostro-qot ailəsi qaçıb Roma imperiyasına sığındı. Hunlar ostro-qotları qovaraq Dnestrə çatdılar. Ostro-qotların bir hissəsi Dnestr sahilində yerləşən veziqotların (vestqot "Qərb qotları" sözündəndir) yanına getdi. Veziqotların başçısı Atanarix Dnestr kənarında qüvvətli düşərgə yaratmış, hunların hərəkətlərinə göz qoyan dəstələr tə'yin etmişdi. Çayın sahillərində isə güclü gözətçi dəstələri gözləyirdilər. Lakin hunlar veziqot gözətçi dəstələrindən yayınıb gecə ay işığında çayı səssiz keçə bildilər və qotların düşərgələrinə arxadan qəfil hücum təşkil etdilər. Xəbərsiz veziqotların bir hissəsi qırıldı, digər hissəsi Atanarixin başçılığı ilə Karpat dağlarına çəkildilər və Prut çayı ilə Dnestr çayları arasındakı meşələrdə



gizləndilər. Hunlar onların torpaqlarını tutaraq özlərini də qırmaq üçün irəli hərəkət etməyə başladılar. Hunlarla qarşılaşmadan qorxan Atanarix ordusu ilə 378-380-ci illərdə Dunayı keçib Roma imperiyasında himayə xahiş etdi və orada məskunlaşdı. Veziqotlarla hunların müharibələrindən danışan Ammian Marsellin yazır ki, hunlar qot tayfalarına elə bil qənim kəsilmişdi və gözü qorxınuş qot, hun adı çəkiləndə qorxudan əsirdi.

Arxeoloqlar Ukraynanın meşə-step zonasında - Yuxarı Donets çayından Karpat dağlarına qədər uzanan sahədə qədim arxeoloji mədəniyyəti ***Çernyaxov mədəniyyəti*** adlandırırlar. Bu mədəniyyət alman tayfalarına - qotlara məxsusdur. Müəyyən edilmişdir ki, bu mədəniyyət V əsrin əvvəllərində məhv olmuşdur ki, bu da hunlarla bağlıdır. Həmin mədəniyyətin üst təbəqəsində hər yerdə yanğın izləri və çoxlu insan skeletləri aşkar edilmişdir.

400-cü ildə hunlar Dunay çayının sahillərinə gəldilər. Bu çay Bizans imperiyasının sərhəddində idi. Dunay sahillərində qotların digər bir hissəsi məskunlaşmışdı. Hunlar qəflətən onlara hücum edib düşərgələrini tutdular, başçıları Qaynanı ələ keçirib başını kəsdilər. Bununla da Cənub-Şərqi Avropanın Volqadan Dunaya qədər olan hissəsi hunlar tərəfindən işğal edilmiş oldu. Dunay çayı Hun imperiyası ilə Roma imperiyası arasında sərhədd xəttinə çevrildi. Roma imperiyası əvvəllər hunların işğallarına o qədər də əhəmiyyət vermirdi, lakin onların Dunaya gəlməsi qorxu yaratmışdı. Elə ki, hunlar Dunayı keçib Roma imperiyasının bir sıra əyalətlərini tar-mar etdilər, onda Roma tez danışıqlar üçün səfirlik göndərdi.

Hunların əsas qərargahı Qara dənizin şimal çöllərində yerləşirdi. Burada qalmış hunlar Karaton adlı xanın hakimiyyəti altında idilər. 408-ci ildə hun ordusu Ulduz xanın başçılığı ilə Bizans ordusunu məğlub etmişdi. 410-cu ildə Ulduz öldükdə yerinə Karaton keçdi. Hunlardan qorxuya düşən Roma dövləti 412-ci ildə hunlara səfirlik göndərmiş və onlara illik xərac verməyi öhdələrinə götürmüşdü. 422-ci ildə hun sərkərdəsi Rua Romanı hunlara ildə 175 kq qızıl verməyə məcbur etmişdi.

430-cu ildə hunlar sərkərdə və xaqan Rua-nın (yaxud Urik) başçılığı ilə Reyn çayını keçərək, indiki Almaniya ərazisinə hücum etdilər və çoxlu qənimət ələ keçirərək geri qayıtdılar. 434-cü ildə Rua öldü, yerinə qardaşı Muncuqun (yaxud Bunçuqun)[11] oğlu ***Attila*** keçdi.

Qərbi hun imperiyası Attilanın hakimiyyəti illərində (434-453) qüdrətli dövlətə çevrildi.

Attilanı görmüş Bizans tarixçiləri onu alçaq boylu, enlikürək, qara qıyıq gözlü və yastı burun, seyrək saqqallı kişi kimi təsvir edirlər. Onu görmüş şahid yazır ki, o, qıyıq gözləri ilə baxanda adamın canına vahimə düşür. Onu görmüş müəlliflər yazırlar ki, onun başı böyük, qulaqları çox iri idi, qısa boylu, geniş kökslü, qara rəngli və çox fiziki qüvvəsi olan adam idi. Ən kiçik yamanlıqdan dəhşətlə hirslənirmiş. Xırda, lakin çox zəhmli gözləri vardı. Attila istila etdiyi ölkələrdə mədəniyyət abidələrini dağıtmırdı. Qonaqlarına qızıl-gümüş qabda yemək təklif edir, özü taxta qabda yeyirdi. Attila arvadı Sullanı çox sevirdi və xarici siyasətində həmişə onunla məsləhətləşirdi.

Attilanın at çapmaqda və ox atmaqda tayı yox idi. Döyüşdə çox qorxmaz olduğuna görə döyüşçüləri onu çox istəyirdilər. Düşmənlərə qarşı çox amansız olan Attila öz döyüşçüləri ilə, sıravi hunlarla çox həlim davramrdı. O, adi döyüşçü ilə bir sırada vuruşurdu.

Attila həm də bacarıqlı dövlət başçısı, diplomat idi. 435-439-cu illər arasında Attila yenidən Qara dənizin şimal çöllərini və Krımı tutaraq, dövlətini möhkəmləndirmişdi. O, Bizansla müqavilə bağlamış və hunlarla Bizans arasında ticarət əlaqələrini sahmana salmışdı. Attilanın hakimiyyət illəri Volqa çayından Almaniyadakı Reyn çayına qədər böyük bir ərazini əhatə edən Qərbi Hun imperiyasının yüksəliş illəri hesab olunur.

434-cü ildə hakimiyyətə gəlmiş Attila dövləti əvvəlcə qardaşı Bələd ilə birgə idarə edirdi. Bələd yaxşı sərkərdə idi, bir sıra döyüşlərin qalibi idi. Tarixçi Prisk yazır ki, 435-439-cu illərdə məhz Bələdin köməyi ilə Qara dənizin şimal əyalətləri



yenidən işğal olunmuşdu. Bundan sonra Attila bu ərazinin baş hakimliyini cavan, lakin çox igid oğlu Ellaka tapşırmışdı.

Hun imperiyası Şərqi Roma imperiyası olan Bizans və başqa Şərq ölkələri ilə qızğın ticarət edirdi. Bizans dövləti Hun xaqanlarının tələblərini yerinə yetirməyə məcbur idi. Lakin Bizans eyni zamanda hər vasitə ilə hunları zəiflətməyə çalışırdı. Hun tayfalarından biri olan akacərlər Cənub-Şərqi Avropada ən böyük tayfa birləşməsi idi. Bizans imperatoru II Feodosiy (408-450) hədiyyələr verməklə bu tayfa birləşməsinin bəylərini Hun xaqanına qarşı qaldırmağa çalışmışdı. Lakin akacərlərin tayfa başçısı Kuridak bunu Attilaya xəbər vermişdi. Attila ordunu götürüb akaçərlərin üstünə getdi və bütün bəylərinin başlarını kəsdi. Attila Kuridaka dəymədi, lakin onun yerinə öz oğlu Ellakı tə'yin etdi.

Attila 445-ci ildə qardaşı Bələdi öldürdü və hakimiyyəti öz əlində cəm etdi. O, Balkan ölkələrinə hərbi səfər təşkil edərək Bizansın 70-ə qədər şəhər və qalasını tutmuş və Konstantinopolun qala divarlarına qədər getmişdi. Qorxuya düşən Bizans imperatoru Feodosiy 447-ci ildə Attila ilə tez danışıqlara başladı və böyük məbləğdə illik bac verməyə söz verdi. Bundan sonra Attila Qalliyaya (indiki Fransaya) hərbi səfər təşkil etdi. Frank ölkəsinin knyazlarından Qonoriy adlı birisinin gözəl bir qızı Attilaya ərə getmək arzusunda olduğu xəbərini göndərmişdi. Qalliyaya 450-ci ildə səfər vaxtı hunlar Burqund ölkəsini işğal etdilər və Orlean şəhərinə çatdılar. Burada vəziyyət dəyişdi. Ona görə ki, 447-ci ildə Attila ilə müqavilə bağlamış Bizans çarı Feodisiy ölmüş, onun yerinə Mavrikian keçmişdi. O, Attilaya illik bac vermək haqqında müqaviləni ləğv etdi və onunla müharibəyə hazırlaşdı. Bizans ordusunun başında Aetsi adlı gözəl xarici görünüşlü, cavan (390-cı ildə doğulmuşdu), hərbi məharətli sərkərdə dururdu. Maraqlısı odur ki, atası alman (qot) və anası italyan qızı (Romalı) olan Aetsi uşaqlıqda hunlara əsir düşmüş və necə olmuşdusa Attila ilə uşaqlıq dostu olmuşdu. Hər ikisi at çapmaq və ox atmaqda bərabər idilər. Bu bacarığına görə Attila Aetsinin xatirini çox istəyirdi və onunla dostluq edirdi. Lakin

sonralar Aetsi əsirlikdən azad olmuş, Konstantinopola getmiş, 446-cı ildə öz şəxsi bacarığına görə konsul seçilmiş və Bizans ordusunun başçısı tə'yin edilmişdi. Aetsinin hun dilini yaxşı bilməsi, hunların döyüş taktikası ilə yaxından tanışlığı və şəxsi hərbi bacarığı onun bu vəzifəyə tə'yin olunmasında mühüm rol oynamışdı.

450-ci ildə Attila Qalliyada olarkən birdən-birə Aetsinin ordusu ilə üz-üzə gəldi. 451-ci iyunun 20-də Qalliya ərazisində ***Katalaun*** adlı çöldə bu iki ordu döyüşə girdi. Aetsinin ordusunda hunlar tərəfindən dəfələrlə məğlub edilmiş qotlar, bizanslar, franklar və Şərqi Avropanın xalqlarından muzdla tutulmuş çoxlu döyüşçü iştirak edirdi.

Qanlı döyüşdə hər iki tərəfdən minlərlə döyüşçü qırıldı. Heç bir tərəf qalib gəlmədi. Attila döyüş meydanını tərk etsə də, Aetsi onu izləməyə cür'ət etmədi. Attila geri, Qara dənizin şimal çöllərində yerləşən qərargahına qayıtdı və yeni səfərə hazırlaşdı. 452-ci ildə Attila Bizansla müharibəni təzələdi, lakin Aetsi onun qabağına çıxmadı. Attila Bizansın şəhər və kəndlərini tutub taladı, çoxunun qala divarlarını dağıtdı. Bizans müəllifləri yazırlar ki, bu hərbi səfər zamanı Attila küllü miqdarda qənimət ələ keçirmişdi. O, Bizansa sığınmış qotları da taladı və Katalaun çölündə Bizansın tərəfində döyüşdüklərinə görə onlardan qisas aldı. Bizans imperatoru II Feodosiy Attila ilə danışıqlara can atırdı. Romalılar böyük xərac verməklə Attilanın əlindən vətənlərini xilas etdilər. Attila Aetsini döyüşmək üçün axtarırdı, lakin onunla bir də üzləşə bilmədi. 453-cü ildə Attila almanların Burqund ölkəsinin hakiminin gözəl qızı sayılan İldikoya evləndi. Lakin elə toyun birinci gecəsində müəmmalı surətdə Attila qızla yatağında yatdığı zaman öldü[12].

Attilanın ölməsi ilə Bizans dövləti öz qorxunc düşmənindən xilas oldu. İmperator Valentin sərkərdə Aetsidən çəkinərək, onu saraya çağırdı və elə Attila ölən ildə, 453-cü ildə onu öz əli ilə sarayda öldürdü.

Hunlar Attilanın ölümünü çox böyük ürək ağrısı ilə qarşıladılar. Onlar Attilanı sevirdilər. V əsrdə Attilanın sarayında olmuş Roma səfiri Prisk yazır ki, bir ziyafət vaxtı hun şairləri



Attilanın qələbələrini mədh edir, döyüşçülər şənlənirdilər. Məclisdə olan qocalar isə hərbi səfərlərdə iştirak edə bilmədiklərinə görə ağlayırdılar.

Tarixi mənbələrə görə Attilanın dəfnində qadınlar saçlarını yolmuşdular. Attilanın cənazəsi qəbiristana aparılarkən onun tabutunun ardınca bəzədilmiş sevimli atı da aparılmış və onunla bir yerdə basdırılmışdı.

Attila öldükdən sonra Hun imperiyasının əhatə etdiyi xalqlar baş qaldırdılar. İlk əvvəl mənşəcə alman tayfaları olan qotlar hunlara qarşı üsyan etdilər. Attilanın böyük oğlu Ellak ilə qotların qoşunu arasında ***Nedae*** adlı yerdə Sava çayının sahilində baş vermiş döyüşdə Ellak öldürüldü. Hər iki tərəfdən 30 min adam qırıldı. Bundan sonra hunlar geri çəkildilər.

Attilanın bu döyüşdə iştirak edən digər oğlanları - Dəngizik və İrnik Qara dənizin şimal çöllərinə doğru geri çəkildilər. Attilanın ölümü ilə Bizans imperiyası da azad oldu və bundan sonra Hun dövləti ilə siyasəti dəyişdi. Lakin Bizans dövləti yenə də hunlardan çəkinirdi və çox ehtiyatlı siyasət yeridirdi. 468-ci ildə Bizans Hun sarayına səfirlik göndərdi. Hun dövlətinin başçısı, Attilanın oğlu Dəngizik onunla ticarət məqsədilə Dunayda sərhəddi açmaq və tacirlərin təhlükəsizliyini tə'min etmək üçün müqavilə bağladı. Lakin Bizans dövləti bu şərtə əməl etmədi. Ona görə də həmin ildə Dəngizik Roma imperiyasına müharibə e'lan etdi və ordu ilə Dunayı keçərək müharibəyə başladı. Bizans dövləti qotların və hunlardan narazı olan bütün Şərqi Avropa xalqlarının qoşunu ilə birlikdə Dəngizikin qarşısına çıxdı. 469-cu ildə hunlarla bu birləşmiş qoşunlar arasında qanlı vuruşma baş verdi. Döyüş zamanı Dəngizik öldürüldü, bu hadisədən sonra hunlar döyüş meydanını tərk edərək geri döndülər.

Əvvəlcədən razılaşdırılmış plana görə Dəngizikin qardaşı İrnik də qoşunu ilə ona köməyə gəlməli idi. Lakin bu zaman hunların Sarıqur tayfa birləşməsi içərisində iğtişaş başlandığına görə, İrnik Dəngizikin köməyinə gecikmişdi. Artıq iş-işdən keçmişdi. Dəngizik döyüşdə öldürülmüş, Bizans ordusunun başçısı Anaqast onun başını kəsərək, bir atlı ilə

Bizans imperatoruna - Konstantinopola göndərmişdi. Dəngizikin öldürülməsi hun döyüşçülərinə çox ağır tə'sir etmişdi.

Təxminən bir əsr müddətində Avropa xalqları hunlara qarşı durmalı oldular. Hunlar bu xalqların ordularını qanlı vuruşmalarda məğlub edərək, düşərgələrini, qala və şəhərlərini tutaraq qarət etdilər, illik xərac aldılar. Ammian Marsellin bu münasibətlə yazırdı ki, hunlar dağlardan qalxan tufan kimi qabaqlarına çıxan hər şeyi məhv etdilər, çoxlu qoşunları qırdılar.

Hunlar haqqında mə'lumat verən tarixçilərin çoxu yazırlar ki, "hun" adı xalqları dəhşətə gətirmişdi və qotlar məğlub edildikdən sonra digər Avropa xalqları hunların qarşısına çıxmaqdan çəkinirdilər.

Hun imperiyası dağıldı, lakin bu, tarixdə böyük iz qoydu. Hunların tərkibində olan türk tayfaları sonrakı əsrlərdə Cənub-Şərqi Avropanın tarixində mühüm rol oynadılar və həmin xalqların etnogenezini yeni səmtə istiqamətləndirdilər.

Qərbi Hun imperiyasının tarixi qədim türklərin tarixində mühüm mərhələ təşkil edir. Az sonra bu imperiyanın xarabalıqları üzərində Bolqar, Suvar, Avar və Xəzər xaqanlıqları təşəkkül tapmışdı.

Bununla da hunların tarixdə ikinci dövləti də süqut etdi.

***İctimai quruluş və təsərrüfat.*** Qərbi Hun çarlığı da hərbi-feodal dövləti idi. Bu çarlıq müharibələr yolu ilə yaradılmışdı. Geniş ərazini əhatə edən dövlətin iqtisadi zəmini zəif idi.

Hunlar maldar idilər. Onların xanları da çadırlarda yaşayırdılar, çünki sarayları çadırlardan ibarət idi Məsələn, Attilanın sarayı hərbi düşərgədə yerləşirdi. O, arvadı Greka üçün də belə bir saray-düşərgə saldırmışdı.

Avropa və Rus tarixşünaslığında bir tərəfdən hunların Cənub-Şərqi Avropaya gəlməsi öz dövrünü keçirməkdə olan quldarlıq quruluşunun süqutunda mütərəqqi hadisə hesab olunur, digər tərəfdən, xüsusilə Rus tarixşünaslığında hun istilalarının Qərbi Avropa xalqlarımm ictimai inkişafını müəyyən müddət ərzində geri saldığı söylənilir və ümumiyyətlə, mənfi hadisə sayılır. Sonuncu nöqteyi-nəzər sözsüz ki,



obyektiv deyildir. Lev Qumilyov haqlı olaraq yazır ki, hunları vəhşi, slavyanları və Qərbi Avropa xalqlarını o vaxt mədəni etnoslar saymaq düz deyil və müasir Avropa xalqlarının ulu əcdadları olmuş germanlar, keltlər, vandallar və b. heç də hunlardan geri qalmırdı.

Hunların ictimai quruluşu hərbi demokratiya idi. Hərbi demokratiyanın xarakterik xüsusiyyəti odur ki, qisas almaq və öz ərazisini genişləndirmək üçün edilən müharibələri yaşayış vasitələri əldə etmək üçün aparılan müharibələr əvəz edir. Müharibələr sənətə çevrilir və qənimət ələ keçirməklə dolanırdılar. F.Engels hərbi demokratiyanın səciyyəvi xüsusiyyətlərindən danışarkən yazır ki, tayfa bölgüsü, hər tayfanın başında duran rəis, xalq yığmcağı və məsləhət şurası - bütün bunlar hərbi demokratiya üçün xarakterikdir. Hunlarda da bu xüsusiyyətlər vardı.

Hunlarda qəbilə-tayfa bölgüsü hakim idi. Onlar böyük patriarxal ailələr şəklində yaşayırdılar. Bir neçə qohum tayfa "el" adlanırdı. Qoşun da məhz tayfa-qəbilə bölgüsü əsasında yaradılırdı. Onlarda yalnız ev quldarlığı var idi, hər bir ailə bir neçə qul saxlayır və ev təsərrüfatında işlədirdi. Hunlarda hər bir məsələ yığıncaqlarda həll olunur və səs çoxluğu ilə qərarlar qəbul olunurdu. Hunların qızları da döyüşlərdə cavanlarla yanaşı at üstündə vuruşurdular. Hunlarda oğurluq etmək üstündə ağır cəza verilirdi, oğurluq edənin başı kəsilirdi.

Hunların ictimai quruluşu və təsərrüfat məşğuliyyətləri haqqında yazılı mənbələr çox azdır. Arxeoloji qazıntılar göstərir ki, onların böyük mal-qara sürüləri və at ilxıları vardı. Köçəri maldarlıq təsərrüfatın əsas sahəsi idi. Heyvanlar il boyu otarılırdı. Xırdabuynuzlu mal-qaradan qoyun və keçi saxlayırdılar. Keçi tükündən örkən toxuyurdular və belə simlərdən həm döyüşdə, həm ilxıdan öyrədilməmiş at tutmaqda, həm də ov vaxtı istifadə edilirdi. Hunlar yundan keçə düzəltməkdə usta idilər. Keçə ilə arabaların üstünü örtürdülər və alaçıqların döşəmələrinə sərirdilər. Hunlar qəbilələr şəklində yaşayırdılar. Çin mənbələrinə görə hər qəbilə 100-ə qədər çadırdan ibarət olurdu. Hunlarda qadınlar azad idilər və onlar bə'zən döyüşlərdə iştirak edirdilər.

Hunlar özlərinə lazım olan taxıl və başqa məhsulları həm düşmən şəhərlərini almaqla, həm də maldarlıq məhsulları ilə əldə edirdilər.

Türk xalqlarının tarixində hunların tarixi mühüm mərhələ təşkil edir. Bu təkcə onunla bağlı deyil ki, hunlar e.ə.III əsrdən eramızın V əsrinə qədər qədim dünyanın iki böyük imperiyasının yaradıcılarıdırlar və həm də ona görə ki, göstərilən dövrdə Mərkəzi Asiyada və Cənub-Şərqi Avropada tarixi hadisələrin zəncirvari gedişinin mühüm halqaları onların adı ilə bağlıdır. Bu həm də onunla bağlıdır ki, hunlar Mərkəzi Asiya, Cənub Sibir və Şimali Qafqazın türk xalqlarının etnogenez proseslərində mühüm rol oynamışlar. Nəhayət, aşağıda deyəcəyimiz kimi, İkinci, yaxud Qərbi Hun imperiyasının yaranması Avropa tarixində quldarlıq quruluşunun süqutunu başa çatdırdı və feodalizm quruluşunun yaranmasına səbəb oldu.

Hunların qədim vətəni Qərbi Sibir, Mərkəzi Asiya və Şimali Monqolustan hesab edilir. Onların Asiyadan Avropaya hərəkəti xalqların tarixdə mə'lum olan Böyük köçünün əsasını qoymuşdur. Hunların şərqdən qərbə hərəkəti nəticə e'tibarilə türkdilli xalqların Çindən Balkanlara qədər geniş bir ərazidə səpələnməsini tə'min etdi. Xalqların Böyük köçündə Mərkəzi Asiyadan gəlmiş bu türk tayfaları erkən orta əsrlərdə Cənub-Şərqi Avropa xalqlarınm tarixində silinməz iz qoydular.

### *§2. Avar xaqanlığı*

Cənub-Şərqi Avropa çöllərində erkən orta əsrlərdə yaşamış bir türkdilli tayfa birləşməsi Avar (əsli Abar) adlamrdı. Bu tayfa birləşməsinin adı ilk dəfə 463-cü ilə aid hadisə ilə əlaqədar olaraq Bizans müəllifi Priskin əsərində çəkilmişdir. Müəllif yazır ki, saraqurlardan Bizans imperatorunun sarayına 463-cü ildə gəlmiş elçi avarların sabirlərə (suvarlara) basqınından danışmışdır.

Tədqiqatçılar hesab edirlər ki, avarlar Cənub-Şərqi Avropada Hun imperiyası dağıldıqdan sonra ortaya çıxmış güclü



bir tayfa birləşməsi idi. Lakin bu tayfanın mənşəyi məsələsi indiyədək mübahisəlidir. Bə'zi tədqiqatçılara görə avarlar qədim türk run yazılarında çəkilən "apar" adlanan tayfadır. Mərkəzi Asiyada yaşamış bu tayfa Kamal Anadolun yazdığına görə həm də cucan (Çin mənbələrində juan-juan) adlamrdı. Müəllifin yazdığına görə eranın əvvəllərində bu tayfa iki yerə ayrılmış, bir hissəsi Çinə getmiş, digər hissəsi isə hunların tərkibində qərbə gəlmişdir.

Qərbi Hun imperiyası (Attilanın dövləti) dağıldıqdan sonra Cənub-Şərqi Avropa çöllərində hakim qüvvəyə çevrilmiş avarlar qərbə hərəkət edərək, Bizans dövlətinin sərhədlərinə çatmış və Kandix adlı bir nəfərin başçılığı ilə 558-ci ildə Bizans imperatorunun yanına səfirlik göndərmişdilər. Səfirlik Bizans ərazisində avarların məskunlaşması üçün yer tələb etmişdi. Bu zaman Cənub-Şərqi Avropada yaşayan türkmənşəli Kuturqur tayfa birləşməsinin Bizans imperiyasına basqın edəcəyi qorxusu olduğuna görə, Bizans imperatoru avarların hərbi köməyindən istifadə etmək istəyirdi. Ona görə imperator Yustinian Avar səfirliyini yaxşı qəbul etmiş, onun üzvlərinə bahalı paltar, qızıl və gümüş kəmər, qızıl pul bağışlamış, avarların başçılarına da hədiyyələr göndərmişdi.

İmperator avarlara məskunlaşmaq üçün Dunaydan şimala - Sava və Drava çayları arasındakı ərazini və'd etmişdi. Lakin bu ərazidə yerləşməzdən əvvəl avarlar Bizansın düşmənlərinə qarşı mübarizədə özlərini göstərməli idilər. Bizans tarixçisi Menandr yazır ki, bu şərtə uyğun olaraq avarlar tezliklə Xəzər-Azov arası ərazidə türkdilli utiqur, zal (sal) və sair tayfa birləşmələrinə qarşı mübarizəyə başlayaraq, onları məğlub etdilər. Bizans ərazisi üçün təhlükə törədən də bu tayfa birləşmələri idi. Sonra Bizans avarları slavyan tayfaları olan antlara qarşı yönəltdi. Avarlar qısa vaxt ərzində antların ərazisinə girərək, şəhərlərini qarət etdilər. Nəticədə avarların tayfa ittifaqı yeni türk tayfaları hesabına böyüyərək, Bizans üçün təhlükəli qüvvəyə çevrildi. 562-ci ildə avarlar Bizansa səfirlik göndərərək, məskunlaşmaq üçün və'd edilmiş ərazini tələb etdilər. Lakin vaxt qazanmaq

məqsədilə imperator danışıqları uzatdı. 565-ci ildə avarlar Bizansa yeni səfirlik göndərərək, imperatorun qarşısına qəti tələblər qoydular. Bizans imperatoru bu dəfə də müxtəlif bəhanələrlə və'di yerinə yetirməkdən boyun qaçırdıqda avarlar Dunayı keçərək, VI əsrin 60-cı illərinin sonlarında indiki Macarıstan ərazisində Bayan xanın başçılığı ilə Avar xaqanlığını yaratdılar. Buradan avarlar frankların, lanqobardların ərazilərinə və Bizans imperiyasına qarşı hərbi səfərlər təşkil etməyə başladılar. Qorxuya düşən Bizans xaqanlığa ildə 80 min solid (qızıl pul) xərac verməyə məcbur oldu. Bundan sonra Bizans Avar xaqanlığı ilə ittifaqda slavyan xalqlarına qarşı bir sıra hərbi səfərlər təşkil etdi.

Lakin Bizans xaqanlığa hər il verəcəyi xəracın miqdarını azaltdıqda Bayan xan ordusu ilə 580-ci ildə imperiyaya qarşı hücuma keçdi və Dunay sahillərindəki Bizans əyalətlərini işğal etdi. Belə olduqda Bizans avarlara ildə 100 min solid xərac verəcəyinə boyun olaraq ölkəni onların basqınından xilas etdi. Lakin avarlar bununla kifayətlənməyərək, 592 və 598-ci illərdə Bizansın əyalətlərinə yeni hərbi yürüşlər keçirdilər.

626-cı ildə avarlar imperiyanın paytaxtı Konstantinopolu mühasirəyə aldılar və şəhərin qala divarlarını xüsusi qurğularla dağıtmağa başladılar. Lakin şəhərin qarnizonu Patriki Vonun başçılığı ilə qalanı qızğın müdafiə etdilər. Şəhərin əhalisi də avarlara qarşı ümumi mübarizəyə qalxmışdı. Qala divarlarının mühafizəçi-ləri avarların mühafizə qurğularını və onları işlədən döyüşçüləri məhv etdilər və beləliklə, avarlar şəhəri ala bilməyərək geri çəkildilər. Konstantinopol altında məğlubiyyət Avropa xalqlarını avarlara qarşı ümumi mübarizəyə qaldırdı. Avarlar Karpatlardan sıxışdırıldılar və onlar əsas e'tibarı ilə Macar düzənliklərində yaşamaqda davam etdilər.

VII əsrin 70-ci illərində Bizans xanlığa illik xəracı ödəməkdən boyun qaçırdı və onunla diplomatik münasibətləri kəsdi. Belə halda avarlar Karpat vilayətlərinə hücum edərək, ticarət yollarının əsas nöqtələrini ələ keçirdilər. İndiki Macarıstan ərazisi işğal olundu. Bizansın bir sıra şəhərləri (indiki Belqrad, Cezek) 582-ci ildə avarların hakimiyyəti altına keçdi.



Lakin Konstantinopolun alınmasında uğursuzluq avarların Avropadakı mövqelərini sarsıtdı. 805-ci ildə Avar xaqanlığı Böyük Frank krallığının basqınları nəticəsində süquta uğradı. Sonrakı əsrlərdə avarlar tədriclə macarlar və başqa xalqlar, xüsusilə şərqi slavyanlar içərisində məskunlaşaraq siyasi səhnədən çəkildilər, orta əsrlərdə Qara dənizin qərb sahili və Dunay-boyu xalqları ilə qaynayıb qarışdılar.

Macarıstan ərazisində erkən orta əsrlərin sonlarında avarlara aid çoxlu arxeoloji abidələr aşkar olunmuşdur. Qazıntılar zamanı qəbirlərdə tapılmış qılınclar və üzəngilər, üzərində həndəsi və zoomorf ornamentləri (zoomorf ornamentlərdə "skif heyvan stili" mühüm yer tutur) olan müxtəlif əşyalar və bəzək şeyləri avarlara aid edilir.

Kəmər (antik mənbələrdə kimmer) etnonimindən gürcü dilində qmiri "bahadır", alman dilində hun etnonimindən hune "nəhəng" sözləri kimi abar (avar) etnonimindən Şərqi slavyan dillərində obr "nəhəng" sözü qaldı.

Avarlarla bağlı mühüm məsələ onların Azərbaycanda da yaşamalarıdır. N.Y.Merpertin yazdığına görə VI əsrdə Şimali Qafqaz çöllərindən avarların bir qrupu Qafqaza getmişdi. Şimali Qafqaz çöllərində yaşamış avarların müəyyən hissəsinin VI əsrin 70-ci illərində Cənubi Qafqaza gəlmələri və gürcü çarı Quramın (570-600-cü illər) Bizans dövlətinin tələbi ilə onları Gürcüstanda yerləşdirməsi də mə'lumdur.

Avarların Azərbaycanda və Gürcüstanda yaşamaları toponimika ilə də təsdiqlənir. Azərbaycanda Avaran (Xaçmaz rayonu), Ermənistanda 1988-ci ilə qədər Abaran, Gürcüstanda Abari yaşayış məntəqə adları mə'lumdur.

Bir fakt da diqqəti cəlb edir. III-IV əsrlər arasında yaşamış antik müəllif Bizanslı Stefan Kür sahilində bir əyalətin Obaren adlandığını və orada obarenlərin yaşadığını yazmışdır. Ehtimal ki, müəllifin qeyd etdiyi "obaren" etnonimi abar (avar) etnoniminin fonetik şəklidir. Nəzərə alınsa ki, slavyanlar avarları "obr" adlandırırdılar, onda avar-abar etnoniminin eyni olması təsdiqlənir, belə halda avarların hələ eranın ilk əsrlərində hunların tərkibində Azərbaycan ərazisinə

gəldikdərini demək mümkün olar. Qeyd etmək lazımdır ki, XIV əsr müəllifi Həmdullah Qəzvini Kür çayının mənsəbində bir şəhərin Abarşəhr adlandığını yazmışdır.

Deyilənlər göstərir ki, erkən orta əsrlərdə Cənub-Şərqi Avropada yaşamış türkdilli avarların müəyyən hissəsi Azərbaycana gələrək sonrakı əsrlərdə yerli əhali ilə qaynayıb qarışmışdır.

Qədim türk tayfalarından biri olmuş avarların adı ilə Dağıstan dil qrupuna daxil olan, Dağıstanm Cənub-Qərbində və Azərbaycanın Zaqatala və Balakən rayonlarında yaşayan avarların adı eyni səslənsə də, onların heç bir mənşə birliyi yoxdur. Dağıstan dil qruplu avarlar özlərinə "marulal" deyirlər ki, bu da "dağlı" mə'nasındadır. Ehtimal olunur ki, Xəzər xaqanlığı vaxtında bu dövlətə daxil olan indiki Dağıstanda türk avarlar yaşamış və nəticədə bu ad Dağıstandilli avarlara da keçmişdir.

### *§3. Suvar çarlığı*

Qərbi Hun imperiyasi dağıldıqdan sonra Şimali Qafqaz çöllərində (Xəzər dənizinin şimal-qərb sahillərində) yaranmış digər türkmənşəli tayfa birləşməsi Suvar idi. Bu tayfanın adı ilk dəfə Klavdi Ptolomeyin əsərində savar kimi (Ptolomey, VI, V, 10), Bizans mənbələrində isə sabir kimi qeyd olunmuşdur. Bə'zi tədqiqatçılara (V.V.Bartold və b.) görə Suvar (əsli Savar) bolqarların bir hissəsinin adı idi. Mənbələrdə suvarların III əsrdən başlayaraq Cənubi Qafqaza basqınları barədə mə'lumatlar vardır. 515-ci ilə aid Bizans mənbəsində suvarlar Don-Volqa çayları arasında qeyd olunurlar. Oradan onlar Kuban çöllərinə və Şimali Qafqaza keçmiş və orada kiçik bir xaqanlıq yaratmışlar. 528-ci ildə bu dövlətin başında Balak, sonra arvadı Boarik (əsli Buy-Arik) dururdu. Burası da mə'lumdur ki, Boarik yüz minlik ordu ilə 528-ci ildə Bizans tərəfində İrana qarşı vuruşmuşdur. Sonrakı əsrlərdə suvarlar müxtəlif ərazilərə yayıldılar. Onların bir hissəsi Albaniyaya



gəlib orada məskunlaşmışdılar. Bə'zi tədqiqatçılara görə V əsrdə təşəkkül tapmış Şabran şəhərinin adı məhz Sabaran (Savaran) adının fonetik formasıdır. Bu onunla bağlıdır ki, VI əsrdən başlayaraq suvarlar şimaldan Albaniyaya gələrək orada məskunlaşdılar. VI əsrin axırlarında avarlar suvarları özlərinə tabe etdilər. Ondan sonra suvarların bir hissəsi avarlara qarışdılar, digər hissəsi Azərbaycana gəlib, orada məskunlaşdılar. İran şahı Xosrov Ənuşirəvan (531-579) Albaniyaya 10 min suvar yerləşdirilmişdi.

### *§4. Dunay Bolqar dövləti*

Avarların Şərqi Avropada ağalıq etdikləri bir vaxtda - VI əsrin ikinci yarısında Azovətrafı ərazidə, Volqa və Don çaylarının aşağı axarlarında yeni bir türk tayfabirliyi yarandı. Bu ittifaqın başında bolqar (yaxud bulqar) tayfası dururdu. Bə'zi tədqiqatçılara görə bolqarların bu tayfa ittifaqı Attilanın ölümündən sonra kiçik oğlu İrnəkə tabe hun tayfalarının Qara dənizin şimal sahillərinə qayıdaraq orada yaşayan bolqar tayfası ilə qarışması nəticəsində yaranmışdı.

Bolqarların qədim tarixi haqqında mə'lumat azdır. Erməni mənbələrində Şimali Qafqazda bolqarların adı e.ə.II əsrə aid hadisələrdə çəkilir. Bə'zi tədqiqatçılara görə bolqarlar Cənub Şərqi Avropanın hunlardan əvvəl yerli türkmənşəli tayfalarındandır. Bolqarlar bu bölgənin yerlərində, o cümlədən Şimali Qafqazda bir sıra müasir xalqların etnogenezində iştirak etmiş etnosdur. Hər halda bolqarlar şərqdən gəlmə türk tayfalarından deyil. Mərkəzi Asiyada, Qazaxıstanda və Altayda erkən və orta əsrlərdə yaşamış türk tayfalarının sırasında bolqar tayfası mə'lum deyil. Lakin hunlar Şərqi Avropam fəth etdikdə bir müddət bolqarlar da onların hakimiyyəti altında olmuşlar. Ona görə Bizans mənbələrində bə'zi hallarda bolqarlar həm də hun adlandırılır.

VI əsrin ortalarında yazmış Suriya tarixçisi Zaxari Ritor bolqarları Şimali Qafqaz çöllərində qeyd edir. IV əsr müəllifi

Marsellin isə hunlarla bolqarların toqquşmasından bəhs edir. Bu faktlardan görünür ki, hunlar gəldikdə bolqarlar Cənub-Şərqi Avropada yaşayırdılar.

V əsrin 70-ci illərində Roma imperatoru Zenon qədim alman tayfalarından olan ostroqotlarla mübarizə məqsədilə bolqarlarla ittifaqa girmiş və onların bir hissəsinə Dunay sahillərində yer vermişdi. Ona görə də 488-ci ildə ostroqotlar İtaliyaya basqın etdikdə bolqarlar onların qarşısına çıxmış və qanlı vuruşma ilə Roma imperiyasını xilas etmişdilər. Lakin Roma imperiyası ikiüzlü siyasət yeridirdi. Bolqarlar tezliklə bunu başa düşdülər və 499-cu ilin qışında Dunayı keçərək Roma imperiyasına daxil oldular. Onlar Arist başda olmaqla Roma ordusunu məğlub edib, bir sıra şəhərləri qarət etdilər. Bolqarlar bu hərbi yürüşü 502-ci ildə də təkrar etdilər. Ona görə də Roma imperiyası bolqarlara yenidən yaxınlaşdı, onları çoxlu xərac və hədiyyələrlə tə'min etdi. Artıq 515-ci ildə bolqarlar imperatorun tərəfində Romada baş vermiş üsyanı yatırdılar.

539-cu ildə bolqarlar yenidən imperiyaya hərbi səfər edərək, Yustin başda olmaqla Roma ordusunu məğlub etdilər. Yustin döyüşdə öldürüldü. Bolqarlar Frakiyaya girdilər. Burada Roma sərkərdələri Konstantin, Akum və Qodillanın başçılığı ilə Bizans ordusu bolqarları qarşıladı. Qeyd edilməlidir ki, bu sərkərdələrdən Akum mənşəcə xristian dinini qəbul etmiş hun idi. Döyüşün qızğın vaxtında bolqarlar hər üç sərkərdənin boğazına uzaqda arkan (örkən, yə'ni sicim) saldılar. Qodilla xəncərlə çatını kəsib qaçdı, digərləri isə tutulub öldürüldü.

Beləliklə, avarlara qədər bolqarlar təxminən yüz il Balkanlarda baş vermiş hadisələrdə iştirak etdilər. Qeyd etmək lazımdır ki, bu bolqarların hamısı Azovsahili ərazidən gəlmə deyildilər, görünür onların bir hissəsi Dunaysahili ərazilərdə yaşayırdı. Həmin bolqarlar sonra avarlara tabe edilmiş və onların hərbi səfərlərində iştirak etmişdilər.

Bizans mənbələrindən aydın olur ki, 598-ci ildə Bizansla müharibə aparan avarların avanqard dəstəsi bolqarlar idilər. Avar xanı Bayan öldükdən sonra hakimiyyət uğrunda mübarizədə bolqarlar avarlarla toqquşmuş, lakin məğlub olmuşdular. Onda bolqarlarm həmin hissəsi Frank kralı Daqobertin (629-639) razılığı ilə Bavariyada yerləşdirilmişdi. Lakin sonralar xəlvətdən Daqobert bu bolqarlara basqın etmiş, onların xeyli hissəsini qırmışdı. Bu hadisədə cəmi 700 nəfər bolqar salamat qalmış və onlar Alçek xanın başçılığı ilə İtaliyaya gedib orada məskunlaşmışdılar. Bolqarlarm bu hissəsi orta əsrlərdə öz dillərini itirmişdi.



Lakin bolqarların əsas hissəsi Azovsahili çöllərdə və Şimali Qafqazda sabirlər və utiqurlarla qonşuluqda yaşamaqda idilər. Zaxari Ritorun VI əsrin ortalarına aid mə'lumatında məhz bolqarların bu hissəsi nəzərdə tutulurdu. Lakin VI əsrin 60-cı illərində Qərbi Türk xaqanlığı Cənub Şərqi Avropanı işğal etdikdə bolqarları da tabe etmişdi. Xaqanlığa qarşı mübarizə nəticəsində bolqar tayfaları birləşib güclü tayfa ittifaqı yaratdılar.

Türk xaqanlığına qarşı birinci üsyan 582-602-ci illər arasında baş vermişdi. Üsyanda bolqarlarm tərəfində oğuzlar da iştirak etmişdi. Lakin üsyan baş tutmadı. Altay türkləri üsyançılara amansız divan tutdular. Bizans tarixçisi Fiofilakt Simokattaya görə 300 min nəfər üsyançı öldürülmüşdü. Şübhəsiz, bu rəqəm şişirdilmişdir, lakin hər halda bolqar-oğuz birləşməsinə böyük zərbə vurulmuşdu. Lakin elə bu vaxt xaqanlıqda hakimiyyət uğrunda çəkişmələr başlanmış və 581-ci ildə xaqanlıq iki hissəyə parçalanmışdı: Qərb hissəsində Danqu xanın başçılığı ilə Qərbi Türk xaqanlığı yaranmışdı. Xaqanlıqda çəkişmələr 619-cu ilədək davam etdi. Bundan istifadə edən Bizans Krımı türklərdən azad etdi və Türk xaqanlığının hakimiyyətinə qarşı çıxan bolqarlara tərəfdar oldu. Bu vaxt Orxan başda olmaqla Bolqar tayfa ittifaqı yarandı və Bizansa səfirliklə birlikdə özü də gedib xristianlığı qəbul etdi. Ondan sonra hakimiyyətə qardaşı oğlu Kubrat keçdi. Kubratın vaxtında Bolqar xaqanlığı qüvvətləndi. Kubratın özü də Bizansda, Konstantinopolda böyümüş və xristian dinini qəbul etmişdi. Kubrat ən əvvəl 635-ci ildə bolqarları Türk xaqanlığının tabeliyindən xilas etdi.

VII əsrin 30-40-cı illərində bolqarlar əsasən Don və Kuban çayları arasındakı ərazidə yaşayırdılar. Bolqar xaqanlığı da burada yaranmışdı. Xaqanlığın paytaxtı Krımda Fanaqoriya şəhəri idi. Lakin bu xaqanlıq çox yaşamadı.

Kubratın Batbay və Asparux adlı iki oğlu vardı. Kubrat öldükdən sonra oğlanlarının arasında hakimiyyət uğrunda çəkişmə başlandı və xaqanlıq iki yerə parçalandı. Asparuxun başçılığı ilə bolqarların bir hissəsi Dunay sahillərinə köçüb getdi və indiki Bolqarıstan ərazisində məskunlaşdı. Nəticədə Dunay-Bolqar dövləti yarandı. Həmin dövrdə orada slavyanlar da yaşayırdılar. Bolqarlar onları itaət altına aldılar, lakin qırmadılar. Orta əsrlərdə bu ərazidə Bolqarıstan dövləti yarandı.

Bolqarların Azovsahili ərazidə qalan hissəsi isə Katraq xanın başçılığı ilə bu vaxt yaranmış Xəzər dövlətinə tabe olsa da, çox keçmədən onların xeyli hissəsini götürüb Volqaboyuna getdi və orada Volqa-Kama Bulqar dövlətinin əsasını qoydu.

Bolqarların xəzərlərə qarışmış az hissəsi isə həmişəlik Şimali Qafqaz çöllərində qaldılar. Şimali Qafqazda indiki karaçaylar və balkarlar həmin bolqarların nəsilləri hesab olunur. Mənbələrdə bolqarların kapan, eseqel, kazan, berçula, kul və b. tayfalarının adları çəkilir. Bu tayfalarla bağlı Qullar, Qapanlı və Qazançı adlı toponimlərin Cənubi Qafqazın toponimiyasında geniş yer tutması göstərir ki, bulqarların müəyyən hissəsi qədim azərbaycanlılara da qarışmışdır.

Şimala çəkilmiş bu bulqarlar Volqa (türkcə İdil) və Kama çaylarının hövzələrində yerləşdilər. Onların ilk hökmdarlarının adları mə'lum deyil. Lakin IX əsrin birinci yarısında bu bulqarlara Almuş xan adlı bir elbəyi başçılıq edirdi. İtil(Volqa)-Kama bolqarları Barsula, Əseqel və Bulqar adlı üç tayfa birləşməsindən ibarət idilər. Onlara 921-922-ci ildə xəlifə Müqtədir vaxtında Bağdaddan elçilik göndərilmişdi. Elçiliyin başında Əhməd ibn Fadlan adlı bir nəfər ərəb dururdu. Elçilər şamanizm dinli bulqarlarda islam dinini yaydılar. 1236-1237-ci ildə bu Bolqar dövləti monqollar tərəfindən istila edildi. Sonralar orada Qazan xanlığı təşəkkül tapdı.



### *§5. Xəzər xaqanlığı*

Hun imperiyasının dağılmasından sonra VII əsrin ortalarında Cənub-Şərqi Avropa çöllərində yaranmış digər türkmənşəli tayfa birləşməsi Xəzər adlanırdı.

Xəzərlərin mənşəyi aydın deyil. Bolqarlar kimi xəzərlər də Cənub-Şərqi Avropanın hunlardan əvvəlki türk tayfalarından biri sayılır.

Xəzərlər VI əsrdən VII əsrin ortalarına qədər Qərbi Türk xaqanlığının tərkibində olmuşlar. Xaqanlıq parçalandıqdan sonra Xəzər tayfa ittifaqının dövlət qurumu yarandı. Dövlət əvvəlcə Aşağı Volqaboyunu və Şimali Qafqazın şərq hissəsini əhatə edirdi. VII əsrin ikinci yarısında xəzərlər Şimali Qafqazı, Azov dənizi ətrafını, Krımın çox hissəsini Dnepr çayına qədər Şərqi Avropanın çöl zonasını ələ keçirmişdilər.

Xəzər dövlətinin yaranması ilə Bolqar dövləti süqut etmiş, Asparuxun başçılığı ilə bolqarların bir hissəsi Dunaya getmiş, digər hissəsi Batbayın başçılığı ilə xəzərlərin hakimiyyətinə tabe olmuş, VIII əsrin 80-ci illərindən sonra bu bolqarlar Volqaboyuna getmişdilər. Bundan sonra Azov-Xəzərarası ərazidə ağalıq xəzərlərə keçmişdi. Az sonra xəzərlər Qara dənizin şimal çöllərinə də yiyələnmişdilər. Xəzərlər Dərbənd keçidindən keçərək tez-tez Cənubi Qafqaza, xüsusilə Albaniya ərazisinə basqınlar edirdilər, onların əsas məqsədi Cənubi Qafqaza yiyələnməkdən ibarət idi. Lakin VII əsrin ortalarından sonra ərəblərin Cənubi Qafqazı işğal etməsi xəzərlərin bu niyyəti həyata keçirmələrinə mane olmuşdu.

VIII əsrin əvvəllərində Xəzər dövləti Bizansın və Ərəb xilafətinin qorxulu rəqibi idi. Xəzər xaqanlığının cənub sərhəddi Dərbəndə qədər idi və ona görə onlar bu keçidi əllərində saxlayırdılar.

Bizans dövləti hər vasitə ilə Xəzər xaqanlığı ilə Ərəb xilafəti arasında düşmənçiliyi qızışdırırdı. Çünki hər iki dövlət Bizansın rəqibləri idi, həm də bununla Bizans ərəblərin müharibələrindən qorunmaq istəyirdi. Ona görə də Bizans imperatoru Xəzər dövləti ilə sıx əlaqə saxlayırdı. İmpe-

rator Lev İsavr 731-ci ildə oğlu Konstantini Xəzər xaqanının qızına evləndirmişdi. Məhz buna görə də 731-ci ildə xaqanın oğlu Barçilin başçılığı ilə Xəzər ordusu Albaniyaya səfər etmiş, ərəb qoşununu məğlub etmiş, Təbriz və Ərdəbil şəhərlərini qarət etmişdi. Buna cavab olaraq ərəb sərkərdələri Məsləmə və Mərvan Xəzər dövlətinin ərazisinə hərbi səfər etmiş və hər dəfə çoxlu xəzər ailələrini gətirib Albaniyada məskun etmişdi. Mərvan ibn Məhəmməd 737-ci ildə də 120 minlik ordu ilə Xəzər dövlətinə hücum etmiş, bir sıra Xəzər şəhərlərini dağıtmış və 20 min xəzər ailəsini əsir tutub gətirmişdi. Məhz bundan sonra xəzərlərin Cənubi Qafqaza qarşı basqınları dayanmışdı.

Ərəblər xəzərləri yalnız sıxışdırmışdılar və heç də onları məğlub etməmişdilər. Xəzər dövləti əvvəlki kimi ərəblərin təhlükəli rəqibi kimi qalırdı. Ona görə də, Azərbaycanda ərəb canişinləri xəzərlərlə münasibətləri tənzim etməyə çalışırdılar. Bu məqsədlə Albaniyada ərəb canişini Yəzid ibn Usayd əs-Sulami Xəzər xaqanının Çiçək adlı qızına evlənmiş və onu Bərdəyə gətirtmişdi. Lakin qız doğum vaxtı öldüyünə görə xəzərlərlə ərəblər arasında müharibələr yenidən qızışmışdı. 754-cü ildə Xəzər ordusu Albaniyaya girərək, Albaniya və Gürcüstanı işğal etdi və çoxlu qənimətlə geri döndü. Hətta Xəzər xaqanı Süsən (gürcü mənbələrində Şuşan) adlı gürcü qızına (gürcü çarının bacısı) vurulmuş, lakin gürcü çarı İoan razı olmamışdı. Belə olduqda xaqan Tiflisi tutub dağıtmış və qızı da əsir tutub aparmışdı.

Ərəblərin xəzərlərlə axırıncı böyük toqquşması 799-cu ildə baş verdi. Bu müharibənin də səbəbi Xəzər xaqanının qızına Azərbaycanda ərəb canişini Fədl ibn Yəhyanın evlənməsi, lakin çox çəkmədən gəlinin ölməsi olmuşdu. Gəlin Bərdəyə gəlib çatmamış yolda ölmüşdü. Xəzər xaqanı güman edirdi ki, ərəb canişini qızı qəsdlə öldürmüşdür. Hiddətlənmiş xaqan 100 minlik ordu ilə Cənubi Qafqaza gəlmiş və rast gəldiyi bütün ərəbləri qırmışdı.

İri dövlətə çevrilmiş Xəzər xaqanlığında dövlət dini məsələsi kəskinliyi ilə qarşıda dururdu. Bizans orada xristianlığı,



Ərəb xilafəti isə islamı yaymaq istəyirdi. Bununla hər iki halda siyasi məqsəd güdülürdü. Xəzərlərin öz qədim türk dinləri vardı. Onlar Göy allahına (tenqri), ağaca, ildırıma və s. sitayiş edirdilər. Lakin VIII əsrin sonlarında xan Obadi vaxtında Xəzər xaqanlığında yəhudi dini yayılmağa başlandı. Xəzər şəhərlərində çoxlu yəhudi yaşayırdı və onlar ticarətdə mühüm rol oynayırdılar. Bə'zi tədqiqatçılara görə xəzərlər bu dini Xarəzmdən mənimsəmişdilər. Lakin bu dini yalnız yuxarı zümrə qəbul etmişdi. Geniş əhali bu dini qəbul etmirdi. Xəzər şəhərlərində əhalinin əksəriyyəti türkdilli idi. Lakin yəhudi dini qəbul edildikdən sonra Obadinin oğlu Bulanın vaxtında Mərkəzi Asiyadan və İrandan çoxlu yəhudi köçüb gəlmişdi. Gəlmə yəhudilərin bir hissəsi Krımda məskunlaşmışdı. Bununla yanaşı xəzərlərdə islam dini də yayılmışdı.

Xəzər dövləti təxminən iki əsr Cənub-Şərqi Avropada ağalıq etdi. Başqa türk xaqanlıqlarından fərqli olaraq Xəzər xaqanlığı müəyyən iqtisadi bünövrəyə malik idi. Xəzərlərin çoxlu şəhərləri (Sarkel, Bələncər, Samker, Səməndər, Kerç və b.) vardı. Xaqan Sarkel adlı qalada yaşayırdı və bu qala Xanbalıq da adlanırdı. Bu şəhərlər Bizans, Qərbi Avropa və Mərkəzi Asiya ölkələri ilə ticarət əlaqələri saxlayırdılar.

Xəzərlərin paytaxtı VIII əsrin əvvəlinədək Səməndər, sonra İtil şəhəri idi. Bu şəhər Volqanın sağ sahilində idi. Sarkel qala şəhəri isə Don çayının sol sahilində yerləşirdi. Şəhərin qala divarlarının qalınlığı 3,75 metr idi.

IX əsrin əvvəllərində Qara dənizin şimal çöllərinə yeni türk tayfaları gəldilər. Bunlar kəngər-peçeneqlər, qıpçaqlar, komanlar (rus mənbələrində poloveslər) və b. idi. Bu, Xəzər dövlətinin ərazicə kiçilməsinə səbəb oldu. Bizans dövləti də artıq Xəzər dövlətinin tərəfini saxlamırdı. Digər tərəfdən, bu zaman Kiyev Rus dövləti də qüvvətlənməkdə idi. Məhz 965-ci ildə Kiyev Rus knyazı Svyatoslavın Xəzər dövlətinə basqınından sonra xaqanlıq süqut etdi.

***İctimai quruluş və təsərrüfat.*** Mənbələrdə xəzərlərin bir sıra tayfalarının adları çəkilir: kəbər, qaraçor, tərnə, bizal, kulas və b. Toponimik tədqiqatlar göstərmişdir ki, Azər-

baycanda, Ermənistanda və Gürcüstanda bu tayfaların adları ilə bağlı çoxlu etnotoponimlər (Kəbirli, Tərnəqut, Bozallar, Ulaşlı və s.) qalmaqdadır[13].

Xəzər xaqanlığında əkinçilik və sənətkarlıqla yanaşı maldarlıq da vardı. Əhalidən natural vergi toplanırdı. Hər bir tayfa yaşadığı ərazidə hakim idi və bu torpaq nəsli idi. Xaqan onu başqasına verə bilməzdi. Xəzər dövləti sırf feodal dövləti idi. Vergi verməkdən azad olan tarxanların iri torpaq sahələri var idi. Feodal sinfi içərisində vassal sistemi vardı, yə'ni torpaq sahibləri biri digərindən asılı vəziyyətdə idi. Feodal asılılığı ilə yanaşı, xəzərlərdə müəyyən qədər qul əməyi də istismar edilirdi.

Ticarət yolları üzərində yerləşən Xəzər dövləti o vaxtkı beynəlxalq ticarətdə mühüm rol oynayırdı. Xəzər şəhərləri, xüsusilə İtil mühüm sənətkarlıq və beynəlxalq ticarət mərkəzi idi. Xəzər xaqanlığı Şərqi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya ilə ticarət aparırdı. Xaqanlıqda feodal münasibətləri vardı. Hakimiyyət bulqar və xəzər tayfalarından olan feodalların əlində cəmlənmişdi. Son illərdə arxeoloji axtarışlar göstərmişdir ki, xəzərlərin öz pulları vardı. Şəhərlərdə sənətkarlıq və dulusçuluq mə'mulatı istehsalı ilə məşğul olan sənətkar məhəllələri vardı.

Xəzərlərdə türk run yazıdan istifadə olunurdu. Arxeoloji qazıntılar nəticəsində saxsı qablar üzərində bu yazının nümunələri aşkar olunmuşdur.



## *VI fəsil*

# *ŞƏRQİ AVROPADA TÜRK TAYFA BİRLƏŞMƏLƏRİ*

### *§1. Peçeneqlər və kəngərlər*

Bizans mənbələrində patsinak (yunan dilində "ç" səsi olmadığına görə bu etnonim əslində "paçinak" kimi nəzərə alınır), ərəb mənbələrində baçnak, XI-XII əsr rus mənbələrində peçeneq, türkdilli abidələrdə (o cümlədən XI əsr alimi Mahmud Qaşqarlının məşhur "Divani lüğət-ət-türk əsərində) beçənə formalarında adına rast gəldiyimiz bir qədim türk tayfasının mənşəyi və tarixi məsələsi türkoloji ədəbiyyatda kifayət qədər araşdırılmamışdır. Halbuki, bir sıra tədqiqatlarda peçeneqlərin Orta və Ön Asiya xalqlarının, eləcə də Azərbaycan xalqının formalaşmasında müəyyən rol oynadığı qeyd olunmuşdur. Ona görə də bu məsələnin öyrənilməsinin xüsusi əhəmiyyəti vardır.

Qeyd etmək lazımdır ki, erkən orta əsr mənbələrinə görə peçeneqlərin əsas məskun olduğu ərazi Cənub-Şərqi Avropa çölləri hesab olunur. Peçeneqlərin bu ərazidə məskunlaşması haqqında ilk mə'lumatlara X əsrin əvvəllərinə aid mənbələrdə rast gəlinir. Belə ki, onlar haqqında ən dolğun və ətraflı mə'lumatı X əsr müəllifi, Bizans dövlətinin imperatoru Konstantin Baqryanorodnı vermişdir. Lakin peçeneqlərin mənşəyi, Cənub-Şərqi Avropaya gəlməzdən əvvəlki tarixi barədə fikirlər müxtəlif və bə'zi hallarda ziddiyyətlidir.

Məşhur alman şərqşünası İ.Markvarta görə peçeneqlər VIII əsrə qədər Aralətrafı ərazidə və Sırdərya çayının aşağı axarlarında yaşayırdılar. Güman olunur ki, VIII əsrin ortalarında peçeneqlərin xeyli hissəsi Xəzər dənizindən şimal-şərqə, Aral-Volqa arası əraziyə köçmüşlər. Lakin həmin peçe-

neqlərin mənşəcə hansı qədim türk tayfasına mənsub olması probleminə münasibət müxtəlifdir.

Bə'zi tədqiqatçılara görə, IX-X əsrlərdə Şərqi Avropada yaşayan peçeneqlər VIII əsrdən Sırdərya çayının hövzəsində yaşamış oğuzların şimal və qərb qollarıdır. Lakin bu fikir inandırıcı deyil. Ona görə ki, N.A.Baskakovun özü Mahmud Qaşqarlının peçeneqlərin dillərinin oğuzların dilindən fərqli olması barədə fikrini qeyd etmişdir.

Şübhəsiz ki, peçeneqlərin ana yurdu Sırdərya çayının aşağı axarları olmuşdur. Bu fikir onunla təsdiqlənir ki, Sırdərya hövzəsində yaşamış Səlcuq oğuzlarının bir qolu XI əsrdə peçene adlanmışdır. Oğuzların tərkibində peçeneq tayfasının varlığım XIV əsr müəllifi Rəşidəddin də qeyd etmişdir. Lakin maraqlısı odur ki, Mahmud Qaşqarlı Qara dənizin şimal çöllərindəki peçeneqləri oğuzların içərisindəki peçeneq tayfasından fərqləndirir.

Konstantin Baqryanorodnının yazdığına görə peçeneqlər əvvəlcə Atil və Yaik adlı çayların arasında, xəzərlərlə və uzlarla qonşuluqda yaşamışlar. V.V.Bartolda görə bu ərazi Volqa -Ural-Emba çaylarının arasına uyğun gəlir. Konstantin Baqryanorodnı sonra yazır ki, 898-902-ci illərdə uzlar (yə'ni quzlar, yaxud oğuzlar) xəzərlərlə birlikdə peçeneqləri məğlub edərək, Qara dənizin şimal çöllərinə qovdular. Lakin müəllif bunu da qeyd edir ki, peçeneqlərin bir hissəsi öz arzuları ilə əvvəlki yerlərində uzlarla birlikdə yaşamaqda davam etdilər.

P.Qolubovskiyə görə peçeneqlərin Qara dənizin şimal çöllərinə gəlməsi quzların (oğuzların) Aralətrafı ərazidən Sırdərya sahillərinə və Şərqi Avropaya hərəkəti ilə bağlıdır. Volqa çayını keçdikdən sonra peçeneqlər xəzərlərlə toqquşmuşdular. Ona görə xəzərlər uzlarla (quzlarla) ittifaqa girib peçeneqlərlə mübarizəyə başladılar və məğlub olmuş peçeneqlər Qara dənizin şimal çöllərinə çəkildilər. Bə'zi tədqiqatçılara görə, X əsrin əvvəllərində peçeneqlərin ərazisi Don və Dunay çayları arasındakı çölləri əhatə edirdi.



Peçeneqlərin Cənub-Şərqi Avropada, Bizansla sərhəd bölgələrdə yaşadığını Konstantin Baqryanorodnı da yazır. Müəllif gələcəkdə, yə'ni özündan sonra imperator olacaq oğluna məsləhət görür ki, Bizans imperiyasının təhlükəsizliyini tə'min etmək üçün "paçinak"larla (yə'ni peçeneqlərlə) dostluq əlaqələri saxlamaq lazımdır, əks halda Xerson əyaləti ilə qonşuluqda yaşayan bu tayfa Bizansın Krımdakı əyalətləri üçün təhlükə əmələ gətirər. Konstantin Baqryanorodnı yazır ki, "paçinaklar ruslarla qonşuluqda da yaşayırlar və onlar Rossiyanı qarət edirlər, ona görə roslar (yə'ni ruslar) peçeneqlərlə sülh şəraitində yaşamağı arzu edirlər. Çünki roslar inək, at, qoyun və b. heyvanları peçeneqlərdən alırlar, Rossiyada bu heyvanlar bəslənmir".

Tədqiqatçılara görə ruslarla peçeneqlər ilk dəfə 915-ci ildə onların Kiyev dövlətinə qarşı hərbi səfəri ilə əlaqədar olaraq toqquşmuşlar. Rus salnamələrindən və Bizans müəlliflərinin əsərlərindən mə'lum olur ki, peçeneqlər rusların ərazilərinə tez-tez basqınlar təşkil edirdilər. Ona görə də ruslar peçeneqlərlə dostluq münasibətlərinə sə'y edir və Bizansa qarşı mübarizədə onların hərbi qüvvəsindən istifadə etməyə çalışırdılar. 915-ci ildə peçeneqlərlə müqavilə bağladıqdan sonra Kiyev knyazı İqor 944-cü ildə peçeneqləri də Bizansa qarşı müharibəyə cəlb etmişdi. Bununla yanaşı Bizans da ruslarla mübarizədə peçeneqlərlə müttəfiq olurdular. Belə bir faktı yada salaq ki, rusların məşhur knyazı Svyatoslav peçeneqlər tərəfindən öldürülmüş və peçeneq xanı Kurya onun kəllə sümüyündən mərasim piyaləsi hazırlatmışdı.

Qara dənizin şimal çöllərində yaşayan peçeneqlər zaman keçdikcə öz həyat tərzlərini dəyişmək məcburiyyətində qalaraq oturaq həyata keçməli oldular. Heyvandarlıqla yanaşı onlarda sənətkarlıq, ticarət və digər təsərrüfat sahələri də inkişaf etmişdi.

Cənub-Şərqi Avropada yaşamış peçeneqlər haqqında mə'lumatların əksəriyyəti Bizans müəlliflərinin, ən əvvəl yuxarıda adını çəkdiyimiz Konstantin Baqryanorodnının əsərində qalmışdır.

Konstantin Baqryanorodnının əsərində peçeneqlərin 8 tayfadan ibarət olması və onların aşağıdakı adlarla adlanması qeyd olunur: İrtim, Tsur, Qila, Kuley, Xaravay, Talmat, Xopon, Tsopon. Müəllif bu tayfaların başçılarının adlarını da çəkir: Vantsu, Kuela, Torqut, Qiatsi, İpala, Kanduma, Kostu və Batana. Lakin əsərinin başqa yerində müəllif həmin peçeneq tayfalarının adlarını belə formada da vermişdir: Kuartsi-Tsur, Siru-Kalpey, BoroTolmat, Bula-Tsopon, Xaravoy və YavdiErtim.

Bu mə'lumatları sistemləşdirmiş macar türkoloqu Y.Nemet yazır ki, peçeneqlər aşağıdakı tayfalardan ibarət olmuşdur: Yabdı Erdim, Kuerçi-Çur, Kabukşın-Yula, Suru-Kulpey, Karabay, Boro Tolmat, Yazi-Kopon və Bula Çopon. Lakin P.Qolubovski bu etnonimləri Tzur, Kalpee, Talmat, Zospon, Xopon, Qyula, Xarboye və Ertem kimi transkripsiya etmişdir. Bu tayfaların adları ilə bağlı Q.Ə.Qeybullayevin fikri maraqlıdır. O, belə hesab edir ki, peçeneqlərin Bizans mənbəində təhrif olunmuş şəkildə karabay, xopon, kuarsi və ertim kimi yazılmış tayfa adları Azərbaycanın Qarabağ, Qapanlı, Göyərçinli və Yardımlı yaşayış məntəqələrinin adlarında qalmışdır.

Qeyd edilməlidir ki, "peçeneq" etnoniminin mənşəyi haq-qında dəqiq fikir yoxdur. Bə'zi tədqiqatçılar onu türk dillərində bacanaq (iki bacının ərlərinin bir-birinə ver-dikləri ad) sözündəndir. Bu həqiqətə uyğun deyil. Strabon (I əsr) Mərkəzi Asiyada yaşayan tayfalardan birinin adını pasiak kimi qeyd etmişdir (Strabon, XI, 8, 2). Nəzərə alsaq ki, qədim yunan dilində "ç" səsi olmadığına görə müəllif onu "s" səsi ilə vermişdir, onda pasiak etnonimi "paçiak" kimi oxunmalıdır, bu da ehtimal ki, peçeneq adının ən qədim formasıdır.

Konstantin Baqryanorodnı yazır ki, peçeneqlərin bir hissəsi həm də kəngər adlanırlar.

Yuxarıda deyilmişdi ki, e.ə.II əsrdə Mərkəzi Asiyada mövcud olan bir dövlət tarixşünaslıqda Kanq (qədim Çin mənbələrində Kanqyuy) adlanırdı. Çin mənbələri əsasında tədqiqatçılar müəyyənləşdirmişlər ki, bu kiçik dövlət Sırdərya çayının orta axınında yerləşirdi. E.ə.II əsrin ikinci



yarısında Çin Kanq dövlətinə səfir göndərərək onu hunlara qarşı birgə mübarizəyə cəlb etmək istəmişdi. Lakin kanqyuylar bu təklifə razı olmamışdılar.

Eranın əvvəllərində Kanq dövlətinin ərazisi türkmən-şəli kuşan tayfaları tərəfindən işğal edilmişdi. Lakin Kuşan dövləti içərisində Kanq dövləti daxili muxtariyyatı saxlamışdı. Buradan belə nəticəyə gəlmək olar ki, "kəngər" etnonimi qədim peçeneqlərin bir hissəsinin - Kanq dövlətində yaşamış hissəsinin adıdır və deməli, bu etnonim Kanq əyalətinin adından və bir sıra qədim türk tayfalarının (avar, bulqar, qacar, suvar, xəzər və s.) adları üçün səciyyəvi ar, ər, "kişi", "adam", "döyüşçü" sözlərindən ibarətdir və deməli kəngər etnonimi "Kanq ərləri" (adamları) mə'nasındadır.

S.A.Pletnyova da kəngər etnoniminin Mərkəzi Asiyadakı Kanq dövlətinin adı ilə bağlı olması fikrini söyləmişdir.

Ehtimal etmək olar ki, Kanq dövlətinin yaradıcıları olmuş və qədim Çin mənbələrində "Kanqyuy" adlanmış türk tayfa birləşməsinin müəyyən hissəsi Mərkəzi Asiyada Şərqi Hun dövləti eranın əvvəllərində süqut etdikdən sonra qərbə hərəkət edən hunlara qarışaraq Cənub-Şərqi Avropaya gəlmişlər. Bu fikri təsdiqləyən bir fakt odur ki, eranın əvvəllərində, yuxarıda deyildiyi kimi, Kanq dövləti də süqut etmişdir. M.İ. Artamonov hesab edir ki, Cənub-Şərqi Avropada hun imperiyasının V əsrdə süqutundan sonra ortaya çıxmış bir tayfa birləşməsi də məhz peçeneqlər idilər. M.V.Levçenkonun yazdığına görə X əsrə qədərki dövrdə Bizans və ruslar arasında münasibətlərdə peçeneqlər xüsusi rol oynamışlar.

X əsrə aid "Hüdud-əl-Aləm" adlı bir anonim mənbədə Mərkəzi Asiyadan qərbə, yə'ni Şərqi Avropaya hərəkət etmiş pe-çeneqlərin iki qoldan ibarət olması göstərilir: Türk qolu və Xəzər qolu. Tədqiqatçılara görə, peçeneqlərin Türk qolu onların türk quzlarla qonşuluqda olması ilə, Xəzər qolu isə - Xəzər xaqanlığının ərazisində yaşamaları ilə bağlıdır. Peçeneqlərin ikinci qolu Don-Kuban çayları arası ərazidə yaşayırdılar. Məhz X əsr ərəb müəllifi İbn Fədlan bu ərazidə alaçıqlarda peçeneq-

lərin yaşadıqlarını yazmışdır. Bu mə'lumatdan aydın olur ki, peçeneqlər Şərqi Avropada geniş ərazidə məskun idilər.

Lakin peçeneqlərin Cənub-Şərqi Avropaya gəlmə tarixi dəqiqliyi ilə aydın deyil. Onların hamısının eranın VIII əsrindən sonra gəlməsi fikrini qəbul etmək çətindir. Çünki belə olduqda Qafqaz Albaniyasında (indiki Şimali Azərbaycan ərazisində) VII əsrə aid mənbədə peçeneq etnoniminin yer adlarında əks olunması və V-VII əsr mənbələrində Albaniyanın Artsak, yə'ni sonrakı Dağhq Qarabaq bölgəsinin bir mahalı ermənicə yazılışda peçeneq etnoniminin təhrifi olan panzkankq (Azərbaycan tədqiqatçılarına görə bu ad peçeneq etnoniminin təhrifidir) adlanırdı və qədim gürcü mənbələrində eranın ilk əsrlərində gürcülərin paçaniklərlə birgə Arminiyə hərbi səfər etmələri faktlarını heç cür izah etmək olmur. Ona görə də, bizcə, ehtimal tərzdə olsa da, aşağıdakı fikri irəli sürmək olar: "peçeneq" adını daşıyan türk tayfalarının bir qismi də "kəngər" adlananlarla birlikdə (V əsrə aid qədim erməni mənbələrində kəngərlərin Cənubi Qafqazda yaşamaları göstərilmişdir) eranın ilk əsrlərində hunların tərkibində Cənub-Şərqi Avropaya, oradan Şimali Qafqaz vasitəsilə Cənubi Qafqaza, o cümlədən Albaniya ərazisinə gəlib məskunlaşmışdır.

Yuxarıda deyilənlərdən aşağıdakı nəticəyə gəlmək olar: peçeneqlər qədim türk tayfalarından biri olmaq e'tibarilə Aralətrafı ərazidə, Sırdərya çayının aşağı axarlarında yaşamışlar. Ehtimal ki, onlar eranın ilk əsrlərində həmin ərazini əhatə etmiş Kanq dövlətində olduqlarına görə onların bir hissəsi sonralar Kəngər, yə'ni Kanq adamları (ərləri) adını qəbul etmişlər. Həmin kəngərlər və peçeneqlərin müəyyən hissələri eranın III-IV əsrlərində hunların qərbə hərəkətinə qatılmışlar. Odur ki, artıq V-VI əsr mənbələrində hunlarla yanaşı kəngərlər və peçeneqlərin də adı Albaniya və Ermənistan ərazisində çəkilir. Bir sıra tədqiqatçılar kəngərlərin Cənubi Qafqaza gəlişini məhz hunlarla əlaqələndirmişlər. A.T.Jdankonun fikrincə ilkin orta əsrlərdə Ermənistan və Gürcüstan ərazilərinə yayılmış kəngərlər qədim peçeneqlərin müəyyən hissəsinə verilmiş addır.



Peçeneqlərin və kəngərlərin Mərkəzi Asiyada qalan hissəsi isə VIII əsrdən sonra Cənub-Şərqi Avropaya gəlmiş və oralarda XII-XIII əsrlərə qədər hakim etnoslardan birinə çevrilmişdir. Məhz Cənub-Şərqi Avropada XI-XII əsrlərdə peçeneqlərin qıpçaqlara qarışmış və rus mənbələrində "Qarabörklü" adlanan hissəsi müxtəlif siyasi hadisələrlə, xüsusilə, XIII əsrdə monqollarm Şimali Qafqaz çöllərini işğal etməsi və 1223-cü ildə ***Kalka*** döyüşündə qıpçaqları məğlubiyyətə uğratması ilə bağlı olaraq Cənubi Qafqaza, o cümlədən Azərbaycana gəlib məskunlaşmışdır.

Yuxarıda dedik ki, V-VII əsr erməni mənbələrində və Musa Kalankatlının "Alban tarixi" kitabmda Artsakda (indiki Dağlıq Qarabağ ərazisində) bir əyalət Panzkank adlanmışdır. Azərbaycan toponimiyasına dair tədqiqatlarda bu qədim mahal adının "Peçeneq" etnoniminin qədim ermənicə yazılışı hesab olunur (bu məsələ ilk dəfə Q.Ə.Qeybullayev tərəfindən irəli sürülüb). Müəllifin fikrincə qıpçaq-peçeneqlərin Cənub-Şərqi Avropada XI-XII əsrlərdə yaşamış Berende tayfasımn adı Azərbaycanda Qarabağda Vərəndə mahalının, peçeneqlərin Qarabay[14] tayfasının adı isə Qarabağ toponimində əksini tapmışdır. Deməli, mə'lum olur ki, artıq V-VII əsrlərdə "peçeneq" etnonimini daşıyanlar Azərbaycan ərazisində yaşayırdılar.

Məsələ bu aspektdə nəzərdən keçirildikdə "peçeneq" etnonimini daşıyanların yalnız VIII əsrdən sonra Sırdərya hövzələrindən Cənub-Şərqi Avropaya hərəkət etmələri haqqında yuxarıda verdiyimiz mə'lumatm tarixi dəqiqliyi şübhə altına düşür. Əgər peçeneq etnonimini daşıyanların adı ilə bağlı toponimlər Cənubi Qafqazda ən geci VII əsrdə mövcuddursa, onda bu tayfanın Mərkəzi Asiyadan qərbə, o cümlədən Cənubi Qafqaza hərəkəti məsələsinə yenidən baxılmalıdır.

Cənub-Şərqi Avropada peçeneqlərin ictimai quruluşu barədə mə'lumat azdır. Konstantin Baqryanorodnının peçeneqlərin 8 tayfadan ibarət olması və hər tayfanın başında knyazın durması haqqında mə'lumatına görə belə nəticəyə gəlmək olar ki, peçeneqlər köçəri hərbi demokratiya quruluşu şəraitində ya-

şayırdılar. S.A.Pletnyova hesab edir ki, bu mə'lumatda 8 tayfanı "8 orda" mə'nasında başa düşmək lazımdır və görünür, hər bir ordanın özünəməxsus ərazisi vardı.

Maraqlısı odur ki, Konstantin Baqryanorodnıya görə peçeneqlərdə hər tayfanın başçısı vəzifəsi nəsli deyildir, başçı öldükdə hakimiyyət əmi oğluna keçir. Başqa bir Bizans mənbəsindən aydın olur ki, peçeneqlərdə hakimiyyət məsələsi xalq yığıncağında həll olunurdu.

XI əsrin ortalarında peçeneqlərin Cənub-Şərqi Avropada nüfuzları aşağı düşməyə başladı. XI əsrə aid bir Bizans mənbəsinə görə 13 tayfadan ibarət peçeneqlər Dnepr və Dunay çaylarının sahillərində yaşayırdılar. Bu zaman onların başında Şirak adlı bir nəfər dururdu. Lakin onun peçeneqləri birləşdirmək sə'yi baş tutmamışdı. Peçeneq tayfalarının bir hissəsi Dunayı keçərək Balkanlarda məskunlaşdı. Həmin ərazidə onlar xristianlığı qəbul etdilər. Məhz həmin peçeneqlər 1071-ci ildə məşhur Malazgird vuruşmasında Alp Arslanın tərəfinə keçdilər və bununla da Alp Arslanın Bizans ordusu üzərində qələbəsini tə'min etdilər. Peçeneqlərin digər hissəsi isə orta əsrlərdə ruslara və başqa xalqlara qarışdılar.

## *§2. Kumanlar*

Altayın türk tayfaları içərisində orta əsr rus mənbələrində 1653-cü ildən kumandi adlı tayfa da qeyd olunur. Kumandi etnonimini kumanlı kimi başa düşmək lazımdır, ona görə ki, qədim türk dillərində mənsubiyyət bildirən -li şəkilçisi həm də -ti (di) formasında tələffüz olunurdu.

Kuman qədim türk tayfalarından biri kimi X-XI əsrlərdə Cənub-Şərqi Avropa çöllərində mə'lumdur. Rus mənbələrində isə onlar poloves adı ilə mə'lumdur. Lakin Altayda kumanların bir hissəsinin Cənub Şərqi Avropaya gəlməsinin vaxtı mə'lum deyil. Çox ehtimal ki, bu Qərbi Türk xaqanlığı vaxtına aiddir. Sonralar bu kumanlar qıpçaqlara qarışmış və



*onların bir hissəsi Azərbaycana gəlib orada məskunlaşmışlar.* Azərbaycanda bir neçə Komanlı kəndi vardır.

XIX əsrdə Altayda kumandilər bir neçə tayfadan ibarət idilər. Onlardan biri so, ikincisi kuban adlanırdı. Tədqiqatçılara görə qədim türk dillərində çox hallarda "m" səsi "b" səsi ilə əvəz olunduğuna görə, kuman adı kuban şəklinə keçmiş və Şimali Qafqazda Kuban çölünün adında qalmışdır.

## *§3. Uzlar*

Qədim türk tayfalarından biri olan və ilk dəfə X əsr müəllifi Konstantin Baqryanorodnının əsərində Şərqi Avropada adı çəkilən ***uzlar*** Volqa boyunda yaşayırdılar. Bə'zi tədqiqatçılara (o cümlədən Türkiyə tarixçisi professor Kamal Anadola) görə[15] uz etnonimi əslində oğuz etnoniminin yunanca yazılış formasıdır. XI-XII əsrlərə aid rus salnamələrində uzlar tork (rus dilində "ü" səsi olmadığına görə o, "o" səsi ilə verilmişdir) şərq mənbələrində isə quz adlanırlar. Mənbələrdən aydın olur ki, uzlar Volqaboyunda dövlət qurumuna malik idilər. Lakin bu qurumun qurucuları barədə bilgi yoxdur.

XI əsrdə şimaldan ruslar, şərqdən uzlar Volqa boyunda yaşayan peçeneqləri qərbə tərəf sıxışdırmağa başladılar. Onda peçeneqlər qərbə tərəf hərəkət edərək, Bizans ərazisinə gəldilər. 1050-ci ildə bir-birlərilə yola getməyən peçeneq bəylərindən Belcər oğlu Kegən başda olmala peçeneqlərin bir hissəsi Dunayı keçərək Bizansa sığındılar və xristian dinini qəbul etdilər. Peçeneqlərin digər hissəsi Turak adlı elbəyin başçılığı ilə əvvəlcə Bizansla müharibələr aparsalar da, axırda tabe oldular və onlar da xristian dininə keçdilər. Bizans dövləti peçeneqləri indiki Bolqarıstan və Makedoniya ərazilərində yerləşdirdi.

Bundan sonra Şərqi Avropa çöllərində uzlar bir müddət hakim mövqeyə malik oldular. XI əsrin ortalarında uzlar peçeneqləri Don və Dnepr çayları arasından sıxışdırdıqdan sonra

1065-ci ildə Balkanlara böyük hərbi səfər təşkil etdilər, lakin Bizans ordusu ilə qanlı vuruşmada məğlub olaraq geri qayıtdılar. Bundan sonra uzlar 1068-ci ildə Macarıstana hərəkət etdilər və yenə məğlubiyyətə uğradılar, geri qayıdaraq Kiyev knyazlığının cənub ərazisini işğal etdilər.

X əsrin ortalarında Volqanı keçdikdən sonra onlar əvvəlcə zəifləmiş Xəzər xaqanlığına basqın edib, onların bir sıra şəhərlərini qarət etdilər. Burada quzlar peçeneqlərin bir hissəsi ilə birləşdilər. Qüvvətli ordu yaradan quzlar Cənubi Rus çöllərində yaşayan bulqarları məğlub edərək, onların ərazilərini işğal etdilər. Lakin qeyd etmək lazımdır ki, quzlar (uzlar) həm xəzərlərə, həm peçeneqlərə və həm də bulqarlara qarşı hərbi səfərlərdə ruslarla birgə hərəkət edirdilər. Rus knyazları İzyaslav, Svyatoslav və Vsevolod türklərin (Rus mənbələrində tork kimi qeyd olunmuşdur) Kiyev üçün təhlükə olduğunu bilərək, 1055-ci ildə qəfildən hücum etdilər və onları məğlubiyyətə uğratdılar. O vaxtdan mənbələrdə bu tayfanın adı müstəqil siyasi qüvvə kimi çəkilmir.

Orta əsrlərdə onlar rus vilayətlərinə səpələndilər və sonra ruslara qarışaraq assimilə olundular.

## *§4. Qıpçaqlar*

Qədim türk tayfalarından biri olan qıpçaqların ana yurdu Altay hesab olunur. Çin mənbələrində 203-cü ilə aid mə'lumatda onlar Çin dilində tzyüşe və kuyeşe kimi göstərilmişdir. VI-VII əsrlərdə qıpçaqlar mə'lum olmayan səbəblə əlaqədar olaraq Orxon və İrtış çaylarının hövzələrinə köçmüşlər. "Qıpçaq" etnonimi ilk dəfə qədim türklərin VIII əsrə aid edilən Seleng run yazılı abidəsində çəkilmişdir. IX-X əsrlərdə Tyan-Şan ətəklərindən qərbə hərəkət edən qıpçaqlar Volqa ilə Dunayarası ərazidə hakim etnik kütləyə çevrilmişdilər. Bu ərazi mənbələrdə Dəşti Qıpçaq ("Qıpçaq çölü") adlanırdı. XI -XIII rus salnamələrində bu tayfa həm də "poloves" adlanır. Tədqiqatçılar hesab edirlər ki, Avropa mənbələrində koman (kuman) adı altında qıpçaqlar nəzərdə tutulur. Lakin bu dəqiq fikir deyil, çünki həqiqətdə də qədim türk tayfalarından birinin kuman adlandığı mə'lumdur (yeri gəlmişkən qeyd edək ki, Azərbaycanda Koman və Komanlı kənd adlarını bə'zi tədqiqatçılarımız məhz həmin kumanlarla əlaqələndirirlər). Bu tayfa Qıpçaq çölündə yaşayırdı. Deməli, qıpçaqların içərisində kumanlar da vardı [16]. Qıpçaqların içərisində kuman, yaxud koman adlı tayfanın olması onunla təsdiqlənir ki, bə'zi tədqiqatçılara görə Rus dilində poloves sözü kuman etnoniminin tərcüməsidir. Kumanlar Dneprdən qərbdə yerləşdiklərinə görə Bizansla tez-tez toqquşurdular. Qıpçaqlar isə kumanlardan şərqdə yerləşirdilər. Bu ərazilərdən komanlar və qıpçaqlar 1060-cı ildən e'tibarən Rus knyazlıqlarını qarət etməyə başladılar. Rus mənbələrində Bonyak (Bunkak) və Tuqorkan adlı qıpçaq-kuman xanları haqqında mə'lumatlar vardır.

1094-cü ildə qıpçaqlar Rus dövləti ilə barışıq müqaviləsi bağladıqdan sonra Bizans üzərinə hərbi səfərlərə başladılar. 1095-ci ildə birinci hərbi səfər vaxtı onlar Bizansın bir sıra şəhərlərini qarət etdilər. Lakin Bonyak və Tuqorkan Bizansa hərbi səfərdə ikən qıpçaq-kuman başçıları İtlər və Kitan Pereyaslavl şəhərinə Vladimir Vsevolodoviçin yanına sülh danışıqlarına gəldikdə öldürüldülər. Bizansdan qayıdan sərkərdələr Bonyak və Tuqorkan ruslarla müharibəyə başladılar. Onlar əvvəlcə Yuryev, sonra Kiyev şəhərlərini tutub dağıtdılar.

1102-ci ildə Rus knyazları qıpçaqların üzərinə birgə hərbi səfər təşkil etdilər. Müharibədə hər iki tərəfdən çoxlu miqdarda döyüşçü öldürüldü. 1111-ci ildə Rus knyazlarının birləşmiş polkları Vladimir Monomaxın təklifi ilə yenidən qıpçaqların düşərgələrinə basqın təşkil etdilər. 1125-ci ildə Vladimir Monomax öldükdən sonra qıpçaqlar yenidən Rus şəhərlərinə basqınlara başladılar. Lakin sonrakı əsrlərdə qıpçaqlar Rus knyazlıqlarına qarşı birləşə bilmədilər və XI əsrin 80-ci illərində Kiyev knyazına müraciət edərək daimi yaşamaq üçün ərazilər aldılar. Qıpçaqların Suqrov, Şarukan, Suqdak və b. şəhərləri vardı.

Qıpçaqların bir hissəsi Don çayının hövzələrinə keçmişdi. Şarukan xanın oğlu Sırçan və onun qardaşı Atrak dövründə qıpçaqlar bir müddət qüvvətli tayfa birləşməsi idi. Gürcü çarı Qurucu David 1118-ci ildə razılıq əsasında Şimali Qafqaz çöllərində yaşayan qıpçaqların bir hissəsini Atrakın başçılığı ilə Gürcüstana köçürmüşdü. Gürcü mənbələrinə görə köçürülənlərin sayı 225 min nəfər olmuşdu. Atrak qızı Quranduxtu Gürcü çarına ərə verdi.

Sırçan Vladimir Monomax öləndən sonra Gürcüstana Atraka adam göndərdi və tayfası ilə birlikdə geriyə, doğma yerlərə qayıtmağı xahiş etdi. Sırçan oraya Orev adlı ozanı göndərmiş və tapşırmışdı ki, ona qıpçaq mahnılarım oxusun və iyləməyə bir yovşan otu versin. Mahnı Atrakda keçmiş döyüş şöhrətini, yovşan isə uşaqlıq və cavanlıq ətrini yada salmalı idi. Mahnını dinləyən Atrak gürcü sarayından getmək istəmədi. Lakin ozan ona yovşanı verdikdə Atrak onu iyləyib öz tayfası ilə geri qayıtdı. XII əsrin 20-ci illərində Atrak öz tayfası ilə Donets çayının sahillərində köçərilik edirdi.

Lakin qıpçaqların əksəriyyəti Gürcüstanda qaldı. Bu qıpçaqlar indiki Qazax-Borçalı bölgəsində yaşayan azərbaycanlıların ulu əcdadlarından biridir.

Cənub-Şərqi Avropada qalmış qıpçaqlar 1223-cü ildə Şimali Qafqazda (indi Kabardin-Balkar respublikasının ərazisində) Kalka çayı kənarında Cənubi Qafqazdan gəlmiş monqol ordusu ilə toqquşmada məğlub oldular. Bundan sonra onlar iki hissəyə parçalandılar. Ərəb tarixçisi İbn əl-Əsirin yazdığına görə qıpçaqların bir hissəsi Dərbənd yolu ilə Azərbaycan ərazisinə gəlib orada məskunlaşdılar. Buradan isə onların bir hissəsi Göycə mahalına getdilər. Cənub-Şərqi Avropada qalmış qıpçaqların digər hissəsi isə indiki karaçayların, balkarların, kumıkların və noqayların ulu əcdadlarına qarışdılar.

Kumanların və qıpçaqların dəfn adətləri haqqında arxeoloji qazmtılar nəticəsində tapılmış maddi mədəniyyət nümunələri aydın təsəvvür yaradır. Qəbirlərə mərhumla yanaşı onun silahını (ox və qılınc) və atını da öldürüb qoyurdular. Ərəb coğrafı Əbu Dulaf (X əsr) yazır ki, kaymaklar və qıpçaqlarda yağış yağdıran daşlar vardır. Onlar at nalını müqəddəs sayırdılar (indi də azərbaycanlılarda at nalının müqəddəs hesab edilməsini xatırlayın). Qıpçaqlarda şamanizm dini vardı. Şamanlar ulduzlara baxıb gələcəyi xəbər verirdilər.



Qıpçaqlar qazax, qırğız, özbək, qaraqalpaq, türkmən, başqırd, noqay, karaçay və başqa müasir türk xalqlarının, o sıradan azərbaycanlıların təşəkkülündə iştirak etmişlər. Batu xanın Şərqi Avropanı işğal etdikdən və Qızıl Orda yaradıldıqdan sonra Dəşti-Qıpçaqda yaşayan qıpçaqların bir hissəsi indiki Macarıstan çöllərinə getdilər və sonralar xristianlaşaraq assimilə olundular. Digər hissəsi isə orta əsrlərdə xristian dinini qəbul edərək Don kazaklarına çevrildilər.

## §5. *Qaqauzlar*

Türk mənşəli xalqlardan biri də qaqauz adlanır. Bu xalq hazırda kompakt halda Moldaviyanın cənub rayonlarında (138 m.) və Ukraynada, oranın Dressa və Zaparojye əyalətlərində (27 m.) yaşayır. Pərakəndə halda isə onlar həm də Bolqarıstanda, Rumıniyada, Yunanıstanda və Türkiyədə məskundurlar. Keçmiş Sovetlər İttifaqıda 173 min qaqauz vardı. Dini mənsubiyyətcə onlar xristian dininin pravoslav məzhəbinə malikdirlər. Tədqiqatçılara görə onların xristian dininə keçmələri IX-XII əsrlərə aid edilə bilər.

Qaqauzların etnik tarixi hələ də aydın deyildir. Rus tədqiqatçılarına görə onlar eramızın I minilliyində yaşamış müxtəlif türk tayfalarının (uz, peçeneq, qıpçaq və b.) sonrakı nəsilləri olmaq etibarilə müstəqil etnosdur.

"Qaqauz" etnoniminin də mənşəyi tam aydın deyil. Bir sıra tədqiqatçılar bu adın oğuz (uz, ərəb mənbələrində quz) tayfa adı ilə bağlı olduğunu söyləyirlər. Bu fikir həqiqəti əks etdirir. Ona görə ki, bu etnonimin kökünü "uz" (yaxud "quz") etnonimi təşkil edir. Türkiyə tarixçilərinə görə "qaqauz"

etnonimi "Göy oğuz" adından təhrifdir. Qeyd edilməlidir ki, Qaqauz dili Osmanlı türk dili, Azərbaycan dili və türkmən dili ilə yaxındır və ona görə Türk dillərinin oğuz dilləri qrupuna aid edilir.

Qaqauzlar tarixən indiki Bolqarıstan ərazisində, onun şimal-şərqində yaşamışlar. Hesab edilir ki, qaqauzlar bir etnos kimi məhz orada formalaşmışdır. (Qaqauzların etnik tarixi barədə bax: Karakastas - Radov. Qaqauzı. Kişinev, 2001.)

Oradan XVII əsrin sonlarında onlar Moldaviyaya, Prut çayının sahillərinə köçüb gəlmişlər. Bəzi mənbələrə görə bu köç 1806-1812-ci illərdə başa çatmışdır. Onlar orada "Bucaq" adlanan əyalətdə məskunlaşmışlar. (Bucaq Dnestr çayı ilə Qara dəniz arasındakı ərazinin türkcə adıdır. Qədim yunan mənbələrində Oqqlos (azərbaycanca künc, bucaq) adlanmışdır. Maraqlı budur ki, Azərbaycanda bir sıra yaşayış məntəqələri "Bucaq" əyalət adı ilə bağlıdır - red.Q.Q.

Qaqauzların siyasi tarixi əsasən XVIII əsrin əvvəllərindən başlanır.



*VII fəsil*

# *VOLQABOYU VƏ QƏRBİ SİBİRİN TÜRK XALQLARI VƏ DÖVLƏTLƏRİ*

## *§1. Volqaboyu Bulqar dövləti*

Orta Volqaboyu və Aşağı Kama çayı sahillərində yaşayan türk tayfalarının ilk dövlət qurumu IX əsrdə yaranmış Bulqar dövləti idi. Bulqarlar bu əraziyə VII əsrdə Volqa və Don çaylarının aşağı axarında Azov sahillərində Böyük Bulqar dövləti süqut etdikdən sonra gəlmişdilər. Həmin əsrdə bulqarların bir hissəsi Dunaya köçmüş və indiki Dunay Bolqar dövlətinin əsasını qoymuşdur. Digər hissəsi isə suvar, eseqel, bersula, təmtuz və b. tayfalarla Orta Volqa boyuna və Kama çayı ətrafı ərazilərə çəkilmişdi. VIII əsrin əvvəllərində bu dövlət Samara çayından tutmuş Cənubi Urala qədər olan ərazini əhatə edirdi. Onlar bu əraziyə gəldikdə orada türkmənşəli tayfalarla yanaşı (indiki çuvaşların ulu əcdadları) Uqro-Fin dil ailəsinə mənsub tayfalar da yaşayırdılar. Bulqarlar burada oturaq həyata keçdilər və əkinçiliklə məşğul olmağa başladılar. Arxeoloji qazıntılar nəticəsində Volqa sahillərində bu dövrə aid çoxlu oturaq yaşayış məskənlərinin qalıqları aşkar edilmişdir. Lakin X əsrə qədər bulqarlar Xəzər dövlətinə tabe idilər. 935-ci ildə bulqarlar Xəzər xaqanlığının tabeliyindən xilas oldular. Knyaz Almas (Almuş yazılı forması da vardır) ərəb xəlifəsi Müqtədirə müraciət edərək dostluq münasibətləri təklif etmişdi. Danışıqlar nəticəsində ərəb müəllifi İbn Fadlan 921-ci ildə Bulqar dövlətinə gəldi. Bundan sonra bulqarlar İslam dininə keçdilər. Qeyd etmək lazımdır ki, bolqarların həyatı haqqında ətraflı mə'lumat da məhz bu müəllifə məxsusdur. Bulqar xanlarının adından pul kəsilirdi. Dövlətin paytaxtı Bilyar şəhəri idi.

IX-X əsrlərdə Volqa-Kama Bulqar dövləti Samanilər dövlətinin mədəni və dini tə'siri altında idi. Ərəb xilafəti məhz Samanilər dövləti vasitəsilə İslam dinini bulqarlarda yayırdı.

Məhsuldar qüvvələrin inkişafı nəticəsində bu ölkədə Kaşan, Bulqar, Suvar, Oşel, Kermençuk və b. şəhərlər təşəkkül tapmışdı.Orada Şəki adlı şəhər də vardı.

1236-cı ildə Çingiz xanın nəvəsi Batu xanın ordusu Uralı keçib Bulqar dövlətinin ərazisinə daxil oldu. Monqollar Bulqar şəhərlərini qarət etdilər. Bununla da Bulqar dövləti müstəqilliyini itirdi və Batu xanın yaratdığı Qızıl Orda dövlətinə qatıldı. Ölkəni türkcə baskak adlanan canişinlər idarə etməyə başladılar.

XIV əsrin II yarısında bulqarlarda Qızıl Ordaya qarşı mübarizə gücləndi. Bununla əlaqədar olaraq Qızıl Orda xanı Bulat-Teymur 1361-ci ildə Bulqar ölkəsinə hərbi səfər edərək oranı taladı. Sonrakı illərdə Volqaboyu, o cümlədən Bulqar dövləti Toxtamışla Əmir Teymurun müharibələri nəticəsində çox ziyan çəkdi. Əhalinin bir hissəsi Volqanın sağ sahilinə keçərək Kazan (Qazan) şəhərini saldılar. XV əsrin əvvəllərində Qızıl Ordanın parçalanması ilə bağlı olaraq şəhərin adı ilə Qazan xanlığı yarandı.

***İctimai quruluş və təsərrüfat həyatı.*** Bulqarlar qədimdən əkinçiliklə məşğul olurdular. Kama-Volqa Bulqar dövlətində də əkinçilik təsərrüfat həyatının əsasını təşkil edirdi. Bunu arxeoloji qazıntılar zamanı VII-XII əsrlərə aid kotan (bulqarlar "saban" deyirdilər) və biçim alətləri hissələrinin tapılması aydın göstərir. Arxeoloji qazmtılar zamanı evlərin döşəmələrində taxıl quyuları da tapılmışdır. Qeyd edilməlidir ki, istehsal olunan taxılın bir hissəsi Rus knyazlıqlarına satılırdı. Ölkənin meşə-step ərazisində isə maldarlıq üstün mövqeyə malik idi. İri çayların sahillərində yaşayan əhali içərisində balıqçılıq mühüm yer tuturdu. Qurudulmuş balıq Mərkəzi Asiya şəhərlərinə satışa göndərilirdi.

Volqa Bulqar dövləti feodal qurum idi. Qul əməyi təsərrüfatda tətbiq olunmurdu. Dövlətin başçısı malik, ya da



əmir adlanırdı. Hakimiyyət nəsli idi. XI-XIII əsrlərdə bu dövlətdə başçılıq etmiş 19 hökmdarın adı mə'lumdur.

Bulqarlar 921-922-ci illərdə xəlifə tərəfindən göndərilmiş İbn Fadlan adlı elçinin təklifi ilə islam dinini qəbul etmişdilər. Almuş-Baltavar islamı qəbul etdikdən sonra "Cəfər ibn Abdullah" adını götürmüşdü. Onun oğlu Mikayıl, nəvəsi Nəsr adlanırdı. Ona görə də bulqarlar animizm və şamanizmdən əl çəkərək, müsəlman olmuşdular.

Ərəb mənbələrində bulqarlarda müxtəlif sənətkarlıq növləri barədə mə'lumatlar vardır. Arxeoloji qazıntılar zamanı dəmir və misdən ev əşyalarının nümunələri tapılmışdır.

Böyük İpək yolunun bir qolu Bulqara gəlirdi. Ona görə Bulqar şəhərləri Mərkəzi Asiya və Şərqi Avropa ilə intensiv ticarət edirdilər. Maraqlıdır ki, X əsr müəllifi İbn Fədlan Bulqar dövlətində hər il yarmarkalar təşkil edildiyini qeyd etmişdir.

## *§2. Volqaboyu türk xalqları*

***Başqırdlar.*** Başqırdlar (özlərinə başkort deyirlər) haqqında ilk yazılı mə'lumat IX-X əsrlərə aiddir. Volqaboyu Bulqar dövləti yarananda başqırdlar da bu dövlətə tabe edil-mişdi. Onların Bulqar xanlarına verdiyi illik xərac əsasən xəz idi.

1229-cu ildə monqollar Bulqar dövlətini zəbt etdilər. Onunla yanaşı, indiki Başqırdıstanın cənub-qərbi də monqollara keçdi. 1236-cı ildə Batu xanın monqol ordusu bütün Başqırdıstanı tutdu və Qızıl Ordaya qatdı. Başqırdların Ordaya verəcəyi yasaq (yə'ni vergi) əsasən xəz idi. Bundan başqa mal-qaramn sayının onda bir hissəsi də onlara verilirdi.

XIV əsrdə Qızıl Ordaya daxil olan xalqların azadlıq mübarizəsi güclənmişdi. Xüsusilə, 1380-ci ildə Mamayın başçılığı ilə Qızıl Ordanın ordusu Rus çarı Dmitri Donskoy başda olmaqla Kulikova çölündə ruslara məğlub olduqdan sonra bu mübarizə daha da genişlənmişdi. 1391-ci ildə Qızıl Orda xanı Toxtamışla Əmir Teymur arasında ***Gündüzcə*** (Kunduzçi) ça-

yı sahilində qanlı vuruşma baş vermişdi. Döyüşün əsas mərkəzi də məhz Başqırd ərazisi idi.

XV əsrin əvvəllərində Noqay Ordası yarandı. Volqanın aşağı və orta axını ilə Ural çayı arasında yerləşən bu orda Başqırdıstanın xeyli hissəsini əhatə edirdi. Uraldan şərqdə yaşayan başqırdlar isə əvvəlcə Sibir, sonra Qazan xanlığına tabe edilmişdi. Bununla da Başqırd ərazisi parçalanmışdı. Keçmişdə başqırdların ictimai həyatında mühüm rol oynamış Ümumxalq yığıncağı ("yıyın") aradan çıxmışdı. İndi tayfalar Noqay və Tatar (Sibir) dövlətlərinin murzaları və tarxanları tərəfindən idarə olunurdu. Ümumiyyətlə, XIV-XV əsrlər başqırdlarda sinfi təbəqələşmənin gücləndiyi dövrdür. Nəticədə, Noqay və Sibir hakimləri ilə başqırd tayfa başçıları olan "biy"lər (başqırd dilində bəy "biy" adlanırdı) arasında mübarizə gedirdi. Bu, başqırdların yaddellilərin istismarına qarşı mübarizə idi.

1552-ci ildə Qazan xanlığı Moskva dövləti tərəfindən işğal edildi. Ruslar Qazan şəhərində böyük məscidi söküb kərpiclərini və avadanlığını Moskvaya gətirdilər və hazırda Qızıl Meydanda olan Vasili Blajennı kilsəsini tikdilər. Qazan xanlığı tutulandan sonra IV İvan başqırdlara adam göndərərək, onlardan Rusiyanın tabeliyinə keçmələrini tələb etdi. Başqırdların Qazan xanlığına tabe olan Min tayfaları (başqırdlarda Minq adlı böyük bir tayfa yaşayırdı, lakin onun adı Min kimi tələffüz olunurdu. Minq adlı tayfa özbəklərdə, qazaxlarda və türkmənlərdə vardır. Azərbaycan tədqiqatçılarına görə Kəlbəcər rayonunda Minkənd kəndinin adında bu tayfanın adı qalır) Rusiyanın təbəəliyini qəbul etdilər. 1556-cı ildə başqırdların userqan, qıpçaq, burzan və b. tayfaları da Rusiyaya tabe edildi. Başqırdların yalnız bir hissəsi Sibir xanlığının tərkibində qalırdı. Həmin başqırdlar 1598-ci ildə Rusiyanın Sibir xanlığını işğal etməsilə Rusiyaya keçdi və beləliklə, bütövlükdə başqırd tayfaları Rusiya dövlətinin istismarı altına düşdülər.

Başqırdların Rusiyaya verdiyi yasaq - xəz və bal idi. Çar hökuməti başqırd tayfalarının hakimlərini, tarxanları öz tərəfinə çəkərək, onların vasitəsilə xalqı soyub talayırdı. Bununla belə qeyd etmək lazımdır ki, başqırdların bütünlükdə Rusiyaya birləşdirilməsi başqırd tayfalarının konsolidasiyasına və nəticə e'tibarilə başqırd xalqının yaranmasma səbəb oldu. Çar Rusiyası öz mövqeyini başqırd torpağında möhkəmləndirmək üçün həmin ərazilərdə şəhərlər salır və buraya rus ailələrini köçürürdü. 1574-cü ildə Ufa şəhərinin əsası qoyulmuşdu. Hazırda bu şəhər Başqırdıstanın paytaxtıdır. 1586-cı ildə Ufa artıq inzibati mərkəz idi. Bundan sonra Başqırd torpağında Biysk, Çelyabinsk, Tabınsk və Orenburq şəhər - qalaları da tikilmişdi. Bu şəhərlərdə Rusiyanın müxtəlif yerlərindən köçürülmüş əhalidən başqa, rus əsgər və zabitləri də yerləşdirilirdi. Ufada oturan rus voyevodası başqırdların hakimi sayılırdı. Rus istismarına qarşı başqırdlar elə ilk vaxtlardan mübarizə edirdilər. Rus zülmünə qarşı 1662-1664-cü illərdə başqırdların böyük üsyanı baş vermişdi. Üsyançılar rus hakimlərini qırır, şəhərlərdə məskunlaşmış rus ailələrini qovurdular. Lakin çar hökuməti bu üsyanı qan içində boğmuşdu (Qeyd edilməlidir ki, rus və Sovet tarixşünaslığında bu üsyan haqqında ətraflı mə'lumat verilmir və onun guya mürtəce xarakter daşıdığı göstərilir).

XVIII əsrin əvvəllərində I Pyotrun apardığı müharibələr nəticəsində başqırdlardan alınan vergilər bir neçə dəfə artırılmış və onların istismarı daha da gücləndirilmişdi. 1705-1711-ci illərdə başqırdlar yeni böyük üsyan qaldırdılar. Üsyana səbəb I Pyotrun başqırdlardan tələb etdiyi 72 adda vergi idi. Bundan başqa, Rusiya başqırdlardan 5 min baş at və min nəfərlik qoşun da tələb etmişdi. Rusiya bu üsyanı da amansızcasına yatırtmışdı.

XVIII əsrin 30-cu illərində Başqırdıstanda filiz mə'dənlərinin və zavodların istifadəyə verilməsi ilə əlaqədar olaraq Rus çarizmi başqırdları vəhşicəsinə istismar etməyə başladı. Meşələrin qırılmasında, filiz çıxarılmasında və zavodlarm tikilməsində əsas e'tibarilə başqırd kəndliləri işlədilirdi. Bu da öz növbəsində başqırdların yeni üsyanına səbəb oldu. Belə

ki, 1735-ci ildə başlanmış üsyana Salavat Yulayevin başçılıq etdiyi üsyan olmuşdu. Yalnız 1739-cu ildə rus ordusu vasitəsilə üsyan yatırıldı. Bundan sonra başqırdların daxili idarəetməsi ləğv edildi və oranı ancaq rus mə'murları idarə etməyə başladılar. 1798-ci ildə başqırd ərazisi Ufa quberniyasına qatıldı. Başqırdlar 1773-1775-ci illərdə Y.Puqaçovun üsyanında iştirak etdilər.

Türk xalqlarından biri olan başqırdlar hazırda Rusiyanın Orenburq, Çelyabinsk, Saratov, Kurqan, Perm, Sverdlovsk və Kuybışev vilayətlərində yaşayırlar. Türkoloqlara görə Cənubi Uralın qədim sakinləri olan başqırdların dili türk dillərinin qıpçaq qoluna aiddir. Başqırd xalqının formalaşmasında oğuz-peçeneq tayfaları, Volqa-Kama bulqarları və qıpçaqlar iştirak etmişlər.

Çar Rusiyasının XVII əsrdə Qərbi Sibiri və Uralı işğal etməsi siyasətinə qarşı ilk dəfə məhz başqırdlar çıxmışdılar.

Çar Rusiyası başqırdları xristianlaşdırmaq siyasəti yeridirdi. Lakin başqırdlar hələ IX-X əsrlərdə əsasən Cənubi Uralda yaşadıqları vaxtlarda islam dininə keçmişdilər.

***Başqırdların təsərrüfat həyatı.*** Arxeoloji qazıntılar göstərir ki, erkən orta əsrlərdə başqırdların təsərrüfatının əsasını maldarlıq təşkil edirdi. X əsr ərəb müəllifi Mə'sudi başqırdlarda yaşayış evinin alaçıqdan ibarət olduğunu yazmışdır. XIII əsrə aid bir mənbədə də göstərilir ki, "başqırdların hamısı çobandır, şəhərləri və kəndləri yoxdur". XVII əsrə aid rus mənbəsində deyilir ki, Ufa çayı sahillərində yaşayan başqırdların əkin yerləri yoxdur. Deyilənlərdən görünür ki, erkən orta əsrlərdə başqırdlar köçəri maldarlıqla məşğul idilər. Lakin Başqırdıstan ərazisində aparılmış arxeoloji qazıntılar göstərmişdir ki, onların müəyyən hissəsi eramızın I minilliyində əkinçiliklə də məşğul olmuşlar. Tədqiqatçılar bu fikirdədirlər ki, Uralətrafı əraziyə gəlmiş hunların müəyyən hissəsi ilə indiki Başqırdıstan ərazisində məskunlaşmış türk tayfaları köçəriliklə məşğul idilər və onlar sonralar başqırdların tərkibinə daxil olsalar da, bu təsərrüfat sahəsini



davam etdirmişlər. Deməli, başqırdların köçəri maldarlıqla məşğul olan hissəsi eranın ilk əsrlərində şərqdən qərbə hərəkət etmiş hunların nəsilləri idi.

Rusiya Başqırdıstanı işğal etdikdən sonra rus mə'murları oranın təsərrüfatının təsvirini vermişlər. Onlar həmin təsvirlərdə başqırdların əsasən əkinçiliklə məşğul olduqlarını yazırlar. Məsələn, 1662-ci ildə başqırdların Rusiyaya qarşı üsyanını yatırtmış bir rus polkovniki mərkəzə xəbər göndərmişdi ki, üsyançılar saman və ot tayalarını yandırmışlar. XVII əsrin 70-ci illərinə aid bir mənbədə başqırdların xışla əkin əkməsi göstərilir. XVII əsrə aid rus mənbələrində başqırdların Duvanlı, Quşçu, Qapanlı, Qara-Tabın, Ayınlı və b. volostlarında yaşayan əhalinin əkinçiliklə məşğul olduğunu qeyd edir.

Başqırdlar orta əsrlərdə şübhəsiz, maldarlıqla da məşğul idilər. Onlar əsasən qoyun, qara-mal və at saxlayırdılar. Bütün orta əsr mənbələri başqırdlarda ovçuluq və balıqçılığın xalqın məişətində mühüm yer tutduğunu yazırlar. Başqırdların Rus dövlətinə verdikləri əsas vergi məhz müxtəlif heyvan xəzləri idi. Həmin xəzi ruslar başqa ölkələrə aparıb satırdılar.

Başqırdlarda tələ ilə heyvan tutmağın müxtəlif formaları da vardı. Canavar tutmuq üçün diametri 2 metr, dərinliyi 3 metr olan quyular qazırdılar və üstünü saman və çör-çöplə örtürdülər. Heyvan tutmaq üçün düzəldilmiş tələ başqırd dilində "kələk" adlanırdı.

Başqırdlarda dəvə də saxlanılırdı. Qeyd etmək lazımdır ki, başqırdlar o vaxtlar Volqaboyu və Sibir xalqları içərisində əkinçiliklə məşğul olan yeganə xalq idi.

Başqırdlarda islam dini X-XI əsrlərdə yayılmışdı. Lakin başqırdların bütünlükdə islam dininə keçməsi XIV əsrə aiddir. Qazan xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra islam dini tatarların və başqırdların xristian ruslara qarşı mübarizədə birləşməsində mühüm rol oynamışdı. Bununla yanaşı, başqırdlarda orta əsrlərdə islamdan əvvəlki ibtidai dinlərin qalıqları da qalmışdı. Hələ 921-ci ildə bulqarların

ölkəsinə gəlmiş ərəb coğrafı İbn Fadlan yazırdı ki, başqırdlarda yağış, külək, su və göy allahları vardır. Daha sonra müəllif qeyd edir ki, onlar ilana, balığa, durnaya və s. sitayiş edirlər. Bu, totemizm dininin qalıqları idi, deməli başqırdlarda ilan, balıq, və durna totem sayılırdı. İbn Fadlan xüsusi qeyd edir ki, əqidəyə görə durna başqırdları guya düşməndən qoruyur. Başqırdlarda "Kuyəş" (yə'ni Günəş) allahı da vardı. Orta əsrlərdə başqırdların ildırım allahına sitayiş etməsi haqqında da mə'lumat verilir (hunlarda və xəzərlərdə ildırım allahı Kuar adlanırdı). XVIII əsrə aid mə'lumata görə başqırdlar ilanı öldürdükdə mütləq basdırırlar. Maraqlısı odur ki, heç vaxt Qafqazda olmamış başqırdlarda Qaf (yə'ni Qafqaz) dağı haqqında əfsanələr geniş yayılmışdır.

Başqırdlar dağlara da sitayiş edir və ona qurban kəsirdilər. Onlar belə hesab edirdilər ki, dağın "əyə"si (yə'ni "yiyə"si) vardır. Başqırdıstanda Tura-Tau dağı müqəddəs sayılırdı. Onlar su pərilərinin mövcud olduğunu deyirdilər ("Kitabi Dədə Qorqud" dastanında su pəriləri haqqında yazılanları xatırlayın). Bundan başqa, başqırdların əqidələrinə görə hər bir evin, yurdun da gözə görünməz "yiyəsi" var.

Yuxarıda deyilənlər göstərir ki, başqırdlar müxtəlif qədim türk tayfalarının etnogenezi əsasında formalaşmış və ümumtürk dünyasına mənsub ənə'nəvi mədəniyyətin daşıyıcılarından biri olmuşlar.

***Çuvaşlar.*** Orta Volqaboyunda yaşayan türkdilli etnoslardan biri də indiki tatarların ulu əcdadları ilə tarixən yanaşı yaşamış çuvaşlardır. Bu xalq özü-özünə "çavaş" deyir. Mə'lumdur ki, türk dillərində "r" səsi "z" səsinə "s" və "z" səsləri isə "ş" və "ç" səslərinə keçir. Ona görə "savar" etnonimində sonrakı "r" səsinin əvvəlcə "s", sonra da "ş" səsinə keçdiyi ehtimal edilsə, onda güman var ki, "çavaş" etnonimi "savar" etnonimindən törənmişdir. Bunu bir sıra türkoloqlar, o cümlədən Azərbaycan türkoloqu Fərhad Zeynalov da qeyd etmişdir.

Tədqiqatçılara görə çuvaşlar mənşəcə qədim bulqarlarla əlaqədardır və türkoloji ədəbiyyatda çuvaş dili türk dillərinin



bulqar qrupuna daxil edilir. Çuvaşların miqdarı hazırda 1,4 milyon nəfərdir. Lakin onların etnogenezində Fin-Uqor tayfaları (xüsusilə Sibirdə yaşayan marilər) mühüm rol oynamışdır. Bunun nəticəsində çuvaşların dilində türk dilləri üçün xarakterik olmayan fonetik fərqlər vardır.

Tədqiqatçılara görə çuvaşların qədim tarixi haqqında heç bir yazılı mənbə yoxdur. Çuvaşlar haqqında ilk mə'lumatlar Rusiyanın Volqaboyunu və Sibiri işğal etdikdən sonraya - XVII-XVIII əsrlərə aiddir. Ehtimal olunur ki, çuvaşlar eranın ilk illərindən hun tayfa ittifaqına daxil olan türk tayfaları əsasında formalaşmışdır. Lakin çuvaş dili erkən orta əsrlərdə Fin-Uqor dillərinin, eləcə də bulqar, tatar və başqırd dillərinin tə'siri nəticəsində başqa türk dillərindən fərqli əlamətlər kəsb etmişdir. Bu əlamətlər özünü çuvaş dilinin müxtəlif təbəqələrində əks etdirir. Belə ki, çuvaş dilində ərəb və slavyan dilləri ilə yanaşı, Uqro-Fin dillər ailəsinə mənsub mari, komi, udmurt və mordov dillərindən də külli miqdarda söz daxil olmuşdur. Hazırda Çuvaş Muxtar Respublikasında və Rusiyanın Kuybışev və Ulyanovsk vilayətlərində yaşayan çuvaşların erkən orta əsrlərdə dövlət qurumları haqqmda mə'lumat yoxdur. Lakin bir sıra tədqiqatçılar çuvaşların VII-X əsrlərdə Böyük Bulqar dövlətinin tərkibində olduqlarını yazırlar.

Tədqiqatlar göstərmişdir ki, çuvaş xalqı XV əsrdə formalaşmışdır. 1437-1445-ci illərdə onlar Qazan xanlığının tərkibində olmuşlar və 1552-ci ildə Rusiyanın Qazan xanlığının işğalı ilə əlaqədar olaraq çuvaşlar da Rusiya tərəfindən tabe edilmişlər. Rusların çuvaşları istismarı orta əsrlərdə dəfələrlə üsyanlara səbəb olmuşdu. 1571-1573, 1606-1610-cu illərdə Volqaboyunda baş vermiş üsyanlarda, Stepan Razinin (1670-1671) və Y.Puqaçovun (1773-1775) üsyanlarında çuvaşlar fəal iştirak etmişlər. O vaxt çuvaşların dini şamanizm idi. Volqaboyu və Qərbi Sibir Rusiya tərəfindən işğal edildikdən sonra XVIII əsrin əvvəllərindən başlayaraq çuvaşların zorla xristianlaşdırılması prosesi getmişdir.

### §3. Kimak dövləti

IX-X əsrlərdə yaşamış ərəb coğrafları Qərbi Sibirdə İrtış çayımn orta axarında yaşayan bir türk tayfasının adını kimak (V.V.Bartolda görə bu tayfanın əsl adı kaymak idi) kimi yazmışlar. IX əsr ərəb müəllifi İbn Xordadbeh qıpçaqları kimaklardan ayrılmış tayfa olduğunu yazmışdır. Bu mə'lumatı belə başa düşmək lazımdır ki, qıpçaqlar İrtış çayının hövzələrində yaranmış Kimak dövlətinin tabeliyində yaşamışlar. Onlar maldarlar idilər və köç yerləri cənub-qərbdə Sırdərya çayının aşağı axarınadək olan ərazini əhatə edirdi. Türk xaqanlığının süqutundan sonra kaymakların siyasi qurumu - xanlıq yaranmışdı. Bu qurum tarixşünaslıqda Kimaklar (kaymaklar) dövləti adlanır. Uralın cənub-şərqində yaşayan qıpçaqlar da bu dövlətin tabeliyində idilər.

X əsrin əvvəllərində bu dövlətin ərazisi İrtış çayından Xəzərə qədər uzanırdı. Xaqanlığın yay iqamətgahı İmak şəhəri idi. Şəhərdə sənətkar məhəllələri vardı. Arxeoloji qazıntılar göstərmişdir ki, kaymaklar və qıpçaqlar bu dövlətin vaxtında qismən oturaq həyata keçmiş və əkinçiliklə məşğul olmuşlar. Ərəb coğrafı Əl-İdrisi (XII əsr) kimaklarda qüvvətləndirilmiş şəhərlərin olduğunu yazmışdır. X əsrin sonlarında bu dövlət dağıldıqdan sonra kayınaklar qıpçaqların tərkibində Cənub-Şərqi Avropaya köçmüşdülər[17]. Dəşti-Qıpçaq ("Qıpçaq çölü") adlanan böyük ərazidə (Volqa-Dunay çaylararası ərazidə) kaymaklar qıpçaqların içərisində yaşayırdılar. XII əsrdə Gürcü çarlarının Şimali Qafqaz çöllərindən Gürcüstana köçürdükləri qıpçaqların içərisində ehtimal ki, kaymaklar da vardı (Q.Qeybullayevə görə Azərbaycanm Qazax rayonunda və Gürcüstanın Borçalı bölgəsində Qaymaqlı kəndləri məhz kaymakların XII əsrdə məskunlaşdığı yerlərdir).



## *VIII fəsil*

## *ŞİMALİ QAFQAZIN TÜRK XALQLARI*

Şimali Qafqazda dörd türk xalqı yaşayır: noqaylar, karaçaylar, kımıklar və balkarlar. Bu xalqların hər biri müstəqil inkişaf yoluna mənsub olsalar da, ümumi (müştərək) etnik tarixə malikdirlər. Yəni bu xalqların formalaşmasında eramızın I minilliyində Cənub-Şərqi Avropada yaşamış hun, qıpçaq, xəzər və peçeneq tayfaları iştirak etmişlər. XII-XIII əsrlərdə mövcud olmuş Qızıl Orda dövlətinə mənsub türk və monqol tayfaları da bu xalqların təşəkkülündə rol oynamışlar.

Bununla belə, həmin türk xalqlarının hər biri müstəqil tarixi inkişafa və mədəni irsə malikdirlər. Bu xalqların digər türk xalqlarından əsas fərqli cəhəti onların dövlətçilik ənənəsinə malik olmamalarıdır. Rusiya tərəfindən işğal ərəfəsində bu xalqlar kiçik knyazlıqlar kimi mövcud idilər və Azərbaycan xanlıqları kimi bir-biri ilə mübarizə şəraitində yaşayırdılar.

### §1. Kumıklar

Dərbənd şəhərində və onun ətraf rayonlarında yaşayan azərbaycanlılar nəzərə alınmazsa kumıklar Dağıstanda yaşayan yeganə türkdilli xalqdır. Onlar Dağıstanın 8 rayonunda məskundurlar: Babayurd, Xasavyurd, Kızılyurd, Buynaksk, Karabudaxkənd, Qasımkənd və Kaytaq. Bundan başqa Mahaçqalanın 6 kəndində və özündə də yaşayırlar. Dərbənd şəhərində də kumık ailələri vardır.

Qroznı əyalətində və Şimali Osetiyada da bir neçə kənddə kumıkların yaşadıqları məlumdur.

XX əsrin II yarısına aid məlumata görə kumıkların miqdarı təxminən 100 min nəfərə çatır.

Kompakt halda kumıkların yaşadıqları ərazi şimalda noqaylar, qərbdə avarlar və darginlər, cənubda tabasaranlarla və Dərbənd azərbaycanlıları ilə sərhədlənmişdir.

Umumiyyətlə, kumıklar Dağıstanın və Şimali Qafqazın Terek, Sulak, Qızılüzən, Qəmrəözən, Şuraözən və Manasüzən* çaylarının hövzələrində yaşayırlar.

Kumık xalqının təşəkkülü problemi hələ tamamilə həll olunmamışdır.

Onların ulu əcdadları VII əsrdə Cənub Şərqi Avropanı. Şimali Qafqazı və Dərbənd bölgəsini əhatə etmiş Xəzər dövlətinin tərkibində yaşamışlar. Tədqiqatçılara görə kumıkların etnogenezində eramızın əvvəllərində Şimali Qafqaz çöllərində yaşamış qıpçaqlar və suvarlar xüsusi rola malik olmuşlar

Bir sıra tədqiqatçılar kumıkların mənşəini e.ə. I minilliyin II yarısında Cənubi Volqaboyunda və Şimali Qafqazda yaşamış sarmatlara bağlayırlar, lakin eyni zamanda yazırlar ki, sarmatlar irandilli (farsdilli) idilər.[18] Başa düşmək olmur: farsdilli tayfadan türkdilli kumıklar necə yaranmışlar? Özlüyündə aydındır ki, bu tarixi həqiqətə uyğun deyil.

Kumıkların əcdadları erkən və orta əsrlərdə Cənub-Şərqi Avropada və Şimali Qafqaz çöllərində mövcud olmuş müxtəlif türk dövlətlərinin (hun imperiyası, Xəzər dövləti, Qızıl Orda və b.) tərkibində yaşamışlar və elə ona görə də xüsusi dövlət qurumuna malik olmamışlar.

Son orta əsrlərdə kumıklar özünüidarə hüququna malik azad icmalar şəklində yaşamışlar. Bu hər azad icma qan qohumluğuna malik tayfadan ibarət olmuşdur və icmalar bütün daxili idarə sistemi adətlərlə tənzim olunurdu.

Azad icma bütün Dağıstan xalqlarında olduğu kimi "tuxum" adlanırdı ki, bu da fars sözü olmaq etibarilə kök, sümüklə (yəni ata nəsli ilə) hesablanan qohum qruppa mənasındadır. Hər tuxum daxili özünüidarəyə malik idi. Bütün tuxumlar "Şamxal" adlanan feodala tabe idi. Tuxumun başçısı isə çanka adlanırdı ki, bunlar əslində orta feodal sinfini təşkil edirdi.

---

* *Adları çəkilən çayların adlarındakı "üzən" sözü Şimali Azərbaycanda Alazan, Cənubi Azərbaycanda Qızılözən (farsca Sefidru) çayların adlarında "azan" və "özən" sözlərilə məncə eyni olmaqla qədim türk dillərində özən, üzən "çay" deməkdir - Red. Q.Q.*



Rus imperatoru I Pyotrun 1723-cü ildə Dərbəndi tutması digər Dağıstan xalqları kimi kumıkların da Rusiyaya tabe edilməsi prosesinin başlanğıcı oldu və 1813-cü ildə Gülüstan müqaviləsi ilə Dağıstanla birlikdə Rusiyaya birləşdirilməsi ilə nəticələndi.

Kumıklar təsərrüfat məşğuliyyətlərinə görə iki hissəyə ayrılır: oturaq kumıklar və maldar kumıklar - "iərəkəməmə"-lər. Maldar təsərrüfatı indi də kumıkların həyatında mühüm rol oynayır.

## *§2. Noqaylar*

Şimali Qafqazın kiçik türk xalqlarından biri noqay adlanır. Bu xalq Noqay ordasının adı ilə adlanmışdır. Lakin onun ilk adı "Manqut" olmuşdur. Onların əraziləri də "Manqut yurdu" adlanırdı. Ona görə ki, noqayların etnogenezində manqut, konqrat və qıpçaq türk tayfaları əsas rol oynamışlar. Mənbələrdən aydın olur ki, yalnız XIV əsrin II yarısından "noqay" etnonimi təşəkkül tapmışdır.

Məlum olduğu kimi, bu orda Yaik (Ural) çayından Dnestr çayına qədər geniş bir ərazini əhatə etmişdir. Ordada müxtəlif türk tayfaları məskun idi.

Noqayların ulu əcdadları XV əsrdən Şimali Qafqazda Beş-Tau (Pştiqorsk) ərazisində maldarlıqla məşğul olurdular. XVI-XVII əsrlərdə onlar Şimali Qafqaz çöllərində oturaq həyata keçməyə başlamışlar. Xüsusilə, XVI əsrin ortalarında Noqay ordasının Böyük və Kiçik ordaya parçalanması nəticəsində Kara Noqay adı ilə indiki noqaylar formalaşmağa başlamışdır. Kara noqaylar Azovətrafı ərazidən Terek çayının aşağı axarlarına qədər olan ərazidə yaşayırdılar. Çoban-Murza və Biy Murzanın başçılıqları ilə bu noqaylar 1616-cı ildə Don çaymm hövzəsində məskunlaşmışdır.

Rus mənbələrində 1644-cü ilə aid sənəddə Şimali Qafqazda Kuma çayınm ətrafında yaşayan iki noqay köçünün yaşadığı qeyd olunur.

Böyük Noqay ordasının noqayları isə XVII əsrin əvvəllərinə qədər hələ də Volqa boyunda yaşamaqda davam edirdilər. Lakin onlar oradan Kiçik Noqay ordasına mənsub noqaylara tərəf hərəkət etmiş və onlara qarışmışlar.

Noqaylar etnik tərkibcə qaraqalpaq xalqı ilə çox yaxınlıq təşkil edir. Bunu hər iki xalqın təşəkkülündə iştirak etmiş tayfaların adları aydın göstərir:

| *Noqaylarda* | *Qaraqalpaqlarda* |
|---|---|
| Xan Urub | Xan Tekin |
| Ktay | Ktay |
| Kanqlı | Kanqlı |
| Irçaklı | Irçaklı |
| Konqrat | Konqrat |
| Kazayaklı | Kazayaklı |
| Kostamqala | Kostamqala |
| Aşamaylı | Aşamaylı |
| Kıpşak | Kıpşak |
| Nekis | Nekis |
| Manqış | Manqış |
| Keneqes | Keneqes |
| Uyqır | Uyqır |
| Telev | Teli |
| Taraklı | Taraklı[19] |

## §3. Qaraçaylar

Qaraçaylar Rusiya Federasiyasında Qaraçay-Çərkəz muxtar vilayətində yaşayan xalqdır. Mənşəcə və dincə balkarlarla qohumdurlar. Onlar özlərinə "karaçaylılar" deyirlər.

XX əsrin sonlarına aid məlumatda qaraçaylıların miqdarı 113 min nəfər olmuşdur. Tədqiqatçılara görə balkarlar kimi, qaraçaylılar da eyni qədim türkdilli tayfalar əsasında təşəkkül tapmışlar. Ehtimal olunur ki, bir xalq kimi XV-XVIII əsrlərdə formalaşmışdır.



Qızıl Orda süqut etdikdən sonra Şimali Qafqazda bir neçə knyazlıqlar yaranmışdı. Onların biri Tarki şamxallığı idi. Qaraçaylar və balkarlar da XIX əsrin əvvəllərinə qədər bu şamxallığın tərkibində olmuşlar, lakin onlar da kumıklar kimi daxili özünü idarəyə malik idilər. Qeyd etmək lazımdır ki, kumıklar və noqaylarda olduğu kimi, qaraçay və balkarlarda "xan" və "bəg (bəy)" sözləri məlum deyil.

XVIII əsrdə karaçaylar bir neçə lokal qrupdan ibarət idilər. Sak və Bak dərəsində yaşayırdılar. Balkarlar isə Çeqel dərəsində məskun idilər.

Qaraçaylar xaricdə Türkiyədə, Suriyada və İordaniyada da yaşayırdılar. 1942-ci ildə qaraçaylar Sibirə sürgün edilmişdi. 1956-cı ildə onlar bəraət qazandılar, əksər hissəsi qayıtdı, lakin müəyyən qədər qaraçay Qazaxıstanda qaldı.

Qeyd etmək lazımdır ki, qaraçaylar qədim türk xalqlarına mənsub dini görüşləri saxlamışlar. Onlarda indi də ovçuluq allahı Absat, maldarlıq allahı Aymuş, ildırım allahı Eliya, göy allahı Teyri (azərbaycanlılarda "tanrı" allah adının forması) və b. ibtidai dinlərin qalıqları qalmaqdadır. Onlarda "Cer yesi" (yəni "yerin yiyəsi") adlı allah da vardır və keçmişdə ona qurban kəsirdilər.

## §4. Balkarlar

Şimali Qafqazın türk xalqlarından biri balkar adlanır. Qədim türk mənşəli "bolqar" etnonimi ilə bağlı olsa da balkar etnonimi XIX əsrə qədər Rus tarixşünaslığında işlənməmişdir. Əsasən Rusiyanın Kabarda-Balkar M SSR-in cənub və cənub-qərb hissələrində yaşayan bu kiçik xalqın miqdarı XX əsrin 80-ci illərinə aid məlumata görə 70 min nəfərə qədərdir. Kabarda -Balkarın paytaxtı Nalçik şəhəridir.

Sovet tarixşünaslığında balkarların mənşəyi problemi həll olunmamışdır. Lakin şübhəsiz sayılır ki, onların etnogenezində qədim türk dilli bulqarlar, xəzərlər və qıpçaqlar iştirak etmişlər.

Tədqiqatçılara görə balkar xalqının formalaşma prosesi əsas etibarilə XIII əsrdən başlanmışdır ki, bu da monqollarla mübarizə nəticəsində qıpçaqların bir hissəsinin Şimali Qafqazın dağlıq ərazisinə çəkilməsi ilə əlaqədardır. Elə ona görə də balkarlar özlərinə mauli deyirlər. Rus mənbələrində "balkar" etnonimi ilk dəfə 1629-cu ildən məlumdur.

Balkarların birgə yaşadıqları kabardinlər (350 min nəfərə qədər) özlərinə adıgey deyirlər.

Balkarlar əsas etibarilə XVIII-XIX əsrlərdə Şimali Qafqazın siyasi həyatında fəal rola malik olmuşlar. Bu barədə türk xalqlarının yeni dövr tarixində məlumat veriləcəkdir.



*IX fəsil*

## *QƏDİM DÖVRDƏ VƏ ERKƏN ORTA ƏSRLƏRDƏ TÜRK MƏDƏNİYYƏTİ*

***Qədim dövr.*** Yuxarıda qeyd edildiyi kimi, türk xalqlarının e.ə.I minilliyin ortalarına qədərki tarixi barədə yazılı mənbələr yoxdur. Ona görə də eradan əvvəlki minilliklərdə türk etnoslarının tarixi yalnız arxeoloji qazıntılar nəticəsində aşkarlanmış maddi-mədəniyyət nümunələri əsasında araşdırılır.

E.ə.I minilliyin ikinci yarısında Mərkəzi Asiya və Qazaxıstan ərazilərində yaşamış saklar, massaqetlər, usunlar, kanqlılar və b. qədim türk etnosların mədəniyyətləri haqqında antik müəlliflərin əsərlərində və Çin mənbələrində səthi də olsa mə'lumatlar vardır. Bu dövrə aid arxeoloji abidələrdən aşkarlanmış maddi mədəniyyət elementləri yazılı mənbələrdəki mə'lumatlarla əlaqəli şəkildə öyrənildikdə müəyyən elmi nəticələrə gəlmək mümkündür. Hər iki qrup mənbədə (arxeoloji və yazılı mənbələrdə) qədim türk tayfalarının dini görüşləri haqqında nisbətən daha aydın təsəvvür əldə olunur.

Qədim türklərdə vahid allaha inam vardı. Bu, göy allahı Tenqri idi. Lakin arxeoloji qazıntılardan və yazılı mənbələrdən aydın olur ki, Mərkəzi Asiyanın türk tayfaları içərisində ibtidai icma dinləri (animizm, totemizm, şamanizm, əcdada sitayiş və s.) ilə yanaşı zərdüştlük də vardı. Aşağıda bu barədə qısa mə'lumat veriləcək.

***Zərdüştlük.*** Türküstan ərazisində hələ miladdan əvvəl Zərdüşt dininin yayıldığı mə'lumdur. Bu din Zərdüşt peyğəmbər tərəfindən yaradılmışdır. Bu peyğəmbərin adı "Avesta" kitabında Zaratuştra kimi verilir. Zərdüşt dininin müqəddəs kitabı olan "Avesta" dövrümüzə İran dillərindən birində yazılmış formada gəlib çatmışdır. Tədqiqatçılara görə bu dil hələ e.ə.I minilliyin birinci yarısında ölü dil idi. Sonra bu dili yalnız Zərdüşt dininə ibadət edənlər bilirdilər. Ümumi fikrə

görə bu kitab e.ə.VII əsrdə yaranmışdır. Kitabın hissələri uzun müddət şifahi formada yaşamışdır. Ehtimal olunur ki, indiki "Avesta" e.ə.I minilliyin II yarısında yazıya köçürülmüşdür, lakin sonralar onun mətnləri dəfələrlə dəyişdirilmiş və 21 kitabda (hissədə, fəsildə) cəmləşdirilmişdir. Makedoniyalı İskəndərin istilaları dövründə yanğınlar zamanı bu müqəddəs kitablar məhv olmuş, yalnız 3 kitab "Vendidad", "Yasna" və "Visprat" salamat qalmışdır. Cənubi Azərbaycan ərazisində e.ə.IV əsrdə yaranmış və sərkərdə Atropatın adı ilə adlanmış Aturpatakanda (VII əsrin ortalarından e'tibarən ərəbcə tələffüz forması - Azərbaycanda) "Avesta"nın indiki mətnləri formaya düşmüşdür. "Avesta" aşağıdakı hissələrdən ibarətdir: Yaşt ("Ehtiram" - müxtəlif Allahlara həsr olunmuş himn-dualar); Yasna ("dua etmə", "sitayiş etmə" - ibadət və qurbanvermə zamanı oxunan ayələr); Qatlar (Zərdüşt peyğəmbərə mənsub edilən və ona görə də kitabın ən qədim hissəsi hesab edilən hissə) - "mahnı", "himn"; Vispered ("Allahlarının hamısı") - dua xarakterli mahnılar; Vendidad (yaxud Videvdat) - "divlər əleyhinə qanun", başqa sözlə şər qüvvələrin dəf edilməsinə yönəldilən qanunlar məcəlləsi. Hesab olunur ki, Videvdat qədim "Avesta"nın tam şəkildə qalmış hissəsidir.

"Avesta"nın qədim hissələrində Zərdüşt real tarixi şəxsiyyət kimi göstərilmişdir. Peyğəmbər özünü xalq kütləsinin tərəfdarı e'lan edərək, onun mənafeyi uğrunda mübarizə aparmışdır. Zərdüştün doğulduğu yer dəqiq mə'lum deyil. IX-XIII. əsr ərəb coğrafiyaşünasları onun Azərbaycanda Urmu şəhərində doğulduğunu yazmışlar. Lakin bir sıra Qərbi Avropa şərqşünaslarına görə Zərdüşt e.ə.1000-600-cü illər arasında yaşamış və Mərkəzi Asiyada təbliğat aparmışdır. Fakt budur ki, "Avesta"da saka tayfası haqqında danışılır və onlar həm də tur adlandırılır. Saklar isə e.ə.I minillikdə Mərkəzi Asiyada və Qazaxıstanda yaşayırdılar. "Avesta"da haqqında bəhs olunan tur tayfa adını bə'zi tədqiqatçılar türk etnoniminin kökü hesab edirlər.

Yuxarıda biz Türküstanda eradan əvvəl saklar haqqında danışdıqda demişdik ki, "Avesta"da saklarm Zərdüşt dininə itaət etmələrinə işarə vardır.



Zərdüşt varlı tayfa başçılarına və kahinlərə qarşı çıxır və ona görə də güclü hakimiyyətə arxalanan dövlət istəyirdi. O, çoxallahlılığın əleyhinə olduğuna görə vahid Ahura-Məzda (Hörmüz) allahı ideyasını irəli sürürdü. Zərdüşt deyirdi ki, dünyada iki əzəli başlanğıc - xeyir və şər; həqiqət və yalan vardır. Xeyr qüvvələrinin başında Ahura-Mazda (Hörmüz), şər qüvvələrinin başında isə Anhra-Manyu (Əhriman) durur. Divlər şər qüvvələr hesab olunur. Zərdüştün tə'liminə görə dünya iki hissədən ibarətdir: real, cismani dünya və ruhi (axirət) dünya. Peyğəmbər yazır ki, adamlar xeyirlə şər arasındadır, onlar bu və ya digər tərəfə meyl edir, lakin son nəticədə xeyir şərə qalib gələcəkdir, bunun üçün insan da şərə və yalana qarşı mübarizə aparmalı, həm də əkinçiliklə və maldarlıqla məşğul olmalıdır. Peyğəmbər deyir ki, subaylıq ən böyük günahdır, oğlanlar və qızlar həddi-buluğa çatdıqda mütləq sevişməli və evlənməlidirlər.

Zərdüşt dinində oda sitayiş mühüm yer tutur.

Zərdüşt dini tərəfdarları Mərkəzi Asiya və Qazaxıstan ərazilərində ərəb işğallarına qədər qalmaqda idilər. Ərəb orduları Zərdüşt dininə itaət edənləri kafir hesab edir və onlara zorla islam dinini qəbul etdirirdilər. Hazırda Zərdüşt dini İranda kəbrlər (ərəbcə kafirlər, yə'ni müsəlman olmayanlar) və Hindistanda parslar (onların miqdarı təxm.100 min nəfərdir) içərisində qalmışdır.

Mərkəzi Asiyada islama qədər oda sitayiş mə'bədlərinin olması barədə mənbələrdə səthi də olsa mə'lumatlar vardır. Ehtimal ki, bu Zərdüşt dini ilə bağlı idi. "Avesta"da od "atar" (başqa sözlə "adər", yaxud "azər") adlanır və onun 5 növü qeyd olunur. Od Ahura-Mazdanın (Hörmüzün) oğlu adlandırılır. Göstərilir ki, odu söndürmək (ona su atmaq) günahdır (keçmişdə azərbaycanlılarda oda tüpürmək, odu söymək günah sayılırdı). "Avesta"da torpaq şumlamaq və taxıl əkmək on min duaya bərabər sayıldığı kimi, oda sitayiş də Hörmüzə xoş gələn hərəkət hesab edilir[20].

***Qədim türk xalqlarının dinləri.*** Türküstanda islama qədərki türk tayfaları içərisində müxtəlif ibtidai icma dinlərinin

(animizm, totemizm, magiya, şamanizm və b.) qalıqları qalmaqda idi.

***Totemizm*** bütün dünya xalqlarının keçmişi üçün səciyyəvidir. Bu dinə görə tayfa adamları həmin tayfanın ərazisində yaşayan bə'zi heyvanları öz əcdadları sayırlar (totem sözü Şimali Amerikada yaşayan hinduların dilində "onun nəsli" deməkdir). Başqa sözlə, insanlar həmin heyvanların nəslidir. ("Kitabi Dədə Qorqud"da canavar və aslan oğuzların ulu əcdadlar adlandırılır).

Totemizm əqidəsinə görə totem sayılan heyvanı öldürmək, başını kəsmək və ya ətini yemək olmaz. Qədim türklərdə boz qurddan başqa, ayı, göyərçin, ilan, tısbağa və b. heyvanlar da totem sayılmışdır və bunun qalıqları bütün türk xalqlarında, o cümlədən azərbaycanlılarda da qalmaqdadır. Qərbi Sibirdə və Altayda aparılan arxeoloji qazıntılar zamanı qəbirlərdə tısbağa skeletləri tapılmışdır. Qədim türklər orduda seçmə döyüşçü dəstələri yaradırdılar ki, onlara "börü" (qurd) deyilirdi. Bu "boz qurdlar" döyüşün ən qorxulu yerlərində vuruşurdular.

Qədim türk xalqlarının gündəlik həyatında və məişətində ***şamanizm*** dini mühüm yer tuturdu. Şamanizmdə ruhlarla ünsiyyət, əlaqəyə girmək, ruha inam əsas yer tutur. Şamanlar - göyün müxtəlif təbəqələrində yaşayan ruhlarla "əlaqəyə girir" və müxtəlif xəstəlikləri sağaldırdılar. Şamanizm orta əsrlərdə Sibir xalqlarında (Altayda, Tuvada, yakutlarda) daha qüvvətli idi, çünki oralarda islam dini yayılmamışdı. Yakutlar, Sibirin və Altayın bə'zi xalqları rusların təzyiqi ilə şamanizmdən birbaşa xristian dininə keçmişdilər. Şamanizmə görə şamanlar insanlarla onları əhatə edən müxtəlif ruhlar arasında vasitəçidir. Ruhlara tə'sir etmək üçün onlara qurban kəsilməlidir. Qədim türklərdə şaman "kam", yaxud "qam" adlanırdı. İndiyədək altaylarda, tuvalarda, xakaslarda kam-qam termini ovsunçu mə'nasında işlədilir. Şaman mərasimində diametri 45 sm, hündürlüyü 12 sm olan keçi dərisindən nağara (tünqür) mühüm yer tuturdu.

Qədim türk xalqlarının mə'nəvi həyatında ***animizm*** dini də mühüm yer tuturdu. Animizm (latın dilində anima "ruh"



sözündən; elmə bu ifadə alman alimi K.Ştal tərəfindən gətirilmişdir) ruhlara sitayişdir. Dünyanın bütün xalqlarının keçmişi üçün səciyyəvi olmuş bu dini görüşə görə dünyada hər şeyin (dağ, çay, dəniz, ağac və s.) ruhu vardır. Ona görə də qədim insanlar bu təbiət qüvvələrinə sitayiş edir və qurban kəsirdilər.

Mərkəzi Asiyanın cənub əyalətlərində, Mərkəzi Asiyada və Altayda eranın ilk əsrlərindən buddizm və maniçilik dinləri yayılmağa başlanır.

***Buddizm.*** Buddizm Qazaxıstan və Mərkəzi Asiyaya bir başa Hindistandan deyil, Çin vasitəsilə keçmişdir, çünki Çinin Hindistanla qonşu əyalətlərinin əhalisi də buddizmə xidmət edirdi. Buddizm 572-ci ildə türk xaqanı Toboxan tərəfindən rəsmi surətdə qəbul edilmişdi. O, buddizm mə'bədi tikdirmiş və Çindən bu dinə aid kitablar gətirtmişdi. Türk xaqanı Tasparın düşərgəsində buddizm icması (sanqha) yaradılmışdı. Hətta xaqanın özü də buddizm dini mərasimlərində iştirak edirdi.

Buddizm Hindistanda e.ə.VI əsrin - sonu V əsrin əvvəllərində yaranmışdır. Tədqiqatçılara görə bu din Hindistandakı Brahmanizm dininə[21] qarşı e'tiraz əlaməti kimi ortaya çıxmışdır.

Buddizm dinini peyğəmbər Budda ("Nurlu" deməkdir, əsil adı Siddhartha Qautamadır) yaratmışdır. O, e.ə.623-544-cü illərdə yaşayıb. Bu dinə görə, insanların kastalara və təbəqələrə bölünməsi ədalətli deyil, bütün adamlar bərabər olmalıdır. Buddizmə görə bu dünyada insanın həyatı şər və əzabdan ibarətdir, şəri və əzabları isə insanlardakı arzu və ehtiraslar doğurur, bunlardan azad olduqda ruh nirvana (hind dilində "nicat" deməkdir) vəziyyətinə düşür və sakitləşir. İnsan bu dünyanın ne'mətlərinə tamahkar olmamalıdır, dünya daim hərəkətdə, yanıb-sönməkdə olan hissəciklərdən ("dharma"-lardan) ibarətdir. Maddi varlığın əsasını ruh təşkil edir, lakin insan onu dərk edə bilməz. Buddizmə görə üç dünya vardır: insanlar dünyası, heyvanlar dünyası və Buddanın mütləq boşluqlar dünyası. İnsan özünü Buddanın mütləq boşluqlar dünyasına hazırlamalıdır. Bir sözlə, buddizm yoxsul xalq kütlələrinin istəklərinə uyğun idi və onu qəbul etməklə hər kəs ədalətsizlikdən və bərabərsizlikdən çarə axtarırdı[22].

VII əsrin 30-cu illərində Çin səyyahı Syuan Tyan Mərkəzi Asiyada iki buddizm monastrının olduğunu yazmışdır. Arxeoloji qazıntılar nəticəsində Qırğızıstanın paytaxtı Frunze (indi Bişkek) şəhəri yaxınlığında Ak-Beşim adlı yerdə 1953-1957-ci illərdə buddizm mə'bədinin xarabalıqları tapılmışdır. Bu mə'bəd VII əsrə və VIII əsrin əvvəllərinə aiddir. Mə'bəddə buddizm dini üçün səciyyəvi əşyalar da aşkar olunmuşdur. Lakin bu din maldar türk tayfaları içərisində geniş yayılmadı. Tədqiqatçılara görə bunun səbəbi ondadır ki, buddizm kişilərə fəal həyat tərzindən təcrid olmağı tövsiyyə edirdi. Bu isə yarımköçəri əhalinin mənafeyinə uyğun deyildi.

Biz erkən orta əsrlərdə müxtəlif türk xalqlarında buddizm dininin vəziyyəti məsələsi üzərində ətraflı dayanmırıq. Bu məsələ A.M.Saqaliyev tərəfindən xüsusi tədqiqat predmeti olmuşdur[23].

Eranın ilk əsrlərində Mərkəzi Asiyada xristian dininin Nestorian məzhəbi də yayılmağa başlanmışdı. Nestorianlıq xristianlıqda bir məzhəbdir (pravoslav və katolik, yaxud islamda şiə və sünnü məzhəbləri kimi). Həmin məzhəb Suriyada eranın V-VI əsrlərində Nestor adlı bir xristian, ruhani tərəfindən əsası qoyulduğuna görə belə adlanır. Nestorianlar VI-VIII əsrlərdə Suriyadan Mərkəzi Asiyanın bə'zi şəhərlərinə köçüb yaşayırdılar. Müqayisə üçün deyək ki, Abşeronda, xüsusilə Buzovnada da nestorianların (xalq içərisində nestorianlar "nəsturi" adlanırdı) orta əsrlərdə yaşaması haqqında tarixi mə'lumatlar vardır. Xristianlıq dini hətta bə'zi Altay tayfaları içərisində, o cümlədən uyğurlarda da yayılmışdı. Mərkəzi Asiyanın Mərv şəhərində Xaraba-Koşuk adlı yerdə V-VI əsrlərə aid kilsə qalıqları tapılmışdır.

Fiofilakt Simokatta yazır ki, V əsrdə Sasanilər sərkərdəsi Bəhram Çubinin ordusundakı türk döyüşçülərinin alınlarında xaç şəkilləri vardı. Lakin xristianlıq Mərkəzi Asiya türk xalqları içərisində geniş yayıla bilmədi.

Yuxarıda Xəzər xaqanlığından danışarkən orada yəhudi dininin yayıldığını demişdik. Bir fikrə görə xəzərlərə yəhudi dini Mərkəzi Asiyadan - Xarəzmdən keçmişdir, guya ərəblərin Mərkəzi Asiyanı tutması və islamı yaymaları ilə əlaqədar



olaraq Mərkəzi Asiya şəhərlərindən yəhudi ailələri Volqaboyuna köçmüş və Xəzər dövlətinə birləşmişlər. Lakin tədqiqat göstərmişdir ki, yəhudi dini xəzərlərdə əsasən yuxarı zümrə içərisində yayılmışdı.

***Maniçilik.*** Eranın əvvəllərində Mərkəzi Asiyanın bir sıra türk xalqları içərisində İrandan maniçilik dini yayılmışdı. Zərdüşt dini tərəfdarları içərisində yayılmış bu dini cərəyan sonralar Talas çayı hövzələrində yaşayan ciqil və arqu, Altayda və İrtış çayı sahillərində yaşayan kereit, nayman, merkit və b. türk tayfaları içərisində də yayılmışdı. VIII əsrin ortalarında maniçilik ən çox uyğurlarda yayılmışdı. Maniçiliyin vahid allah ideyası hakim sinfin mənafeyinə uyğun idi. Tarixçi Qardizi yazır ki, tokuz-oğuzların xaqanının sarayı qarşısında hər gün 300-400 nəfər adam toplaşır və Maninin əsərlərini bərkdən oxuyurdular.

Bu dinin banisi Mani adlı bir şəxs olmuşdur. Tarixdə "Nəqqaş Mani" kimi adlanan bu şəxs (həqiqətdə də o, məşhur rəssam olmuşdur), bə'zi tədqiqatçılara görə, 216-cı ildə Babildə anadan olmuş və 276-cı ildə İranda ölmüşdür (onu Sasanilərin şahı I Bəhram e'dam edib). Mani 24 yaşında özünü peyğəmbər e'lan etmiş, bir sıra Şərq ölkələrini, o cümlədən Mərkəzi Asiyanı gəzərək bu dini yaymışdır. O, öz fəlsəfi-dini fikirlərini 6 kitabda şərh etmişdir. Onun adı ilə bu din tarixşünaslıqda maniçilik adlanır. Mani Zərdüşt dininə qarşı çıxırdı, lakin insanların həyatda bərabərliyini tələb edirdi. Maniyə görə adamlar bərabər doğulurlar, o dünyada da bərabər olacaqlar, ona görə yaşadıqları illərdə də bərabər yaşamalıdırlar. Bu dinin xalq kütlələri içərisində yayılması da həmin fikirlə bağlı idi.

Bə'zi türk tayfa birləşmələrinin mə'nəvi həyatında maniçilik əsas yer tuturdu. Məsələn, uyğurlar 763-cü ildə maniçiliyi rəsmi din kimi qəbul etmişdilər. Ondan əvvəl uyğurlar buddizm dininə qulluq edirdilər.

***Məzdəkizm.*** Erkən orta əsrlərdə Türküstanda məzdəkizm dini cərəyanı da yayılmışdı və bə'zi mənbələrə görə ərəblərin bu əraziyə İslam dinini gətirmələrinə qədər şəhər-

lərdə bu dinin tərəfdarları çox idi. Məzdək V əsrin 50-ci illərində doğulmuşdur. Onun doğulduğu yer mə'lum deyil. Bə'ziləri onun Nişapurda, digərləri Nisada (Türkmənistanda) doğulduğunu deyirlər. Lakin Məzdək tə'liminə Cənubi Azərbaycan ərazisində - Həmədan şəhərində başlamışdır. O, maniçiliyin qızğın tərəfdarı idi. Məzdək belə hesab edirdi ki, əsas həyat ne'mətləri insanlar arasında bərabər bölüşdürülməlidir. Onun tə'liminə görə dünyada işıq ilə qaranlıq arasında mübarizə gedir. Yoxsul kütləni istismar edən feodallar şər (qaranlıq) qüvvəsidir. Məzdək deyirdi ki, şər ağıldan kənar şeydir, ona görə xeyir (ədalət) qalib gəlməlidir və deməli, əmlak ümumiləşdirilməlidir, o, bütün adamlara mənsub olmalıdır, çünki bərabərlik allah tərəfindən əta olunmuşdur. Məhz bu tə'liminə görə Məzdək 529-cu ildə İran şahı Qubadın oğlu Xosrov tərəfindən e'dam edilmişdir. Lakin bu din İranda və Mərkəzi Asiyada xalq kütləri içərisində özünə tərəfdarlar tapmışdı. Mərkəzi Asiyada Müqənna və Azərbaycanda Xürrəmilər hərəkatının baş verməsində məzdəkizmin böyük tə'siri olmuşdur[24].

***İncəsənət.*** Yuxarıda biz müasir türk xalqlarınm yaşadığı ərazilərdə qədim daş dövründən başlayaraq arxeoloji mədəniyyətlər barədə danışdıqda həmin mədəniyyətlərin səciyyəvi xüsusiyyətlərini də qeyd etmişdik. Arxeoloqların fikrincə bütün qədim dövrə aid maddi mədəniyyət nümunələrində insanların estetik zövqlərini əks etdirən kompozisiyalar və təsvirlər vardır. Bu incəsənət nümunələri həmin dövrlərdə insanların dini görüşlərini, onları əhatə edən maddi aləm haqqmda düşüncələrini, xüsusilə kosmoloji təsəvvür və baxışlarını əks etdirirdi. E.ə.II minilliyin sonlarında və I minilliyin əvvəllərində Dəmir dövrünün başlanması ilə əlaqədar olaraq ibtidai icma quruluşunda əmələ gəlmiş köklü dəyişikliklər incəsənətdə daha qabarıq əksini tapmışdır. Bu dövrdə incəsənət özünü Avrasiya tayfalarının ideya və estetik görüşlərinin əsaslarının ifadəsi kimi büruzə verirdi. Bu incəsənət elmdə "Skif-Sibir dünyasının incəsənəti" adlandırılan stil mühüm yer tutur. "Skif-Sibir heyvan stili"nin mənşəyi haqqmda üç fikir vardır. Bir qrup tədqiqatçılar onu totemizmlə (D.Karter, E.Farkaş,



V.Holmsten, A.D.Qraç); ikinci qrup tədqiqatçılar ibtidai icma dinlərindən biri olan magiya ilə (K.Şefold, İ.V.Yatsenko, Q.A.Fyodorov-Davıdov, A.M.Xazanov, A.İ.Şkurko); nəhayət üçüncü qrup tədqiqatçılar isə kosmoloji təsəvvürlərlə (V.Hartner, E.Ettinqhauzen və b.) bağlayırlar.

Onun mənşəyi haqqında isə tarixşünaslıqda fikir eynidir: "Skif-Sibir heyvan stili" Hind-İran mənşəlidir (V.İ. Abayev, İ.S.Braqinski, K.V.Trever, S.P.Tolstov, Q.A.Puqaçenkova, S.İ.Rudenko, B.A.Litvinski, Q.M.Bonqard-Levin, D.S.Rayevski, E.E.Kuzmina və b.). Qeyd olunur ki, bu stil İran tayfalarından bu stil Qara dənizin şimal sahillərində irandilli tayfalardan Şərqi Sibirə qədər geniş bir əraziyə yayılmışdır və Altayda hələ Taqar mədəniyyətində, sonra isə Pazırık kurqanında öz əksini tapmışdır. Bu fikir nə dərəcədə düzdür? - demək çətindir, ona görə ki, Avrasiyada yaşayan qədim türk tayfalarının hamısı bu stili nə vaxt, necə və nə məqsədlə İran tayfalarından mənimsəyə bilərdi - suallarına inandırıcı cavab yoxdur.

"Skif-Sibir heyvan stili"nin tərkib hissəsini şaxəli buynuzlu maral təsviri təşkil edir. Bə'zi təsvirlərdə maralın qanadları verilmişdir. Bu obraz ilk dəfə Taqar mədəniyyətindən mə'lumdur və tədqiqatçılara görə e.ə.I minillikdə Cənub-Şərqi Avropadan Mərkəzi Asiyaya qədər yayılmışdır. Ehtimal olunur ki, maral Günəş simvolu olmuşdur. Maraqlıdır ki, e.ə.I minilliyin II yarısında at da Günəş simvolu sayılmışdır.

Yuxarıda qeyd etmişdik ki, qədim türk tayfalarmda animizm dini də mühüm yer tuturdu. Onlarda suya, dağa, ağaca sitayiş vardı. Qeyd edilməlidir ki, Həyat ağacı təsviri Amudərya sahilində, Monqolustanda, Sibirdə, Altayda, Şərqi Qazaxıstanda və b. yerlərdə aşkarlanmış əşyaların üzərində də vardır. "Skif-Sibir heyvan stili" e.ə.I minilliyin I yarısında bütün Avrasiya üçün səciyyəvidir. Tədqiqatçıların əsərlərində bu stil "Skif-Sibir mədəni-tarixi birliyi", yaxud "Skif-Sibir dünyası" adlandırılır. Təkrar edirik ki, mənşəcə bu mədəni birlik iranmənşəli sayılır.

E.ə.II minillikdə (Tunc dövründə) qədim türk xalqlarının incəsənətində petroqliflər mühüm yer tutur. Petroqliflər

(qayaüstü şəkilləri) Mərkəzi Asiyada və Qazaxıstanda, Sibirdə və Altayda geniş ərazilərə yayılmışdır.

Qazaxıstanda petroqliflər Saymalı-Taş ibadətgahında və Tamqalı qayasındadır. Təsvirlərdə adamlar və müxtəlif heyvanlar obrazları (öküz, maral, ceyran, at və b.) əks olunmuşdur. Petroqliflər ən çox Yenisey çayının sahillərindəki qayalarda və daşlarda (Ust-Tuba, Tepsey, Xızıl-Xaya və b.) saxlanmışdır. Tədqiqatçılara görə orada bu təsvirlər Neolit dövründən başlanır və Okunev, Karasuq, Taqar və Taştık arxeoloji mədəniyyətlərini əhatə edir. Arxeoloq Y.A.Şer bu ərazidəki Türk xaqanlığı dövrünə aid petroqliflərin göstərilən arxeoloji mədəniyyətlərin petroqlifləri ilə varislik təşkil etdiyini yazmışdır[25].

E.ə.II minilliyin sonlarından e'tibarən Avrasiyanın Skif-Sibir mədəniyyətində "Maral daşları" adlı abidələr mühüm yer tutur. Bu daşlar ümumiyyətlə Skif mədəniyyətinin mühüm atributu sayılır. Bu məsələ V.V.Volkov, E.A.Novqorodova, Y.A.Şer və b. arxeoloqlar tərəfindən ətraflı öyrənilmişdir. Bu yerə basdırılmış sütun formalı daşların üzərində əsas e'tibarilə xəncər şəkilləri vardır.

Monqolustan və Cənubi Sibirin "Maral daşları" Tuva ərazisində Arjan kurqanında (e.ə.VIII-VII əsrlər) aşkarlanmış "Maral daşları" ilə eynidir. Maraqlıdır ki, eyni ilə belə daşlar Qara dənizin Şimal çöllərində, hətta Dunayətrafı ərazidə də vardır. Hazırda Avrasiyada 600 ədəd belə daş aşkar edilmişdir, lakin onların 80%-i Monqol-Baykalətrafı ərazilərin "Maral daşları" tipinə aiddir. E.ə.VII əsrdən sonra bu incəsənət nümunəsi aradan qalxmışdır.

"Maral daşları"nın semantikası məsələsi bir sıra tədqiqatçıların əsərlərində araşdırılmışdır. Diqqəti burası cəlb edir ki, tarixşünaslıqda bu incəsənət nümunəsi də Hind-İranmənşəli hesab edilir və deyilir ki, qədim Hind-İran tayfalarında maral Günəş allahının simvolu idi[26]. Əlbəttə, bu fikir də obyektiv həqiqəti əks etdirə bilməz. Belə çıxır ki, bu fikirdən belə nəticəyə gəlmək olar ki, bütün Şərqi Avropa və Sibir xalqlarının (o cümlədən Volqaboyu, Cənubi Ural, Qərbi Sibir, Tuva, Dağlıq Altay, Monqolustan və b. ölkələrin Altay



dil mənşəli qədim tayfalarının) özünəməxsus görüşləri, inamları və dinləri olmamışdır və onlar bunların hamısını nə vaxtsa, haradasa İranmənşəli tayfalardan mənimsəmişlər.

***Orxon-Yenisey və Talas yazılı abidələri.*** Müxtəlif xalqların tarixində bir qanunauyğunluq müşahidə olunmuşdur. Belə ki, güclü dövlətin yaranması həmin dövləti yaradan etnosun yazısının meydana gəlməsi ilə yanaşı baş verir. Bunu Türk xaqanlığının yaranması ilə əlaqədar olaraq qədim türk run əlifbasının təşəkkül tapması aydın göstərir. Türk xaqanlığı geniş bir ərazini əhatə edən imperiya idi. Bu dövlətdə xarici və daxili dövlət funksiyasını nizama salmaq üçün yazı vacib idi. Bizans mənbələrində deyilir ki, Türk xaqanlığı 552-ci ildə İran şahı Xosrov Ənuşirəvana, 568-ci ildə Bizans imperatoruna skif dili ilə yazılmış məktublar göndərmişdi. Bu qiymətli mə'lumatda "skif dili" dedikdə Altay dil ailəsinin Türk qoluna mənsub dillərdən birinin nəzərdə tutulduğu aydın olsa da, həmin məktubların hansı əlifba ilə yazıldığı mə'lum deyil. Bə'zi tədqiqatçılara görə türklər əvvəlcə soqd əlifbasından istifadə etmişlər. Monqolustanda Buqut adlı yazılı daş sütundakı 582-583-cü illərə aid bir yazı məhz qədim türkcə soqd əlifbası ilə yazılmışdır. Soqd əlifbasının özü sami mənşəli, Ön Asiyada yaşamış aramey adlı qədim xalqın əlifbasından götürülüb. Bu əlifba 23 hərfdən ibarət idi və praktiki olaraq 18-19 işarədən istifadə olunurdu. Həm də sait (səssiz) səsləri (a, ə, o, u, ü, i və s) vermək üçün işarələr yox idi. Lakin bu əlifba türk dillərinə məxsus fonetik sistemi verməyə yaramırdı. Ona görə türklər öz əlifbalarını yaratdılar. Tədqiqatçılar belə hesab edirlər ki, qədim türk run əlifbası VI əsrin I yarısında yaranmışdır. Hər halda bu faktdır ki, VI əsrdən əvvələ aid türk run yazısı tapılmamışdır.

Türk əlifbasının mənşəyi problemi həll olunmamışdır. Bir sıra Avropa və Rus tədqiqatçılarına görə run əlifbası soqd əlifbası əsasında yaradılmışdır. Türk əlifbasının aramey əlifbasından törəndiyini yazanlar da var. Son vaxtlarda belə bir ideya irəli sürülmüşdür ki, türk run yazısı qədim türklərin tamqa işarələri (azərbaycan dilində "damğa", xüsusi mülkiyyət nişanı kimi heyvanın qulağına və ya başqa yerinə qızdırıl-

mış alətlə yandırılıb qoyulan işarə) əsasında təşəkkül tapmışdır. Çünki Altayda Minusin çökəkliyində Taştık çayı sahilində qayalarda eradan əvvəllərə aid run yazılardakı hərflərə oxşayan çoxlu tamqa işarələri aşkar olunmuşdur. Lakin tədqiqatçılar hələ eranın əvvəllərində Cənub-Şərqi Avropa çöllərində indiyədək oxunmamış çoxlu run yazıları tapmışlar. Bir mülahizə var ki, bu yazını Avropaya hunlar aparmışlar. Lakin həmin yazılar oxunmadığına görə onların türk run yazıları ilə mənşə birliyi məsələsi həll olunmamış qalır.

Qədim türk run əlifbası 38 hərfdən ibarət idi, yazı sağdan sola yazılır və oxunurdu.

Qədim türk yazılı abidələri 1721-1722-ci ildə Yenisey çayının vadilərində I Pyotrun xidmətində olan millətcə alman Messerşmid və onu müşayiət edən isveç zabiti F. Tabbert (digər adı Stralanberq) tərəfindən tapılmışdır. İş burasındadır ki, eynilə türk run yazılarına oxşar yazılar Skandinaviya ölkələrinin, o cümlədən İsveçin ərazisində çoxdan mə'lumdur. Bu yazılar oxunmayıb və kimlərə məxsusluğu müəyyən edilməyib. Həmin qədim yazılar Skandinaviya xalqlarının dillərində "runa" adlandırılır. Runa fin dilinə məxsus sözdür. Karel-finlər qədim, tarixi mə'lum olmayan mahnılarına da "runa" deyirdilər Ona görə də Messerşmid Skandinaviyada daşlar və sümük parçaları üstündə tapılan və fin dilində "runa" adlandırılan *yazılara oxşadığına görə tapdıqları* yazıları da "runa" yazılar adlandırdı və elmə də belə düşdü: "Türk run (yaxud runa) yazıları"[27]. Sonra Mərkəzi və Mərkəzi Asiyada, Qazaxıstanda, Aşağı Volqaboyunda və Şimali Qafqazda da belə yazılar tapılaraq oxundu və aydın oldu ki, onlar heç də Skandinaviya xalqlarına yox, qədim türklərə aiddir. XIX əsrin axırları və XX əsrin əvvəllərində əsas türk run yazıları - (Kül-Tiqinin və Bilgə xaqanın şərəflərinə yazılı daş sütunlar, Siqin, Karabalqasun, Sələng və b. yazılar) tapılmışdır.

Mərkəzi Asiyada və Qazaxıstanda ilk run yazılar 1896-1898-ci illərdə Talas çayı vadisində aşkar edilmişdir. Run yazıların axtarılması və tapılması əsrimizin 60-cı illərinə qədər davam etmişdir. Təkcə Mərkəzi Asiyada 40 run yazılı abidə tapılmışdır. Talas abidələri V əsrdən XII əsrə qədər olan dövrə



aid edilir, hərçənd ki, yuxarıda dediyimiz kimi, bə'zi tədqiqatçılar VI əsrdən əvvələ getmirlər. Qədim türk run yazıları Şimali Monqolustanda, Orxon (yaxud Orxan) çayının hövzələrində də aşkar edilmişdir və bu abidələr türkoloji ədəbiyyatda "Orxon abidələri" adlanır. Orada Bilgə xaqanın qardaşı Mogilyan xaqanın və qardaşı Bilgə xaqanın şərəfinə yazılmış yazılar vardır. Həmin yazılar 1889-cu ildə "Koşoçoydam" adlı yerdə N.M.Yadrintsev tərəfindən tapılmışdır.

Run yazıların oxunuşu 1893-cü ilə aiddir. Eyni vaxtda Danimarka dilçisi V.Tomson və rus türkoloqu V.V.Radlov (P.M. Melioranski ilə birlikdə) bu yazıları oxumuşdur. Qeyd edilməlidir ki, Tomson bu yazıları "tanqrı" (Tanrı, göy allahı) və "türk" sözləri əsasında oxumuş və bununla da yazıların açarını tapmışdır.

Deməli, türk run yazıları əsasən üç qrupa bölünür: Talas, Orxon və Yenisey abidələri.

Biz bu abidələrin hər birinin məzmunu, filoloji təhlili üzərində dayanmayacağıq. Azərbaycanda bu sahədə Cəfər Cəfərov, Əbülfəz Rəcəbov, Əlisa Şükürov və başqaları tədqiqatlar aparmış və əsərlər çap etdirmişlər. Bu yazılar Türkiyədə də çoxlu araşdırmaların predmeti olmuşdur. Türk run yazıları erkən orta əsrlərdə türk etnoslarının tarixini və mədəniyyətini öyrənmək üçün yeganə yerli mənbədir. Türk xaqanlığının tarixi ilə bağlı bir sıra məsələlər bu abidələr əsasında aydınlaşdırılmışdır. S.Q.Klyaştornıy adlı rus türkoloqu "Türk run abidələri Mərkəzi Asiya tarixinin öyrənilməsində mənbə kimi" adlı əsərdə bu məsələyə ətraflı toxunmuşdur. Run yazılarda türk xaqanlarının adları, onlara tabe tayfalar, müharibələr və dini ayinlər haqqında qiymətli faktlar var. Maraqlıdır ki, Kül-Tiqinin şərəfinə olan abidə də Kül-Tiqinin Ak-Oksiz, Ak-Azman, Başqu-Boz adlı atların adları da qeyd edilib.

***Elm.*** Qədim türk xalqlarının eramızın əvvəllərindən XI-XII əsrlərə qədər mədəniyyətindən danışarkən mənşəcə, etnik mənsubiyyətcə türk müəllifləri tərəfindən yazılmış abidələri qeyd etmək lazımdır. Bunların içərisində Mahmud Qaşqarlını və Yusif Balasaqunlunu qeyd etmək olar. Yusif

1015, yaxud 1016-cı ildə doğulmuş və 50 yaşında bədii yaradıcılığa başlamışdır. Yusif Balasaqunlunun əsəri (əsər poemadır) "Kutadqu-biliq" adlanır və 1069-cu ildə yazılmışdır. "Kutadqu Biliq" - "Xoşbəxt olmaq üçün elm" mə'nasını verir, çünki qədim türk dillərində qut "xoşbəxt" deməkdir (azərbaycan dilindəki xoşbəxt sözü farscadır).

Balasaqun şəhəri haqqında biz Qaraxanilərdən danışdıqda demişdik. Bu şəhər Qaraxanilərn paytaxtı idi. Yusif bu əsəri Qaraxanilərin hakimi, o vaxt Qaşqar vilayətində hakim Sutuk Buqraxana (yaxud Boqra xana) hədiyyə vermişdir. Əsər uyğur əlifbası ilə yazılmışdır. Poema Firdovsinin "Şahnaməsi" kimi yarıməfsanəvi tarixi şəxsiyyətlərdən və tarixi hadisələrdən bəhs edir. Hadisələr isə Mərkəzi Asiyada və Çin Türküstanında baş verir. Şübhəsiz ki, əsər həm də tarixi mənbədir. Poemada Kün-Toqdı-Elik (yəni "gün doğdu") və onun veziri Ay-Toqdı (yəni "Ay doğdu") tə'riflənir. Hərbi sərkərdələrin (poemada sərkərdə "Sü başı", yə'ni ordu başçısı adlanır) keyfiyyətlərindən danışılır, səfir, elçi (poemada qədim türkcə "yalavac"), xəzinədar ("aqıçı"), mətbəxə nəzarət edən ("aşçı", qədim türk dillərində aş "yemək" mə'nasındadır, eynilə bizdə "aşxana", yə'ni yeməkxana sözlərində olduğu kimi), məktub yazan ("bitikçi"), katib ("ilımqa") və başqa terminlər vardır. Poema dialoq formasında yazılmışdır. Əsərdə fəlsəfi fikirlər çoxdur: insan həyatının mahiyyəti, insanın həyatda əxlaq normaları, özünü cəmiyyətdə aparması və s. Əsərdə çoxlu qədim türk əfsanələri və folklor janrı nümunələri vardır.

Bu dövrün digər məşhur abidəsi Mahmud Qaşqarlının "Divan lüğət-ət-türk" əsəridir. Mahmud Kaşqar şəhərində yaşadığına görə (indi bu şəhər Çin Türküstanmdadır) "Qaşqari" təxəllüsünü götürmüşdür. Əsil adı isə Mahmud ibn Hüseyndir. Mahmud İssık-Kul gölünün cənub sahilində Barsxan adlı kənddə doğulmuşdur. Barsxan kiçik bir şəhər idi, lakin orta əsrlərdə dağılmışdır. O, əsərini 1072-1074-cü illərdə yazmışdır. Əsər ərəb dilində yazılıb və bu göstərir ki, əslən türk olan Mahmud ərəb dilini mükəmməl bilirdi. Üç cildlik bu nəhəng əsər Qazaxıstan və Mərkəzi Asiya türk xalqlarınm dili, tarixi



etnoqrafiyası və folkloru haqqında qiymətli abidədir. Qeyd etmək lazımdır ki, Səlcuq oğuz tayfalarımn 22 tayfa və iki xələc tayfa adlarını ilk dəfə məhz Mahmud Qaşqarlı vermişdir. Bu əsər erkən orta əsrlərdə müxtəlif türk tayfalarının dilləri arasındakı fonetik fərqləri araşdırmaq üçün yeganə samballı mənbə olaraq qalır. Müəllif yazır ki, o, haqqmda danışdığı türk tayfalarının yaşadığı ölkələri, vilayətləri qarışqarış gəzmişdir. Deməli, əsər müəllifin topladığı şifahi çöl materialları əsasında yazılmışdır. Onun əsərinin elmi dəyəri də elə bundadır. Ona görə də əsərdə türk tayfalarının məskun olduqları ölkələrin və şəhərlərin hamısının adları çəkilmişdir. Müəllif əsərə xəritə əlavə etmiş və ora türk ölkəsi kimi "Azərbaycan" ölkəsinin də adını salmışdır.

Mərkəzi Asiya və Qazaxıstanm mədəni həyatında dərviş şairlər, islam dininin təbliğatçıları da mühüm rol oynayırdılar. Onların bə'ziləri həm də yaradıcılıqla məşğul olurdular. Belə şəxslərdən biri mənşəcə türk Xoca Əhməd Yəsəvi idi. Yəsəvi (doğum vaxtı mə'lum deyil, 1166-cı ildə ölmüşdür) Özbəkistanın Yasə şəhərində dəfn olunmuşdur. Əmir Teymurun XIV əsrin axırlarında tikdirdiyi böyük məscid də onun adına idi. Yəsəvi islam dininin maldar qazax-özbəklər içərisində yorulmaz təbliğatçısı idi. O, "Divan-i hikmət" adlı əsər yazmışdır. Şair bu əsərdə islam dininin ehkamlarının şərhini verir, adamlara həyatın faniliyini dərk etməyi, dünyanın varidatına tamah salmamağı, Allahın dərgahına hazır olmağı tövsiyyə edirdi.

Yəsəvinin müasiri və məsləkdaşı "Hakim-Ata" təxəllüslü türk Süleyman Bakirqani idi. "Ata" qədim türk dillərində təkcə müəyyən bir övladın atası mə'nasında yox, həm də "böyük", "ulu", "icmanın başçısı", "mə'nəvi başçı", "əcdad" mə'nalarında idi (Azərbaycanda filosof Asif Əfəndiyevin Asif Ata təxəllüsündə "ata" məhz bu mə'nalardadır)[28]. Süleyman Yasə şəhərində doğulmuş və Bakırqanda (Xarəzm yaxınlığında bir kənd idi) 1186-cı ildə ölmüşdür. Onun şe'r toplusu "Bakirqan" adlanır. O, əsərlərində Sırdərya çayı sahillərindəki tayfaların tarixi və etnoqrafiyası haqqında maraqlı mə'lumatlar verir və Yəsəvi kimi bə'zi şe'rlərində insanları

bu dünyanı dərk etməyə, insan həyatının müvəqqəti olduğunu başa düşməyə, ona görə bacardıqca ədalətli olmağa çağırırdı.

Mərkəzi Asiyada elm də yüksək inkişaf etmişdi. Xüsusilə Xarəzmdə və Şimali Xorasanda suvarma əkinçiliyi qədim zamanlardan Sırdərya, Amudərya, Murqab, Atrek və b. çayların vasitəsilə mümkün idi. Bu çaylardan çəkilmiş kanallar, kanallardan arxlar əkinçiliyin müxtəlif sahələrinin inkişafını tə'min edirdi. Bu isə astronomiyaya, praktiki həndəsəyə və başqa dəqiq elmlərə zərurət yaratmışdı. Ona görə də Mərkəzi Asiyada qədim yunan və qədim hind dəqiq elmləri ilə əlaqədə bir sıra elm sahələri inkişaf etmişdi. Əslən Xarəzmli olan Məhəmməd ibn Musa əl-Xarəzmi (VIII əsrin II yarısında doğulmuş, IX əsrin 40-cı illərində ölmüşdür) məşhur riyaziyyatçı idi. IX əsrin əvvəllərindən Bağdadda xəlifə Mə'munun sarayında yaşamış bu Mərkəzi Asiyalı mütəfəkkir astronomiya, coğrafiya, riyaziyyat elmləri üzrə çoxlu əsərlər yazmışdır. Onun "Əl-Cəbr" əsəri orta əsrlərdə şərq ölkələrində məşhur idi və hələ o vaxt latın dilinə tərcümə edilmişdi. Latın dilində onun adı "Alkaritmi" ("əl-Xarəzmi" adının fonetik forması) kimi tərcümə edilmiş və sonra da "laqorifm" şəklinə düşmüşdür. Müasir triqonometriyada "laqorifm" anlayışı məhz "əl-Xarəzmi" adından təhrifdir. IX əsrdə Mərvdən çıxmış Həbəş adlı astronom 832-ci ilə qədər astronomik cədvəllərin üç növünü tərtib etmişdi.

Xarəzmdə yetişmiş digər mütəfəkkir türk Əbu Reyhan Biruni əl-Xarəzmi idi (973-1048). Əsərlərini ərəb dilində yazmış bu alim indiki Əfqanıstanda Qəznə şəhərində yaşamışdır. Ensiklopedik biliyə malik olan Biruni fəlsəfə, tarix, coğrafiya, riyaziyyat, astronomiya, minerologiya, fizika və b. elmlər sahəsində 150-yə qədər iri həcmli əsərlər yazmışdır. XIII əsr ərəb coğrafiyaçısı Yaqut Həməvi yazır ki, Mərv şəhərində Biruninin əsərlərinin adlarının 60 səhifəlik siyahısını görmüşdür.

Nəhayət, XI əsrdə yetişmiş bir mütəfəkkiri də qeyd etməliyik. O, Qiyasəddin-Əbülfəth ibn-İbrahimdir (1048-1122). Qiyasəddin bütün dünyada "Ömər Xəyyam" adı ilə məşhurdur. Nişapurda doğulmuş Ömər Xəyyam bir fikrə görə



əslən tacik, digər fikrə görə isə türkdür. O, Səmərqənd və Bəlxdə təhsil almışdır. Qiyasəddin cəbr, astronomiya, riyaziyyat, fəlsəfə və tarixlə məşğul olmuş, külli miqdarda əsərlər yazmışdır. Onun dərin fəlsəfi mə'nalı rübailəri bütün dünyada məşhurdur.

X əsrdə Mərv şairi, əslən türk Mə'sudi Mərvazi xalq eposu əsasında "Şahnamə" adlı əsər yazmışdır. Bu əsərdən yalnız fraqmentlər qalmışdır. Sonralar bu əsərdən Xorasanlı, Tus şəhərində doğulmuş, mənşəcə fars olan Firdovsi (934-1027) istifadə etmiş və onun əsasında 120 min beytlik məşhur "Şahnamə" poemasını yazmışdır. Firdovsinin Mahmud Qəznəvi dövründə yaşaması və ona həcv yazması orta məktəb dərsliyindən mə'lumdur.

Mərkəzi Asiyanın ən böyük alimlərindən biri ibn Sina (Avropa ölkələrində orta əsrlərdə "Avisenna" kimi məşhur idi) olmuşdur. İbn Sinanın tam adı Əbu Əli Hüseyn ibn Abdullahdır (980-1037). O, Buxara yaxınlığında Əfşanak kəndində doğulub və Cənubi Azərbaycanda Həmədan şəhərində vəfat edib. İbn Sina tibbə dair 5 cildlik "Əl-Qanun fit tibb" (Tibb elminin qanunu) əsərinin müəllifi kimi məşhurdur. İbn Sinanın əsəri xalq təbabətindən onunla fərqlənir ki, o, şərqdə ilk və yeganə cərrah idi. Mə'lumdur ki, islam dininə görə ölünü yarmağa icazə verilmirdi. İbn Sina öz tələbələri ilə gecələr gizlin döyüş yerlərinə gedib ölü gətirir və gecə çıraq işığında səhərədək onu yarır, öyrənir, eyni vaxtda tələbələrinə diktə edirdi. Səhərə yaxın ölünü, camaatın gözündən kənarda aparıb basdırırdılar. Bu proses illərlə davam etmiş və İbn Sina ölülər üzərində apardığı saysız cərrahiyyə əməliyyatları əsasında insanın bütün daxili əzalarının ətraflı təsvirini vermişdir. Rəvayət vardır ki, İbn Sina hətta müxtəlif xəstəliklərdən ölmüş adamların meyitlərini də gecə çıxardır, yarır və onların xəstəliklərinin səbəblərini öyrənirdi. Başqa yol yox idi. İbn Sina böyük anatom idi. Ümumiyyətlə, İbn Sinanın elmin müxtəlif sahələrinə dair 250 iri həcmli əsəri qalmışdır. Onun Buxarada Azərbaycan heykəltəraşı Fuad Əbdürrəhmanov tərəfindən düzəldilmiş heykəli qoyulub.

Samanilər dövründə Mərkəzi Asiyada bir sıra şairlər də yetişmişdir. Buxarada doğulmuş Rudəki Səmərqənd yaxınlığında, indi Pənc-Rudək (tacik dilində "Beş kiçik çay" deməkdir) adlanan kənddə doğulmuş və ona görə Rudəki təxəllüsünü götürmüşdür. Onun tam adı Əbu Əbdullah Cəfər ibn Məhəmməddir (860-941). Rudəki Samanilərdan Nəsir ibn Əhmədin sarayında "Məlik üş-şüəra" (şairlərin məliki, başçısı) olmuşdur. Onun 130 min beytlik əsərləri olmuşdur. Maraqlısı odur ki, Rudəki anadangəlmə kor idi. Lakin ömrünün sonunda, qoca vaxtında o, sürgün edilmiş, çox yoxsul vəziyyətdə ölmüş və elə doğulduğu kənddə də dəfn edilmişdir (onun qəbri üstündə 1100 illiyi münasibətilə qoyulmuş məqbərənin, Daşkənddə heykəlinin müsabiqə əsasında müəllifi Azərbaycan heykəltaraşı Fuad Əbdürrəhmanov olmuşdur).

Rudəkinin istəkli şagirdi mənşəcə türk Şahid Bəlxi idi. O, kasıb ailədə doğulsa da, çox iste'dadlı idi. Lakin Şahid müəllimindən də tez ölmüşdü. Onun bir şe'rində belə beyt var: "Alimlik və var-dövlət nərgiz gülü və qızıl gül kimidir, yanaşı əkiləndə onların heç biri gül açmırlar. Kimdə elm var - onun var-dövləti olmaz, kimin varı var - onda elm olmaz". Gözəl və dərin mə'nalı sözlərdir!

Bu dövrdə Mərkəzi Asiyada fəlsəfə də inkişaf etmişdi. Mənşəcə türk olan Əbu Nəsir Məhəmməd ibn Məhəmməd ət- Türki (870-950 ) adlı filosof elmdə Fərabi adı ilə məşhurdur. Fərab onun doğulduğu kəndin adıdır. Fərab isə Sırdəryanın orta axınında qədim bir yaşayış məntəqəsinin adıdır. Öz doğma kəndində ilk təhsil aldıqdan sonra Əbu Nəsir Buxara, Dəməşq və Bağdadda ərəbcə oxumuşdur. Fərabi ensiklopedik biliyə malik idi. Onun fəlsəfə və məntiqə dair külli miqdarda əsərləri vardır. Onun ərəbcə yazılmış irsi İbn Sina, Bəhmənyar, Nizami Gəncəvi, Nəsirəddin Tusi və bir çox Şərq dahiləri üçün bilik xəzinəsi olmuşdur.

Qədim türklərdə elm və mədəniyyətin inkişafından danışarkən Volqaboyu Bulqar dövlətinin mədəniyyəti haqqında da demək lazımdır. Mə'lum olduğu kimi, X əsrin 60-cı illərində Xəzər xaqanlığı süqut etdikdən sonra Bulqar dövləti müstəqillik qazanmış və bu dövlət XIII əsrdə monqol işğallarına qədər



yaşamışdır. X əsrin əvvəllərində Bulqar dövləti ilə uzaq Bağdad xəlifəliyi arasında mədəni və ticarət əlaqələri yaranmışdı. Bu əlaqələr ona gətirib çıxarmışdı ki, 922-ci ildə xəlifənin xüsusi bir elçi dəstəsi Bulqara gəlmişdi. Səfirliyin başında İbn Fədlan adlı savadlı ərəb alimi dururdu və o, sonra həmin səfərin hesabatını yazmışdır. Xəlifə Bulqar xanına xüsusi məktub göndərmiş və islam dinini qəbul etməyi təklif etmişdi. Bulqar xanı və onun çağırışı ilə bütün bulqarlar islam dinini qəbul etmişdilər. Bu isə yazısı olmayan bulqarlarda və bulqarlara tabe olan başqa xalqlarda (məsələn, indiki başqırdların ulu əcdadları içərisində) islam dini ilə bərabər islam mədəniyyətinin yayılmasına səbəb olmuşdu. Bulqarların indiki nəsilləri olan Tatarıstan tatarlarının müsəlmanlığı da məhz o vaxtdan başlanır. İslam dinini qəbul edənədək bulqarların dini görüşləri ibtidai icma dinləri sayılan şamanizm, totemizm, animizm və s. idi. Bu barədə İbn Fədlan ətraflı mə'lumat verir. O yazır ki, bulqarların müqəddəs, toxunulmaz hesab edilən meşələri, ağacları, bulaqları vardır. Bulqar belə hesab edir ki, onu hər tərəfdən ruhlar əhatə edir: dağın ruhu, ağacın ruhu, suyun, yerin (torpağın) ruhu və s. və həmin ruhların çoxu insana zərər toxundurur, bütün insan bədbəxtliklərinin kökü də bundadır. Bu ruhlara qarşı mübarizə üçün insan müxtəlif muncuqlardan istifadə etməlidir (Burada azərbaycanlılarda pis ruhlara və gözdəyməyə, yaxud bədnəzərə qarşı uşaqların yaxalarına tikilən və qollarına bağlanan müxtəlif muncuqlar yada düşür). İbn Fədlan xüsusi olaraq qeyd edir ki, bulqarlarda bə'zi heyvanlar müqəddəs hesab edilir. Bu isə totemizm dininin səciyyəvi cəhətidir.

İslam dini qəbul ediləndən sonra bu ayinlər tədricən aradan qalxmağa başlamış və bulqarlarda islam mədrəsələri açılmışdı. X əsr ərəb müəllifləri yazırlar ki, bulqarların şəhər və kəndlərində çoxlu məscidlər vardır. Ərəbcə təhsil almış türk bulqarlar Mərkəzi Asiyanın elmi ilə tanış ola bilirdilər. Ona görə XI əsrin axırlarında və XII əsrin əvvəllərində bulqarlarda yerli boqoslov (ruhani alim) və elm nümayəndələri yetişmişdi. Bulqar şəhərində Yaqub ibn Norman adlı alim XII əsrdə "Bulqarların tarixi" adlı iri həcmli tarixi əsər

yazmışdı. 1135-ci ildə İspaniyadan mənşəcə ərəb olan mütəfəkkir Əndəlusi onun yanına gəlmişdi. Bulqar şəhərində Burhanəddin İbrahim ibn Yusif Bulqari adlı alim məntiq, fəlsəfə və təbabət haqqında çoxlu əsər yazmışdı.

VIII-X əsrlərdə Mərkəzi Asiyada islam dininin qərarlaşması ilə şəhərlərdə və iri yaşayış məntəqələrində dini müəssisələr - məscidlər, movzoleylər, mədrəsələr tikilirdi. Bu dini binaların arxitektura ansamblı, dekorativ bəzəyi yerli xalqların əsrlərin dərinliklərindən gələn inşaat mədəniyyətini təcəssüm etdirirdi. Belə binaların dekorativ bəzəkləri çox vaxt kaşıdan ərəb kufi yazısının ornamentvari verilməsindən ibarət olurdu. Dini binaların tikilməsi dini məktəblərin açılmasına və nəticə e'tibarilə uşaqların oxumasına və savadlanmasına gətirib çıxarırdı. IX-XII əsrlərdə Mərkəzi Asiyada məşhurlaşmış bütün mütəfəkkirlər məhz əvvəlcə mollaxana və mədrəsələrdə oxumuşdular.

***Adət-ən'ənələr.*** Qədim türklərin adət-ən'ənələri haqqında Çin, Bizans və ərəb mənbələrində az da olsa mə'lumatlar vardır.

Bir Bizans mənbəsində 572-ci ildə məşhur sərkərdə İstəminin dəfninin təsvirini verilmişdir və burada türklərin "mavi səmanın ruhuna" (sözsüz burada Tenqri nəzərdə tutulur) sitayiş etdikləri yazılmışdır. Həmin mənbədə qeyd olunur ki, İstəmi dəfn olunanda onun sağlığında istifadə etdiyi atları və 4 nəfər qulu da "ruhuna qurban kəsdilər". Elçilərin özləri də adətə görə yas əlaməti olaraq yanaqlarını çərtməli və qan axıtmalı olublar. Maraqlıdır ki, Xarəzmdə arxeoloji qazıntılar zamanı üstündə yanaqlarını cırmaqlayan qadın təsviri olan saxsı qab tapılmışdır. Ümumiyyətlə, mərhumun cənazəsi üstündə yanaqlarını cırmaqlamaq adəti (bu adət indi də rayonlarımızda vardır) qədim türkmənşəli adətidir - bunu bütün tədqiqatçılar təsdiq edirlər.

Çin mənbəyi "Tak-şu"da sıravi türkün dəfn mərasimi belə təsvir olunmuşdur: mərhumu ona məxsus bütün şeyləri və atı ilə birlikdə yandırıb, sümüklərini və külünü dəfn edir və mərhumun qəbri üstündə onun döyüşlərdə öldürdüyü düşmənlərinin sayı qədər daş düzürdülər. İstəmi üçün mə'bəddə



169 vertikal basdırılmış daş qoyulmuşdu (belə daşlara qədim türklər "balbala" deyirdilər). Bu göstərirdi ki, İstəmi döyüş meydanlarında təkbətək döyüşlərdə 169 nəfər adam öldürmüşdür (Maraqlıdır ki, Azərbaycan arxeoloqu Fazil Osmanov İsmayıllı rayonu ərazisində eradan əvvəl II əsrə aid bir alban qəbri açmış və mərhumun skeletinin ətrafında 52 kiçik çay daşı düzüldüyünü müəyyən etmişdir). Bizans tarixçisi Feofilakt Simokatta yazır ki, türklər göy allahına sitayiş edirlər. Şübhəsiz ki, bu indi də işlətdiyimiz Tanrı allahıdır. Qədim türklərdə bu allahın adı "tenqri" kimi tələffüs olunurdu.

Qədim türk mədəniyyətində daş heykəllər mühüm yer tutur. Çox hallarda kişi heykəlləri olan bu abidələr müasir Tuva və Dağlıq Altayda geniş yayılmışdır. Kişi sağ əlində döşünün səviyyəsinə bir qab tutmuş vəziyyətdə təsvir olunur. Əhəmiyyətli cəhət odur ki, daş heykəldə kişinin antropoloji (irqi tipi), geyimi, baş geyimi və belindən asdığı silahı və s. dəqiq verilmişdir. Həm də heykəldə təsvir olunan əşyalar qəbirdə də tapılmışdır. Aydındır ki, daş heykəllər ancaq tayfa başçıları üçün düzəldilirdi. Kişinin sağ əlində qab tutması isə şamanizm dini ilə əlaqədar idi. Türk xalqlarında şamanlar bu və ya digər ayini icra etdikdə müxtəlif içkilər doldurulmuş qablardan istifadə edirdilər.

Hazırda Mərkəzi Asiya, Mərkəzi Asiya və Cənubi Sibirdə (erkən orta əsrlərdə) qədim türk tayfalarında xaqanların, tayfa başçılarının və məşhur sərkərdələrin üç dəfn tipi aşkar olunmuşdur: 1.Kurqan dəfnləri. Ölünün yandırılması ya da keçə və ya xalçaya bükülüb qoyulması. Bu tip VI-X əsrləri əhatə edir. Həm də bu kurqanlarda ölü həm atla və həm də atsız da dəfn olunub; 2.Daş heykəllər və daş sütunlar olmaqla daş hasarlı qəbirlər; 3.Üstündə yazılı daşlar olan qəbirlər.

Arxeoloji qazıntılar göstərir ki, ölünün yandırılması adəti IX-X əsrlərə qədər (islama qədər) davam etmişdir.

Mə'lum olduğu kimi, qədim türklərdə yazı VI-VII əsrdə yaranmış, sonra da onu ərəb əlifbası sıradan çıxarmışdır. Həm də qədim türk tayfalarının əsas məşğuliyyəti maldarlıq olduğuna görə yazılı ədəbiyyat geniş vüs'ət tapa bilməmişdir. Doğrudur, VIII əsrdən sonra islam dinini qəbul etmiş bir sıra

türk xalqları eyni zamanda ərəb yazısına da keçmişdilər, lakin bu ancaq şəhərlərdə və iri yaşayış məntəqələrində mollaxana və mədrəsələrdə təhsil ilə əlaqədar idi. Maldar tayfalar bundan kənarda idilər. Ona görə də qədim türk tayfalarında şifahi xalq ədəbiyyatı janrları isə zəngin idi. Qədim türklərin mifologiyası hələ Kül-Tiqinin və Bilgə xaqanın şərəfinə yazılı sütunlarda əksini tapmışdır. Bu mifologiyaya görə əvvəlcə "mavi göy (səma)" və "boz yer", sonra isə onların arasında "insan oğlu" yaranmışdır. Qədim türklərin inamına görə "mavi göy" dünya üzərində bir qapaqdır ki, orada hər gün Günəş və Ay doğur. Qədim türklər Günəşə sitayiş edirdilər. Xaqanların alaçıqlarının qapıları yalnız Günçıxana (yə'ni şərqə) açılmalı idi və hətta fəsillərin dəyişməsilə Günəşin çıxma və qürub etmə nöqtələri dəyişdikcə alaçığın qapısının istiqaməti də dəyişdirilirdi. X əsrə aid bir qədim türk abidəsində ("Yozmalar kitabı"nda) deyilir ki, üç dünya var: yüksək (yuxarı), orta və aşağı dünya. Tenqri məhz yuxarı dünyaya mənsubdur. Tenqri - mavi səmanın və bütün ulduzlar aləminin yaradıcısıdır. Qədim türklər göy allahının - Tanrının şərəfinə mə'bədlər tikir və türk silahı, türk qüdrəti üçün ona qurban kəsir və dua edirdilər. İnama görə Günəşin və Ayın özü də canlıdır, səmadan doğulurlar (Azərbaycan dilində "Günəş doğdu", "Ay doğdu" ifadələrini xatırlayın).

Qədim run yazılarında bir türk ilahəsinin adı çəkilir - Umay. (Azərbaycanın şifahi xalq ədəbiyyatında və klassiklərimizin - Xaqani, Nizami, Nəsimi və b. əsərlərində Humay kimidir, yə'ni sözün əvvəlinə "H" səsi əlavə olunub). Umay hamilə qadınların və körpələrin himayəçisi sayılırdı. Lakin bə'zi rus tədqiqatçıları Yaxın Şərq ölkələri xalqlarının folklorunda geniş yayılmış Umay-Humay ilahəsinin mənşəcə İrandan götürülmə olduğunu yazırlar. Bu açıq-aydın elmdə türklərə qarşı qərəzli münasibət deyilmi? VII əsrin ortalarında Altayda türk run yazılarında əksini tapmış Umay ilahə adı nəyə görə və nə vaxt İrandan götürülməli idi? Axı məsələnin bu cəhəti də var ki, qədim türk mifologiyasına görə Umay xatun Tenqrinin arvadıdır.



Qədim türklərdə Yer və Su Allahları da vardı və mifologiyaya görə onlar Orta dünyaya mənsubdurlar. Su ilahəsi, su pərisi göyərçin şəklində təsvir edilirdi ("Kitabi Dədə Qorqud"da da su pəriləri göyərçinlərdir və onlar gözəl qızlara dönürlər. Qaraca Çoban bir dəfə məhz bu su pərilərinin birinə rast gəlmiş və ondan oğuzların başına min bəla gətirən adamyeyən Təpəgöz doğulmuşdu, çünki türk inamına görə insan Su və Yer ilahəsi ilə ailə qura bilməz və qurmamalıdır).

Nəhayət, üçüncü dünya (buna "erkliq" deyilirdi) insanların yaşadığı dünyadır.

Qədim türklərdə oda sitayiş edilirdi. İnama görə od hər şeyi yandırdığına görə "təmizləyici" xüsusiyyətə malikdir. Ona görə ölüləri yandırırdılar ki, od axirət dünyası üçün onları bu dünyada etmiş olduğu günahlardan təmizləsin (Orta əsrlərdə inkivizisiya məhkəmələrinin qabaqcıl fikirli alimləri, məsələn Cordano Brunonun tonqalda yandırılması faktı ilə müqayisə edin. Xristian dininə görə od həmin adamı dinə zidd fikirlərdən təmizləyir). Təsadüfi deyil ki, xaqanların yanına başqa ölkələrdən gələnləri alaçığın qapısında qalanmış iki od arasından keçirirdilər ki, onun pis niyyəti təmizlənsin (Bunu azərbaycanlılarda Novruz bayramında uşaqların odun üstündən tullanması və yaxud Novruz axşamı balalı inəyi, camışı iki od arasından keçirtmək adəti ilə müqayisə edin, bunu ona görə edirdilər ki, bu mal-qaraya dəymiş və deyəcək bəd nəzər yansın). Qeyd edilməlidir ki, Mərkəzi Asiya türk xalqları içərisində təntənə ilə keçirilən yaz (bahar) bayramı Novruz da vardı. Bu bayramın geniş təsvirini hələ yuxarıda haqqında danışdığımız Əbu Reyhan Biruni vermişdir. Biruni Novruz bayramı haqqında xüsusi əsər yazmışdır və əsər dövrümüzə gəlib çatmışdır. Biruni qeyd edir ki, Novruz bayramını türk xalqları qədim zamanlardan bayram edirlər. Daha sonra Novruz bayramı haqqında Ömər Xəyyam da xüsusi əsər yazmışdır. İlk dəfə məhz Ömər Xəyyam Novruz bayramınm mahiyyətini açmış və yazmışdır: "Kim Novruz gününü bayram etsə və şənlik keçirsə, növbəti Novruz gününə qədər günü şən keçəçək və şövq, ləzzət alacaqdır".

Qədim türklərin öz təqvimləri vardı və 12 ili əhatə edən ilin hər ili bir heyvan adı ilə (at ili, qoç ili, ilan ili, sıçan ili, meymun ili və s.) adlanırdı. Bu təqvimin hunlarda hələ də istifadə olunması mə'lumdur.

---

[1] *Mənbələrə görə vuruşma ərəfəsində Alp Arslanın ordusu Bizans ordusundan qat-qat az idi. Alp Arslan döyüşü qəbul etməyə məcbur idi, ona görə ki, onun sülh təklifini imperator rədd etmişdi. Qarşıda iki çıxış yolu vardı: ya təslim olmalı və qula çevrilməli, ya da döyüşə razılıq verməli idi. Sultan ordusu ilə məsləhətləşdi. Ordu biabırcasına təslim olmaqdansa döyüş meydanında ölməyi üstün tutdu. Alp Arslan döyüş ərəfəsi namaz qılmış və sonra göylərə baxaraq ağlamışdı. Ölüm-dirim döyüşü vaxtı Bizans ordusunun tərkibində olan peçeneqlər oğuzların "Vura! Vura!" (rus dilindəki "ura" sözündə qalmışdır) nərələrini eşidib oğuzların türk olduqlarını yə'qin etdikdə Alp-Arslanın tərəfinə keçmiş və beləliklə vuruşmanın oğuzların xeyrinə qələbə ilə nəticələnməsi tə'min olunmuşdu.*

[2] *Alp Arslan imperatora sülh danışığı təklif etmişdi. Lakin imperator yekəxanalıq edərək tələb etmişdi ki, onda oğuzlar atlarını və silahlarını təhvil verməli, özləri qul olmalıdırlar. Alp Arslan belə şərtə razılaşmamış və qanlı döyüşə razılıq vermişdi. Vuruşmada Bizans ordusu məğlub olmuş və imperator arvadı ilə əsir düşmüşdü. Alp Arslan imperatora bir şillə çəkmiş və söyüş söymüşdü. Onda imperator Sultanı söyüş söyməkdə düzgün hərəkət etmədiyini dedikdə Alp Arslan onun doğru dediyini başa düşmüş və üzr istəmiş, özlərini də azalığa buraxmışdı - red.*

[3] *Rəvayətə görə Osman bir dəfə bir mö'min müsəlmanın evində olarkən səhərədək ayaq üstə duraraq Qurani-Kərimi oxumuşdur. Səhərə yaxın onu yuxu tutmuş və yuxuda mələk ona demişdir ki, sənin uşaqların və onların uşaqları hakimiyyətdə olacaqlar - red.*

[4] *Лорд Кинрос. Расцвет и упадок Османской империи. М., 1999, с. 63.*

[5] *Yenə orada, s. 81.*

[6] *Bu hökmdar möhüründə gəzdirdiyi zəhəri udan kimi qəflətən yıxılıb ölmüşdür - Red.*

[7] *Qədim türklərdə inama görə od təmizləyici qüvvə olmaq e'tibarilə bə'zi adamların pis niyyətlərini (və bəd nəzərlərini) "məhv" edir - red.*



---

[8] *Бернштам А.Н. Социально-экономический строй Орхоноенисейских тюрок VI-VIII веков. Л., 1946.*

[9] *Qurdun qədim türklərdə totem olması ilə bağlı məsələlər prof.Süleyman Əliyarovun redaktəsi altında çap olunmuş "Azərbaycan tarixi" dərsliyində ətraflı şərh olunmuşdur.*

[10] *Bu barədə ətraflı mə'lumat üçün bax: Джафаров Ю.Р. Гунны и Азербайджан. Баку, 1985. Şübhəsiz ki, bu tayfa adları yunan dilində verildiyinə görə müəyyən qədər təhrifə uğramışdır.*

[11] *Qədim türk dillərində munçuk yaxud bunçuk "bayraq" mə'nasındadır.*

[12] *Attilanın qəflətən ölməsinin səbəbi mə'lum deyil. Onun sevdiyi İldikonun atasının başını Attila kəsmişdi. Ehtimal olunur ki, qız məhz ona görə də Attilanı zəhərləmişdir. Mənbələrə görə toy günü Attila çox şərab içmiş, çox yemək yemiş və tam sərxoş halda xüsusi çadırda gərdəkinə keçmişdi. İki gün Attilanın gərdəkdən çıxmadığını görən keşikçilər içəri girdikdə Attilanın öldüyünü, İldikonun isə elə gəlinlik paltarında küncdə oturub ağladığını görmüşdülər. Mənbələrdə deyilir ki, Attilanın tez-tez burnundan qan açılırdı. Həmin gecə isə onun ağzından çoxlu qan gəlmişdi. Ona görə də, keşikçilər Attilanın yatağının qanlı olduğunu da görmüşdülər. Attilanın basdırıldığı yer mə'lum deyil. Ehtimal edilir ki, o indiki Macarıstan ərazisində dəfn olunmuşdur. Bir mənbəyə görə cənazəni iç-içə qoyulmuş qızıl, gümüş və dəmirdən ibarət tabutlara qoyub dəfn etmişlər - red.*

[13] *Bu barədə bax: Г.А.Гейбуллаев. Топонимия Азербайджана. Баку, 1986.*

[14] *N.A.Baskakova görə başqa qədim türk dillərindəki "q" peçeneqlərin dilində "y" kimi tələffüz olunurdu.*

[15] *Bu barədə bax: Kemal Anadol. Mərkəzi Asiya türk devletleri tarihi. İstanbul, 1996, s.209-214.*

[16] *Bu barədə ətraflı mə'lumat üçün bax: С.А.Плетнева. Половцы. М., 1990.*

[17] *Bu dövlət barədə bax: Бартольд В.В. Кимаки. Соч. Т.V. М., - 1968.*

[18] Народы Дагестана. М., 1955, с.126.

[19] Баскаков Н.А. Введение в изучение тюркских языков. Л., 1969, с. 228.

[20] "Avesta" və zərdüşt dini ilə əlaqədar məsələlər barədə bax: Играр Алиев. Несколько замечаний на Авестологическую тему (Статья 1) // Tarix və onun problemləri, 1998, №1; Несколько замечаний на Авестологическую тему (Статья II) // Tarix və onun problemləri, 1998, №3; Несколько замечаний на Авестологическую тему (Статья III) // Tarix və onun problemləri, 1998, №4.

[21] Brahmanizm dini Hindistanda e.ə.I minilliyin birinci yarısında yaranmışdır. Bu dinə görə bütün maddi aləmin əsasını allah Brahma təşkil edir. Brahmanizmə görə cəmiyyətin kastalara, yə'ni təbəqələrə və zümrələrə bölünməsi zəruri və vacibdir, çünki bu allah Brahmanın işidir.

[22] Bu din barədə bax: Кочетов А.Н. Буддизм. М., 1968.

[23] Сагалиев А.М. Мифология и верования Алтайцев. Центрально-Азиатские влияния. Новосибирск, 1984.

[24] Bu barədə bax: Петрушевский И.П. К истории маздакитов в эпоху господства Ислама // Народы Азии и Африки, 1970, № 5.

[25] Шер Я.А. Петроглифы Средней и Центральной Азии. М., 1980, с.37.

[26] Bu barədə bax: Килуновская М.Е. Интерпретация образа оленя в скифо-сибирском искусстве. Сб.: "Скифо-Сибирский Мир". Новосибирск, 1987.

[27] Azərbaycanda türkoloji ədəbiyyatda bu sözü runi ("run" sözündən və farsca məxsusiyyət bildirən "i" şəkilçisindən) kimi verirlər. Biz bu dərslikdə bu sözü "run" formasında verməyi qərara aldıq - müəllif.

[28] Azərbaycanlı tədqiqatçıların (F.Cəlilov, Q.Qeybullayev) yazdıqlarına görə Fars Əhəmənilər sülaləsinin hakimiyyətinə qarşı üsyan etmiş Qaumatanın adı əslində Qam-Ata olmuşdur.



# IV HİSSƏ

# SON ORTA ƏSRLƏR TÜRKÜSTANDA VƏ QAZAXISTANDA TÜRK DÖVLƏTLƏRİ

## *I fəsil*

## *MONQOL İŞĞALLARI. MONQOL İMPERİYASININ YARANMASI*

### *§1. Monqol işğalları. Monqol imperiyasının yaranması*

Altay dil ailəsinin Monqol qoluna mənsub dillərdə danışan monqol (özünüadlandırması "manqol") tayfalarının anayurdu indiki Monqolustan və Rusiyanın tərkibində olan Buryat Monqol Muxtar Respublikasının əraziləridir. Tarix boyu monqollar türk tayfaları ilə təmasda yaşamışlar. XII əsrin əvvəllərindən başlayan monqol işğallarında tabe edilmiş ətraf ölkələrin türkmənşəli tayfaları mühüm rol oynadıqlarına və sonra bir sıra qədim türk xalqlarının yaşadıqları ərazilərin Monqol imperiyasına qatıldığına görə tarixşünaslıqda həmin imperiyanın tarixi türk xalqlarının tarixi çərçivəsində tədqiq olunur.

XII əsrdə ictimai-iqtisadi inkişaf səviyyələrinə görə monqollar Mərkəzi Asiyanın ən geridə qalmış xalqlarından biri idilər. B.Y.Vladimirtsev "Monqolların ictimai quruluşu" adlı əsərində yazır ki, monqollar o vaxt yalnız maldarlıq və ovçuluq ilə məşğul idilər, onlarda feodal torpaq münasibətləri inkişaf etməmişdi. Cəmiyyətin yuxarı zümrəsini maldar noyonlar (bəylər) təşkil edirdi. Onların böyük mal-qara sürüləri vardı. Deməli, monqollarda cəmiyyətin əsas hissəsi sıravi köçərilərdən ibarət idi. Monqol tayfaları qonşu ölkələrə basqınlar təşkil edir, tutduqları əsirləri evlərində qul kimi işlədirdilər.

Qədim türk tayfaları kimi monqollar da tayfa və qəbilələrdən ibarət idilər. Yazıları olmadığına görə onlar başdan-başa

savadsız idilər. Qeyd edilməlidir ki, Monqol imperiyasının özülünü qoymuş Çingiz xanın özü də oxumaq və yazmaq bilmirdi. Yalnız Monqol dövləti yaranandan sonra onlar türk uyğurların əlifbasını mənimsəyib işlədirdilər. XII əsrin axırlarında Böyük Çin səddindən Baykal gölünə qədərki geniş ərazidə yaşayan türk-monqol tayfaları (tatar, nayman, kereit, merkit, cəlair, manqut və s.) içərisində və Monqolustanda feodal-patriarxal münasibətlərin təşəkkülü və sinfi mübarizənin inkişafı ilə bağlı olaraq yeni tayfa birləşmələri yaranmağa başladı.

Monqol tayfa ittifaqının, sonra da Monqol imperiyasının banisi olan Çingiz xan 1155-ci ildə (bə'zi mənbələrə görə 1157-ci ildə) Monqolustanın Onon çayının sağ sahilində Dulun-Boldak adlı yerdə doğulmuşdur. Onun əsil adı Temuçindir, lakin bu adın mə'nası mə'lum deyil. Monqol mənbələrində deyilir ki, "Temuçin" Çingiz xanın atası Yesuqay bahadurun uşaq doğulmamışdan əvvəl məğlub etdiyi bir tayfa başçısının adı olmuş və atası həmin igidin adını oğluna qoymuşdur. Monqol rəvayətlərinə görə uşaq ovucunda qurumuş qan tikəsi ilə doğulmuşdur. Yenə də monqol rəvayətlərinə görə Çingizin atası Yesuqay Kiyat adlı monqol tayfasındandır. O, 1167-ci ildə öləndə Temuçinin 12 yaşı vardı. Atası tərəfindən yaradılmış tayfa birləşməsi dağılmış və hamı Yesuqayın ailəsini tərk etmişdi. 12 yaşlı Temuçin, kiçik qardaşları və anası ovla və balıq tutmaqla bir təhər dolanmalı olmuşlar. Temuçin əvvəlcə igidlik axtaran kiçik bir dəstənin başında durmuşdu. Rəvayətə görə dəstənin üzvləri onu özlərinə "xan" seçdikdə demişlər: "Sən bizim hökmdar olanda çoxsaylı düşmənlərlə döyüşlərdə biz qabaq cərgələrdə vuruşacağıq, əgər gözəl qızlar və arvadlar, həm də atlar ələ keçirsək, sənə verəcəyik". Monqolların tarixini yazmış XIV əsr tarixçisi Rəşidəddin yazır ki, Çingiz xan gənclikdə xoşbəxtliyi məğlub edilmiş padşahların atlarını minib çapmaqda və onların arvadlarını öpməkdə görürdü". Çingizi şəxsən görmüş Çin müəllifi Men Xunun yazdığına görə o, hündür boylu, geniş alınlı, uzun saqqallı idi. Ərəb müəllifi Cuzcani bunu da əlavə edir ki, onun gözləri pişik gözlərinə oxşayırdı, çox dəhşətli



baxışı var idi. Qəddarlığı, barışmazlığı və hərbi şücaəti mənsub olduğu tayfanın adamları içərisində onun nüfuzunu qaldırmışdı. At çapmaqda, ox atmaqda və əlbəyaxa savaşda çox bacarıqlı, yaşıl qıyıq gözlü, dəhşətli baxışlı bu adam düşmənlərinin canına qorxu salmışdı. Rəşidəddin qeyd edir ki, Çingiz cavanlıqda üstünə düşmüş 6 düşmənin altısını da əlbəyaxa qılınc savaşında öldürüb atlarını götürüb aparmışdır. Çingiz deyirmiş ki, Göy allahı onun təsadüfi ölümünə heç vaxt razı ola bilməz. Özünün yaratdığı hərbi dəstənin başçısı kimi şəxsi igidliyi sayəsində Temuçin rəqiblərini məğlub edirdi. 1203-cü ildə o, kereit adlı monqol tayfa birləşməsini dağıtdı. Kereitlərin bir hissəsi qərbə köçərək Şərqi Qazaxıstanda yerləşdi. Qızğın döyüşlərdə Temuçin nayman tayfasının müqavimətini qırdı. Naymanların bir hissəsi Kuçluk xan başda olmaqla Çin Türküstanına getdi. 1206-cı ildə ə'yanların qurultayında Temuçin monqol tayfalarının xanı e'lan edildi və "Çingiz xan" ləqəbini qəbul etdi. Çingiz "qüvvətli" (monqol dilində Çinq "qüvvət", "güc" sözündən) mə'nasındadır. Həmin ildə o, min nəfərlik qvardiyasını yaratdı. Qvardiya "Keşik" adlanırdı. Bundan sonra monqolların ətraf ölkələrin işğalı prosesi başlandı. Qeyd etmək lazımdır ki, rus mənbələrində monqollar "tatar" adlandırılır və rus tarixşünaslığında "tatar-monqol" ifadəsi işlədilir. Əslində tatar tayfası monqol mənşəli yox, türkmənşəli tayfadır. Bu tayfanın adı VIII əsrə aid Orxon run yazılarında çəkilir. Çin mənbələrində tatarlar üç qismə bölünür: ağ tatarlar, qara tatarlar və vəhşi tatarlar. Ağ tatarlar Böyük Çin səddi yaxınlığında, qara tatarlar Qobi səhrasının şimalında, vəhşi tatarlar isə indiki Monqolustanın şimal hissələrində və Baykalətrafı ərazidə yaşayırdılar. Bə'zi tədqiqatçılar belə hesab edirlər ki, tatarlar və monqollar uzun müddət qonşuluqda yaşadıqlarına görə monqolların bir hissəsi özlərini tatar adlandırmışdır. Çingiz xan məhz "qara tatar" adlanan monqol tayfasından olmuşdur. V.V.Bartold yazır ki, "monqol" adı yalnız Çingiz xan dövründə dövlətin və sonra da xalqın adı kimi işlənməyə başlanmışdır. Lakin Şimali Monqolustanda və Cənub-Qərbi Sibirdə yaşayan tatarlar ilk vaxtlardan monqolla-

rın tərkibində ən çox Rusiya və Cənub-Şərqi Avropa ölkələrinə hərbi səfərlərdə və işğallarda iştirak etdiklərinə görə "tatar-monqol" ifadəsi yaranmışdır. "Monqol" etnoniminə gəldikdə bu ad Altay dil ailəsinə mənsub qədim bir etnik birliyin özünüadlandırması, yə'ni etnik adıdır. Ona görə Rus tarixçilərinin bu etnonimi siyasi termin saymaları doğru deyil. "Monqol" sözü Monqolustan ərazisində nisbətən böyük bir tayfa birləşməsinin əsil adı olsa da, mə'nası mə'lum deyil. Qədim monqol abidələrində bu etnonim "manxol" şəklindədir, lakin bu etnonim bə'zi türk xalqlarında "monqol" formasında işlənmişdir (azərbaycanlılar içərisində monqol etnonimi "muğal" kimi işlənmişdir, bunun üçün Qax rayonundakı Qax-Muğal kəndinin adındakı Muğal sözünü xatırlayın ).

Çingizin başçılığı ilə tayfa ittifaqının yaranmasının şübhəsiz ki, ictimai-iqtisadi səbəbləri vardı. Bu birləşmə bir-birilə zəif əlaqədə olan ayrı-ayrı tayfaların arasında gedən mübarizələrdə geniş maldar kütlələrinin müflisləşməsinin qarşısını aldı, tayfalararası müharibələrə son qoydu, əvvəlki əsrlərdə təşəkkül tapmış feodal münasibətlərinin qüvvətlənməsinə səbəb oldu. Ona görə də monqol tayfa ittifaqının əsasında dövlətin yaranması dövrünə görə mütərəqqi tarixi hadisə idi. Bu, monqol xalqının konsolidasiya əsasında formalaşmasına şərait yaratdı. Tarixşünaslıqda bu fikir qəbul olunmuşdur ki, dövlət qurumu harada yaranırsa yaransın, ölkədə məhsuldar qüvvələrin inkişafına təkan verir, etnik prosesi sür'ətləndirir və tayfaların birləşib xalq kimi təşəkkülünə yol açır.

Çingiz Monqolustanda işlərini qaydaya saldıqdan sonra 1206-cı ildən işğalçılıq siyasətinə başladı. Çingiz uzaq hərbi səfərlərə gedəndə hər dəfə öz arvad-uşağı və mal-qarası ilə yola düşürdü. Tayfa başçısı tarxan adlanırdı. Tarxan böyük hörmətə malik idi. Onun 9 cinayəti bağışlana bilərdi, lakin 10-cu cinayəti etdikdə cəzalandırılır və adətən öldürülürdü. Bütün monqol tayfalarını Çingiz öz ulusu (yə'ni xalqı), onların yaşadığı ərazini isə öz "yurt"u e'lan etmişdi. O, tayfaları öz nəsli arasında bölüşdürmüş: Anasına 10 min ailə, oğlu Cuçiyə 9 min, Cağataya 8 min, Ugedeyə və Tuliyə hərəsinə 5



min ailə vermişdi. Bütün monqol tayfalarını iki qanada ayırdı. Sağ qanad - "baru-qar", sol qanad - "cun-qar" adlanırdı. Hər qanad (hissə) tümənlərə (on min nəfər), tümən minlik, minlik isə yüzlüklərə bölünürdü. Çingiz 95 dəstəlik ordu düzəltdi, hər dəstədə min nəfər döyüşçü vardı. Ordunun başında tayfa başçıları - noyonlar (bəylər) dururdu. Orduda dəmir intizam tətbiq etdi. Hərbi qaydanı pozanın başı kəsilirdi. Çingizin on minlik qvardiyası da vardı, lakin bu qvardiyanı ən çətin anlarda döyüşə buraxırdı. Çingizin bütün həyatı müharibələr və işğallarda keçdi. Ona görə o, bəşər tarixində ən böyük sərkərdələrdən biri sayılır.

1211-ci ildə Çingiz əvvəlcə böyük ordu ilə Şimali Çinə hərbi səfər etdi. Elə ilk döyüşdə Sin imperiyasının (yaxud Curçan imperiyasının) ordusunu məğlub etdi və sonra da Çinin bir sıra şəhərlərini, o cümlədən Beypin (yə'ni indiki Pekin) şəhərini tutdu. Çingizin ordusu Çini qarət etdi, yüz minlərlə əhalini qırdı. Qeyd etmək lazımdır ki, ümumiyyətlə monqol işğallarının bir səciyyəvi xüsusiyyəti olmuşdur: şəhər və kəndləri dağıtmaq, əhalisini başdan-başa qırmaq. Çinə hərbi səfər vaxtı orduya Çingiz və onun dörd oğlu başçılıq edirdi. Çin imperatoru öz qızını Çingizə verdi və 1214-cü ildə bağlanmış müqaviləyə görə Çingizin vassalı kimi hakimiyyətdə qaldı. Çinə qarşı müharibə Çingizin dövlətinin möhkəmlənməsinə səbəb oldu. Monqollar Çində dövrünə görə hərbi işin yüksək texnikası ilə tanış oldular. Çingiz oradan çoxlu silah və sənətkar gətirdi. Bu sənətkarlar monqol ordusunu metal silah (qılınc, xəncər, bıçaq, ox ucluğu, balta və s.) ilə tə'min etmək üçün e'malatxanalarda işlədilirdi.

Çinlə müharibəni bitirdikdən sonra Çingiz Qazaxıstan və Mərkəzi Asiyaya tərəf yönəldi. Yuxarıda biz qeyd etdik ki, Çingiz xandan qaçan naymanlar Kuçluk xan başda olmaqla Mərkəzi Asiyaya qaçmışdılar. Çingiz məşhur sərkərdələrindən biri olan Cəbə noyonu (bəyi) ordu ilə Kuçlukun üstünə göndərdi. Cəbə Kuçluku qovub ərazisini tutdu və naymanların çox hissəsini qırdı. Müqavimət göstərən şəhərlər dağıdıldı. Təkcə Balasaqun şəhəri müqavimət göstərmədiyinə görə

Cəbə ona dəymədi və buna görə monqollar həmin şəhəri "Qo baluk" ("Yaxşı şəhər") adlandırdılar (Türk-monqol dillərində baluk "şəhər" deməkdir). İndiki Qırğızıstan ərazisində - Şərqi Tyan-Şanda monqol işğalı ərəfəsində əyalətlərin hakimlərinin başları bir -birilə mübarizəyə, feodal müharibələrinə qarışmışdı. 1208-ci ildə İrtış çayı üzərində Çingiz tərəfindən məğlub edilmiş Kuçluk da bura qaçıb gəldiyinə görə mərkəzi Beşbalık şəhəri olan Turfan knyazlığının hakimi Barçuk onun əleyhinə çıxmış və 1209-cu ildə Çingizin yanına elçi göndərərək onun vassallığını qəbul etdiyini bildirmişdi. Ona görə Çingiz xan bu knyazlığa dəymirdi.

1210-1211-ci illərdə Karluk dövlətinin xanı Arslan xan da Çingiz xanın hakimiyyətini qəbul etdi. 1211-ci ildə Çingiz xan bu knyazlıqların ərazilərində monqol hakimiyyətini qüvvətləndirmək üçün ora Xubilayın başçılığı ilə qoşun göndərdi. 1217-ci ildə Çingiz bu əyaləti Kuçlukun öldürdüyü hakim Buzarın oğlu Suqnaq-Tiqinə verdi. Kuçlukun Xarəzmşah Məhəmmədlə müharibələri və onun Tyan-Şanda 8 illik hakimiyyəti ölkəni viran qoymuşdu. Yuxarıda dediyimiz kimi, Çingiz 20 minlik ordu ilə ora Cəbəni göndərmiş və Cəbə Kuçluku qovub çıxarmışdı. Nəticədə Tyan-Şanda Almalık və Kayalık əyalətlərindəki Karluk hakimləri 10 minlik qoşunla Çingizin tərəfinə keçmişdilər. Bundan sonra monqol ordusu Mavərənnəhrə - Xarəzmşahlıq dövlətinə istiqamət aldı. Hücumdan əvvəl Çingiz xan Xarəzmşahlıq dövlətinin daxili vəziyyəti və ordusu barədə ətraflı kəşfiyyat işi aparmış və müharibənin dəqiq planını qurmuşdu. İndi bəhanə lazım idi, o da yarandı.

Çingiz xan əvvəlcə Xarəzmşahlıq dövləti ilə əmin-amanlıq şəraitində yaşamaq siyasəti yürüdürdü, çünki bu dövlətin güclü olduğunu bilirdi. Xarəzmşah Sultan Məhəmmədlə müqavilə bağlamaq üçün Çingiz xan 1218-ci ildə 450 nəfər adam və 500 dəvədən ibarət böyük səfirlik göndərdi. Karvan Ürgənc şəhərinə gedirdi, lakin Otrar şəhərində Xarəzmşahlığın canişini karvanı saxladı. Şəhərin komendantı və canişini İnalçik karvanı qarət etdirdi və 450 nəfərlik dəstəni öldürtdü. Təkcə bir sarvanı sağ saxlatdırdı və o, Çingiz xanın yanına qayıdaraq əhvalatı ona danışdı. Çingiz xan bu hadisədən çox sarsıldı və özünü təhqir olunmuş saydı. Lakin o, qəzəbini gizlədərək iki nəfər nümayəndəsini Xarəzmşahın sarayına göndərərək tələb etdi ki, İnalçiki tutub ona göndərsin. Xarəzmşah özünü təkəbbürlü apardı, səfirlərin saqqallarını qırxdıraraq yola saldı. Bununla da Çingiz xanla Xarəzmşah Sultan Məhəmməd arasında hər cür əlaqə kəsildi. Çingiz xan müharibəyə hazırlaşdı.

Xarəzmşahlıq dövləti əslində o vaxt Çingiz xanın qarşısında dura biləcək hərbi qüdrətə malik deyildi. Onun ordusu əsasən muzdla tutulmuş döyüşçülərdən ibarət idi. Ordunun başında qıpçaqların kanqlı tayfasından çıxmış mə'murlar dururdular, çünki Sultan Məhəmmədin anası Türkan xatun əslən bu tayfadan idi. Ona görə Xarəzmşahlıq dövlətində bu tayfaya mənsub mə'murlar böyük nüfuza malik idilər. Onlar Türkan xatunun göstərişləri ilə hərəkət edirdilər. Xarəzmşah Məhəmmədin isə, əksinə, bu tayfa ilə münasibətləri gərgin idi. Bunun əsasında Sultan Məhəmmədlə anası Türkan xatun arasında narazılıq vardı. Nəticədə qıpçaqlardan olan din xadimləri də Məhəmmədi istəmirdilər. Beləliklə, Xarəzmşahlıq dövlətinin hakimiyyət dairələrində və orduda birlik yox idi. Bütün bunlar Çingiz xanın xeyrinə idi.

Çingiz xanın dövləti ilə Xarəzmşahlıq dövləti arasında Şərqi Türküstanda türkmənşəli nayman tayfasının Moqolistan adlı kiçik bir dövləti yerləşirdi. Dövlətin başçısı Kuçluk xan idi. 1219-cu ildə Çingiz xan Cəbə noyonu ordu ilə Kuçluk xanın üstünə yolladı. Təcrübəli sərkərdə Cəbə tezliklə Kuçluk xanı məğlub edərək Moqolistanın ərazisini zəbt etdi. Bundan sonra Çingiz xanın ordusu üçün Mərkəzi Asiyaya yol açıq idi.

Xarəzmşah Sultan Məhəmməd Ürgənc şəhərində hərbi müşavirə çağırdı. O, Çingiz xanla müharibənin labüd olduğunu bilirdi. Sərkərdələr belə qərara gəldilər ki, Çingizə qarşı müdafiə taktikası əsas götürülsün. Bu qərara uyğun olaraq ordu bir neçə hissəyə bölündü və müxtəlif şəhərlərin müdafiəsinə göndərildi. Deməli, monqolların ordusunu qarşılayacaq vahid ordu da yox idi.

Sultan Məhəmmədin qıpçaq mənşəli hərbi rəislərinə inamı yox idi, ona görə Çingiz xanla döyüşə can atmırdı. O, güman edirdi ki, monqollar əvvəlcə birbaşa Səmərqəndə hücum edəcəklər və ona görə şəhər əhalisindən alınan illik vergini üç dəfə artıraraq qala divarlarının möhkəmləndirilməsinə sərf etdi və bununla əksinə, şəhər əhalisini özündən narazı saldı.

1219-cu ilin sentyabrında Çingiz xan böyük ordu ilə Mavərənnəhrə girdi və ən əvvəl ilk zərbələri şəhərlərə qarşı yönəltdi. Bə'zi əyalət və şəhərlərin türk feodalları Xarəzmşah Məhəmməddən narazı olduqlarına görə Çingizin tərəfinə keçdilər və öz orduları ilə onun ordusunun işğallarında iştirak etməyə başladılar.

Çingiz əvvəlcə sərhəddə yerləşən Otrar şəhərinə daxil oldu. Altı ay müddətində Çingiz şəhəri ala bilmədi, çünki şəhər əhalisi ölüm-dirim mübarizəsinə girişmişdi, bilirdilər ki, Çingiz şəhəri tutsa, heç kim oradan sağ çıxmayacaq. Lakin şəhər monqol ordusunun təzyiqinə davam gətirmədi, aclıq başlandı və Otrarı müdafiə edən türk sərkərdələrindən biri Qaraca gecə ordusu ilə şəhərdən çıxıb Çingizə tabe oldu. Monqollar şəhərə girdilər və bütün şəhərin əhalisini uşaqdan tutmuş qocalara qədər hamısını öldürdülər.

Çingiz hələ Otrara hücum etməzdən əvvəl böyük oğlu Cuçini bir neçə tümən (on min) ordu ilə Yengikənd, Sabran (Şabran), Üzkənd, Cənd, Suqnak və b. şəhərləri tutmaq üçün göndərdi. Çingizin başqa oğlanları Cağatay və Ugedey də Cuçinin qərargahında idilər, beş min nəfərdən ibarət bir dəstəni də Çingiz xan Sırdərya kənarında Benakət və Xocənti tutmağa yolladı. Özü isə əsas qüvvə ilə Buxaraya hərəkət etdi. Qısa müddət ərzində Cuçi bu şəhərləri tutub dağıtdı. Sırdərya şəhərlərini tutduqdan sonra o, Mərkəzi Asiyanın içərilərinə girdi. Onlar Amudərya üstündə su bəndini dağıdıb suyu şəhərə buraxdılar və suya qərq olmaqda olan şəhəri tutub dağıtdılar. Tarixçi İbn əl -Əsir (XIII əsr) yazır ki, monqollar bu şəhərdə hətta bütün hamilə qadınları da qırdılar. Heç bir kişi və oğlan uşağı sağ çıxmadı. 1220-ci ilin fevralında Çingiz Buxaraya yaxınlaşdı. Şəhəri 12 minlik (bir



mə'lumata görə 20 minlik) ordu müdafiə edirdi. Lakin Çingiz şəhəri çox asanlıqla tutdu. Çingizin yanında kiçik yaşlı oğlu Tuluy olurdu. Rəşidəddin yazır ki, şəhər tutulan kimi Çingiz və balaca oğlu Tuluy at üstündə, sərkərdələrin müşayiəti ilə şəhərə daxil oldular. Çingiz şəhərin baş məscidinin qabağına gəlib adlı-sanlı adamların toplanmasını əmr etdi. Sonra da monqol ə'yanları ilə oturub yemək-içməyə başladı, yığılan adlı-sanlılara isə monqolların atlarına baxmağı, otunu-suyunu verməyi əmr etdi. Tarixçi Cuveyni yazır ki, monqolların atlarını saxlayan və təmizləyən bu adlı-sanlılar, şeyxlər, imamlar gözlərinin qabağında yemək-içməklə məşğul olan monqol xanlarına və noyonlarına mat-məəttəl baxırdılar. Yemək-içməkdən sonra Çingiz şəhərin qarət olunmasına icazə verdi və monqol döyüşçüləri bir neçə gün qarətlə məşğul oldular, on minlərlə uşaq, qadın və qocanı öldürdülər.

Çingiz Buxaradan Səmərqəndə yollandı və 1220-ci ilin martında şəhərə yaxınlaşdı. Bə'zi mənbələrə görə Səmərqəndi 40 min nəfərlik qoşun müdafiə edirdi. Rəşidəddin isə bu rəqəmi 110 min nəfər kimi verir. Şəhəri müdafiə edən qarnizonun rəisi Türkan xatunun qardaşı, əslən kanqlı tayfasından olan Tuqay xan (yaxud Tokay xan) idi. Çingiz şəhərin kənarındakı Kök-Saray adlı yerdə durub şəhərin mühasirəsinə tamaşa edirdi. O, mühasirə edənlərin qabaq sıralarına işğal etdiyi yerlərdən tutulmuş əsirləri düzmüşdü. Mühasirənin üçüncü günü şəhər müdafiəçilərindən böyük bir dəstə bayıra çıxıb monqollarla döyüşə girdi. Lakin Çingiz xan əvvəlcədən bunu bilirmiş kimi hazırlıq görmüşdü və hərbi fənd işlədərək həmin istiqamətdə pusquda az miqdarda qoşun qoymuşdu. Şəhərdən çıxanlar həmin monqolların üstünə hücuma keçən kimi Çingiz kənarda gizlətdiyi qoşun hissələrini arxadan hücuma göndərdi. Qısa müddət ərzində monqollar 20 min nəfər səmərqəndlini doğradılar. Bu, şəhərin müdafiəçilərini sarsıtdı və ona görə şəhər təslim oldu. Sonra da Çingiz şəhərlilərin çölə çıxmasını əmr etdi və şəhəri qarətə buraxdı, çölə çıxanları isə öldürtdü. Çingiz Səmərqənddən 30 min nəfər sənətkarı tutub, işlətmək üçün öz qoşununa payladı. Bu

vaxt Xarəzmşah Məhəmməd Amudərya çayı kənarında Andxuda adlı yerdə hərbi düşərgədə idi. Məhəmməd Çingizə qarşı acizliyini hiss edirdi, ona görə də İrana gedib muzdlu qoşun toplamaq qərarına gəldi, əslində o, qaçırdı. Xarəzmşahın oğlu Cəlaləddin bu təklifə qarşı çıxsa da, atası onu eşitmədi. Xarəzmşah kiçik bir dəstə ilə İran tərəfə yola düşdü. İrana gedib Xəzərdə bir adaya keçib oturdu və 1220-ci ildə orada soyuqdəymədən öldü.

Çingiz sərkərdələri Cəbə noyon, Toquçar noyon və Subutay bahaduru 30 minlik ordu ilə onun ardınca İrana göndərdi, əmr etdi ki, onu tutub diri gətirsinlər. Onlar əvvəlcə indiki Türkmənistan ərazisini tutub şəhərləri dağıtdılar. Bu ordu İrana daxil olub bir sıra şəhərləri qarət etdikdən sonra Azərbaycana keçdi. Əvvəlcə Mil düzündəki Beyləqan şəhərinə hücum edib onu yerlə yeksan etdilər, bütün əhalisini qırdılar. O vaxtdan həmin şəhər bir də dirilmədi və indi xarabalıqları Örənqala adı ilə qalmaqdadır. Monqol ordusu Azərbaycanın və Gürcüstanın bir sıra şəhərlərini tutub dağıtdıqdan sonra Şamaxıdan keçib Dərbəndə yollandılar. Dərbənd qalasını tutub Şimali Qafqaza keçdilər və orada 1223-cü ildə Kalka çayı kənarında qıpçaqların ordusunu məğlub etdilər və Xəzərin şimalı ilə Mərkəzi Asiyaya - Çingiz xanın yanına gəldilər.

1220-ci ilin yayında Çingiz xan Kaşqadərya çayının ətrafında istirahət etdi. Həmin ilin payızında Tərməz şəhərini 11 günlük mühasirədən sonra alıb müasir Türkmənistanın şimalında yerləşən Ürgənc şəhərinə tərəf yollandı. Bu şəhərdə Xarəzmşah Məhəmmədin sarayı yerləşirdi. Onu da qeyd edək ki, Xarəzmşah Məhəmməd monqolların hücumu ərəfəsində Xarəzmdən çıxandan sonra onun anası Türkan xatun öz saray adamları ilə Ürgəncdə idi. Çıxıb getməzdən əvvəl Türkan xatun sarayda girov saxlanılan bütün ə'yanları öldürtdü. 1221-ci ilin qışında Xarəzmşahın ailəsi Ürgənc şəhərinə gəlmişdi. Ürgəncdə Xarəzmşahın oğlanları Cəlaləddin, Uzlaqşah və Aqşah hakimiyyət uğrunda mübarizəyə başlamışdılar. Lakin onlar Çingizin yaxınlaşdığını eşidib şəhəri tərk etdilər. Tezliklə şimaldan Cuçi, Buxara tərəfdən Cağatay və Ugedeyin



orduları - cəmi 50 min nəfər - Ürgənci məngənəyə aldılar və şəhəri tutub əhalinin əksəriyyətini qırdılar. Mənbələrdə deyilir ki, küçələrdə meyit əlindən tərpənmək olmurdu. Ondan sonra monqollar Bəlx və Mərvi işğal etdilər. 1221-ci ildə əslində Qazaxıstan və Mərkəzi Asiyanın monqollar tərəfindən işğalı başa çatdırıldı.

İndi isə Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddinin taleyi haqqında qısaca da olsa mə'lumat verməк lazımdır. Cəlaləddin 20-21 yaşında çox qoçaq sərkərdə idi. O, bir dəstə döyüşçü ilə indiki Aşqabad yaxınlığında xarabalıqları qalmaqda olan Nisa şəhərinə yola düşdü. Çingiz xan Cəlaləddin haqqında eşitmişdi. Ona görə də onun tutulması haqqında əmr vermiş və Xorasanın yollarında gözətçi dəstələri qoymuşdu. 700 nəfərdən ibarət bir dəstə Nisa şəhəri ətrafında gözləyirdi. Cəlaləddin kiçik dəstəsi ilə onlara hücum etdi və əksəriyyətini qırdı. Bir müəllif o zaman Cəlaləddin haqqında yazırdı ki, "bu monqol qanına bulaşmış ilk müsəlman qılıncı idi". Monqolların atlarını ələ keçirmiş Cəlaləddinin dəstəsi Qəznəyə (Əfqanıstana) tərəf hərəkət etdi, çünki orada Xarəzmşahın böyük hərbi dəstəsi toplaşmışdı. Çingiz xan 700 nəfərlik monqol ordusunun qırıldığını eşitdikdən sonra Şiki Xutuxu adlı təcrübəli sərkərdəsinin başçılığı altında Əfqanıstan ərazisinə ordu göndərdi. Monqollar Cəlaləddinlə qarşılaşdılar və bu döyüş monqol ordusunun tam məğlubiyyəti ilə bitdi. Bu hadisədən sonra Çingiz xan başa düşdü ki, Xarəzmşah Cəlaləddinin şəxsində çox təhlükəli rəqibinə rast gəlmişdir və ona görə özü böyük bir ordunun başında Cəlaləddinin ardınca yola düşdü. Cəlaləddin Qəznə yaxınlığında Çingiz ilə döyüşməyi məqsədəuyğun saymadı və oradan çəkildi. Çingiz Qəznəni tutdu. 1221-ci ilin 24 noyabrında Hind çayı sahilində iki ordu qabaqlaşdı. Döyüş gah bir tərəfin, gah o biri tərəfin üstünlüyü ilə keçdi və Cəlaləddinin başçılıq etdiyi mərkəz Çingizin durduğu mərkəz hissəni hətta dağıda bildi. Lakin Çingiz kənarda 10 minlik qvardiyasını gizlətmişdi və döyüşün həlledici anında Çingizin işarəsi ilə qvardiya döyüşə atıldı. Cəlaləddinin ordusu məğlub oldu, döyüşçülərinin çoxu qırıldı, bir hissəsi əsir düşdü.

Cəlaləddinin arvadı, kiçik yaşlı oğlu və anası da onunla idi. Onların əsir düşməməsi üçün Cəlaləddin kiçik bir dəstə ilə Hind çayının sıldırım sahilinə gəldi, onu diri tutmaq üçün ayrılmış monqol dəstəsi isə çaparaq yaxınlaşmaqda idi. Qısa məsləhətdən sonra anası və arvadı özlərini qayadan atdılar. Lakin Cəlaləddin balaca oğlunu bilmədi nə etsin, çünki nə nənəsi, nə də anası onu qayadan atmağa qıymırdılar. Elə bu məqamda Çingiz və monqol dəstəsi gəlib yetişdi. Cəlaləddin ata bir qamçı vuraraq atla birlikdə sıldırımın üstündən özünü Hind çayına atdı, at sanki uçaraq suya endi, sonra da Cəlaləddin atla üzərək çayın o tayına keçdi. Çingiz isə qayanın üstündən bu mənzərəyə mat qalmış kimi baxırdı. Cəlaləddin çayı keçib o biri sahildən barmağı ilə Çingizi hədələdi. Çingiz barmağını dişləyərək ətrafındakılara demişdi: analar ancaq belə oğullar doğmalıdırlar. Cəlaləddinin əsir tutulmuş balaca oğlunu Çingizə verdilər, o isə bıçağı çıxartdı, uşağın döşünü yararaq ürəyini qopartdı və yerə atdı.

Bundan sonra 1227-ci ildə Cəlaləddin İrana gəldi. Monqollar bunu eşidib ordu ilə İrana gəldilər. 1228-ci ildə İsfahan yaxınlığında monqol ordusu ilə Cəlaləddinin ordusu arasında qanlı vuruşma baş verdi. Doğrudur, monqol ordusu döyüşü üstünlüklə keçirdi, lakin o qədər itki verdi ki, geriyə – Mərkəzi Asiyaya qayıtdı. Cəlaləddin Amudəryaya qədər monqol ordusunu tə'qib edib sonra geriyə - yenidən İrana qayıtdı.

Onun ardınca Zaqafqaziyaya - Azərbaycana gəlmiş monqol ordusu ilə çoxlu döyüşlərdən sonra 1231-ci ildə Kürdüstanda döyüşdə Cəlaləddinin atı büdrəyib yıxıldı və qıçı sındı. O, çörək üçün bir dəyirmana getdi, dəyirmançı onu evinə apardı və bu zaman iki kürd gəlib çıxdı, onlardan biri qılıncla yaralı Cəlaləddini öldürdü.

Çingiz xan Yenisey və İrtış çayları arasında yaşayan qırğız və qıpçaq tayfalarını da tabe etdi. Bu tayfaların mərkəzləşmiş dövlətləri yox idi. Ona görə monqollara qarşı müqavimət göstərə bilmədilər. Bu tayfaların ərazisi birinci dəfə hələ 1206-1207-ci illərdə işğal olunmuşdu. Bu ərazi sonra Çingizin nəslindən Xaydunun ulusu oldu. Ulusun mərkəzi Tyan-Şan əyaləti sayılırdı.



Mərkəzi Asiya, Cənubi Sibir və Qazaxıstan Monqolustana birləşdirildikdən sonra 1219-1221-ci illərdə bütün Qazaxıstan və Mərkəzi Asiyanı tutan Çingiz xan böyük dövlət yaratdı. O, dövləti idarə etmək üçün ərazini oğlanları arasında bölüşdürdü. Böyük oğlu Cuçiyə - İrtış çayından Ural dağlarına, cənubda Kaspi və Aral dənizlərinə qədər uzanan ərazini verdi. Sonra XIII əsrin 40-cı illərində bu ulus Cuçinin oğlu Əcənxə keçmişdi. Sırdərya və Amudərya çaylarınm aşağı axarlarında (şimali Xarəzm) ona verildi. Cuçinin qərargahı İrtış çayının vadisində yerləşirdi. İkinci oğlu Cağataya Mavərənnəhri və Çin Türküstamm, yaxud Şərqi Türküstanı (Qaşqar əyalətini) verdi. Ümumiyyətlə, İli çayından Amudərya çayına qədərki ərazi bu ulusa daxil idi. Onun qərargahı İli çayının vadisində yerləşirdi. Üçüncü oğlu Ugedeyə (azərbaycanca bu monqol adı "Oktay"dır) Çingiz Qərbi Monqolustanı və Qərbi Altayı verdi. Onun qərargahı Monqolustanda indiki Çuquçak şəhəri yaxınlığında yerləşirdi. Ugedeyin ordusunun əsasını Cəlair və Suldus tayfaları təşkil edirdi. Çingizin sonbeşik oğlu Tulu (yaxud Tuli) idi. Çingiz ona ana vətəni - Monqolustanı vermişdi. Eyni zamanda Çingiz ordunu da oğlanları arasında bölüşdürdü. Bu vaxt onun ordusu 129 min nəfər idi. Ondan 101 min nəfəri Tuluy aldı, o biri oğlanların hərəsinə 4 min nəfərlik ordu verdi, 16 min nəfəri isə qohumları arasında bölüşdürdü. Müasir Qırğızıstanın ərazisi əvvəlcə Cağatay ulusuna daxil idi. Monqollar Mərkəzi Asiya və Qazaxıstan ərazisini işğal etdikdən sonra türk və monqol tayfalarının Cənubi Sibirdən Tyan-Şana köçməsi baş vermişdi. Xüsusilə, sonra Çingizin nəvəsi Munkə (1251-1259) xan dövründə bu əraziyə 10 tümən türk köçürülmüşdü.

Çingiz xanın göstərişilə Şərqi Türküstan və Altayı əhatə edən ulusun hakimi Ugedey və onun varisləri ümummonqol taxt-tacına sahib ola bilərdi. "Atayurdu" - Monqolustanı almış Tuluy bu hüquqa malik deyildi.

Cəlaləddini məğlub etdikdən sonra Çingiz əldə etdiyi böyük qənimət və əsirlərlə Monqolustana qayıtmağı qərara aldı. Mərkəzi Asiyanı Mahmud Yalavac adlı bir xarəzmli

tacirə icarəyə verib yoluna davam etdi. 1223-cü ilin yayını Çingiz xan Sırdəryanın şərq hissəsində, 1224-cü ili isə İrtış kənarında keçirdi. 1225-ci ildə o, Monqolustana - öz vətəninə qayıtdı. Çingizin bu illəri haqqında mə'lumat verilən mənbələrdə yazılır ki, Çingiz nəhayət ölümün haqq olduğunu başa düşmüşdü. O, qocaldığını, ölümünün yaxınlaşdığını hiss etmişdi. Rəşidəddin yazır ki, Çingiz xanın 500 arvadı vardı. Çingiz demişdir: "Kişinin yaxşı keyfiyyəti arvadın yaxşı keyfiyyətləri ilə üzə çıxır". Çingizin anası Seluk xatunu Çingizin atası Yesuqay-Bahadur ərindən zorla qaçırıb almışdı. Bu qadın Çingizin bütün döyüşlərinin şahidi olmuş və Çingizin arvadlarına başçılıq etmişdi. Çingizin çoxlu oğlu və qızı vardı, onların hər birinə var-dövlət ayrılmışdı. Çingiz özü ilə qızıl və daş-qaşla bəzədilmiş sarkofaq gəzdirdi. O, 1227-ci ildə avqust ayının əvvəllərində Çinə hərbi səfərə yola düşdü, lakin Çin sərhəddini keçməmiş yolda öldü.

Onu Monqolustan ərazisində Burxan-Xaldun dağlarında uşaqlığı keçən bir yerdə (əvvəlcədən vəsiyyət etdiyi yerdə) dəfn etdilər. Üstündə heç bir abidə qoyulmadı, çünki o, belə vəsiyyət etmişdi. Dərin qəbir qazanların sonra başlarını kəsdilər ki, qəbrin yerini heç kimə deyə bilməsinlər. Səhra yerində dəfn edilmiş Çingizin qəbrinin üstünü hamarladılar və beləliklə, həmişəlik olaraq onun qəbrinin yeri bilinməz qaldı.

Çingiz xan öləndən sonra Ugedey (1227-1241) Monqolustanın xanı oldu. O, ərazisini genişləndirmək üçün yenidən Xorasana və Qərbi İrana 30-40 minlik ordu ilə hərbi səfər təşkil etdi. Hərbi səfərə Çingizin ən məşhur sərkərdələrindən biri Çormaqun noyon başçılıq edirdi. 1228-ci ildə Çormaqun Xorasan və Qərbi İranı tutub dağıtdı. Hindistandan İrana gəlmiş və muzdlu ordu düzəltmiş Cəlaləddini İrandan sıxışdırıb çıxartdı. 1230-cu ildə Çormaqun ilə Cəlaləddin arasında İranda baş vermiş üç günlük vuruşma heç bir tərəfə üstünlük verməsə də, Cəlaləddin geri çəkildi. O, buradan Azərbaycana keçdi.

Çingiz xan işğal etdiyi ölkələrdə heç bir yeni inzibati idarə üsulu tətbiq etməmişdi. Tutulmuş əyalətlərə tə'yin edilmiş feodallar (noyonlar) vergini yığıb mərkəzə göndərirdilər. Çox əyalətlərdə əvvəlki inzibati idarə sistemi qalırdı. Monqollar yerli tacirlərdən istifadə edirdilər. İstər Monqolustanda, istərsə də işğal olunmuş ərazilərdə əvvəlki ictimai quruluş qalmaqda idi. Köçəri maldarlıq yenə də türk-monqol tayfalarının əsas təsərrüfat məşğuliyyəti idi. Əksinə, Mərkəzi Asiya və Qazaxıstan ərazisindəki şəhərlərin dağıdılması, qarət edilməsi, əhalinin qırılması mədəni və təsərrüfat həyatına zərbə vurmuşdu. Əkinçilik bir müddət tənəzzülə uğramışdı, çünki kanallar və arxlar baxımsızlıqdan xarab olmuşdular. 1249-1251-ci illərdə Tuluyun oğlu Munkə bu taxt-tac uğrunda mübarizə aparırdı. Bu vaxt Cağatay və Ugedeyin oğlanları Munkəyə qarşı birləşdilər. Munkə koalisiyanı dağıda bildi və Ugedeyin ulusu ləğv edildi, onun ərazisi və tayfaları Munkənin tərəfdarları arasında bölüşdürüldü. Az sonra Cağatay ulusu da bölüşdürüldü. Bu hadisə, yə'ni Çingizin nəvələrinin hakimiyyət uğrunda qanlı müharibələri Mərkəzi Asiya, Altay və Qazaxıstan ərazisində çoxlu dağıntılar və qırğınlar hesabına başa gəlmişdi. Cağatay ulusunda feodal müharibələri Munke xan öləndən sonra daha da qızışdı. Çünki onun iki oğlu Arik-Buqa və Xubilay 1260-cı ildə böyük xan titulu, yə'ni Monqol imperiyasının xanı uğrunda mübarizəyə başladı və qalib gəldi. Nəticə e'tibarilə Yeniseyin yuxarı axarı (qırğızların əyalətləri) və Altay onun əlində qaldı.

### §2. *Cağatay ulusu*

Çingiz xanın oğlanlarından Cağatay 1227-ci ildə Mərkəzi Asiyada onun adı ilə adlanmış bir dövlət yaratmışdı. Çingiz xan Cağataya Buxara və Səmərqəndi, şərqdə uyğurların ərazisinə qədər uzanan ərazini vermişdi. Cağatayın dövlət idarəsindəki başlıca xüsusiyyət ondan ibarət idi ki, dövlət vaxtaşırı çağrılan qurultaylar tərəfindən idarə olunurdu, yə'ni xan bu qurultayda seçilirdi.

1242-ci ildə Cağatay öləndən sonra onun yerinə Qara Xalaqu, az sonra da o öldükdə yerinə arvadı Erkənə xatun keçdi. 1251-1261-ci illərdə xanlığı onun oğlu Mübarək şah idarə etdi. Bu dövlət 1447-ci ildə süqut etdi.

## §3. Xaydu dövləti

XIII əsrin II yarısında monqol imperiyasının ərazisində müstəqil dövlətlər yaranmağa başlandı. Həmin əsrin hələ I yarısında Cuçinin ulusunda oğlu Batu böyük bir ordu ilə Quyuk xanla müharibəyə başlamışdı. Quyuk qəflətən öldüyünə görə döyüş baş vermədi. Batu Munkə xanın Ümummonqol taxtına keçməsini tə'min etdi. Lakin XIII əsrin 60-cı illərində Mərkəzi Asiyanın şərq əyalətləri Ugedeyin nəvəsi Xaydunun başçılığı ilə müstəqil dövlət yaratdı. 1269-cu ildə Talas çayı vadisində keçmiş Ugedey və Cağatay uluslarının feodalları qurultay çağırdılar və Xaydunu xan seçdilər. Xaydu 1269-1301-ci illərdə hakim oldu. Bu dövlət tarixdə Xaydunun dövləti adı ilə mə'lumdur. Onun ərazisi Altaydan Amudəryaya qədər, Şərqi Türküstan daxil olmaqla böyük bir ərazini əhatə edirdi.

Xaydunun hakimiyyəti illərində Mərkəzi Asiyanın təsərrüfat həyatında canlanma baş verdi. 1269-cu ildəki qurultayda vergi sisteminin qaydaya salınması haqqında tədbirlər müəyyən edilmişdi. Maldar tayfaların hər biri üçün ərazinin sərhədləri müəyyən olunmuşdu. Hakimiyyətin ikinci ilində Xaydu pul islahatı da keçirmişdi. Bu islahat nəticəsində bütün dövlətin ərazisində işlənən gümüş pul buraxılmışdı. Bu tədbir Mərkəzi Asiya ərazisində ticarətin inkişafına səbəb olmuşdu. Daxili sakitlik, yolların təhlükəsizliyi, maliyyə işlərinin nizama düşməsi daxili və xarici ticarətə əlverişli şərait yaratmışdı. Həm də bacarıqlı sərkərdə olan Xaydu xan Çinin Mərkəzi Asiyaya işğalçılıq sə'ylərinə qarşı 40 il mübarizə apararaq ölkənin xarici qəsbkarların əlinə keçməsinə imkan vermədi.

Qeyd edilməlidir ki, bu zaman Çinin şimalı da Monqol imperiyasının tərkib hissəsi olaraq qalırdı. Yuxarıda biz Çingiz xan tərəfindən Pekinin tutulduğunu demişdik. Xaydu xanın vaxtında Pekində oturan monqol hakimi Xubilay idi. Xubilay Mərkəzi Asiyanı da öz tə'siri altına almağa çalışırdı. Ona görə Xubilaym Altaya və Şərqi Türküstana mütəmadi hərbi səfərləri onunla Xaydu arasında arasıkəsilməz



müharibələrə çevrilmişdi. 1293-1294-cü illərdə Xubilayın işğalçılıq siyasətini oğlu Teymur davam etdirmişdi. 1301-ci ildə Xaydu xan Teymura qarşı hərbi səfər zamanı yolda öldü. Ona görə Teymura qarşı mübarizəni Xaydunun oğlu Uruz (yaxud Urus, bu adın "rus" sözü ilə əlaqəsi yoxdur, "Kitabi Dədə Qorqud"da Uruz xan adını xatırlayın) və qardaşı Çapar davam etdirdi.

Xaydu xan öldükdən sonra onun uşaqları arasında hakimiyyət uğrunda mübarizə başlanmışdı. Xaydunun qızı Xutulun Çaxa (o ailəsinin böyük uşağı idi) taxta kiçik qardaşı Urusu çıxarmaq istəyirdi. Xaydunun uşaqları bu zaman dövlətin müxtəlif əyalətlərinin başında dururdular. Şah adlı oğlu Talas vadisində, Xutulun Çaxa Çuy vadisində hakim idi. Qeyd edilməlidir ki, bu qız çox gözəl, həm də çox dərrakəli idi. O, kiçik yaşlarından atası Xaydunun çoxlu vuruşmalarında iştirak etmiş və şəxsən döyüşmüşdü. Çin mənbələrində deyilir ki, döyüşdə Xutulun-Çaxa çox qorxmaz idi və at üstündə igid kimi vuruşurdu, yaraladığı düşmən döyüşçüsünə aman vermirdi, tez başını kəsirdi. Ona görə bu qız dövlətin idarə işlərində böyük nüfuza malik idi, atası çox vaxt onunla məsləhətləşirdi. Lakin Cağatay nəslindən olan Çingiz nəvələri Xaydunun oğlu Çaparın tərəfini saxlayırdılar və ona görə 1303-cü ildə Çapar xan e'lan edildi. Lakin bu dövlət getdikcə *zəifləməyə başladı və XIV əsrin 60-cı illərində Teymur*ləngin işğalmdan sonra süqut etdi. Quyuk xan öldükdən sonra (1248) monqol imperiyasında həyəcanlar artdı.

Çingizin övladları içərisində Batu xan fərqlənirdi. Tuluy xanın dul qalmış arvadı və oğlu Munkə (onun adı Manqu da yazılır) də ümummonqol taxtına sahib olmaq istəyirdilər. Hərçənd ki, Tuluy xanm bu dul arvadı xristian qızı idi. 1251-ci ildə Qaraqorumda (Monqolustanda) qurultay çağrıldı və Munkə xan seçildi. Lakin Cağatayın və Ugedeyin nəslindən olanlar bu qərardan narazı idilər, ona görə Munkə Cağatay ulusunu ləğv etdi və Mavərənnəhr Batuya çatdı.

Munkə xan (1251-1259) işgüzar və bacarıqlı idi O, ən əvvəl mərkəzi aparatı möhkəmlətməyə başladı. Sonra da ticarətin inkişafı üçün tədbirlər gördü.

Onun dövründə Hülakünun İran və Azərbaycana hərbi səfəri başlandı. XIII əsrin 60-cı illərində Cağatayın nəvəsi Alqu xan Batu xanın övladlarını Mavərənnəhrdən qovdu və Cağatay ulusunu bərpa etdi. Öz ulusunu qorumaq üçün güclü ordu yaratdı. O öləndən sonra Cağatay xanları Mübarək şah və Borak şah islam dinini qəbul etdilər və 1266-cı ildə hakimiyyətə keçən Mübarək şah Mavərənnəhrdə islam dini müəssisələrinin fəaliyyəti üçün geniş şərait yaratdı. O, öz qərargahını İli çayının vadisindən Mavərənnəhrə gətirdi və özü ilə cəlair və barlas tayfalarım da gətirib burada yerləşdirdi. Cağatay ulusu indiki Özbəkistanın ərazisini əhatə edirdi və ona görə bu ulus özbək xalqının formalaşmasında mühüm rol oynadı. Cağatay ulusunun xanı Kəbək dövründə (1318-1326) ulusda köçərilik edən türk və monqol tayfalarınm əksəriyyəti oturaq həyata keçmiş, bu isə əkinçiliyin və sənətkarlığm inkişafına təkan vermişdi. Onun keçirdiyi inzibati islahat nəticəsində oturaq əhalinin köçəri feodallar tərəfindən sıxışdırılmasına son qoyulmuşdu. Lakin bütün bunlar Mərkəzi Asiyada təsərrüfatın səviyyəsini hələ monqollarm işğallarına qədərki səviyyəyə çatdıra bilmirdi. 1257-ci ildə Munkə xanın oğlu Hülakü xan VII əsrdən mövcud Bağdad xilafətinə qarşı hücuma hazırlaşdı. Əvvəlcə xəlifəyə məktub yazıb tabe olmağı tələb etdi. Xəlifə Bədrəddin Naxçıvani adlı təcrübəli bir elçini Həmədana Hülakünun yanına göndərdi. Lakin elçi təhqiramiz cavabla geri qayıtdı. Belə olduqda Hülakü xan ordu götürüb Bağdada hücuma keçdi, şəhəri tutdu və qarət etdi, 500 il müddətində yığılmış qızılı ələ keçirdi. Hülakü xan 1258-ci ilin 20 fevralında xəlifə Mö'təsimi oğlu və 5 nökəri ilə birlikdə öldürdü. Bundan sonra Hülakülər dövləti yarandı. Hülakü xan Tuluy xanın 5 oğlundan 4-cü oğlu idi (Tuluy isə Çingizin 4-cü oğlu idi). Hülakü xan öldükdən sonra hakimiyyət uğrunda oğlanları arasında mübarizə başlandı. Onun üç arvaddan 14 oğlu və 7 qızı vardı. Lakin ilk oğlu Abaqa xan olduğuna görə hakimiyyətə də o keçdi. Hülakü xanlarınm əsas dayanacaq yeri cənubi və şimali Azərbaycan ərazisi idi. Hülakü xanları bunlar idi: Hülakü (1256-1265), Abaqa (1265-



1282), Arqun (1284-1291), Keyxatu (1292-1295), Qazan xan (1295-1304), Ulcaytu (1304-1316), Əbu-Səid (1316-1335). Bu xanlar dövründə Hülakülər dövlətinin tarixi Azərbaycan tarixində tədris olunur.

Hülakü xanın işğalları həm də İraqa və Azərbaycana çoxlu monqol və türk tayfalarının axını ilə nəticələndi. Azərbaycan toponimçilərinin tədqiqatlarına görə Azərbaycanda Cəlair, Tanqut, Sumqayıt, Ünkütlü, Oriyat, Corat, Saray, Ələt, Alar və s. yaşayış məntəqələri məhz monqollarm yürüşlərində iştirak etmiş cəlayir, tanqut, sükait, kinqit, orayut, çuryat, saray, olet və b. tayfaların adlarım əks etdirir. Monqol işğalları nəticəsində Altay, Qazaxıstan və Mərkəzi Asiya xalqlarının çəkdiyi bəlaların həcmini təsəvvürə gətirmək çətindir. Çoxlu şəhərlər və kəndlər xarabazarlığa çevrildi. Suvarma kanalları dağıldı, nəticədə əkinçiliyin inkişafı ləngidi. Monqol işğalları böyük bir ərazidə etnik təlatümlərə səbəb oldu: əhalinin etnik tərkibi dəyişdi, çoxları öz yerlərini tərk edib başqa yerlərdə məskunlaşdı. Deyildiyi kimi, monqollar işğal etdiyi ərazilərə mədəniyyət gətirmədilər, çünki onlar mədəni səviyyəcə yerli əhalidən aşağıda dururdular və həm də dövləti idarə sistemində elə bir dəyişiklik yaratmadılar. Monqol ə'yanları yerli feodalları öz tərəflərinə çəkir və onların vasitəsilə vergiləri yığırdılar. Monqollar ticarətlə məşğul olmurdular. Ona görə də müsəlman tacirlərindən istifadə edirdilər. Müsəlman olmadıqlarına görə monqollar əvvəllər islam dininə məxsus binaları dağıdırdılar, lakin sonralar müsəlman ruhanilərindən öz məqsədləri üçün istifadə etməyə başlamışdılar. İstismar olunan geniş kəndli kütlələrinin, sonradan sənətkarların monqol ə'yanlarına qarşı üsyanları başlandı. 1238-ci ildə Buxara yaxınlığındakı Taras kəndində bir sənətkar (o, çit toxumaqla məşğul idi) - Mahmud Tərabi (əsl adı Mahmud) başına yoxsul kəndliləri və sənətkarları yığıb monqol hakiminə qarşı üsyan qaldırdı. Tezliklə üsyanın dalğası Buxaraya keçdi. Üsyançılar Buxara yaxınlığında Əbuxəfəs dağına yığışdılar. Onlar silahlanaraq Buxaranı monqol əsarətindən qurtarmaq üçün canlarından keçəcəklərinə söz

verdilər. Oradan Buxaraya gəlib hakimiyyəti ələ aldılar. Lakin monqol feodalları kənarda qoşun düzəldib üsyançıların üstünə hücuma hazırlaşırdılar. Üsyançılar bu qoşunu qabaqlamaq üçün hücuma keçdilər, lakin Mahmud Tərabiyə dəyən ox onu öldürdü. 20 min üsyançı öldürüldü. Monqol qoşunu İldiz noyon başda olmaqla başsız qalmış üsyançı dəstələrini qırdı. Üsyan məğlub olsa da, monqollar görürdülər ki, əhali onların hakimiyyətindən narazıdır.

1235-ci ildə Monqol imperiyasının paytaxtı olan Qaraqorumda monqol ə'yanlarının qurultayı toplandı. Burada Avropanı işğal etmək üçün qərbə yürüş planı qəbul edildi. Orduya Çingizin nəvəsi Batu başçı təsdiq edildi. Batunun qoşunları Yaik (Ural) çayını keçərək, 1236-cı ildə Volqaboyu Bulqar dövlətinin ərazisini tutdular, sonra isə rus knyazlıqlarının torpaqlarına girdilər. 1237-ci ildə Ryazan knyazlığının hüdudlarına girən Batu qısa vaxt ərzində rus şəhərlərini tutdu. Batu Novqorod və Moskvanı tutub yandırdı və 1240-cı ildə rus torpaqlarının işğalı başa çatdırıldı və 1241-ci ildə monqol qoşunu Polşaya daxil oldu. Lakin Batu xan oradan qayıdıb Qızıl Orda dövləti yaratdı.

1248-ci ildə Monqol imperiyasında hakimiyyətə Tuyuk xan keçdi. 1251-ci ildə Qaraqorumda qurultayda isə onun yerinə Tuluy xanın oğlu Munkə (Manqu) xan seçildi. Onda Batu xan və Munkə xan Cağatay ulusunu ləğv etdilər, ərazisini isə öz aralarında bölüşdürdülər.

1269-cu ildə Çingizin nəslindən Xaydu xan Ugedey və Cağatay uluslarını birləşdirərək Xaydu dövlətinin əsasını qoydu. Bura Mərkəzi Asiyanın çox hissəsi daxil idi.

Lakin XIII əsrin 60-cı illərində Cağatayın nəslindən Alqu xan ulusu bərpa etdi. Ulusun xanı Kəbək xan dövründə (1318-1326) Cağatay ulusu qüvvətləndi. Onun vaxtında əhalinin vəziyyəti bir qədər yaxşılaşdı, əkinçilik inkişaf etdi. Lakin Tarmarşirin xanın (1326-1334) hakimiyyəti illərində Mərkəzi Asiyada monqol hakimiyyəti tənəzzülə doğru getdi.

Monqol imperiyasına daxil olan indiki Qırğızıstan ərazisində və Tyan-Şan əyalətində XIV əsrin II yarısında Moqolistan adlı siyasi qurum yarandı. Bu qurum qərbdə Sırdərya, şərqdə və şimal-şərqdə İrtış çayına qədər, cənubda Tyan-Şanın cənub yamaclarına qədər bir ərazini əhatə edirdi.

Hələ 1207-ci ildə Çingiz xanın böyük oğlu Cuçinin (1184-1226) başçılığı ilə monqol ordusu Cənubi Sibiri işğal etmişdi. Sayan-Altay yüksəkliyi tabe edildi və qədim Xakas dövlətinə son qoyuldu. Xakas dövlətinin hakimləri Edi, İnal, Aldiyer və Olabək-Tiqin Cuçinin asılılığına keçdilər. Bundan sonra Çingiz xan Şimali Mancuriyada curcenlərin dövlətinə son qoydu. 1208-ci ildə monqollar Cənubi Sibiri işğal etdilər. Cənubi Sibir Cuçi ulusuna daxil edildi. Onun paytaxtı İrtış üzərində idi. Cuçi 1226-cı ildə öldükdən sonra Sayan-Altay yüksəkliyi Tuluyun ulusuna daxil edildi. O, 1233-cü ildə öldükdən sonra isə arvadı Sərkuk-Tani bəyimə keçdi. Bu arvadın Munkə, Xubilay, Hülakü və Arıq-Buqa adlı oğlanları vardı.

Munkə böyük xan seçiləndən sonra (1251-1259) Arıq-Buqa Sayan-Altayı ələ keçirdi. Belə bir şəraitdə qardaşı Xubilay ona qarşı çıxdı. Bu vaxt artıq Munkə ölmüşdü və 1260-cı ildə Arıq-Buqa ilə Xubilay arasında baş vermiş döyüşdə Xubilay qələbə çaldı. Arıq-Buqa 1260-cı ildə öldü və onun torpaqlarının ərazisi oğlanlarına qaldı. Lakin 1273-cü ildən Yeniseydə yerli hakimlər ağalıq etməyə başladılar. 1291-1293-cü illərdə Xubilay əslən qıpçaq Tutukun başçılığı ilə Yeniseyə böyük ordu göndərdi və o, qədim Xakas dövlətinə son qoydu.

### *§4. Moqolistan dövləti*

XIV əsrdə Cağatay ulusunda feodal ara müharibələri genişləndi. 1360-1370-ci illərdə ulusda 20 xan bir-birini əvəz etmişdi. Nəticədə təsərrüfat həyatı tənəzzülə doğru gedir, əkinçilik zəifləyir, şəhər və kəndlər dağılırdı. İri torpaq sahibləri olan feodallar qüvvətlənirdilər. Belə feodallardan biri türk tulat tayfasından Puladçi adlı birisi idi. İssık-Kul, Kuçar və Kaşqar arası ərazinin hakimi olan Puladçi Cağatay

ulusundan ayrılıb müstəqil olmağa çalışırdı. O, bu məqsədinə nail oldu. Onun varisi Tuqluq Teymur özünü sultan e'lan etdi. Bununla da Cağatay ulusunun cənub hissəsində (İli əyalətinin bir hissəsi, Yeddiçayarası və Şərqi Türküstan) xanlıq yaratdı. Bu xanlıq Moqolistan adlanırdı.

Az sonra Tuqluq Teymur Mərkəzi Asiyaya işğalçı hərbi səfərlər təşkil etdi. Məhz bu səfərlərlə əlaqədar olaraq aşağıda deyəcəyimiz kimi əmir Teymur ortaya çıxdı və Moqolistan xanlığına son qoydu.



## *II fəsil*

## *CƏNUB-ŞƏRQİ AVROPADA MONQOL İŞĞALLARI*

### *§1. Qızıl Orda dövləti*

Monqol imperiyası yarandıqdan sonra işğalçılıq müharibələri hələ də davam etməkdə idi. XIII əsrin 50-ci illərində İran və Cənubi Qafqaz da işğal edilmişdi. Ön Asiyada Bağdad xilafəti darmadağın edilmiş, xəlifə tutulub öldürülmüşdü. Həmin əsrin 70-ci illərində bütün Çin də tutulmuşdu. Ordanın dəqiq sərhədləri mə'lum deyil. Tədqiqatçılara görə bu dövlət şərqdə İrtış çayı və Altay dağlarının ətəklərinə, Sırdəryanın orta axınına, cənubda Dərbəndə, Qara dəniz sahillərinə və Krım daxil olmaqla böyük əraziyə malik idi. Böyük bir ərazini əhatə edən imperiyanın idarə olunması çətinləşmişdi. 1229-cu ildə monqol feodallarının Qurultay adlanan yığıncağında Şərqi Avropaya hərbi səfərin təşkili haqqında qərar qəbul olunmuşdu. Bu qərara uyğun olaraq, mə'lum olduğu kimi, 1235-ci ildə Çingizin nəvəsi Batu xan Avropanı işğal etmək üçün Qərbə yürüşə başladı. Onun 150 minlik atlı ordusu Yaik (Ural) çayını keçərək 1236-cı ildə Bulqar çarlığını tutmuş, sonra 1237-ci ildə rus torpaqlarına Ryazan knyazlığının hüdudlarına daxil olmuşdu. Rusiya feodal pərakəndəliyi dövrünü keçirdiyinə görə knyazlıqlara bölünmüşdü. Vahid ordu yox idi, hər knyazlıq ayrılıqda vuruşurdu. Tezliklə monqollar Ryazan, Moskva və b. şəhərləri tutub, 1238-ci ilin 7 fevralında Vladimiri ələ keçirib əhalini qırdılar. 1239-cu ildə Pereyaslavl tutuldu. 1240-cı ildə Batu Kiyevə daxil oldu. Lakin 1243-cü ildə Batu geri - Volqa sahillərinə qayıtdı. 1243-cü ildə Batu xan Rusiyaya və Şərqi Avropaya yürüşdən qayıtdıqdan sonra artıq müstəqil dövlətə çevrilmiş Cuçi ulusunun başçısı oldu. Mərkəzi Asiya torpaqları əvvəlcə

Çingiz xanın oğlu Cağatayın ulusuna daxil idi. XIII əsrin 50-ci illərindən Amudərya çayından cənubdakı torpaqlar (indiki Türkmənistan) Cənubi Qafqaz, İran və Fərat çayına qədər İraq Çingiz xanın nəvəsi Hülakünün ulusuna çevrilmişdi. Çin, Mərkəzi Asiya, Cənub-Şərqi Sibir və Uzaq Şərq Çingizin böyük oğlu Xubilaya mənsub idi.

Cuçi ulusunun özəyini qıpçaqların Dəşti-Qıpçaq adlanan əyaləti və Volqaboyu təşkil edirdi. Ulusun tərkibinə Dnepr çayından tutmuş Qərbi Sibirə qədər olan torpaqlar, Şimali Xarəzm və Ürgənc şəhəri ilə birlikdə Sırdəryanın aşağı axarı, cənubda Krım və Şimali Qafqaz daxil idi. Rus knyazlıqları da bu ulusa daxil idilər. Cuçi ulusu həm Kök Orda, həm də Qızıl Orda adlanırdı. Qızıl Ordanın əsasını Batu xan qoymuşdu. Qərbdə Dunaydan Fin körfəzinə qədər uzanan Ordada rus knyazlıqları vassal vəziyyətində idilər. Qızıl Orda ilk vaxtlar Monqolustanda oturan böyük monqol xanına tabe idi, XIII əsrin 50-ci illərindən isə müstəqil olmuşdu. Orda hələ yarandığı dövrdə Cuçinin 14 oğlu arasında uluslara bölüşdürülmüşdü. Batu xanın sağlığında indiki Həştərxan yaxınlığında salınmış Saray şəhəri ulusun paytaxtı idi. Şəhər əvvəlcə Saray-Batu adlanırdı. Sonralar paytaxt indiki Volqaqradın yaxınlığında salınmış Saray-Berkə şəhəri olmuşdu.

Qızıl Ordanın tərkibindəki rus knyazlıqlarının tarixinə biz toxunmayacağıq, çünki ayrı kursun mövzusudur. Diqqəti Sibir, Qazaxıstan və Mərkəzi Asiyanın bu dövrdəki tarixinə yönəldəcəyik.

Qızıl Ordaya Çingizlər nəslindən olan və "qurultay"da seçilən xan başçılıq edirdi. Ulus otlaqlarının ərazisi və köçəri əhalisi xan nəslinin üzvləri və noyonlar (bəylər), yə'ni iri qıpçaq-tatar feodalları arasında bölüşdürülmüşdü. Bu feodallar həm də yüzbaşı, minbaşı vəzifələrini daşıyırdılar. Feodal təsərrüfatının əsasını aul adlanan köçəri kəndli ailələrinin təsərrüfatları təşkil edirdi. Aul feodal tərəfindən onun üçün ayrılmış otlaqda köçərilik edirdi, feodala ətlik mal-qara, at və s. verir, onun xeyrinə müxtəlif mükəlləfiyyətlər yerinə yetirirdi. Qızıl Ordanın siyasi tarixi çox təlatümlü keçmiş,



çoxlu daxili və xarici müharibələrlə müşayiət olunmuşdur. Batu xan dövründə (1236-1256) Qızıl Orda monqol uluslarından ən qüvvətlisi idi. Dövlət şərqdə İrtış və Çuman, Altay dağətəyi və Balxaş, cənubda Sırdəryanın orta axını, Dərbənd, qərbdə Dnepr və Krımla sərhədlənirdi. Batu xan ömrünün son illərində hətta Mavərənnəhri də əlinə keçirmişdi. Onun yerinə keçmiş qardaşı Bərkə xan (1257-1266) dövründə Mavərənnəhr Qızıl Ordadan geri alınmışdı, lakin müstəqil dövlət olaraq qalmaqda idi. Bunu Qızıl Orda xanları ilə Hülakülər dövlətinin Azərbaycanı ələ keçirmək uğrunda arasıkəsilməz müharibələri aydın göstərir.

Qızıl Ordanın qüvvətli dövlətə çevrilməsində Özbək xan (1312-1342) böyük rol oynamışdı. Özbək xan dövründə Ordanın qonşu ölkələr və dövlətlərlə ticarət münasibətləri genişlənmişdi. İslam dininin geniş yayılması şərq ölkələri ilə ticarət əlaqələrinin genişlənməsinə səbəb olmuşdu. Özbək xanın oğlu Canibəy (1342-1357) dövründə də dövlət hərbi cəhətdən çox qüdrətli idi. Özbək xanın hərbi qüvvəsi 300 min nəfərə çatırdı. Qızıl Orda bir müddət Xorasan və Azərbaycanı da ələ keçirmişdi. 1356-cı ildə Canibəy Dərbənddən keçib Azərbaycana hücum etmiş və Qarabağın kəndlərini talamışdı (onu da qeyd edək ki, Azərbaycanda indiki Ağdam şəhərinin adı mənbələrdə ilk dəfə Canibəyin Qarabağa bu səfəri ilə əlaqədar hadisələrdə çəkilir). Lakin Canibəy öldükdən sonra oğlu Berdibəy (1357-1361) dövründə Qızıl Ordada hakimiyyət uğrunda saray münaqişələri gücləndi və didişmələr 1380-ci ilə qədər davam etdi. 1362-ci ildə Qızıl Orda iki düşmən hissəyə ayrıldı. Onları Volqa ayırırdı. Volqa-Don-Dnepr çaylararası ərazi, Şimali Qafqaz və Krım Mamay xana tabe idi. Volqadan şərqdə olan ərazilər isə saray xanları tərəfindən idarə olunurdu. Kulikovo çölündə rus qoşunları ilə Qızıl Ordanın qoşunları arasında 1380-ci il sentyabrın 8-də baş vermiş döyüş Ordaya zərbə vurdu. Bu hadisədən sonra Orda zəifləməyə başladı. Hakimiyyət uğrunda mübarizə gücləndi. 1357-1380-ci illərdə Qızıl Ordada 25-dən çox xan dəyişmişdi. Orda ərazicə getdikcə kiçilməyə başladı. XIV əsrin 60-cı

illərində Xarəzm müstəqilləşdi, sonra da Həştərxan ayrıldı. Polşa və Litva Qızıl Ordanın tabeliyində olan Dneprboyu torpaqları işğal etdi.

Doğrudur, Toxtamış xan dövründə Qızıl Orda yenidən yüksəliş dövrü keçirdi. Mərkəzi hakimiyyət gücləndi və iki hissəyə bölünmüş Orda yenidən birləşdi. 1382-ci ildə Toxtamış Moskvanı tutub yandırdı, sonra isə Teymurləng ilə müharibəyə başladı. Lakin Teymur 1389-1396-cı illərdə bir neçə vuruşmada Toxtamışın ordusunu məğlub etdi və bundan sonra Qızıl Orda əvvəlki mövqeyini itirdi.

XV əsrin 20-ci illərindən başlayaraq Qızıl Orda parçalandı. Onun ərazisində müstəqil Sibir, Kazan, Krım, Qazax, Özbək, Həştərxan xanlıqları və Noqay Ordası yarandı. 1480-ci ildə rus knyazlıqları da Qızıl Ordanın əsarətindən çıxdılar.

***Qızıl Orda dövründə ictimai iqtisadi vəziyyət.*** XIII əsrin II yarısında Qızıl Ordanın əhatə etdiyi ölkələrdə təsərrüfat həyatında dirçəliş nəzərə çarpırdı. Qızıl Ordanın paytaxtı İtil (Volqa) çayı sahilində yerləşən Saray şəhəri idi. Şəhər Bərkə xan tərəfindən salınmışdı. 1333-cü ildə 29 yaşlı ərəb səyyahı ibn Bətutə* Sarayda olmuş və onun təsvirini vermişdir. O, qeyd edir ki, şəhərdə çoxlu bazar və məscid vardır. Orada müxtəlif ölkələrdən gəlmiş tacirlərin olduğunu yazan səyyah sənətkar məhəllələrinin olduğunu da qeyd etmişdir. Şəhərin xarabalıqları indi də Həştərxan vilayətində qalmaqdadır. XIII əsrin 80-ci illərindən başlayaraq orada pul kəsilirdi. Bə'zi tədqiqatçılar Saray şəhərinin yaxınlığında Gülüstan adlı qəsəbənin olduğunu da söyləyirlər. Ehtimal olunur ki, orada xanın qərargahı və sarayı yerləşirdi. Şəhər 1395-ci ildə Əmir Teymur tərəfindən dağıdıldıqdan sonra tədriclə tənəzzülə uğramışdı. Sırdərya kənarında Ürgənc (indi Köhnə Ürgənc) şəhəri vaxtilə monqol işğallarının başlanğıcında demək olar ki, dağıdılmışdı. Lakin Qızıl Orda vaxtında ticarətin

* *İbn Bətutə ondan əvvəl Ərəbistan və Şimali Afrikada olmuş, 8 il müsəlman dünyasını səyahət etmiş, İran və İraqdan keçərək Qara dənizi gəmi ilə üzüb Cənub-Şərqi Avropaya, o cümlədən Saraya gəlmişdi.*



inkişafı ilə bağlı olaraq şəhər dirçəlmişdi. Belə ki, şəhər Böyük İpək yolunun kəsişdiyi yerdə yerləşirdi. Hələ Batu xan dövründə Yaxın Şərq və Şərqi Avropa ölkələri ilə ticarət bərpa olunmuşdu. Yüz ildən çox müddət ərzində - XIII əsrin ikinci yarısından XIV əsrin ortalarınadək Çin və Mərkəzi Asiya məhsulları Şərqi Avropaya Ürgəncdən keçən ticarət yolu ilə aparılırdı. Lakin Ürgəncin inkişafı bütövlükdə Xarəzm ərazisinin çiçəklənməsi demək deyildi.

Monqol işğalları Xarəzmə və ümumiyyətlə, Mərkəzi Asiyanın bir sıra əyalətlərinə elə zərbə vurmuşdu ki, təsərrüfatın dirçəlməsi və işğaldan əvvəlki vəziyyətə çatması üçün hələ çox vaxt lazım idi. Suvarma əkinçiliyinin azalması özünü xüsusilə göstərirdi.

XIV əsrin 60-cı illərində Xarəzm müstəqillik əldə etmişdi. Türkləşmiş monqol tayfası olan kunqrat tayfasından çıxmış Sufi adlı feodal sülaləsi hakimiyyəti ələ almışdı. O, hətta öz adından, Qızıl Orda xanının adını çəkmədən 1361-ci ildə qızıl və gümüş pul buraxmışdı.

Qızıl Orda xanı dövründə türkmən tayfalarının məskunlaşdığı Qara-Qum və Ust-Yurt əyalətləri Canibəy tərəfindən idarə edilirdi. Lakin yerlərdə hakimiyyət türkmən bəylərinin əlində idi, onlar ancaq illik xərac verirdilər. Türkmənlər 1355-1356-cı illərdə Qızıl Orda xanları tərəfindən Türkmənistana göndərilmiş Sankli-Sin adlı feodalı öldürmüşdülər. Maraqlıdır ki, əlavə vergi yığmağa gəlmiş bu feodalı Ayaz adlı bir yoxsul kəndli qətlə yetirmişdi.

Qızıl Orda zamanında Türkmənistanın şimalında təsərrüfat və ictimai quruluş haqqında türkmən tarixçisi Əbülqazi xan Xivəli (XVII əsr) ətraflı mə'lumat verir. Onun yazdığına görə maldarlar vergini pulla yox, mal-qara ilə verirdilər. Bundan başqa, tələb olunduqda hərbi qüvvə də toplayıb verməli idilər. Bu onu göstərir ki, bu vaxt türkmən tayfaları hələ köçəri həyat keçirirdilər. Lakin Amudərya sahillərində əhalisi əkinçilik və sənətkarlıqla məşğul olan kiçik şəhərlər də vardı: Şamaxı (buna Şamaka-Kala da deyilirdi), Yengi-şəhər (yaxud Ak-Kala ), Vəzir və b.

XIII-XIV əsrlərdə Türkmənistan ərazisində iri tayfa ittifaqları yaranmışdı. Onlar sonralar türkmən xalqının formalaşmasında mühüm rol oynamışdılar.

## *§2. Noqay dövləti*

XIII əsrin birinci yarısında Qara dənizin şərq sahillərini - Don və Dnepr çaylarının arasındakı ərazini və Krımı idarə edən minbaşı Noqay güclənmişdi və onun ərazisi Qızıl Orda sərkərdəsi Noqayın (1300-cü ildə ölüb) adı ilə adlanmışdır. Noqay Cuçi xanın nəvəsi idi. Bərkə xanın qoşununun başçısı olan Noqay Bərkə xan öldükdən sonra Don çayından tutmuş Dunay çayınadək böyük ərazini öz nəzarəti altına keçirmişdi. 1273-cü ildə Noqay Bizans imperatorunun qızına evlənmiş və bununla dövləti ilə Bizans arasında müttəfiqlik yaratmışdı. Lakin o, bu ərazidə yaşayan türk tayfalarını itaəti altında saxlaya bilmədi. Noqay öldükdən sonra onun dövləti dağıldı.

## *§3. Noqay Ordası*

Noqay Ordasının ərazisi noqay tayfalarının maldarlıq təsərrüfat həyatının xarakteri ilə müəyyən olunurdu. Bu xarakter isə maldarlıq üçün yararlı landşaftdan asılı idi. Noqaylar bir sıra tayfalardan ibarət idi. Tayfalar isə maldar həyat tərzi ilə əlaqədar olaraq səpələnmiş vəziyyətdə idi. Maldar ellərdən vergi toplayanlar uluslara bölünmüş ərazilərin başçıları ( "Murza" adlanırdı) ilə əlaqə saxlayırdı. Yalnız murzalar bu və ya digər tayfanın harada köçərilik etdiyini bilirdi.

Noqay Ordasının dəqiq sərhədlərinin müəyyənləşdirilməsinin çətinliyi də bundadır.

Bəzi tədqiqatçılara görə Noqay Ordası XIV-XVI əsrlərdə İrtışdan Dunaya qədər uzanırdı.

XVI əsrin ortalarında Noqay Ordası üç hissəyə parçalanmışdı: Şeyx - Mamayın yurdu (Yaikdən Sırdəryaya qədər),



Həsənbəyin (daha dəqiq Həsənbiyin) yurdu. Volqanın aşağı axarından Dağıstanın şimalında Kuma çayınadək (Ordanın bu hissəsi Böyük Noqay Ordası adlanırdı və başçısı Yusif adlanırdı). Əlbəttə, Ordanın sərhədləri barədə bu məlumatlar təxminidir. Son tədqiqatlar Noqay Ordasının sərhədlərini belə müəyyən etmişdir: qərb sərhəddi - Azov dənizi, Kuban vadisi, Volqa çayı (Həştərxandan Kama çayının Volqaya tökülməsinə qədər); şimal sərhəddi: Samaradan Belaya çayına qədər; şərq sərhəddi: Emba çayından Aral dənizinə qədər; cənub sərhəddi: Sırdəryanın cənub axarından Yaik və Volqa çaylarının aşağı axarlarına qədər (V.V. Trepavlov. İstoriş Kgqaznigz gmğx. Y., 2002, n.459).

Noqay elinin tayfaları: Az, aksürküt, alçin, baday; Bayis, Bayılu, batar, bayaut, bodrak, burlak, bulaçi, burkut-butas. Calair, Curut, duvan, durmək, kazak, kanqlı, Karakitay; kat, kataqan, kenqes, kenekey keniterk, kereit, kerey, kiqit, kipçak, kirqiz, kirqin, kirk, kitay, kişlik, kiyat, kula-ayan, kunqrat, madcar, manqıt, maşkar, merkit, mesit, minq, nayman nukus, anqut, saray, siciut, solut, tama, temir-xoca, toqay, toqunçi, tüytübe, türkmən, turçak, özbək, uymaut, uyşuk, çalciut, çat, çubalaçi, çumişla, şakmançi, şəməndən, uz, kulaçi, teleut, uyğur və çimbay (Omdlavıgv B.V. Jnogmjş Kgqaznigz Gmğx, n.503-504).

XIV əsrin sonu - XV əsrin əvvəllərində Qızıl Orda xanı Yedigeyin vaxtında Ordanın Xəzərin şimal sahillərindən və Aral dənizi ətrafından Kama çayına, Volqa çayından İrtış çayına qədər olan ərazisi ayrılaraq müstəqil dövlətə çevrildi. Yedigeyin oğlu Nurəddin (1426-1430) bu dövlətin banisi idi. Onun oğlu Noqay noyonun adı ilə dövlət Noqay Ordası adlanırdı. Ordanın paytaxtı Volqa çayının kənarında Sarayçik şəhəri idi. Ordanın əhalisi əsas e'tibarilə monqol dilli manqutlardan və türkdilli kunqratlardan ibarət idi. Bu iri tayfa birləşmələri əvvəllər köçəri maldarlıqla məşğul olurdular. Lakin Orda xanları vaxtında qismən oturaq həyata keçməyə başlamışdılar.

Noqay ordasının Böyük və Kiçik ordaya parçalanması nəticəsində Kara Noqay adı ilə indiki noqaylar formalaşmağa

başlamışdır. Kara noqaylar Azovətrafı ərazidən Terek çayının aşağı axarlarına qədər olan ərazidə yaşayırdılar. Çoban-Murza və Biy Murzanın başçılıqları ilə bu noqaylar 1616-cı ildə Don çayının hövzəsində məskunlaşmışdır.

Rus mənbələrində 1644-cü ilə aid sənəddə Şimali Qafqazda Kuma çayının ətrafında yaşayan iki noqay köçünün yaşadığı qeyd olunur.

Böyük Noqay Ordasının noqayları isə XVII əsrin əvvəllərinə qədər hələ də Volqa boyunda yaşamaqda davam edirdilər. Lakin onlar oradan Kiçik Noqay ordasına mənsub noqaylara tərəf hərəkət etmiş və onlara qarışmışlar. Onların əsasında XV əsrin ikinci yarısında indiki Noqay xalqı formalaşmağa başladı. Az sonra Orda Toxtamış tərəfindən işğal olundu.

### §4. Ağ Orda

XIII əsrin II yarısında Qızıl Ordadan Xarəzm və Volqa Bulqariyası da ayrıldı. Ordanın parçalanması nəticəsində Qazaxıstan ərazisində Ağ Orda adlı dövlət qurumu yarandı. Onun tərkibinə Araldan şimal-şərqə Sırdərya çayının hövzələri, İşim və Sarı Su çaylarına qədər olan ərazi daxil idi. Bu ərazidə monqol işğallarından əvvəl Sabran (yaxud Şabran), Sıqnak, Yengikənd və b. şəhərlər yerləşirdi. Monqol işğalları nəticəsində bu şəhərlər süqut etmiş, sonra tədricən dirçəlməyə başlamışdılar. Ağ Ordanın paytaxtı Sıqnaq (əsli Suqnak) şəhəri idi. Dəşti-Qıpçağın bütün şərq hissəsi Ağ Ordanın tərkibinə daxil olmuşdu. Məhz Qızıl Orda vaxtında bu dövlətin ərazisindəki tayfa birləşmələri "kazax" və "özbək" etnik adlarını almışdı. Ağ Ordanın ilk xanı Sultan Sası-Buka idi. O, əvvəlcə Qızıl Orda xanlarından asılı vəziyyətdə idi. O öləndən sonra yerinə oğlu Ərzən keçdi. Qeyd edilməlidir ki, onun vaxtında Sırdərya hövzəsində olan şəhərlər bərpa olunmağa başlayır, suvarma əkinçiliyi və sənətkarlıq inkişaf edirdi. Ordanın xanları şəhərlərdə ticarətə himayəçilik



edirdilər. Buranın əhalisi *bütünlüklə* islam dininə keçmişdi. Ona görə Ərzən məscid və mədrəsələrin tikintisinə xüsusi diqqət verirdi. Ərzən Ordanın dəqiq sərkərdələrini müəyyənləşdirmiş və öz nəslindən olan adamları sultan tə'yin etmişdi. Ərzənin oğlu Mübarək-Xoca dövründə Ağ Orda Qızıl Ordadan tamamilə ayrılmaq təşəbbüsündə olmuşdu, lakin Qızıl Orda xanları Ağ Ordanı vassal asılılığında saxlamağa çalışırdılar. Bu özül üzərində Qızıl Orda və Ağ Orda xanları arasında qanlı müharibələr baş vermişdi və ona görə də Ağ Orda feodal müharibələrini qızışdırırdı. 1354-1364-cü illər arasında Ağ Ordada hakimiyyət uğrunda mübarizədə 8 xan öldürülmüşdü.

Uruz xan (1361-1380) dövründə Ağ Orda Qızıl Ordadan ayrıldı və Uruz özünü müstəqil xan e'lan etdi, sonra da Dəşti-Qıpçaq feodallarının köməyinə arxalanaraq Qızıl Ordaya qarşı hərbi səfər təşkil etdi. XIV əsrin 70-ci illərində Uruz xan Həştərxanı, 1374-cü ildə Ordanın paytaxtı Saray-Bərkəni tutdu. Lakin Ağ Ordanın qüvvətlənməsi çox çəkmədi, çünki bu vaxt Mərkəzi Asiyada yeni bir cahangir - Teymur meydana çıxmışdı və tezliklə Orda Teymurun əlinə keçdi.

### §5. Qazan xanlığı

Qızıl Ordanın parçalanması nəticəsində Volqanın orta axınında Qazan xanlığı yaranmışdı. Xanlığın yaranmasını müəyyən iqtisadi-ictimai amillər şərtləndirmişdi. Bulqarların Bulqar və Suvar şəhərləri süqut etdikdən sonra Volqaboyunda Qazan şəhəri təşəkkül tapmış və onun əsasında isə XIV əsrin ikinci yarısında kiçik bir İski Qazan (yə'ni, Əski Qazan) knyazlığı yaranmışdı.

Knyazlığın mərkəzi kiçik Qazan şəhəri idi. Şəhərin ərazisindən axan çay da Qazan çayı adlanırdı.

Burada kiçik bir haşiyə çıxaraq Qazan şəhərinin adı və mə'nası haqqında qısaca danışmaq lazım gəlir, çünki Azərbaycanda və Ermənistan ərazisində də Qazançı adlı kəndlər vardır. İş burasındadır ki, qədim türk bulqarlarının böyük tay-

falarından biri Qazan adlanmışdır. Bu tayfa adının işlətdiyimiz qazan (xörək bişirilən qab) sözü ilə heç bir əlaqəsi yoxdur, yalnız zahiri oxşarlığı var. Dilimizdə "qazan" sözünün qədim türk forması "qazqan"dır. Şimali Qafqaz çöllərində yaşayan bulqarların bir hissəsinin hələ e.ə.P əsrdə Cənubi Qafqaza gəlməsi, sonra xəzərlərin tərkibində də bulqarlara mənsub ailələrin Azərbaycana gəlib məskunlaşması mə'lumdur. Bunu Azərbaycanın cənub-şərqindəki Bolqarçay (Araza tökülür) adı da göstərir. Ehtimal olunur ki, bolqarların qazan tayfasına mənsub ailələri Cənubi Qafqaza da gəlmiş və Qazançı kəndlərini salmışdır ("-çı" şəkilçisi bu adda heç də məşğuliyyət yox, mənsubiyyət bildirir). Deməli, Volqaboyu bulqarların içərisindəki Qazan tayfası da məhz indiki Qazan şəhərinin əsasını qoymuşdur. Bu dediklərimiz Azərbaycanda aparılmış toponimik tədqiqatlara əsaslanır.

Qazan şəhəri XV əsrdən mə'lumdur və hazırda tatarların paytaxtıdır.

Qazan xanlığı əsas e'tibarilə bulqarların ərazisini əhatə edirdi. Xanlığın ərazisində indi bulqarlardan başqa çuvaşlar, mordvalar, marilər, başqırdlar, udmurdlar və b. yaşayırdılar. Qərbdə Qazan xanlığının ərazisini Moskva knyazlığından Sura çayı ayırırdı. Şərqdə Qazan xanlığı Vyatka çayına qədər uzanırdı. Qazan xanlığının əhalisi artıq bulqar yox, tatar adlanırdı ki, bu da monqolların işğallarından sonra ora gəlmiş ən qədim türkmənşəli tatar tayfasının adı ilə bağlıdır. Lakin tatar xalqının formalaşmasında iştirak edən əsas etnik ünsür qədim bulqarlar idi.

***İctimai-iqtisadi quruluş.*** Xanlıqda feodal istehsal üsulu mövcud idi: torpaqlar tək-tək feodalların əlində cəm olunmuşdu. Kəndlilər feodallara məxsus icmalarda yaşayırdılar və icarəyə götürdükləri torpaq paylarının əvəzində illik yasaq (vergi) verirdilər. Xan, onun ailə üzvləri və iri feodallar böyük torpaq sahibləri idilər. Xan hərbi qulluğa görə tarxanlara torpaq verirdi. Şərq ölkələrində, məsələn, Mərkəzi Asiyada bunun "iqta" adlandığını yuxarıda demişdik. Müəyyən vaxtdan sonra çox hallarda tarxanlar həmin torpaq sahələrini öz



mülklərinə çevirirdilər. Bundan başqa məscidlərə də torpaq sahələri verilmişdi ki, bu, "vəqf" torpağı adlanırdı. Qazan xanlığında əhalinin əsas məşğuliyyəti *əkinçilik idi*. Qeyd edilməlidir ki, əhali qabaqkı əsrlərdən fərqli olaraq köçəri maldarlıqla məşğul olmurdu. Hələ Bulqar dövləti vaxtında əhali içərisində oturaq əkinçilik sistemi vardı. İkinci təsərrüfat məşğuliyyəti maldarlıq idi. Tatarlarda əsas qoşqu heyvanı at idi. Ona görə tatarların böyük at ilxıları var idi. Qazan şəhəri iri ticarət və sənətkarlıq mərkəzi idi. Qədim bulqarların ən'ənəsini davam etdirən sənətkarlar dəri, gön və xəz mə'mulatı üzrə ixtisaslaşmışdılar və onların məhsulları həm daxildə satılır, həm də xaricə aparılırdı. Tatar sənətkarları müxtəlif metal növlərindən əşyalar və bəzəklər hazırlamaqda məşhur idilər.

Qazan şəhərində XV əsrin sonlarından e'tibarən iki böyük daimi bazar vardı. Bu bazarlarda həm xanlığın kəndlərindən gələnlər, həm də Volqaboyundan, Sibirdən və Şərqi Avropadan, o sıradan Krımdan və Rus dövlətindən gələn tacirlər alver edirdilər. 1552-ci ilin mə'lumatına görə, Qazanda 5 min nəfər xarici tacir və alverçi yaşayırdı. Maraqlı budur ki, mənbələrdə həmin tacirlər içərisində "buxaralı" və "şamaxılı" adları da çəkilir. Bundan başqa hər ilin 24 iyulunda şəhərdə ticarət *yarmarkası təşkil edilirdi. Yarmarkada* İrandan, Həştərxandan, Krımdan, Mərkəzi Asiyadan və Qafqazdan gəlmiş tacirlər fəal iştirak edirdilər. Ticarət xanlığa böyük gəlir gətirirdi. Ona görə şəhərdə iri karvansaraylar, qonaq evləri, məscidlər tikilir, planlı küçələr salınırdı. Şəhərdə çoxlu hamam tikilmişdi. Qeyd edilməlidir ki, o vaxtdan Volqaboyunda və sonra bütün Rusiyada Qazan yeganə şəhər idi ki, şərq üslubunda daima fəaliyyətdə olan hamamları vardı.

Xanlığın ərazisində çoxlu kiçik şəhərlər də vardı: Ələt, Tətəş, Qullar, Şəki, Alabuqu və s.

Yuxarıda deyildiyi kimi, xanlıqda əhalinin əsas hissəsini tatar dilində "qara xalıq" (yə'ni, qara xalq, qara camaat) adlanan kəndlilər - rəiyyət təşkil edirdi. Onlar torpaqdan istifadə etdiklərinə görə öz gəlirlərindən vergi (yasaq) verirdilər.

Yasaq məhsulun onda bir hissəsini əhatə edirdi. Kənd yerlərində əhali "qara xalq" "aksakkal" adlanan qocalar tərəfindən idarə edilirdi. Lakin "aksakkal"lar icmalarda yalnız mə'nəvi başçı idilər. Vergi işlərinə darğalar baxırdılar. Vergilərin ağırlığı kəndli kütlələrini müflisləşdirir və feodallarla kəndlilər arasında sinfi mübarizə kəskinləşirdi. 1496-cı ildə Qazan xanlığında kəndlilərin üsyanı baş vermişdi. Kəndli üsyanları 1524, 1531 və 1546-cı illərdə də olmuşdu. Xanlıqda hakimiyyət uğrunda gedən mübarizə xalq kütlələrinin vəziyyətinə mənfi tə'sir göstərirdi. Qazan xanlığı 115 il yaşamışdır və bu müddət ərzində 14 xan sui-qəsd nəticəsində devrilmişdi.

*Xanlığın daxili və xarici siyasəti.* Qazan xanlığının daxili və xarici siyasəti xanlıqda sabit mərkəzləşdirilmiş hakimiyyətin olmaması ilə səciyyələnirdi. Xanlığın ərazisində bir çox xalqların nümayəndələri yaşayırdı və bu tayfalar xanlığa zorla, hərbi qüvvə ilə birləşdirilmişdi. Buna görə də ayrı-ayrı ulusların hakim feodal qruplaşmaları arasında həmişə mübarizə gedirdi.

Mə'lum olduğu kimi, Qazan xanlığı mənbələrdə ilk dəfə 1445-ci ildən xatırlanır. Xanlığın ilk xanı Ulu Məhəmməd olmuşdur və o, xanlığın əsasını qoymuşdur. Mənşəcə Ulu Məhəmməd Qızıl Orda xanı Toxtamış xanın nəslindən idi. Lakin bə'zi mənbələrə görə xanlığın əsası Ulu Məhəmmədin oğlu Mahmudək tərəfindən qoyulmuşdur. Deyilənə görə Qızıl Orda xanı Ulu Məhəmmədin rəqibi Qiyasəddin tərəfindən hakimiyyətdən salınmış, lakin o, Qiyasəddinin oğlu Kiçik Məhəmmədlə hakimiyyət uğrunda mübarizəni davam etdirmiş və onunla sövdələşmə əsasında Krımda hakimiyyəti ələ almışdır. Krım xanlığının hakimləri onu oradan qovmuşdular. Ulu Məhəmməd üç minlik ordu ilə 1439-cu ildə Moskvaya hərbi səfər təşkil edərək, rus ordusunu məğlub etmiş (rus tarixçiləri bu hadisənin üstündən sükutla keçirlər), 1444-cü ildə Nijni-Novqorodu tutmuşdu. O, oğlanları Mahmudək və Yaqubla birlikdə Suzdal yaxınlığında bir daha rus ordusunu məğlub etdikdən sonra, oğlu Mahmudək (1445-1466) hakimiyyətə gəlmişdi. Xanlığı təşkil edəndən sonra Rusiyanın Volqaboyunda işğalçılıq siyasətinə qarşı çıxan Mahmudək 1446-1448-ci illərdə Murom, Vladimir, Ustyuq və başqa əyalətlərə hərbi səfərlər təşkil etmişdir. Rusiya ilə Qazan xanlığı arasında müharibələr 1467-ci ilə qədər davam etmişdir. Bundan sonra bir müddət Rusiya ilə Qazan xanlığı arasında sülh danışıqları başlanmışdı. Lakin xanlığın içərisində knyaz Abdul Mö'min başda olmaqla feodal qruplaşması hakimiyyət uğrunda mübarizəyə başlayaraq Rusiyaya meyl edir və onun köməyilə hakimiyyətə gəlməyə çalışırdı.

Mahmudək öldükdən sonra hakimiyyətə oğlu Xəlil gəldi və onda Abdul Mö'minin qruplaşmasının fəaliyyəti daha da genişləndi. İş elə gətirdi ki, Mahmudəkin ikinci oğlu İbrahim də rus orientasiyasını götürmüş oldu. Bu, Rusiyanın Qazan xanlığını işğal etməsinə əlverişli şərait yaratdı. Xüsusilə, xanlığın yeni xanı Əli xan (1479-1487) dövründə rus ordusu hücuma keçdi və Əli xanı hakimiyyətdən salıb Qazan şəhərini tutdu. Əli xan əsir düşdü. Ruslar onu Voloqdaya aparıb öldürdülər. Rusiya çarı xanlığı hələ Rusiyaya birləşdirmək haqqında fərman vermədi, yalnız öz protektoratı altına aldı. Ona görə də xanlığın başına ruspərəst Məhəmməd Emin adlı bir nəfər feodal qoyuldu. O, rus çarından asılı vəziyyətdə işləyirdi. Buna baxmayaraq rus çarı IV İvan özünü Qazanın hakimi e'lan etmiş və özünə "Böyük Bulqar knyazı" titulunu götürmüşdü. Rus çarının razılığı olmadan xanlığın başına hakim seçilə bilməzdi. Lakin geniş xalq kütləsi knyaz Kəl Əhməd adlı bir bəyin başçılığı ilə rus istismarına qarşı mübarizə aparırdı. Onun ən yaxın köməkçiləri Urak, Sadır və Akiş rus vergi yığanlarına divan tuturdular. Amma Kəl Əhməd sonra ruslara satıldı, ruslar onun vasitəsilə xanlığın üzərində əsarəti daha da gücləndirdilər.

1521-ci ildə saray çevrilişi nəticəsində hakimiyyətə Krım xanlığının nümayəndəsi Sahib Girey keçdi və yerli hakim Şah Əli kənar edildi. Sahib Girey Qazan xanlığında olan rusları sıxışdırmağa başladı. Bu vaxt Krım xanı Məhəmməd Girey (Sahib Gireyin qardaşı) Krım və Noqay qoşunları ilə

rus dövlətinə hərbi səfər təşkil etdi. O, Nijni-Novqorodu alıb Moskvaya yaxınlaşdı, lakin onu ala bilmədi.

1552-ci ildə Litva ilə müharibəni qurtarmış rus çarı III Vasili qüvvəsini Qazan xanına qarşı yönəltdi. Rus ordusunun başında çar özü dururdu. Sahib Girey rus ordusu ilə toqquşmadan çəkindi və tez Türkiyənin vassallığını qəbul etdi. Lakin Rusiya Türkiyə ilə Qazan xanlığının bu razılığına qarşı çıxdı və Sahib Gireyə qarşı müharibəyə başladı. Sahib Girey vəziyyətin çətinliyini görüb Qazanı tərk edərək Krıma getdi yerinə isə qardaşı oğlu Səfa Gireyi qoydu (1524-1549). Səfa Girey də Türkiyənin tərəfini saxlayırdı. Ondan sonra Qazan xanlığını Krımdan gəlmiş qoşunun başçısı Kuçak ələ keçirdi, xanlığa Səfa Gireyin kiçik yaşlı oğlu Uyatmışı tə'yin etdi. O, uşaq olduğuna görə əslində hakimiyyət Səfa Gireyin arvadı Soyom-Bikə xatun tərəfindən idarə olunurdu.

Feodal müharibələri nəticəsində xanlığı dərin böhran bürümüşdü, xanlıq getdikcə zəifləyirdi. Rus dövləti isə əksinə, güclənməkdə idi. Hakimiyyətə gəlmiş IV İvan Volqaboyunu işğal etmək istəyirdi. IV İvan şəxsən özü başda olmaqla 1548 və 1550-ci illərdə iki dəfə Qazan xanlığına qarşı hərbi səfər təşkil etdi, lakin hər iki yürüş xanlığın ərazisində müvəffəqiyyətsizliyə uğradı. Kuçakın ordusu rus qoşunlarını qovub çıxartdı. IV İvan geri qayıdıb yenidən müharibəyə hazırlaşdı və 1552-ci ildə yeni hərbi səfər təşkil etdi. Rus ordusu 150 min döyüşçü və 150 topdan ibarət idi. Səfər 40 gün çəkdi. Rus ordusu Qazan şəhərini mühasirəyə aldı və 1552-ci ilin oktyabrın 2-də şəhəri tutdu. Qazan xanlığı ləğv edildi və onun ərazisi Rusiyaya birləşdirildi.

### §6. Həştərxan xanlığı

Qızıl Ordanın dağılması nəticəsində XV əsrin ortalarında yaranmış xanlıqlardan biri də Həştərxan feodal dövləti idi. Xanlığın ərazisi Volqaboyunu və Ön Qafqaz çöllərini əhatə edirdi. Bu ərazidə müxtəlif türk tayfaları məskun idi. Onlar



köçəri maldarlıq, ovçuluq, balıqçılıq və qismən əkinçiliklə məşğul olurdular. Xanlığın mərkəzi Həştərxan şəhəri idi. XII əsrdə Volqa çayının sağ sahilində, indiki Həştərxan şəhərindən 12 km aralıda Hacı Tarxan adlı bir tatar (türk) kəndi vardı. Sonra bu ad damşıqda Həştərxan formasını almışdı. Karvan və su yollarının qovşağında yerləşdiyinə görə kənd böyüyərək ticarət mərkəzinə çevrilmişdi. 1558-ci ildə şəhər qala divarları ilə əhatə olundu.

Həştərxan xanlığı ilk vaxtlarda Qızıl Ordadan, sonra Noqay Ordasından və Krım xanlığından asılı idi. Bu asılılıqdan qurtarmaq üçün Həştərxan xanlığı Rusiyaya yaxınlaşmış və 1533-cü ildə onunla müttəfiqlik müqaviləsi bağlamışdı. Rusiya sonra da xanlığı zəbt etmək siyasətinə keçdi və 1554-cü ildə oraya hücum etdi. Xan Dərviş Əli IV İvanın vassalı tə'yin olundu. 1556-cı ildə Dərviş Əli müstəqilliyə cəhd etdikdə Rusiya xanlığı ləğv etdi. 1705-1706-cı illərdə əhali Rus çarizminin istismarına qarşı üsyan qaldırdı. Üsyan Kızıl-Yar, Kara-Yar (rus dilində mənbələrdə Krasnıy Yar və Çernıy Yar) Tərki, Qurev və b. şəhərləri də bürümüşdü. Üsyançılar Həştərxan qalasını alaraq seçkili Ağsaqqallar Şurası yaratdılar. Lakin Çar Rusiyasının ordusu üsyanı amansızlıqla yatırdı.

### §7. Krım xanlığı

Krım qədim zamanlardan müxtəlif xalqların yaşadıqları ərazidir. Eradan əvvəl I minilliyin II yarısında burada antik mənbələrdə adı "tavr" kimi çəkilən yerli xalq məskun idi.

E.ə. I minilliyin əvvəllərindən etibarən orada kimmer və skiflərin yaşadıqları da məlumdur. Eramızın əvvəllərində Mərkəzi Asiyadan gəlmə hunlar ondan əvvəl Krımı tutmuş qot tayfalarını məğlub edərək, qotları həmin ərazidən çıxardılar. Hunlardan sonra Krım xəzər, peçeneq və kuman türk tayfalarının təsiri altına düşdü.

Məlum olduğu kimi XIII əsrdə Şərqi Avropanı əhatə edən Qızıl Ordanın parçalanması nəticəsində yaranmış bir

xanlıq da Krım xanlığı idi. Tədqiqatçılara görə Krımda türkmənşəli tayfaların kütləvi surətdə məskunlaşması da bununla bağlıdır. Həm də qeyd edilməlidir ki, Krımda islam dini hakim dini görüşə çevrilmişdi. Bu, əsas etibarilə Osmanlı türklərinin fəaliyyəti ilə bağlı idi.

Krımın Qızıl Ordaya daxil olması formal xarakter daşıyırdı. Ona görə də 1261-ci ildə Krım iki hissəyə - "yurda" parçalandı. Bu yurdaların biri Noqay Ordasına daxil idi. Digər hissəsi isə xüsusi xanlığa çevrildi və formal olaraq Qızıl Ordadan asılı vəziyyətdə qaldı. XIII əsrdə monqol-tatarlar Krımı zəbt edərək oranı daimi qışlaq yerinə çevirmişdilər. XIII əsrin sonu - XIV əsrin əvvəllərində Krım ulusu adlı dövlət yaranmışdı. XIV əsrdən sonra xanlıq Noqay Ordasına mənsub əraziyə də öz adamlarını hakim təyin edirdi.

Ara müharibələrindən sonra 1433-cü ildə hakimiyyətə keçən Krım xanlığının ilk xanı Hacı Dövlət Gəray (mənbələrdə həm də Girey kimidir) 1467-ci ilə qədər hakimiyyətdə olmuşdur. O, 1443-cü ildə müstəqil xanlıq yaratdı. Dnepr çayının aşağı axarı da bu xanlığa daxil idi.

Qeyd edilməlidir ki, "Yurd" adlanan xanlığın ərazisi XV əsrə qədər müəyyən deyildi. Xan isə Qızıl Ordanın xan nəslindən idi.

Krım xanlığı islam dinini təbliğ edir və yayırdılar. Məhz Krım xanlığı vaxtından Krımda məscidlər tikilməyə başlanmışdı. Toxtamış xanın qızı Nənəkəcan xanım üçün 1467-ci ildə Cufum-Qala şəhərində möhtəşəm məscid tikilmişdi. Bu onunla əlaqədar idi ki, Krım xanlığı hələ də Qızıl Ordadan asılı vəziyyətdə idi.

Dövlət Gireyin 8 oğlu vardı. O, öldükdən sonra hakimiyyət uğrunda mübarizə başlandı. Böyük oğlu adət-ənənəyə görə hakimiyyətə keçməli idi. Lakin Polşanın köməyi ilə hakimiyyəti ikinci oğlu - Nur Dövlət ələ almışdı. Lakin Nur Dövlət hakimiyyətdə cəmi bir il oldu, ondan sonra hakimiyyətə 6-cı oğlu Menkli (1468-1515) gəldi. Menkli bacarıqlı dövlət başçısı idi. Onun hakimiyyəti illərində xanlığın iqtisadi qüdrəti yüksəlmişdi. Menkli Gərayın hakimiyyəti illərində



xanlığın mərkəzi Solxat adlı şəhərdən Baxçasaray şəhərinə köçürülmüşdü.

Xanın Aydar (Heydər) adlı bir oğlu Litvada yaşayırdı və o da hakimiyyətə can atırdı. Onun digər qardaşı İzdəmir isə Polşada idi və o, ordu ilə 1493-cü ildə Krıma gələrək hakimiyyəti ələ aldı.

1453-cü ildə Osmanlı türklər Konstantinopolu tutdular və bu şəhəri İstanbul adlandırdılar. Bundan sonra Osmanlı dövləti 1475-ci ildə Krımı işğal etdi, xanı isə əsir tutdu. 1479-cu ildə Türkiyə onu geri- xanlığa qaytardı. Türkiyə sultanı II Murad onu yenidən xan təyin etdi.

Krım türklərinin XV-XVII əsrlərdə əsas məşğuliyyətləri maldarlıq və əkinçilik idi. Qonşu ölkələrlə, o cümlədən İtaliya və Yunanıstanla ticarət əlaqələri inkişaf edirdi.

Dövlətin mütləq hakimi xan hesab edilirdi. Xanlıq Qızıl Ordada olan qaydalarla idarə olunurdu. Soyurqal sistemi geniş yayılmışdı, yəni xidmətə görə məmurlara nəsli mülklər verilirdi. Xanın özü ən böyük torpaq sahibi idi və həmin torpaqlar "Ərz miriyə" adlanırdı.

Xanın varisi "kalqa" adlanırdı. Kalqa həmişə Ak Meçet şəhərində yaşayırdı.

Xanın qardaşı "Nurəddin" adlanırdı. O, adətən Kiçik-Saray şəhərində yaşayırdı. Yerlərdə hakim "murza" adlanırdı.

Yuxarıda qeyd edildiyi kimi Krım xanlığında islam dini hakim idi. Din başçısı "mufti" adlanırdı.

Xanlığın xarici işlərinə baxan adam "orbək" adlanırdı. Xanlığın ordusunun başçısı "səraskər" adlanırdı. Xan xanlığı əyalətlərdən ibarət divan vasitəsilə idarə edirdi.

Yuxarıda deyildiyi kimi, Krım xanlığı Türkiyədən asılı idi, lakin xanlığın idarəsi nəsli idi. 1515-1523-cü illərdə hakimiyyətdə Mühəmməd-Girey olmuşdur. Onun hakimiyyəti illərində Krım xanlığının Həştərxan və Qazan xanlıqları üzərində təsiri güclənmişdi. Krım xanlığı həmin xanlıqların daxili işlərinə qarışır və onların idarəçiliyinə müdaxilə edirdi.

1521-ci ildə Qazan şəhərində hakimiyyətə Krım xanının qardaşı Sahib-Girey təyin edilmişdi. 1523-cü ildə Həştərxan xanlığı da zəbt olunmuşdu.

Sahib -Gireydən sonra xanlıqda oğlu Dövlət-Girey (1551-1577), Qazı-Girey (1588-1608), Cainbəy -Girey (1610-1635), İnayət-Girey (1635-1637) və nəhayət İslam-Girey (1644-1654) hakimiyyətdə olmuşdur.

Krım xanlığı dəfələrlə Ukrayna və Rusiya ilə müharibələr aparmalı olmuşdular, çünki onların hər biri Krımı ələ keçirməyə çalışırdı. Başqa türk xalqlarına nisbətən Krım xanlığı çox yaşamışdır. 1774-cü ildə Rusiya ilə Türkiyə arasında Kiçik-Qaynarca sülh müqaviləsinə əsasən Krım Türkiyənin vassallığından çıxdı və müstəqil xanlıq elan edildi. 1783-cü ildə Rusiya Krımı işğal etdi və xanlığa son qoydu.



## *III fəsil*

## *TEYMURUN İMPERİYASI*

### *§1. Teymurun işğalları. Teymur imperiyasının yaranması*

XIV əsrin 50-60-cı illərində Mavərənnəhrdə feodal pərakəndəliyi şəraitində xırda dövlətlər vardı. Vahid dövlət idarəsi olmadığına görə bu kiçik dövlətlər arasında ara müharibələri adi hala çevrilmişdi. Belə bir şəraitdə ƏmirTeymur meydana çıxdı.

Teymur Şəhrisiyabzın Xoca İlqar kəndində doğulmuşdu. Atası Tarağay türk barlas tayfasından varlı bir bəy idi. Teymur uşaqlıqdan çox çevik və diribaş idi. At minib çapmağı çox xoşlayırdı. O, həm də tay-tuşları içərisində mahir oxatan sayılırdı. Onun atdığı ox həmişə hədəfə dəyirdi. Gənc yaşlarında Mavərənnəhrdə feodal ara müharibələrində iştirak edən Teymur özünə kiçik, yaxşı silahlanmış atlı dəstə yaratdı. Şəxsi igidliyinə və qoçaqlığına görə tezliklə Teymur Kaşqadərya vadilərində barlaslar içərisində məşhurlaşdı.

Başına bir dəstə həmyaşıdını toplamış Teymur vətəni ilə müharibə edən feodallara mübarizəyə başladı. Teymur öz əli ilə yazdığı tərcümeyi-halında göstərir ki, 12 yaşında ikən özündə fövqəl'adə bir fərasət və əzəmət nişanələri hiss etmişdi. O, daha sonra qeyd edir ki, 18 yaşında özünün süvarilik və ovçuluqda olan ustalıqları haqqında düşünməyə başladı. Əksər vaxtını Qur'an oxumaqla, şahmat oynamaqla və süvarilik məşğələlərində keçirən gənc Teymur şəxsi igidlik, başçılıq etmək məharəti nəticəsində Kaşqadərya vadisində barlas tayfası içərisində tezliklə şöhrət qazanmışdı. Şəhrisiyabzda ("Yaşıl şəhər"də) yaşayan şeyx Şəmsəddin Fəxuri Teymurun atasının mə'nəvi-dini rəhbəri idi və ona görə də

gənc Teymur islam dininə hələ uşaqlıqdan dərin hörmət bəsləyirdi. Sonralar Teymur bir sıra vuruşmalarda qələbələrini həmin şeyxin duaları ilə izah edirdi. Teymur Qur'ani-Kərimi oxumağı öyrənmişdi. Bütün mənbələrdə qeyd olunur ki, Teymur uşaqlıqdan yaxşı şahmat oynayırdı.

1360-cı ildə Qazaxıstan ərazisində yaranmış Moqolistan adlı dövlətin hakimi Tuqluq-Teymur adlı birisi öz ordusu ilə Mavərənnəhrə basqın etdi və sonra da Teymurun ana vətəni Kaşqadərya vadisinə gəldi. Tuqluq-Teymurun qarşısına çıxa biləcək adam yox idi. 1361-ci ildə Tuqluq Teymur on bir dəfə Kaşqadəryaya basqın etdi və onu işğal etməyə başladı. Məhz bu vaxt Teymur meydana çıxdı. O, qərara gəldi ki, hələlik Tuqluq-Teymurla aranı vurmaq vaxtı deyil, ən yaxşısı onunla dil tapıb qulluğunda dayanmaqdır. Tuqluq-Teymur buna sevindi, çünki o gənc Teymurun qoçaqlığını eşitmişdi. Tuqluq-Teymur Kaşqadərya vadisinin idarəsini Teymura tapşırıb Moqolistana qayıtdı. Beləliklə, 25 yaşlı Teymur Kaşqadərya tümənliyinin başçısı oldu. Bu arada Teymur qonşu bir əyalətin hakimi (əmiri) Hüseynlə dostlaşdı və Tuqluq-Teymurla aranı pozdu. Teymur Hüseynin bacısı Ulcay-Türkan xatuna evlənərək onunla qohum oldu. 1361-1365-ci illərdə Teymur və Hüseyn Mavərənnəhrdə ən qüvvətli əmirlər idi. Onlar tez-tez qonşu əyalətlərə basqınlar edir, əldə etdikləri qəniməti bölüşdürürdülər. 1362-ci ildə növbəti səfər vaxtı Teymur və Hüseyn türkmən Əli bəy adlı bir Türkmənistan hakiminin əlinə keçdilər. Əli bəy onları əsir tutub 62 gün indiki Türkmənistanın Mahan kəndində zindanda saxladı. Lakin onlar çoxlu mal-pul verib azad oldular. Xorasana növbəti səfər zamanı döyüş vaxtı Teymur sağ əlindən və sağ ayağından oxla ağır yaralandı. Sağ əli bütöv qurudu, sağ ayağı isə topal qaldı və bütün ömrü boyu axsaq gəzməli oldu. Ona görə o, tarixə Axsaq Teymur, yaxud Topal Teymur, yaxud farsca Teymurləng (farsca ləng "axsaq" deməkdir) adı ilə daxil oldu. Rus və Avropa mənbələrində "ləng" sözü "lan" kimi tələffüz edildiyinə görə onun adı Tamerлan kimi qeyd olunmuşdur.



Tuqluq-Teymurun ölümündən sonra Moqolistanda hakimiyyətə keçmiş oğlu İlyas Xoca 1365-ci ildə ordu ilə Mavərənnəhrə basqın etdi. Hüseyn və Teymur birləşib qoşun topladılar və İlyas Xocanı qarşılamağa yollandılar. İndiki Daşkənd yaxınlığında ***Cəngi Loy*** adlı yerdə iki ordu üz-üzə gəldi. Döyüş vaxtı birdən-birə güclü yağış başlandı və atların gilli palçıq içərisində hərəkəti çox çətinləşdi. Döyüş vaxtı Teymurun qoşunu ruh yüksəkliyi ilə vuruşduğu zaman Hüseynin qoşunu geri çəkilməyə başladı. Teymur və Hüseyn döyüşü uduzdular, onlar əvvəlcə Səmərqəndə, oradan da cənuba gedib Amudəryanı keçdilər və Bəlx əyalətinə çəkildilər. İlyas Xoca Səmərqəndə tərəf hərəkət etdi. Səmərqənd əhalisi düşmənə qarşı 10 min könüllüdən ibarət hərbi hissə yaratdı. Lakin qoşuna kim başçılıq etməlidir? - məsələsi ortaya çıxdıqda mədrəsədə oxuyan Mövlanəzadə adlı bir şagird irəli çıxıb təklif etdi ki, ordunu ona versinlər. O, Səmərqəndin müdafiəsinə hazırlaşmağa başladı. Monqol ordusu bu tədbirdən xəbərsiz idi. İlyas Xoca ordusu ilə şəhərə girmək istədikdə Mövlanəzadənin qoşunu qəfildən onların üstünə töküldü və döyüşü qələbə ilə başa çatdırdı. Monqol ordusu Səmərqəndi tərk etdi. Bu xəbər Teymurla Hüseynə çatdı. Onlar birləşib 1366-cı ildə Bəlxdən Səmərqəndə hərəkətə başladılar, şəhərə çatıb kənarda Kani-Gil adlı yerdə dayandılar və şəhər camaatının nümayəndələrini danışığa də'vət etdilər. Mövlanəzadə də onlarla danışığa getdi. Teymur və Hüseyn Mövlanəzadəyə dəymədilər, qalan nümayəndələri isə öldürdülər, sonra da Səmərqəndi tutdular. Bundan sonra Teymurla Hüseynin arası dəydi. Çünki Teymur Hüseyni özünə rəqib sayır və hakimiyyəti təkbaşına ələ almağa çalışırdı. Bu məqsədlə Teymur müsəlman ruhaniləri ilə tacirlər içərisində özünə tərəfdar topladı. Hüseyn də məsələni başa düşüb Bəlx şəhərinə getdi və şəhəri möhkəmləndirməyə başladı. Teymur Hüseynin ona rəqib olduğunu yə'qin etdi və 1370-ci ildə Səmərqənddən ordu ilə Bəlxə hücum etdi, şəhəri tutaraq Hüseyni öldürdü. Bu döyüşdə Teymurun sərkərdəlik məharəti

özünü aydın göstərdi. Az qoşunla (242 nəfər) Əmir Hüseynin bir neçə qat artıq ordusunu (12 min 800 nəfər) məğlub etdi. Döyüşdə Teymurun böyük oğlu Cahangir də iştirak edirdi. Bu Teymurun həyatında böyük hadisə oldu. Hələ Bəlx şəhərinin mühasirəsi zamanı Məkkədən Bərəkə adlı bir şeyx Teymurun yanına gələrək özü ilə gətirdiyi bir bayraq və bir nağaranı ona vermişdi. Bu, hakimiyyət rəmzi idi. Şeyx Bərəkə Teymura bildirdi ki, onun yaxşı gələcəyi vardır və ona görə bu bayraq altında İslam uğrunda müharibələrə başlamalıdır. Bəlxi tutandan sonra Teymurun ordusu onu bütün Mavərənnəhrin hakimi e'lan etdi. Bunun əvəzinə Teymur Bəlxdə ələ keçirdiyi xəzinəni döyüşçüləri arasında bölüşdürdü. Teymur Bəlxdən doğma şəhəri Keşə qayıtdı, dövlətin maliyyə işləri ilə məşğul oldu, sonra da Səmərqəndə gəlib onun ətrafında qala divarları çəkdirdi. Əvvəlki qala divarları Çingiz xan tərəfindən 1220-ci ildə sökülmüşdü.

Mərkəzi Asiyada Teymurun qarşısına çıxa biləcək hakim yox idi. 1370-ci ildə o, Xarəzmə hərəkət etdi və Xarəzmin hakimi Hüseyn Sufini döyüşdə məğlub edərək Cənubi Xarəzmi öz torpaqlarına qatdı. Şimali Xarəzm Qızıl Ordaya tabe idi. Sırdərya sahilləri isə Ağ Ordanın əlində idi. Ağ Ordanın xanı Toxtamış Qızıl Orda xanı Mamayı məğlub edib Qızıl Ordaya yiyələnmişdi və beləliklə, keçmiş Cuçi ulusunun iki hissəsini - Qızıl Orda ilə Ağ Ordanı birləşdirmişdi. Bununla da, Toxtamış Teymur üçün qorxulu və güclü rəqibə çevrildi. Bu isə Mavərənnəhrdə olan Teymurun qarşısını kəsirdi.

XIV əsrin 80-ci illərində Teymur İrana qarşı hərbi səfərlərə başladı. Qızıl Orda xanı Toxtamış 1387-1388-ci illərdə Teymurun Mərkəzi Asiyada olmamasından istifadə edərək Mavərənnəhrə hərbi səfərə yollandı və Xarəzmin devrilmiş keçmiş hakimi Süleyman Sufini Teymura qarşı üsyana qaldırdı. Süleyman Sufi Ürgənc şəhərində olurdu. Teymur İran səfərindən qayıdıb 1388-ci ildə Xarəzmə hərbi səfərə başladı. Ürgənc şəhəri tutuldu, şəhər əhalisi isə Səmərqəndə



köçürüldü. Şəhər qarət edildi və sonra da onu yerlə-yeksan etmək haqqında əmr verildi. Teymur bununla Xarəzmi də öz dövlətinə qatdı və bütün Mərkəzi Asiyanın vahid hakiminə çevrildi. Bundan sonra Teymur Qızıl Orda ilə haqq-hesabı üzmək və Toxtamış xanı məhv etmək planını həyata keçirməyə başladı.

1391-ci ildə Teymur 200 min nəfərlik ordu ilə indiki Qazaxıstan ərazisinə hərbi səfər etdi. Səfər Toxtamışa qarşı idi. İndiki Kuybışev şəhəri yaxınlığında, Gündüzcə adlı yerdə 1391-ci il iyunun 18-də Teymur Toxtamışın ordusu ilə döyüşə girdi. Böyük və qanlı vuruşma Toxtamışın məğlubiyyəti ilə bitdi. Lakin Qızıl Orda hələ qüvvətli idi və ona görə məğlub olmuş Toxtamış ruhdan düşmədi, Teymur ilə mübarizəni davam etdirmək üçün hazırlaşdı. 1395-ci ildə Teymurla Toxtamış Şimali Qafqazda Terek çayının sahilində yenidən üz-üzə gəldilər. Bu vuruşmada da Teymur qələbə çaldı. Toxtamışın ordusu çox böyük tələfat verdi. Teymur Qızıl Ordanın paytaxtı Saray-Bərkə şəhərinə hücum edərək oranı tutdu və qarət etdi. Şəhər yandırıldı. Teymur şəhərdə böyük qənimət ələ keçirdi. Sonra isə Hacı-Tarxan (indiki Həştərxan) və Azak (indiki Azov) şəhərlərini qarət etdi. Bununla da Teymur Qızıl Ordaya sarsıdıcı sərbə vurdu.

1370-1390-cı illər arasında Əmir Teymur bir neçə dəfə indiki Qazaxıstanın ərazisinə hərbi səfərlər təşkil edərək çoxlu mal-qara, qoyun sürüləri və at ilxıları ələ keçirdi. Onun 30 minlik bir ordusu sərkərdə Uçkar Bahadurun başçılığı ilə Sibirə - İrtış çayının sahillərinə qədər gedərək, böyük bir ərazini zəbt etmiş və çoxlu qənimətlə qayıtmışdı.

Teymur İran və Cənubi Qafqaza qarşı da dəfələrlə hərbi səfərlər təşkil etmişdi. Bu vaxt İran müstəqil dövlət deyildi. Hülakülər dövləti dağılmış (1336-cı ildə), əvəzinə kiçik dövlətlər yaranmışdı. Bunlardan biri də Cəlarilər dövləti idi. Bu dövlət 1336-1411-ci illərdə mövcud olub, əsas e'tibarilə Azərbaycan ərazisini əhatə edirdi. Xorasanda Səbzəvarda 1336-cı ildə kiçik bir dövlət yaranmışdı. Hülakülər dövləti

dağılandan sonra İraqda mərkəzi Herat şəhəri olmaqla kiçik bir knyazlıq təşəkkül tapmışdı. Bu kiçik dövlətlər Teymurun işğallarının qarşısını almağa qadir deyildilər. Teymur bu dövlətləri çox asanlıqla məhv etdi. Onun 1386-cı ildə başladığı üç illik, 1392-ci ildə beş illik, 1399-cu ildə yeddi illik hərbi səfərləri vaxtında bütün Ön Asiya və Cənubi Qafqaz işğal edilmiş və böyük bir imperiya yaradılmışdı. Hər yürüşdən sonra Teymur Səmərqəndə böyük qənimətlə qayıdırdı. 1396-cı ildə beş illik hərbi səfərdən Səmərqəndə qayıdan kimi Teymur əvvəlcə atasının qəbrini ziyarət etmiş və fatihə vermişdi. Sonra da 63 yaşlı fateh cavan bir gözəl qızla - Təvəkkül xatunla nigah kəsib evlənmişdi. Bu hərbi yürüşlər zamanı İramn və Azərbaycanın şəhərləri dağıdılmış, Teymura qarşı çıxan əhalisi məhv edilmişdi. 1387-ci ildə İsfahan şəhəri tutulduqda 70 min nəfər adamın başı kəsilmişdi. Çünki şəhər Teymura qarşı üsyan etmək təşəbbüsündə olmuşdu. Qeyd etmək lazımdır ki, Ön Asiyaya hərbi səfərləri vaxtında Teymur qışı hər dəfə Azərbaycanda - Qarabağ düzündə keçirirdi.

1396-cı ildə Teymur Hindistana hərbi səfər etmiş və iki il müddətində Hindistanın bir sıra şəhərlərini qarət edərək əsir tutduğu 100 min adamm başını kəsdirmişdi. 1399-cu ildə Dehli şəhəri yaxınlığında hind ordusunu məğlub edən Teymur yürüşdən böyük qənimətlə qayıtmışdı. Hindistanda olarkən Teymur bir neçə dəfə pələng və kərgədan ovuna çıxdı, onları öldürüb dərilərini soydu.

1400-cü ildə Teymur yenə qərbə hərbi səfərə çıxdı. O, Osmanlı türk sultanı Bayazidlə toqquşmalı oldu. 1402-ci ildə Ankara yaxınlığında qanlı vuruşmada Teymur Sultan Bayazidin ordusunu məğlub etdi, özünü əsir tutub dəmir qəfəsə saldı. Ankara vuruşması Teymurun vuruşmaları içərisində ən qanlısı idi. Mənbələrdə göstərilir ki, Teymur döyüşdən sonra öz sərkərdələri ilə birlikdə böyük ziyafət məclisi təşkil etmişdi. Qəfəsdə oturan və bir gözündən kor olan Sultan Bayazid də Teymurun yanında, lakin yemək süfrəsindən aralıda qəfəsdə imiş. Teymur yediyi şişlik ətin sümüklərini qəfəsə



Bayazid üçün atırmış. Ac Bayazid də bu sümükləri götürüb gəmirirmiş. Bu zaman Bayazid dərin bir ah çəkmiş, Teymur səbəbini soruşduqda o, belə cavab vermişdi: onu fikirləşirəm ki, kül bu dünyanın başına ki, sənin kimi axsaqla mənim kimi korun əlində qalıb. Qocalmış Teymur bu sözdən xeyli fikrə getmiş və əvvəllər dediyi "Bu dünya nə boydadır ki, onun iki padşahı olsun" (yə'ni dünyaya bir padşah lazımdır, o da Teymurdur) sözünü yadına salıb demişdir: "Axmaq dünyadır". Teymur Bayazidi öldürmədi, lakin qəfəsdən də çıxarmadı. Bayazid elə qəfəsdə öldü.

Ankara döyüşündən sonra Teymur Misirə hücum etdi, sultan Fərəcin ordusunu məğlub edib, özünü də öldürdü. Bununla da, bütün Ön Asiya və Kiçik Asiya Teymurun imperiyasına birləşdirildi.

Doqquzuncu hərbi səfərindən Mərkəzi Asiyaya – Səmərqəndə qayıtdıqdan sonra Teymur Çinə hərbi səfərə hazırlaşdı. Onun məqsədi Çini tutmaq idi. 1404-cü ilin axırlarında, şaxtalı havada Teymur 200 minlik ordu ilə səfərə başladı, lakin yolda ikən 1405-ci ilin 18 fevralında 69 yaşında (bə'zilərinə görə 72 yaşında) bərk soyuqdəymədən öldü. Beləliklə, Çingiz kimi Teymur da Çinə hərbi səfərə getdiyi zaman yolda ömrünü başa vurdu. Teymurun bu hərbi səfərində iştirak etmiş salnaməçilər yazırlar ki, Ceyhun çayını keçdikdən sonra Otrar şəhərinin kənarında xəstə Teymur üçün çadır qurulmuşdu. Şəxsi həkimi Mövlanə Fəzlullah onu müayinə edib demişdi ki, vəziyyəti ümüdsüzdür. Teymuru əhatə edən övladları, nəvələri bunu eşitcək ağlamağa başlamışdılar. Lakin Teymur soyuqqanlılıqla vəsiyyətini etməyə başlamış və axırda bunu deyə bilmişdi ki, səltənətə nəvəsi Pir Məhəmmədi məsləhət görür. Sonra da işarə ilə başının üstündə fatihə (Yasin surəsi) oxunmasını tələb etmiş və yasinin sədaları altında axşam vaxtı canını tapşırmışdı. Pir Məhəmməd əvvəllər babasımn döyüşlərində iştirak etmişdi. Lakin sonra içkiyə qurşanmışdı. Teymur öləndə o, Kabulda idi və babasının ölüm xəbərini kef məclisində sərxoş vəziyyətdə eşitmişdi.

Orta əsrlərdə meydana çıxmış məşhur türk cahangirlərindən biri olan Əmir Teymur ömrünü başa vurdu. Onun meyidini Səmərqəndə gətirdilər və özünün vəsiyyətinə uyğun olaraq şeyx Bərəkənin ayaqları altında dəfn etdilər.

***Teymur imperiyasının daxili və xarici siyasəti.*** Teymur böyük hərbi və dövlət xadimi idi. O, iste'dadlı təşkilatçı idi. Lakin Teymur əsrinin oğlu idi. Feodalizm münasibətlərinin mövcud olduğu bir dövrdə Teymur bu münasibətlərin həyata keçirilməsinə çalışırdı. Onun nəhəng imperiyası silah gücünə yaradılmışdı, bu ölkələr bir-birilə iqtisadi əlaqələrlə bağlı deyildilər. İmperiyanı idarə etmək üçün Teymur yerli feodallara və əmirlərinə çoxlu ərazilər bağışlamışdı. Feodal torpaq sahibliyi onun vaxtında yüksək inkişaf dərəcəsinə çatmışdı. İqtadan fərqli olaraq torpaq üzərində mülkiyyət forması soyurqal üstünlük təşkil edirdi.

Çox hallarda Teymur tutduğu qala və şəhərləri elə əvvəlki hakimlərinə qaytarır və yığılan verginin müəyyən hissəsinin mənimsənilməsinə rəsmi icazə verirdi.

Teymur həm sərkərdə, həm də bacarıqlı diplomat idi. Qüvvətli iradəyə malik olan Teymurun nəhəng əraziləri əhatə edən dövləti 1405-ci ildə ölümündən sonra parçalandı. Bu belə də olmalı idi, çünki onun dövləti feodal münasibətləri üzərində qurulmuşdu. Dövlətdə Teymurun qohumları, əmirlər, sərkərdələr və iri torpaq sahibləri aparıcı rollara malik idilər. Teymur yaxın adamlarına soyurqal şəklində mahallar bağışlamışdı. Soyurqal nəsli idi, deməli mülk kimi nəsildən nəslə keçirdi. Camaatdan yığılan vergi dövlətə, xərac isə hakimə çatırdı. Teymurun oğlu Miranşaha Hülakülər (Elxanilər) dövlətinin ərazisini soyurqal verilmişdi. 1393-cü ildə Teymur Fars əyalətini digər oğlu Ömər Şeyxə bağışlamışdı. Qəznəlilər dövlətinin ərazisini nəvəsi (oğlu Cahangirin oğlu) Pir Məhəmmədə vermişdi. Miranşah öldükdən sonra onun ərazisi də oğlu Ömərə çatmışdı. İsfahan əyaləti Pir Məhəmmədin qardaşı Rüstəmə çatmışdı. Bütün bunlarla yanaşı



Teymur ticarətə xüsusi fikir verirdi. O, suvarma kanalları çəkdirməklə əkinçiliyin inkişafı üçün şərait yaradırdı.

Miranşahın oğlu Əbubəkr Bağdadın hakimi tə'yin edilmişdi. Lakin Teymur Mavərənnəhri heç kimə verməmişdi. Teymur hər yerdən Səmərqəndə sənətkarlar gətirirdi. Ümumiyyətlə o, sənətkar və tacirlərə, ruhani şəxslərə hörmət edirdi.

Teymurun ordusu Çingiz xanın ordusu kimi onluq sistemi ilə onluq, yüzlük, minlik və on minlik hissələrdən ibarət idi. Hər bir adam orduya çağırıldıqda özü ilə yay və 30 ox, iki-üç at gətirməli idi. Hər on döyüşçüyə bir çadır düşürdü. Bundan başqa döyüşçü özü ilə oraq, balta, bız, yüz iynə, sicim, qazan və s. götürməli idi.

Hərbi səfər vaxtı türkcə manqlay adlanan avanqard hissə, ondan irəlidə karaul dəstəsi, karaul dəstəsindən qabaqda isə kəşfiyyatçılar gedirdilər.

Teymur döyüş ustası idi. O, vuruşma vaxtı ordusunu mərkəzə, sağ cinaha (branqar), sol cinaha (cuvanqar) və cinahları qoruyan dəstələrə (kanbul) ayırırdı. Beləliklə, ordu 7 korpusa bölünürdü. Teymur düşmənlərinə qarşı çox amansız idi. Əfqanıstanda müqavimət göstərən İsfizar şəhərini tutduqda Teymur 2 min nəfəri kirəc və gil palçıqla divara hördürmüşdü. İsfahanda onun əleyhinə üsyan qaldırmış əhalidən 70 min nəfərinin başını kəsdirərək qüllə düzəltdirmişdi. Kiçik Asiyada Sivas şəhərini tutduqdan sonra o, 4 min adamı diri-diri torpağa basdırtmışdı. Hindistanda 100 min bütpərəsti islama keçmədiklərinə görə kafir sayaraq öldürtmüşdü. Ona görə də Teymurun adı gələndə hökmdarlar müqavimət göstərməyi mə'nasız bilərək, könüllü tabe olurdular. İşğal etdiyi ölkələrdən Teymur ən yaxşı sənətkarları Səmərqəndə göndərirdi. Teymurun Səmərqənddə tikdirdiyi binalar möhkəmliyi və gözəlliyi ilə indi də adamı valeh edir. Onun tikdirdiyi bir möhtəşəm mavzoleydə özünü dəfn etmişdilər.

İslam dininin Mərkəzi Asiyada, Volqaboyunda, Cənubi Qafqazda mövqeyinin möhkəmlənməsində Teymurun xidməti böyük olmuşdur. Mərkəzi Asiyada Xoca Əhməd Yəsəvinin

qəbri üzərinlə Teymur böyük bir mavzoley tikdirmişdi. O, Səmərqənddə çoxlu məscid və mədrəsələr açmış, möhtəşəm saraylar tikdirmiş, bağlar saldırmışdı. Teymur həm də qatı müsəlman idi və o, bütün müharibələrini islam dinini müdafiə etməsilə əlaqələndirirdi. İslam dinində o, şiələrə nisbətən sünnilərin tərəfini saxlayırdı.

Teymur 1370-ci ildə Hüseyni məğlub etdikdən sonra onun hərəmxanasına yenicə gətirilmiş Saray-Mülk xanım adlı gözəl bir qıza evlənmişdi. Bu qız Mavərənnəhrin axırıncı hakimi Qazan xanın qızı idi. Qazan xan isə mənşəcə Çingizin oğlu Cağatayın nəslindən idi. Bununla da, Teymur arvadı tərəfdən Çingizin nəsli ilə qohum idi. Teymur əslən türk idi, özbək, tacik, fars dillərini sərbəst bilirdi, lakin yazmaq və oxumaq bacarmırdı. Düşmənə qarşı çox qəzəbli olan Teymur alimlərə, şeyxlərə, şairlərə qarşı çox həlim idi, onları himayə edir, məclislərində iştirak edir, hətta elmin müxtəlif sahələri üzrə onlarla mübahisələr aparırdı.

Yuxarıda dedik ki, Teymur nəvəsi Pir Məhəmmədi yerinə vəliəhd vəsiyyət etmişdi. Lakin Miranşahın o zaman Daşkənddə olan 21 yaşlı oğlu Sultan Xəlil Mirzə cəld tərpənib hakimiyyəti ələ aldı. Az sonra mübarizədə Teymurun digər nəvəsi Şahrux Mirzə qələbə çaldı və hakimiyyətə keçdi. Belə bir dəyişiklik onunla əlaqədar idi ki, Sultan Xəlil Mirzənin çox gözəl Şad-Mələk adlı arvadı vardı və o, gecə-gündüz arvadına qəzəl yazmaqla məşğul idi, ondan ayrıla bilmirdi. Teymur öləndən sonra hakimiyyət uğrunda 4 il davam edən mübarizə başlandı. 1409-cu ildə Teymur dövlətinin başına oğlu Şahrux gəldi (1409-1447). Doğrudur, o vahid dövlətin başçısı sayılırdı, lakin Mərkəzi Asiyada bu dövlət iki hissədən ibarət idi: Herat və Səmərqənd paytaxt şəhərləri olmaqla Xorasan və Mavərənnəhr dövlətləri imperiyanın müxtəlif əyalətləri Teymurun oğlanlarının və nəvələrinin hakimiyyəti altında idi. Onlar özlərini müstəqil hakimlər kimi aparırdılar.

XV əsrin 20-ci illərində Teymurun dövləti Şahruxun və övladlarının əlində cəmlənmişdi. Şahruxun oğlu Uluqbəy Səmərqənddə, İbrahim Sultan Şirazda, Suyurqatmış Kabulda hakim idilər. Teymurun nəslindən Əbülqasım Babur Xorasanda, Sultan Hüseyn Türkmənistan ərazisində xanlıqlar yaratdılar. 1447-ci ildə Şahruh öləndən sonra imperiya daha da parçalandı. Bu zaman İranda yüksəlmiş Qaraqoyunlular sülaləsinin başçısı Cahanşah Azərbaycan və İranı tutub yeni böyük dövlət yaratmışdı. Mərkəzi Asiyada Teymur dövlətinin başçısı olan Uluqbəy (əsil adı Məhəmməd Tarağay idi, Uluq bey "böyük bəy" deməkdir) uşaqlıqda həmişə Teymurun yanında olurdu. Teymurun arvadı Saray-Mülk xanım onu çox istəyirdi və hərbi səfərlərə onu özü ilə aparırdı. Uluqbəy 10 yaşına çatanda onu Qızıl Orda hakimi Özbəyin nəslindən Ökə-Bəyin adlı bir bəyin qızına evləndirmişdilər. Teymur nəvəsinə təntənəli toy etmişdi. On beş yaşında olanda 1409-cu ildə Uluqbəy Səmərqəndin hakimi tə'yin olunmuşdu. Uluqbəy dövlətinin ərazisi indiki Özbəkistanı əhatə edirdi. 1424-cü ildə Uluqbəy Moqolistana hərbi səfər etdi və böyük qənimətlə geri qayıtdı. Moqolistandan gətirdiyi çox iri bir nefrit daşı parçasını o, babası Teymurun qəbri üçün sinə daşı düzəltdirdi.

1427-ci ildə Uluqbəy Sırdərya çayı hövzələrində köçəri özbək tayfaları üzərinə səfər etdi, lakin məğlub olub geri qayıtdı. 1447-ci ildə Şahrux öldükdən sonra Xorasan və Mərkəzi Asiyada iğtişaşlar başlandı. Şahruxun dul arvadı Gövhər-Şad oğlu Baysunkarın oğlu Əli-üd-dövləni, yə'ni Uluqbəyin qardaşı oğlunu hakimiyyətə gətirmək istəyirdi Gövhər-Şad Xorasana göndəriləcək orduya Uluqbəyin oğlu Abdul-Lətifi başçı tə'yin etdi. O, istəmirdi ki Uluqbəylə arası dəysin. Lakin Baysunqarın oğlanları Əli-üd-Dövlət və Babur Uluqbəyin əleyhinə çıxdılar. 1447-ci ildə Əli-üd-Dövlət Uluqbəyin oğlu Əbdül-Lətifi məğlub etdi və əsir tutdu. Uluqbəy sülh danışıqlarına başlamağı qərara aldı və Əbdül-Lətifi azad etdirdi. Uluqbəy dövrünün ən savadlı adamı idi. Səmərqənddə məşhur Uluqbəy rəsədxanasını 1428-1429-cu illərdə o tikdirmişdi. Uluqbəy riyaziyyat və astronomiyaya aid əsərlər yazırdı.

Teymur dövlətinin xarici ölkələrlə əlaqəsi çox inkişaf etmişdi. Qonşu ölkələrə səfirliklər göndərilməsi ən'ənəvi hal almışdı. Müxtəlif Qərb və Şərq ölkələri ilə ticarət davam edirdi. Uluqbəyin hakimiyyət illərinin sonlarında oğlu Əbdül-Lətiflə atası Uluqbəy arasında hakimiyyət uğrunda mübarizə gücləndi. Ata ilə oğul arasında giley-güzar ondan doğmuşdu ki, Uluqbəy oğlunu Herata hakim tə'yin etmiş, özü isə Səmərqəndi götürmüşdü. Əbdül-Lətifin arvadı ərini qızışdırırdı ki, atası onu hakimiyyətdən kənar edəcək. 1449-cu ildə Əbdül-Lətif Heratdan dövlətin xəzinəsinə göndəriləcək xəracı daha vermədi. Onda Uluqbəy oğluna qarşı hərbi səfərə hazırlaşdı. Lakin Əbdül-Lətif onu qabaqladı. Ata ilə oğul arasında Səmərqənd yaxınlığında döyüş baş verdi. Uluqbəyin ordusu məğlub oldu. Uluqbəy oğlunun yanına getməyi və tabe olmağı qərara aldı. Lakin oğlu Əbdül-Lətif atasını 1449-cu il oktyabrın 27-də öldürdü. Hadisə belə olmuşdu. Uluqbəy oğluna bildirdi ki, hakimiyyətdən həmişəlik əl çəkir və Məkkəyə ziyarətə yola düşür. Əbdül-Lətif bu təklifə razılaşdı və Uluqbəy yola düşdü. Lakin bir az getmiş arxadan Əbdül-Lətifin nökərləri gəlib yetişdilər və onun dayanmasını əmr etdilər. Oktyabr ayı olduğu üçün hava soyuq idi, Uluqbəy də özünü yaxşı hiss etmirdi. O, oğlunun əmrinə tabe olub kənddə dayandı. Nökərlər Uluqbəy üçün od qaladılar və ət bişirməyə başladılar. Odun kənarında oturub qızınan Uluqbəy nə isə bir pis iş olacağını duymuşdu, çünki oddan çıxmış bir qığılcım plaşının üstünə düşüb onu deşmişdi. Uluqbəy yanmış yerə baxıb demişdi: "Sən həm bildin" (yə'ni sən də bilirsən ki, bir pis iş baş verəcək). Elə bu vaxt qapı açılmış və Uluqbəyin şəxsən tanıdığı Abbas adlı bir bəy əlində xəncərlə içəri girmişdi. Həmin Abbas Uluqbəydən yanıqlı idi, çünki Uluqbəy onun atasını öldürmüşdü. O, indi Əbdül-Lətifin tərəfinə keçmişdi. Uluqbəy məsələni başa düşdü, yerindən sıçrayıb Abbasa bir yumruq ilişdirdi. Lakin həm nökərlər, həm də Abbasla Əbdül-Lətif tərəfindən göndərilmiş başqa bir nəfər Uluqbəyi qamarlayıb əl-qolunu bağladılar. Abbas xəncəri götürüb bir



zərbə ilə Uluqbəyin başını kəsdi. Əbdül-Lətif sonra bir neçə gün keçmiş öz qardaşı Əbdül-Əzizi tutdurub öldürdü və beləliklə, təkbaşına Teymur dövlətinin başçısı oldu.

Xalq kütləsi və ruhanilər Əbdül-Lətifi görmək istəmirdilər, atasını öldürənin hakimiyyətinə tabe olmurdular. Tezliklə, Əbdül-Lətifin saray ə'yanları içərisində ona qarşı sui-qəsd baş verdi. 1450-ci il mayın 8-də o, Səmərqənd yaxınlığında istirahətdə ikən öldürüldü. Axşam qaranlıqda Əbdül-Lətif qəmli halda bağda gəzirmiş. Pusquda dayanmış sui-qəsdçi Baba Hüseyn Bahadur ona bir ox atır. Ox Əbdül-Lətifin sinəsini deşir, Əbdül-Lətif yıxılır və "Allah, mənə ox dəydi" sözlərini qışqırır. Sui-qəsdçilər onun başını kəsib Səmərqəndə gətirdilər və Uluqbəyin mədrəsəsinin divarı üstündə payaya keçirib camaata göstərdilər. Mənbələrə görə, öldürüldüyü gündən bir-neçə gün əvvəl Əbdül-Lətif yuxuda görmüşdü ki, onun kəsilmiş başını xonçada ona gətiriblər. Yuxudan qorxu ilə oyanmış Əbdül-Lətif oxumaq üçün gətirdiyi Nizami Gəncəvinin divanını açmış və yuxunu yozmağa başlamışdı. O, Nizaminin divanını açan kimi bu beyti oxumuşdu ki, "Atasını öldürənə çarlıq taxtı qismət olmaz, olsa da 6 aydan artıq davam etməz".

Əbdül-Lətifdən sonra hakimiyyət Uluqbəyin başqa oğlu, İbrahim Sultanın oğlu Abdullaya keçdi. Lakin özbək tayfalarından Əbülxeyr Abdullaya qarşı çıxdı və 1451-ci ildə onu məğlub etdi. Hakimiyyətə Teymur nəslindən Əbu Səid adlı birisi gəldi. Sonrakı illərdə Mərkəzi Asiyada Teymur dövləti tənəzzülə doğru gedirdi. Və çox keçmədən köçəri özbək tayfalarının başçısı Şeybani xan bu dövlətə son qoydu.

## *§2. Özbək xanlığı*

XV əsrin əvvəllərində Ağ Orda bir sıra əyalətlərə parçalandı. Onların ən böyükləri Noqay Ordası və Özbək xanlığı idi.

Özbək xanlığı Noqay Ordasından şərqdə yerləşirdi. Onun ərazisi Sırdəryanın aşağı axarlarından və Aral dənizin-

dən şimalda Yaik və Tobol, şimal-şərqdə İrtış çayına qədər uzanırdı. Sırdərya hövzəsinin Otrardan Suqnaka qədər olan hissəsi əvvəllər Özbək xanlığına deyil, Uluqbəyin dövlətinin tərkibinə daxil idi. Özbək xanlığının etnik tərkibi yekcins deyildi. Orada kanqlı, kəngərəs, karluk, nayman, manqut, uysun, arqın, *qıpçaq və b.* tayfa birləşmələri yaşayırdı. Özbək xanlığının yaranması XV əsrin 20-ci illərinə aiddir. Bu illərdə Ağ Ordada feodal pərakəndəliyi hökm sürürdü. Hakimiyyət uğrunda Mavərənnəhrdə Teymura arxalanan feodallarla başqa feodallar mübarizə aparırdılar.

1419-cu ildə Uruz xanın nəvəsi Barak Uluqbəyə kömək üçün müraciət etdi. Uluqbəyin köməyilə barak özünü xan e'lan etdi, lakin sonra Uluqbəy onunla əlaqəni kəsdi. Uluqbəy 1427-ci ildə Barak xana qarşı hərbi səfər təşkil etsə də, məğlub olub geri qayıtdı. Lakin xanlığın daxilində Baraka qarşı mübarizə gücləndi və 1428-ci ildə sui-qəsdçilər Barakı öldürdülər. Hakimiyyət Şeybanilərdən Əbülxeyr adlı bir nəfərə keçdi.

Şimali Türkmənistan ərazisinin Teymur tərəfindən işğal edilməsi haqqında yuxarıda demişik. Cənubi Türkmənistan da Teymurun nəzərindən kənarda qala bilməzdi. 1381-ci ildə Teymur Cənubi Türkmənistanda Herat qalasını tutdu. Bunu eşidən Mərv və Nisa əyalətlərinin hakimi Əlibəy ilə Gurgan ilə Mazandaran əyalətlərinin hakimi Əmir Vəli Teymura ona tabe olduqlarını xəbər göndərdilər. Beləliklə, Cənubi Türkmənistan və Xəzərin cənub-şərq sahilləri Teymura çatdı. Lakin bir müddət keçəndən sonra Əmir Vəli və Əlibəy birləşdilər və Teymura qarşı çıxmaq haqqında sözləşdilər. Bunu eşidən Teymur 1382-ci ildə Xorasana hərbi səfər təşkil etdi. O, qoşununun bir hissəsini Cənubi Türkmənistanın yenidən işğalına ayırdı, özü isə qoşunun digər hissəsi ilə Əmir Vəlinin üstünə yeridi. Vəli bunu eşidib özü Teymurun yanına gəldi və and içdi ki, onu Əlibəy yoldan çıxarıb. Teymur Əli bəyi əsir tutub başını kəsdi.



Teymur Türkmənistam işğal etdikdən sonra türkmən tayfalarından özü üçün qoşun dəstələri təşkil etməyə başladı. Əslən türkmən olan Şeyx Davud adlı bir sərkərdə Teymurun ordusunun kəşfiyyat idarəsinə başçılıq edirdi.

1391-ci ildə Cənubi Türkmənistanın ərazisində Bayat türk tayfaları Teymurun hakimiyyətinə qarşı üsyan qaldırdılar və Qızıl Orda xanı Toxtamışın tərəfinə keçmək haqqında danışıqlara başladılar. Teymur bu üsyançılara qarşı oğlu Miranşahı göndərdi. Miranşah üsyanı amansızlıqla yatırdı, 10 min nəfərin başını kəsdirərək qüllə düzəltdi. Qeyd etmək lazımdır ki, Toxtamış xan ilə Teymur əvvəl dost olmuş, Qızıl Ordada hakimiyyəti ələ alandan sonra isə Toxtamış Teymura düşmən kəsilmişdi. Bir neçə qanlı döyüşdə Teymur Toxtamışı məğlub etmişdi. Toxtamış 1399-cu ildən sonra səfil həyat keçirirdi. 1405-ci il yanvarın 14-də Toxtamış xan Mərkəzi Asiyaya Teymurun yanına adam göndərmiş və onunla etdiyi müharibələrə görə bağışlanmasını xahiş etmişdi. Teymur hündür boylu, döyüşkən və sifətdən çox gözəl olan Toxtamışı düşməni olsa da, çox istəyirdi və söz vermişdi ki, Çinə səfərdən qayıdandan sonra onunla barışacaq. Lakin çox keçmədən Teymur öldü. Teymurun ölümündən çox mütəəssir olan Toxtamış da bir il sonra, 1406-cı ildə Tümendə öldü.

Teymur öləndən sonra hakimiyyət uğrunda mübarizə genişlənmişdi. Bu qarışıqlıqdan istifadə edərək Qızıl Ordadan Yedigey adlı bir əmir Xarəzmdə hakimiyyəti ələ aldı. Teymurun oğlu Şahrux Xorasanın valisi idi. Onu bu vəzifəyə atası tə'yin etmişdi. Şahrux Xorasanda vəziyyətin belə şəkil aldığını eşidib ordu ilə Xarəzmə hərəkət etdi. O, Yedigeyi məğlub edib Xarəzmi ələ keçirdi. Şahrux (1405-1447) hərbi-köçəri ə'yanlara arxalanırdı. Lakin Teymur kimi o da əkinçiliyin inkişafına çalışırdı. İstər Mavərənnəhrdə, istərsə də Türkmənistan ərazisində hələ Teymur vaxtında çoxlu suvarma kanalları çəkilmişdi. Şahruh vaxtında indiki Türkmənistan ərazisində Murqab çayından çoxlu kanallar çəkilmişdi. İndiki Bayram-Əli yaxınlığında xarabalıqları qalmaqda olan,

Abdullaxan-Qala adı ilə tanınan Mərv şəhərinin qala divarları Şahrux vaxtında hörülmüşdü. XV əsrdə Türkmənistanın ərazisində pambıq əkini genişlənməyə başlamışdı. Bu da ən əvvəl suvarma şəbəkəsinin çəkilməsi ilə əlaqədar idi. 1447-ci ildə Şahrux öldü. Onun oğlu Uluqbəy hakimiyyətə namizəd idi. Teymurun nəslindən olan ə'yanlar da hakimiyyətə can atırdılar. Uluqbəy hakimiyyətə keçsə də Xorasanı və Heratı əldə saxlaya bilmədi. Uzun sürən feodal müharibələri nəticəsində Xorasan Teymurilərdən Əbülqasım Babura keçdi və 1457-ci ilə qədər o, hakimiyyəti əlində saxladı. Babur öləndən sonra Xorasan və Türkmənistan Mavərənnəhrin yeni hakimi Əbu-Səidə keçdi və o, 1468-ci ilə qədər buranın hakimi oldu.

Şimal-qərbi Türkmənistan (Balxaş, Manqışlaq, Ust-Yurt və Uzboy) ərazisində isə yarımasılı türkmən tayfa birləşmələri yaşayırdılar. Bunlar - ərsari, salor, əlili və b. idi. XV əsrin ortalarında bu tayfalar özbək hakimlərinin tabeliyinə keçdilər. Qışlaqları Sırdərya və Kara-Tau rayonlarında, yaylaqları isə Tobol, İşim, Sarı-Su çaylarının hövzələrində və Mərkəzi Qazaxıstan çöllərində yerləşirdi. Bu ərazinin maldarları Mərkəzi Asiyamn və Sırdəryanın orta axınının oturaq-əkinçi rayonlarına yaxın idilər və onlarla qədimdən sıx əlaqə saxlayırdılar. Qədimdə bu regionun cənubunda alan, kanqlı, sonralar qıpçaq tayfa ittifaqları yerləşirdi. Qazaxıstan ərazisində etnogenezin ikinci böyük mərkəzi bu region idi. Orta Juz məhz bu regionda yaranmışdı. XV-XVI əsrlərdə burada qıpçaq, arqun, nayman, kerey, konrat və b. tayfa birləşmələri yaşayırdı.

Qazaxıstanın qərbində də yaylaq və qışlaqlara malik iri tayfa birləşmələri yaşayırdı. Onların qışlaqları Sırdərya çayının aşağı axarlarının hövzələrində, yaylaqları isə Ural çayının qolları kənarlarında, Tobol çayının yuxarı hövzələrində və Muqoçar dağlarında yerləşirdi. Qədimdən, hələ eradan əvvəl burada sarmat tayfaları yaşayırdılar. Qərbi Avropa və rus tarixşünaslığında sarmatlar irandilli tayfalar sayılır. Lakin son illərdə sarmat adını daşıyanların türk olması sübut olunmaqdadır. Bu ərazidə monqol işğallarından sonra Noqay Ordası



yaranmışdı. Həmin region Kiçik Juz (qazax dilində Kşi-Juz) adlanır. Kiçik Juzun əhalisi Aşağı Volqaboyu və Uralın oturaq rayonları ilə sıx əlaqədə idi. Bu Juzda yaşayan tayfalardan alçin, tabık, tamo, şamaxi, tana, şaktı və b. göstərmək olar. Şeybanilər sülaləsinin hakimiyyəti illərində Qırğızıstan əhalisi də bu dövlətə tabe idi. Lakin XV əsrin ikinci yarısında yaranmış Qazax xanlığı qırğız tayfaları içərisində müstəqillik uğrunda mübarizəni gücləndirdi. Şimali Qırğızıstanda bu mübarizəyə bir tayfa birləşməsinin başçısı Məhəmməd Qırğız rəhbərlik edirdi. Bu məqsədlə o, Qazax xanlığına yaxınlaşdı və onun hərbi qüvvəsindən istifadə etməyə başladı. Məhz Məhəmməd Qırğız vaxtında (XVI əsrin 30-cu illərindən) Qırğızıstan ərazisində ilk sırf qırğız dövlət qurumu yaranır. 1522-ci ildə Məhəmməd Qırğız bütün qırğız tayfalarını öz ətrafında topladı və özünü xan e'lan etdi.

XVI əsrin ortalarınadək qırğız hakimləri Şeybanilərə qarşı mübarizədə Qazax xanlarına arxalanırdılar. Məhəmməd Qırğız xanın və onun varislərinin vaxtında qazax və qırğız tayfalarının qarşılıqlı əlaqəsi çox güclənmişdi. Lakin qırğız tayfa birləşmələrinin başında duran feodallar arasında gedən mübarizəsi mərkəzləşmiş dövlətin yaranmasına imkan vermirdi. Qırğız tayfalarının əksəriyyəti köçəri maldarlıqla məşğul olurdu. Qırğızıstan ərazisində ticarət və sənətkarlıq mərkəzləri, şəhərlər yox idi. Belə vəziyyət Qırğızıstanın Rusiya tərəfindən işğalınadək davam etdi.

### *§3. Şeybanilər dövləti*

Teymurun nəslindən olan hakimlər arasında feodal çəkişmələri dövlətin siyasi qüdrətini sarsıtdı. Belə vəziyyət feodallarla kəndlilər arasında sinfi mübarizəni kəskinləşdirdi. Bu gərgin şərait Mərkəzi Asiya ərazisində köçəri maldar tayfaların yenidən qruplaşması ilə bir vaxta düşdü. Belə tayfa birləşmələrindən biri də özbək tayfa ittifaqı idi. Maldar ellər

oturaq əhalisi olan rayonlara axışırdı. Bu tayfaların başında duran xanlar, bəylər, tarxanlar qənimət ələ keçirmək məqsədilə şəhər və kəndlərə hərbi səfərlər təşkil edirdilər. Köçəri özbəklərin Mavərənnəhrə axışması Əbülxeyrin nəvəsi Şeybani xanın adı ilə əlaqədardır. Şeybani xan əvvəlcə Əbülxeyrin nəslinin Dəşti-Qıpçaqda hakimiyyətini bərqərar etdi, çünki o, maldar elləri öz hakimiyyəti altında birləşdirmək istəyirdi. Bu məqsədlə Şeybani Teymurun nəslinə mənsub olan əraziləri, xüsusilə Mavərənnəhri ələ keçirməli idi. Bu niyyət ona görə başa gələ bilirdi ki, Teymurun nəslindən olan hakimlərin özləri köçəri özbək tayfalarına arxalanmağa başlamışdılar.

Məhəmməd Şeybani 1451-ci ildə doğulmuşdu. İndiki Qazaxıstan ərazisində Əbülxeyr xan öldükdən sonra əhali onun yerinə keçmiş oğlu şeyx Heydərə qarşı üsyan qaldırmışdı. Üsyançılar onu ələ keçirib öldürdülər. Şeyx Heydərin oğlu kiçik yaşlı Şeybanini yaxın qohumları aparıb Həştərxan xanı Qasımın sarayında gizlətdilər. Onda üsyan başçıları olan bəylər Həştərxana hücuma keçdilər və Həştərxan şəhərini mühasirəyə aldılar. Lakin Şeybani və onun kiçik qardaşı şəhərdən gizlincə çıxıb Dəşti-Qıpçağa qaçdılar. Cahan Şeybani Dəşti-Qıpçaqda bir neçə yüz nəfərlik hərbi dəstə təşkil edərək hakimiyyət uğrunda mübarizəyə başladı. İlk vaxtlarda Teymurun nəslindən olan hakimlər Şeybaniyə kömək edirdilər. Belə güman edirdilər ki, onun vasitəsilə özbək tayfaları sultanlarının Mavərənnəhrə basqınlarının qarşısını ala bilərlər. Şahzadələr (Şeybani və qardaşı) ara-sıra Səmərqəndə gəlib Teymurun nəslindən olan Səmərqənd hakimi Əhməd Mirzənin sarayında qalırdılar. Az sonra Şeybani Manqut (Noqay) hakimi Musa Mirzənin köməyilə qazaxların xanı olan Burunduk xanın (1480-1511) ordasını məğlub etdi. Lakin qüvvəsi az olduğuna görə Manqışlağa çəkildi. Bu vaxt monqol tayfaları Səmərqəndə basqın etdilər. Onda Səmərqənd hakimi Sultan Əhməd Mirzə Məhəmməd Şeybanini çağırıb dövlətin şimal sərhədlərinin müdafiəsini ona tapşırdı. Əhməd Mirzə və Şeybani ordu düzəldib monqollara qarşı hərəkət



etdilər. Şeybani xan əsas e'tibarilə quşçu, nayman, uyğur, kerait, durman və içqi adlı türk-özbək tayfalarına arxalanırdı. Sonralar ona kiyat, kunqrat, tuman, tanqıt, şadbaklı, ical və şinkarlı tayfaları da qoşulmuşdu. Lakin yolda Şeybani birdənbirə fikrini dəyişdi, Əhməd Mirzədən ayrılıb Daşkəndə getdi və oranın hakimi Mahmud xanın qəbuluna girdi. Özünə qüvvətli ordu düzəltdikdən sonra Şeybani Xarəzmə hərbi səfər etdi, xeyli mahalları tutub qarət etdikdən sonra Otrar şəhərini də tutub orada oturdu. İndiki Qazaxıstan ərazisində mövcud olan xanlığın hökmdarı Burunduk xan bunu eşidib Otrara hücum etdi və Şeybanini mühasirəyə aldı. Lakin Daşkəndin hakimi Mahmud xan ona köməyə gəldi və Şeybanini ölümdən xilas etdi.

Bu vaxt Səmərqənd hakimi Sultan Əhməd Mirzə öldü. Onun övladı yox idi. Bundan istifadə edən Şeybani Mahmud xandan kömək alıb Səmərqəndə və Buxaraya yola düşdü. O, əvvəlcə Buxaranı tutdu, sonra da 1500-cü ildə Səmərqəndi ələ keçirdi. Özü Səmərqənddə oturdu, Buxaranın idarəsini isə kiçik qardaşı Mahmud Mirzəyə verdi. 1503-1507-ci illərdə Xorasanda Teymurun nəslindən Hüseyn Baykaranı məğlub edən Şeybani xan Mərkəzi Asiya və Xorasanın əyalətlərini ələ keçirdi və Teymur xanədanının hakimiyyətinə son qoydu.

Onun dövlətinin hüdudları Xəzər dənizindən Çinə, Sırdəryanın sağ sahilindən mərkəzi Əfqanıstana qədər uzanırdı. Şeybani xan cənub-qərbdə Azərbaycan Səfəvilər dövlətilə həmsərhəd oldu. Onun cənuba doğru hərəkəti Səfəvilər dövlətinin banisi Şah I İsmayılı təşvişə salırdı. Şah İsmayılın özü də hakimiyyət uğrunda mübarizəyə başlayaraq 1501-ci ildə məqsədinə çatmış və Təbrizdə özünü şah e'lan etmişdi. Onun Azərbaycanın türk tayfalarından (əfşar, qacar, bayat, bəydili, qaraman, təkəli, zülqədər, şamlı və b.) qüvvətli ordusu vardı. Papaqlarına 12 imamın sayına uyğun 12 qırmızı zolaq tikdiklərinə görə bu tayfalar "Qızılbaşlar" adını daşıyırdılar. Azərbaycanın hər iki hissəsini, İranı və İraqın bir hissəsini əhatə edən Səfəvilər dövləti özünün qüdrətli vaxtını keçirirdi.

Ona görə Şeybani xanın Xorasanı ələ keçirməsi ilə şah I İsmayılla toqquşması labüd oldu. Əslində günah Şeybani xanın özündə idi. O, İranın əyalətlərinə hərbi səfərlər təşkil edir və hətta şah İsmayıla hədəli məktublar göndərirdi. Məktublarda Şeybani şah İsmayılı "dərviş oğlu" adlandırır və təhqir edirdi. Şah İsmayıl ona cavab məktubu yazaraq onun ölkəsinə basqınlara son qoymağı tələb etdisə də, Şeybani xan yenə təhqiramiz məktubla cavab verdi. Buna cavab olaraq, 1510-cu ildə şah İsmayıl ordunu götürüb Xorasana tərəf hərəkətə başladı. Özbəklərin ordusu Herata geri çəkildi. Şeybani xan orada idi, çünki Əfqanıstana hərbi səfərindən yenicə qayıtmışdı. Şah İsmayıl Məşhəddə ikən xəbər aldı ki, Sırdərya çayı kənarında qazaxların ordusu Şeybani xanın ordusunun bir hissəsini məğlub edib ərazisinin bir hissəsini tutmuşdur. Şeybani xan hiss edirdi ki, şah İsmayılın ordusuna qarşı dura bilməyəcək, çünki hərbi səfərdən yenicə qayıtmış ordusu həm sayca az idi, həm də yorulmuşdu. Ona görə o, indiki Türkmənistan ərazisində Mərv qalasına gələrək Mavərənnəhrdən hərbi kömək gözləməyə başladı. Səfəvilər ordusu isə fürsəti əldən verməyərək indiki Türkmənistan ərazisindəki Mərvə yaxınlaşdı, lakin qala divarlarını tutmağın çətinliyini görərək hərbi hiylə işlətdi. Mərvin qala divarlarından geri çəkilməyə başladı və bununla Şeybani xanı çaş-baş saldı, xan elə bildi ki, şah İsmayıl gücsüzlüyünə görə geri çəkilib getməyi qərara almışdır. Şeybani ordusu ilə qaladan çıxıb şah İsmayılın ordusunu tə'qib etməyə başladı. Şah İsmayıl Mərvin 24 km-də dayandı və 17 minlik seçmə döyüşçülərdən ibarət ordusunu geri qaytarıb Şeybaninin ordusunun üstünə atıldı. Baş verən qanlı döyüşdə Şeybaninin ordusu məğlub edildi. Şeybaninin bütün ordu başçıları döyüşdə öldürüldü. Şeybani xan isə əsir tutuldu və İsmayılın qərargahına gətirildi. Şah İsmayıl Şeybaninin başını kəsdi, sonra da dərisini soydurub samanla doldurtdu. Kəlləsindən isə qab düzəltdirdi, qızıl suyuna çəkdirdi və bu qabla şərab içdi.

Şeybani xanın bu aqibəti sarayda böyük təşviş yaratdı. Hakimiyyət uğrunda ə'yanlar arasında mübarizə başlandı. Ha-



kimiyyətə Daşkəndin hakimi olan dayısı Süyünc-Xoca keçdi. Lakin bu heç də özbək sultanları arasındakı narazılığı aradan qaldırmadı və tezliklə Süyünc-Xoca hakimiyyətdən salındı. 1510-cu ildə Şeybani xanın nəslindən Kuçkunçu xan hakimiyyəti ələ keçirdi (1510-1530).

Şah I İsmayıl Mərv altındakı qələbədən sonra Xorasana və Cənubi Türkmənistana yürüşünü davam etdirməkdə idi. Onun göndərdiyi kiçik bir ordu Herat şəhərini tutmuşdu. Qışı alaçıqda keçirdikdən sonra şah İsmayıl 1511-ci ilin yazında Amudərya çayının ətraf əyalətlərinə daxil oldu. Özbək xanı Kuçkunçu xan şah İsmayıla qarşı ordu ilə çıxış etməyə çəkinirdi, o şaha tabe olması haqqında məktub yazdı və çoxlu hədiyyələr göndərdi. Məktubda xahiş edirdi ki, şah Mavərənnəhrə girməsin və sülh danışıqlarına razılıq versin. Şah İsmayıl bu çağırışa müsbət cavab verdi və danışıqlara başladı. Sülh müqaviləsinə görə Amudərya çayının solsahil ərazisi Səfəvilər dövlətinə birləşdirilirdi. Şah eyni zamanda Əfqanıstanın şimal əyalətlərini də ələ keçirdi və bütünlüklə Xorasana yiyələndi.

Lakin bu sülh çox çəkmədi. Şeybani xan dövründə Səmərqənddən qovulmuş hakim Babur Əfqanıstanda idi. O, şah İsmayılla razılığa gələrək ordusu ilə 1512-ci ildə Amudəryanı keçib Mərkəzi Asiyaya daxil oldu və özbəklərin orduları ilə toqquşmada onları məğlub etdi. Nəticədə, Babur Mərkəzi Asiyanın bir sıra əyalətlərini işğal etdi. 1512-ci ildə Babur şah İsmayılla danışığa girib ondan ordu ilə kömək xahiş etdi və və'd etdi ki, Şeybanilər dövlətini yıxdıqdan sonra Mavərənnəhri şahın vassallığına verəcəkdir. Şah İsmayıl ordu göndərdi və Babur həmin ordu ilə Səmərqənd üzərinə hərbi səfər təşkil edərək, şəhəri tutdu və şah İsmayılı Mərkəzi Asiyanın ali hakimi e'lan etdi, onun adına pul buraxdırdı.

Qeyd edilməlidir ki, şah I İsmayıl Səfəvilər dövləti ərazisində şiə məzhəbini dövlət dini e'lan etmişdi. Qızılbaşlar sünnü məzhəbində olan müsəlmanlara qarşı düşmən kimi çıxış edirdilər. Əslində Azərbaycan xalqının hələ o vaxt parçalanmasına səbəb olmuş bu siyasətlə şah İsmayıl sünnü məz-

həbində olan özbəkləri - Şeybani xanı və Türkiyə sultanı II Sultan Səlimi özünə qarşı qaldırmışdı. İndi isə Babur tərəfindən şah İsmayılın Mavərənnəhrin ali hakimi e'lan olunması sünnü məzhəbində olan Mərkəzi Asiya türk xalqları, xüsusilə özbəklər içərisində narazılıq yaratmışdı. Səmərqənd şəhərinin sünnü məzhəbli əhalisi açıq-aydın Baburun bu siyasətinə qarşı çıxırdı. Babur isə bu vaxt ordunu buraxmışdı. Özbək sultanları Ubeydulla Sultan və Məhəmməd Teymur Sultan bu vəziyyətdən istifadə etdilər və başqa özbək tayfa başçılarının köməyinə arxalanaraq 1513-cü ilin əvvəllərində Mavərənnəhrə girdilər. Babur cəmi 5 minlik ordu ilə bu sultanların qarşısına çıxdı və döyüşdə tamamilə məğlub olub meydandan qaçdı. Özbəklər yenə Səmərqəndi ələ keçirdilər və bununla da bu şəhərdə həmişəlik olaraq özbəklərin hökmranlığı başlandı. Şah İsmayıl müttəfiqi Baburu qurtarmaq üçün sərkərdəsi Əmir Əhmədin başçılığı ilə Mavərənnəhrə ordu göndərdi. Ordu Amudəryanı keçib Baburla birləşdi və Karşi şəhərinin üstünə yeridi. Özbək xanları Məhəmməd Teymur və Ubeydulla Buxara altında idilər və hadisələrin gedişini izləyirdilər. Əmir Əhməd də Karşini tutduqdan sonra Buxaraya istiqamət almışdı. Lakin Buxara yaxınlığında Kicduvan adlı yerdə gözlənilmədən özbəklərin pusquda dayanmış ordusu onun üstünə atıldı və qoşununu məğlub etdi. Əmir Əhməd döyüşdə öldürüldü. Sağ qalmış qızılbaş qoşun dəstələri İrana qayıtdılar və bununla şah İsmayıl ilə Babur arasında ittifaq dağılmış oldu. Bundan sonra Şeybanilər ordusu Xorasana tərəf hərəkət etdi və Şeybani xanın vaxtındakı sərhədləri bərpa etdi. Şah İsmayıl tərəfindən tutulmuş əyalətlər geri qaytarıldı.

Şeybanilər dövlətində ərazi xanın sülalə üzvləri arasında bölüşdürülmüşdü. II Abdulla xan vaxtında yüksəliş dövrü keçirən dövlət sonra tənəzzül etdi. Bu dövlət 1588-ci ildə süqut etdi.

***İctimai və siyasi quruluş.*** Qeyd edilməlidir ki, məhz Şeybanilər dövləti zamanı Mavərənnəhrin və Xorasanın



türkdilli əhalisi "özbəklər" adlanmağa başlandı. Köçəri özbək tayfaları Şeybani xanın hərbi qüvvəsinin əsasını təşkil edirdilər. Şeybani xan hakimiyyətə keçəndən sonra bu tayfalara xüsusi imtiyazlar verilmişdi (Eyni hal Azərbaycan Səfəvilər dövləti üçün də səciyyəvi olmuşdur. Şah I İsmayıl hakimiyyətə keçəndən sonra, ona hərbi qüvvə ilə kömək etmiş türk Azərbaycan tayfalarına xüsusi imtiyazlar vermiş, Şimali Azərbaycanda və indiki Ermənistan ərazisində onlara əyalətlər ayırmışdı). Köçəri özbək tayfaları maldarlıq üçün ən yaxşı yerləri ələ keçirməyə çalışırdılar. Bu isə yerli əkinçi əhalinin e'tirazına səbəb olurdu. Köçəri tayfalar ən çox Daşkənd yaxınlığında, Zərəfşan vadisində, Kaşqadərya və Surxandərya hövzələrində yerləşmişdilər. Maldarlarla əkinçi əhali arasında bu ziddiyyət bə'zi əyalətlərdə açıq iğtişaşlara səbəb olmuşdu. Köçəri maldarlığın keçilməsilə iqtisadi həyat tərzində dəyişiklik yaranırdı. Şeybanilər dövründə feodalizm quruluşu inkişaf etməkdə idi. Keçmiş iqta və soyurqal sahibləri mülkədarlara çevrilmişdilər, onlara məxsus torpaqlarda oturmuş kəndlilər isə yarımtəhkimli vəziyyətə düşmüşdülər.

Ara feodal müharibələri və zəifləmiş mərkəzi hakimiyyət Mərkəzi Asiyanın ərazisində əkinçiliyin inkişafı üçün əsas təşkil edən suvarma sisteminə zərbə vururdu. İri feodalların hər biri öz ərazisində ağalıq edirdi. Onlar ölkənin ümumi mənafeyi ilə maraqlanmırdılar. Aramsız müharibələr kəndli kütlələrinin müflisləşməsinə gətirib çıxarırdı.

Şeybanilərin hakimiyyəti illərindən əvvəl Mərkəzi Asiyanın təsərrüfatının əsas sahəsi əkinçilik və sənətkarlıq idi. Şeybanilərin hakimiyyətə gəlməsi ilə köçəri maldarlıq xeyli genişlənmişdi. Lakin digər mühüm bir proses də gedirdi. İstər yerli oturaq, əkinçi əhali, istərsə də gəlmə köçəri türk tayfaları etnik və dil mənsubiyyətlərinə görə eyni olduqları üçün çox sür'ətlə qarışırdılar. Ona görə də XVI əsrin əvvəllərindən müasir özbək xalqının formalaşması prosesi gedirdi. Yaranmaqda olan xalq "özbək" adlanırdı.

XVI əsrin əvvəllərindən e'tibarən indiki Özbəkistan ərazisində şəhərlərin təsərrüfat həyatı tədriclə bərpa olunmaqda idi. Buxara, Daşkənd, Səmərqənd və b. qədim şəhərlər iri ticarət və sənətkarlıq mərkəzləri idilər. Müxtəlif ölkələrdən gəlmiş ticarət karvanları bu şəhərlərdəki bazarlarda qızğın alverlə məşğul idilər. Şəhərlərdə və ticarət yollarının kənarlarında çoxlu karvansaraylar tikilmişdi. Çin və Hindistanla ərazicə yaxmlığa görə Mərkəzi Asiya əyalətlərinə və şəhərlərinə bu ölkələrdən müxtəlif çeşidli mallar gətirilirdi.

İndi isə XVI-XVII əsrlərdə Mavərənnəhrdə cərəyan etmiş siyasi hadisələrə qısaca nəzər yetirək. Kuçkunçu xanın ölümündən sonra oğlu Əbu-Səid (1530-1533) üç il hakimiyyətdə qaldı, ondan sonra hakimiyyətə yuxarıda haqqında danışdığımız Ubeydulla gəldi (1533-1539). Ubeydulla xan Şeybani xanın qardaşı oğlu idi. O, bacarıqlı döyüşçü, sərkərdə və siyasətçi idi. Onun dövründə dövlət aparatı möhkəmlənmiş, feodal özbaşınalığına son qoyulmuşdu. Lakin o ölən kimi vəziyyət yenə dəyişdi. Belə ki, ölkədə ikihakimiyyətlik yarandı. Buxarada onun oğlu Əbdüləzizxan (1540-1549), Səmərqənddə Kuçkunçu xanın oğlu Əbdül-Lətif (1540-1551) hakimiyyətə keçdi. Bu əslində Şeybanilər dövlətinin parçalanması idi. Əyalət hakimləri baş qaldırdılar. Bu iki hakimiyyət arasındakı çəkişmələr 1583-cü ilə qədər davam etdi, arada 1598-ci ilə qədər II Abdulla xan dövründə sakitlik yaransa da, sonra yenə feodal ara müharibələri başlandı. Digər tərəfdən, 1587-ci ildə İranda hakimiyyətə gəlmiş I Şah Abbas (1587-1628) Xorasanı Şeybanilərdən qopartdı. Abdulla xanın Bəlxdə hakimiyyətdə olan yeganə oğlu Əbdülmö'min də atasından hakimiyyəti ələ almaq fikrinə düşərək, ordu ilə onun üstünə hərəkət etdi. Baş vermiş döyüşdə Abdulla xanın ordusu məğlub oldu. Oğlunun bu hərəkətinə dözməyən atası da özünü öldürdü. Lakin Əbdülmö'minin atasının ölümündən sonra hakimiyyəti 6 ay çəkdi (yuxarıda biz Uluqbəyi öldürmüş oğlunun Nizami Gəncəvinin bir beytini oxuduğunu qeyd etmişdik, həmin beytdə deyilir ki, atasını öldürən oğulun



hakimiyyəti 6 aydan artıq çəkə bilməz). Sarayda sui-qəsd nəticəsində Əbdülmö'min öldürüldü və başı kəsildi. Bununla da 100 il hakimiyyətdə olmuş Şeybanilərin sonu çatdı.

Şeybani dövlətinin əmirləri belə qərara gəldilər ki, Abdulla xanın bacısına evlənmiş Həştərxan xanlarımn nəslindən (bu nəsil Cuçi xanın nəsli idi) olan Canibəy adlı birisini hakimiyyətə gətirsinlər. Canibəy bu təklifə razılıq vermədi. Belə olduqda əmirlər onun oğlu Din Məhəmməddən xahiş etdilər. Din Məhəmməd Mərkəzi Asiyaya yola düşdü, lakin Buxaraya az qalmış kolun dibində pusquda durmuş iki-üç nəfər quldur hücuma keçib onu öldürdü, onun və onu müşayiət edənlərin üst-başını, silahlarını qarət edib qaçdılar. Onda əmirlər Din Məhəmmədin o biri qardaşı Baki Məhəmmədi hakimiyyətə gətirdilər. Bununla da, Mavərənnəhrdə 1605-ci ildən Həştərxanlılar sülaləsi hakimiyyətə gəldi. 1599-1753-cü illərdə Buxara əyalətində hakimiyyətdə olmuş bu sülalədən İmamqulu xan (1611-1642), Nadir Məhəınməd (1642-1645), Əbdüləziz (1645-1680), Sübhanqulu (1680-1702), II Übeydulla (1702-1711) və II Əbdüləziz (1711-1717) hakimiyyətdə oldular. Baki Məhəmməddən sonra qardaşı Vəli Məhəmməd (1611-ci ilədək) hakimiyyətə keçdi. Bu zaman Buxarada yerli feodal əyanlar ona qarşı sui-qəsd təşkil etdilər və onu tutub öldürdülər. Bundan sonra Mərkəzi Asiyada xırda xanlıqlar yarandı və bu xanlıqlar (Buxara xanlığı, Xivə Xanlığı, Kokand xanlığı və s.). XVII əsrdən Rusiyanın işğalçılıq planlarının diqqət mərkəzinə çevrildi.

Bu əsrlərdə Türkmənistanın da tarixi Şeybanilər dövləti ilə bağlı idi. Türkmən torpağı Azərbaycan Səfəvilər və Özbək Şeybanilər dövlətləri arasında bölünmüş vəziyyətdə idi.

XVI əsrdə türkmənlərin əsas məşğuliyyətləri maldarlıq və əkinçilik idi. Bə'zi tayfalar həm maldarlıqla, həm də əkinçiliklə məşğul olurdular.

Xarəzm türkmənləri özbək sultanlarının hakimiyyəti altında idilər. Şah I İsmayıl 1524-cü ildə öldükdən sonra Xarəzm türkmənlərinin başçısı İl Bars Xorasam zəbt etmək və

Səfəvilərdən ayırmaq uğrunda mübarizəyə başlamışdı. Sonra da Xarəzm sultanları Balxaşətrafı ərazini, Manqışlağı tutdular və beləliklə, bütün Türkmənistan ərazisi Şeybanilər dövlətinə birləşdirildi. Şeybani xanları türkmən tayfalarını amansız istismar edirdilər. Belə ki, türkmənlər ildə 40 min qoyun vergi verirdilər. Türkmənistanın əyalətləri Şeybanilər nəslinə mənsub xanlar arasında bölüşdürülmüşdü.

Cənubi Türkmənistanda isə vəziyyət bir qədər başqa cür idi. XVI əsrin əvvəllərində Əmir Teymurun nəslindən olan Məhəmməd Zaman adlı bir feodal türkmən tayfalarının köməyilə Astrabad mərkəz olmaqla Cənubi Türkmənistanda kiçik bir xanlıq yaratmışdı. Lakin Şah İsmayıl Xətai 1514-cü ildə hücum edib xanlığa son qoydu. Şah İsmayıl öləndən sonra vəziyyət dəyişdi. Şeybanilərdən Din Məhəmməd xan 1539-cu ildə Cənubi Türkmənistana hücum edib oranı işğal etdi. Din Məhəmməd və onun varisləri Abul Məhəmməd və Nur Məhəmməd xan dövründə Türkmənistanı yarımvassal hüquqlu yerli hakimlər idarə edirdilər. Lakin belə vəziyyət çox çəkmədi. İran şahı I Abbas dövründə Cənubi Türkmənistan işğal edildi və 150 il işğal altında qaldı.



## *IV fəsil*

## *QAZAXISTAN ORTA ƏSRLƏRDƏ*

### *§1. Qazax tayfaları (Juzlar)*

XVI əsrdə Qazaxıstanda feodal pərakəndəliyi hökm sürürdü. Ayrı-ayrı tayfa birləşmələri arasında iqtisadi əlaqələr çox zəif idi. Qazaxıstan təsərrüfat tipinə görə üç regiondan ibarət idi: Yeddiçayarası (Yeddi-Su), Mərkəzi Qazaxıstan və Qərbi Qazaxıstan. Yeddiçayarası ərazidə yaşayan maldarlar Çu, Talas və İli çaylarının hövzələrində yerləşən otlaqlarda köçərilik edirdilər. Onların yaylaqları Alatau dağlarında idi. Bu region tarixən öz xüsusiyyətləri ilə səciyyələnirdi. Orada həm də qədimdən əkinçiliklə məşğul olan əhali yaşayırdı. Hələ e.ə.III-II əsrlərdə bu ərazidə türkdilli usunların tayfa birləşməsi yaranmışdı. Erkən orta əsrlərdə bu regionda Türk xaqanlığı və Karluklar dövləti mövcud olmuşdu. Qazax xalqının etnogenezində iştirak etmiş əsas etnik ünsürlər məhz Yeddiçayarasında yaşayırdılar. Ona görə də bu regionda qədimdən yaşayan qazax tayfaları Ulu Juz (yə'ni Böyük Juz) adlanırdı. Qazax dilində Juz təsərrüfatca və coğrafi cəhətdən eyni xüsusiyyətlərə malik ərazi vahidi mə'nasındadır. Başqa sözlə, Juz qazax tayfa birləşməsinin ərazisi deməkdir.

Qazaxların üç Juzu vardı: Böyük Juz, Orta Juz və Kiçik Juz. Böyük Juzda qədimdən alban (bu tayfa diqqəti xüsusilə cəlb edir; Şimali Azərbaycan ərazisində e.ə.IV əsrdən eramızın VII-VIII əsrlərinə qədər Alban dövlətinin mövcud olması mə'lumdur; bir sıra tədqiqatçılar alban adını daşıyanları ləzgidilli xalq sayırlar, lakin son illərdə Azərbaycan tarixşünaslığında yaranmış yeni konsepsiyaya görə albanlar məhz türkdilli idilər və bunun üçün Qazaxıstanda Böyük Juzda yaşayan türk alban tayfasını da müqayisəyə çəkirlər), usun, kanqlı, suvan, dulat, oşaktı, çataştı, cəlair və b. idi. Orta Juza uzun qıp-

çaq, gündələn qıpçaq, qarabalık qıpçaq, torayqır qıpçaq, bultun qıpçaq, talabuqa qıpçaq, arqun, ak-nayman, bura-nayman, bulatçı-nayman, karakerey nayman, tərs tamqalı nayman, turqoğul nayman, gökcarlı nayman, semiz nayman, baqanalı nayman, sadır nayman, burma nayman, konqrat, kerey və b. tayfalar daxil idi. Onların qışlaqları Sırdəryanın aşağı axarlarında, yaylaqları isə Ural çayı hövzələrində, Tobol çayının yuxarı hövzələrində və Muqoçar dağlarında idi.

Kiçik Juz keçmiş Noqay Ordasının əsasında yaranmışdı. Bu Juza appas, çakçar, atqay, kılıs, alçın, tabın, şamaki, tana və b. tayfalar daxil idi. Onların əraziləri Aşağı Volqaboyu və Uralla əlaqədar idi.

Bu Juzların etnik tərkibi Qazaxıstan Rusiyaya birləşdiriləhədək qalmışdı.

## §2. *Qazax xanlığı*

XV əsrdə indiki Qazaxıstan çöllərində ilk qazax xanlıqları yarandı. Bu xanlıqlar indiki qazaxların ilk dövlət qurumları hesab olunur. Doğrudur, Qazaxıstanın cənubu VI-VII əsrlərdə Qərbi Türk Xaqanlığına, VIII-IX əsrlərdə isə Karluklar dövlətinə, X əsrdə Qaraxanilər dövlətinə daxil idi, lakin bu feodal dövlətləri Mərkəzi Asiyanın başqa əyalətlərini də əhatə edirdi və onlar həm də indiki qazax, özbək və qırğızların dövlət qurumları idi. Monqolların işğalları ilə indiki Qazaxıstan ərazisi Cuçi və Cağatay ulusları arasında bölünmüşdü.

XIII-XIV əsrlərdə Qazaxıstan ərazisi Qızıl Orda və Ağ Orda dövlətlərinin tərkibində idi. XV əsrdə Qazaxıstan ərazisində yaranmış xanlıqlar isə qazaxların feodal dövlət tipi kimi səciyyələndirilir.

Hələ Qızıl Ordanın dağılması ərəfəsində Qazaxıstan ərazisində məhsuldar qüvvələrin inkişafı baş verirdi. Sırdəryanın orta hövzələrində olan Sıqnaq və Sabran (Şabran) şəhərləri monqol dağıntılarından sonra dirçəlməyə başlamışdı. Sırdərya hövzələrində Kara-Tauda, Çu və Talas çaylarının



vadilərində maldar köçəri qazax tayfaları oturaq həyata keçirdilər. Feodalizm münasibətlərinin inkişafı əsasında yerli feodal dövlət qurumları təşəkkül tapırdı. Bu feodal dövlətlərinin qabaqkı əsrlərdə mövcud olmuş dövlətlərdən əsaslı fərqi vardı. Belə ki, əvvəlki dövlətlər işğalçılıq əsasında, XV əsrdə təşəkkül tapmış dövlətlər isə yerli iqtisadi özül əsasında, daxili etnik inkişaf üzərində yaranmışdı.

XV əsrin əvvəllərində Ağ Ordanın parçalanması nəticəsində Noqay Ordası və Özbək xanlığı yaranmışdı. Noqay Ordası Yaik (Ural) və Volqa çayları arasında, Özbək xanlığı isə Sırdəryanın aşağı hövzələrində və Aral dənizindən şimalda Yaik və Tobol çaylarına qədər uzanırdı. Özbək xanlığından şimalda Sibir xanlığı yerləşirdi. Etnik tərkibinə görə Noqay və Özbək xanlıqlarında eyni türkdilli tayfalar yaşayırdı: qıpçaq, kanqlı, karluk, nayman, uysun, arqun, qırğız, kitay, *manqut*, *ming*, tanqut, kəngərəs və b. Dəşti-Qıpçaqın şərq hissəsinin əhalisi XIV-XV əsrlərdə "Özbək" adını daşıyırdı və ona görə yuxarıda haqqında danışdığımız Əbülxeyrin xanlığı Özbək xanlığı adlanırdı. Həmin əsrlərdə "Qazax" etnonimi də mənbələrdə əksini tapır. Qazaxıstanın cənub-şərqi və mərkəzi hissəsinin tayfaları "qazax" adını daşıyırdılar. Deməli, indiki Qazaxıstanın bir hissəsi Özbək xanlığına daxil idi. Xanlıqda feodal çəkişmələri nəticəsində 1428-ci ildə hakimiyyət Şeybaninin nəslindən Sultan Əbülxeyrə keçdi. Əbülxeyr Sırdəryadan Sibir xanlığına qədərki ərazini hakimiyyəti altında birləşdirmişdi. Oraya Qazaxıstanın Sıqnaq, Ak-Kurqan, Suzak və b. Sırdəryakənarı şəhərlər də daxil idi. Əbülxeyrin hakimiyyəti 1468-ci ilə qədər davam etdi. O öldükdən sonra yenidən hakimiyyət uğrunda mübarizə başlandı. Hakimiyyət uğrunda Əbülxeyr sultanın 1428-ci ildə öldürdüyü Barak Sultanın oğlu Canibəy və onun oğlu Girey xan Burkə mübarizəyə başladılar. Lakin onlar hakimiyyəti ələ ala bilmədilər və xanlıq Əbülxeyrin nəvəsi Məhəmməd Şeybaniyə keçdi (1451-1510).

1480-ci ildə Canibəy öldü, oğlu Gireyin oğlu Burunduk xan Qazaxıstanın şərq rayonlarını ələ keçirərək müstəqil xanlıq yaratdı.

Burunduk xan (1480-1511) dəfələrlə Şeybanilərlə müharibə etsə də, məqsədinə çatmadı. Şeybani xan 1500-cü ildə Mavərənnəhri, Buxaranı, Səmərqəndi tutaraq Mərkəzi Asiyada güclü dövlət yaratdı. Yuxarıda dediyimiz kimi, onu 1510-cu ildə Şah İsmayıl Xətai məğlub etdi. Deməli, XV əsrin 40-cı illərində Canibəy və Girey Burkə sultanların öz tayfaları ilə Aral sahillərindən Çu çayının sahillərinə köçməsi qazax xalqının tarixində mühüm hadisə oldu. Məhz bu vaxtdan qazax xalqı formalaşmağa başladı. Burunduk xan indiki Qazaxıstanın şərq hissəsini birləşdirdi. Canibəyin digər oğlu Qasım Balxaş gölü rayonunda ayrıca xanlıq yaratmışdı. Şeybani xanın öldürülməsindən sonra özbək xanlığına daxil olan bə'zi ərazilər Qazax sultanlarına keçdi.

XVI əsrin əvvəllərində Canibəyin oğlu Qasım Sultan (1518-1523) bütün Yeddiçayarası ərazini ələ keçirdi. Tədriclə o, hakimiyyətini Dəşti-Qıpçağın xeyli ərazisinə yaydı və bütünlüklə Dəşti-Qıpçağın xanı oldu. Noqay Ordası bu vaxt süqut etməkdə idi. Ordanın ərazisində yaşayan qıpçaq və kanqlı tayfaları qazax sultanlarının asılılığına keçdi. Qasımın hakimiyyəti illərində şeybanilərlə Qazax sultanları arasında müharibələr davam etməkdə idi. Mübarizə əsas e'tibarilə Sırdərya hövzələri və oralarda yerləşən şəhərlər uğrunda gedirdi. Bu müharibələr şəhər və kəndlərin dağılmasına, kəndli təsərrüfatlarının geriləməsinə səbəb olurdu. 1509-cu ildə Qazax sultanları Əhməd və Canış 50 minlik atlı ordu ilə Mavərənnəhrə basqın etdilər. Onlar Səmərqəndin və Buxaranın bir sıra kəndlərini dağıtdılar və qənimətlə geri qayıtdılar. Şeybani xan buna cavab olaraq "qəzavat" e'lan etdi və Qazaxıstan səhrasına səfər təşkil etdi. Şeybani qazax tayfalarından çoxlu mal-qara və əsir tutub geri qayıtdı. Qazaxlardan arabalar üstündə qurulmuş 10 min alaçıq ələ keçirildi (hunların da məhz belə arabalarda hərəkət etdiklərini demişik). 1510-cu ildə, Şah I İsmayıl ilə müharibəsindən əvvəl Şeybani xan bir də qazax çöllərinə yürüş təşkil etmiş, lakin bu dəfə qazax sultanlarının orduları ilə toqquşmada məğlub olub geri qayıtmışdı.

Şeybani xan 1510-cu ildə öldürüldükdən sonra hakimiyyət uğrunda gedən mübarizə ilə əlaqədar olaraq Özbək xanlığı ərazisində hakimiyyət Qazax xanlarının əlinə keçdi. Onlar Şeybaninin ardınca getməmiş qıpçaq, naymon, kanqlı, kitay, kerent və b. tayfaları özlərinə tabe etdilər. Nəticədə "Özbək" və "Qazax" adları fərqlənməyə başladı.



1518-1523-cü illər arasında Qasım xan öldü. Ondan sonra Qazaxıstan çöllərində hakimiyyət uğrunda ayrı-ayrı feodal ə'yanları arasında uzun sürən müharibələr başlandı. Şübhəsiz ki, XVI əsrdə yaranmış Qazax xanlığı indiki Qazaxıstanın bütün ərazisini əhatə etmirdi. Qazaxıstan ərazisinin bir hissəsi Noqay Ordasına və Özbək xanlığına aid idi. Qazax xanlıqlarının ərazisi də siyasi hadisələrlə bağlı olaraq tez-tez dəyişilirdi.

Qazax xanlıqlarını və tayfa ittifaqlarını birləşdirməyə sə'y edən Qasım xan öləndən sonra feodal müharibələri qızışdı. Qasımın oğlu Mamay ara müharibələrindən birində öldürüldü. Mamayın yerini qardaşı Tahir xan tutdu (1523-1533). Tahir xan atası Qasım xanın siyasətini davam etdirərək Qazaxıstanda vahid siyasi birləşmə yaratmağa çalışırdı. Bu məqsədlə o, Noqay Ordası və Daşkənd hakimləri ilə bir sıra müharibələr aparmalı oldu. Lakin məqsədinə nail ola bilmədi. Bu müharibələri aparmaq üçün Tahir qazax tayfalarının üzərinə qoyulan vergiləri artırdığına görə maldarlar ondan uzaqlaşmağa, başqa ərazilərə köçməyə başladılar. Onda Tahir xan Daşkənd hakimi Sultan Məhəmməd xana hərbi qüvvə üçün müraciət etdi. Həmin hərbi qüvvə ilə Tahir xan ona qarşı çıxan yerli feodalların müqavimətini qırdı, sonra da Daşkəndlə əlaqəni kəsməyə başladı və hətta Daşkənd üzərinə hərbi səfərə hazırlaşdı. Lakin Sultan Məhəmməd bu xəbəri alan kimi onu qabaqladı və Tahir xanın torpaqlarına basqın etdi. Baş vermiş vuruşmada Tahir xan məğlub oldu. Qazax xanlığının ərazisinin bir hissəsini zəbt edən Sultan Məhəmməd xan çoxlu qənimət ələ keçirdi. Tahir xanın yerinə keçmiş oğlu Buydaş xan (1533-1534) dövründə qazax tayfa birləşmələrinin başçıları arasında otlaqlar üstündə müharibələr gücləndi. Müharibə edən tərəflərin hər biri Sırdərya hövzələrində oturaq əyalətlər üzərində hakimiyyəti

ələ almağa çalışırdı. Qazaxıstanın qərb rayonlarında Əhməd xan, Yeddiçayarası ərazidə Tuqum xan adlı feodallar ağalıq edirdilər. Bununla yanaşı Qazaxıstan ərazisində əvvəllər köçəri maldarlıqla məşğul olan tayfalar tədriclə oturaq həyata keçirdilər. Bu tayfalar yerli oturaq əkinçi əhali ilə qaynayıb-qarışmaqda idilər.

Sırdərya sahillərində Sıqnaq şəhəri iri ticarət mərkəzinə çevrilmişdi. Oturaq həyata keçməkdə olan tayfaların maldarlıq məhsulları ticarətdə mühüm yer tuturdu. Sıqnaqa Buxara, Səmərqənd, Daşkənd və başqa şəhərlərdən tacirlər gəlirdilər.

Qasım xanın oğlu Haqnəzər (1538-1580) Noqay Ordasında hakimiyyət uğrunda gedən mübarizədən istifadə edərək ərazisini genişləndirdi. Noqay Ordasına məxsus torpaqların bir hissəsini zəbt etdi. Haqnəzər xan Buxara xanı II Abdulla xanla ittifaqda Daşkənd hakimi Baba Sultana qarşı hərbi əməliyyatlar da keçirdi. Lakin Baba Sultan Haqnəzəri muzdlu sui-qəsdçilər vasitəsilə öldürtdü.

Haqnəzərdən sonra oğlanları Şiqay (1580-1582) və Təvəkkül (1586-1598) dövründə Qazax xanlığı Baba Sultan ilə mübarizəni davam etdirirdi. Təvəkkül 1582-ci ildə kiçik ordusu ilə qəfildən Baba Sultan otlaq yerində istirahətdə ikən ona hücum etdi, arvad-uşaqlarını və özünü öldürdü. Baba Sultanın başını kəsib xurcuna qoydu və aparıb Buxara xanı Abdullaya göstərdi. Bununla Təvəkkül atasının intiqamını Baba Sultandan aldı.

1583-cü ildə Təvəkkül ilə Buxara xanı Abdulla arasında münasibətlər pozuldu. Təvəkkül Sırdərya şəhərlərini ələ keçirməyə çalışırdı. Lakin Qazax xanlığı ilə Buxara xanlığı arasında Sırdərya hövzələri uğrunda mübarizə heç nə vermədi. Sonrakı illərdə yenə də feodallar arasında mübarizə gücləndi. Digər tərəfdən isə Rusiya Qazan və Həştərxan xanlıqlarını işğal etdikdən sonra Mərkəzi Asiya və Qazaxıstanı işğal etmək üçün yollar axtarırdı. Qazaxıstan ərazisindəki feodal pərakəndəliyi buna yaxşı şərait yaradırdı. Bu proses 1731-ci ildə Qazaxıstanın Kiçik Juzunun, sonra da bütün Juzların Rusiya tərəfindən işğalı ilə nəticələndi.



## *V fəsil*

## *QƏRBİ SİBİR, ALTAY VƏ ŞƏRQİ SİBİRİN TÜRK DÖVLƏTLƏRİ VƏ TAYFALARI*

### *§1. Tuva*

1207-ci ildə Çingizin böyük oğlu Cuçi böyük bir ordunun başında Tuva ərazisinə gəldi, Yuxarı Yenisey və Baykalətrafı ərazinin türk tayfalarına qarşı hərbi əməliyyata başladı. Qədim monqol mənbələrində Cuçi tərəfindən tabe edilmiş "meşə xalqları" içərisində Şərqi Sayan dağlarında yaşayan tuba adlı tayfanın adı çəkilir. Həmin tayfa müasir Tuvanın şimal-şərqində yaşayırdı. Çin mənbələrində ("Tap-şu" adlı salnamədə) həmin tayfa "dubo" kimi qeyd olunur ki, bu da indiki Tuva türk xalqı adının Çin dilində yazılış formasıdır. Lakin orta əsr ərəbdilli mənbələrdə həmin "meşə xalqı" (yə'ni meşəlik zonada yaşayan xalq) uryankat kimi qeyd olunur. Həmin türk tayfası əsasən maldarlıq və ovçuluqla məşğul olurdu. Onların əsas ev heyvanı maral idi, ondan həm ətlik kimi, həm də qoşqu heyvanı kimi istifadə olunurdu. Onlar üstü dəri (gön) ilə örtülmüş alaçıqlarda yaşayırdılar. Deməli, Şərqi Sayanda yaşayan bu türk tayfası müasir tuvaların ulu əcdadları idi. Lakin, şübhəsiz, bu regionda o vaxt başqa dil ailəsinə mənsub samodiylər də yaşayırdılar, elə indi də orada tuvalarla yanaşı məskundurlar. Ona görə də samodiylərlə tuvalar etnik mənsubiyyətcə fərqləndiyi kimi, təsərrüfat məşğuliyyətlərinə görə də fərqlənirdilər. Samodiylər ən çox maral, türk tuvalar isə qoyun saxlayırdılar.

XIII-XIV əsrlərdə Tuva ərazisində uyğurlar və qırğızlar da gəlib məskunlaşmışdılar. Bu, monqolların işğalları ilə əlaqədar idi.

Tuvalarda göstərilən əsrlərdə tayfa-qəbilə quruluşu mövcud idi. XIII əsrdə tuvaların böyük bir qrupu Tumat

adlanırdı. Tumat tayfası Cuçinin işğalına qarşı çıxmış, lakin monqollar tərəfindən qırılmışdı.

Monqol tarixçisi Rəşidəddin yazır ki, Yenisey çayı hövzələrində yaşayan tuvaların bir sıra şəhərləri vardı. Lakin bu şəhərlərin qala divarları yox idi. Şəhərlərdə sənətkarlıq, metalişləmə dulusçuluq və b. sənətlər inkişaf etmişdi.

XIII-XIV əsrlərdə Tuva ərazisində buddizm dini yayılmağa başlamışdı. Bu məqsədlə buddizm mə'bədləri tikilmişdi. Bunu arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi-mədəniyyət nümunələri də aydın göstərir. Çox maraqlıdır ki, Tuva ərazisində çoxlu qəbir üstü qoç daşlar da tapılmışdır (mə'lum olduğu kimi qoç daşlar, yə'ni qoç, yaxud qoyun formasında yonulmuş abidələr Azərbaycanın Yardımlı, Naxçıvan, Gədəbəy, Kəlbəcər və b. dağ zonalarında indi də vardır, lakin ermənilər bu daşları özlərinki hesab edirlər. Həqiqətən Ermənistan ərazisində də belə qoç daşlar vardır və şübhəsiz ki, onlar orada yaşamış və son illərdə qovulmuş azərbaycanlıların əcdadlarına məxsusdur. Ermənilər isə Naxçıvan, Gədəbəy və b. rayonlarda olan qoç daşları oğurlayaraq aparıb İrəvan muzeylərinə və Eçmiadzin kilsəsinin həyətinə qoymuşlar).

Tuvalar dəmir filizini əritməkdə mahir idilər. XIII-XIV əsrlərə aid arxeoloji qazıntılar zamanı çoxlu metalərітmə peçlərinin qalıqları da aşkar olunmuşdur.

Tuvada XIII əsrdə ticarət də inkişaf etmişdi. Bunu arxeoloji qazıntılar zamanı Çin və Mərkəzi Asiya ölkələrinə məxsus əşyaların tapılması aydın göstərir. Burası da qeyd olunmalıdır ki, Tuvada XIII-XIV əsrlərdə əhali artıq islam dinini qəbul etmiş, buddizmdən uzaqlaşmışdı.

Monqol işğalı Tuvanın əhalisinin təsərrüfat həyatına ağır zərbə vurdu. Monqollara qarşı çıxmış tayfalar məhv edildi. Əvəzinə isə monqolların tərkibində gəlmiş monqol və türkdilli tayfalar oturaqlaşıb türk tuvalara qarışdılar. Monqol tayfalarınm əksəriyyəti sonralar türk dilinə keçmişdi. Tuvaların bə'zi tayfaları sonralar Altaya köçərək Teles gölü sahillərində məskunlaşdılar.



Tuvaların XIII-XIV əsrlərdə yazısı yox idi. Lakin şifahi xalq ədəbiyyatı, xüsusilə eposlar onların mə'nəvi mədəniyyətində mühüm yer tuturdu.

## *§2. Tümən xanlığı*

XIV-XV əsrlərdə Qərbi Sibirin türk tayfaları içərisində sinfi təbəqələşmə güclənməyə başladı. Feodalizm münasibətlərinin inkişafı Tobol çayı hövzələrində yaşayan türk tayfaları içərisində siyasi birləşməyə gətirib çıxarmışdı. Bu, XV əsrin axırlarından başlayaraq Rus mənbələrində "Sibir tatarları" adlandırılanlar içərisində ilk dövlət qurumu idi. Bu siyasi birləşmə Tümən adlanırdı və onun mərkəz şəhəri Çimqa-Tura idi. İndi nefti ilə məşhur olan Tümən əyaləti də öz adını həmin kiçik dövlətdən alır. Teymur tərəfindən məğlub edilmiş Qızıl Orda xanlarının bə'zi nəsilləri Tümənə qaçıb gəlmişdilər. XV əsrin sonlarında Tümən xanlığının ərazisi Ağ Ordanın və Mərkəzi Asiyada Şeybanilər dövlətinin nəsillərindən olan hakimlər arasında mübarizə meydanına çevrilmişdi. Axırda iş elə gətirdi ki, özbəklərdə hakim olan Hacı Məhəmmədin nəvəsi, Qərbi Sibirdə İşim çayı hövzələrində köçərilik edən türk tayfalarınm başçısı İbak adlı elbaşı Tümən xanlığında hakimiyyəti ələ aldı. Onun hakimiyyətə gəlməsilə Tümənin ərazisi Tobol çayının yuxarı hövzələrində yaşayan türk və uqor tayfalarının torpaqları hesabına böyüdü.

Tobol çayının aşağı və İrtış çayının orta hövzələrində yaşayan türk ulusları Tümən xanlığına qarşı mübarizə apararaq İbaka tabe olmurdular. Bu ulusları Taybuqin tayfasından olan hakimlər idarə edirdilər.

XV əsrin ikinci yarısında taybuqinlər Cənubi Sibirdə Tobol, İşim və İrtış çayı hövzələrində hakimiyyəti ələ almağa çalışan Mərkəzi Asiya Şeybani dövlətinin hakimlərinə qarşı mübarizə edirdilər.

İbak sonra başqa vasitəyə əl atdı. O, öz bacısını taybuqinlərdən Mara adlı birisinə ərə verdi, sonra da bacısı ilə məsləhətləşib Maranı öldürdü. Öldürülən Maranın oğlanları Adər və Yabolak Tobol çayı hövzələrində yaşayan tatarların yanına qaçdılar, orada qoşun toplayıb, 1495-ci ildə İbakı tutub başını kəsdilər. Feodal müharibələri nəticəsində XVI əsrin əvvəllərində Tümən xanlığı süqut etdi və onun ərazisi Sibir tatar xanlığına keçdi.

## *§3. Sibir tatar xanlığı*

Mə'lum olduğu kimi Sibir Asiyanın nəhəng bir hissəsinin türkcə ümumi coğrafi adıdır. Sibir qərbdə Ural dağlarından Sakit okeana, şimalda Şimal Buzlu okeanından, cənubda Qazaxıstanın təpəli çöllərinə, Monqolustan və Çinə qədər böyük ərazini əhatə edir (Sibir şimaldan cənuba 3500 km, qərbdən şərqə 10 min km-dir). Coğrafi ədəbiyyatda Sibir Qərbi Sibir və Şərqi Sibir hissələrinə bölünür. Sibirdə Fin-Uqor, Samodiy (nen, nqakasan, selkup), türk (yakut, xakas, tatar, şor, tuva) və Altay dil ailəsinin Mancur (evenk, ulçi, oroç, udegel və b.) qoluna aid dillərdə danışan xalqlar yaşayırlar. Rus tarixşünaslığında "tatar" adlanan müxtəlif türk tayfaları Cənubi və Orta Sibirdə məskundurlar. Sibirdə ilk dövlət qurumu XVI əsrin sonlarında yaranmış Sibir xanlığı idi. Bu xanlıq Qızıl Orda dağılandan sonra yaranmışdı. Xanlığın ərazisi XIII-XIV əsrlərdə İbir adı ilə Cuçi ulusuna, sonra Şeybanlar ulusuna və daha sonra Tümən xanlığına daxil olmuşdu.

1495-ci ildə Tümən xanı İbak öldükdən sonra onun xələfi Tay-Buqa nəslindən Məhəmməd xan tatar türklərinin siyasi ittifaqını yaratdı. Xanlıqda rus mənbələrində "tatar" adlanan qıpçaq, arqun, karluk, kanqlı və b. türk tayfaları yaşayırdı. Orada Fin-Uqor dilli xantilər və mansilər də məskun idilər. Sibir xanlığı əvvəlcə kiçik türk uluslarından ibarət idi. Ulusların başında tarxan, bəy və murza adlanan hakimlər dururdular. Ulusun sıravi adamları "kara" adlanırdı (qədim türk run yazılarında kara-budun və azərbaycanlılarda "qara camaat" ifadəsi ilə müqayisə edin). "Kara"nın üzvləri hərbi xidmətə gedir, həm mərkəzi dövlətə, həm də tarxanlara və bəylərə vergi verirdilər. Xanlığın ərazisində yaşayan və uqor tayfalarından olan mansilər və xantilar isə illik xərac ödəyirdilər. İşğal edilmiş ərazilərdən alınan bu məcburi xərac türk dillərində "yasaq" adlanırdı. Yasaqdan o uluslar azad edilirdi ki, onların hakimləri Sibir xanlığı xanlarının qohumları idilər. Sibir xanlığında dövlət idarə aparatı xan, yasaul, vəzir (Sibir türkləri vəzirə "karaçi" deyirdilər) və məsləhətçi tarxanlardan ibarət idi. Uluslarda vergi yığılmasına başçılıq edənlərə darğa deyilirdi. Ulusların tək-tək hakimləri xandan vassal asılı vəziyyətdə idilər. Onlar öz dəstələri ilə xanın hərbi səfərlərində iştirak edirdilər.

Xanlığın mərkəzi İrtış çayı sahilində Kaşlıq şəhəri idi. Şəhər qala divarları ilə möhkəmləndirilmişdi. Xanlığın sərhədlərində möhkəmləndirilmiş başqa məntəqələr də vardı. Bunlardan Om çayı kənarında Ton-Turu (qədim türk dillərində tur "şəhər" deməkdir), İrtış çayı sahilində Kullar və b. şəhərləri (Kızıl-Tura, Yavlu-Tura, Qasım-Tura, Çimqa-Tura) göstərmək olar. Bu şəhərlər həm də ulus hakimlərinin dayaq məntəqələri idi.

Sibir xanlığının ərazisinə Uralın şərq ətəklərində yaşayan başqırdların torpaqları da daxil idi. Ona görə də XV-XVI əsrlərdə başqırdlar bu xanlıqdan asılı vəziyyətdə idilər.

1563-cü ildə Noqay xanlığının hakimlərinə arxalanaraq Şeybani dövlətindən Kuçum adlı bir türk feodal Tay-Buqanın sülaləsindən Yadigar və Bəypuladı devirib hakimiyyəti ələ aldı. Yadigar və Bəypuladın özləri və ailələri öldürüldü. Yalnız Bəypuladın oğlu Səydək qaçıb canını qurtara bilmişdi. Çimqa-Turadan olan tatar murzaları və Sibir xanlığına daxil olan xantilərin və mansilərin hakimləri Kuçuma qarşı mübarizə aparırdılar. Lakin Kuçum Özbək və Noqay hərbi dəstələrinin köməyilə onların müqavimətini qıra bildi. Sibir xanlığının əhalisi Kuçuma işğalçı kimi baxırdı. Ulusların hakimləri feodallar da özlərini müstəqil hakimlər kimi apa-

rırdılar. Ona görə də Kuçum vaxtında Sibir xanlığı möhkəm dövlət orqanizminə malik deyildi, çünki uluslar arasında iqtisadi əlaqələr zəif idi. Bu, rusların qısa müddət ərzində Sibir xanlığını işğal etməsinə əlverişli şərait yaradırdı. 1583-cü ildə Tay-Buqanın nəslindən Yadigar Moskvanın vassallığını qəbul etdi. 1598-ci ildə Rusiya xanlığın ərazisini işğal etdi, Kuçumun oğlunu tutub, Moskvaya girov apardılar.

Kuçum xan 40 il Sibir xanlığının hökmdarı oldu. 1595-ci ildə o, Moskvadan noqayların yanına qaçdı. Lakin orada qəfildən gözləri tutuldu. Vaxtilə cah-cəlalla yaşamış xan kimsəsiz küçədə öldü.

## *§4. Şorlar*

Türk tayfalarından biri də şorlardır. Onlar Altayın Kondom, Mras və Tom çaylarının hövzələrində yaşayırdılar. Şorların dili xakas dili və indiki Altay xalqlarının dilləri üçün xarakterik cəhətlərə malikdir. Şorlar hazırda Rusiyanın Kemerova vilayətinin cənubunda yaşayırlar. Onların sayı 16 min nəfərdir. Rusiya XVIII əsrdə onlara xristian dinini qəbul etdirmişdir, o vaxta qədər onlarda şamanizm dini hakim idi. Elə indinin özündə də şorlarda şamanizm qalıqları çox güclüdür. Türkoloqlara görə, şor dili türk dillər ailəsinin Qıpçaq qoluna (yaxud qrupuna) daxildir.

Qədim mənbələrdə bu tayfa haqqında heç bir mə'lumata rast gəlinmir. Türkiyə alimlərinin yazdığına görə şorların müəyyən hissəsi eradan əvvəl hunların tərkibində olmuş və qərbə hərəkət etmişlər[1].

## *§5. Xakaslar*

Şərqi Sibirdə yaşayan türk tayfalarından biri də xakaslardır. Hazırda onların sayı 71 min nəfərdir. Onlar Rusiya Federasiyasının Krasnoyarsk ölkəsində Xakas Muxtar vilayətində məskundurlar. Şərqi Sibirin cənubunda yaşayan xakaslar Rus mənbələrində XVIII əsrdən sonra mə'lumdur. Onların qədim tarixi haqqında yazılı mənbə yoxdur. XVIII-XIX əsrlərdə ruslar onları "Abakan tatarları" adlandırmışlar. Tədqiqatçılara görə xakaslar qədimdə mənşəcə Yenisey qırğızlarının tərkibində olmuşlar. Bunu xakas dili ilə qırğız dili arasındakı genetik yaxınlıq da göstərir. Lakin xakasların etnogenezində uyğur və oğuz tayfaları da iştirak etmişlər. Rusiya xakasların ərazisini işğal etdikdən onlar 5 tayfa birləşməsindən ibarət idilər: ***saqay, kaçin, qızıl, şor, koybal və beltir.*** Bu tayfaların içərisində saqay (yaxud sakay) tayfasının adı tədqiqatçıların diqqətini cəlb etmişdir, çünki bu tayfanın adı qədim saka (sak) etnosunun adından ibarətdir. Qeyd edilməlidir ki, yakutlar da özlərinə saxa deyirlər. Bu, eradan əvvəl VII əsrdə Cənubi Qafqazda, o cümlədən Azərbaycan ərazisində məskunlaşmış sakların İran (fars)dilli olması haqqında Rus tədqiqatçılarının fikrini bir daha təkzib edir. Xakasların ulu əcdadlarının tayfa ittifaqı XIII əsrdə monqollar tərəfindən dağıdıldı və bununla da onların dövlət qurumu yaranmadı. Sonrakı əsrlərdə onlar Sibir xanlığının tabeliyində olmuşlar. XVII əsrdə xakasların feodal knyazlığı yaranmışdı, lakin rusların Sibiri işğalı ilə bu knyazlıq möhkəmlənə bilmədi və tezliklə ləğv edildi.

## *§6. Telə*

Bə'zi tədqiqatçılara görə Cənubi Sibirin müasir türk xalqlarının (altaylar, tuvalar, xakaslar və şorlar) ulu əcdadları VI-VIII əsrlərdə Mərkəzi Asiyanın şərq hissəsində, Qobi səhrasından şimalda yaşayan köçəri tayfalar olmuşlar. Arxeoloji qazıntılar nəticəsində aşkarlanmış maddi mədəniyyət nümunələrindən və Çin mənbələrindəki adda-budda mə'lumatlardan aydın olur ki, bu tayfaların köçləri Sayan Altay dağlarında və Ob çaymın yuxarı hövzələrində yerləşirdi. IV-VII əsrlərdə Mərkəzi Asiya və Cənubi Sibirin tarixi iki iri türk tayfa bir-

ləşməsi ilə əlaqədardır. Bunlardan biri Türk (çin mənbələrində tukyu), ikincisi Telə adlanırdı. Türk tayfa ittifaqının sonralar Türk xaqanlığını yaratması tarixi nisbətən aydındır və bu barədə Türk xaqanlığı haqqındakı fəsildə deyilmişdir.

Mənşələrinə görə bu tayfa ittifaqları daha əvvəlki əsrlərdə mövcud olmuş hun və Çin mənbələrində "dinlin" adlanan tayfa ittifaqları ilə əlaqədar idilər. Dinlin tayfa ittifaqı haqqında yazılı mənbə az və həm də ziddiyyətlidir. Lakin əksər tədqiqatçılar dinlinləri hunların bir qolu hesab edirlər. Ehtimal edilir ki, dinlinlər eradan əvvəl Şimali Çində yaşamışlar və onlar Çin mənbələrində "Çidi" adlanan bir tayfanın nəsilləri idilər. Oradan bu çidilər e.ə.III əsrdə Qobi səhrasının cənubuna sıxışdırılmış və dinlin adını qəbul etmişlər. Dinlinlər eranın əvvəllərində iki hissədən ibarət idilər. Şimali dinlinlər hunlardan şimalda, Baykal gölü ətrafında yaşayırdılar. Çin mənbələrində qeyd olunur ki, onlar "at ayaqları" geyirlər. Bunu belə başa düşmək lazımdır ki, bu tayfanın adamları atın dizindən aşağı dərisini soyur, dırnağını ayırmır və sonra da tikərək geyirdilər. Nəticədə yeriyəndə bu ayaqqabının izi atın ayağının izi ilə eyni olurdu. Qeyd etmək lazımdır ki, keçən əsrə qədər Altayın bə'zi türk xalqları belə at ayaqları geyirdilər. Belə ayaqqabının altı sümük olduğuna görə gec dağılırdı.

Eranın ilk əsrlərində bu tayfa müasir Monqolustanın şimalında və Tuvada yaşayırdı və Çin mənbələrində "qaoqyu" da adlanırdı. Çin dilində "qao-qyu" başı hündür araba, arabada konusvari ev, çadır deməkdir. Deməli, bu dinlinlər həmin əsrlərdə iri çarxlı arabalar üzərində quraşdırılmış çadırlarda yaşayırdılar. Bu adla yanaşı Çin mənbələrində IV-VI əsrlərdə "telə" adı ilə işlədilir. Lakin Çin mənbələrində "telə" etnonimi əvvəlcə həm də "çile" kimi də yazılmışdır. Bu mənbələrdə telə tayfasının tərkibində "seyanto", "veyxo" (bu ad uyğur adının qədim çin dilində yazılış formasıdır), "tunlo", "puqu", "aba", "xun", "tubo", "quliqan" (kurikan türk tayfası) və b. adları çəkilir. Bu tayfaların adları qədim Çin dilində verildiyinə görə əsl formalarını bərpa etmək çətindir. Göstərilən tayfalar müasir Monqolustan, Tuva və Dağlıq Altayda yaşayırdılar.



Bu tayfalar içərisində diqqəti cəlb edən Telə tayfasıdır. Ona görə ki, əvvələn, telə tayfası Türk xaqanlığında mühüm rol oynamışdır. Bu tayfanın müəyyən hissəsi Altay türklərinin (özlərini "Türk" adlandıranların) işğallarında iştirak etmiş və VI-VII əsrlərdə Aral dənizi sahillərinə, oradan da Şimali Qafqaz çöllərinə keçmişdir. Həmin telələr daha sonra qıpçaqların tərkibinə daxil olmuş və Q.Ə.Qeybullayevə görə erkən orta əsrlərin sonlarında Cənubi Qafqaza gəlmiş, Azərbaycanda, Gürcüstanda və Ermənistanda məskunlaşaraq çoxlu Dəllər (əslində bu kəndlərin adları keçən əsrə aid xəritələrdə Dəlilər, Dələlər kimi yazılmışdır) yaşayış məntəqə adlarında iz qoymuşdur. Mövzumuzdan kənar olduğu üçün bu məsələ üzərində ətraflı dayanmırıq.

Çin mənbələrində qeyd olunur ki, telə hunların bir tayfasıdır. Buradan aydın olur ki, telə tayfasının müəyyən hissəsi hələ eranın əvvəllərində hunlarla qərbə hərəkət etmişlər. Telə tayfasının mənşəcə hunlarla qohumluğu arxeoloji qazıntılar nəticəsində də müəyyən edilmişdir. Tuva ərazisində aparılmış qazıntılardan Hun və Türk xaqanlığı dövrlərində dəfn adətlərinin eyniliyi aşkar olunmuşdur.

Qərbi Türk xaqanlığına tabe olmuş Telə tayfa birləşməsi dəfələrlə xaqanlığa qarşı çıxmışdır, lakin hər dəfə də məğlub edilmiş və qırılmışdır. 627-ci ildə Mərkəzi Asiyanın şərq hissəsində İnal adlı xanın başçılığı ilə kiçik bir Telə xaqanlığı yaradılmışdı. Çin mənbələrinə görə bu dövlətin Qərbi Altaya, şimalı isə Baykal gölünə qədər uzanırdı. Dövlətin yaranmasında Telə tayfa ittifaqında aparıcı rol oynayan və Çin mənbələrində seyanto adlanan tayfa böyük rol oynamışdı. 645-ci ildə İnal xan ölmüş, yerinə oğlu Taçio keçmişdi (ad çin dilində yazılış formasıdır). 646-cı ildə Çin ordusu Otugen dağları ətəyində telə tayfalarına qarşı hərbi səfər etdi, 5 min nəfərin başı kəsildi, 30 min nəfər əsir tutuldu. Sonralar onların qalıqları uyğurların tərkibinə daxil oldu.

### §7. Kurıkanlar

Eranın əvvəllərində Şərqi Sibirin türk tayfalarından biri kurıkan (Çin mənbələrində quliqan) adlanırdı. Çin mənbələrindən aydın olur ki, kurıkanlar Baykal gölü hövzələrində yaşayırdılar. Çinin Yuan salnaməsində deyilir ki, quliqanlar Anqara çayı rayonunda məskundurlar və onların dili qırğızların dilindən fərqlənir. Müəllif Qardizi (XI əsr) yazmışdır ki, Yeniseydə yerləşən qırğız xaqanının qərargahından Furi (yə'ni kurıkanların yaşadıqları əraziyə) ölkəsinə yol gedir. Aydın olur ki, eranın I minilliyinin ortalarında kurıkanlar üç tayfadan ibarət idilər. Hər tayfanın başında duran hakim onların dilində "sıqin" adlanırdı. Orxon run türk yazılarında deyilir ki, Türk xaqanlığının banisi Bumın xaqanın dəfnində kurıkanların da nümayəndəliyi iştirak edirdi. Bu hadisə 552 və ya 553-cü ilə aiddir. Sonrakı əsrlərdə kurıkanlar uyğurların (tokuz-oğuzların) və oğuz tayfalarının Orxon çayı hövzələrində yaşayan başqa tayfalara, o sıradan uyğurlara qarşı mübarizəsində fəal iştirak etmişdilər. II Şərqi Türk xaqanlığının xaqanı İltərəs uyğurların üzərinə yürüş etmiş və onların 9 tayfasını qarət edərək xaqanlığına birləşdirmişdi. Kül-Tiginin şərəfinə run yazıda qeyd edilir ki, qırğızlar, kurıkanlar, tatarlar, kitaylar (kıdanlar) onun düşmənləri idilər. Buradan aydın olur ki, Orxon türkləri kurıkanlara zəhmli qüvvə kimi baxırdılar. Lena çayı sahillərindəki qayalarda atların üstündə əllərində bayraqlar (qədim türk dillərində bayraq "tuq" adlanırdı, belə bayrağın başından at quyruğu asılırdı) tutan kurıkanların təsvirləri qalmışdır. Baykal gölünün ətrafındakı VI-X əsrlərə aid arxeoloji mədəniyyət (arxeoloji ədəbiyyatda bu mədəniyyət ***Kurumçin mədəniyyəti*** adlanır) arxeoloq A.P.Okladnikova görə məhz kurıkanlara aiddir. Bu arxeoloji mədəniyyətə məxsus maddi mədəniyyət nümunələri (yaşayış məskənləri, qəbirlər, düşərgələr, qaya təsvirləri və s.) Baykalın hər iki sahilində səpələnmişdir. Arxeoloji qazıntılardan görünür ki, kurıkanların təsərrüfat həyatında maldarlıq aparıcı sahə



olmuşdur. Onlar xüsusi at cinslərinin yetişdirilməsində böyük nailiyyətlər qazanmışdılar. Çin mənbələrində qeyd olunur ki, kurıkanların atlarının boyunları dəvə boynuna oxşayır, amma bu atlar gündə bir neçə yüz verst qaça bilir. Həqiqətdə də, arxeoloji qazmtılar zamanı çoxlu at, dəvə, qoyun və qaramal sümükləri aşkar olunmuşdur.

Baykalətrafı ərazilər elə indi də çoxlu meşə heyvanları, xüsusilə xəz dərili heyvanlarla zəngindir. Odur ki, kurıkanların təsərrüfat həyatında ovçuluq da mühüm yer tuturdu. Kurıkanlarda əkinçilik də vardı, çünki arxeoloji qazıntılar zamanı çuqundan xış gavahını, oraq və başqa əkinçilik alətləri tapılmışdır. Buradan belə nəticəyə gəlirik ki, bu tayfa yarımköçəri həyat keçirirdilər. Kurıkanlara yazı da mə'lum idi. Qayalarda və mağaraların divarlarında Yenisey türk run əlifbası ilə yazılmış yazılar tapılmış və oxunmuşdur.

Anqara çayı sahillərində kurqanların arxeoloji qazıntıları zamanı 99,45%-li (problu) dəmir alət tapılmışdır. Arxeoloqların fikrincə, bu dəmir alətlər kurıkanlara məxsusdur. Bu göstərir ki, kurıkanlar yüksək problu dəmir almaq üsuluna yiyələnmişdilər.

Kurıkanların tarixi ilə bağlı digər maraqlı bir məsələ də vardır. Sovet arxeoloqu A.P.Okladnikova görə kurıkanlar müasir yakutların ulu əcdadlarından biri olmuşdur. Lev Qumilyova görə kurıkanlar qalalar tikməyi bilirdilər və deməli, bu tayfa ictimai-iqtisadi inkişafda çox irəli getmişdi.

### §8. Altaylar

Altay Asiyada böyük dağ sistemidir. Bu dağlıq ölkə Rusiya, Çin və Monqolustan ərazilərindədir. Altay Ob, İrtış və Yenisey kimi böyük çayların su ayrıcısıdır. Müxtəlif tarixi dövrlərdə Altay bir sıra imperiyaların və dövlətlərin (Şərqi Hun imperiyası, Böyük Türk xaqanlığı, Uyğur xaqanlığı, Monqol imperiyası və b.) tərkibinə daxil olmuşdur.

Bir sıra müasir türk xalqlarının ulu əcdadlarını təşkil edən türk tayfaları Altaydan çıxmışdır.

Hazırda etnoqrafik ədəbiyyatda "Altay tayfaları" adı altında aşağıdakı tayfalar nəzərdə tutulur: 1.Altaylar (özünüadlandırması "Altay kiji", yə'ni "Altay kişiləri"). Orta əsrlərdə bu xalq oyrot, ərazisi Cunqar adlanırdı. Onlar Altayda Katun, Ursulu, Maymı, Çariş və b. çayların hövzələrində yaşayırlar; 2.Telenqitlər. Bu kiçik xalq Çuy və Arqut çaylarının hövzələrində yaşayırlar; 3.Teleslər. Onlar Çulışman və Başkiyə çaylarının hövzələrində məskundurlar; 4.Tubalar. Bu xalq Böyük və Kiçik İşə, Sarı Kokşə və Turoçan çaylarının hövzələrində yaşayırlar; 5.Çelkan. Bu xalq Baykal çayının hövzələrində yaşayırlar; 6.Teleut. Çerqe çayının hövzələrində yaşayırlar; 7.Kumandi. Altayın Köhnə Bərdə və Soltan mahallarında yaşayırlar.

*Dağlıq Altayın şərq hissəsində hazırda **telenqit*** adlanan türk xalqı yaşayır. Çin mənbələrində bu tayfa "dolanqe" adlanır. Onların tərkibində bir "sümük" (yə'ni qəbilə) tolos adlanır. Şimalda telenqitlər qara-tatarlarla (öz aralarında yiş - "kişi" adlanırlar), şərqdə tuvalarla, cənubda qazaxlarla, qərbdə altaylarla (altay "kişi" adlanırlar) qonşudurlar. Bu tayfaların, ümumiyyətlə Dağlıq Altayın qədim türkdilli tayfaları haqqında yazılı mə'lumat çox azdır. Aydındır ki, erkən orta əsrlərdə onlar Şərqi Türk xaqanlıqlarına tabe idilər. Lakin qədim türk run yazılı abidələrində Altay tayfaları haqqında ötəri mə'lumatlar vardır. Run yazılarda Altayda tolos tayfa ittifaqının adı çəkilir. İndi də telenqitlərin şimal hissəsi özünü "teles" adlandırır. Teleslər Altayın Çulışman, Başkaus və Ulaqan vadilərində məskundurlar. Telenqitlərin cənub hissəsi Çu çayının aşağı hövzələrində yaşayırlar və özlərinə "Çu kişi" deyirlər. Telenqitlərin tərkibində az, söyüt, kuzan, tuba və b. tayfalar hələ keçən əsrdə qeyd olunmuşdur (Yeri gəlmişkən qeyd edək ki, göstərilən etnonimlərlə Azərbaycandakı Kuzanlı, Tubakənd, Tulus və b. kəndlərin adları arasında tarixi bağlılıq haqqında toponimik ədəbiyyatda yazılmışdır).



Müəyyən edilmişdir ki, teles tayfaları öz tarixləri boyu yerlərini bir neçə dəfə dəyişmişlər. VII əsrin ortalarında onlar Xanqay dağlarında yaşayırdılar.

Telenqitlərin ulu əcdadlarının kimlər olması mə'lum olmasa da, onların telə tayfası ilə əlaqəsi şübhəsizdir. XIX əsrdə V.V.Radlov Altay xalqlarını, o cümlədən telenqitləri tədqiq etmişdir və bizim bu mə'lumatımız da onun tədqiqatına əsaslanır. Çünki bu barədə qədim yazılı abidələr yoxdur. Telenqitlər keçən əsrdə qıpçaq, qazax və b. qəbilələrdən ibarət idilər.

Cənubi Altayda yaşayan türk tayfalarından biri orta əsrlərdə ***teleut*** adlanırdı. Bu tayfa da telə tayfasının sonrakı nəsilləridir, çünki teleut etnonimi "telə" etnonimindən və qədim türk dillərində cəm bildirən "ut" şəkilçisindən ibarətdir.

Altayın türk tayfaları içərisində orta əsr rus mənbələrində 1653-cü ildən ***kumandi*** adlı tayfa da qeyd olunur. Kumandi etnonimini kumanlı kimi başa düşmək lazımdır, ona görə ki, qədim türk dillərində mənsubiyyət bildirən "li" şəkilçisi həm də "ti"(di) formasında tələffüz olunurdu.

Kuman qədim türk tayfalarından biri kimi X-XI əsrlərdə Cənub-Şərqi Avropa çöllərində mə'lumdur. Rus mənbələrində onlar "poloves" adlanırlar. Lakin Altayda kumanların bir hissəsinin Cənub Şərqi Avropaya getməsinin vaxtı mə'lum deyil. Çox ehtimal ki, bu Qərbi Türk xaqanlığı vaxtına aiddir. Sonralar bu kumanlar qıpçaqlara qarışmış və onların bir hissəsi Azərbaycana gəlib orada məskunlaşmışlar. Yuxarıda deyildiyi kimi, Azərbaycanda bir neçə Komanlı kəndi vardır.

XIX əsrdə Altayda kumandilər bir neçə tayfadan ibarət idilər. Onlardan biri ***so,*** ikincisi ***kuban*** adlanırdı. Tədqiqatçılara görə qədim türk dillərində çox hallarda "m" səsi "b" səsi ilə əvəz olunduğuna görə, kuman adı kuban şəklinə keçmiş və Şimali Qafqazda Kuban çölünün adında qalmışdır.

***İctimai quruluş.*** III-X əsrlərdə Altay və Sibir türk tayfalarının ictimai quruluşu və təsərrüfat həyatı haqqında arxeoloji qazıntılar və Çin mənbələri əsasında müəyyən mülahizələr irəli sürmək olar.

Cənubi Sibirdə yaşayan türk tayfalarının əsas təsərrüfat sahəsi köçəri maldarlıq idi. Çin mənbələrində açıq-aydın yazılır: "Tukyunun (yə'ni türkün) taleyi bütünlüklə və tamamilə qoyun və atdan asılıdır". Türklər haqqında deyilmiş bu fikir başqa türkmənşəli tayfalara da aid edilə bilər. Onların həyatında ovçuluq da mühüm yer tuturdu. Qədim türk tayfaları ox atmaqda çox mahir idilər. Altayda Kudırqa adlı yerdə tapılmış qədim yəhərin sümük bəzəklərinin üstündə at çapa-çapa ox atan döyüşçü rəsmi vardır. Tuva ərazisində qaya təsvirlərinin çoxunda vəhşi heyvanın atın üstündən oxla vurulması səhnəsi verilmişdir.

Sibir tayfalarının təsərrüfatı bütünlüklə natural təsərrüfat idi. Lakin Çinlə ticarət əlaqələri sayəsində türk tayfaları ipək parçalar alırdılar.

Telə və başqa Cənubi Sibir tayfaları ilin bütün fəsillərində alaçıqlarda yaşayırdılar. Alaçığın ortasında ocaq qalanırdı. Onun qapısı keçədən düzəldilirdi. Sibirin türk tayfalarında saxsı qab e'malı (dulusçuluq) zəif inkişaf etmişdi. Onların məişətdə işlətdikləri qab-qacaq əsas e'tibarilə ağacdan və göndən olduğuna görə, arxeoloji qazıntılardan bu qabların çeşidləri haqqında təsəvvür əldə etmək çətindir. Əsas yeməklər ətdən və süddən idi. Qərbi Türk xaqanlığı dövrünə aid qəbirlərin hamısından qoyun sümükləri tapılmışdır. Çin mənbələrində yazılır ki, telələrdə at südündən hazırlanan kumıs əsas sərxoşedici içki idi, çünki qədim türk tayfaları köçəri maldar olduqlarına görə üzümçülüklə məşğul olmurdular. Altay və Cənub-Qərbi Sibir ərazisində üzüm yetişdirmək çətindir. Çin mənbəsində deyilir ki, bu tayfalar dairəvi şəkildə dizi üstə oturaraq kumıs içir və mahnı oxuyurdular. Qeyd etmək lazımdır ki, VI-VII əsrlərə aid bu Çin mə'lumatının doğruluğu sübut olunmuşdur. Altayda XIX əsrə aid rusdilli etnoqrafik təsvirlərdə qeyd olunur ki, tuvalar və altaylar kumısı belə içib keflənirdilər. Kumısı dəri tuluqlarda saxlayırdılar.

VI-VII əsrlərə aid kurqanlardan aydın olur ki, bu türk xalqları ətəyi uzun dəri və gen paltar geyirdilər. İç tərəfi (astarı) xəzdən olurdu. E.ə.V əsrdə yaşamış yunan tarixçisi Herodot yazırdı ki, skiflərin bir tayfası traspi skif tayfası tərəfindən "issidon" adlanır. Tədqiqatlar göstərmişdir ki, "issidon" istidon (astarı xəz olduğuna görə isti tutan don, yə'ni paltar) sözündəndir və deməli, bu tayfanın adamları əsasən isti don geydiklərinə görə qonşu traspi tayfası (qeyd edilməlidir ki, "traspi" sözü dar, yə'ni qıyıq gözlü və qədim türk dillərindəki "sepu göz" sözlərindən olub "dar gözlülər" deməkdir) onları bu adla adlandırmışlar.



Altay və Sibir türklərinin əsas qoşqu və minik heyvanı at idi. Qədim türklər at minməkdə və onu idarə etməkdə çox mahir idilər. Onların əsas var-dövləti də at ilxıları və qoyun sürüləri idi.

Altayda kurqanların qazıntısı zamanı aydın olmuşdur ki, hələ V-VII əsrlərdə Sibir türkləri içərisində əmlak bərabərsizliyi vardı. Bə'zi kurqanlarda qızıl və gümüş əşyalar tapıldığı halda, digərlərində belə əşyalar aşkarlanmayıb. Qədimdə olduğu kimi, orta əsrlərdə də türklərdə qadınlar çoxlu bəzək taxmağı sevirdilər. Qadınlar cəmiyyətdə və ailədə azad idilər və bütün həyatları boyu ərləri ilə hərbi səfərlərdə olduqlarına görə hərbi işi yaxşı bilirdilər.

Göstərilən əsrlərdə türk tayfaları tayfa-qəbilə şəklində yaşayırdılar. Bu, köçəri həyat tərzindən irəli gəlirdi. Düşərgələrdə ailələr qohum qruppalar şəklində alaçıqlar qururdular. Hər bir qohum qruppanın üzvü bir-biri üçün dayaq idi, bütün ictimai və ailə mərasimlərini birgə icra edirdilər.

## *§9. Yakutlar*

Qədim türk xalqlarından biri də yakutlardır. Bu xalqın tarixi haqqında XVII-XVIII əsrlərə qədər demək olar ki, heç bir yazılı mənbə yoxdur. Ən əvvəl qeyd etmək lazımdır ki, bu xalqın əsil etnik adı (yə'ni özünüadlandırması) saka etnoniminin fonetik forması olan Saxadır. Yakut etnonimi də elə "sa-

ka" sözündəndir, iş burasındadır ki, bə'zi qədim türk dillərində sözün əvvəlində "s" səsi "y" səsinə çevrilir, "ut" isə cəm bildirən şəkilçidir, deməli "saka" adından "yak+ut" etnonimi törənmişdir. İkincisi, çox maraqlıdır ki, saxa hələ eradan əvvəl VII əsrdə Cənubi Qafqaz ərazisində mə'lum olan saka (yaxud şaka) türk tayfası ilə eyni mənşəlidir. Burası şübhəsizdir ki, Azərbaycanda müasir Şəki adı da məhz qədim saka (şaka) etnoniminin fonetik şəklidir. Yakutların etnik adının saka etnonimi olması iranşünasların sakları (sakaları) irandilli saymaları baxışının yanlış olduğunu göstərir.

Mə'lum olduğu kimi, yakutlar Uzaq Şərqdə yaşayan ən qədim türk xalqlarındandır.

Sakalar (yakutlar) orada nə vaxtdan məskundurlar? Onların Uzaq Şərqə çəkilmələrinin səbəbi nə olmuşdur? Bu suallar hələlik cavabsız qalır, çünki e.ə.521-ci ildə İranda Bisutun qaya yazısında Əhəmənlər sülaləsindən olan I Daranın yazılarında sakalar həm Midiya ərazisində, həm də Mərkəzi Asiyada qeyd olunur. Onlar bu mənbədə "şişpapaqlı sakalar" adlandırılırlar, çünki sakalar keçədən tikildiyinə görə başda dik dayanan konusvari papaq qoyurdular.

XVII əsrdə rus işğalçıları ilk dəfə yakutlarla tanış olduqda, onlar Lenanın aşağı axarı, Aldan və Amsa çayları arasında yaşayırdılar. Onlarm sayı 25-26 min nəfər idi. Rus mənbələrində qeyd olunur ki, yakutlar 35 tayfadan ibarət idilər. XVIII əsrdə yakutlar içərisində toplanmış rəvayətlərdə deyilir ki, onlarm ulu əcdadları Baykal gölü ətrafındakı yerlərdən köçüb getmişlər. Bu hansı tarixi hadisə ilə əlaqədar olmuşdur və nə vaxt? - demək çətindir. Rəvayət vardır ki, Başda Baçe olmaqla yakutlar XVI əsrdə oradan getmişlər. Hazırda yakutların Baykalətrafı ərazidən X-XV əsrlərdə getmələri baxışı vardır. Yakut rəvayətlərində deyilir ki, onların uzaq keçmişdə Tıqıl adlı çarları olmuşdur. Yakutlar qoyun saxlamırlar, çünki Yakutiyada şaxtalar qoyun saxlamağa imkan vermir. Lakin yakut dilində qoyun (bu dildə qoyun "koy" adlanır) və qoyun yunundan hazırlanan şeylərin adlarını



bildirən sözlər var. Deməli, nə vaxtsa uzaq keçmişdə yakutlar nisbətən mö'tədil iqlimli yerdə yaşamış və başqa türk xalqları kimi qoyun saxlamış, lakin şimala çəkildikdən sonra qoyunçuluq aradan çıxmışdır. Maraqlısı bir də budur ki, yakut dilində "dəvə" sözü ("təbə" kimi tələffüz olunur) vardır, halbuki Yakutiyada heç cür dəvə saxlamaq olmaz və orta əsrlərdə də saxlamamışlar. Nəhayət, rəvayətlərdən aydın olur ki, yakutların yazısı da olmuşdur, lakin bu yazı da itmişdir. Bunu arxeoloq A.P.Okladnikov tərəfindən Lena çayı sahillərindəki qayalarda aşkar olunmuş run yazılar da təsdiq edir. A.N.Bernştam bu yazılardan birini oxumuş və onun yakut dilində "mən xeyir-dua verdim" mə'nasını müəyyən etmişdir. Yakut xalq eposunda Sərkən Səsən adlı ağsaqqalın şahin və yaxud tərlan tükündən düzəldilmiş qələmlə yazı yazması göstərilir. Halbuki indi yakutların ərazisində belə adda quş yaşamır. Yakut dilində yazı "biçik" (başqa qədim türk dillərində bu söz "bitik" kimidir) adlanır. Bütün bunlar göstərir ki, yakutların ulu əcdadlarının yazısı olmuşdur.

Qeyd edilməlidir ki, yakutlar əkinçilik ən'ənəsini də itirmişlər. Yakutiyada əkin əkilmir, çünki yay çox az davam edir və torpaq qızmır. Lakin yakut dilində əkinçilik terminləri qalmaqdadır.

XVII əsrdə yakutlarla tanış olmuş rus mə'murları onların metaləritmə (mə'lum olduğu kimi Yakutiya dünyada qızıl mə'dənləri ilə məşhurdur) sahəsindəki ustalıqlarını qeyd etmişlər.

Yakutlarda at əsas qoşqu heyvanıdır, lakin atdan həm də ət və süd üçün istifadə edilir. At südündən hazırlanan kumıs yakutların sevdikləri içkidir. Onlar at tükündən çoxlu ev əşyaları toxuyurlar.

Yakutların XVII-XVIII əsrlərdə əsas məşğuliyyətləri ovçuluq və balıqçılıq olmuşdur. Onların gündəlik yeməklərində ət xörəkləri əsas yer tutmuşdur, taxıl və undan xörəklər hazırlayırdılar. Xüsusilə çörək çox az idi, çünki onlar əkin əkmirlər.

Qeyd edilməlidir ki, yakutlardan başqa Uzaq Şərqdə yaşayan Altay dil mənşəli Sibir xalqlarının (tunqus, yukagir,

evenk və b.) heç biri saxsı qab düzəldə bilmirlər. Yakutlar isə bu sahədə məşhurdurlar. Arxeoloji qazıntılar nəticəsində erkən orta əsrlərə aid saxsı qab qırıqları tapılmışdır.

Yakut dilində bay ("bəy"), tarxan, xan, tiqin sözlərinin olması göstərir ki, indiki əraziyə köçməmişdən əvvəl onlar siyasi quruma malik olmuşlar. Ruslar Yakutiyanı tutanda yakutlar bir sıra tayfalardan ibarət idilər. Ən böyük tayfalar kanqalas, meqin, baturus, boroqan və nam adlanırdı, onların hər biri 2-5 min nəfərdən ibarət idi. Hər tayfanın başında duran şəxs toyon adlanırdı. Toyon qəbilə yığıncağı tərəfindən tə'yin olunurdu. Hər toyonun 300-900 mal-qarası vardı.

Yakutlarda ruslar gələndə şamanizm dini var idi. Onlar oda sitayiş edirdilər. Oda tüpürmək, oda çirkli şey atmaq qadağan idi. Yakutlar hesab edirdilər ki, təbiətdə hər şeyin: odun, torpağın, ağacın, suyun, heyvanın və s. ruhu vardır. Lakin ruhlar həm xeyirxah "ayın" və həm də şər " abaasi" olurlar. Ona görə də ruhları təhqir etmək olmazdı. Məsələn, odun ruhunu təhqir etməmək üçün oda çirkli şey atmaq olmaz. İnsanlar və ruhlar arasında araçı şaman ola bilər. Ölüləri ən qiymətli və təzə paltarda dəfn edirdilər. Onun yanına ox, arkan və xəncərini də qoyurdular. Bundan başqa, ölünün yanında saxsı qablarda ət xörəkləri, bir qabda kumıs da qoyurdular. Onlarda doğma torpaq ilahəsinə (bu ilahə "Alaxçın-xotun" adlanırdı) sitayiş vardı. Rus kilsəsi yakutları xristianlaşdırdıqdan sonra bu adətlər tədriclə unuduldu.

Yakutlarda quldarlıq quruluşu olmamışdır. Onlar yalnız ailədə, məişətdə istifadə etmək üçün qullar (kənizlər) saxlayırdılar. 1648-1649-cu ilə aid rus mənbəsində deyilir ki, yakutlarda cəmi 57 qul var.

Yakutların folkloru çoxjanrlıdır. Yakut dilində poema şəklində qəhrəmanlıq dastanları, epos "olonxo" adlanır ki, bu da "olmuşlar", "olanlar" deməkdir. XVII-XVIII əsrlərdə yakutlarda elə qocalar vardı ki, eposdan 10-20 min misranı əzbər bilirdi.



## *§10. Rusiyanın Sibirdə işğalçılıq siyasəti*

XV əsrin ortalarından başlayaraq Rus dövləti Qərbi Sibiri işğal etmək siyasətinə keçdi. Ən əvvəl Tobol çayının aşağı hövzələri "Sibir torpağı" adı ilə tutulmuşdu. Buralarda yaşayan türkdilli tayfaların bə'ziləri özlərinə Sipir dediklərinə görə rus mənbələrində "sipirlər" adlanırdılar. Rus dilində "Sibir" sözü də buradandır. Eyni zamanda Rusiya bu ərazilərə xristian dinini də yayırdı və bu iş məcburiyyətlə, inzibati yollarla həyata keçirilirdi. Hələ XIV əsrin axırlarında Stefan adlı bir monax Moskva knyazının təhriki ilə indiki Perm əyalətində missionerlik fəaliyyətini genişləndirmişdi. 1383-cü ildə Rus kilsəsinin Perm monarxiyası yaradılmışdı. Moskva knyazı III İvan Sibirə hərbi dəstələr göndərilməsi haqqında əmr vermişdi. 1465-ci ildə rus işğalçı ordusu Qərbi Sibirə daxil olmuş və Uqor tayfalarını tabe etmişdi. 1483-cü ildə Fyodr Kurbskinin başçılığı altında Urala göndərilmiş qoşun Uqor tayfalarının ərazilərini işğal edərək Rus dövlətinə birləşdirmişdi. Ordu Kama çayı hövzələrindən keçib yuxarı axını ilə hərəkət etdi və Ural dağlarını aşaraq şərq ətəklərində yerləşən mansilərin torpaqlarını işğal etdi. Pelma adlı çayın kənarında mansilərin başçısı Asıki öz hərbi dəstəsi ilə Rus ordusunun qarşısına çıxdı. Pis silahlanmış mansi ordusunu Rus ordusu məğlub etmiş və hamısını qırmışdı. Bu qələbədən sonra ordu Sibir ərazisinə keçdi. Burada Tümen xanlığının asılılığında olan uluslar yerləşirdi. Həmin uluslar XV əsrin axırlarında Sibir xanlığında birləşmişdi. Ruslar burada Uqor xalqlarının ərazisini zəbt etdilər, knyaz Moldanı tutub öldürdülər. Nəticədə bu tayfaların üzərinə illik xərac qoyuldu. Rus qoşunları qarətçiliyə başlayaraq, uqorların və türklərin evlərindən dəri və xəzləri zorla çıxarıb apardılar.

1499-cu ildə III İvan Sibirə yeni böyük hərbi səfər təşkil etdi. Semyon Kurbskinin başçılığı ilə 4 minlik ordu Sibirə yola düşdü. Ural dağlarının şimal hissəsini aşan rus ordusu ilə yerli samodiy tayfalarının toqquşmaları baş verdi. Ruslar

samodiylərin hərbi dəstələrini məhv etdilər. Onların 200 maralını zorla alıb xizəklərə qoşaraq işğalçılığı davam etdirdilər. Bütünlükdə ruslar samodiylərin və uqorların 40 möhkəmləndirilmiş məntəqəsini tutub dağıtdılar, 58 yerli hakimi əsir tutub öldürdülər, əhalini qarət edib böyük qənimətlə 1500-cü ildə Rusiyaya qayıtdılar. Doğrudur, Rusiya inzibati ərazi bölgüsü işğal olunmuş bu əyalətləri hələ əhatə etmirdi, lakin onlardan illik xərac (əsasən dəri-xəz) alınırdı.

Rusiyanın Sibiri işğal etmək siyasəti XVII əsrdə başa çatdı.



*VI fəsil*

## *ORTA ƏSRLƏRDƏ TÜRK XALQLARININ MƏDƏNİYYƏTİ*

Orta əsrlərdə türk xalqlarının mədəniyyəti qədim dövrün və erkən orta əsrlərin mədəniyyəti üzərində formalaşmışdır. Lakin nəzərdə tutulmalıdır ki, XIV-XV əsrlərə qədər indiki Mərkəzi Asiya və Mərkəzi Asiya türk xalqları hələ təşəkkül tapmamışdılar. Məsələn, indiki qaraqalpaqlar, türkmənlər, xakaslar, özbəklər, qırğızlar və qazaxlar yalnız göstərilən əsrlərdən sonra ayrı-ayrı müstəqil xalqlar olmuşlar. Ona görə də tarixşünaslıqda erkən orta əsrlərdə olduğu kimi, orta əsrlərin əvvəllərində də, məsələn, Mərkəzi Asiyanın bu və ya digər bölgəsində yaranmış şifahi mədəniyyət abidəsi indiki bir neçə türk xalqının mədəni mirası kimi səciyyələndirilir. Bu, haqlı olaraq onunla izah olunur ki, Mərkəzi Asiya, Mərkəzi Asiya və Qazaxıstanda yaşayan indiki türk xalqlarının etnik tarixində bu və ya digər nisbətdə eyni türk tayfaları iştirak etmişdir. Müasir türk xalqlarının yaşadığı ölkələrdə orta əsrlərdə eyni türk tayfaları müxtəlif nisbətlərdə yaşayırdılar. Qəbilələrə və tayfalara bölünmə türk xalqlarının hamısının keçmişi üçün səciyyəvi xüsusiyyət olmuşdur. Türk xalqlarınm ictimai tərkibi belə idi: oguş (ailə), urug (soy, tirə, nəsil), bod (boy, qəbilə, tayfa), ok (siyasi quruluşa, dövlət qurumuna malik tayfa birləşməsi) və el, il (dövlət).

Türk xalqlarında oguş (ailə) qan qohumluğuna əsaslanan ictimai və sosial vahid idi. Oguş tayfanın və ya tayfa birləşməsinin özəyini təşkil edirdi. Lakin oguşun üzvlərinin sayı müxtəlif ola bilərdi: bə’zi hallarda oguş ata, ana, bacı və qardaşdan, digər hallarda çoxüzvlü böyük ailələrdən ibarət idi və deməli, iki-üç nəslə mənsub üzvləri (baba, nənə, ata, ana, oğullar və nəvələri) əhatə edirdi. Bununla belə türk xalqları-

nın ictimai həyatında, məsələn, slavyan xalqlarında olduğu kimi ailə icmaları (böyük patriarxal ailələr) aparıcı rola malik deyildi. Maldar, yarımköçəri türk tayfalarında oğlan evləndikdə atası onu ayırırdı. Bu yeni ailə üçün elə bir çətinlik törətmirdi, çünki türk tayfaları əsas e'tibarilə maldarlar idilər və onlarda yaşayış evi alaçıqdan ibarət idi. Az miqdar böyük ailələr oturaq türk xalqlarında vardı. Oturaq xalqlarda ata evi ən kiçik oğula qalırdı. Bunu da əlavə etmək lazımdır ki, həm köçəri, həm də oturaq türk xalqlarında bütün zamanlarda monoqam (yə'ni təkkəbinlilik) ailə forması üstün mövqeyə malik olmuşdur, onlarda poliqamiya, yə'ni çoxarvadlılıq yox idi.

Türk tayfaları yaşadıqları birgə ərazini həm "ölkə", həm də "ulus" adlandırırdılar. Hər tayfanın məskun olduğu əraziyə "yurt" deyilirdi. Bu söz dilimizdə ərəbmənşəli "vətən" sözünün mə'nasına uyğun gəlir. Nəhayət, türk xalqlarının sosial həyatının bir xüsusiyyəti də vardı: bə'zi hallarda sıravi bir boy (tayfa, qəbilə) özünü idarə edən kiçik bir dövlət (türk dillərində "orda") idi. Məsələn, Cənub-Şərqi Avropada yaşayan peçeneqlərdə və qıpçaqlarda vahid, mərkəzləşmiş dövlət yox idi. Hər bir tayfa özünüidarəyə malik idi, lakin təhlükə qarşısında onlar birləşirdilər.

***Folklor.*** Orta əsrlərdə türk xalqlarının folkloru qəhrəmanlıq eposları ilə xüsusilə zəngindir. Eposların çoxu yalnız sonralar, XVIII-XIX əsrlərdə yazıya alınsa da onların özləri erkən orta əsrlərin hadisələrini əks etdirir. Qədim türklərin folklorunun müxtəlif janrları hələ Kül-Tiqin və Bilgə xaqanın şərəfinə yazılmış sütunlarda əksini tapmışdır. Qırğızların məşhur "Manas" dastanı vardır. Bu epos və bunun kimi başqa eposlar da yalnız keçən əsrdə toplanmışlar. Mərkəzi Asiya türk xalqlarının "Alpamış" və Altayın "Alp-Manaş" dastanlarının bə'zi süjetləri Lev Qumilyova görə məhz Türk xaqanlığı dövrünü əhatə edir. Türk xaqanlığının ideologiyası Çin mədəniyyətinə nisbətən türk mədəniyyətinin üstünlük təşkil etməsinə əsaslanırdı. Mərkəzi Asiyanın türk xalqlarının eposlarında da bu tendensiya açıq özünü göstərir. "Manas"



dastanı nəzm şəklində dünyanın ən böyük eposlarından biri sayılır. Dastanda 500 min misra var. "Manas" qəhrəmanlıq eposudur. Təsadüfi deyil ki, qırğızlarda xalq içərisində ümumiyyətlə dastan söyləyənlər "manasçı" adlanırlar. Manas xalq qəhrəmanıdır. Tədqiqatçılara görə "Manas" dastanı VII-IX əsrlərdə yaranmış, nəsildən-nəslə keçərək şifahi surətdə saxlanmışdır.

Dastanın məzmununu qırğızların milli istiqlaliyyət uğrunda mübarizəsi təşkil edir. Ona görə də əsərdə müxtəlif tarixi dövrlərin hadisələri bədii boyalarla təsvir olunmuşdur. Akademik V.V.Radlov yazmışdır ki, "Manas" dastanında qırğızların tarixi, xalqın istək və arzuları əksini tapmışdır. Dastanda deyilir ki, Manasın başçılıq etdiyi igidlər qırğızların Tyan-Şanda torpaqlarını düşmənlərdən geri almışlar. Manasın anası Çıyırdı və arvadı Kənikey Manas ilə birlikdə döyüşlərdə iştirak edirlər. Dastanda Bakay, Seytək, Ayçurek və başqa müsbət surətlər də vardır.

Qırğızlarda məşhur eposlardan biri də "Ər Təştük" adlanır. Təştük dastanın qəhrəmanının adıdır. O, igiddir və Yeraltı dünyada müxtəlif macəralarla üzləşir. Deməli, dastanda qırğızların ölümdən sonrakı axirət dünyası haqqında təsəvvürləri və bununla bağlı inamları əksini tapmışdır. Dastandakı "ər igid evdə doğular, düşmənlə döyüşdə sərhəddə ölər" ifadəsi türk tayfalarının tarix boyu müxtəlif düşmənlərlə mübarizəsini əks etdirir. Bu deyiliş indi də aktual səslənir. Erməni işğalçılarına qarşı Dağlıq Qarabağ uğrunda döyüşlərdə şəhid olmuş igidlərimizin həyatları məhz belə bir qəhrəmanlıq nümunəsidir.

XIV-XVII əsrlər qazaxlarda da şifahi xalq yaradıcılığının geniş inkişafı dövrüdür. Şifahi xalq yaradıcılığı müxtəlif tarixi dövrlərdə xalqın ictimai həyatının güzgüsüdür. Odur ki, qazaxların folkloru onların müxtəlif tarixi dövrlərdə ictimai həyatlarını əks etdirir.

Qazaxlarda qəhrəmanlıq eposları çoxdur və folklorun böyük janrlarından biridir. "Qarabək", "Yer Kokşə", "Koblan-

dı", "Kambar" və b. dastanlar tədqiqatçılara görə XII-XIV əsrlərdə yaranmışdır. Qeyd edilməlidir ki, bə'zi dastanların süjeti Mərkəzi Asiyanın başqa xalqlarının dastanları ilə uzlaşır. Bu onunla bağlıdır ki, bu dastanlar hələ qazax xalqı formalaşmazdan əvvəl yaranmışdır. Məsələn, qazaxlarda "Alpamış" dastanı qazaxlardan başqa özbəklərdə və qaraqalpaqlarda da vardır. Yaxud, qazaxlarda "Koroğlu" eposu Azərbaycan, özbək, türkmən və qaraqalpaq xalqlarında da vardır. Qırğız eposu "Manas"da Yer-Kokşa surəti qazaxdır və o, Manasın dostudur. Bu sözü qazaxların "Şora-Batır" (batır "bahadur", "igid" deməkdir) eposu haqqında da demək olar. Dastanların əksəriyyətində yadellilərə qarşı mübarizə motivi əsas yer tutur. Qeyd edilməlidir ki, türk xalqlarının eposlarında qəhrəmanların atlarının adları da mühüm yer tutur. Bu atlar qəhrəmanları çətin anlarda xilas edirlər. Qazaxlarda saxlanmış qəhrəmanlıq dastanlarında Erqene-Koiq adlı bir əfsanəvi vadi haqqında danışılır və qeyd olunur ki, vadi hər tərəfdən yüksək dağlarla əhatə olunmuşdur, ona görə ora heç bir düşmən daxil ola bilmir, hamı təşvişsiz, azad və xoşbəxt yaşayır.

Hələ erkən orta əsrlərdə yaranmış və XII əsrdə yazıya köçürülmüş "Oğuznamə" eposu haqqında qısaca danışmalıyıq. Həmin eposu XIII əsr tarixçisi Rəşidəddin vermişdir. Mə'lum olduğu kimi, "Kitabi Dədə Qorqud" eposumuz da məhz kökləri ilə "Oğuznamə" ilə bağlıdır. Bu eposun baş qəhrəmanı olan Qorqud haqqında qırğızlarda və qazaxlarda da müxtəlif xalq rəvayətləri vardır. Qazaxlarda "Xorqut" adı ilə bu obraz haqqında keçən əsrin Qazax tarixçisi Çokan Vəlixanovun əsərlərində danışılır. Azərbaycanda "Kitabi Dədə Qorqud" eposunun tədqiqatçıları Şamil Cəmşidov, Süleyman Əliyarov, Samət Əlizadə və b. yazırlar ki, bu epos türkdilli xalqların ümumi məhsuludur. Həqiqətdə də, bu dastanlar haqqında hələ XVII əsr türkmən tarixçisi Əbülqazi xan Xivəli mə'lumat vermişdir. Ümumi fikir belədir ki, hələ Altayda və Mərkəzi Asiyada yaşadıqları vaxtlarda oğuzlarda qəhrəmanlıq dastanları vardı və bu dastanların bə'zi süjetləri Səlcuq



oğuzlarının XII əsrdə şərqdən qərbə hərəkəti ilə Azərbaycana gətirilmişdir. Həm də bu epos Azərbaycan ərazisində və Ermənistanda yaşayan azərbaycanlıların yaşadığı bölgələrdə formalaşmış və XIV-XV əsrlərdə yazıya köçürülmüşdür. Çünki eposlarda heç bir Mərkəzi Asiya yer adları (toponimlər) yoxdur, hamısı Azərbaycan və indiki Ermənistan ərazisindədir. O ki, qaldı eposun XIV əsrin ikinci yarısından sonra yazıya köçürülməsi, bu onunla sübut olunur ki, eposda "İstanbul" adı çəkilir, "İstanbul" isə 1453-cü ildə türklər Konstantinopolu (Bizans dövlətinin paytaxtı) alıb İstanbul adlandırıldıqdan sonra ola bilərdi.

Biz burada "Kitabi Dədə Qorqud" eposu üzərində dayanmayacağıq. Mövzumuz üçün məsələnin bu cəhəti maraqlıdır ki, bu epos hələ X əsrdə oğuzlar Mərkəzi Asiyada olarkən onların içərisində mövcud olmuş qəhrəmanlıq dastanlarından qidalanır.

Mərkəzi Asiya, Qazaxıstan və Altay türk xalqlarında folklor çoxlu janrlara malikdir. Müəyyən mə' nada demək olar ki, folklor bu türk xalqlarının həm də tarixi abidələridir. Çünki onlarda yazılı mənbələr və salnamələr çox azdır. Bunun bir səbəbi minilliklər və yüzilliklər boyu davam etmiş maldarlıq həyat tərzidir. Eposlarda türk xalqlarının qədim tarixinin müxtəlif dövrlərində baş vermiş hadisələr öz əksini tapmışdır.

Hər bir xalqda folkloru yaşadan, nəsildən-nəslə ötürən sənətkarlar olmuşdur. Məsələn, azərbaycanlılarda qədimlərdə ozan, sonra aşıq olduğu kimi, qazaxlarda belə sənətkar "akın" adlanır. Məhz akınlar dastanı yadda saxlayıb xalq kütləsinə çatdırmaqla yanaşı, həm də bilavasitə yeni dastanlar yaradanlardır. Odur ki, qazaxlarda çoxlu dastan və eposları yaşadanlar akınlar hesab olunur. Qədim türklərdə belə sənətkarlar "ozan" adlanırdı.

Türkmənistanda və Özbəkistanda XVI-XVII əsrlərdə formalaşmış "Qeroğlu" eposunu xüsusilə qeyd etmək lazımdır. Mə'lumdur ki, "Koroğlu" Azərbaycanda geniş yayılmış

qəhrəmanlıq dastanıdır. Lakin məsələ burasındadır ki, "Qeroğlu" formasında bu dastan türkmənlərdə, özbəklərdə və hətta taciklərdə də vardır. Mərkəzi Asiya "Koroğlu"sunda deyilir ki, Koroğlu türkmən olmuşdur və onun türkmənlərin Yomud adlı tayfasından çıxması göstərilir. Koroğlu obrazımn bu qədər geniş əraziyə yayılmasmın səbəbləri tamamilə aydmlaşdırılmamışdır. Türkmənlərdə bu eposun 40-a qədər boyu (fəsli) mə'lumdur.

XVI-XVII əsrlərdə türkmənlərdə "Şahsənəm və Qərib" dastanı yaranır. Mə'lumdur ki, azərbaycanlılarda bu epos "Aşıq Qərib" adı ilə məşhurdur.

***Din.*** Erkən orta əsrlərdə Mərkəzi Asiya ölkələrinin ərazisinə xristianlıq və buddizm dinləri də daxil olmağa başlamışdı. Lakin islam dini ilə xristian və budda dinləri arasında gedən mübarizədə islam qələbə çalmışdı. Monqol hakimlərindən Cağatayın oğlunun ilk dəfə islama keçməsində (Cağatay ulusunda) Cağatayın oğlu Mübarək şahın arvadı Ərgənə xatun böyük rol oynamışdı.

Lakin qeyd etmək lazımdır ki, Mərkəzi Asiyamn müxtəlif bölgələrində islam dini müxtəlif vaxtlarda yayılmışdır. Məsələn, Qırğızıstan və Qazaxıstan ərazisində islam XIII-XIV əsrlərdə kütləvi surətdə yayılmağa başlamışdı. İslamın bu ərazilərdə gec yayılmasına əsas səbəb əhalinin xeyli hissəsinin köçəri maldarlıqla məşğul olması idi. Maldarlıq təsərrüfatı dini ayinlərin icra edilməsinə imkan vermirdi. Çünki dini ayinlərin həyata keçirilməsi üçün məscidlər olmalı idi, köçəri tayfalarda isə belə şərait yox idi. Ona görə də Qırğızıstan və Qazaxıstan ərazilərində mədrəsələrin tikintisi ləng gedirdi.

XVI-XVII əsrlərdə qırğızlarda məişətdə hələ də şamanizm geniş yer tuturdu. Əhali əsasən köçəri maldarlıqla məşğul olduğuna görə, islam dini onların içərisində çox çətinliklə yayılırdı. Qırğızlarda Fərqanəli Şeyx Lütfulla, onun şagirdi əslən qazax Məhəmməd, şeyx Xoca İshaq və b. islamın yayılmasında böyük rol oynamışdılar. Qırğızlar müxtəlif ibtidai



dini ayinlər icra edirdilər. Ən çox və geniş yayılmış dini ayin - ağca sitayiş idi. Ağacdan müxtəlif fiqurlar asır və ətrafında ayinlər icra edirdilər. Bu "Bütxanə" adlanırdı. Xoca İshaq müsəlman dinini yayarkən 18 belə bütxanəni dağıtmışdı. Lakin kənd yerlərində köçlərdə islama riayət edənlər az idi. Ona görə də XVI əsrdə yaşamış Türkiyə tarixçisi Seyfi yazır ki, qırğızlar "nə müsəlman, nə kafirdirlər". Özbək tarixçisi Mahmud ibn Vəli (XVII əsr) qırğızların çoxunu kafir adlandırırdı. Qırğızlar hələ də Tenqri və Umay-ana ilahəsinə sitayiş edirdilər. Umay - körpələrin və anaların himayəçisi sayılırdı.

XIII-XIV əsrlərdən sonra Mərkəzi Asiyada dini fəlsəfi cərəyanlar yaranmağa başlayır. Fərqanədə Nəqşbəndi dini cərəyanı xüsusilə güclü idi. Bu cərəyanın banisi buxaralı şeyx Bəhaəddin Nəqşbəndi olmuşdu. O, xalq içərisində apardığı təbliğatında dünyanın əzablarına, haqsızlıqlarına dözməyi tövsiyyə edir, varlanmaq hərisliyini, mal-dövlət toplamağı pisləyirdi. O deyirdi ki, var-dövlət elə dünyada da qalacaqdır və onun axirət dünyasına köçəcək yiyələrinə heç bir köməyi dəyməyəcəkdir. Şeyxin özü çox yoxsul həyat keçirirdi. Nəqşbəndi cərəyanım yayanlar Mərkəzi Asiyanın müxtəlif ölkələrində fəaliyyət göstərirdilər. Mövzumuzdan kənar olsa da, qeyd etməliyik ki, bu cərəyan orta əsrlərdə Azərbaycana da yayılmışdı.

XVI-XVII əsrlərdə qazaxlarda da islam dini geniş tə'sir dairəsinə malik deyildi. Biz tə'sir dairəsi dedikdə, islam dininin tələb etdiyi qaydaları (namaz, oruc və s.) nəzərdə tuturuq. Qırğızlarda olduğu kimi, qazaxlar da özlərini müsəlman sayırdılar, lakin şəriətin tələblərinə əməl edə bilmirdilər, çünki məscidlər, mədrəsələr az idi, həm də maldarlıq həyat tərzi şəriətin tələblərinə əməl etməyi çətinləşdirirdi.

Mərkəzi Asiyada islamın əsas dayaq nöqtələri Xarəzm və Buxara idi. Məhz bu şəhərlərdən olan şeyxlər qazaxlarda islamın bərqərar olması üçün fəaliyyət göstərirdilər. Ona görə də, onlar qazaxlarda islam dinindən əvvəlki ibtidai dinlərin ayinlərini icra edirdilər. Bu ayinlər Tenqriyə - Göy allahına

sitayişlə əlaqədar idi. Ona görə də islam dini yayıldıqda ərəblərdəki "allah" ilə türklərdəki "Tanrı" anlayışları bir növ birləşdirilmişdi. Bu, Tenqrinin vahid, ulu allah sayılması ilə əlaqədar idi (bunu azərbaycanlılarda bə'zən "Allah" əvəzinə "Tanrı" sözünün işlədilməsində görmək olar). Deməli, qazaxlarda islam Tanrıya inamla birləşdirilirdi.

Qazaxlarda XV-XVI əsrlərdə əcdada sitayiş çox güclü idi. Onlar əcdadların təsvirlərinə - bütlərə sitayiş edirdilər. Belə bütlər daşdan yonulurdu. Əcdadların şərəfinə müxtəlif mərasimlər təşkil edirdilər. Onlarda Su-ana və Yer-ana ilahələri də vardı. İslam dini bu qədim ayinlərə və mərasimlərə qarşı ciddi mübarizə aparırdı.

Qazaxların həyatında bayramlar mühüm yer tutur. Onlarda yeni il Navruz adlanırdı. Bu bayram günlərində el şənlikləri keçirilirdi.

İslam dini qazaxların şəhərlərdə yaşayan hissəsi içərisində hakim din idi. Lakin maldarlıq həyat tərzi islam dininin ayinlərini yerinə yetirməyə imkan vermirdi. Müvəqqəti yaşayış məntəqələrində - qışlaqlarda və yaylaqlarda məscidlər yox idi. Buna uyğun olaraq təhsilli din xadimləri çox az idi. Mədrəsələr ancaq şəhərlərdə yerləşirdi. Ona görə də, qazaxlarda islamaqədərki dinlərin qalıqları güclü idi. Göy allahı Tenqri (Tanrı) vahid allah atributlarına malik idi. Qazaxlarda əcdada sitayiş güclü idi. Belə ki, onlar ulu əcdadları üçün bütlər hazırlayır və ona səcdə edirdilər. Onlarda Yer Ana və Su-Ana Allahlarına sitayişin qalıqları da vardı. Ot-Ana (Od-Ana) sitayişi də geniş yayılmışdı. Od müqəddəs sayılırdı. Atəşpərəstlik qazaxlarda ən'ənəvi adət idi. Odun alov dilimi "alas" adlanırdı. Alas müqəddəs sayılırdı, onu söymək, üstünə su tökmək olmazdı. Qazaxlar qışlaqdan yaylağa köçdükdə iki tonqal qalayır və həm ev heyvanlarmı, həm də ailə üzvlərini onların arasından keçirirdilər (azərbaycanlılarda Novruz bayramı axşamı eyni ilə bu adət vardır).

Orta əsrlərdə qazaxların gündəlik həyatlarında kosmoqonik görüşlər mühüm yer tuturdu. Köçəri həyat tərzi gecələr



ay və ulduzlar vasitəsilə dəqiq istiqaməti müəyyənləşdirməyi tələb edirdi. Ona görə də, XIV-XVII əsrlərdə qazaxlarda empirik meterologiya ilə məşğul olan xüsusi adamlar vardı. Belə adam esepçi adlanırdı. Esepçilik atadan oğula keçən peşə idi. Onlar xalq təqviminin yaradılmasında mühüm rol oynayırdılar. Məsələn, esepçilər müəyyən etmişdilər ki, əgər iyul ayının ortasında bərk isti keçsə, növbəti il yanvarın ortasında bərk şaxta, fevralın ortalarında isə mülayim hava olacaq. Qazaxların əqidələrinə görə quşlar ulduzlar vasitəsilə cəhətləri tə'yin edirlər.

Qazaxlar mahir zərgərlər idilər. Onların içərisində metalın müxtəlif növlərindən bəzək şeyləri düzəldən mahir ustalar vardı. Gön və dəri mə'mulatı maldarların məişətində mühüm yer tuturdu. Bu mə'mulatı işləmək, ondan müxtəlif paltar və ayaqqabı, baş örtüyü düzəltmək peşələri geniş yayılmışdı.

Qazaxıstan ərazisində abidələr əsasən XVI-XVII əsrlərə aiddir. Əvvəlki əsrlərə aid abidələrin əksəriyyəti arasıkəsilməz müharibələr zamanı dağıdılmışdı. Bu əsrlərin me'marlıq abidələri əsasən Talas vadisində, Sırdərya hövzəsində və Karatauda qalmışdır. XVI əsrə aid me'marlıq abidələrinin ən görkəmli nümunələri Sıqnak, Cənd, Savran və Otrar şəhərlərindədir. Məsələn, Savranda tikilmiş qüllənin hündürlüyü 16 metrdir. Sıqnak şəhərində Sınak-Ata me'marlıq kompleksi gözəlliyi və möhtəşəmliyi ilə indi də tamaşaçını heyran edir.

Sırdəryanın aşağı axarında Karmançi-Ata və Saraman-Ata movzoleyləri orta əsrlərdə qazaxlar içərisində həm də ziyarətgahlar idi. Sarayçi və Ürgəncarası karvan yolu üstündə orijinal me'marlıq üslubunda Uşkan, Şuruk, Seysən-Ata abidələri yerləşir.

Qazaxların məişətində xalq musiqisi geniş yer tuturdu. Əsas musiqi aləti dombra (azərbaycanlılarda və türkmənlərdə tambur) idi ki, bu da saza oxşar iki simli musiqi aləti idi. Simlər qoyunun bağırsağından düzəldilirdi. At tükündən isə bu simləri səsləndirmək üçün xüsusi alət düzəldilirdi. Bu bir növ indiki kamançanın əcdadı idi. Digər alət qopuz idi. Bu musiqi aləti bir növ saza oxşayırdı.

*Elm.* Qazaxlarda yazı gec təşəkkül tapmışdır. Orta əsrlərdə onların savadlı adamları əsasən ərəb əlifbasından istifadə edirdilər. Məktəb və mədrəsələr XV əsrdən sonra yaradılmağa başlanmışdı. Lakin yalnız varlıların - bayların uşaqları oxumaq imkanına malik idilər. Odur ki, qazax dilində yazılı abidələr də XVI əsrdən sonraya aiddir. Bu əsrə aid ən böyük tarixi əsər "Jamiğ ət-tavarix" ("Tarixlərin, yaxud salnamələrin cəmi") adlanır. Bu mənbə qazax tayfalarının XV-XVI əsrlərdəki tarixi haqqındadır.

Bu dövrdə qazax dilində yazılmış digər əsər "Çingiznamə" adlanır. Qazaxların tarixinə və mədəniyyətinə aid mə'lumatlar isə əsas e'tibarilə "Baburnamə" (XVI əsr), "Teymurnamə" (XVI əsr) və Əbülqazi xan Xivəlinin "Şəcərəyi türki" və b. əsərlərindədir.

Yuxarıda deyildiyi kimi, qazaxlar və qırğızlar erkən orta əsrlərdə hələ ayrı-ayrı etnoslar deyildilər. Onlarda bu proses X-XI əsrlərdə başlamış və XV-XVI əsrlərdə başa çatmışdır. Ona görə də qazaxların və qırğızların mədəniyyəti demək olar, eynidir.

Mərkəzi Asiya türk xalqlarınm XV-XVII əsrlərdə mədəni həyatında Mavərənnəhr mühüm yer tutur. Göstərilən əsrlər feodalizm quruluşunun formalaşması dövrüdür. Ona görə elm, incəsənət və təhsil əsas e'tibarilə feodal zümrəsinə aid idi. Özbəkistan ərazisində islam dini qazaxlara nisbətən daha geniş tə'sir dairəsinə malik idi.

XIV əsrdə Uluqbəyin indiki Özbəkistan ərazisində Səmərqənddə yerləşən abservatoriyasının o zamanki Şərq aləmində analogiyası yox idi. Əli Quşçu adlı astronom isə bu abservatoriyada astronomik müşahidələr aparmışdır. Buxara şəhəri Mərkəzi Asiyada İslam mədəniyyətinin mərkəzi idi. Mövlana İsamuddin İbrahim, Cəlaləddin Davani, Mollacan Şirazi və b. din xadimləri orada fəaliyyət göstərirdilər. Bu əsrlərdə tarix elmi də inkişaf etmişdi. XVI əsrin əvvəllərində Şeybani xanın hakimiyyət uğrunda mübarizəsi və onun hakimiyyətə gəlməsi Məhəmməd Salehin "Şeybannamə" adlı tarixi əsərinin yaranmasına səbəb oldu.



Özbək dilində ədəbiyyat XIV əsrdən yaranmağa başlamış və Əlişir Nəvainin yaradıcılığında yüksək mərhələyə çatmışdır. Əlişir Nəvai (1441-1501) Heratda (indiki Əfqanıstanda) və Məşhəddə oxumuşdur. O, Nizami Gəncəvinin "Xəmsə"sinin tə'siri altında "Fərhad və Şirin", "Yeddi gözəl", "Leyli və Məcnun", "İsgəndərnamə" və b. poemalarını yazmışdır.

Özbəkistan ərazisində XIV-XVII əsrlərdə Buxarada, Səmərqənddə və Xarəzmdə çoxlu miqdarda me'marlıq abidələri tikilmişdir ki, onların da bə'ziləri indiyədək qalmışdır.

XIII-XVIII əsrlərdə Türkmənistan ərazisində mədəniyyətin bütün sahələri üzrə yüksəliş müşahidə edilirdi. Bu, Türkmənistanın İran və Ön Asiya ilə bilavasitə əlaqələri ilə bağlıdır. Digər tərəfdən, Səlcuqlar dövlətinin yaranması və Türkmənistanın bu dövlətə qatılması ölkədə islam mədəniyyətinin inkişafına səbəb olmuşdu. Hələ XI-XII əsrlərdə Türkmənistan ərazisində Mərv və Nisa şəhərləri mədəniyyət mərkəzləri kimi təşəkkül tapmışdı. Tarixçi Əbu Səid əs- Səmani (1113-1167) Mərvdən idi. Onun 20 cildlik tarixi əsəri vardır. Nisadan çıxmış Məhəmməd ibn Əhməd ən-Nəsəvi Xarəzmşah Sultan Məhəmmədin oğlu Cəlaləddin Məngburnunun ("burnu xallı"nın, qədim türk dillərində məng "xal" deməkdir) tarixini yazmışdır (Qeyd edilməlidir ki, Cənubi Qafqaz və Azərbaycan haqqında bir sıra qiymətli mə'lumatlar vermiş bu müəllifin ərəbcə əsərini mərhum akademik Ziya Bünyadov ruscaya tərcümə edərək Bakıda çap etdirmişdir).

Monqollar dövründə Türkmənistan ərazisində şəhərlər dağıdılmışdı. Lakin XIII əsrdə Hülakülər dövlətinin yaranması ilə Xorasanda yeni me'marlıq abidələri yaranır, dağıdılmış şəhərlər bərpa edilirdi. Mərvdə XIV əsrdə tikilmiş mavzoleylər həndəsi naxışları ilə şöhrət tapmışdı. İndi bu abidə "Göy Günbəz" adlanır.

XIII-XIV əsrlərdə Türkmənistanda xalça toxuculuğu geniş inkişaf etmişdi. Maraqlısı odur ki, xalçalardakı naxışlar me'marlıq abidələrində (məsələn, mavzoleylərdə) də öz əksini tapmışdır. Ümumiyyətlə, qeyd edilməlidir ki, xalçaçılıq

mənşəcə qədim türkmənşəlidir. Qırğız və türkmənlərdə xalça toxuma orta əsrlərdə geniş yayılmışdı. Qədim türk xalqlarında xalçalarda naxışlar əsas e'tibarilə həndəsi idi.

XV əsrdə Türkmənistan ərazisində daş üzərində naxış işləmə sənəti də inkişaf etmişdi. Mərvdə, Nisada, Abiverddə və başqa şəhərlərdə daşişləmə də xüsusilə fərqlənirdi.

Türkmənistanda XVI-XVII əsrlər xalq eposlarının yaranması ilə səciyyələnir. Məhz "Qeroğlu" eposu bu əsrlərdə yaranmışdır. Türkmənlərdə bu eposun 40 qolu mə'lumdur. XVII-XVIII əsrlərdə türkmənlərdə məhəbbət dastanları da yaranmışdı. "Əsli və Kərəm" və "Aşıq Qərib" dastanları bu əsrlərin məhsuludur.

Mərkəzi Asiyanın ən qədim xalqlarından olan uyğurlarda orta əsrlərdə mədəniyyət öz inkişafının yeni mərhələsinə daxil olmuşdu. Tədqiqatçılara görə uyğur xalqı IX əsrdən formalaşmağa başlayır. Hələ X-XI əsrlərdə uyğurların Koço, Kuçar, Karaşar, Varaxşi və b. şəhərlərində bir sıra me'marlıq abidələri yaranmışdı. Koço şəhəri X əsrdən sonra uyğurların paytaxtı idi.

Qədimlərdə olduğu kimi, orta əsrlərdə də uyğurlar içərisində şamanizm dini geniş yer tuturdu. Lakin başqa türk xalqlarında olduğu kimi, uyğurlarda da islam güclü deyildi. Kaşqar vilayətində isə islam dini xalq kütləsi içərisində geniş mövqeyə malik idi. Qaraxanilər dövləti Mərkəzi Asiyada islam dininin yayılmasında mühüm rol oynamışdı. Yalnız Kaşqar vilayətinə yaxın bölgələrdə yaşayan uyğurlarda buddizm dini güclü idi. Orada bu din hələ Uyğur xaqanlığı vaxtında yayılmışdı. Buna uyğun olaraq orta əsrlərdə uyğurların mə'nəvi mədəniyyətinə buddizm dininin tə'siri aydın görünür.

Uyğurlarda orta əsrlərdə Oğuz xaqan haqqında epos yaranmışdı. Dastanda deyilir ki, Oğuz xaqan dünyanın dörd tərəfinə hərbi yürüşlərdə olmuş və bu yürüşlərdə onu boz qurd müşayiət etmişdir.

Mə'lum olduğu kimi uyğurlarda VIII əsrdə run yazısı vardı. Bu əlifba ilə yazılmış abidələr tapılıb oxunmuşdur. Lakin X əsrdən sonra uyğurlarda ərəb əlifbası yayılmağa başlamışdır. Bu da uyğurlarda islam dininin yayılması ilə əlaqədar idi.



Beləliklə, uyğurlar bir neçə dəfə dinlərini dəyişmişlər: şamanizmdən VIII əsrdə maniçiliyə, yüz ildən sonra buddizmə, sonra da islama keçmişlər. Ona görə də XIV-XV əsrlərdən sonra uyğurlarda islam mədəniyyəti maddi və mə'nəvi mədəniyyətdə əsas rola malik idi.

Qazan xanlığının mərkəzi olan Qazan şəhəri Volqa boyunda həm də islam mədəniyyətinin mərkəzi idi. Buna uyğun olaraq ərəbcə yazmaq və dini təhsil ruhani zümrəsi içərisində geniş yer tuturdu. Müxtəlif sənətkarlar (xüsusilə qəbirüstü abidələr düzəldənlər, bənnalar və b.) islam təhsilli adamlar idilər və ərəb əlifbasını yaxşı bildiklərinə görə oxuyub-yazırdılar. İslam dininin tələblərinə uyğun olaraq orta əsrlər tatar mədəniyyətində insan təsvirini (şəklini) vermək qadağan idi. Ona görə də abidələr üzərində əsas e'tibarilə bitki və həndəsi naxışlara üstünlük verilirdi. Tatarıstan ərazisində yerləşən şəhərlərdə çoxlu mədrəsələr vardı. Qazan şəhərində cümə məscidinin nəzdində Seyid Qulşərif adlı alimin başçılıq etdiyi böyük mədrəsə fəaliyyət göstərirdi. Mədrəsələrin nəzdində həm də kitabxanalar yerləşirdi.

XVI əsrdə poeziya sahəsində məşhur ədiblər yetişmişdi. Şair Məhəmmədyar Mahmud oğlu "Tuxfan Mardan" ("Kişilərə tövhə") və "Nuri-Sudur" ("Ürəklərin ziyası") adlı poemalar yazmışdır. Tədqiqatçılara görə bu poemalar 1539-cu ildə yazılmışdır.

Tatarıstan ərazisində XIII-XVII əsrlərə aid me'marlıq abidələri qalmamışdır. Əvvələn, bu abidələr Qazan xanlığının işğalı vaxtı Rusiya tərəfindən dağıdılmışdı, ikincisi, o vaxtlar evlər və binalar çox hallarda ağacdan tikilirdi ki, bu da çox qalmırdı.

Tatarlarda musiqi və folklor geniş yayılmışdı. Qopuz əsas musiqi aləti idi. Xalq içərisindən çıxmış xanəndələr dastanları bu alət vasitəsilə çalıb, oxuyurdular. Lakin Qazan xanlığının Rusiya tərəfindən işğalı ilə əlaqədar olaraq burada rus mədəniyyəti yayılır və yerli musiqi getdikcə sıxışdırılırdı.

Rusiya 1758-ci ildə Qazan şəhərində gimnaziya açmışdı. Lakin oraya əsasən rus mə'murlarının uşaqları qəbul edilirdi.

1744-cü ilə aid mə'lumata görə Tatarıstanda 536 məscid vardı. Məscidlərin nəzdində yerləşən mədrəsələrdə oxuyan uşaqların bə'ziləri sonralar Buxarada ali dini təhsil alırdılar.

Volqaboyunda yaşayan türk xalqlarından biri də çuvaşlar idi. XVIII əsrin axırlarında çuvaşlar monqolların, XV əsrin ortaları, yə'ni 1437-ci ildə Qazan xanlığının tabeliyinə düşmüşdülər. Qazan xanlığı 1552-ci ildə Rusiya tərəfindən işğal edildikdən sonra çuvaşlar içərisində xristian dini yayılmağa başlanmışdı. Rus kilsəsi əhali içərisində zorla xristianlaşdırma, çuvaşların yaşadıqları ərazilərdə isə ruslar yerləşdirilməklə, həm də ruslaşdırma siyasəti aparırdılar. XVII əsrdə və XVIII əsrin əvvəllərində çuvaşlar artıq tamamilə xristianlaşdırılmışdılar. Bununla əlaqədar olaraq çuvaşlarda yerli türkmənşəli şəxs adları xristian mənşəli adlarla əvəz olundu. Çuvaşlarda orta əsrlərdə milli elm və mədəniyyət başqa türk xalqlarına nisbətən zəif inkişaf etmişdi. Lakin onların zəngin folkloru vardı. Çuvaşların qədim tarixini əks etdirən çoxlu miqdarda eposlar və qəhrəmanlıq dastanları yalnız Sovet hakimiyyəti illərində iki cilddə "Çuvaş tarixi rəvayətləri" adı altında çap olunmuşdur.

Cənubi Sibirdə yaşayan bir sıra türk xalqlarının orta əsrlərdə mədəniyyəti haqqında yazılı mənbələr yoxdur. IX-XII əsrlərdə Cənubi Sibir xalqlarından olan xakaslarda run yazı vardı. Hazırda türkologiyada "Yenisey run yazıları" dedikdə əsas e'tibarilə xakas dilində yazılmış 150-yə qədər abidə nəzərdə tutulur. XI əsrdə xakaslarda şair Xaseto Abqaden adlı şair yaşamışdır. O, Tibetdə təhsil almışdı. Ərəb coğrafiyaçısı Əbu Dulaf yazır ki, qırğızlar və xakaslar qamışdan düzəldilmiş qələm ilə yazı yazırlar. Yenisey run əlifbası monqollara qədər davam etmişdir. Tədqiqatçılara görə Şərqi Qazaxıstan, Altay, Tuva, Mərkəzi Asiya və Xakas Minusin çökəkliyinin əhalisi 500 ilə qədər bu əlifba ilə yazmışlar.

Orta əsrlərdə xakaslarda Ordu-Balık adlı şəhərdə çiy kərpicdən tikilmiş çoxlu binaların olması haqqında Çin mənbələrində mə'lumatlar vardır. Arxeoloji qazıntılar nəticəsində müəyyən edilmişdir ki, bu şəhər 50 hektar sahəni əhatə edirdi.



Orta əsrlərdə xakaslarda şamanizm dini görüşləri vardı. Maraqlıdır ki, hələ erkən orta əsrlərdə xakaslarda Od mə'bədləri olmuşdur. Arxeoloji qazıntılar nəticəsində belə mə'bədin qalıqları tapılmışdır.

XIII əsrdən sonra xakaslarda monqol və qırğız mədəniyyətlərinin ünsürləri yayılmağa başlamış və ona görə də, xakasların mə'nəvi mədəniyyətləri qırğızların mə'nəvi mədəniyyəti ilə qarışmışdır.

Son tədqiqatlar göstərmişdir ki, Cənubi Sibir türk xalqlarının mə'nəvi mədəniyyətində qərbdən indiki İraq və İran ərazisindən Mərkəzi Asiya vasitəsilə gəlmiş maniçilik dini görüşləri mühüm yer tutmuşdur.

Türkmənlərdə Əndəlib Məhəmməd Qərib (1710-cu ildə doğulmuşdur, öldüyü il mə'lum deyil) "Oğuznamə" adlı əsərin müəllifidir. Bu əsərdə müəllif qədim oğuzların həyatından bəhs edən rəvayətlər toplamışdır. O, həm də "Leyli və Məcnun" adlı dastan da yazmışdır. Aydındır ki, müəllif bu mövzunu Nizami Gəncəvinin "Leyli və Məcnun" dastanından götürmüşdür.

XVIII əsrdə türkmən ədəbiyyatının görkəmli nümayəndəsi Azadi oğlu Məhtimquludur. O, XVIII əsrin 30-cu illərində doğulmuş, həmin əsrin 80-ci illərində ölmüşdür. Onun əsərlərinin ana xəttini pərakəndə yaşayan türkmən tayfalarının birləşməsi arzusu təşkil edirdi. Müəllif mülkədarların yoxsul kütləni istismar etməsinə qarşı çıxır, sıravi adamları humanizm və insanpərvərlik ideyalarının əsas daşıyıcıları hesab edirdi.

XVII əsrdə Mərkəzi Asiyada tarix elmi Xivəli Əbülqazi xanın məşhur "Türkmənlərin şəcərəsi" adlı əsəri ilə zənginləşir. Bu əsərdə oğuzların ən qədim zamanlardan tarixi orta əsrlərə qədər davam etdirilir. Əsərin əhəmiyyətli cəhəti odur ki, orada 56 türk tayfasının adı çəkilir, onların hər biri haqqında qısa mə'lumat verilir.

Sovet hakimiyyəti illərində türk xalqlarının tarixlərinə həsr olunmuş ümumiləşdirilmiş əsərlərdə bu barədə daha ətraflı mə'lumat verildiyinə görə biz orta əsrlərdə türk xalqları mədəniyyətinin çox qısa xülasəsi ilə kifayətlənməli oluruq.

---

[1] *Qeyd etmək lazımdır ki, bu şorlar hunların içərisində Cənubi Qafqaza da gəlmişdilər. VII əsrə aid ermənidilli mənbədə Ermənistan ərazisində Şorapa "Şor vadisi (dərəsi)" mahal adı vardır. İrəvan əyalətində XVIII -XIX əsrlərdə bir neçə Şollu kənd adları da məhz Şorlu adının fonetik formasıdır - Red.*



## NƏTİCƏ

Ən qədim dövrlərdən orta əsrlərin sonlarına qədər müasir türk xalqlarının böyük bir hissəsinin tarixi haqqında bu dərslikdə verdiyimiz mə'lumat, şübhəsiz, yalnız xülasə kimi səciyyələndirilə bilər. Bu, dərsliyin qarşısına qoyulmuş məqsədlə şərtlənmişdir. Məqsəd isə göstərilən xronoloji çərçivə daxilində türk xalqlarının tarixi barədə tələbələrə və geniş oxucu kütləsinə ümumi mə'lumat verməkdən ibarətdir. Hər bir türk xalqının tarixi haqqında müfəssəl mə'lumat həmin xalqın tarixinə dair ümumiləşdirilmiş əsərlərdə, hər bir xalqın ərazisi daxilində tədris olunan dərsliklərdə və külli miqdarda arxeoloji və tarixi əsərlərdə əksini tapmışdır. Şübhəsiz, onların hamısını bu dərslikdə əhatə etmək imkan xaricindədir.

Dərslikdən aydın olur ki, türk xalqlarının ulu əcdadlarının bəşər tarixində (xüsusilə Avrasiya tarixində) və mədəniyyətində obyektiv rolu və yeri bütünlükdə və tam halda müəyyən edilməmiş vəziyyətdə qalmaqdadır. Bu onunla bağlıdır ki, Avrasiyada yaşamış qədim türk tayfalarının tarixi və mədəniyyəti bə'zi hallarda irandilli xalqlara mənsub edilmişdir. Xüsusilə, Avrasiyada e.ə.I minillikdə qərbdə Dunay çayından başlamış şərqdə Şərqi Sibirə qədər nəhəng bir ərazidə yaranmış və elmdə "Skif-Sibir mədəniyyəti" adlanmış mədəniyyətin kökləri e'tibarilə İran (yaxud Hind-İran) mənşəli sayılması açıq-aşkar ədalətsizlikdir.

E.ə.I minillik daxilində Cənub-Şərqi Avropada kimmerlərin, skiflərin, sarmatların, Mərkəzi Asiya və Qazaxıstan ərazilərində sakların və massaqetlərin, Aral dənizi ilə Ural çayı arasında yaşamış alanların irandillilər sayılması göstərilən regionlarda yaşayan türk xalqlarının etnogenezinin, həmin ərazilərdə aşkarlanmış arxeoloji mədəniyyətlərin demək olar hamısının iranmənşəli sayılması isə həmin mədəniyyətlərin etnik atribusiyası problemlərinin həlli yolunda çətinlik yaratmışdır.

Bu obyektiv olmayan baxışların ucbatından bir sıra müasir türk xalqları (türkmənlər, özbəklər, qazaxlar, başqırdlar, ka-

raçaylar, balkarlar və b.) erkən orta əsrlərin sonlarında türkləşmiş irandillilər sayılmaqdadır. Şübhə etmədən demək olar ki, bu baxışların gələcəkdə obyektiv olmadığı üzə çıxarılacaqdır.

Dərslikdən görünür ki, türk xalqlarının ulu əcdadları e.ə.II minillikdən başlayaraq köçəri və yarımköçəri maldarlığa keçmişlər. Bu isə qədim türk etnoslarının şərqdən qərbə böyük köçlərinə, köçlər isə öz növbəsində aramsız müharibələrə səbəb olmuşdur. Ona görə də, müasir türk xalqları əcdadlarının çox zəngin hərb tarixi vardır. Nəzərə almaq lazımdır ki, Böyük sərkərdələr sayılan Mete (e.ə.III əsr), Attila (V əsr), İstəmi (VI əsr), Çingiz xan (XIII əsr) və Teymur (XIV əsr) geniş əraziləri əhatə edən imperiyalar yaratmışlar.

Lakin qədim türk tayfalarının yazısı yox idi. Ona görə də, onların tarixinin e.ə.I minilliyin II yarısına qədərki hissəsi barədə mə'lumatlar pərakəndə, çox hallarda ötəridir. Be'zi qədim türk etnoslarının və mədəniyyətlərinin iranmənşəli sayılması da elə bununla əlaqədardır.

Bu dərslik, yuxarıda deyildiyi kimi, türk xalqlarının qədim dövrdə və orta əsrlərdə tarixi haqqında ilk təşəbbüsdür. Bizə belə gəlir ki, artıq türk xalqlarının tarixi kurslarını tədris edən professor-müəllimlərimizin bu sahədə tədqiqatlar aparan elmi işçilərlə birlikdə türk xalqlarının tam tarixini əhatə edən dərsliyi yazmaları vaxtı çatmışdır. Buna ali məktəb tələbələri ilə yanaşı, geniş oxucu kütləsinin də ehtiyacı vardır.



# MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

## Mənbələr


- *Агафий. О царствовании Юстиниана. Пер.М.В.Левченко. М.-Л., 1953*
- *Аммиан Марцеллин. История. Пер.Ю.А.Кулаковского. 1908*
- *Бартольд В.В. Рукопись Туманского. Л., 1930*
- *Бичурин Н.Я. (Иакинф). Собрание сведений о народах,обитавших в Средней Азии в древние времена. Тт.I-II. М.-Л., 1950, т.III, М.-Л., 1953*
- *Византийские источники. Пер.Г.Д.Дестуниса. СПб., 1860*
- *Гияс ад-Дин Али. Дневник похода Тимура в Индию Издание Л.А.Зимина. СПб., 1915*
- *Захираддин Мухаммед Бабур. Бабурнаме. Ташкент, 1948*
- *Əbdurrəşid əl-Bakuvi. "Abidələr"in xülasəsi və qüdrətli hökmdarın mö'cüzələri. Ərəbcədən tərcüməsi, müqəddimə və şərhlər akademik Ziya Bünyadovundur. Bakı, 1992*
- *Казахско-русские отношения в XVI-XVIII веках. Алма-Ата, 1961*
- *Констанстин Багрянородный. Об управлении империей. М., 1990*
- *Латышев В.В. Известия древних писателей греческих и латинских о Скифии и Кавказе. Т.I. Греческие писатели. Вып.1-3. Т.II. Латинские писатели. Вып.1-2, СПб., 1893-1906*
- *Летопись Византийца Феофана. Пер.В.Н.Оболенского. М., 1884*

- *Марко Поло. Книга Марко Поло. Пер.И.П.Минаева. М., 1955*
- *Материалы по истории Узбекской, Таджикской и Туркменской ССР. T.I. Л., 1932*
- *Материалы по истории туркмен и Туркмении. Тт.I-II. М.-Л., 1939*
- *Менандр. Сборник "Византийские историки". Пер. Г.Д.Дестуниса. СПб., 1860*
- *Полное собрание русских летописей. T.XIII. СПб., 1904*
- *Прокопий. История войн римлян с персами. Кн.1. Пер.Г.Д.Дестуниса. СПб., 1876*
- *Прокопий. Война с готами. Пер.С.П.Кондратьева. М., 1950*
- *Путешествие Ибн Фадлана на Волгу. М.-Л., 1939*
- *Родословная туркмен Абулгази хана Хивинского. М., 1957*
- *Феофилакт Симокатта. История. М., 1957*


## Ədəbiyyat

### Ümumiləşdirici əsərlər


- *Археология СССР. Степи Евразии в эпоху средневековья. М., 1981*
- *Археология СССР. Степи европейской части СССР в скифо-сарматское время. М., 1989*
- *Древности Евразии в скифо-сарматское время. М., 1984*
- *История Казахской ССР. T.I. Алма-Ата, 1957*
- *История Киргизской ССР. T.I. Фрунзе, 1968*





- *История Татарской АССР. T.I. Казань, 1955*
- *История Тувы. T.I. М., 1964*
- *История Туркменской ССР. T.I. Ашхабад, 1955*
- *История Сибири. T.I. Л., 1968*
- *История народов Восточной и Центральной Азии. М., 1986*
- *История Узбекской ССР. T.I. Ташкент, 1955*
- *Мезолит СССР. М., 1989*
- *Народы Сибири. М.-Л., 1960*
- *Народы Средней Азии и Казахстана.Тт.I-II. М., 1962-1963*
- *Народы Поволжья и Приуралья. М., 1985*
- *Палеолит СССР. М., 1984*


## Tədqiqatlar

### Azərbaycan dilində


- *Bəhaəddin Ögəl. Böyük Hun imperiyası. I-II cc. Bakı, 1992*
- *Budaqov B.Ə. Türk uluslarının yer yaddaşı. Bakı, 1994*
- *Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998*
- *Vəli Həbiboğlu. Türk dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri. Birinci kitab. Bakı, 1995*
- *Vəli Həbiboğlu. Qədim türklərin dünyagörüşü. Bakı, 1996*
- *Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkül tarixindən. Bakı, 1994*
- *Qeybullayev Q.Ə. Azərbaycanlıların etnik tarixinə dair. Bakı, 1994*
- *Qüdrətov D. Türk xalqlarının tarixi. Bakı, 2000.*

- Əlisa Şükürlü. Qədim türk yazılı abidələrinin dili. Bakı, 1993
- Zeynalov F. Türkologiyanın əsasları. Bakı, 1981
- Yaqub Mahmudlu, Cu Honq Conq, Nuşirəvan Məhərrəmli, Kərəm Məmmədli. Altay xalqları. Bakı, 1996
- Ziya Göyalp. Türkçülüyün əsasları. Bakı, 1991
- Mahmudov F.R. Əlikömək təpəsində qazıntıların ilkin yekunları. Daş dövrü və Azərbaycanda eneolit. Bakı, 1984
- Mahmudov F.R. Əlikömək təpəsinin boyalı qabları. Qədim və Orta əsr Şərqi və Aralıq dənizi hövzəsi. Bakı, 1989
- Məmmədov A. Oğuz səltənəti. Bakı, 1992
- Məmmədov İ.M. Hunlar. Bakı, 1993
- Muxtarova Ə.İ. Uyğur xaqanlığı // Tarix və onun öyrənilməsi problemləri. IV buraxılış. Bakı, 1995
- Muxtarova Ə.İ. Peçeneq türk tayfasının tarixinə dair // Tarix və onun öyrənilməsi problemləri. IV buraxılış. Bakı, 1995
- Muxtarova Ə.İ. Qədim türk etnosu - avarlar haqqında // Tarix və onun problemləri, 1997, № 1
- Muxtarova Ə.İ. Kanqlar və Kanq dövlətinin tarixinə dair // Tarix və onun problemləri, 1998, № 1
- Muxtarova Ə.İ. Türk xalqlarının tarixi (qədim və orta əsrlər). Bakı, 2005.
- Muxtarova Ə.İ. Türk xalqlarının dövlətçilik tarixi. Bakı, 2002.
- Oğuznamə. Bakı, 1992
- Rəcəbov Ə., Məmmədov Ə. Orxon-Yenisey abidələri. Bakı, 1993
- Faruk Sümer. Oğuzlar. Bakı, 1992



- Füzuli Bayat. Oğuz Elik ən'ənəsi və "Oğuz Kağan" dastanı. Bakı, 1993
- Cavad Hey'ət. Türklərin tarix və mədəniyyətinə bir baxış. Bakı, 1993

### Türk dilində

- Ahmet Zeki Validi Togan. Ümumi Türk tarihine giriş. I c. Istanbul, 1946
- Bastav Şerif. Sabir türkleri. Türk tarihi qurumu. Belleten, № 5, 1941
- Enver Könükçü. Kuşan və akhunlar tarihi. Ankara, 1973
- Kemal Anadol. Orta Asya türk devletleri tarihi. İstanbul, 1996
- İslam qeoqrafiyaçılarına göre türkler ve türk ülkeleri. Hazırlaryanı Dr.Ramazan Şeşen. Ankara, 1985
- Faruk Sümer. Karaqoyunlular. I-II c. Ankara, 1967
- Yinanc M. Selcuqler devri. İstanbul, 1941
- Yusif Yusifov. Çini yazılı kaynaklarda eski türklerin izleri. XI Türk tarih Konqresinden ayrıbasım. Ankara, 1994

### Avropa dillərində

- Altheim F. Gescihte der Hunnen. Bd.I-IV. Berlin, 1959-1962
- Altheim F. Attila und de Hunnen. Baden, 1951
- Cordon C.D. The Age of Attila. 1960
- Chirsmann R. Les Chionites-Heptalites. Le Caere, 1948
- Deguignes J. Historie generale des Huns, des Turcs, des Mongols et des autres Tatares occidentaux. Vol. I-IV. Paris, 1756-1758.

- *Maenchen-Helfen O.S. The world of the Huns. Los-Angeles, 1973*
- *Marquart J. Die Chronoloqie der Altturkiscaen in schriften. Leipzig, 1898*
- *Marquart J. Osteuropaische und Ostasiatische Streifzüge. Leipzig, 1903*
- *Hamilton J.R. Toguz-Oguz et On Yigur. "Journal Asiatigue",1962, № 250*

### Rus dilində

- *Абаев В.И. Скифо-европейские изоглоссы. М., 1965*
- *Абрамзон С.М. Киргизы и их этногенетические и историко-культурные связи. М., 1971*
- *Агаджанов С.Г. Очерк истории огузов и туркмен IX-XIII вв. Ашгабад, 1969*
- *Акишев К.А., Кушаев Г.З. Древняя культура саков и усуней долины реки Или. Алма-Ата, 1962*
- *Алексеев Н.А. Ранние формы религии тюркоязычных народов Сибири. Новосибирск, 1980*
- *Антонова Е.В. Очерки культуры древних землевладельцев Передней и Средней Азии. М., 1964*
- *Анохин А.В. Материалы по шаманству алтайцев // Сборник Музея антропологии и этнографии, 1924, т.4, выпуск 2*
- *Аристов Н.А. Заметки об этническом составе тюркских племён и народностей и сведения об их численности. "Живая старина". Вып.III. СПб., 1896*
- *Артамонов М.И. Очерк древнейшей истории хазар. Л., 1937*



- *Артамонов М.И. К вопросу о происхождение скифов // Вестник древней истории, 1950, № 2*
- *Артамонов М.И. История Хазар. Л., 1962*
- *Артамонов М.И. Скифо-Сибирское искусство звериного стиля. Сб.: "Проблемы скифской археологии". М., 1971*
- *Артамонов М.И. Киммерийцы и скифы. Л., 1974*
- *Асадов Ф.М. Арабские источники о тюрках в раннем средневековье. Баку, 1998*
- *Ахинджанов М.Б. Об этногенезе казахского народа. Алма-Ата, 1957*
- *Ахмедов Б.А. Государство кочевых узбеков. Ташкент, 1961*
- *Ашмарин Н.И. Булгары и чуваши. Казань, 1902*
- *Бартольд В.В. Туркестан в эпоху монгольского нашествия. Соч. Т.I. М., 1963*
- *Бартольд В.В. История культурной жизни Туркестана. Соч. Т.II. Ч.1. М., 1963*
- *Бартольд В.В. Киргизы. Исторический очерк. Соч. Т.II. Ч.1. М., 1963*
- *Бартольд В.В. Очерки истории Семиречья. Соч. Т. II. Ч.1. М., 1963*
- *Бартольд В.В. История Туркестана. Соч. Т.II. Ч.1. М., 1963*
- *Бартольд В.В. К истории арабских завоеваний в Средней Азии. Соч. Т.II. Ч.2. М., 1964*
- *Бартольд В.В. Двенадцать лекций по истории турецких народов Средней Азии. Соч. Т.V. М., 1968*
- *Бартольд В.В. История турецко-монгольских народов. Соч. Т.V. М., 1968*

- *Бартольд В.В. Кимаки. Соч.. T.V. М., 1968*
- *Баскаков Н.А. Тюркские языки. "Языки народов СССР". М., 1966*
- *Баскаков Н.А. Введение в изучение тюркских языков. М., 1969*
- *Баскаков Н.А. Тюркская лексика в "Слове о полку Игореве". М., 1985*
- *Беленицкий А.М. К истории феодального землевладения в Средней Азии и Ираке в Тимуридовую эпоху. Р., 1948*
- *Березин Н. Булгары на Волге. Казань, 1853*
- *Бернштам А.Н. Социально-экономический строй Орхоно-Енисейских тюрок VI-VIII веков. Л., 1946*
- *Бернштам А.И. Очерк истории гуннов. Л., 1951*
- *Бернштам А.Н. Историко-археологические очерки Центрального Тянь-Шаня и Памиро-Алтая //Материалы Исследования по Археологии, 1952, № 28*
- *Бернштам А.Н., Заднепровский Ю.А. Западно-тюркский каганат. "Очерки истории СССР (III-IX в в.)". М., 1958*
- *Боровкова Л.А. Запад Центральной Азии во II в. до н.э.-V в.н.э. М., 1962*
- *Буниятов З.М. Государство Хорезмшахов-Ануштегинов. М., 1986*
- *Вайнштейн С.И. Древний Пор-Бажин // Советская этнография, 1964, № 6*
- *Велиханлы Н.М. Ибн Хордадбех. Баку, 1984*
- *Викторова Л.Л. Монголы. Происхождение народа и истоки культуры. М., 1980*



- *Владимирцев Б.Е. Общественный строй монголов. Л., 1934*
- *Вопросы скифо-сарматской археологии. М.-Л., 1952*
- *Воробьёва Н.И. Казанские татары. Казань, 1953*
- *Восточный Туркестан в древности и раннем средневековье. М., 1982*
- *Восточный Туркестан и Средняя Азия. История. Культура. Связи. М., 1984*
- *Восточный Туркестан и Средняя Азия в системе культур древнего и средневекового Востока. Под ред.Б.А.Литвинского. М., 1986*
- *Гадло А.В. Этническая история Северного Кавказа за IV-X вв. Л., 1979*
- *Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Баку, 1991*
- *Голубовский П. Печенеги, торки и половцы до нашествия татар. Киев, 1884*
- *Грантовский Э.А. О восточноиранских племенах Кушанского ареала. "Центральная Азия в Кушанскую эпоху". Т.II. М., 1975*
- *Грач А.Д. Древние кочевники в центре Азии. М., 1960*
- *Греков Б.Д., Якубовский А.Р. Золотая Орда и её падение. М.-Л., 1950*
- *Граков Б.Н. Скифы. М., 1971*
- *Григорьев В.В. Поход Александра Великого в Западный Туркестан. СПб., 1881*
- *Гумилёв Л.Н. Эфталиты и их соседы. М., 1960*
- *Гумилёв Л.Н. Древние тюрки. М., 1967*

- *Гумилёв Л.Н. Хунны. Средняя Азия в древние времена. М., 1968*
- *Гумилёв Л.Н. Тысячелетия вокруг Каспия. Баку, 1991*
- *Грум-Гржимайло Г.Е. Западная Монголия и Урянхайский край. Т.I. СПб., 1914*
- *Грязнов М.П. Первый Пазырыкский курган. Л.,1950*
- *Грязнов М.П. Аржан - царский курган раннескифского времени. Л., 1980*
- *Джафаров Ю. Гунны и Азербайджан. Баку, 1993*
- *Дьяконов М.М., Мандельштам А.М. Средняя Азия в III-V вв. "Очерки истории СССР (III-IX)". М., 1958*
- *Думан Л.И. Расселение некитайских племён во внутренних районах Китая и их социальное устройство в III-IV вв.н.э. - Китай. История, культура и историография. М., 1977*
- *Евтюхова Л.А. Каменные изваяния Южной Сибири и Монголии // Материалы и исследования по археологии. М., 1952, № 24*
- *Евтюхова Л.А. Южная Сибир в древности. Сб.: "По следам древних культур". М., 1954*
- *Заходер Б. Хорасан и образование сельджуков// Вопросы истории, 1945, № 4-5*
- *Заходер Б.И. Горган и Поволжье в IX-X вв. М., 1962*
- *Катанов Н.Ф. Письма из Сибири и Восточного Казахстана. СПб., 1893*
- *Килуновская М.Е. Интерпретация образа оленя в скифо-сибирском искусстве. Сб.: "Скифо-сибирский мир", Новосибирск, 1987*
- *Киселёв С.В. Древняя история Южной Сибири. М., 1949*



- *Китай в эпоху древности. История и культура Востока Азии. Новосибирск, 1990*
- *Кызласов Л.Р. История Тувы в средние века. М., 1969*
- *Кызласов Л.Р. История Южной Сибири в средние века. М., 1984*
- *Кляшторный С.Г. Древнетюркские памятники как источник по истории древней Средней Азии. М., 1964*
- *Ковалевский А.П. Чуваши и болгары по данным Ахмеда ибн Фадлана. Чебоксары, 1954*
- *Козман Н.Н. Хакасы. Иркутск. 1925*
- *Короглы Х.Г. Огузский героический эпос. М., 1976*
- *Короглы Х.Г. Взаимосвязи эпоса народов Средней Азии, Ирана и Азербайджана. М., 1983*
- *Кочетов А.Н. Буддизм. М., 1968*
- *Крачковский И.Ю. О подготовке свода арабских источников для истории Восточной Европы, Кавказа и Средней Азии. Записки Института Востоковедения АН ССР. Т. I, 1932*
- *Крупнов Е.И. Об этногенезе осетин и других народов Северного Кавказа. "Против вульгаризации марксизма в археологии". М., 1953*
- *Кузеев Р.Г. Этногенез башкирского народа. М., 1974*
- *Кузеев Р.Г. Происхождение башкирского народа. М., 1974*
- *Кузьмина Е.Е. Сюжет борьбы хищника и копытного в искусстве "звериного стиля". Евразийских степей скифской эпохи. Сб.: "Скифо-Сибирский мир". М., 1987*

- *Кучера С. Ранняя история Синьцзяна: неолит - начало века металла. - Восточный Туркестан и Средняя Азия. М., 1984*
- *Кюнер Н.В. Китайские известия о народах Якутии и соседних районов. Л., 1946*
- *Иванов Л.Л. Очерк по истории Средней Азии. М., 1958*
- *Иностранцев К.А. Хунну и Гунны. Л., 1926*
- *Лавров В.А. Градостроительная культура Средней Азии. М., 1950*
- *Литвинский Б.А. Древние кочевники "Крыши мира". М., 1972*
- *Малов С.Е. Памятники древнетюркской письменности. М.-Л., 1951*
- *Малявкин А.Г. Историческая география Центральной Азии. Новосибирск, 1961*
- *Мандельштам А.М. Средняя Азия в VI-VII вв. "Очерки истории СССР (III-IX вв.)". М., 1958*
- *Мандельштам А.М. Происхождение и раняя история кушан в свете археологических данных. "Центральная Азия в Кушанскую эпоху". Т.I. М., 1974*
- *Мандельштам А.М. Памятники кочевников Кушанского времени в Северной Бактрии. Л., 1975*
- *Массон М.Е. Краткий очерк истории изучения Средней Азии в археологическом отношении. Ч.I. Ташкент, 1956*
- *Массон В.М. Средняя Азия и Древний Восток. М.-Л., 1964*
- *Массон В.М. Экономика и социальный строй древних обществ. Л., 1976*
- *Массон В.М. Алтын-Депе. Л., 1981*
- *Массон В.М. Первые цивилизации. Л., 1989*
- *Мерперт Н.Я. Гунны в Восточной Европе. "Очерки истории СССР (III-IX вв.)". М., 1958*
- *Мерперт Н.Я. Древнейшие болгарские племена в Причерноморье. "Очерки истории СССР". М., 1958*
- *Мерперт Н.Я. Кочевые племена в степной полосе Восточной Европы. "Очерки истории СССР". М., 1958*
- *Мунчаев Ш.М., Устинов В.М. История Россия. М, 1998.*
- *Мурад Аджи. Европа. Тюрки и Великая степь. М., 1998.*
- *Неразик Е.Е. Хорезм IV-VIII вв. // Очерки истории СССР (III-IX вв.). М., 1958.*
- *Новгородова Э.А. Древняя Монголия. М., 1989*
- *Окладников А.П. История Якутской АССР. Т.I. М., 1949*
- *Окладников А.П. Восточная Сибирь в VII-IX вв. "Очерки истории СССР (III-IX вв.)". М., 1958*
- *Окладников А.П. Петроглифы Чулутын-Гола (Монголия). М., 1981*
- *Перетякович Г.И. Поволжье в XVII - нач.XVIII вв. Одесса, 1882*
- *Перетякович Г.И. Поволжье в XV-XVI вв. М., 1877*
- *Петрушевский И.П. К истории маздакитов в эпоху господства Ислама // Народы Азии и Африки, 1970, № 5*
- *Плетнёва С.А. Печенеги, торки, половцы в южнорусских степях //Материалы и исследования по археологии, 1958, № 62*

- *Плетнёва С.А. Печенеги. "Очерки истории СССР (III-IX вв.)". М., 1958*
- *Потапов Л.П. Очерк по истории алтайцев. М-Л., 1955*
- *Потапов Л.П. Этнический состав и происхождение алтайцев. Л., 1989*
- *Потанин Г.Н. Очерки Северо-Западной Монголии. СПб., 1881*
- *Пугаченкова Г.А. Искусство Бактрии эпохи Кушан. М., 1979*
- *Радлов В.В. В Сибири. М., 1989*
- *Раевский Д.М. Очерки мифологии скифо-сакских племён. М., 1977*
- *Руденко С.И. Башкиры. М., 1951*
- *Руденко С.И. Горноалтайские находки и скифы. М.-Л., 1952*
- *Руденко С.И. Культура населения Центрального Алтая в скифское время. М.-Л., 1965*
- *Сагалиев А.М. Мифология и верования алтайцев. Новосибирск, 1984*
- *Савинков Д.Г. Народы Южной Сибири в древную эпоху. Л., 1984*
- *Смирнов А.П. Волжские булгары. М., 1951*
- *Смирнов А.П. Скифы. М., 1966*
- *Смирнов К.Ф. Савроматы. М., 1964*
- *Стависский Б.Я. Кушанская Бактрия. Проблемы истории и культуры. М., 1977*
- *Струве В.В. Этюды по истории Северного Приаралья, Кавказа и Средней Азии. М., 1963*
- *Султанов Т.И. Кочевые племена Приаралья в XV-XVII вв. М., 1962*
- *Тахоев Х.Я. Башкирия. М., 1959*
- *Тереножкин А.И. Скифская культура. "Проблемы скифской археологии". М., 1971*
- *Тереножкин А.И. Киммерийцы. Киев, 1976*
- *Тизенгаузен В.Г. Сборник материалов, относящихся к истории Золотой Орды. T.I-II. М.-Л., 1884-1941*
- *Тихонов Д.И. Хозяйственный и общественный строй уйгурского государства X-XIV вв. М.-Л.,1960*
- *Токарев С.А. Общественный строй якутов в XVII-XVIII вв. Якутск, 1945*
- *Толстов С.П. Древний Хорезм. М., 1948.*
- *Толстов С.П. По следам древнехорезмийской цивилизации. Л., 1948*
- *Тревер К.В. Памятники Греко-Бактрийского царства. М.-Л., 1940*
- *Трепавлов В.В. История Ногайской Орды. М., 2002.*
- *Третьяков П.Н. Памятники древнейшей истории чувашского Поволжья. Чебоксары, 1948*
- *Фахруддинов Р.Г. Очерки по истории Волжской Булгарии. М., 1984*
- *Фёдоров-Давыдов Г.А. Кочевники Восточной Европы под властью Золотоордынских ханов. М., 1966*
- *Фёдоров Я.А., Фёдоров Г.Е. Ранние тюрки на Северном Кавказе. М., 1977*
- *Центральная Азия. Новые памятники письменности и искусства. М., 1987*
- *Шаниязов С. К этнической истории узбеков. М., 1971*

- *Шапиров А.П. Историография с древнейших времен до 1917 года. М., 1993.*
- *Шер Я.А. Петроглифы Средней и Центральной Азии. М., 1980*
- *Шеркова Т.Я. Египет и Кушанские царства. М.,1991.*
- *Якубовский А.Ю. Восстание Муканны // Советское востоковедение, V. М., 1948*





Əsməd İmamməmməd qızı Muxtarova Bakı şəhərinin Buzovna qəsəbəsində anadan olub. S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1967-1970-ci illərdə tarix fakültəsinin əyani aspirantı olub. 1971-ci ildən həmin fakültədə işləyir. 1974-cü ildə namizədlik, 1991-ci ildə doktorluq dissertasiyalarını müdafiə edib. 1993-cü ildən Bakı Dövlət Universiteti tarix fakültəsinin professorudur, türk xalqlarının qədim dövr və orta əsrlər tarixini tədris edir. 1999-cu ildən «Türk və Qafqaz xalqları tarixi» kafedrasının müdiri vəzifəsində çalışır.

1997-ci ildən nəşrinə başlanmış və artıq 33 sayı nəşr olunmuş «Tarix və onun problemləri» elmi, nəzəri, metodik jurnalın təsisçisi və baş redaktorudur.

45-dən çox elmi məqalənin, proqram, dərslik və dərs vəsaitinin, 3 monoqrafiyanın müəllifi, bir çox nəşrlərin elmi redaktorudur. «Türk xalqları tarixi (qədim dövr və orta əsrlər)» dərsliyinə görə «Sara xatun» diplomuna layiq görülmüşdür. 2002-ci ildə nəşr olunmuş «Türk xalqlarının dövlətçilik tarixi» adlı dərs vəsaitinin müəllifidir.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının, Təhsil Nazirliyi yanında «Tarix» elmi-metodik şuranın, BDU-nun Böyük Elmi Şurasının üzvüdür.

Əsməd Muxtarova
*(Əsməd İmamməmməd qızı Muxtarova)*

TÜRK XALQLARININ TARİXİ
(qədim dövr və orta əsrlər)
*Ali məktəblər üçün dərslik*

Çapa imzalanmışdır: 27.09.2008
Kağız formatı: 60x90 1/16
H/n həcmi: 28 ç.v.
Sifariş: 338
Sayı: 500

Kitab «ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmışdır.
*Ünvan: Bakı şəh., S.Rəhimov küç., 195/17*
*Tel.: 498-68-25; 418-68-25; faks: 498-08-14;*
*Web: www.adiloglu.az; E-mail: info@ adiloglu.az*

«İlay» MMC-nin mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.
*Ünvan: Bakı şəh., Şərifzadə küçəsi, 202*
*Tel.: 433-00-43*